

HEYDƏR ƏLİYEV

MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

qırxıncı kitab

iyul, 2002 - sentyabr, 2002

AZƏRNƏŞR
BAKI-2012

HEYDƏR ƏLİYEV

çıxışlar • nitqlər
bəyanatlar • müsahibələr
məktublar • məruzələr
müraciətlər • fərmanlar

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

AZƏRNƏŞR
BAKI-2012

BBK 32
Ə–56

Buraxılışına məsul
akademik

RAMİZ MEHDİYEV

ƏLİYEV HEYDƏR
Ə–56 Müstəqilliyimiz əbədidir. B., Azərnəşr, 2012, 512 səh.

Xalqımızın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin çoxcildlik əsərlərinin oxuculara təqdim olunan bu növbəti cildində GUÖAM-ın üzvü olan ölkələrin dövlət başçılarının Yalta zirvə görüşündə nitqi, E.Şevardnadze, L.Kuçma, RF-nın Ukraynadakı səfiri B.Çernomırdin ilə, Ukraynada yaşayan soydaşlarımızla danışıqları ölkəmizə səfər etmiş İtaliya, Lüksemburq, Yaponiya, Türkiyə, ABŞ, Almaniya, Ukrayna və Fransanın nüfuzlu dairələrinin nümayəndələri ilə söhbətləri verilmişdir.

Kitabda Heydər Əliyevin respublikamızın milli mətbuat gününə həsr olunmuş mərasimdəki parlaq nitqi və Bakı Mətbuat Klubunun təsisçiləri ilə görüşdəki dərin məzmunlu çıxışı, həmçinin Dağlıq Qarabağ probleminin həlli və münaqişənin nizama salınmasına həsr olunmuş materiallar dərc olunmuşdur.

Bu cilddə, həmçinin Naxçıvan Muxtar Respublikasına səfəri zamanı muxtar respublikanın sosial-iqtisadi proqramının həyata keçirilməsi ilə əlaqədar Ali Məclisdə keçirilən müşavirədə Naxçıvanda Beynəlxalq hava limanının tikintisinə, AMEA Naxçıvan bölməsinin yaradılmasına dair nitq və çıxışları, Şahbuz, Sədərək, Şərur, Babək rayon sakinləri ilə görüşlərdəki söhbəti, respublikanın və xarici ölkələrin KİV nümayəndələri üçün keçirilən mətbuat konfransında çıxışı və digər materiallar öz əksini tapmışdır.

Ə - 56 $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07) – 2012}}$ **BBK-32**

© Azərnəşr, 2012

TÜRKDİLLİ ÖLKƏLƏRİN MƏDƏNİYYƏT NAZİRLƏRİNİN DAİMİ ŞURASINA

Hörmətli dostlar!

Sizə–türkdilli ölkələrin mədəniyyət nazirlərinə və Beynəlxalq TÜRKSOY təşkilatının yaradılmasının 10 illik yubileyinə həsr olunmuş bütün mərasim iştirakçılarına səmimi salamlarımı yetirir, ölkələrimizin mədəni həyatındakı bu əlamətdar hadisə münasibətilə hamınızı Azərbaycan xalqı və dövləti adından ürəkdən təbrik edirəm.

Keçən əsrin sonuncu dekadasında dünyada baş verən qlobal siyasi hadisələr nəticəsində sovet imperiyası dağıldı, uzun illər onun tərkibində yaşamağa məcbur olmuş xalqlar siyasi müstəqilliyini qazanaraq öz suveren dövlətlərini yaratdılar. Bu xalqların qarşısında milli-mənəvi darçəliş yolunda, dünya xalqları ailəsində özünə layiq yer tutmaq üçün geniş üfüqlər açıldı.

Zəngin və qədim mədəni irsə sahib olan türkdilli xalqlar da tarixin bəxş etdiyi bu gözəl fürsətdən istifadə edərək milli-mədəni özünəqayıdış yolunda ciddi addımlar atmağa başladı. Eyni soya, dilə, tarixi və mədəni keçmişə, adət-ənənəyə malik olan xalqlarımızın mənəvi həyatında gedən prosesləri əlaqələndirmək və düzgün istiqamətləndirmək məqsədilə həmin dövrün TÜRKSOY təşkilatının yaradılması bu yolda vaxtında atılmış faydalı bir addım oldu.

TÜRKSOY bəşər sivilizasiyası xəzinəsinə Dədə Qorqud, Manas, Nizami, Füzuli, Yəsəvi, Mahmud Kaşğari, Yusif Balasaqunlu, Uluqbəy, Yunis İmrə, Nəvai, Məhtumqulu, Abay irsi

kimi nadir incilər vermiş türkdilli xalqların mədəni inteqrasiyası, bu qədim zəngin irsin araşdırılıb üzə çıxarılması, dünyada geniş təbliğ olunması, müxtəlif mədəni layihələrin gerçəkləşdirilməsində faydalı işlər aparmışdır. TÜRKSOY-un mədəni yönümlü digər beynəlxalq təşkilatlarla, xüsusilə YUNESKO ilə qurduğu əməkdaşlıq əlaqələri təqdirəlayiqdir.

Böyük məmnuniyyət hissi ilə qeyd edirəm ki, TÜRKSOY-un qurucu ölkələrindən olan Azərbaycan Respublikası bu hərəkatın elə ilk günlərindən onun fəal iştirakçısı olmuşdur. TÜRKSOY-un məqsəd və vəzifələri müstəqil Azərbaycan dövlətinin mədəniyyət sahəsindəki strategiyasına tam uyğundur. Buna görə də biz TÜRKSOY-un fəaliyyətinə böyük əhəmiyyət verir və onu dəstəkləyirik.

İnanıram ki, keçən on il ərzində tam formalaşmış və böyük təcrübə toplamış təşkilatımız öz fəaliyyətini daha da gücləndirəcək və türkdilli xalqların qardaşlıq əlaqələrinin möhkəmləndirilməsi üçün bundan sonra da var qüvvəsini sərf edəcəkdir.

Xalqlarımızın çoxəsrlik mənəvi dəyərlərinin qorunması, zənginləşdirilməsi və təbliği işinə yönəldilmiş nəcib fəaliyyətinizdə sizə böyük uğurlar diləyirəm.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *16 iyul 2002-ci il*

İTALİYA XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MARQARİTA BONİVERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

Prezident sarayı

16 iyul 2002-ci il

H e y d ə r Ə l i y e v: Hörmətli qonaqlar, Sizi səmimiyyətlə salamlayıram, sizin Azərbaycanla tanışlığınız üçün çox az vaxt ayırmağınızdan təəssüfləndiyimi bildirirəm.

Bununla belə, mən səfəri müsbət qiymətləndirirəm. İtaliya ilə Azərbaycan arasındakı əlaqələr bizim üçün çox əhəmiyyətlidir. Son illər bu əlaqələri inkişaf etdiririk. Uzun müddətdir ki, Bakıda İtaliyanın daimi səfirliyi fəaliyyət göstərir. Əvvəlki səfir çox yaxşı işləyirdi. Yeni səfir gözəl xanımdır, o da çox yaxşı işləyir. Biz neft sektoru sahəsində yaxşı əməkdaşlıq edirik. Başqa sahələrdə də əməkdaşlıq üçün imkanlarımız çoxdur.

İtaliya kiçik və orta sahibkarlıq sahəsində yaxşı təcrübə qazanmışdır. Biz indi bazar iqtisadiyyatını inkişaf etdirərək, Azərbaycanda milli sahibkarlarımızı yaratmaq istəyirik. Təbiidir ki, böyük sahibkarların yaranması hələ ki, çətindir. Ancaq kiçik və orta sahibkarlar təbəqəsi yaratmaq mümkündür. Bu sahədə də İtaliya ilə əməkdaşlıq etmək istəyirik.

Beləliklə, əlaqələrimizi inkişaf etdirmək üçün imkanlar çoxdur. Sadəcə, gərək hər iki tərəf daha da fəal işləsin. Güman edirəm ki, Bakıya, Azərbaycana qısamüddətli səfəriniz

ölkəmiz haqqında sizdə şəxsi təəssüratlar yaradacaq və əlaqələrimizin inkişaf etdirilməsinə kömək edəcəkdir.

Marqarita Boniver: Cənab prezident, səmimi qəbul üçün təşəkkür edirik. Azərbaycan prezidenti ilə görüşmək və ölkələrimiz arasında qarşılıqlı münasibətlərə dair fikir mübadiləsi aparmaq imkanından məmnun olduğumu söyləyirəm.

İtaliya hökuməti bu fikirdədir ki, ikitərəfli münasibətlərin daha yüksək səviyyəyə qaldırılması üçün sizin tərəfinizdən əzm, iradə var. Biz həm siyasi, iqtisadi, mədəni, həm də ticarət sahələrində əlaqələri inkişaf etdirmək istəyirik. Mən Azərbaycanın Xarici İşlər naziri, nazirin müavini, İqtisadi İnkişaf naziri ilə, Azərbaycan parlamentinin Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin başçısı İlham Əliyevlə, parlament sədrinin müavini ilə görüşlər keçirmişəm. Biz həqiqətən gördük ki, Azərbaycanda demokratiyanın möhkəmləndirilməsi, insan haqlarının qorunması və bazar iqtisadiyyatının inkişafı sahəsində böyük səylər göstərilir. Xüsusilə deyərdim ki, bazar iqtisadiyyatının qurulması Azərbaycanın dünyaya inteqrasiyası üçün çox önəmli ola bilər. İtaliya Azərbaycandan neft idxal edən ilk ölkələr sırasındadır. Mənim hökumətim Azərbaycanla iqtisadiyyat və ticarət sahələrində münasibətlərin daha da inkişaf etdirilməsində çox maraqlıdır.

Onu da bildirim ki, İqtisadi İnkişaf naziri ilə görüşdə Azərbaycanda biznes imkanlarının təşviqi üçün İtaliyada Azərbaycan haqqında sərginin təşkili, Azərbaycanın iş adamlarının həmin tədbirdə iştirak etməsi barədə razılıq əldə olunmuşdur. Azərbaycanın Romada səfirliyinin açılması məsələsi də bizi çox sevindirərdi.

Heydər Əliyev: İtaliyada Azərbaycanın səfirliyinin açılmasını mən çox istəyirəm. Ancaq bəzi obyektiv səbəblər-

dən bu, mümkün olmayıbdır. Yaxşı bilirəm ki, səfirliyin indiyə qədər açılmaması birinci növbədə Azərbaycana zərər gətirir. Çünki İtaliya kimi bir ölkə ilə daha səmərəli əməkdaşlıq etmək üçün, təbiidir ki, orada Azərbaycanın səfirliyi olmalıdır. Siz Romaya dönən kimi deyə bilərsiniz ki, prezident söz verdi, yaxın vaxtlarda İtaliyada Azərbaycanın səfirliyinin açılması haqqında xahiş məktubunu göndərəcəkdir.

Bu təkcə iqtisadi cəhətdən yox, siyasi cəhətdən də çox lazımdır və vacibdir.

Siz yəqin ki, Azərbaycanın ən ağır problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə tanışsınız. Bunun tarixi haqqında sizə məlumat vermək istəmirəm. Ancaq onu bildirmək istəyirəm ki, bu münaqişə hələ 1989-cu ildə, sovet hakimiyyəti zamanı başlayıbdır.

Azərbaycan və Ermənistan dövlət müstəqilliyi əldə etdikdən sonra bu münaqişə daha da kəskinləşib və bəzi səbəblərdən Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarının 20 faizini işğal edibdir. İşğal edilmiş torpaqlardan bir milyondan artıq azərbaycanlı zorla çıxarılıb və indi ağır şəraitdə, çadırlarda yaşayırlar.

1992-ci ildə ATƏT-in Minsk qrupu yaradılarkən ilk sədrlik İtaliyaya həvalə edilmişdi və bu işlə Xarici İşlər nazirinin müavini cənab Raffaello məşğul olurdu. O, 1993-cü ildə dəfələrlə Azərbaycana gəlib, elə bu otaqda, bu masanın arxasında mən onunla danışıqlar aparmışam. Nə qədər acı olsa da, mən bunu sizə deməliyəm, təəssüflər olsun ki, İtaliyanın və onun nümayəndəsi Raffaellonun bu sahədə fəaliyyəti çox uğursuz oldu. Bu bizim günahımızdır ki, İtaliya ilə bu sahədə əlaqələrimizi zəiflətmişik. İtaliya da Minsk qrupunun üzvü kimi, öz vəzifəsini müəyyən qədər unudubdur. Ancaq mən istərdim ki, İtaliya bu işə daha da yaxından cəlb olunsun.

Mən 1998-ci ildə sizin ölkədə rəsmi səfərdə olarkən bu barədə sizin ölkənin prezidenti ilə, Baş naziri ilə və başqa vəzifəli şəxslərlə danışıqlar aparmışdım. İtaliya ilə əlaqələr bizim üçün çox əhəmiyyətlidir. İtaliyada Azərbaycanın səfirliyinin yaradılması ölkəmiz üçün daha çox lazımdır, nəinki İtaliya üçün. Bizim münasibətlərimiz təkcə bundan ibarət deyildir. Mən Ermənistan–Azərbaycan münaqişəsini xatırlatdım. Güman edirəm ki, İtaliya bundan sonra bu məsələyə diqqət yetirəcəkdir.

Marqarita Boniver: Sizi əmin edirəm ki, İtaliyaya qayıtdıqdan sonra Mario Raffaellonun həmin dövrdəki fəaliyyəti, bu sahədə hansı işlərin görüldüyü ilə şəxsən maraqlanacaq, gələcəkdə İtaliyanın bu sahədəki rolunu gücləndirməyə çalışacağam. İtaliya iki ölkə arasında olan bu münaqişənin tezliklə həllinin tapılmasında vasitəçi kimi çıxış edə bilər.

Dağlıq Qarabağ kimi mürəkkəb problemin həlli məsələsində Azərbaycan, həqiqətən böyük müdriklik, təmkinlik nümayiş etdirmişdir. Mən, həqiqətən çox məyus oldum ki, Azərbaycanda böyük sayda qaçqınlar, məcburi köçkünlər var. Hətta deyərdim ki, belə vəziyyət heç bir ölkədə yoxdur. Biz elə bir ölkə adı çəkə bilmirik ki, əhalinin ümumi sayına nisbətən bu qədər qaçqın-köçkünü olsun. Cənab Prezident, Sizi əmin edə bilərəm ki, İtaliya bu sahədə sona qədər fəal rol oynayacaqdır. Biz bunu həm beynəlxalq təşkilatlar, həm də Avropa təşkilatları çərçivəsində, eləcə də Minsk qrupunda etməyə çalışacağıq. Elə edəcəyik ki, Azərbaycanda sülh bərqərar olsun, bu problem sülh yolu ilə aradan qaldırılsın və ölkənizdə demokratiya daha da inkişaf etsin.

AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN SƏDRİ, LÜKSEMBURQUN BAŞ NAZİRİNİN MÜAVİNİ VƏ XARİCİ İŞLƏR NAZİRİ LİDİ POLFER BAŞDA OLMAQLA AVROPA ŞURASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

Prezident sarayı

16 iyul 2002-ci il

H e y d ə r Ə l i y e v: Hörmətli xanım səfir!

Hörmətli qonaqlar!

Mən sizi səmimi-qəlbdən salamlayıram və Lüksemburq dövlətinin çox yüksək və geniş tərkibli nümayəndə heyətinin Azərbaycana səfərindən çox məmnun olduğumu bildirmək istəyirəm.

Siz dünən və bu gün burada çox işlər görmüsünüz, görüşlər keçirmisiniz, ölkəmizlə, az da olsa, tanış olmusunuz. İndi çox şad olaram ki, siz mənə öz fikirlərinizi bildirəsiniz.

L i d i P o l f e r: Cənab Prezident, çox sağ olun ki, bizi qəbul edirsiniz. Mən Sizinlə görüşərkən dediyim kimi, həm xoşbəxtəm, həm də mənim üçün böyük şərəfdir ki, sizin ölkənizdəyəm. Elə bilirəm ki, Lüksemburqdan rəsmi nümayəndə heyətləri Azərbaycana tez-tez gəlmirlər və biz ilk nümayəndə heyətlərindən biriyik.

H e y d ə r Ə l i y e v: Elədir.

L i d i P o l f e r: Bir-birimizdən öyrənməli çox şey var. Bu gün biz, Sizin qeyd etdiyiniz kimi, burada görüşlər keçirmişik. Ölkənizlə tanış olmaq imkanımız olmuşdur. Artıq məndə belə bir hissiyyat vardır ki, ölkəniz haqqında əvvəlkindən daha çox bilgim vardır. Məqsədimiz ondan ibarətdir ki, ölkəniz haqqında bildiklərimizi Avropa Şurasına mümkün qədər çox çatdıraq.

Cənab Prezident, Sizə məlum olduğu kimi, Lüksemburq Avropanın ortasında yerləşən kiçik bir bölgədir və təəssüflər olsun ki, illər boyu böyük qonşularının bir-biri ilə apardıqları müharibələrdən əziyyət çəkmişdir, bu müharibələrin mərkəzində olmuşdur. Lakin xoşbəxtlikdən, 50 ildir ki, Avropada sülh hökm sürür və artıq imkan yaranmışdır ki, təsisatlar səviyyəsində əməkdaşlıq edək. Biz Avropa Şurası, habelə Avropa Birliyi çərçivəsində əməkdaşlıq edirik. Bu nadir imkan sayəsində Lüksemburqda sülh və iqtisadi inkişaf hökm sürür. İstərdik ki, bu zəngin təcrübəmizi Sizinlə bölüşək.

50 il bundan əvvəl bizim belə bir tərəqqimiz, nailiyyətimiz yox idi. Lakin indi böyük yol keçmişik və istəyirik ki, Sizin kimi yeni dostlarla bu təcrübəni bölüşək.

Azərbaycana gəldikdə isə, Sizi təbrik etmək istəyirik ki, 18 ay bundan əvvəl Azərbaycan Avropa Şurasının üzvü olmuşdur. Eyni zamanda təbrik edirik ki, 18 ay müddətində Azərbaycan bu qədər nəzərəçarpacaq tərəqqi əldə edibdir. Ölkədə lazımi qanunlar işlənib hazırlanıbdır, konvensiyalar ratifikasiya olunubdur.

Bizə məlumdur ki, islahatlar daim davam edən prosesdir. Əlbəttə, bəzən bu çox vaxt aparır. Lakin ən vacibi odur ki, siz artıq bu istiqamətdə işləməyə başlamısınız. Elə bilirəm ki, bununla da Azərbaycan həm iqtisadi, həm də siyasi sahədə

inkişafa nail olacaqdır. Lakin bir məsələ də vardır və o bizə də məlumdur – bu, Dağlıq Qarabağ məsələsidir. Bu, Azərbaycan üçün ən çətin problemdir. Biz parlamentinizin üzvləri ilə, parlamentdə çoxluq təşkil edən partiyanın üzvləri ilə, eləcə də müxalifət nümayəndələri ilə görüşmüşük. Onlar da ümumi fikirdədirlər ki, həqiqətən, Dağlıq Qarabağ problemi Azərbaycanın ən ağrılı-acılı problemidir. İstərdik ki, Dağlıq Qarabağ problemi ilə bağlı Sizin fikirlərinizi öyrənək. Siz bu məsələnin siyasi yolla həll olunmasında bir işıq ucu görürsünüzmü? Biz bilirik ki, Sizin bu günə qədər göstərdiyiniz fəaliyyət, səyləriniz çox səmimi və ciddi olmuşdur. Lakin təəssüflər olsun, artıq xeyli vaxtdır ki, Dağlıq Qarabağ problemi həll edilmir. Minsk qrupu 7 ildir ki, fəaliyyət göstərir.

H e y d ə r Ə l i y e v: 7 il yox, 10 il.

L i d i P o l f e r: Artıq 10 ildir ki, fəaliyyət göstərir. Təəssüflər olsun ki, hələ bu günə qədər Minsk qrupunun fəaliyyəti nəticəsində Dağlıq Qarabağda sülh yaranmamışdır.

H e y d ə r Ə l i y e v: Sizin qısa müddətdə Azərbaycanda olmaqla əldə etdiyiniz təəssüratlara və bu barədə mənə verdiyiniz məlumatlara görə çox təşəkkür edirəm. Çox şadam ki, Azərbaycandakı vəziyyətə obyektiv qiymət verirsiniz. Mən bunu xüsusi qeyd edirəm. Çünki belə hallara biz az rast gəlirik.

Siz söylədiniz ki, Lüksemburq kiçik dövlətdir. Vaxtilə o bölgədə gedən müharibələr nəticəsində çox əziyyətlər çəkibdir. Ancaq 50 il bundan öncə sülh yaranıbdır, ölkəniz inkişaf edibdir. İndi inkişaf etmiş dövlətdir. Xalqınız yaxşı və rahat yaşayır. Amma müharibə qurtardıqdan və 10 il keçdikdən sonra siz bugünkü vəziyyətdə deyildiniz. Elədirmi? 20 il keçəndən sonra da bugünkü vəziyyətdə deyildiniz. 50 il olmasın, mən hesab edirəm ki, 30 ildən sonra sizin ölkəniz çox sürətlə

inkişaf edibdir. Əgər nəzərə alsaq ki, Lüksemburq Avropanın mərkəzindədir, Avropa mədəniyyətinə və Avropa dəyərlərinə malik olan ölkədir, onda gərək sizin inkişaf müddətiniz daha da qısa olaydı. Amma biz 10 il bundan əvvəl müstəqillik əldə etmişik. Mən çox uzaq tarixə müraciət etmək istəyirəm. Biz 200 il Rusiya imperiyasının tərkibində olmuşuq.

Keçmişdə Çar Rusiyasının, 1920-ci ildən sonra isə Sovetlər İttifaqının – doğrudur, bu, çar hökumətini devirib hakimiyyətə gəlmişdi və bu dövlət də imperiyaya çevrilmişdi – tərkibində.

Bir şeyi də nəzərə alın, biz kökümüzə görə avropalı deyilik, biz Avropadayıq, amma milli, dini kökümüzə görə avropalı deyilik. Avropa dəyərləri həmişə çox mütərəqqi olubdur. Bizim xalqımız o dəyərlərdən həmin ağır illərdə də faydalanaraq inkişaf edibdir. Ancaq o şəraitdə ki, biz yaşamışıq, o, xalqımızın bütün potensialının inkişaf etməsinə imkan verməyibdir. O illər, xüsusən XX əsrdə Sovetlər İttifaqının tərkibində Azərbaycan Avropa dəyərlərinə çox yaxın münasibət göstərərək, onlardan istifadə edərək, mədəniyyəti inkişaf etdirərək çox şeylər əldə etməsinə baxmayaraq, biz yenə də hələ ki, öz inkişaf səviyyəmizə görə Avropadan çox aşağıdayıq.

Azərbaycanın 10 illik dövlət müstəqilliyi ağır bir dövrdə keçibdir. Birincisi, dövlət müstəqilliyini əldə edərkən biz artıq Ermənistanla müharibə şəraitində idik. İkincisi, Azərbaycanın daxilində ictimai-siyasi sabitlik olmayıbdır. Belə vəziyyətdə ayrı-ayrı siyasi qüvvələr, silahlı dəstələr hakimiyyət uğrunda mübarizə aparıblar. Bütün bunlar da müstəqillik dövründə yaranmış imkanlardan istifadə edib daha sürətlə inkişaf etməyimizə imkan verməyibdir. Amma bunlara baxmayaraq, biz sürətlə inkişaf etmişik.

Biz 1995-ci ildə Azərbaycanda ictimai-siyasi sabitliyi təmin etdik. İqtisadiyyatımızın tənəzzülünü dayandırdıq, onu ilbəil inkişaf etdirməyə başladıq. Bütün sahələrdə islahatlar keçirdik. Demokratik dəyərləri qəbul etdik və onları Azərbaycanın hər yerində tətbiq etməyə çalışdıq. Aparılan islahatlar Azərbaycanda bazar iqtisadiyyatının yaranmasına yönəldilibdir. Bazar iqtisadiyyatını yaratmışıq. Biz böyük layihələr irəli sürüb Avropa və Amerika ölkələrinin böyük neft şirkətlərini Azərbaycana cəlb edərək, ölkəmizə böyük investisiya axınını təmin etdik. Amma bunların hamısı rahat şəraitdə keçməyibdir. Biz həm müxtəlif xarici ölkələrdən göstərilən təzyiq altında olmuşuq, həm də daxildə sabitliyi qorumaq üçün çox tədbirlər görməyə məcbur olmuşuq. Amma belə şəraitdə bizdə demokratiya, insan azadlığı, mətbuat və söz azadlığı təmin olunub, vətəndaş cəmiyyəti yaradılıbdır. Siz buyurduğunuz kimi, çox qanunlar qəbul edilmişdir. Onların əsasında çox işlər görülübdür. Biz Avropa Şurasına qəbul olunmuşuq. Mən bu barədə ona görə geniş danışıram ki, sizdən fərqli olaraq, bəziləri bizə deyirlər ki, Azərbaycanda hər şey indi gərək Fransada, yaxud Almaniyada, ya da ki, Amerikadakı kimi olsun. Mən istərdim olsun. Amma bu, mümkün deyildir. Bunun üçün zaman, vaxt lazımdır. Bizim müxalifətin də dilinə belə bir söz düşübdür: Heydər Əliyev deyir ki, demokratiya üçün zaman lazımdır. Mən bu gün də deyirəm: demokratiyanın başlanğıcı var, amma sonu yoxdur. Bu yolla nə qədər getsən, o qədər də getməlisən.

Amma bir idmançı tapa bilməzsən ki, tutaq ki, on metrlik məsafəni ayaqla getmək əvəzinə, bu məsafəni tullanaraq keçsin.

L i d i P o l f e r: Məşqsiz xüsusilə olmaz.

H e y d ə r Ə l i y e v: Lap məşq etsə də, mümkün deyildir. Axı fiziki imkanlar var. Hamını demokratiyaya cəlb etmək

üçün insanların dünyagörüşündə də dəyişiklik lazımdır. Əgər insanlar on illərlə, əsrlərlə başqa bir sistemdə, başqa bir quruluşda yaşayıblarsa, başqa dəyərlərdən istifadə ediblərsə, onları 1 ilə, 2 ilə, 5 ilə, 10 ilə dəyişmək mümkün deyildir. Bunu ancaq illüziyaçılar edə bilər. Sizdə də «illüziyaçı» sözü var? İllüziyaçılar sirklərdə adamı gətirib qutunun içərisinə qoyur, əlinə mişarı götürərək kəsir, sonra qutunu açır, adam oradan sağ-salamat çıxır. Bunu illüziyaçı edə bilər.

Bununla demək istəyirəm ki, mən çox məmnunam, siz bu məsələləri düzgün qiymətləndirirsiniz. Eyni zamanda, onu da demək istəyirəm ki, bizim vəzifəmiz tutduğumuz demokratiya yolu ilə daha da sürətlə getməkdir.

Siz indi sürətlə getməməlisiniz, bu, lazım da deyildir. Bəlkə də yerinizdə sayasınız, yaxud da ki, çox kiçik addımlarla irəliləyəsiniz. Amma biz gərək qaça-qaça gedək. Biz bunu anlayırıq. Amma istəyirik ki, bizi də anlasınlar. O şey ki, Azərbaycanda mümkün deyil, onu tələb etmək və o alınmayanda ittiham etmək ki, burada demokratiya yoxdur və sair, bu, obyektivlikdən kənar bir şeydir.

Siz Dağlıq Qarabağ haqqında mənim fikirlərimi öyrənmək istədiniz. Mən 9 ildir bu işlə məşğul oluram. Yəni prezident olan gündən. Sizə deyə bilmərəm ki, tarixdə heç vaxt hər hansı bir işlə bu qədər çox məşğul olmamışam. Bütün imkanlardan istifadə etməyə çalışıram. ancaq məsələni hələ ki, həll edə bilməmişik. Bunun həll olunması çox sadədir.

Ermənistan Azərbaycan torpaqlarını işğal edibdir. Ermənistan işğalçıdır, Azərbaycan torpaqlarını işğal etməyə onun haqqı yoxdur. Ermənistan Azərbaycanın Dağlıq Qarabağ vilayətinə iddia edir. Onun bu haqqı da yoxdur. Dağlıq Qarabağ Azərbaycanın ən qədim torpaqlarından biridir. Ancaq orada son əsrdə yaşayan vətəndaşların, insanların çoxu erm-

ni, az hissəsi azərbaycanlı olduğuna görə, onlar deyirlər ki, Dağlıq Qarabağ Ermənistana məxsus olmayıbdır. Onlar Dağlıq Qarabağı hələ sovet hakimiyyəti süqut etməmiş işğal etdilər və faktiki olaraq bu ərazini Azərbaycandan ayırıblar. Hətta Dağlıq Qarabağın ətrafında olan 7 inzibati rayonu da işğal ediblər.

Dağlıq Qarabağ kiçik bir yerdir. Münaqişə başlayanda orada cəmi 160 min adam yaşayırdı, onların 40 mini azərbaycanlı idi. Onları oradan çıxararaq qovublar. Dağlıq Qarabağda yaşayan ermənilərin yarısı da oradan çıxıb gedibdir. Dağlıq Qarabağda cəmi 60 min əhali yaşayır. Kiçik bir yerdir. Amma bizim Dağlıq Qarabağın ətrafında olan, sırf azərbaycanlılar yaşayan rayonlardan 800 min insan o yerlər işgal edildiyinə görə zorla çıxarılıbdır.

Beləliklə, onlar Azərbaycanın ərazisinin 20 faizini, beşdə birini işğal ediblər. İşğal edilmiş torpaqlardan çıxarılan insanlar indiyə qədər, on ildir ki, çadırlarda yaşayırlar. Bu qədər haqsızlıq bütün dünyanın gözü qarşısında baş verir. Bu, Avropa Şurasına da, ATƏT-ə də, Birləşmiş Millətlər Təşkilatına da, bütün böyük dövlətlərə də, Minsk qrupunun həmsədrlərinə – Amerika Birləşmiş Ştatlarına, Rusiya və Fransaya, bu ölkələrin başçılarına məlumdur. Əgər biz istəyiriksə ki, dünyada vətəndaş cəmiyyətləri yaradaq, dünyada hüquqi dövlətlər quraq, demokratiya yaradaq – bu da həm ATƏT-in, həm Birləşmiş Millətlər Təşkilatının, həm də Avropanın böyük dövlətlərinin bəyan etdiyi siyasətdir – onda onlar bu haqsızlığa niyə göz yumurlar? Deməli, dünyada ikili standart var. Nə vaxt istəyirlərsə, təcavüzü təcavüz kimi qiymətləndirirlər. Amma nə vaxt istəmirlərsə, təcavüzə göz yumurlar. Buna görə də indi Dağlıq Qarabağ məsələsini həll etmək üçün bir yol var: ATƏT-in prinsipləri var, Birləşmiş Millətlər Təşkilatının

prinsipləri var, beynəlxalq hüquq normaları var – hər bir ölkənin ərazi bütövlüyü toxunulmazdır. Elədirmi?

L i d i P o l f e r: Əlbəttə.

H e y d ə r Ə l i y e v: Azərbaycan da müstəqil dövlət kimi, tələb edir ki, onun ərazi bütövlüyü təmin edilsin. Bunun üçün Ermənistanın silahlı qüvvələri Azərbaycan torpaqlarından çıxmalıdır. Bu barədə Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qətnamələri var. Ancaq ermənilər o qətnamələri yerinə yetirmirlər. Onlar işğal olunmuş torpaqlardan çıxsa, Azərbaycan Dağlıq Qarabağa öz tərkibində ən yüksək dərəcəli müxtariyyət hüququ verməyə hazırdır. Amma Ermənistan bununla razı deyildir. O deyir ki, Dağlıq Qarabağ mənim olmalıdır. Bu, bütün beynəlxalq normalara ziddir. Yaxud kiçik Dağlıq Qarabağa dövlət müstəqilliyi statusu verməyi tələb edirlər. Buna biz razı ola bilmərik. Öz ərazimizdə hansısa bir bölgəyə dövlət müstəqilliyi statusu verməyə razı ola bilmərik. Həqiqət budur. Bu həqiqəti də dünyada hamı bilir. Amma böyük dövlətlərin başçıları da, ATƏT-in başçıları da bizə deyirlər ki, gedin danışın, özünüz bir yol tapın. Mən bunun yolunu göstərirəm. Əgər başqa bir yolu varsa, gəlin siz göstərin, Avropa Şurası göstərsin, ATƏT göstərsin, Avropa Birliyi göstərsin, Birləşmiş Millətlər Təşkilatı göstərsin, Amerika göstərsin, Rusiya, Fransa göstərsin. Bizə yolu göstərin. Siz yol göstərmisiniz.

Bəyanat verirlər ki, biz Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirik. Amma 10 ildən artıqdır ki, Azərbaycanın ərazi bütövlüyü pozulubdur, buna qətiyyən fikir vermirlər. Azərbaycanın prezidenti kimi, mən gecə-gündüz çalışıram, başqa heç bir yol tapmıram. Ermənistanın silahlı qüvvələri Azərbaycan torpağından mütləq çıxmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Yerindən-yurdundan didərgin

düşmüş azərbaycanlılar öz torpaqlarına qayıtmalıdır, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarə statusu verilməlidir və Ermənistanla Azərbaycan arasında sülh yaranmalıdır. Bunun yolu budur!

L i d i P o l f e r: Cənab Prezident, əlbəttə, mən anlayıram ki, bu Sizin üçün çox çətin, ağrılı bir məsələdir. Yəqin ki, Sizin yerinizdə hər hansı başqa bir ölkənin lideri olsaydı, o da eyni hissləri, narahatlığı keçirərdi. Sağ olun ki, bu haqda düzgün və geniş məlumat verdiniz. Təəssüflər olsun ki, mən yol göstərmək iqtidarında deyiləm. Ona görə də yalnız ümid etmək qalır ki, Ermənistanla Azərbaycan arasında sülh olacaqdır. Çünki bugünkü vəziyyət – nə sülh, nə müharibə vəziyyəti inkişafa mane olur.

Mən xəritələri görmüşəm. Xəritələrdə Azərbaycanın Dağlıq Qarabağdan əlavə, işğal olunmuş ərazilərini görmüşəm. Məndə həqiqətən də belə bir sual yaranıbdır: Azərbaycanın da cənub hissəsində əsas ərazidən ayrılmış bir hissə vardır. Mənim bu sualım sadəlövh görünə bilər. Ərazi dəyişikliyinə cəhd olunubmu? Bəlkə Dağlıq Qarabağ Ermənistana birləşdirilsin və Azərbaycanın ayrılmış hissəsi Ermənistan torpaqları hesabına Azərbaycanın əsas ərazisinə birləşdirilsin.

H e y d ə r Ə l i y e v: Naxçıvan Muxtar Respublikası Azərbaycanın torpağıdır, Azərbaycanın bir hissəsidir. Təəssüflər olsun ki, 1920-ci illərdə Azərbaycana qarşı ədalətsizlik olubdur. İndi Naxçıvanı Azərbaycanın əsas ərazisindən ayıran 40 kilometr məsafə – bunu siz xəritədə görmüsünüz, Mehri rayonu, hansı ki, əhalisi tam azərbaycanlılardan ibarət olubdur – Ermənistana verilibdir. Bu bizim torpağımız olubdur. Əgər ermənilər Naxçıvanı Azərbaycanın əsas ərazisindən ayıran hissədə olan həmin torpağı Dağlıq Qarabağ məsələsində bi-

zimlə dəyişdirmək istəyirlərsə, onda qoy bu məsələni qaldırsınlar, baxaq.

L i d i P o l f e r: Yalnız Sizə uğur arzulamaq qalır.

H e y d ə r Ə l i y e v: Sağ olun.

L i d i P o l f e r: Cənab Prezident, qanunlar və konvensiyalar sahəsində, həqiqətən valehedici göstəricilərə nail olmusunuz. Mən başa düşürəm ki, bunu etmək olduqca çətindir. Lakin dinamik, möhkəm işləyən parlament olsa, qanunları, əlbəttə ki, təsdiq etmək olar. Ancaq qanunların tətbiq edilməsi çox çətin prosesdir. Avropa Şurası, Avropa ailəsi Sizə bu işdə yardımçı olmalıdır. İslahatlar sahəsində Azərbaycana kömək etməlidir. Elə olmamalıdır ki, bir tərəf bu işə bütün qüvvəsini sərf etsin, digər tərəf isə yalnız kənarda durub barmaq silkələməklə məşğul olsun. Bir işdə Azərbaycana yardımçı, köməkçi olmaq lazımdır. Qanunlar çıxarıldıqdan sonra onların yerinə yetirilməsi üçün bacarıqlı, yüksək səviyyəli kadrlar, inzibatçılar lazımdır. Avropa Şurası bu sahədə də Azərbaycanla çox işləməlidir. Mən hesab edirəm ki, bütün mümkün əlaqələrdən istifadə edib Azərbaycanın islahatlar aparmasına yardımçı olmaq lazımdır.

H e y d ə r Ə l i y e v: Bu sözlərinizə görə mən sizə çox təşəkkür edirəm.

L i d i P o l f e r: Cənab Prezident, açıq danışdığınıza görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Siz qeyd etdiniz ki, doğrudur, Azərbaycan Avropaya məxsusdur, lakin eyni zamanda tam Avropa da deyildir. Mən hələ keçmiş SSRİ vaxtında Özbəkistanda, Türkiyədə olmuşam. Cənab Prezident, deməliyəm ki, onlarla müqayisədə siz tamamilə avropalısınız. Mən Avropa ilə sizin aranızda heç bir fərq görmürəm.

H e y d ə r Ə l i y e v: Avropalıyıq. Mənsə, sadəcə, bizim avropalı olmaq prosesimizi anlatmaq istədim. İndi biz avropalıyıq və bir çox avropalılardan daha çox avropalıyıq.

L i d i P o l f e r: Cənab Prezident, bizi bağlayan cəhətlər ayıran cəhətlərdən daha çoxdur. Əlbəttə ki, müxtəlif ənənələr, müxtəlif keçmişimiz, müxtəlif qavrama ola bilər. Lakin bizi bağlayan məqamlar daha çoxdur. Ona görə də elə bilirəm ki, dözümlülük, demokratiya, sərbəstlik, qanunun aliliyi – biz bu sahədə əməkdaşlıq etməliyik və sizə yardımçı ola bilərik.

Buraya gəlməzdən əvvəl mən çoxlu material oxudum. Səfər ərəfəsində bizim səfir hazırlamışdı. Həmin materialları dərindən öyrəndim. Bunlar müxtəlif mövzulara, siyasi dustaqlar, Venesiya Komissiyası ilə əməkdaşlıq və s. aid idi. Sizinlə görüşdən əvvəl Ədliyyə naziri ilə söhbət etdim. O bizə elə söhbətlər etdi ki, bəlkə də onun dediklərinin çoxu Avropa Şurasına məlum deyildir. Ona görə də mən fikirləşirəm ki, daha çox danışsaq, daha çox əlaqədə olsaq, fikir mübadiləsi aparsaq, lazım olmayan mübahisələr də aradan götürülər. Onda ölkənin imicinə də xələl gəlməz.

H e y d ə r Ə l i y e v: Doğrudur.

L i d i P o l f e r: Elə biz də razılaşırdıq ki, görüşlər zamanı çox səmimi, açıq söhbət edək, fikir mübadiləsi aparaq.

H e y d ə r Ə l i y e v: Biz də çox səmimi söhbət edirik.

L i d i P o l f e r: Cənab Prezident, bu açıq və səmimi söhbətə görə Sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Elə bilirəm ki, biz əməkdaşlıq edəcəyik və xalq arasında hörməti olan Sizin kimi liderin sayəsində Azərbaycan Avropaya daha da yaxınlaşacaqdır. Əgər bizim tərəfimizdən hansısa bir yardım lazım olarsa, həmişə bunu etməyə hazırıq.

H e y d ə r Ə l i y e v: Çox sağ olun. Elə sizin bugünkü danışıqlarınızdan mən çox dəstək aldım. Bunun özü də yardımdır. Ümidvaram ki, gələcəkdə də çox səmərəli əməkdaşlıq edəcəyik. Sağ olun.

«QAFQAZDA SÜLH NAMİNƏ ƏMƏKDAŞLIQ» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSA

Hörmətli konfrans iştirakçıları!

Sizi – qardaş Gürcüstanın paytaxtı Tbilisi şəhərində keçirilən beynəlxalq konfransın iştirakçılarını səmimi salamlayır, hamınıza sülh, cansağlığı, səadət və xoşbəxtlik arzulayıram.

Gürcü Pravoslav Kilsəsi, Qafqaz Müsəlmanları İdarəsi və Gürcüstanın Etnik və Konfessional Əlaqələr Mərkəzi tərəfindən Tbilisi Dövlət Universiteti ilə birlikdə belə bir konfransın keçirilməsi faktı öz-özlüyündə çox yüksək qiymətə layiqdir. Din və elm xadimlərinin, müxtəlif konfessiya və xalqların nümayəndələrinin belə səmərəli əməkdaşlığı, şübhəsiz ki, dinlərin və mədəniyyətlərin dialoqunda yeni uğurların qazanılmasına xidmət edəcəkdir.

Məlumdur ki, Qafqaz öz coğrafi-siyasi mövqeyinə, dini, etnik və dil mənzərəsinin rəngarəngliyinə görə dünyanın nadir guşələrindən biridir. Məhz burada, Avropa ilə Asiyanın qovuşuğunda uzun əsrlər boyu təşəkkül tapmış dialoq və qarşılıqlı anlaşma mühiti dini və mənəvi dəyərlərin nadir sisteminin yaranmasına gətirib çıxarmış, tarixə Qafqaz mədəniyyəti kimi daxil olmuş belə nadir bir fenomeni formalaşdırmışdır. Bu fenomeni səciyyələndirən yüksək etnik və dini tolerantlıq, qarşılıqlı ehtiram və mehriban qonşuluq ənənələri, milli və ümumbəşəri dəyərlərin ahəngdar birləşməsi, sözsüz ki, konfransınızın uğurlu işini şərtləndirən amillərdəndir.

Bu gün dövlətlərimiz keçid dövründə bütün postsovet respublikalarına xas olan bir çox siyasi, sosial, iqtisadi və mədəni prob-

lemlərlə üzləşirlər. Təəssüflə qeyd etmək lazımdır ki, bu problemlərin həll olunması burada mürəkkəb münaqişələrin mövcud olması ilə daha da çətinləşir. Bölgədə sülhün və əmin-amanlığın bərqərar olmasında maraqlı olmayan müxtəlif dağıdıcı qüvvələr milli və dini ədavət toxumları səpir, qarşıdurma ocaqlarının saxlanılması üçün hər cür çirkin vasitələrə əl atırlar. Qafqazda sülhə və əmin-amanlığa təhlükə törədən bütün əməllərin qarşısının alınması hamımızdan sülh naminə daha sıx əməkdaşlıq tələb edir. İnanıram ki, konfransınız Ümumqafqaz evimizdə sülhün, sabitliyin və inkişafın əldə edilməsi yolunda mühüm bir addım olacaqdır.

Qoy Ulu Tanrı bölgəmizdə sülhün və əmin-amanlığın bərqərar olmasına, bütün Qafqaz xalqları üçün layiqli həyatın təmin olunmasına yönəldilmiş nəcib fəaliyyətinizdə sizə kömək etsin.

Sizə uğurlar diləyirəm.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *17 iyul 2002-ci il*

YAPONİYANIN XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİ SUQİURA SEYKENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

Prezident sarayı

17 iyul 2002-ci il

S u q i u r a S e y k e n: Cənab prezident, səmimi qəbul üçün təşəkkür edirəm. Böyük İpək Yolunda mühüm nəqliyyat qovşağı olan, habelə zəngin tarixə və ənənələrə malik Azərbaycana gəlməyimi çoxdan arzulayırdım. İndi Azərbaycana ilk səfərə İpək Yolunun energetika missiyasının başçısı kimi gəlmişəm.

Nümayəndə heyətinə Yaponiya hökumətinin, işgüzar və elmi dairələrin nümayəndələri daxildirlər. Bu ilin sentyabrında dövlətlərimiz arasında diplomatik münasibətlər qurulmasının 10 ili tamam olacaqdır. Bazar iqtisadiyyatına keçmək üçün ardıcıl səylərinə və bunun sayəsində sanballı nəticələr əldə olunduğuna görə Azərbaycan prezidentinə səmimi təşəkkürümü və ehtiramımı bildirirəm.

H e y d ə r Ə l i y e v: Biz iqtisadi inkişafda, demokratiyanın, azadlığın və insani dəyərlərin inkişafında böyük uğurlar qazanmış ölkə kimi, Yaponiya ilə qarşılıqlı münasibətlərə böyük əhəmiyyət veririk. Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkələrimiz arasında diplomatik münasibətlər qurulmuşdur. Lakin bu münasibətlər yalnız 1997-98-ci illərdən

sonra lazımınca inkişaf etmişdir. Belə ki, Yaponiya yeni müstəqil dövlətlərə göz qoyur, bu ölkələrin nəyə qadir olduqlarını və imkanlarını öyrənirdi. Azərbaycan da Yaponiya ilə yaxınlaşmaq, onunla müxtəlif istiqamətlərdə əlaqələr qurmaq imkanlarını öyrənirdi. Böyük İpək Yolunun bərpası proqramı da məhz o illərdə irəli sürülmüşdür. Yaponiyanın o vaxtkı Baş naziri cənab Haşimoto «Böyük İpək Yolu diplomatiyası» adlı xüsusi proqram elan etmişdi. Bu proqramda Yaponiyanın və Azərbaycanın mənafeləri üst-üstə düşür. Həmin dövrdən başlayaraq, Yaponiya ilə Azərbaycan arasında bütün sahələrdə, xüsusən iqtisadi sahədə əlaqələr daha intensiv inkişaf edir. Azərbaycan Xəzərin ölkəmizə aid sektorundakı zəngin neft və qaz yataqlarında dünyanın iri neft şirkətlərinin köməyi və iştirakı ilə işlər görürdü və bu prosesə Yaponiya şirkətlərini də cəlb etmək qərara alınmışdı.

Müəyyən fəal iqtisadi münasibətlər qurulduqdan sonra, 1998-ci ilin fevral ayında Azərbaycan prezidentinin Yaponiyaya rəsmi səfəri oldu. Bu səfər zamanı Yaponiya ilə Azərbaycan arasında iqtisadi münasibətlərin inkişafına dair bir sıra məsələlər müzakirə olundu. Səfər hökumətlərarası sənədlərin, o cümlədən Azərbaycan prezidentinin və Yaponiya Baş nazirinin imzaladıqları əsas sənədin qəbul edilməsi ilə başa çatdı. Həmin vaxtdan ölkələrimiz arasında təkcə iqtisadi sahədə deyil, həm də bir sıra digər sahələrə dair daha fəal əməkdaşlıq başlandı.

İndi Azərbaycanda Yaponiyanın neft şirkətləri işləyirlər. Bu ölkə bizə 400 MVT gücündə olan «Şimal» DRES-in tikintisi üçün güzəştli kredit ayırmışdır və stansiya artıq tikilir, bu ilin sonunadək işə salınacaqdır. «Niçimen» şirkəti ilə Azərbaycanın «Azərkimya» şirkəti arasında əməkdaşlıq yaranmışdır. Yaponiya İxrac-İdxal Bankının ayırdığı 90 milyon

dollar məbləğində kreditlə iri buxar elektrik stansiyasının tikintisi başa çatdırılmışdır. Yaponiya həyatımızın digər sahələrinə də maraq göstərir.

Mədəniyyət, səhiyyə, kənd təsərrüfatı sahələrinə qrantlar ayırdığına görə Yaponiyaya minnətdarlığımı bildirirəm. Məsələn, Azərbaycanın simfonik orkestri Yaponiyanın qrantı ilə «Yamaha» firmasından yeni musiqi alətləri almışdır. Kənd təsərrüfatı sahəsində özəl sektorun inkişafına kömək etmək üçün Yaponiyadan traktorlar, kombaynlar və digər kənd təsərrüfatı texnikası alırıq.

Böyük İpək Yolunun energetika missiyası Yaponiyanın Mərkəzi Asiya və Qafqaz ölkələri ilə, o cümlədən Azərbaycanla əməkdaşlığının daha geniş proqramını nəzərdə tutur. Ümid edirik, Yaponiya nümayəndə heyətinin Azərbaycana səfəri zamanı bir çox məsələlər konkretləşdirilə bilər. Son vaxtlar irəli sürülmüş «Şərqə baxış» ideyasını dəstəklədiyimi bildirirəm. Asiya Bankının üzvü olan Azərbaycana yardım göstərdiyinə görə də Yaponiya hökumətinə təşəkkür edirəm.

S u q i u r a S e y k e n: Yaponiya Mərkəzi Asiya və Qafqaz ölkələri arasında Azərbaycana öncül yer verir, çünki bu ölkə həm zəngin neft ehtiyatlarına, həm də böyük tarixə və ənənələrə malikdir, qədim Böyük İpək Yolu üstündə mühüm məntəqədir. Sabiq Baş nazir cənab Haşimoto «İpək Yolu diplomatiyası» proqramını hazırlayarkən belə bir əqidəni əsas tutmuşdur ki, bu proqram Rusiya, Çin, Hindistan, Ərəb ölkələri ilə həmsərhəd olan Mərkəzi Asiyaya və Qafqaza sülh, sabitlik və tərəqqi gətirəcək və Böyük İpək Yolunun bərpası nəinki bu yolun üstündə yerləşən dövlətlərə, həm də bütün regiona, bütün dünyaya sülh gətirəcəkdir. Yaponiya Azərbaycana öz dövlətini qurmaqda mümkün qədər yardım göstərir və bu zaman iqtisadi infrastrukturun təkmilləşdirilməsinə,

sosial sahənin yaxşılaşdırılmasına və kadr hazırlığına önəmli əhəmiyyət verir. İndiki nümayəndə heyəti Azərbaycana bu proqram çərçivəsində gəlmişdir. Yaponiyanın Baş naziri bu ilin aprelində Çində keçirilmiş beynəlxalq forumda bir təşəbbüs irəli sürmüşdür. Bu təşəbbüs ondan ibarətdir ki, Şərqi və Cənub–Qərbi Asiya ölkələrində yüksək iqtisadi artım şəraitində enerji daşıyıcılarının mümkün ola biləcək qıtlığı ilə əlaqədar, zəngin enerji ehtiyatlarına malik Mərkəzi Asiya və Qafqaz ölkələri ilə əməkdaşlığın inkişafına səy göstərilməlidir. Bu ideyadan məqsəd həm də bütövlükdə Asiya regionunun təhlükəsizliyini, o cümlədən enerji təhlükəsizliyini təmin etməkdir.

Bilirik ki, Əfqanıstan ölkədə sülhün bərqərar olması və sabitliyin bərpa edilməsi yolunda ilk addımlar atır. Neft və qaz boru kəmərlərinə gəldikdə isə, Bakı–Tbilisi–Ceyhan boru kəməri layihəsinin həyata keçirilməsi ilə yanaşı, İran, Əfqanıstan, Pakistan, habelə Çin ərazisindən keçən boru kəmərləri çəkilişinə dair digər ideyalar da mövcuddur. Əgər Əfqanıstanda əmin-amanlıq və sabitlik bərqərar olarsa, Mərkəzi Asiya və Qafqaz ölkələri, Şərqi və Cənub–Qərbi Asiya ölkələri arasında möhkəm əlaqələr yaranacaqdır.

Bizim fikrimizcə, Mərkəzi Asiya və Qafqaz ölkələrinin Şərqi Asiya regionuna neft və təbii qaz nəql etməsi üçün 5–10 il tələb olunur. Məhz bu baxımdan Yaponiyanın Baş naziri bəyan etmişdir ki, belə bir marşrutu hazırlamağın vaxtı gəlib çatmışdır və missiyamızı da ona görə buraya göndərmişdir.

Bizim ölkəmiz bundan sonra da öz səylərini digər ölkələrin, habelə beynəlxalq təşkilatların səyləri ilə birləşdirəcəkdir ki, Şərqə diqqəti gücləndirmək mümkün olsun. Onu da əlavə edim ki, ölkəmiz Yaponiya şirkətlərinin də iştirak etdikləri Bakı–Tbilisi–Ceyhan boru kəmərinin tikintisi faktını ürəkdən

alqışlayır və «bu layihə çərçivəsində hansısa digər əməkdaşlıq formalarını» müzakirə etmək istərdi.

Qəbulda yeni enerji mənbələri, o cümlədən külək, günəş enerjisi sahəsində Yaponiyanın təcrübəsindən istifadə olunması təklifləri də səsləndi.

Suqiura Seyken Azərbaycan prezidentindən Yaponiya firmalarının ölkəmizə gələcəkdə də investisiya qoymasını dəstəkləməyi xahiş etdi.

Prezident Heydər Əliyev çox mühüm fikirlər və müddəalarla zəngin olan bu maraqlı informasiyanı məmnuniyyətlə dinlədiyini bildirərək dedi ki, bu baxımdan biz Yaponiya ilə Azərbaycan arasında əməkdaşlıq problemlərinə eyni mövqedən yanaşırıq. İrəli sürülmüş təkliflər əsasında konkret danışıqlar aparmaq və konkret əməli nəticələrə nail olmaq lazımdır.

BEYNƏLXALQ VALYUTA FONDUNUN (BVF) İKİNCİ AVROPA DEPARTAMENTİNİN DİREKTORU CON ODLİNQ-SMİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

Prezident sarayı

17 iyul 2002-ci il

Qonaqları səmimiyyətlə salamlayan Azərbaycan prezidenti Heydər Əliyev onların ölkəmizə səfərindən məmnun qaldığını, Baş nazir Artur Rasizadə ilə, dövlət müşaviri Vahid Axundovla, digər rəsmi şəxslərlə görüşlərindən xəbərdar olduğunu bildirdi.

Cənab Con Odlinq-Smi səmimi qəbula görə təşəkkür edərək dedi ki, təəssüflər olsun, Azərbaycana az-az gəlirəm, ona görə də ölkədə nələr baş verdiyi barədə tam təsəvvürə malik olmaq mənim üçün vacibdir. Əlbəttə, mən öz həmkarlarımdan informasiya alıram. Təxminən iki il əvvəlki səfərimdən bəri ölkədə makroiqtisadi göstəricilər çox əlverişli olmuşdur. İqtisadi artımın sürətinə görə Azərbaycan MDB ölkələri arasında, əslində, liderdir və burada inflyasiya çox aşağıdır. Bu çox yaxşı göstəricidir. Əlbəttə, bu qismən neftlə izah edilir, lakin təkcə bununla deyil, həm də onunla izah edilir ki, Maliyyə Nazirliyi və Milli Bank çox yaxşı makroiqtisadi siyasət aparırlar. Struktur islahatları da yaxşı gedir. Deməliyəm ki, təxminən iki il əvvəl məndə müəyyən narahatlıq yaranmışdı ki, islahatlar prosesi bir qədər zəifləmişdir. La-

kin təxminən bir il əvvəl islahatlar yenidən yüksək sürətlə aparılmağa başlandı və indi bu proses çox yaxşı gedir.

Əlbəttə, siz hər il struktur islahatlarının yeni mərhələsinə başlayırsınız və təzə məsələlərlə qarşılaşırsınız. Siz onları həll etməlisiniz. Bunun əlamətlərindən biri də odur ki, indi sərmayələr üçün əlverişli şərait yaradılmasına çox böyük diqqət yetirirsiniz. Bunun təzahürlərindən biri də odur ki, siz həm Azərbaycan biznesmenləri ilə, həm də xarici biznesmenlərlə görüşlər keçirdiniz. Ümidvarıq ki, bu görüşlər əsasında çox müsbət tədbirlər görüləcəkdir.

O ki qaldı Azərbaycanla BVF arasındakı münasibətlərə, biz bundan, xüsusən Maliyyə Nazirliyi, Milli Bank, Prezidentin İcra Aparatı ilə əlaqələrimizdən çox məmnunuq.

Biz bərabərhüquqlu tərəflər kimi, açıq diskussiyalar və müzakirələr aparırıq və ümid edirik ki, bu müzakirələr sizin üçün faydalı olacaqdır. Bizə isə bu müzakirələr ölkədə vəziyyət barədə daha çox məlumat almağa imkan verir.

Bildiyiniz kimi, indi yoxsulluğun azaldılması və iqtisadi inkişafa kömək proqramının həyata keçirilməsinin ikinci ili gedir. İndiyədək biz bu proqram üzrə ikinci icmalı başa çatdırmalı idik, lakin müəyyən ləngimə olmuşdur. Mənim səfərimin əsas məqsədlərindən biri də yaranmış maneələri aradan qaldırmaqdan ibarətdir ki, bir, yaxud iki aydan sonra BVF-nin növbəti missiyası gələndə bu icmalı başa çatdırmaq barədə razılıq əldə etmək mümkün olsun.

Ləngimənin iki səbəbi olmuşdur. Əvvəla, hökumət Beynəlxalq Bankın özəlləşdirilməsi cədvəlini hələ təqdim etməmişdir. Bundan başqa, enerji daşıyıcılarının daxili bazar qiymətlərinin dünya qiymətləri ilə uyğunlaşdırılması cədvəli üzrə razılaşma əldə olunmamışdır.

Bu tədbirlərin hər ikisi sizin hökumətinizlə razılaşdırılmışdır və indi əsas məsələ onların yerinə yetirilməsi cədvəllərini razılaşdırmaqdan və həyata keçirilməsi üçün konkret tədbirlər görməkdən ibarətdir.

Beynəlxalq Banka gəldikdə isə, ötən 2-3 illik gecikmədən sonra bu prosesə yeni təkan vermək lazımdır. Bütün tələblərə cavab verəcək və idarəetməni lazımi səviyyədə təmin edəcək investor tapmaq lazımdır. Bildiyimizə görə, belə investor vardır.

Enerji daşıyıcılarının qiymətlərinin uyğunlaşdırılmasına gəldikdə isə, zənnimcə, hamı başa düşür ki, bunu bazar münasibətlərinə keçid prosesinin müəyyən mərhələsində və enerji ehtiyatlarından israfçılıqla, səmərəsiz istifadəni aradan qaldırmaq üçün etmək lazımdır. Əlbəttə, hər hansı ölkə belə genişmiqyaslı dəyişiklikləri bir gün ərzində həyata keçirə bilməz. Lakin, zənnimcə, müəyyən müddətdən sonra lazımi ardıcıl tədbirlər sayəsində bunu həyata keçirmək tamamilə real bir işdir və biz bunun öhdəsindən gələ bilərik.

Prezident Heydər Əliyev dedi ki, biz Beynəlxalq Valyuta Fondu ilə neçə illərdir ki, əməkdaşlıq edirik. Ötən illərdə bu sahədə problemlər, çətinliklər də olubdur. Bəzən Beynəlxalq Valyuta Fondunda bizim islahatların aparılması, ümumiyyətlə, iqtisadi siyasətimizlə bağlı tədbirlərin həyata keçirilməsi barəsində müəyyən şübhələr də olmuşdur. Amma sonrakı illər sübut etdi ki, onlar əsassızmış və biz Beynəlxalq Valyuta Fondu ilə çox səmərəli əməkdaşlıq edirik.

Siz Azərbaycanın iqtisadi, maliyyə nailiyyətləri haqqında çox müsbət fikirlər söylədiniz. Bilirsiniz ki, bu nailiyyətləri əldə etmək heç asan deyildi, bizim qarşımızda çox çətinliklər var idi, mühafizəkar fikirli adamlar da, işimizə maneçilik edənlər də vardı. Bu da bəzən sizdə inamsızlıq yaradırdı. Amma mən Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlığımız illərindən həmişə bəyan

etmişəm ki, bizim tutduğumuz yol islahatlat yoludur, bazar iqtisadiyyatı yoludur. Şəxsən mən Azərbaycan prezidenti vəzifəsini üzərimə götürərkən bu yolu tutduğumu bəyan etmişəm və bu yol ilə də gedirik. İndi siz deyəndə ki, biz Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələr içərisində birinci yerdəyik, yaxud da birinci yerlərdəyik, əlbəttə, bu məndə böyük iftixar hissi doğurur, amma arxayınlaşdırmır. Çünki hələ çox iş görmək lazımdır.

Neftin qiymətləri haqqında keçən dəfə də söhbətlər aparmışdınız. Biz başa düşürük ki, siz bu məsələni düzgün qoyubsunuz. Ancaq siz də bizim bu barədə çətinliklərimizi başa düşürsünüz. Beynəlxalq Bankın özəlləşdirilməsi, sadəcə, təsadüfi hallara görə belə gecikdi. Yəni burada problem yoxdur, sadəcə, vaxt lazımdır.

Azərbaycan prezidenti özəlləşdirmə məsələsindən danışaraq vurğuladı ki, bu proses daha da sürətlə getməli və başa çatmalıdır. Bu da mənim siyasətimin əsas hissələrindən biridir. Amma bu sahədə də əldə etdiyimiz təcrübə bizə bir çox şeyləri öyrətdi. Biz bir çox tikiş fabriklərini özəlləşdirdik, sahibkarlar aldı, qapısına qıfıl vurub getdilər. İndi nə fabrik var, nə kollektiv var, nə də məhsul var. Bu təkcə bizdə deyildir. Xatirimdədir, 1994-cü ildə Budapeştdə ATƏT-in zirvə görüşü zamanı Macarıstanın Baş naziri ilə söhbət etdim. Onunla keçmişdən tanış idik. Mən sovet hökumətində rəhbər vəzifədə olanda, o da Macarıstanın rəhbərlərindən biri idi. Ondan soruşdum ki, siz özəlləşdirməni çox sürətlə apardınız, nəticəsi nədir? Dedi ki, çox ağırdır. Soruşdum, niyə? Dedi ki, böyük fabrikləri, zavodları tez özəlləşdirdik ki, özəl sektor onları yaxşı işlətsin. Xarici ölkələrin investorları da özəlləşdirdilər. Onlar gəlib aldılar, qıfıl vurdular, öz ölkələrinə çıxıb getdilər.

Ancaq bu, hesab edirəm ki, Macarıstanın özəlləşdirmə prosesinin dayandırılmasına gətirib çıxarmadı, əksinə, Macarıstan

inkişaf etdi. Biz də bundan qorxub özəlləşdirməni nə ləngidə bilərik, nə də dayandıra bilərik.

Dünya təcrübəsindən məlumdur ki, özəlləşdirmə heç də dərhal öz müsbət nəticəsini vermir. Buna da vaxt lazımdır. Biz özəlləşdirməni aparmalıyıq, özəl sektora kömək etməliyik.

Siz mənim sahibkarlarla görüşlərim haqqında danışdınız. Onların nəticələri öyrənilib, təhlil olunub, yekunlaşdırılıbdır. Güman edirəm, iyulun sonuna qədər bu görüşlərin nəticəsi ilə əlaqədar nəzərdə tutduğum müşavirəni keçirəcəyəm və lazımi fərmanlar, qərarlar qəbul edəcəyəm. Bunlar hamısı özəl sektorun inkişafına daha da yaxşı kömək edəcəkdir.

TÜRKMƏNİSTAN PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB SAPARMURAD NİYAZOVA

Hörmətli Saparmurad Atayeviç!

Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinin Türkmənbaşı limanında yüklənməyə dayanmış «General Şıxlinski» tankerində 2002-ci il iyulun 8-də partlayış baş vermiş və bu, yanğına gətirib çıxarmışdır. Bu faciəli hadisə nəticəsində heyətin 6 üzvü həlak olmuşdur.

Türkmənistanın müvafiq təşkilatları tərəfindən vaxtında və operativ kömək göstərilməsi sayəsində yanğın məhdudlaşdırılmış və maksimum qısa müddətdə söndürülmüşdür ki, bu da böyük itkilərin qarşısını almağa imkan vermişdir.

Belə fövqəladə şəraitdə sıx qarşılıqlı fəaliyyət və qarşılıqlı yardım Azərbaycan ilə Türkmənistan arasında dostluğun və mehriban qonşuluğun çoxəsrlik ənənələrinə xalqlarımızın sadiq olduğunu bir daha nümayiş etdirdi.

Hörmətli Saparmurad Atayeviç, Sizə dərin təşəkkürümü bildirirəm və yanğının qarşısının alınmasında iştirak edənlərin və bu zaman yüksək peşəkarlıq və fədakarlıq göstərənlərin hamısına minnətdarlığımı yetirməyinizi xahiş edirəm.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *18 iyul 2002-ci il*

KOLUMBİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ALVARO URİBEYƏ

Hörmətli cənab Prezident!

Kolumbiya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında təşəkkül tapan dostluq münasibətləri xalqlarımız üçün faydalı olacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *19 iyul 2002-ci il*

BELÇİKA KRALLIĞININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB Gİ VERHOFSTADTA

Hörmətli cənab Baş nazir!

Belçika Krallığının milli bayramı – Kralın Andiçmə günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında əməkdaşlığı inkişaf etdirmək üçün göstərdiyimiz birgə səylər xalqlarımızın rifahına öz töhfəsini verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *19 iyul 2002-ci il*

BELÇİKANIN KRALI ƏLAHƏZRƏT II ALBERTƏ

Əlahəzrət!

Belçika Krallığının milli bayramı – Kralın Andiçmə günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Belçika arasında yaranmış dostluq münasibətləri daim xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh və tərəqqi arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *19 iyul 2002-ci il*

GUÖAM TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN UKRAYNANIN YALTA ŞƏHƏRİNƏ İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BAKININ BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ

19 iyul 2002-ci il

H e y d ə r Ə l i y e v: Mənim Yaltaya getməyimin səbəbi məlumdur. Orada GUÖAM-ın növbəti zirvə görüşü keçiriləcəkdir. Sizə bundan savayı başqa bir şey deyə bilmərəm. Əgər sözünüz, suallarınız varsa, verin.

S u a l: Cənab Prezident, dövlətlərarası iqtisadi saziş imzalanacaqmı?

C a v a b: Orada bir çox saziş imzalanacaqdır.

S u a l: Cənab Prezident, zirvə görüşündə qərarlar konsensus əsasında qəbul olunur. Özbəkistanın bu görüşdə iştirak etməməsi sənədlərin qəbul olunmasına maneçilik törədə bilərmi?

C a v a b: Onun əhəmiyyəti yoxdur.

S u a l: Cənab Prezident, Yalta görüşü çərçivəsində münaqişələrlə bağlı müzakirələrin aparılacağı və xüsusi bəyanat veriləcəyi gözlənilirmi?

C a v a b: Müzakirələr, ümumiyyətlə, dünyada təhlükəsizlik və sabitlik haqqında aparılacaqdır. Bütün bu problemlər də buraya daxildir. Bu barədə də xüsusi qərar qəbul olunacaqdır.

S u a l: Cənab Prezident, görüşdə GUÖAM-ın möhkəmləndirilməsi, onun fəaliyyətinin səmərəsinin artırılması üçün hansı işlər görüləcək və bunun nəticəsini Siz necə təsəvvür edirsiniz?

C a v a b: Əgər bu təşkilat varsa və o, müəyyən olunmuş qaydada, təyin edilmiş vaxtlarda öz toplantılarını keçirirsə, hər belə zirvə görüşü o təşkilatın möhkəmlənməsinə kömək edir. Güman edirəm ki, bu dəfə də belə olacaqdır.

S u a l: Cənab Prezident, azad iqtisadi zonaların yaradılması ilə bağlı məsələ müzakirə ediləcəkmi?

C a v a b: Bəli, biz bu barədə saziş imzalayacağıq.

S u a l: Cənab Prezident, enerji sektoru ilə bağlı keçirilmiş müşavirədə Siz bildirmişdiniz ki, taxıl zəmilərində yanğın olan rayonların icra hakimiyyətlərinin başçıları buna görə məsuliyyət daşıyırlar. İki gün əvvəl Qusar rayonunda da belə bir yanğın baş vermişdir. Buna görə həmin rayonun icra hakimiyyətinin başçısı məsuliyyət daşıyırmı?

C a v a b: Bilirsiniz, kim nə üçün məsuliyyət daşıyır, bu həmişə araşdırılır. Mən sizdən çox xahiş edirəm, jurnalistsiniz, dəfələrlə sizə demişəm, səviyyənizi artırın. Dünyanın bir çox ölkələrində meşələr yanır. Meşələri yanan ölkələrin, nə bilim, prezidentlərini, qubernatorlarını və sair – bunları həbs etmək, yaxud məsuliyyətə cəlb etmək lazımdır? Hər bir faktın özünəməxsus xüsusiyyətləri var. Məsuliyyət də onunla müəyyən olunur. İndi sən belə bir sual verəndə özünü də pis vəziyyətə qoyursan, məni də məcbur edirəsən ki, sənə belə sərt cavab verim.

S u a l: Cənab Prezident, Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin rəsmi nümayəndəsi Riçard Bauçer bildirmişdir ki, biz Azərbaycanda referendumun təxirə salınmasına tərəfdarıq. Sizin buna münasibətiniz?

C a v a b: Biz referendumu təyin etmişik və avqustun 24-də də keçirəcəyik.

S u a l: Cənab Prezident, bir sıra müxalifət partiyaları referendumu boykot etmək barədə qərar çıxarıblar…

C a v a b: Bu onların öz işləridir. Bizdə demokratiyadır, hər bir partiya, yaxud da ki, təşkilat istədiyi işi görə bilər. Boykot edə bilsələr, qoy etsinlər.

S u a l: Cənab Prezident, Rusiya Xəzərdə hərbi təlimlərə hazırlıqla əlaqədar işləri yekunlaşdırır. Azərbaycan bu təlimlərdə iştirak edəcəkmi?

C a v a b: Azərbaycan bu hərbi təlimlərdə iştirak edəcəkdir.

S u a l: Müşahidəçi kimi iştirak edəcək?

C a v a b: Əgər iştirak edəcəksə, deməli, müşahidəçi deyildir.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN YALTAYA İŞGÜZAR SƏFƏRİ

GUÖAM-ın üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün Yaltaya işgüzar səfərə gedən Azərbaycan prezidenti Heydər Əliyev iyulun 19-da Sevastopolun «Belbek» hava limanına gəldi.

Hava limanında dövlətimizin başçısının şərəfinə Ukrayna Hərbi Dəniz Donanmasının matroslarından ibarət fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan prezidenti Heydər Əliyevi Ukrayna hökumətinin rəsmi şəxsləri, respublikamızın bu ölkədəki səfiri Tələt Əliyev səmimiyyətlə qarşıladılar. Milli geyimli ukraynalı qızlar prezident Heydər Əliyevə duz-çörək, Ukraynada yaşayan soydaşlarımızın uşaqları gül dəstəsi təqdim etdilər.

Dövlətimizin başçısı fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Azərbaycan prezidenti Heydər Əliyev hava limanından maşın karvanının müşayiəti ilə Yaltaya gəldi.

* * *

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin iyulun 19-da Yaltada Gürcüstan prezidenti Eduard Şevardnadze ilə təkbətək görüşü oldu.

Prezident Heydər Əliyev və prezident Eduard Şevardnadze bir-birini səmimiyyətlə salamlayaraq, yenidən görüşmələrindən çox məmnun qaldıqlarını bildirdilər.

GUÖAM-ın iyulun 20-də Yaltada keçiriləcək zirvə görüşündən söhbət açan dövlət başçıları ötən dövrdə bu təşkilat çərçivəsində əməkdaşlığın ölkələrimiz arasında əlaqələrin daha da sıxlaşdırılmasında mühüm rol oynadığını nəzərə çatdırdılar.

Prezident Heydər Əliyev və prezident Eduard Şevardnadze Azərbaycan ilə Gürcüstan arasında bütün sahələrdə münasibətlərin inkişaf məsələləri ətrafında fikir mübadiləsi apardılar.

Xəzərin karbohidrogen ehtiyatlarının nəqli sahəsində Azərbaycanın və Gürcüstanın əməkdaşlığından, regional layihələrin gerçəkləşməsində ölkələrimizin yaxından iştirakından söhbət açan prezidentlər Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin və Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisi ilə bağlı görülən işlər, qarşıda duran bir sıra vəzifələr barədə müzakirələr apardılar.

Regionda mövcud olan münaqişələrdən bəhs edən dövlət başçıları bunların dinc yolla aradan qaldırılması üçün bütün səylərin səfərbər edilməsinin zəruriliyini qeyd etdilər.

Mehribanlıq və səmimilik şəraitində keçən görüşdə prezidentlər beynəlxalq aləmdə, regionda vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi apardılar.

Görüşdən sonra dövlət başçılarının jurnalistlərin suallarına verdikləri cavab

S u a l: Siz zirvə görüşündən konkret olaraq nə gözləyirsiniz? Bu görüş Sizə nə verəcəkdir?

H e y d ə r Ə l i y e v: Gündəlikdə bir çox məsələlər var. Biz onları müzakirə edəcək, nəzərdən keçirəcəyik.

S u a l: Eduard Amvrosiyeviç, çox sayda xarici dövlətlərin GUÖAM-ın indiki zirvə görüşünə marağına səbəb nədir? Bu nə ilə bağlıdır ki, bu dəfəki sammitdə bir çox ölkələrdən və hətta

ABŞ-dan müşahidəçilər iştirak edirlər? Siz təşkilatınıza belə yüksək marağı nə ilə izah edirsiniz?

E d u a r d Ş e v a r d n a d z e: GUÖAM maraqlı təşkilatdır. Müəyyən etdiyimiz niyyətlərlə maraqlıdır. İndi GUÖAM-a Azərbaycan sədrlik edir, artıq yeddi saziş, o cümlədən də azad ticarət zonası yaradılması haqqında saziş hazırlanıbdır. Bilirsinizmi, bu problem, demək olar, yeddi ildir müzakirə edilir. Bu, böyük nailiyyətdir, bu, təşkilatın daha da möhkəmlənməsinə, eləcə də bir çox işlərə böyük təkandır. Biz artıq mədəni əlaqələrin möhkəmlənməsindən danışırıq. Bir sözlə, o, lazımi təşkilatdır.

* * *

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev iyulun 19-da Yaltada Ukrayna prezidenti Leonid Kuçma ilə təkbətək görüş keçirmişdir.

Dövlətimizin başçısını səmimiyyətlə, mehribanlıqla qarşılayan prezident Leonid Kuçma prezident Heydər Əliyevi Yaltada salamlamaqdan və onunla yenidən görüşməyindən çox məmnun qaldığını söylədi.

Səmimi sözlərə və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən dövlətimizin başçısı sammitin keçirilməsi üçün yaradılan gözəl şəraitdən razılıqla söhbət açdı.

Prezident Leonid Kuçma Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin sammitə sədrliyini məmnuniyyətlə qeyd edərək, bu zirvə görüşünün üzv dövlətlərin qarşılıqlı surətdə faydalı əməkdaşlığına yeni məzmun verəcəyinə ümidvar olduğunu bildirdi.

Zirvə görüşünün ölkələrimiz arasında mövcud olan dostluq, əməkdaşlıq münasibətlərini daha da möhkəmləndirəcəyini nəzə-

rə çatdıran prezidentlər beynəlxalq və regional təşkilatlarda Azərbaycan ilə Ukraynanın qarşılıqlı əməkdaşlığının hər iki tərəf üçün çox faydalı olduğunu vurğuladılar.

Xəzərin Azərbaycan sektorundakı karbohidrogen ehtiyatlarının nəqlində ölkələrimizin əməkdaşlığının böyük əhəmiyyət daşıdığını vurğulayan dövlət başçıları bu layihələrin həyata keçirilməsində Azərbaycan və Ukraynanın qarşılıqlı fəaliyyəti barədə məsələləri nəzərdən keçirdilər.

Ölkələrimiz qarşısında duran problemlərdən, vəzifələrdən söhbət açan prezidentlər respublikamız üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması sahəsində ATƏT-in Minsk qrupu çərçivəsində görülən işlər və nizamasalma prosesi barədə fikir mübadiləsi apardılar.

Ənənəvi mehribanlıq və səmimilik şəraitində keçən söhbət zamanı tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə edildi.

* * *

Həmin gün axşam Ukrayna prezidenti Leonid Kuçmanın adından zirvə görüşü iştirakçılarının şərəfinə rəsmi qəbul təşkil olundu. Azərbaycan prezidenti Heydər Əliyev qəbulda iştirak edirdi.

GUÖAM-ın ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNÜN AÇILIŞ MƏRASİMİ

Yalta,
Livadiya sarayı

20 iyul 2002-ci il

GUÖAM-ın üzvü olan ölkələrin dövlət başçıları – Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev, Gürcüstan prezidenti Eduard Şevardnadze, Moldova Respublikasının prezidenti Vladimir Voronin, habelə Özbəkistanın Ukraynadakı səfiri Şamansur Şaxəlilov Livadiya sarayına gəldilər.

Ukrayna prezidenti Leonid Kuçma Azərbaycan prezidentini səmimiyyətlə salamladı.

Sonra Livadiya sarayında GUÖAM-ın üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşü öz işinə başladı. Ukrayna prezidenti Leonid Kuçma giriş sözü söylədi, sonra GUÖAM-a sədrlik edən Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevə söz verdi.

H e y d ə r Ə l i y e v: Zirvə görüşü iştirakçılarının ünvanına dediyi səmimi təbrik sözlərinə görə Ukrayna prezidenti hörmətli Leonid Daniloviç Kuçmaya təşəkkür edirəm.

İndi isə mənə icazə verin, artıq deyildiyi kimi, GUÖAM-ın hazırkı sədri kimi, ümumi iclasımızı davam etdirim. Zirvə görüşümüzün gündəliyi məlumdur. Bir neçə gün bundan əvvəl Bakıda GUÖAM-ın üzvü olan ölkələrin xarici işlər nazirlə-

rinin görüşü olmuşdur. Görüşdə onlar qarşıdakı zirvə toplantısının gündəliyini müzakirə və təsdiq etmişlər. Gündəlik bütün dövlət başçılarında və nümayəndə heyətlərinin üzvlərində vardır. Burada gündəliyi oxumağa ehtiyac varmı? Yoxdur.

Onda gündəlik qəbul edilmiş hesab olunur. Buna görə də icazə verin, məsələlərin müzakirəsinə keçək. Yəqin ki, hamımız birgə rəsmi yekun məlumatların qəbul edilməsi ilə birlikdə gündəlikdə 8 məsələ olması ilə razıyıq. Görünür, bu məsələlərin hər birini ayrı-ayrılıqda müzakirə etməyə ehtiyac yoxdur. Buna görə də yəqin ki, dövlət başçılarının çıxışlarında bu gün müzakirəyə çıxardığımız gündəliklə bağlı əsas müddəalar əksini tapacaqdır. Buna etiraz eləyən yoxdur ki? Yoxdur.

Onda icazə verin, bizdə qəbul edilmiş qaydaya əsasən, dövlət başçılarının rus əlifbası sırası ilə çıxış etdiyini nəzərə alaraq, indi artıq zirvə görüşünün iştirakçısı kimi çıxış edim.

GUÖAM-ın ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNÜN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

Yalta,
Livadiya sarayı

20 iyul 2002-ci il

Hörmətli dövlət başçıları, dostlar!
Xanımlar və cənablar!

İcazə verin, qonaqpərvərliyə görə, Krımın bu gözəl guşəsində işimiz üçün əla şərait yaradıldığına görə zirvə görüşünün təşkilatçılarına, ilk növbədə, dostumuza – Ukrayna prezidenti Leonid Daniloviç Kuçmaya səmimi minnətdarlığımı bildirim.

Qeyd etmək mənə xoşdur ki, Yalta sammiti GUÖAM-ın dövlət başçılarının artıq beşinci görüşü, eyni zamanda, təşkilatımızın üzvü olan dövlətin ərazisində, digər beynəlxalq hadisələr çərçivəsindən kənarda keçirilən ikinci sammitidir. Yeri gəlmişkən, hər iki sammit Ukraynanın ərazisində, gözəl Yaltada təşkil olunmuşdur.

Biz bütün beş ölkənin bərabər hüquqlara və imkanlara malik olduğu nadir regional qarşılıqlı fəaliyyət strukturu yaratmışıq. Hesab edirəm ki, mənafelərimizin ümumiliyinə və bir-birimizə gərək olduğumuza heç kimin şübhəsi yoxdur.

Ötən illər ərzində Birliyimiz özünün həyat qabiliyyətini təsdiqləmiş və əməkdaşlıq üçün böyük potensial olduğunu gös-

tərmişdir. Xalqlarımız arasındakı tarixi, ənənəvi sıx əlaqələrə söykənən qarşılıqlı fəaliyyətin inkişafı üçün möhkəm bünövrə qoyulmuşdur. Bizim birgə fəaliyyətimizin məqsədləri və başlıca istiqamətləri müəyyən edilmişdir. Bugünkü görüşümüzdə digər sənədlərlə yanaşı, təşkilatdaxili əlaqələrimizin və tərəfdaşlarımızla münasibətlərimizin möhkəmlənməsinə təkan verməli olan iki sənəd – «GUÖAM Dövlətlərinin Xarici İşlər Nazirləri Şurası haqqında Əsasnamə» və «GUÖAM-ın Kiyevdəki İnformasiya ofisi haqqında Müvəqqəti Əsasnamə» də imzalanacaqdır. Əminəm ki, yaradılan bu orqanlar qarşılıqlı surətdə faydalı əməkdaşlığımızın möhkəmlənməsində və inkişafında mühüm rol oynayacaqdır. Yaltadakı görüşümüz məsul tarixi məqamda, dərin dəyişikliklər, ciddi təhdidlər və böyük ümidlər dövründə, təhlükəsizliyin yeni arxitekturasının inkişafı şəraitində keçir. Dünyada gedən proseslər, ilk növbədə qloballaşma ölkələrimiz qarşısında yeni imkanlar açır, eyni zamanda, yeni vəzifələr və tələblər də qoyur.

Müstəqilliyin təşəkkül tapması uğrunda on illik keşməkeşli mübarizədən keçən dövlətlərimiz dünya sisteminə inteqrasiya edilmiş cəmiyyətlər – qanunun aliliyi, siyasi plüralizm və bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan demokratik cəmiyyətlər qurulması yolu ilə dönmədən irəliləyirlər.

Bu baxımdan biz GUÖAM çərçivəsində əməkdaşlığı dövlətlərimizin suverenliyi və müstəqilliyinin möhkəmlənməsinə, onların sabit inkişafının təmin olunmasına və xalqlarımızın rifahının yüksəlməsinə, dünya sisteminə inteqrasiyaya kömək etməli olan mühüm amil kimi qiymətləndiririk.

Qarşıya qoyulmuş məqsədlərə çatmağa doğru yolda biz dövlətlərimizin təhlükəsizliyi baxımından çoxsaylı təhdidlərlə və hədə-qorxularla üzləşirik. Mən təcavüzkar separatizm, terrorizm, dini və milli ekstremizm, dövlətlərin daxili işlərinə

qarışmaq, silahlı təcavüz, ərazilərin işğalı, qanunsuz silah alveri, narkobiznes kimi halları və hərəkətləri nəzərdə tuturam. Bütün bu təhlükələr təşkilatımızın üzvü olan beş dövlətdən üçünün ərazisində törədilmiş silahlı münaqişələrdə daha açıq-aydın təzahür etmişdir.

Ona görə də biz həmin münaqişələrin dincliklə nizama salınması yolunda real uğurların olmaması ilə əlaqədar öz dərin narahatlığımızı ifadə etməyə bilmərik. Təcavüzkarların və separatçıların hərəkətləri ilə barışmaq meylinin müşahidə edilməsi, bəzən isə münaqişə zonasındakı vəziyyəti möhkəmlətmək və qanuniləşdirmək cəhdlərinə açıq-aşkar göz yumulması, bəzi vasitəçilərin «baş vermiş fakt» əsasında «asan» nizamasalmaya çalışması, etnik təmizləmələri və işğalı tanımağa cəhd göstərilməsi yalnız gərginliyin artmasına gətirib çıxarır və münaqişələrin, həqiqətən ədalətli həlli perspektivini uzaqlaşdırır.

Deməliyəm ki, nə qədər çox vaxt keçirsə, bu münaqişələrin nizama salınması ilə məşğul olmalı olan beynəlxalq təşkilatlar, aparıcı ölkələrin münaqişələrin həlli üçün birləşən ayrı-ayrı qrupları, təəssüf ki, getdikcə daha çox məhz belə mövqe – məqbul sayılmayan mövqe və münaqişələrin həllini beynəlxalq hüquq, hər bir ölkənin suverenliyi, ərazi bütövlüyü və dövlət sərhədlərinin toxunulmazlığı əsasında təmin edə bilməyən mövqe tuturlar.

Mən bunun üzərində ona görə ayrıca dayandım ki, biz, bir yandan, beynəlxalq hüquq prinsiplərinə əməl olunmasının zəruriliyi, yəni hər bir dövlətin suverenliyinin, hər bir ölkənin ərazi bütövlüyünün, dövlət sərhədlərinin toxunulmazlığı və pozulmazlığının təmin edilməsi barədə həm bütün beynəlxalq təşkilatlar tərəfindən, həm də böyük dövlətlər tərəfindən bəyanatlar eşidirik. Bəli, belə bəyanatlar tez-tez edilir, amma

bununla belə, münaqişənin həllinə dair artıq əməli iş görüləndə, təəssüf ki, son vaxtlar onların çoxu bizi inandırmağa çalışır ki, bilirsinizmi, baş vermiş faktla razılaşmaq lazımdır, hansısa bir yol tapmaq gərəkdir. Məgər beynəlxalq hüquq prinsiplərinə əməl etməkdən başqa, ayrı bir yol ola bilərmi?! Əgər beynəlxalq hüquq prinsipləri bizim inandığımız və böyük ümidlər bəslədiyimiz, öz prinsiplərinin dəyişməz olduğunu bəyan edən, praktikada isə bizə hansısa başqa bir yol axtarmağı məsləhət görən Birləşmiş Millətlər Təşkilatı, ATƏT və digər beynəlxalq təşkilatlar tərəfindən təsdiqlənmişsə, onda ikili standart əmələ gəlir. Zənnimcə, müşahidə etməyə başladığımız ən təhlükəli meyl məhz bundan ibarətdir. Əgər bu meyl dayandırılmasa, onda, ümumiyyətlə, beynəlxalq hüququn mövcudluğuna son qoyular və o, ayrı-ayrı güclü və ya hər hansı səbəblər üzündən müəyyən üstünlüyə yiyələnmiş ölkələrin ixtiyarında olacaqdır. Ancaq biz bununla razılaşa bilmərik. Mən bu çox mühüm məsələ üzərində dayanmaq üçün sizin bir qədər vaxtınızı almağı lazım bildim. İndiki mərhələdə bu məsələ – Cənubi Qafqazdakı münaqişələrin sülh yolu ilə nizama salınması təcrübəsindən çıxış edərək, bu barədə danışmağa əsasım var – bu meyl, təəssüflər olsun ki, getdikcə daha geniş yayılır. Biz onu dayandırmalıyıq.

Beynəlxalq hüququn BMT Nizamnaməsində, Helsinki Yekun Aktında, BMT-nin və ATƏT-in başqa sənəd və qərarlarında təsbit edilmiş hamılıqla tanınmış norma və prinsipləri münaqişələrin tez bir zamanda sülh yolu ilə həllinin əsaslanmalı olduğu təməldir. Müstəqil dövlətlərin suverenliyinin, ərazi bütövlüyünün və beynəlxalq aləmdə tanınmış sərhədlərinin pozulmasının bundan sonra da davam etməsi daha böyük fəlakətə gətirib çıxaracaqdır. Biz dincliklə nizamasalmada beynəlxalq birliyin yardımına ümid bəsləməklə yanaşı, bu

təhdidlərə qarşı durmaq və münaqişələrin həllinə şərait yaratmaq üçün GUÖAM çərçivəsində səylərimizi birləşdirməliyik.

Ölkələrimiz bu təhdidlərin ciddiliyinə və onların üstündən sükutla keçilməsinin yolverilməzliyinə, onların daha asanlıqla aradan qaldırılması yollarının axtarışına Dünya Birliyinin diqqətini lap əvvəldən cəlb etmişdir. 2001-ci ilin 11 sentyabr hadisələri bütün dünyanı sarsıtdı. Həmin gün ABŞ-da törədilmiş terror əməlləri planetimizdə sülh və təhlükəsizlik üçün ən ciddi qorxu olan beynəlxalq terrorizm və ekstremizm qarşısında ümumi gücsüzlüyümüzü bizim hamımıza əyani surətdə nümayiş etdirdi.

Bizim dövlətlərimiz terrorizmə qarşı beynəlxalq koalisiyaya elə ilk gündən qoşuldu. Azərbaycan antiterror koalisiyasında iştirakını dərhal bəyan etdi və bu mövqelərə sadiq qalır. Bizim birlik də bu mübarizəyə öz sanballı töhfəsini verərək, belə vəşhi terror hərəkətlərini pisləyən müvafiq bəyanatlarla çıxış etmişdir. Amma biz bununla kifayətlənməməliyik.

Bu baxımdan, bu gün qəbul edəcəyimiz sənədlərin – «Regionda sabitliyin və təhlükəsizliyin təmin edilməsi sahəsində birgə səylər haqqında bəyannamə»nin, habelə terrorizmlə, mütəşəkkil cinayətkarlıqla və digər təhlükəli cinayətlərlə mübarizə sahəsində əməkdaşlığa dair sazişin əhəmiyyətini vurğulamaq istəyirəm.

Bizim əməkdaşlığımız öz təzahürünü bir sıra sahələrdə tapan ümumi mənafelərə əsaslanır. Onların arasında GUÖAM çərçivəsində iqtisadi əməkdaşlıq xüsusi yer tutur. Ölkələrimiz qarşılıqlı ticarət-iqtisadi münasibətlərin inkişafından çox böyük fayda götürəcəklər. Əminəm ki, bu gün imzalanacaq «GUÖAM-ın üzvü olan dövlətlər arasında azad ticarət zonası yaradılması haqqında saziş» yaxşı zəmin olacaqdır.

Ticarət-iqtisadi sahədə və digər əlaqədar sahələrdə milli qanunvericiliklərin təkmilləşdirilməsindən, qanunların tətbiqi praktikasının yaxşılaşdırılmasından və qəbul edilən qərarların icrasından çox şey asılı olacaqdır. Sahə işçi qruplarının fəaliyyətini qaydaya salmaq, habelə ölkələrimizin sahibkarları və biznes dairələri arasında birbaşa əlaqələrin inkişafını dəstəkləmək lazımdır. Bu gün imzalamağa təqdim olunacaq «GUÖAM-ın üzvü olan ölkələrin İşgüzar Şurasının yaradılması haqqında saziş» də məhz bu məsələlərin həllinə həsr edilmişdir.

Bizim əlaqələrimizin inkişafında və möhkəmlənməsində nəqliyyat sahəsində əməkdaşlıq olduqca böyük rol oynayır. Bu əməkdaşlıq dövlətlərimizin əlverişli coğrafi mövqeyinə əsaslanır. TRASEKA-nın da, strateji cəhətdən digər mühüm marşrutların da keçdiyi GUÖAM məkanında nəqliyyat dəhlizlərinin səmərəli və təhlükəsiz fəaliyyətinin təmin olunması üçün biz hələ çox işlər görməliyik. Söhbət təkcə nəqliyyat infrastrukturunun inkişafından və tranzit üçün əlverişli şərait yaradılmasından deyil, həm də bu dəhlizlər vasitəsilə hər cür qeyri-leqal transferlərin qarşısının alınmasından gedir.

Hörmətli həmkarlar!

Beynəlxalq təşkilatlar çərçivəsində siyasi və praktiki əməkdaşlığın qaydaya salınması və yuxarıda adı çəkilən sahələrdə transregional layihələrin həyata keçirilməsi GUÖAM-ın beynəlxalq mövqelərini möhkəmlətməyin çox mühüm elementləridir. BMT-də, ATƏT-də, Avropa Şurasında qarşılıqlı fəaliyyət sahəsində müsbət təcrübəmiz var, digər regional strukturlarla, habelə ölkələrlə dialoq qaydaya salınır, NATO və Avropa Birliyinin GUÖAM-a marağı artır. Bu nailiyyətləri daha da inkişaf etdirmək lazımdır.

Mən burada müxtəlif beynəlxalq təşkilatları və dövlətləri təmsil edən qonaqları görməyimə şadam. Hesab edirəm ki, bu,

Birliyimizin potensialının və artıq qazanmış olduğu nüfuzun beynəlxalq aləmdə daha çox etirafının parlaq sübutudur və «GUÖAM-ın fəaliyyətində müşahidəçilərin statusu haqqında qərar»ın qəbul edilməsinin məqsədəuyğunluğunu təsdiqləyir. Həmin qərar GUÖAM-ın coğrafi-siyasi miqyasının genişlənməsinə, onun imkanlarının və beynəlxalq əlaqələrinin dinamikasının güclənməsinə, dövlətlərarası və regionlararası əməkdaşlığın yeni çərçivələrinin yaranmasına və inkişafına kömək edəcəkdir.

Mədəniyyət, din, elm, təhsil sahələrində mübadilələrinin inkişafına xidmət edəcək Avropa–Qafqaz–Asiya mədəni dəhlizinin yaradılması barədə GUÖAM-ın irəli sürdüyü təşəbbüs humanitar əməkdaşlığın geniş perspektivləri çərçivəsində çox ümidverici layihədir. Güman edirəm ki, mədəniyyət sahəsində əməkdaşlıq haqqında bu gün imzalanan protokol bu təşəbbüsün həyata keçirilməsinə lazımi təkan verəcəkdir.

Əziz dostlar!

Sonda da qeyd etmək istərdim ki, GUÖAM-ın indiki zirvə görüşünün yekunları Birliyimizin zəifliyi barədə səslənən bütün bədbin fikirlərə ən yaxşı cavabdır. Bu gün qəbul edilən sənədlər GUÖAM-ın bir təşkilat kimi, inkişafı yolunda daha bir ciddi addımdır. GUÖAM-ın indiki və əvvəlki zirvə görüşlərinin yekun sənədlərində təsbit olunmuş məqsəd və vəzifələrin həyata keçirilməsi nəinki siyasi, ticarət-iqtisadi, humanitar və başqa sahələrdə əməkdaşlığın inkişafına səbəb olacaq, həm də beynəlxalq birlikdə dövlətlərimizin mövqelərini möhkəmlədəcək və dünya inteqrasiya prosesinə layiqli birgə töhfə verməyə imkan yaradacaqdır.

Əziz dostlar, diqqətinizə görə təşəkkür edirəm!

* * *

Gürcüstan prezidenti Eduard Şevardnadze, Moldova prezidenti Vladimir Voronin, Ukrayna prezidenti Leonid Kuçma da iclasda nitq söylədilər.

Azərbaycan prezidenti Heydər Əliyev iclasa yekun vurdu.

Daha sonra GUÖAM-ın üzvü olan ölkələrin dövlət başçıları «Regionda sabitliyin və təhlükəsizliyin təmin edilməsinə dair ümumi səylər haqqında bəyannamə»ni, «GUÖAM-ın fəaliyyətində müşahidəçilərin statusu haqqında GUÖAM-ın üzvü olan ölkələrin dövlət başçılarının qərarı»nı, «GUÖAM dövlətlərinin Xarici İşlər Nazirləri Şurası haqqında Əsasnamə»ni «GUÖAM-ın zirvə görüşünün yekunları»na dair birgə rəsmi məlumatı imzaladılar. Üzv ölkələrin xarici işlər, mədəniyyət nazirləri, ticarət-sənaye palatalarının başçıları da müvafiq sənədlər imzaladılar.

* * *

Azərbaycan prezidenti Heydər Əliyev sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra çıxış edərək dedi:

Hörmətli dövlət başçıları!

Xanımlar və cənablar!

Dostlar!

Bütün aktual məsələlər üzrə belə geniş sənədlər paketin imzalanması və qəbul olunması münasibətilə sizi təbrik edirəm. Əminəm ki, bu sənədlərin imzalanması ilə biz GUÖAM-ın inkişafında yeni mərhələ açırıq. Bu mərhələ Birliyimizin regional təşkilat kimi təşəkkül tapması yolunda daha bir addım olacaqdır. Həmin sənədlər əməkdaşlığımızı intensivləşdirmək və genişləndirmək üçün mühüm vasitəyə çevriləcəkdir.

Ötən ilin sentyabrındakı məlum hadisələrdən sonra sürətlə təşəkkül tapan keyfiyyətcə yeni şərait təhlükəsizlik və terro-

rizm təhdidi ilə mübarizə sahəsində ölkələrimizdən getdikcə daha müştərək səylər göstərilməsini tələb edir. İnanıram ki, təşkilatımızın fəaliyyətində növbəti mərhələlər qarşılıqlı surətdə faydalı layihələrin həyata keçirilməsi ilə əlamətdar olacaqdır. Bu layihələr ölkələrimizin dövlətçiliyinin daha da inkişaf etməsinə və möhkəmlənməsinə təkan verəcək, dövlətlərimizin beynəlxalq strukturlara inteqrasiyası prosesinə kömək göstərəcək.

Bizim indiki görüşümüzdə fəal və səmərəli şəkildə iştirak etdiklərinə görə bütün dövlət başçılarına təşəkkür etmək, habelə əla iş şəraitinə və bu zirvə görüşünün gözəl təşkilinə görə Ukrayna prezidentinə, dostumuz Leonid Daniloviç Kuçmaya hamımızın səmimi və dərin minnətdarlığını bir daha bildirmək istəyirəm.

Hörmətli həmkarlar!

Bizim bu görüşümüzün sonunda – mən artıq bu barədə dedim – Azərbaycanın GUÖAM-da sədrlik müddətinin başa çatdığını qəti şəkildə elan etməliyəm. Bu gün mən bu fəxri vəzifəni Gürcüstan prezidenti Eduard Amvrosiyeviç Şevardnadzeyə ötürürəm. GUÖAM-ın sədri olaraq Azərbaycan Birliyimizin müəyyənləşdirdiyimiz istiqamətlərdə inkişafı üçün var qüvvə ilə çalışmışdır. Əminəm ki, Gürcüstan GUÖAM-ın 2003-cü ildə keçiriləcək növbəti zirvə görüşünədək olan dövr ərzində bu mühüm prosesi layiqincə davam etdirəcəkdir.

Sizin hamınıza, GUÖAM-ın Yalta zirvə görüşünün bütün iştirakçılarına bir daha təşəkkürümü bildirirəm. Beləliklə, mən zirvə görüşünü bağlı elan edirəm.

YALTA ZİRVƏ GÖRÜŞÜNÜN YEKUN SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA GUÖAM-ın ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ MƏTBUAT KONFRANSI

Yalta,
Livadiya sarayı

20 iyul 2002-ci il

S u a l: Leonid Daniloviç, Siz xüsusən MDB ərazisində GUÖAM-ın rolunu necə qiymətləndirirsiniz? İkinci sual isə bütün prezidentlərədir. Sizin bugünkü çıxışlarınız göstərdi ki, mənafelərin dramaturgiyası yetərincə mürəkkəbdir. Siz əminsinizmi ki, yaradılması haqqında bu gün saziş imzaladığınız azad ticarət zonası reallığa çevriləcəkdir?

L e o n i d K u ç m a: Şəxsən mən, sadəcə, əminəm ki, ölkələrimizin inkişafının azad ticarət zonası vasitəsilə inkişafdan savayı, ayrı bir inkişaf yolu mövcud deyildir. Əmtəənin və kapitalın sərbəst hərəkətinə imkan vermək lazımdır, ona görə ki, bütün dünya bu prinsiplə inkişaf edir. Yox, əgər biz öz qınımıza qapılsaq, necə deyərlər, öz mənzillərimizə çəkilsək, bunun nəticəsi məlumdur. Mən dünən dedim ki, MDB-nin bütün mövcudluğu ərzində Ukrayna həmişə azad ticarət zonasına tərəfdar olmuşdur. Amma gördüyünüz kimi, biz bir nəticə əldə etməmişik. Biz hesab edirik ki, hər halda, biz bir-

birimizi anlamaq üçün, ikincisi isə, bütün mexanizmlərin işlənib hazırlanması üçün çox ciddi addımlar atırıq. Bu zonanın işləyəcəyinə isə, Ukrayna prezidenti kimi, mənim heç bir şəkk-şübhəm yoxdur. O, Ukraynaya lazımdır və əminəm ki, birliyə daxil olan ölkələrə də gərəkdir.

S u a l: Mən sualımı Ukrayna və Moldova prezidentlərinə ünvanlamaq istərdim. Məlumdur ki, GUÖAM-ın kontekstində Avrasiya neft nəqli dəhlizinin həlli problemi dəfələrlə xatırlanır. Adı hallandırılan bu borunun Moldova ərazisindən keçməsi nə dərəcədə güman edilir?

L e o n i d K u ç m a: Mənim cavabım çox sadədir. Zənnimcə, borunun ərazidən keçməsi çox da vacib deyildir. Vacib olan Moldovanın bu layihədə iştirakıdır. Biz Moldovanı bu prosesin, Odessa–Brodı, oradan da Qdanska gedəcək nəqliyyat dəhlizi üzrə hazırda yaratdığımız konsorsiumun tamhüquqlu iştirakçısı olmağa dəvət edirik.

V l a d i m i r V o r o n i n: Elə etmək lazımdır ki, boru kəməri, hər halda, Moldova ərazisindən keçsin. Leonid Daniloviç, belə olarsa, biz onun maliyyələşdirilməsinə qoşular və gələcəkdə tranzitdən gəlir əldə edə bilərik. Əks təqdirdə, biz, sadəcə olaraq, tranzitsiz qala bilərik. Leonid Daniloviç, ona görə də biz bu məşhur boru kəməri ilə nə isə nəql edə biləcək ölkələrlə birgə işləyəcəyik ki, həmin boru kəməri Moldovadan da, Ukraynadan da keçsin və biz ondan ölkələrimizin rifahı naminə istifadə edə bilək.

S u a l: Mənim sualım Azərbaycan prezidenti Heydər Əliyeviçədir. GUÖAM-ın üzvü olan üç dövlət hələ də millətlərarası, silahlı münaqişələr girdabındadır və bu münaqişələr hələ də öz həllini gözləyir. Bugünkü zirvə toplantısında bu barədə söhbət getdimi və bu gün imzalanmış sənədlər münaqişələrin həllinə necə kömək edə bilər? İkinci sualım isə Ukrayna prezidentinə-

dir. İndiki zirvə görüşündə çoxlu əcnəbi müşahidəçi iştirak edir. Bu, beynəlxalq birliyin quruma marağının artdığını sübut edir. Necə bilirsiniz, Qərbin aparıcı ölkələri, o cümlədən ABŞ Sizin bu gün bəyan etdiyiniz iddialı layihələrin həyata keçirilməsinə nə dərəcədə kömək edə bilərdilər?

H e y d ə r Ə l i y e v: Azərbaycanlı müxbir Azərbaycan prezidentinə sual verir… Burada bu qədər prezident var, onlara sual vermək lazımdır, mənə evdə də sual verə bilərsiniz… Sizin sualınıza mən öz çıxışımda müəyyən dərəcədə cavab verdim. Yəni mən məhz münaqişələr, onların uzun müddət davam etməsi, dünyanın müxtəlif regionlarında, ələlxüsus da bizim regionda – Cənubi Qafqazda sabitliyin pozulması barədə danışdım. Lakin bu münaqişələrin qarşısını almaq, onları sülh yolu ilə həll etmək üçün təsirli tədbirlər görülmür. Bütün beynəlxalq təşkilatlar bizi məsələni sülh yolu ilə nizama salmağa çağırır. Biz özümüz də bunu istəyirik, yəni biz hərbi əməliyyatların yenidən başlanmasını istəmirik. Biz sülh istəyirik, Azərbaycanın ərazisinin 20 faizini işğal etmiş, işğal etdikləri ərazilərdən 1 milyondan çox azərbaycanlını yurd-yuvalarından qovmuş Ermənistanla müharibəni də biz başlamamışıq. Bu qaçqınlar 10 ildir ki, çadır şəhərçiklərində ağır şəraitdə yaşayırlar.

Bu müharibənin və bu faciələrin günahkarı biz deyilik. Bununla belə, biz həmin məsələni sülh yolu ilə həll etmək istəyirik. Lakin problemi sülh yolu ilə həll etmək üçün beynəlxalq təşkilatların – Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in və digər təşkilatların fəal köməyi lazımdır. Özü də, məsələn, ATƏT Ermənistan–Azərbaycan münaqişəsini həll etmək üçün hələ 10 il bundan əvvəl – 1992-ci ildə xüsusi Minsk qrupu yaratmışdır. Hazırda üç böyük dövlət – Rusiya, Amerika Birləşmiş Ştatları

və Fransa bu qrupa rəhbərlik edir. Lakin bizim onlarla uzun illər davam edən əməkdaşlığımız heç bir nəticə vermir.

Onların bizə məsləhəti bundan ibarət olur ki, qoy Ermənistan və Azərbaycanın rəhbərləri öz aralarında razılığa gəlsinlər, bu halda, Minsk qrupu və digər beynəlxalq təşkilatlar bizə kömək göstərəcəklər. Yəni söhbət münaqişəyə son qoyulması barədə razılıq əldə edildikdən sonrakı köməkdən gedir. Əlbəttə, belə köməyə ehtiyacımız olacaqdır. Amma əvvəlcə münaqişəni aradan qaldırmaq lazımdır. Məhz bu məsələdə biz indiyədək beynəlxalq təşkilatların, o cümlədən ATƏT-in Minsk qrupunun fəaliyyətini hiss etmirik. Ona görə də bu gün, açığını deyim, şübhə etməyə başlayıram, görəsən, doğrudanmı bütün kiçik və böyük dövlətlər, bütün beynəlxalq təşkilatlar beynəlxalq hüququn sarsılmazlığı, hər bir dövlətin beynəlxalq aləmdə tanınmış çərçivəsində suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığı mövqeyində möhkəm dayanır? Bax, vəziyyət belədir. Mən bir daha bu barədə ürək ağrısı ilə danışıram. Yenə də əlavə edirəm ki, buna baxmayaraq, biz münaqişənin dincliklə həlli yollarını axtarmaqda davam edirik.

L e o n i d K u ç m a: Biz bu gün zirvə görüşündə iştirak etdiklərinə görə beynəlxalq təşkilatlardan olan bütün qonaqlarımıza, müşahidəçilərə təşəkkürümüzü bildiririk.

Bu gün zirvə görüşünün işinə bir çox ölkələrin diqqətinin cəlb olunması bizi həqiqətən sevindirir. Bu gün bizim ümumi fikrimiz var, mən Xəzər dənizindən Qara dənizə qədər yolun – həm nəqliyyat, energetika və digər sahələrdə, həm də əmtəə və kapitalın hərəkəti baxımından Avropaya ən vacib strateji marşrutlardan biri olmasını nəzərdə tuturam. Lakin böyük ölkələrin, o cümlədən Amerika Birləşmiş Ştatlarının burada iştirakı bizim – birlik iştirakçılarının öz niyyətlərimizin nə dərəcədə ciddi olduğunu göstərəcəyimizdən asılı olacaqdır.

Bugünkü zirvə görüşü isə belə bir əminlik yaradır ki, biz həqiqətən, bundan əvvəlki görüşlərimizdə heç yaxın düşə bilmədiyimiz sənədlər imzaladıq.

Ümid edirik ki, bu gün müşahidəçilər bizim işimizi nəzərdən qaçırmadılar.

S u a l: Cənab Şevardnadze, cənab Kuçma, GUÖAM-ı tammiqyaslı regional təşkilata çevirmək nəzərdə tutulurmu? Özbəkistanın rolu nədən ibarət olacaq və bundan sonra GUÖAM regional təhlükəsizlik məsələləri və problemləri ilə məşğul olacaqmı?

E d u a r d Ş e v a r d n a d z e: Mən Özbəkistandan başlamaq istəyirəm. Bəyanatda deyildiyi kimi, bu ölkənin təşkilatımızdan çıxması məsələsi həll olunmayıbdır və bu gün Özbəkistanın nümayəndəsi prezidentin şəxsi nümayəndəsi kimi iştirak etdi. Hadisələrin bundan sonra necə inkişaf edəcəyini, mən deyərdim ki, bu cür çaşqınlığın həqiqi səbəblərini zaman göstərəcəkdir.

Regional təşkilata çevrilib-çevrilməyəcəyimizə gəldikdə isə, zənnimcə, bu məsələdə şübhə olmamalıdır. Mən çıxışımda dedim ki, bir müddətdən sonra başqa ölkələrin də təşkilatımıza qoşula biləcəyinə, onda miqyasımızın da, fəaliyyətimizin də, müvafiq olaraq, mənafelərimizin də genişlənəcəyinə şübhə etmirəm. Bir sözlə, addımbaaddım, tədricən, mərhələ-mərhələ çalışacağıq ki, ictimai təşkilatlar və başlıca olaraq, beynəlxalq təşkilatlar bizi ciddi bir qüvvə, əgər bilmək istəyirsinizsə, regional təşkilat kimi tanısınlar.

Bu gün əsas məsələlər barədə prinsipial razılıqlar əldə edildi. Bunlar təhlükəsizlik problemləri, iqtisadi əməkdaşlıq problemləridir. Hesab edirəm, bu, sadəcə olaraq, tarixi hadisədir ki, biz, dörd dövlət azad ticarət zonası haqqında razılığa gələ bildik. Biz digər təşkilatlarla, birliklərlə buna çoxdan

çalışırdıq. Gürcüstan prezidenti kimi, mən öz borcumu – çünki qarşıdakı bir ildə biz sədrlik edəcəyik – bunda görürəm ki, məhz bu saziş var gücü ilə işləsin.

Konkret olaraq, adamlar, dövlətlərimiz yəqin etməlidirlər ki, biz bu sahədə həqiqətən irəliləmişik, bu, bütün dövlətlər, bütün xalqlar, bütün vətəndaşlar üçün faydalıdır.

L e o n i d K u ç m a: Mən Eduard Şevardnadzenin dediklərinin hamısına tam şərikəm. Yalnız onu əlavə etmək istəyirəm ki, 11 sentyabrdakı məlum hadisələrdən sonra biz terrorizmlə, çirkli pulların qanuniləşdirilməsi və digər cinayətlərlə mübarizə problemləri ilə məşğul olmaya bilmərik. Ona görə də bu gün müvafiq sənədlər qəbul edildi.

* * *

Mətbuat konfransından sonra dövlət başçıları Livadiya sarayının qarşısında birgə xatirə şəkli çəkdirdilər.

Günortadan sonra Ukrayna prezidenti Leonid Kuçmanın adından GUÖAM-ın üzvü olan ölkələrin dövlət başçılarının şərəfinə rəsmi qəbul təşkil olundu. Azərbaycan prezidenti Heydər Əliyev qəbulda nitq söylədi.

ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVROPA VƏ ASİYA ÖLKƏLƏRİ ÜZRƏ ƏLAQƏLƏNDİRİCİSİ UİLYAM TEYLOR İLƏ GÖRÜŞ

Yalta

20 iyul 2002-ci il

GUÖAM-ın üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev iyunun 20-də Yaltada ABŞ Dövlət Departamentinin Avropa və Asiya ölkələri üzrə əlaqələndiricisi Uilyam Teyloru qəbul etmişdir.

Respublikamızın rəhbəri ilə görüşündən çox məmnun qaldığını bildirən cənab Uilyam Teylor prezident Heydər Əliyevin GUÖAM-ın Yalta zirvə görüşündəki və dövlət başçılarının şərəfinə verilən ziyafətdəki nitqlərini böyük maraqla dinlədiyini vurğulayaraq dedi: Cənab Prezident, Siz haqlı olaraq dediniz ki, əgər on il bundan əvvəl bu ölkələr dövlət müstəqilliyini əldə etməsəydilər, bugünkü zirvə toplantısı və sənədlərin imzalanması da mümkün olmazdı.

Uilyam Teylor Amerika Birləşmiş Ştatları dövlət katibinin müavini Riçard Armitacın GUÖAM-ın Yalta zirvə görüşünə göndərdiyi təbrik məktubunu prezident Heydər Əliyevə təqdim etdi.

Görüşdə Azərbaycan–ABŞ əməkdaşlığının perspektivləri, ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması, bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

Rusiya Federasiyasının Ukraynadakı səfiri Viktor Çernomırdin ilə görüş

GUÖAM-ın üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev iyunun 20-də Yaltada Rusiya Federasiyasının Ukraynadakı səfiri Viktor Çernomırdin ilə görüşmüşdür.

Prezident Heydər Əliyevi mehribanlıqla salamlayan səfir Viktor Çernomırdin dövlətimizin başçısı ilə Yaltada görüşməyindən çox məmnun olduğunu bildirdi.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin GUÖAM-a sədrlik etməsini, sammitdəki nitqində qaldırdığı məsələləri diqqətlə izlədiyini nəzərə çatdıran cənab Viktor Çernomırdin zirvə görüşündə müzakirə olunan məsələlərin böyük maraq doğurduğunu vurğuladı.

Səmimilik şəraitində keçən söhbət zamanı ölkələrimiz arasında əlaqələrin inkişafı və bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

UKRAYNADA YAŞAYAN SOYDAŞLARIMIZLA GÖRÜŞ

Yalta

20 iyul 2002-ci il

T ə l ə t Ə l i y e v *(Azərbaycanın Ukraynadakı səfiri)*: Çox hörmətli cənab Prezident!

İcazə verin, bu gün Sizinlə görüşə toplaşan Ukraynada yaşayan azərbaycanlılar adından «Ukrayna torpağına xoş gəlmisiniz!» deyim və Sizə ən xoş arzularımı çatdırım, GUÖAM təşkilatına daxil olan ölkələr arasında iqtisadi əməkdaşlıq məsələlərinin belə yüksək səviyyədə müzakirə edilməsi üçün göstərdiyiniz səylərə görə Sizə hamımızın təşəkkürünü yetirim, Azərbaycan xalqının rifahı, Azərbaycan dövlətçiliyinin inkişaf etdirilməsi və möhkəmləndirilməsi naminə, dünyada özünə layiq yer tutması üçün sərf etdiyiniz tükənməz əməyə görə Sizə öz minnətdarlığımızı bildirim. Allah-təaladan Sizə möhkəm cansağlığı və uzun ömür arzulayırıq.

Ukraynada yaşayan yarım milyon azərbaycanlı, diasporumuz adından bildirmək istəyirəm ki, biz Sizin daxili və xarici siyasətinizi dəstəkləyirik. 2003-cü ildə prezident seçkilərində Sizin qalib gəlməyiniz üçün – buna heç kəsin şübhəsi yoxdur – var qüvvəmizlə çalışacağıq. Dünya Azərbaycanlılarının I qurultayında verdiyimiz tövsiyələr əsasında diasporumuzu daha da gücləndirəcəyik və həmişə Sizə dayaq olacağıq.

Cənab Prezident, bu gün burada yığışanların çoxu Sizin 1970-ci illərdə, Azərbaycanın rəhbəri olarkən SSRİ-nin ən məşhur universitetlərinə göndərdiyiniz insanlardır. Bunların hamısı Sizin yetirmələrinizdir, ardıcıllarınızdır. Onlar bununla fəxr edirlər. Çox əlamətdar haldır ki, Ukrayna Azərbaycanlıları Konqresini yaradanlar məhz Sizin yetirmələrinizdir.

Heydər Əliyev: Çox sağ olun. Vaxtımız azdır, ona görə mən sizə bir neçə sual verəcəyəm. Onlara cavab alandan sonra da öz fikirlərimi sizə bildirəcəyəm.

Burada toplaşanlar yalnız Krım vilayətindəndir, yoxsa Ukraynanın başqa vilayətlərindən də var?

Tələt Əliyev: Bu gün burada Ukraynanın 15-dən çox vilayətindən gəlmiş azərbaycanlılar var. Bunlar Konqresin regional təşkilatlarının fəallarıdır.

Heydər Əliyev: Yaxşı, bu, az deyildir. Krım vilayətində nə qədər azərbaycanlı yaşayır?

Tələt Əliyev: Krım vilayətində 15 minə qədər azərbaycanlı yaşayır.

Heydər Əliyev: Onların neçə nümayəndəsi burada iştirak edir?

Tələt Əliyev: Onların burada 4 nümayəndəsi var.

Heydər Əliyev: Ayağa qalxsınlar. Əyləşin. İndi sənin mənə deyiləcək başqa sözün varmı?

Tələt Əliyev: Mən xahiş edirəm ki, icazə versəydiniz, Konqresin sədri Sizi salamlayardı, Konrqesin fəallarından da bir-iki nəfər ürək sözlərini deyərdi.

Heydər Əliyev: Buyursunlar.

Tələt Əliyev: Oqtay Əfəndiyev.

Oqtay Əfəndiyev *(Ukrayna Azərbaycanlıları Konqresinin sədri)*: Möhtərəm cənab Prezident, birinci növbədə, bütün 500 minlik diaspor adından Sizi salamlayır və bildiri-

rəm ki, azərbaycanlıların hər biri Sizin kimi dahi şəxsin bizimlə görüş üçün vaxt ayırmasını böyük şərəf sayır və buna görə Sizə dərin minnətdarlığımızı yetiririk. Siz 1997-ci ildə Ukraynaya səfəriniz zamanı diasporun nümayəndələri ilə görüşmüşdünüz. Bizim Konqres o vaxt verdiyiniz tövsiyələr və məsləhətlər əsasında Azərbaycandan kənarda yaradılmış birinci qurum idi. Bundan əlavə, mən fərəh hissi ilə onu da demək istəyirəm ki, Konqres Ukrayna azərbaycanlılarının milli prinsip əsasında qurulmuş yeganə təşkilatıdır, alternativi yoxdur və mərkəzləşdirilmiş prinsiplər əsasında işləyir. Konqres vilayətlərlə çox sıx ünsiyyətdə işləyir və bu, azərbaycanlılar arasında həmrəyliyin təmin olunmasına imkan verir.

Bundan əlavə, Konqres səfirliklə də sıx əlaqədə işləyir. Biz hər gün Tələt müəllimlə görüşürük. Azərbaycan dövlətinin, Sizin tutduğunuz istiqamətdə fəaliyyət göstəririk. Konqresin mətbu orqanları vasitəsilə biz nail oluruq ki, Ukraynada yaşayan hər bir soydaşımız Azərbaycanda baş verən hadisələr barədə həmin gün məlumat alır. Bu bizim həmrəyliyimiz üçün yaxşı şərait yaradır.

İmkanım olsaydı, mən uzun-uzadı danışardım.

H e y d ə r Ə l i y e v: Uzun-uzadı lazım deyil, sual verəcəyəm. Sən Ukrayna Azərbaycanlıları Konqresinin başçısısan?

O q t a y Ə f ə n d i y e v: Bəli.

H e y d ə r Ə l i y e v: Çox gözəl. Özün Kiyevdə yaşayırsan?

O q t a y Ə f ə n d i y e v: Bəli, Kiyevdə yaşayıram.

H e y d ə r Ə l i y e v: Nə işdə işləyirsən?

O q t a y Ə f ə n d i y e v: Mən Konqresdəki işimdən əlavə, Ukrayna prezidenti yanında milli məsələlər üzrə Şuranın Rəyasət Heyətinin üzvüyəm. Bakıda keçirilmiş qurultayda ya-

radılmış Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının üzvüyəm.

H e y d ə r Ə l i y e v: Çox gözəl. Sən ixtisasın üzrə bir iş görürsənmi?

O q t a y Ə f ə n d i y e v: Mən iş adamıyam. İnvestisiya şirkətim var. Amma Konqresdə işim çox olduğuna görə, təəssüf ki, bunun üçün o qədər də vaxt ayıra bilmirəm.

H e y d ə r Ə l i y e v: İş adamı kimi iş görürsən, ya yox?

O q t a y Ə f ə n d i y e v: Bəli çalışıram.

H e y d ə r Ə l i y e v: Şirkətin vəziyyəti necədir? Gəlirin, filanın var? Heç kəs nəyi isə gizlətməsin. Bu, həyatımızın reallığıdır. Mən istərdim ki, burada bizim azərbaycanlılar dövlət strukturunda da vəzifə tutsunlar. Amma ondan daha da yaxşı, istərdim ki, bacarıqlı biznesmen olsunlar. Çünki biznesmen olsa, həm öz diasporuna daha çox fayda verəcək, həm öz yaşayışı yaxşı olacaq və xalqımıza da faydası çox olacaqdır. Ona görə də sən mənim bu suallarıma utanmadan, sərbəst cavab ver.

O q t a y Ə f ə n d i y e v: Cənab Prezident, mənim şirkətimin yaxşı gəliri var və yaxşı pul qazanıram. Şirkətimdə çoxlu azərbaycanlı çalışır.

H e y d ə r Ə l i y e v: Aydındır, kasıb deyilsən. Bilirəm ki, Konqres Ukraynanın bütün 25 vilayətində olan azərbaycanlıları birləşdirir. Sən dediyin kimi, alternativ təşkilat yoxdur. Bu, çox gözəl haldır. Ümumiyyətlə, Ukraynada azərbaycanlıların təşkilatlanması, demək olar ki, keçmiş SSRİ-nin başqa yerlərinin hamısından tez və daha da keyfiyyətli keçibdir. Bir sualım da var. Konqresdən yerli seçkili hakimiyyət orqanlarında kimsə var, yoxsa yox?

O q t a y Ə f ə n d i y e v: Cənab Prezident, bu yaxınlarda Ukraynada yerli seçkilər və Ali RADA-ya – parlamentə seç-

kilər keçirildi. Konqresin 9 nümayəndəsi rayon, şəhər və vilayətin deputatı oldu.

H e y d ə r Ə l i y e v: Bəs Ukrayna parlamentinin deputatı var?

O q t a y Ə f ə n d i y e v: Təəssüf ki, hazırda Ukrayna parlamentində azərbaycanlı deputat yoxdur. Biz əlimizdən gələni edirik ki, gələn dəfə bir neçə azərbaycanlı Ukrayna parlamentində təmsil olunsun.

H e y d ə r Ə l i y e v: Diaspor kimi, sayına görə siz Ukraynada ruslardan sonra təxminən neçənci yerdəsiniz?

O q t a y Ə f ə n d i y e v: Üçüncü yerdəyik. Birinci yerdə rus, ikinci yerdə tatar, üçüncü yerdə Azərbaycan diasporudur.

H e y d ə r Ə l i y e v: Rus diasporu heç, onu kənara qoyaq. Bəs erməni diasporu?

O q t a y Ə f ə n d i y e v: Cənab Prezident, Ukraynada erməni diasporu çox zəifdir. Mən maraqlanmamışam, bilmirəm onların sayı nə qədərdir. Onların elə bir güclü, milli prinsip əsasında qurulmuş təşkilatı yoxdur.

H e y d ə r Ə l i y e v: Bu elə sənin səhvindir ki, maraqlanmamısan. Gərək maraqlanaydın.

O q t a y Ə f ə n d i y e v: Bildiyimə görə, bu yaxınlara kimi onların tanınmış, milli prinsip əsasında qurulmuş təşkilatı yoxdur.

H e y d ə r Ə l i y e v: Ola bilər, bütün Ukrayna üzrə yoxdur, amma mən burada prezident Kuçma ilə söhbət edirdim, o mənə dedi ki, ermənilər Yaltada hakimiyyəti əllərinə keçirmək istədilər. Sizin bundan o qədər xəbəriniz yoxdur. Seçkidə hakimiyyəti əllərinə almaq istəyiblər. Kuçma dedi ki, mən prezidentin xüsusi nümayəndəsini Yaltaya göndərdim, bütün bunların qarşısını aldı. İndi sən deyirsən ki, ermənilərin elə bir gücü yoxdur. Əgər gücü yoxdursa, Yalta kimi şəhərdə – özü də ermə-

ni şəhəri deyil, burada çoxlu ruslar, ukraynalılar, qədimdən də çoxlu tatarlar yaşayırlar – bu yaxın vaxtlarda istəyirlər ki, hakimiyyəti ələ keçirsinlər. Sizin bundan heç xəbəriniz yoxdur. Bu onu göstərir ki, sizin informasiyanız çox azdır və ermənilərin sayının nə qədər olmasını bilməməyin və bununla maraqlanmamağın da məni razı salmır. Çünki bilin, bütün ölkələrdə diaspor nöqteyi-nəzərindən Azərbaycanın rəqibi – mən bunu daha yumşaq deyirəm, əslində düşməni – ermənilərdir.

Məsələn, Ukraynada gürcü diasporu nə qədərdir?

O q t a y Ə f ə n d i y e v: Çox azdır. Amma Ukrayna parlamentində gürcü millətindən olan 5 deputat var.

T ə l ə t Ə l i y e v: Cənab Prezident, 5 nəfər yox, 2 nəfər.

H e y d ə r Ə l i y e v: Beşdir.

T ə l ə t Ə l i y e v: Onların içərisində osetin də, acar da var.

H e y d ə r Ə l i y e v: Xeyr, beşdir. Bunu bu gün mənə Kuçma da deyib, Şevardnadze də deyibdir. Görürsünüzmü, mənim məlumatım sizinkindən çoxdur.

Bilirsiniz, mənim bu kəskin suallarımdan narahat olmayın və bu sizi incitməsin, məyus olmayın və düşünməyin ki, Heydər Əliyev gəldi, bizi tənqid etməyə başladı. İş ondadır ki, mən istəyirəm siz gördüyünüz işlərlə bərabər, biləsiniz ki, bundan da çox görməlisiniz.

Sizi daha çox dinləməyə vaxt yoxdur. Öz fikirlərimi sizə deyəcəyəm. Bunlar Dünya Azərbaycanlılarının qurultayında səslənibdir. Ancaq konkret olaraq sizin üçün – Ukraynada yaşayan azərbaycanlılar üçün bunu demək istəyirəm. Qeyd etdim ki, Ukraynada yaşayan azərbaycanlılar, həqiqətən, keçmiş Sovetlər İttifaqının respublikalarında yaşayan azərbaycanlılara nisbətən daha tez təşkilatlanıblar. Bu təşkilatlandırma da sağlam gedibdir. İndi də görürəm ki, sizin Konqresiniz sağlamdır. Yəni burada çəkişmə, qrupbazlıq,

bir-biri ilə əsassız rəqabət, biri-birinin paxıllığını çəkmək və sair yoxdur. Bəlkə səhv edirəm?

O q t a y Ə f ə n d i y e v: Düzdür.

H e y d ə r Ə l i y e v: Amma olsa da, bəlkə o qədər azdır ki, mən bunu görə bilmirəm. Bu xüsusiyyətlər, ümumiyyətlə, hər bir insana xasdır. Azərbaycanlılar üçün olduqca xasdır. Ona görə mən bunları deyirəm. Bir də ona görə deyirəm ki, başqa yerlərdə, məsələn, Rusiyada biz belə hallarla çox rastlaşırıq. Moskvanın özündə hərə özünə bir Azərbaycan cəmiyyəti yaradıbdır. Belə şey olmaz axı. İş adamıdır, pulu var, filanı var, çox yaxşı. Amma bilməlidir ki, gördüyü iş nə məqsəd daşıyır. Əgər artıq başına müəyyən qədər azərbaycanlıları yığıb öz işlərini görmək istəyirsə, onda bu, cəmiyyət deyildir. O, firma yaratsın, filan etsin, öz işini görsün. Həqiqətən öz vətəni, xalqı, milləti üçün, müstəqil Azərbaycan üçün bir iş görmək istəyirsə, onda belə prinsiplə hərəkət etmək olmaz. Yəni bu nöqteyi-nəzərdən sizin vəziyyətiniz müsbətdir. Mən əvvəldən də hiss edirdim, əvvəllər də buraya gələndə söhbətlərdən hiss etmişəm, səfirlə də söhbətdən hiss etmişəm, indi Konqresin başçısı da ilk sözlərindən bunu büruzə verdi ki, burada hər şey yaxşıdır.

Bilirsiniz, qürbətdə yaşamaq asan deyildir. Hər bir insan doğulur, böyüyür, onun kökü var, qohum-əqrəbası var, doğma torpağı var. Hər kəs o yerlərə bağlı olur. Amma bu, yüz il bundan əvvəl olan əhval-ruhiyyədir. Son əsrdə dünya elə dəyişibdir ki, insanlar çox böyük miqrasiya edirlər. Bu, təkcə bizim bölgədə, keçmiş sovetlər məkanında deyil, dünyanın hər yerində belədir. İndi dünyada gedən proseslərdir və bu prosesləri də heç kim idarə etmir. Bunlar obyektiv proseslərdir. Biz azərbaycanlılar da bu proseslərdə istər-istəməz iştirak edirik. Məsələn, mən hesab edirəm ki, bizim azərbaycanlılar

üçün belə miqrasiya prosesinin meydana çıxması və azərbaycanlıların öz ərazisindən, öz torpağından çıxaraq dünyanın başqa ölkələrində yaşaması, məskən salması, özü üçün orada iş yaratması, həyat qurması, oradakı cəmiyyətdə özünə yer tutması – bunların hamısı bizim ümumi milli mənafeyimizə xidmət edən hallardır. Ona görə də mən sizə deyəndə ki, qürbətdə yaşamaq çətindir, bunu mən köhnə fikirlərlə deyirdim. Amma indi çətin bir şey yoxdur. İnsan üçün harada xoşdursa, orada da yaşayır. Harada o daha yaxşı yaşayırsa, bunu da edir. Harada ailəsi üçün daha yaxşı şərait əldə edirsə, orada da yaşayır. Bunların hamısı təbii, insani keyfiyyətlərdir. Ancaq insan gərək heç vaxt öz milli kökünü, torpağını, vətənini, öz dilini unutmasın. Öz dinini yaddan çıxarmasın. Öz milli-mənəvi ənənələrini unutmasın. Özü də, bir var ki, onu unutmuram, mənim xatirimdədir, hafizəmdədir, bəli, bu mənim millətimin xüsusiyyətidir, millətimin bu adəti var, bir də var ki, onu yaşatsın.

İndi bizim müstəqil Azərbaycanda prinsipimiz belədir. Biz Avropa dövlətiyik. Amma kökünü götürsək, biz müsəlman aləminə mənsubuq. Uzun əsrlər boyu biz müsəlman dini, müsəlman millətinin milli mənəvi dəyərləri ilə yaşayıb böyümüş adamlarıq. Ancaq XIX əsrdə Azərbaycan Rusiyanın tərkibinə daxil olandan sonra və Azərbaycanda, xüsusən də neft sənayesi inkişaf edəndən sonra Bakıya, Azərbaycana Avropadan böyük maraq olubdur. Buraya gələn iş adamlarının sayı artandan sonra Azərbaycanda Avropa mənəvi dəyərləri, ümumbəşəri dəyərlər kök salmağa, inkişaf etməyə başladı. Bizim o vaxtkı mütərəqqi insanlarımız – onlar məhz ona görə mütərəqqi insan hesab edilirlər ki, keçmişdə – 200, 300, 400 il əvvəl yaşamış ənənələri bərk-bərk saxlayıb, ondan ayrılmamaq hissi ilə yaşayandan sonra fikirləşdilər ki, gərək qolları-

mı açım, görək burada mənim öz milli dəyərlərimdən savayı başqa nə yerləşər? Avropa dəyərləri, ümumbəşəri dəyərlər… Ona görə də biz get-gedə avropalaşdıq. Biz coğrafi nöqteyi-nəzərdən Avropadayıq. Amma Avropanın başqa millətlərindən fərqimiz ondan ibarətdir ki, bizim min illərdən çox tarixi olan köklərimiz var. Azərbaycan xalqının ən üstün xüsusiyyətlərindən biri də odur ki, bunlara baxmayaraq, tarixi nöqteyi-nəzərdən qısa bir zamanda onun mütərəqqi insanları Avropa dəyərlərini, ümumbəşəri dəyərləri mənimsəyə bildilər, xalqımızı oyatdılar, Avropaya yaxınlaşdırdılar.

XIX əsrin sonunda yaşayan mütəfəkkir insanlarımızın, yazıçılarımızın, şairlərimizin hamısının adını çəkmək istəmirəm. Əgər təkcə Üzeyir Hacıbəyovu götürsək, bütün millətimiz üçün bəsdir. O bizim üçün nələr yaratdı! Qadınları çadranın altından çıxmağa qoymayan, mövhumat içərisində yaşayan xalqın Üzeyir Hacıbəyov kimi nümayəndəsi 1908-ci ildə özünün məşhur «Leyli və Məcnun» operasını yaratdısa – opera Avropa dəyərlərinə mənsub olan bir janrdır – yaxud da ki, «Arşın mal alan» operettasını, «O olmasın, bu olsun» əsərini yaratdısa, başqa əsərlər yaratdısa, ona görə yaratmadı ki, insanları ağlatsın, yaxud güldürsün.

«Leyli və Məcnun», təbiidir ki, qədim Şərq əfsanəsidir. Füzulinin böyük poemasının əsasında o bu əsəri yazıb tamaşaçılara göstərməklə Şərq fəlsəfəsinin, Şərq aləminin dərinliyini, insanın nə qədər sədaqətli məxluq olduğunu nümayiş etdirdi. O vaxtlar «Leyli və Məcnun»u oxuyanları barmaqla saymaq olardı. Amma 1908-ci ildə, hələ mövhumatın hökm sürdüyü dövrdə operanı səhnəyə qoymaqla, insanlara o sevgini, məhəbbəti, saf, ülvi hissiyyatları bildirməklə göstərdi ki, xalqımızın mənəvi kökləri nə qədər sağlamdır.

O, «Arşın mal alan» operettasını gülmək üçün yox, yaxşı mahnılarla insanlara zövq vermək üçün yaratmadı. O göstərdi ki, bəli, bizim o vaxtkı adət-ənənələrimiz imkan vermədi ki, insan sərbəst olsun. Hətta həyat yoldaşını seçmək üçün də onu görə bilməzdin. Onu gərək ya xalası, bibisi, ya da, nə bilim, kimisə gedib görəydi, seçəydi, gətirəydi oğlanın evinə. İndi siz belə, sevgisiz kiminləsə həyat qura bilərsinizmi? Nəinki həyat qurmaq, hətta bir müddət görüşmək üçün, yəqin ki, hissiyyatınız olmasa, bunu etməzsiniz. Bizim xalqımız «Arşın mal alan», yaxud da ki, «O olmasın, bu olsun» kimi əsərlərin köməyi ilə oyandı, ondan sonra da böyük əsərlər yarandı. Təkcə musiqidə yox, elmdə, ədəbiyyatda, bütün sahələrdə – texnikada, sənayedə biz avropalaşdıq, Avropa ölkəsi olduq. Avropa ölkəsi olduğumuz üçün də istəyirik ki, soydaşlarımız Ukraynada, Rusiyada, Almaniyada, harada istəsələr yaşasınlar, amma öz milli-mənəvi dəyərlərini qoruyub saxlasınlar. Dinini, adət-ənənəsini unutmasınlar, eyni zamanda yaşadıqları ölkənin də dilini bilsinlər. Həmin ölkənin adət-ənənələrindən də xəbərdar olsunlar. Onu da, bunu da bilsinlər. Bu halda biz daha zəngin oluruq. Əgər burada bir ukraynalı öz dilini və adət-ənənələrini bilirsə, sizin çoxlarınız həm Ukrayna dilini, həm rus dilini, həm də öz dilinizi bilirsiniz. Siz Ukraynanın ərzaq məhsullarının, içkilərinin də dadını bilirsiniz, ətirli Azərbaycan çayının da. Biri bizim adətimizdir, o biri də onların.

Beləliklə, mən istəyirəm ki, siz burada qaynayıb-qarışasınız. Bu mənim siyasətimdir. Mən 33 il bundan öncə, 1969-cu il iyul ayının 14-də, belə isti bir gündə Azərbaycanın başçısı təyin olunmuşdum. O vaxtdan indiyə qədər mən istəyirəm ki, öz xalqımı, azərbaycanlıları, Azərbaycan millətini inkişaf etdirim, qaldırım. Bunun yollarından birini də onda görürəm

ki, azərbaycanlı təkcə Şamaxıda oturmasın, Naxçıvanda, Kəlbəcərdə, yaxud da ki, Maştağada oturmasın. Qoy Maştağada da olsun, amma getsin Zaporojyedə işləsin, nə bilim, filan yerdə olsun, getsin-gəlsin, qohumlarını aparsın-gətirsin. Bizim bu Konqresin başçısı kimi. Yaxşı pul qazanıbdır, gəliri də var, heç bir şeyə ehtiyacı da yoxdur. Sabah ehtiyacı olan adama, yəqin ki, əl də tutar. Elədirmi?

Yerdən səslər: Tutur da…

Heydər Əliyev: Tutur da. İndi sərbəst iqtisadiyyatdır, bazar iqtisadiyyatıdır. Kim bacarıqlı çıxdı, o, bazar iqtisadiyyatında uğur qazanacaqdır.

Uğur qazanır, deməli, özünə sərvət toplayır. Sonra o sərvəti dövriyyəyə buraxır, gəlir əldə edir, daha da zənginləşir. Ondan sonra millətinə, xalqına yaxşılıq etmək imkanları yaranır. Ona görə də burada yaşayın. Bunun üçün mən sizə xeyir-dua verirəm. Azərbaycana qayıtmağa tələsməyin. Bilmirəm, Azərbaycandan xəbəriniz varmı? Mən 9 ildir ki, müstəqil Azərbaycanın prezidentiyəm. Bir ildən sonra bizdə seçkilər olacaqdır. Mənim on ilim tamam olubdur. Amma Konstitusiyaya görə mənim 5 il də prezident seçilmək haqqım var. Bu haqqımdan istifadə edəcəyəm və 2003-cü ildə də prezident seçilmək üçün öz namizədliyimi irəli sürəcəyəm. Güman edirəm ki, xalqımız yenə də mənə etimad göstərəcəkdir. Çünki mən onun etimadını, görürsünüz ki, doğrulduram. Azərbaycan inkişaf edəcəkdir. Amma bizdə müxalifət də var. Özü də çox çirkin müxalifətdir. Bilmirəm, müxalifət qəzetləri sizin əlinizə düşür, ya yox. Elə qəzetlər var ki, 24 səhifəsinin bütün səhifələrində Heydər Əliyev haqqında yalanlar, uydurmalar, böhtanlar, nələr yoxdur. Mən bir belə yaşamışam, indiyə qədər insanlarda çox mənfi, çirkin keyfiyyətlər görmüşəm. Amma indi meydana çıxmış söz, mətbuat azadlığı şəraitində

müxalifət qəzetlərində verilən yazılar kimi çirkin şeyləri hələ tarixdə görməmişəm.

Bəziləri məni qınayırlar, deyirlər ki, «Cənab Heydər Əliyev, siz buna necə dözürsünüz? Siz belə bir insansınız, tarixi şəxsiyyətsiniz». Həqiqətən də, hər yerdə bu sözləri deyirlər. Biri var Azərbaycanın prezidenti, biri də var Heydər Əliyev şəxsiyyəti. Mənim şəxsiyyətimə hər yerdə böyük hörmət var. Çünki bir-iki il deyil siyasətdəyəm. Dünyada elə bir adam yoxdur ki, böyük siyasətdən, Kremldən, onun ən yüksək zirvəsindən uzaqlaşdırsınlar və sonra əzsinlər, sonra isə yenidən gəlib Azərbaycan xalqının – buna ehtiyac olduğuna görə – rəhbəri seçilsin, prezidenti olsun. Mən həm sovet hakimiyyəti dövründə Azərbaycanın başçısı olmuşam, həm də müstəqil Azərbaycanın prezidentiyəm. Mənə hər yerdə hörmət edirlər. Mənə bəziləri deyirlər ki, «Cənab Heydər Əliyev, məsuliyyət tələb edin». Onlara deyirəm ki, nə edim, mən demokratiya, söz azadlığı elan etmişəm. Söz azadlığını kim necə başa düşürsə, o cür hərəkət edir. Mən onlara artıq düzəliş verə bilmərəm. İndi mənim aqibətim elədir ki, gördüyüm bu işlərin naminə, xalqa xidmətimi davam etdirmək naminə bütün böhtanlara dözürəm. Ancaq hər gün öz işimlə, əxlaqımla, öz mənəviyyatımla sübut edirəm ki, bu yalanların, uydurmaların heç biri mənə yapışmaz. Xalq heç vaxt bunlara inanmayıb və inanmır.

Bunları sizə deyərək onu da bildirmək istəyirəm ki, məni tənqid edənlərin ağzına bir şey düşübdür: Azərbaycanın əhalisi ağır vəziyyətdədir, yeməyə çörək tapmır, yaşayışı pisdir. Siz Bakıya gəlirsiniz, bizim yaşayışımızı görürsünüz. Buna pis yaşayış demək olarmı?

Üç gün bundan əvvəl Beynəlxalq Valyuta Fondunun yüksək nümayəndəsi Bakıya gəlmişdi. Dedi ki, MDB ölkələri içərisində

iqtisadi göstəricilərinə görə Azərbaycan birinci yerdədir. Bu bizim fikrimiz deyil, Vaşinqtonda oturan, dünya maliyyə sisteminə rəhbərlik edən Beynəlxalq Valyuta Fondunun fikridir. Onlar belə deyir, amma bunlar da deyirlər ki, Azərbaycan xalqı acından ölür, buna görə də 2 milyon azərbaycanlı ölkəmizdən kənarda yaşayır. Onlara deyirəm ki, azərbaycanlıların respublikamızdan kənarda da yaşaması barədə siyasətimi mən 30 il bundan öncə başlamışam. O vaxt belə şey yox idi. Amma mən o vaxt istəyirdim ki, azərbaycanlıların bir qismi, kimlərin ki, imkanı var, qoy Azərbaycandan kənarda yaşasınlar. Qoy Ukraynada, Belarusda, Almaniyada, harada istəyirlərsə, orada yaşasınlar, Azərbaycanı tanıtsınlar. Başa düşürsünüzmü? Cənubi Qafqazda biz sayca çoxuq. Amma təəssüf ki, bizi qonşu millətlərlə müqayisə edəndə, onları hər yerdə bizdən yaxşı tanıyırlar. İndi mən burada sizə deyirəm ki, bir neçə müddət bundan əvvəl ermənilər Yaltada hakimiyyəti ələ keçirmək istəyirdilər, bu, təsadüfi bir şey deyildir. Amma eyni zamanda, Leonid Kuçma mənə dedi ki, burada ermənilərin bir neçə quldur dəstələri var, bir-biriləri ilə vuruşurlar. O quldur dəstələrindən özünüzü gözləyin, qoruyun.

Gürcülər Ukraynada sizdən qat-qat azdır, amma parlamentdə 5 gürcü deputat var. Qoy olsun, gürcü xalqı bizim dostumuzdur, mən buna sevinirəm. Amma bir-iki deputat da siz seçin.

Bilirsiniz, bizim azərbaycanlılar hələ öz kəndindən, daxmasından, öz küçəsindən, öz şəhərindən kənarda yaşamağa o qədər də öyrəşməyiblər. Çoxları belədir. Yadımdadır, vaxtilə Bakıda işləyəndə, 1970-ci illərdə bir adamı götürürdüm, Moskvaya göndərirdim, orada bir işə düzəldirdim, ev verdirirdim və sair. Həmin adam bir ildən sonra gəlirdi, söyləyirdi ki, anam deyir ki, mən burada sənsiz tək qala bilmirəm,

arvadı deyirdi ki, bacısız yaşaya bilmir. Soruşurdum, nə istəyirsən? Deyirdi ki, məni geri qaytar. Mən bu adamları geri qaytarmadım. Amma mən gedəndən sonra onlar geri qayıtdılar. Yəni bunlar həqiqi azərbaycanlı deyillər. Bax, siz həqiqətən, azərbaycanlısınız. Deyirsiniz ki, sizin bir qisminizi mən oxumağa göndərmişəm. Çox gözəl. Bu təbəqəni mən çox sevirəm. Çünki siz o vaxt həmin hadisələrdə iştirak etmisiniz. Bilirsiz, mən nə qədər əziyyət çəkmişəm ki, ildə 800 nəfəri, demək olar ki, imtahansız oxumağa göndərək. Məsələn, Dnepropetrovsk İnstitutunda müsabiqədən keçmək azərbaycanlı üçün mümkün olan şey deyildi. Burada o institutu bitirənlərdən var?

Yerdən səslər: Bəli, var, özü də deputatdır.

Heydər Əliyev: Elədirmi? Bax, səni Bakıda Politexnik İnstitutunda müsabiqədən keçirdik, yadındadırmı və imtahansız oraya göndərdik. Gedib oxudun, sən də o vaxt respublikamızdan kənara göndərilən tələbələrdənsən, çox sağ ol. O vaxt mən sizə nə deyirdim? Deyirdim ki, biz ildə 800 nəfəri oxumağa göndəririk. Mən bilirəm ki, bunun bir qismi, ola bilər, axıra qədər oxumasın. Çünki niyə? İnsandır, xəstələnir, bu, təbii haldır. Ola bilər ki, bir qismi oxuduğu ölkəni sevsin, təhsilini qurtarandan sonra elə orada qalsın. Bu da təbiidir. O vaxt deyirdim ki, bundan narahat olmayın, əgər siz orada qalıb yaxşı işləsəniz, öz vətəninizə qayıtmasanız, bu da mənim üçün xoşdur. Bir qismi, ola bilər 5 illik təhsil müddətində özünə ukraynalı və yaxud rus, moldovan qızı tapsın, evlənsin, onunla yaşasın. Arvad da, axı kişini öz yerinə, yurduna çox cəzb edir. Yəqin ki, sizin içərinizdə də belələri var. İnstitutu qurtaranda arvadı deyəcək ki, bilirsən nə var, gəl hələ bir-iki il burada işləyək, sonra sənin vətəninə gedərik. Bir-iki il işləyəndən sonra xoşuna gələcək, deyəcək ki, bir az da işləyək. Mən o vaxt deyirdim ki, bu da yaxşıdır.

Siz o yerlərdə kök salacaqsınız, oralarda qalacaqsınız. Orada təkcə ukraynalılar yox, həm də azərbaycanlılar yaşayacaqdır. Arvadı qoy ukraynalı olsun, amma uşaqlarındakı qan azərbaycanlı qanıdır. Elədirmi?

Mən bunları görə-görə belə edirdim. O vaxt mən gəncləri əziyyətlə oxumağa göndərirdim. Onlara deyirdim ki, kim qayıtmaq istəmirsə, orada qalsın.

İndi kimsə Bakıda özünə yaxşı iş tapa bilmirsə və gedib İrkutskda iş tapırsa, mən ona deməliyəm ki, bu günahdır? Niyə günah olur? Yaxud məni günahlandırırlar ki, Azərbaycanda onlar özlərinə iş tapa bilmirlər, amma gedib kənarda işləyirlər. Yaxşıdır ki, kənarda işləyirlər. Azərbaycanda işləyənlər çoxdur, hamısı da azərbaycanlıdır. Amma tutaq ki, İrkutskda və yaxud Tümendə və ya Ulyanovskda, o cümlədən sizin yaşadığınız vilayətlərdə azərbaycanlı azdır. Qoy azərbaycanlılar çoxalsın. Nə qədər çoxalsanız, sizin hüquqlarınız da bir o qədər artacaqdır. Deputat seçilməyə daha çox imkanınız olacaqdır. Hakimiyyət orqanlarında işləmək üçün imkanlar əldə edəcəksiniz, təcrübə toplayacaqsınız. Təcrübə toplamaq, yaxşı bizneslə məşğul olmaq üçün imkanınız olacaqdır. Bax, mənim sizdən istədiyim budur. Xahiş edirəm, sözlərimi yadınızda saxlayın.

Azərbaycana gəlməyə tələsməyin. İşləyirsiniz, böyüyərsiniz, uşaqlarınız, nəvələriniz olar, zənginləşərsiniz. Gələrsiniz Azərbaycana, bir yaxşı ev tikərsiniz, özünüzə mülk ucaldarsınız. Deyərsiniz ki, qoy mənim vətənimdə də evim olsun. Mən bununla sizi Azərbaycandan uzaqlaşdırmaq istəmirəm. Mən, sadəcə, azərbaycanlıların dünyada geniş yayılmasını istəyirəm. Başa düşürsünüzmü? Geniş yayılmasını arzulayıram. Buralarda gərək bizim mahnılarımızı, adətlərimizi də bilsinlər. Sizin hamınızdan xahiş edirəm, azərbaycanlı olduğunuzu unutmayın. Azərbaycanlılarda assimilyasiyaya meyl başqa millətlərdən çoxdur.

Bizim azərbaycanlı, tutaq ki, rus dilini daha yaxşı biləndə Azərbaycan dilinə kinayə ilə baxmağa başlayır. Mən belə hallardan çox inciyirəm. Bizim çox gözəl, zəngin dilimiz var. Azərbaycan dili şeiriyyət dilidir. İkinci belə dil tapa bilməzsən. Ona görə bu dili yaxşı bilmək lazımdır. Nəinki dilimizi bilmək, ondan istifadə etmək lazımdır, gərək sizin uşaqlarınız, nəvələriniz də bu dili bilsinlər. Evinizdə gərək Azərbaycan adətləri olsun.

Bilirəm, Novruz bayramını, yəqin ki, Qurban bayramını da keçirirsiniz.

Siz deyirsiniz ki, bazar günləri Azərbaycan məktəbləri açırsınız. Çalışın bunları açın. Ansambl yaradın, musiqi çox olsun. Bizim Mədəniyyət naziri Polad Bülbüloğlu orada oturubdur. O hər yerə gedir, Ukraynada da olubdur. Ondan nə istəyirsinizsə, tələb edin. Çünki mədəniyyət və dil qədər insanın millətini ucaldan şey yoxdur. İki şey insanın milliliyini, millətini ucaldır. Onun biri dilidir, ikincisi mədəniyyətidir. Elm, başqa xüsusiyyətlər öz yerində. Tutaq ki, Polad Bülbüloğlu böyük bir kibernetik olardı. Onu kim tanıyacaqdı? Hansısa kibernetika laboratoriyasında qurdalanacaqdı. Amma o, atasının yolu ilə gedir, həm mahnı oxuyur, həm musiqi bəstələyir. Xalqını tanıdır. Polad Bülbüloğlu Kibernetik olsaydı, onu heç kim tanımayacaqdı. Ona deyəcəkdilər – Polad Məmmədov. İndi nə üçün o, Polad Bülbüloğlu olubdur? Çünki Bülbülün oğludur. Bülbül də atasının əsl adı deyil, çox yaxşı oxuyan olduğuna görə ona Bülbül deyiblər. Onun əsl adı Murtuzadır. Amma o, vaxtilə Şuşada və bütün Qarabağda, Azərbaycanda o qədər yaxşı oxuyubdur ki, hamı ona bülbül deyibdir. Adı Bülbül qalıbdır – Bülbül Məmmədov. Ondan sonra o, Murtuza adını yaddan çıxarıbdır. İndi oğlu da adını Polad Bülbüloğlu qoyubdur ki, özünün bül-

büllüyü çatmasa, heç olmasa, atasının adından da istifadə etsin.

Mən indi tələsirəm, yol üstəyəm, işim çoxdur. Bu sözləri xoş əhval-ruhiyyə ilə sizə deyərək istəyirəm ki, biləsiniz: Sizin arxanızda müstəqil Azərbaycan var. Bu, tarixi bir şeydir. Bu gün mən geniş tost dedim – Polad orada idi – xaricdən olanlar, ukraynalılar heyran qaldılar. Tost Ukraynanın müstəqilliyi barədə idi. Ukrayna kimi böyük dövlət, böyük xalq müstəqil deyildi. Müstəqil olmadığına görə Ukrayna milliliyini itirmişdi. Təkcə Ukrayna belə deyildi. Biz də belə idik.

Hələ bizə nisbətən Ukrayna yaxşı idi, onlar slavyan xalqlarındandır, ruslarla bir-birinə daha yaxındırlar. Amma biz müsəlman olduğumuza görə daha uzaq idik. İndi Ukrayna müstəqil dövlətdir. Mən Kiyevə gedirəm, Ukraynanın başqa yerlərində oluram, görürəm ki, Ukrayna dili işləyir. Amma əvvəllər buraya gələndə Ukrayna dilində danışıq eşitməzdim. Bir-iki Ukrayna mahnısı eşidərdim. Qalan hamısı rus mahnısı idi. Amma indi hər yerdə Ukrayna mahnıları, müsiqisidir.

Dünən axşam biz Ukrayna prezidentinin iqamətgahında kiçik bir konsertə qulaq asdıq. Orada operanın gənc solistləri, ukraynalı qızlar Ukrayna dilində, milli əhval-ruhiyyədə çox gözəl mahnılar ifa etdilər.

Azərbaycan müstəqillikdən bundan da çox qazanıbdır. Çünki bizi hər tərəfdən əzirdilər. Bizi əzirdilər ki, 1988-ci ildə Dağlıq Qarabağ hadisəsini başımıza gətirdilər və indiyə qədər də bundan qurtara bilmirik. Başa düşürsünüzmü? Bizi əzirdilər; dilimizi saymırdılar. Mənim yadımdadır, Mərkəzi Komitənin büro iclasları olurdu. Başqa iclaslarda mən, əlbəttə, həm Azərbaycan, həm rus dillərində danışırdım. Büro üzvləri 7-8 nəfər idi, hamısı da rus dilini bilirdi. Bəzən Azərbaycan dilində danışmağa başlayırdım. Bizim ikinci katib rus idi. Bir

də görürdüm ki, durub kabinetdən çıxır. Adam göndərirdim ki, çağır gəlsin. Sənin nə ixtiyarın var ki, büro iclasından çıxırsan? O mənim qarşımda cavab verməliydi. Nə olsun ki, ikinci katib idi. Gəlirdi, soruşurdum ki, niyə iclasdan çıxmısan, deyirdi ki, Heydər Əliyeviç, məni bağışlayın, papiros çəkmək istəyirdim. Soruşurdum ki, bəs sən icazə istəməli deyildin? Deməli, onun iclasdan çıxması iclasın Azərbaycan dilində aparılmasına etiraz əlaməti idi. Yəni nə üçün Azərbaycan millətinin başçısı, Azərbaycan Respublikasının rəhbəri burada Azərbaycan dilində danışır. Çünki hamı Azərbaycan dilini bilir, təkcə o bilmir. Dili bilmirsən, yanındakı yoldaşından soruş, tərcümə etsin. Bax, hakim millətçilik elə budur.

İndi ölkəmiz müstəqildir. Düzdür, biz «yaralıyıq». Torpaqlarımızın 20 faizi işğal altındadır. Bu məsələni də həll etməyə çalışırıq. Bu gün mən GUÖAM-ın iclasında o barədə çox sərt çıxış etdim. Həm beynəlxalq təşkilatların, həm də böyük dövlətlərin, həm Minsk qrupunun ünvanına çox sərt çıxış etdim. Ola bilər ki, hər adamın bu cür çıxış etməyə hünəri çatmaz. Mən sərt çıxış etdim. Niyə? Çünki mən xalqımın mənafeyini qoruyuram, başqa bir şey istəmirəm, ədalət istəyirəm. Mən tələb edirəm ki, beynəlxalq hüquq normaları yerinə yetirilsin və işğal edilmiş torpaqlarımız azad olunsun.

Əgər böyük dövlətlər bəyanat verirlərsə ki, biz Azərbaycanın ərazi bütövlüyünü tanıyırıq, sonra da Azərbaycanın ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələrinin işğalı altında olmasını görür və buna göz yumurlarsa və hətta deyirlərsə ki, özünüz dil tapın, danışın, deməli, bunlar ikiüzlülük edir, məsələyə ikili standartlarla yanaşırlar.

Bizim neft strategiyamız, neft layihələrimiz Azərbaycana böyük faydalar gətirir, respublikamız inkişaf edir. Bu gün prezidentlərlə söhbətim zamanı mən deyəndə ki, bizdə keçən il

ümumi daxili məhsul 10 faiz, ötən yarım ildə 8 faiz artmışdır, onlar məəttəl qaldılar. Ümumi daxili məhsul əvvəlki illərdə 3-4 faiz artırdı, amma keçən il 10 faizə qalxmışdır.

Bayaq mən Beynəlxalq Valyuta Fondunun verdiyi qiymət barədə danışdım. Yəni Azərbaycan gündən-günə möhkəmlənir. Azərbaycan demokratiya yolu ilə, bazar iqtisadiyyatı yolu ilə gedir. Biz iş adamlarına şərait yaradırıq. Eşitmisiniz, mən bu il Azərbaycanda iş adamları ilə iki dəfə – birinci dəfə yerli iş adamları ilə, ikinci dəfə xarici iş adamları ilə görüş keçirmişəm. İndi biz üçüncü görüşə hazırlaşırıq. Həmin görüş respublikamızın dövlət məmurları ilə olacaq və mən orada çox ciddi tədbirlər görəcəyəm. Həyata keçirdiyimiz bütün bu tədbirlərin hamısı sahibkarlığı inkişaf etdirmək, özəl sektora kömək etmək üçündür. Özəl sektor bizim iqtisadiyyatımızın aparıcı qüvvəsidir və gələcəyidir. Biz bu yolla gedirik və gedəcəyik, bütün çətinliklərin öhdəsindən gələcəyik. 3-4 ildən sonra Azərbaycan iqtisadi-sosial cəhətdən inkişaf etmiş ölkə olacaqdır.

Mən sizə cansağlığı, işlərinizdə uğurlar arzu edirəm. Vaxtınız olanda gəlin, Azərbaycanı görün. Görün biz orada necə işləyirik. Siz də burada Azərbaycanı yaxşı təmsil edin. Sağ olun.

T ə l ə t Ə l i y e v: Hörmətli cənab Prezident, icazə verin, bu gün bu görüşə gəlmiş soydaşlarımız adından Sizə bir daha dərin təşəkkürümüzü bildirim. Hörmətli Prezident, gözəl nitqinizə, bizə verdiyiniz tövsiyələrə, xeyir-dualara görə Sizə minnətdarıq. Biz həmişə dua edirik ki, Allah-təala Sizi Azərbaycan xalqına çox görməsin.

* * *

Sonra Azərbaycan prezidenti Heydər Əliyevə Ukraynada yaşayan soydaşlarımız adından hədiyyələr təqdim edildi. Dövlətimizin başçısı görüş iştirakçıları ilə xatirə şəkli çəkdirdi.

Səfər başa çatdı

İyulun 20-də axşam Azərbaycan prezidenti Heydər Əliyev Yaltadakı dövlət iqamətgahından maşın karvanının müşayiəti ilə «Belbek» hava limanına gəldi. Hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Respublikamızın rəhbəri fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Dövlətimizin başçısı Heydər Əliyev onu yola salmağa gəlmiş azərbaycanlı icmasının nümayəndələri ilə səmimiyyətlə sağollaşdı. Uşaqlar Azərbaycan rəhbərinə gül dəstəsi təqdim etdilər.

Prezident Heydər Əliyevi hava limanından Ukraynanın, habelə Krım Muxtar Respublikasının yüksək vəzifəli şəxsləri, Azərbaycanın Ukraynadakı səfiri Tələt Əliyev və digər rəsmi şəxslər yola saldılar.

Dövlətimizin başçısı elə həmin gün gecə Vətənə qayıtdı.

UKRAYNANIN YALTA ŞƏHƏRİNƏ İŞGÜZAR SƏFƏRDƏN BAKIYA QAYIDARKƏN BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ

20 iyul 2002-ci il

H e y d ə r Ə l i y e v: Axşamınız xeyir olsun. Hər halda, heç bir sutka keçməyib ki, mən buradan gedəndə sizinlə görüşmüşəm. İndi mən qayıtmışam. Orada olarkən bizim apardığımız işlər haqqında informasiya orqanlarında məlumatlar verilibdir. Qısa onu deyə bilərəm ki, bu, GUÖAM təşkilatının növbəti görüşü idi. Təşkilatın nizamnaməsinə görə, son bir ildə GUÖAM-a Azərbaycan Respublikası sədrlik edirdi.

Orada bir çox vacib məsələləri müzakirə etdik, o məsələlər haqqında lazımi qərarlar qəbul etdik. Həmin məsələlər də sizə məlumdur. Qərarların qəbul edilməsində fikir müxtəlifliyi olmayıbdır. GUÖAM-ın sammiti öz işini müvəffəqiyyətlə başa çatdırdı. İndi, bundan sonra GUÖAM-a Gürcüstan sədrlik edəcəkdir. Sizə bundan başqa bir şey deyə bilmərəm. Əgər köklü sualınız varsa, buyurun, verin.

S u a l: Cənab Prezident, bölgələrdə qaçqınlar üçün evlər tikildi. Sizin bu ay ərzində qaçqınlarla görüşünüz planlaşdırılmışdır. Bu, nə zaman olacaqdır?

C a v a b: Bunların hamısını mən bilirəm, ay cavan oğlan, ay mənim oğlum. Əsas məsələ onların tikilməsidir, qaçqın-

ların böyük bir hissəsinin oraya köçüb yaşamasıdır. Mən isə söz vermişəm ki, o evlər hazır olanda oraya gedəcəyəm. İndi mənim 5 gün tez və ya gec getməyimin əhəmiyyəti yoxdur. Məqsəd ondan ibarətdir ki, o evlər tikilsin. Orada qaçqınların yaşaması üçün şərait yaradaq və onlar orada yaşamağa başlasınlar. Bunu etmişik. Oraya gedəcəyimi demişdim və bu gün də yenə deyirəm, təsdiq edirəm. Gedin öz gözünüzlə görün, hər şey istənilən kimi olubdur. bəlkə daha bir iş görmək lazımdır. Goranboy rayonunda, Ağcakənddə tikilən evlərin hamısı vaxtilə, 1988-ci ildən Ermənistandan qovulmuş azərbaycanlılar üçündür. Çünki o vaxt 200 mindən artıq azərbaycanlı Ermənistandan qovulmuşdu, ötən dövrdə onlar müəyyən qədər yerləşiblər. Kimsə o vaxt, münaqişə başlayanda evini dəyişdiribdir, kiməsə ev veriblər. Hər halda, az qismi yersiz qalmışdır. Ona görə də mən birinci növbədə Dövlət Neft Fondundan ayrılan vəsaitlə məhz Ermənistandan qovulmuş insanlar üçün evlər tikdirmək istədim. Ona görə ki, onlar artıq Ermənistana qayıtmayacaqlar. Demək, onlar üçün şərait yaratmaq lazımdır ki, yaşasınlar. Yaxşı iqlimi, yaxşı torpağı var. Hər ailə üçün yaxşı bir ev tikilibdir. Hər evin qabağında 12 sot torpaq var. Ondan əlavə, hər ailəyə istifadə etmək üçün bir hektar torpaq sahəsi verilibdir. Beləliklə, biz bu məsələni həll edirik.

Amma təkcə orada deyil, onların bir qismi Şəmkirdə məskunlaşmaq istəyib, digər qisminə burada, Mehdiabadda yer ayırmışıq, onlar üçün evlər tikilir. Bu prosesdir, bunun birinci hissəsi oradadır. İndi vaxt tapıb gedəcəyik.

S u a l: Cənab Prezident, GUÖAM-ın perspektivsiz qurum olması barədə müxtəlif fikirlər söylənilir. Yalta sammitindən sonra bu fikirlər arxa plana keçəcəkmi?

C a v a b: Bilirsiniz, bu fikirlər ola bilər ki, gələcəkdə də söylənsin. Burada təəccüblü bir şey yoxdur. Kimsə GUÖAM-ı istəyir, kimsə istəmir. Kimsə ona inanır, kimsə inanmır. Bu təbiidir, bunlar yenə olacaq-olmayacaq, mən deyə bilmərəm. Amma güman edirəm ki, yenə də olacaqdır.

S u a l: Cənab Prezident, bir gündən sonra mətbuat işçilərinin bayramıdır. Mümkünsə, bununla bağlı fikirlərinizi bölüşəydiniz. Ötən il Sizin mətbuat işçiləri ilə daha da yaxınlaşmağınız müşahidə olundu.

C a v a b: Mən mətbuat günü münasibətilə təbrik göndərmişəm. Ondan sonra da baxarıq.

S u a l: Cənab Prezident, bu yaxınlarda Siz bildirdiniz ki, Ermənistan prezidenti ilə görüşəcəksiniz. Bu görüşün vaxtı məlumdurmu?

C a v a b: Hələ məlum deyildir.

S u a l: Cənab Prezident, Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin nümayəndəsi Uilyam Teylorla görüşünüz oldu. Bu görüş barədə nə deyə bilərsiniz?

C a v a b: Orada görüşdük, elə bir söhbətimiz olmadı. Yəni elə bir əhəmiyyət kəsb edən söhbətimiz yox idi.

S u a l: Cənab Prezident, GUÖAM təşkilatına yeni üzv qəbul oluna bilərmi, kiməsə orada müşahidəçi statusu verilə bilərmi?

C a v a b: Ola bilər, bir çox ölkələrdən müşahidəçilər gəlmişdi. Amma heç kəs istəmir ki, mütləq yeni üzvlər gəlsin. İndi nə varsa, odur. Amma ola bilər. Bu da təbii bir şeydir. Sağ olun.

AZƏRBAYCAN RESPUBLİKASININ MƏTBUAT İŞÇİLƏRİNƏ

Hörmətli mətbuat işçiləri!

Sizi 22 iyul – Milli Mətbuat günü münasibətilə səmimi-qəlbdən təbrik edir və hər birinizə xoş arzularımı yetirirəm.

Azərbaycan mətbuatı yarandığı gündən zəngin və şərəfli inkişaf yolu keçmiş, bütün dövrlərdə mütərəqqi ictimai ideal-ların carçısı kimi çıxış etmişdir. Zəngin tarixi ənənələrə malik olan xalqımızın azadlıq istəyinin, müstəqillik amalının güclən-məsində, mənəvi dəyərlərinin tərəqqisində, milli şüurun, mənə-viyyatın, mədəniyyətin formalaşmasında mətbuatımız həmişə önəmli rol oynamışdır.

Respublikamız dövlət müstəqilliyini qazandıqdan sonra milli və bəşəri dəyərləri rəhbər tutan Azərbaycan mətbuatı demokra-tiya və aşkarlığın mühüm vasitəsi kimi, xalqımıza öz ali məqsəd-lərini həyata keçirmək yolunda müstəsna xidmətlər göstərmişdir.

Demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolu ilə gedən Azərbaycan Respublikasının Konstitusiyasında söz və fikir azadlığı təsbit olunmuşdur və bu nailiyyətin qorunması-na, siyasi plüralizmə daim əməl edilir. Hal-hazırda ölkəmizdə çoxşaxəli mətbuat və informasiya sistemi yaradılmışdır. Yüz-lərlə mətbuat orqanı, agentliklər, teleradio şirkətləri cəmiy-yətimizin etibarlı media şəbəkəsini təşkil edərək azad fəaliyyət göstərir. Ölkəmizdə müəyyən problemlərin olmasına baxmaya-raq, XXI informasiya əsrində mətbuatın inkişafı məsələləri həmişə dövlətin diqqət mərkəzində olmuşdur. Mətbuatın ma-neəsiz fəaliyyəti, dünya təcrübəsindən bəhrələnməsi, xüsusilə

kütləvi informasiya vasitələrinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılması, o cümlədən jurnalistlərin peşə səviyyəsinin yüksəldilməsi və hüquqlarının qorunması üçün bütün zəruri addımlar atılmış və tədbirlər həyata keçirilmişdir.

Jurnalistlik qeyri-adi, böyük zəhmət, xüsusi bilik tələb edən bir sənətdir. Azərbaycan dövləti jurnalistlərin əməyini daim yüksək qiymətləndirir, kütləvi informasiya vasitələrinin mövcud problemlərini həll etmək üçün əlindən gələni edir və bundan sonra da edəcəkdir.

Siyasi plüralizmi və demokratiyanı dərinləşdirən, vətəndaşların informasiya ehtiyacını ödəyən, cəmiyyətin irəliləyişinə əngəl törədən halların aradan qaldırılmasında mühüm rol oynayan mətbuat həm də müstəqil dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilməlidir. Hər bir kütləvi informasiya vasitəsi milli dövlət quruculuğu prosesində, vətəndaş cəmiyyətinin qurulmasında, milli və bəşəri dəyərlərin bərqərar edilməsi və qorunmasında, ölkənin inkişafını təmin edən islahatların həyata keçirilməsində səmərəli surətdə iştirak etməli, həyatın güzgüsü kimi, həqiqət carçısı olmalıdır. İnsanları yüksək ideallar, humanist vətəndaş və demokratik cəmiyyət uğrunda mübarizəyə səsləməli və səfərbər etməlidir.

Bu əlamətdar gündə əmin olmaq istədiyimi bildirirəm ki, zəngin və mütərəqqi mətbuat ənənələri ilə fərqlənən Azərbaycan jurnalistləri peşə şərəfini həmişə uca tutaraq, respublikamızda və onun ətrafında baş verən hadisələrin ictimaiyyətə çatdırılmasında, bütün dünyaya yayılmasında və geniş təhlil edilməsində obyektivlik, yüksək professionallıq, əsl vətəndaşlıq, dövlətçilik mövqeyi və prinsipiallıq nümayiş etdirəcəklər.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *20 iyul 2002-ci il*

MİLLİ MƏTBUAT GÜNÜ MÜNASİBƏTİLƏ BAKI MƏTBUAT KLUBUNUN TƏSİSÇİLƏRİ İLƏ GÖRÜŞ

Prezident sarayı

22 iyul 2002-ci il

Azərbaycan prezidenti Heydər Əliyev Milli Mətbuat günü münasibətilə Bakı Mətbuat Klubunun təsisçilərini – «Xalq qəzeti»nin Baş redaktoru Həsən Həsənovu, «Turan» İnformasiya Agentliyinin Baş direktoru Mehman Əliyevi, «Exo» qəzetinin Baş redaktoru Rauf Talışinskini, «Zerkalo» qəzetinin Baş redaktoru Elçin Şıxlını, «Yeni Müsavat» qəzetinin Baş redaktoru Rauf Arifoğlunu, «Azadlıq» qəzetinin təsisçisi, «Yeni yüz il» qəzetinin Baş redaktoru Gündüz Tahirlini, «Azadlıq» qəzetinin baş redaktoru Rövşən Hacıyevi, «525-ci qəzet»in Baş redaktoru Rəşad Məcidovu, «Yeni nəsil» Jurnalistlər Birliyinin sədri Arif Əliyevi və «Ruh» Jurnalistlərin Hüquqlarını Müdafiə Komitəsinin sədri Əflatun Amaşovu qəbul etmişdir.

H e y d ə r Ə l i y e v: Sizi Mətbuat günü münasibətilə bir daha təbrik edirəm. Mən öz təbrikimi mətbuat vasitəsilə çatdırmışam. Ancaq bu fürsətdən istifadə edərək, sizi bir daha təbrik edirəm. Bizim Azərbaycan mətbuatına yeni uğurlar arzulayıram. Sizin hər birinizə də öz jurnalist fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

Mən dəfələrlə demişəm ki, hər peşənin özünün bir xüsusiyyəti var. Jurnalist fəaliyyətinin, peşəsinin də özünəməxsus xü-

susiyyətləri var, çətinlikləri də var, problemləri də var. Ancaq insanları cəlb edən cəhətləri də var və onların bir qismi özünü jurnalist peşəsinə həsr edir. Siz bu insanlardansınız. Ona görə sizə xüsusi müvəffəqiyyətlər arzu edirəm.

Mənə bildirdilər ki, siz Bakı Mətbuat Klubunun üzvlərisiniz və mənimlə görüşüb söhbət etmək istəyirsiniz. Bir halda ki, siz görüşmək istəyirsiniz, mən də görüşmək istəyirəm, yəqin bu söhbət də hər iki tərəfin təşəbbüsü ilə olmalıdır. Yəni ola bilər, siz mənə suallar verəsiniz. Mən sizin suallarınıza cavab verməyə hazıram. Ola da bilər ki, mən sizə suallar verəm. Güman edirəm ki, gərək siz də mənim suallarıma cavab verəsiniz. Ancaq əslində, yəqin ki, çox sual sizdən gələcək. Mən isə cavab verməklə məşğul olacağam. Ona görə vaxt itirmək istəmirəm. Kim söhbəti başlamaq istəyirsə, buyursun.

A r i f Ə l i y e v *(«Yeni nəsil» Jurnalistlər Birliyinin sədri)*: Cənab Prezident, bu gün Azərbaycan mətbuatının 127-ci ildönümüdür. Bilirik ki, Sizin gərgin iş qrafikiniz var, səfərdən yeni qayıtmısınız və bu arada bizim təklifimizi qəbul etdiyiniz üçün Sizə təşəkkür edirik. Burada iştirak edən Bakı Mətbuat Klubunun təsisçilərini təqdim etməyə ehtiyac yoxdur. İlk dəfə deyil, hamısı ilə görüşmüsünüz. Biz düşünürük ki, bir neçə ənənə yaratmağa nail olmuşuq, bir ənənə də yaradaq. Son vaxtlar çox giley olurdu ki, Azərbaycan prezidenti mətbuata müsahibələr – Binə hava limanında və başqa yerlərdə ayaqüstü görüşləri demirik – vermir. Bu, praktikada da var və biz çox şadıq ki, belə bir ənənəni Azərbaycanda yaradırıq.

Burada müxtəlif sahələrdə işləyən kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edirlər. Ümid edirik, müsahibədən sonra imkan olacaq ki, 5–10 dəqiqə Sizin suallara da biz cavab verək və bəzi fikirlərimizi də müsahibədənkənar bildirək.

H e y d ə r Ə l i y e v: Yəqin ki, məsələləriniz də var.

A r i f Ə l i y e v: Məsələlər həmişə var. Sizə Bakı Mətbuat Klubunun təsisçiləri adından bir hədiyyə vermək istəyirəm. Bu bizim klubun geyimidir. Bunu Sizə hədiyyə edirəm.

H e y d ə r Ə l i y e v: Yaxşı formadır, rəngi də yaxşıdır, keyfiyyəti də yaxşıdır.

A r i f Ə l i y e v: Çalışırıq, nə edirik yaxşı edək.

H e y d ə r Ə l i y e v: Mən bunu işdə geyinə bilmərəm. Ancaq bəzən bazar günləri istirahət etməyə imkan olur, azad oluram. Onda belə şeylərdən istifadə etmək olar. Sizə təşəkkür edirəm. Mütləq edəcəyəm və sübut etmək üçün bu paltarda şəklimi çəkdirib sizə göndərəcəyəm.

A r i f Ə l i y e v: Çox sağ olun. İndi isə həmkarlarım müsahibə üçün buyursunlar.

M e h m a n Ə l i y e v *(«Turan» İnformasiya Agentliyinin Baş direktoru)*: Cənab Prezident, Siz Yaltadan təzə qayıtmısınız. GUÖAM-ın sammiti haqqında mətbuatda müxtəlif fikirlər oxumaq olur. Məsələn, Özbəkistan bir sıra layihələrdə iştirak edir, bu sammitdə Özbəkistan səfirlə təmsil olunmuşdu. Moldovanın prezidenti Voronin qeyd etmişdi ki, GUÖAM-da Moldova heç bir fayda görmür. Ukraynanın prezidenti demişdi ki, GUÖAM inkişaf edir və Siz də qeyd etdiniz ki, inkişaf var. Amerika Birləşmiş Ştatları GUÖAM-da müşahidəçi kimi iştirak etmək istəyir. Bu, qurumun mühüm olduğunu göstərir və çox vacib bir amildir. İstərdim, bu suala cavab verəsiniz ki, həqiqətən GUÖAM-da nə baş verir?

H e y d ə r Ə l i y e v: Bilirsiniz, GUÖAM bir az qeyri-adi təşkilatdır. Bu, vaxtilə dörd ölkənin prezidentlərinin təşəbbüsü ilə Strasburqda görüşəndə yarandı. Biz bunu əvvəlcədən regional təşkilat kimi və daha çox iqtisadi əlaqələri inkişaf etdirmək üçün yaratdıq. Biz Strasburqda görüşəndə 1997-ci il

idi, o vaxt Avropa Şurasında dövlət başçılarının sammiti keçirilmişdi, orada yaratdıq. O vaxt belə idi, bizim hamımız Trans-Qafqaz magistralına çox aludə idik, bununla maraqlanırdıq. Biz bunun içindəydik. Yəni biz bunu təşkil edənlərdən idik. Amma başqa ölkələr var, hansılar ki, region, ərazi nöqteyi-nəzərdən yaxındır, çalışır ki, burada iştirak etsin. Beləliklə, bunun əsası iqtisadi prinsiplər əsasında qoyulubdur. İqtisadi əməkdaşlığı genişləndirmək üçün qoyulubdur. Sonra isə bu təşkilatı bir az siyasiləşdirməyə başladılar. Bəlkə də bunun siyasiləşməsi, bir tərəfdən, içəridən gələn əhval-ruhiyyədəndir, ikinci tərəfdən də, kənar təsirlərin nəticəsində idi. Biri əvvəl hesab edirdi ki, GUÖAM nəyə lazımdır? O birisi hesab edirdi ki, GUÖAM lazımdır. Belə olan halda o fikir də, bu fikir də meydana çıxırdı.

Beləliklə, GUÖAM yarandı. Deyə bilmərəm ki, biz çox iş gördük, böyük nəticələr əldə etdik. Ancaq indi dünyada çoxlu regional təşkilatlar yaranır. Təkcə dünyada yox, hər ölkədə bir təşkilat burada yaranır, bir təşkilat orada yaranır. İlk dövrdə bunları qavramaq mümkün deyildi, anlamaq mümkün deyildi. Bəzən də çoxları düşünürdü ki, bu nəyə lazımdır. Amma getgedə dünya dəyişdikcə artıq hamı bunlara öyrəşdi. Ona görə də biz hesab edirik ki, belə bir təşkilatın olması – mən orada çıxışımda dedim, düzdür, bu, rəsmi çıxış deyildi, sonra yemək vaxtı mən bunu dedim – heç kəsə zərər gətirmir. Heç kəs bundan narahat olmasın. Əgər bu təşkilat ona daxil olan dövlətlərə hansısa bir xeyir gətirirsə, demək, bundan istifadə etmək lazımdır. Yaxud, hansısa bir təşkilata, regiona zərər gətirirsə, onu da araşdırmaq olar ki, bu zərər olmasın.

Yəni bu təşkilat heç bir başqa təşkilata qarşı qoyulmuş təşkilat deyil. Heç bir başqa təşkilatla rəqabət aparmaq istəyən təşkilat deyil. Güman edirəm, buna qadir də deyil. Ancaq bu

ölkələr bir-biri ilə yaxın olduqlarına görə, məsələn, coğrafi nöqteyi-nəzərdən götürün. Biz o vaxtlar bunu təşkil edəndə Moldova, oradan gəlir Ukrayna, oradan Qara dəniz sahilindən Gürcüstan, oradan gəlir Azərbaycan, sonra bu işə Özbəkistan da qarışdı. Görürsünüz, üzv ölkədir, coğrafi nöqteyi-nəzərdən təxminən bir xəttin üstündədir. Bu da o vaxtlar daha çox bizim neft strategiyasını həyata keçirməyimizlə əlaqədar yaranmış çox böyük ümidlər ilə bağlı idi. Bu ümidlər bu gün də qırılmayıbdır. Yeni bir şey yarananda ona maraq birdən-birə püskürmə kimi olur, amma ondan sonra insanlar bunu öyrənməyə başlayırlar və araşdırırlar ki, bəli, maraq var, amma xeyri nədir, nə qədərdir, nə cürdür.

Məsələn, deyirsiniz, Moldovanın prezidenti cənab Voronin çıxış edərək bunu dedi. Bəli, dedi. O vaxt belə bir fikir var idi ki, Xəzər nefti Ukraynaya gələcək, Ukraynadan Moldovaya keçəcək, biz də bundan bəhrələnəcəyik. O bunu əsas prinsiplərdən gətirdi. Ancaq görürəm ki, indi bu, real deyil. Amma cənab Kuçma deyir ki, Odessa–Brodı neft kəməri artıq tikilib qurtarıbdır. Əgər neft Odessaya qədər gətirilsə, biz bunu oradan Baltik dənizinə qədər ixrac etməyə hazırıq. Bunu əvvəldən də deyiblər, əvvəldən də bu məsələni qoyublar. Xatirinizdədir, TRASEKA proqramına həsr olunmuş konfransda iştirak edəndə də Kuçma bu məsələni qaldırmışdı. Ona görə görürsünüz, belə fikir də var, elə fikir də var. Ancaq bunlar hamısı get-gedə reallaşacaqdır. Reallaşanda doğrudan da bəlkə bəzi əvvəlki maraq kəsiləcək. Amma bəzi maraq əvvəlkindən daha çox artacaqdır.

Ona görə mən hesab etmirəm ki, Voroninin çıxışı GUÖAM-ın dağıdılmasına yönəldilmiş bir çıxışdır. Ancaq GUÖAM-ın vəziyyəti belədir. Hər halda, biz müzakirə etdik və çox ciddi məsələlər müzakirə etdik, ciddi qərarlar qəbul etdik. Əgər biz hamı-

mız götürsək ki, müasir sabitlik və təhlükəsizlik haqqında böyük bir qərar qəbul etdik, bunun özü yaxşı bir nailiyyətdir. Böyük bir təşkilatın tərkibində bunu etmək mümkün olmursa, onda kiçik bir təşkilatın tərkibində bunu ediriksə, demək, biz bu sabitliyin, təhlükəsizliyin təmin olunmasına öz töhfəmizi veririk. Eləcə də, terrorizm ilə mübarizə, beynəlxalq terrorizmə qarşı mübarizə.

Biz orada başqa bir qərar da qəbul etdik. Bir neçə ildir ki, Müstəqil Dövlətlər Birliyinin gündəliyində azad iqtisadi zona yaratmaq məsələsi var. Hər dəfə yığışanda bəzi səbəblərdən bu, həll olunmur. Amma burada bu dövlətlər azad iqtisadi zona haqqında qərar qəbul etdilər. Demək, bu dövlətlərin bir-biri ilə iqtisadi əlaqələrində problemlər yoxdur və bunlar azad iqtisadi zonanı yaratmağa qadirdirlər və bu azad iqtisadi zonanın yaradılması onların iqtisadiyyatına xeyir gətirəcəkdir. Əgər böyük bir təşkilatın, MDB-nin tərkibində müxtəlif dövlətlərin müxtəlif fikirləri olduğuna görə məsələ həll olunmursa, birinci pillə kimi, bunu burada həll etməyin zərəri yoxdur, xeyri var. Başqa çox əhəmiyyətli qərarlar da qəbul etdik. Ona görə mən hesab edirəm ki, GUÖAM elə bir təşkilatdır ki, bu yaşayacaqdır. Daimi heç bir şey yoxdur. Ola bilər, başqa təşkilatlar yaransın, sonra onların içinə daxil olsun və onun içində ərisin. Amma hələlik bir çox məsələlərdə bizim ölkələrin, yəni GUÖAM-a daxil olan ölkələrin müştərək iş görməsi üçün yaxşı şərait yaranmışdır. Bundan imtina etmək lazım deyil.

R a u f T a l ı ş i n s k i *(«Zerkalo» qəzetinin Baş redaktoru)*: Cənab Prezident, Siz bir neçə vaxt bundan əvvəl yerli və xarici iş adamları ilə görüş keçirmisiniz. Orada qoyulan problemlər və məsələlər, demək olar ki, ictimaiyyət tərəfindən müsbət qarşılandı. Belə bir fikir yarandı ki, hakimiyyət artıq iqtisadiyyatda ciddi islahatlar həyata keçirmək fikrindədir. İndi hamı

bununla bağlı yekun müşavirəni gözləyir və onun ətrafında çoxlu söz-söhbət gedir. O cümlədən, kadr dəyişiklikləri ilə bağlı konkret adlar səsləndirilir. Eyni zamanda başqa bir fikir də var. Bu da ondan ibarətdir ki, hansısa kadr dəyişikliyi gözləmək lazım deyil. Bu dəyişikliklər yalnız funksional və struktur xarakter daşıyacaqdır. Siz bu barədə nə deyə bilərsiniz?

H e y d ə r Ə l i y e v: Mən bildirmək istəyirəm ki, keçirdiyimiz iki görüş – birincisi, yerli sahibkarlarla, ikincisi, xarici ölkələrdən Azərbaycanda iş görən sahibkarlarla keçirdiyimiz görüşlər öz-özlüyündə çox əhəmiyyətli oldu. Birincisi, ona görə ki, həm sahibkarlara, həm də bütün ictimaiyyətə bir daha, bir daha aydın oldu ki, Azərbaycan dövləti sahibkarlığın inkişafını əsas problemlərdən biri hesab edir, bazar iqtisadiyyatının inkişafını Azərbaycanın iqtisadi siyasətinin əsası kimi elan edir və bu prinsiplərin üzərində nəinki durur, hətta bu prinsipləri həyata keçirmək üçün müxtəlif əlavə tədbirlər də görür. Bu, sahibkarları ruhlandırdı. İkincisi, orada olan bəzi danışıqlar və mənim apardığım söhbətlər hələ biz qərar qəbul etməmiş, son tədbirləri keçirməmiş sahibkarların işlərini yüngülləşdirdi.

Məsələn, xırda bir məsələni götürək. Bəlkə də xırda deyil. Mən orada DYP-nin işini tənqid etdim. Dedim ki, Azərbaycanda bu qədər DYP əməkdaşına ehtiyac yoxdur. İkincisi də açıq dedim ki, bu insan Bakıda nə cür hərəkət etsin. O yaşayır, işləyir, iş adamıdır, yaxud müəllimdir, heç bir vəzifəsi yoxdur, heç bir peşəsi də yoxdur. Onun avtomobili var. Bu, təbii bir şeydir. Yol ilə gedir, onu bir döngədə DYP işçisi saxlayır ki, sənədini ver. Sənədini qurdalayır-qurdalayır, o qədər qurdalayır ki, bu adam boğaza yığılıb, canını qurtarmaq üçün ona müəyyən qədər pul verir. Ondan sonra keçə bilərsən.

Əgər bununla onun canı qurtarmış olsa, bəlkə də buna dözmək olar. Amma şəhərimiz böyükdür. Bir az gedəndən sonra o

biri döngədə saxlayırlar, bu biri döngədə saxlayırlar. Bu, insanlarda, mən orada dedim, böyük narazılıq yaradır. Bundan kimin xoşu gələr?! Elə o DYP işçisinin özü adi bir adam kimi, avtomobilə minsin, şəhərlə getsin. Onu 3–4 yerdə saxlayanda özünü necə hiss edəcəkdir, o cümlədən, bizim Daxili İşlər naziri Usubov özünü necə hiss edəcəkdir? Təbii ki, çox pis. Mən bunu orada açıqca dedim. Başqa bir şey demədim. Amma bir neçə gün ondan sonra Usubov mənə dedi ki, biz 300 nəfər DYP işçisini ixtisar etdik. Çünki DYP işçisi nə qədər az olsa – indi mən sizinlə açıq danışıram – bu insanlara bu işi tərgitmək çox çətindir. Tərgitməliyik. Amma bizi tənqid edən radikal mövqedə duran bəzi adamlar deyirlər ki, yox, bu olmamalıdır. Mən də deyirəm, olmamalıdır. Mən sizdən də qabaq deyirəm, olmamalıdır. Amma bunu real həyatda nə cür edək? Bunu azaltmaq olar və elə etmək olar ki, insanlar bu qədər usanmasınlar.

Usubov mənə deyir ki, 300 nəfər DYP işçisini ixtisar etdik. Dedim, yaxşı. Axı mənim də ordan-burdan tanışlarım var. Oradan xəbərlər gəlir ki, vallah, Sizə dua edirlər, nə yaxşı bizim canımız DYP işçilərindən qurtardı. Mən bilirəm, hələ tamam qurtarmayıb. Amma bunlar hesab edirlər ki, qurtardı. Çünki çox hissəsindən canları qurtarıbdır. Bunun özü nəticədir. Mən sizdən də qabaq deyirəm, olmamalıdır. Amma mən Usubova dedim, yox, sən hesabat verməlisən. Çünki mənim xatirimdədir, 3-4 il bundan öncə müşavirə keçirirdik. Lənkəranın icra hakimiyyətinin başçısı dedi ki, Lənkərandan Bakıya satmaq üçün meyvə, tərəvəz, bostan məhsulları gətirirlər. Onu 6-7 yerdə saxlayırlar, hamısında da pul tələb edirlər, həm də vaxt keçir, məhsul xarab olur. O vaxt mən ciddi tədbir gördüm, DYP işçilərini xeyli ixtisar etdilər. Hamı dedi, yaxşı. Bir

az keçdi, mənim də yadımdan, o birilərinin də yadından çıxdı və orada yavaş-yavaş işçilərin sayını artırdılar. Nəyə görə?

Mötəbər jurnalistlərsiniz, sizə deyə bilərəm, belə bir statistika var ki, MDB üzrə hər neçə min maşina neçə DYP işçisi düşür. Hər dəfə bizim Daxili İşlər Nazirliyi bir statistika verir və bu da həqiqətdir ki, neçəsə min adamın sayına görə Azərbaycanda ən az cinayət edilir. Bu həqiqətdir. Yaxud cinayətlərin açılması – Azərbaycan yenə də bütün MDB ölkələrindən üstündür. Bunu bir neçə dəfə mənə də məruzə ediblər, öz kollegiyalarında da deyiblər.

Əlbəttə, bu o demək deyil ki, cinayətkarlıqla mübarizə qurtarıb. Hər şey nisbidir, müqayisədə görürsən ki, doğundan da, Azərbaycanda vəziyyət o birilərindən yaxşıdır. İndi Usubov DYP işçilərini yoxlayıbdır. Bilmirəm, ya 10 min, ya 100 min maşina düşən DYP işçisinə görə bütün MDB ölkələri ilə müqayisədə Azərbaycanda daha çox DYP işçisi var. Yəni özü təsdiq edir ki, böyük səhv buraxıblar. Deyirəm, bu səhvi niyə, nədən ötrü buraxırsınız, bu nəyə lazımdır? Hətta deyirəm, gəlin bir eksperiment aparaq. Bir-iki gün bir neçə nöqtədə DYP işçisi qoyaq, qalan hamısını götürək. Görək şəhərdə avtomobil hərəkəti nə cür olacaqdır? Yəqin bunları da edəcəyik.

Yəni bu faktları deyirəm ki, artıq bunun, təkcə bu deyil, müəyyən başqa nəticələri də var. Ancaq mən hesab etmirəm ki, işimizi bununla qurtardıq. Mən bunu bir neçə dəfə demişəm, sizə də deyirəm. Həm mənim Aparatım, yəni iqtisadi bölmə, Vahid Axundov, həm də Nazirlər Kabineti bunların üzərində işləyiblər, hazırlayıblar. Yaltaya getməmişdən bir gün öncə mənə məlumat verdilər ki, materiallar tamam hazırdır. Təbiidir, mən onlara baxmalıyam, bu, vaxt tələb edəcək. Məsələlərə baxıb qurtaran kimi, mənim planımda geniş müşavirənin keçirilməsidir.

İkinci tərəfdən, biri deyir kadr dəyişiklikləri olacaq, biri deyir olmayacaq, biri deyir olsa yaxşıdır, biri deyir olmasa yaxşıdır – bunlar ikinci dərəcəli məsələdir. Gərək biz əsas təşkilati məsələni, iqtisadi məsələləri, qanunla tənzimlənən, fərmanla tənzimlənən məsələləri həll edək. Hansılar ki, sahibkarlığın inkişafını yüngülləşdirəcəkdir, yaxşılaşdıracaqdır. Amma harada kadr dəyişdirmək lazımdırsa, orada bunun üçün biz heç vaxt kampaniya keçirməyəcəyik. Bunu bilin.

Yəqin siz görürsünüz ki, Azərbaycan ölkəmizdə olan ictimai-siyasi sabitlik kimi, kadr siyasətində də daha çox sabitliyin tərəfdarıdır. Yəni kadr işlərinin hamısı son nöqtədə mənim üzərimdədir. Mən sabitliyin tərəfindəyəm. Amma əgər kimsə cinayət edir, kimsə işin öhdəsindən gəlmir, kimsə başqa pis işlər görür, biz onları heç vaxt bağışlamamışıq. Allaha şükür, mənim doqquz illik prezidentlik vaxtımda siz görmüsünüz, nə qədər insan vəzifəsindən uzaqlaşdırılıbdır, cəzalandırılıbdır.

Düzdür, müxalifət onları dərhal qucaqlayır, tumarlayır, öpür. Bizdə işləyəndə deyirdilər ki, nə bilim, belədirlər, eladirlər, hökuməti dağıdırlar, milləti dağıdırlar, filan edirlər. Bəzisi bir az ağıllı olur, gedir, başa düşür ki, daha bu işdən çıxıbdır, özünə başqa iş tapsın. Bizneslə məşğul olur, ya başqa işlə məşğul olur. Amma bəziləri ürəyində qəzəb hissini, necə deyərlər, boğa bilmir, çıxış yolu axtarır. Burada çıxış yolu var. Müxalifət orada da, burada da pusquda durub, nə cür, nə təhər adam tapım. Belə bir adam var, gəlsin, bu çox yaxşı adam imiş, buna yaxşı baxmayıblar. Heydər Əliyev buna yaxşı münasibət göstərməyibdir, filandır. O da bir azdan sonra əvvəlki əsl müxalifətçilərdən daha çox müxalifətçilik edir ki, özünü göstərsin, bəli, doğrudan da müxalifətçidir. Çünki axı orada da hələ ona tamam inanmırlar. Onlar gərək orada da

sınaq müddəti keçsinlər. Onun üçün də canfəşanlıq edirlər. Siz bunları görmüsünüz və lazım olan vaxtda yenə də görəcəksiniz. Mən bu barədə konkret heç bir şey demək istəmirəm.

Gündüz Tahirli*(«Azadlıq» qəzetinin təsisçisi, «Yeni yüz il» qəzetinin Baş redaktoru)*: Cənab Prezident, mənfi hallara – korrupsiyaya, rüşvətxorluğa və sair hallara qarşı mübarizədə inzibati metodlardan daha çox həmin halları yaradan ictimai-sosial səbəblər aradan qaldırılmalıdır. Bayaq dediyiniz kimi, hüquqi baza yaradılmalıdır. Ümumiyyətlə, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizədə zərbə daha çox dövlət idarələrində işləyən aşağı eşelona dəyir, nəinki yuxarı eşelona. Siz bununla, belə bir rəylə nə dərəcədə razısınız?

Heydər Əliyev: Bilirsiniz, mən indi aşağıdakıların hamısını bilmirəm. Yuxarıdakılar da göz qabağındadır. Bəlkə elə sizin bu sözlərinizdə müəyyən qədər həqiqət var. Amma bunu bir siyasət kimi qəbul etmək olmaz. Sadəcə, ola bilər, yuxarı eşalonda korrupsiya var, onu sıxışdıranda, yaxud ona qarşı ölçü götürmək istəyəndə, o hiss edəndə ki, ona qarşı burada təhlükə var, aşağı eşalona 3-4 adamı qurban verir ki, desin, korrupsiya elə bu imiş. Mən də bunu etdim. Bu da ola bilər. Yəni bu, indi sən deyən kimi ağlıma gəlir, bəlkə bu da ola bilər. Yəni mən bunu nə təkzib edirəm, nə inkar edirəm, nə də deyə bilərəm ki, bu, yaranmış bir təcrübədir.

Əli Həsənov*(Prezidentin İcra Aparatının şöbə müdiri)*: Cənab Prezident, qəzet redaktorları xahiş edirlər ki, müsahibə məxsusi olduğuna görə, Azərbaycan televiziyası və AzərTAc onu bunlardan qabaq yaymasınlar. Qalan özəl telekanallar bu müsahibə barədə xəbər versinlər.

Heydər Əliyev: Yaxşı, mən razıyam. Onda nə etmək lazımdır?

Əli Həsənov: Özəl televiziyanın müxbirləri getsinlər, Azərbaycan televiziyası ilə AzərTAc-ın müxbirləri qalsınlar.

Heydər Əliyev: Özəl televiziyaların müxbirlərini çıxardırıq?

Əli Həsənov: Bəli.

Heydər Əliyev: Yaxşı. Özəl televiziyalar bağışlasınlar. Özəl televiziyalar bu jurnalistlərin daha çox dostudur. Ancaq iş belə gəldi ki…

Rəşad Məcidov *(525-ci qəzetin Baş redaktoru)*: Cənab Prezident, ölkənin ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin həllinə hələ də nail olunmamışdır. Bir milyon qaçqının sosial vəziyyəti öz yerində, amma soydaşlarımızda, xüsusən xaricdə təhsil alan tələbələrimizdə ümidsizlik yaranıbdır. İşğal altında olan ölkənin vətəndaşı olmaq heç də qürur doğurmur. Müşahidəçilər bildirirlər ki, münaqişənin açarı daha çox Amerika Birləşmiş Ştatlarının və Rusiyanın əlindədir. Sizin həm prezident Vladimir Putinlə, həm prezident Corc Buşla və onun atası ilə səmimi dostluq münasibətləriniz vardır. İnsanlar fikirləşirlər ki, belə bir münasibət fonunda münaqişənin həllinə nail olmaq mümkün olmayıbsa, onda münaqişənin həllinin gələcək perspektivləri çox qaranlıq görünür. Bu barədə Sizin fikirlərinizi bilmək istəyirik?

Heydər Əliyev: Bilirsiniz, mən Yaltada çıxışımda dedim. Orada bütün prezidentlər çıxış etdilər. Demək olar ki, bircə Ukraynada münaqişə yoxdur. Gürcüstanda var, ağır vəziyyətdir, Moldovada var, ağır vəziyyətdir, bizdə də var. Dilarə xanım, prezidentlərin çıxışları bizdə veriləcək, ya verilməyəcək? Ancaq mənim çıxışım veriləcək?!

Dilarə Seyidzadə *(Prezidentin Katibliyinin rəisi)*: Bəli, Sizin çıxışınız tam, onların çıxışları isə qısa formada veriləcək.

H e y d ə r Ə l i y e v: Orada baxın, əgər onlar çıxışlarında münaqişə haqqında bir şey deyiblərsə, onları da verin. Qoy ictimaiyyət bilsin. Elə mən bu suala görə deyirəm. Yoxsa mən heç bunu yada salmazdım. Əyləşin.

Orada mən çox sərt çıxış etdim, həm Birləşmiş Millətlər Təşkilatının, həm ATƏT-in, həm Minsk qrupunun ünvanına, həm də Amerika, Rusiya və Fransadan olan həmsədrlərin, bu ölkələrin rəhbərlərinin ünvanına ciddi tənqid söylədim. Çıxışımı təkrar etmək istəmirəm, qulaq asarsınız. Mətbuatda da olacaq, oxuyarsınız. Məzmunu budur ki, siz hamınız bir tərəfdən deyirsiniz ki, beynəlxalq hüquq prinsiplərinə sadiqsiniz. Helsinki aktını qəbul etmisiniz və hamının ona sadiq olmasını təmin edirsiniz, özünüzün də sadiqliyinizi bildirirsiniz. Bunların da içərisində əsas prinsip hər bir ölkənin ərazi bütövlüyünün, suverenliyinin və sərhədlərinin toxunulmazlığının təmin olunmasıdır. Bunları deklarasiya edirsiniz ki, siz bu prinsiplərin tərəfdarısınız. Hətta Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında da söhbət gedəndə – məsələn, bu yaxınlarda Amerikada – deyirsiniz ki, biz Azərbaycanın ərazi bütövlüyünü tanıyırıq. Böyük iş görüblər. Tanımalısınız, tanımağa məcbursunuz. Əgər tanımırsınızsa, onda siz qəbul etdiyiniz prinsiplərin əleyhinə gedirsiniz.

Mən dedim ki, belə olan halda siz niyə bizim münaqişənin həll olunması ilə lazımi qədər məşğul olmursunuz? Nəhayət, gəlib o dərəcəyə çatmısınız ki, deyirsiniz, Ermənistan–Azərbaycan münaqişəsinin həllində qoy Ermənistan prezidenti ilə Azərbaycan prezidenti danışsın, məsələni həll etsin. Ondan sonra nə kömək lazımdırsa, biz bunu edək. Buna əyani sübut Buşla Putinin Moskvadakı görüşündə qəbul olunmuş sənəddir. Yəqin siz onu oxumusunuz, bilirsiniz. Bu, internetdə də var idi. Orada Dağlıq Qarabağ münaqişəsi haqqında yazılıbdır ki,

Azərbaycan və Ermənistan prezidentlərinə tövsiyə edilsin ki, onlar daha çevik hərəkət etsinlər, məsələnin həll olunmasının yolunu tapsınlar, biz isə – burada Buşla Putin nəzərdə tutulur – ondan sonra buna kömək etməyə hazırıq. Vəziyyət bu yerdədir. Bu, ikili standartdır. Mən Yaltada bunun hamısını dedim. Dedim, bu ikili standart, ikili münasibət gətirib dünyanı, sizin prinsipləri dağıdacaqdır.

Mən sizə açıq deyirəm, bu, mətbuatda da gedəcəkdir. Belə olan halda bizə Birləşmiş Millətlər Təşkilatı nəyə lazımdır? ATƏT nəyə lazımdır? Altı aydan bir ATƏT-in sədri dəyişir. Bir ölkə altı ay sədrlik edir, altı ay keçəndən sonra o birisi, daha sonra o birisi olur. İndi deyəsən, Portuqaliyadır. Bizə başqa yerlərdən çatdırdılar ki, ümumiyyətlə, Portuqaliya bu məsələ ilə məşğul olmaq istəmir. Bundan əvvəl Rumıniya idi. Rumıniya parlamentinin sədri buraya gəlmişdi, Ermənistana da getmişdi, hətta Dağlıq Qarabağa da getmişdi. Gəldi ki, bəs Siz danışmalısınız. Mən dedim, siz bizə tövsiyə edirsiniz ki, baş vermiş faktla razılaşmaq lazımdır. Əgər biz hər dəfə baş vermiş faktlarla razılaşacağıqsa, onda sizin mübarizə apardığınız bu prinsiplər nəyə gərəkdir?

Rumıniyadan olan sədr bura gəldi. Gördüm Dağlıq Qarabağa gedib, sonra gəlib belə sözlər danışır ki, bilirsiniz nə var, gəlin belə edək. Mən ATƏT-in sədri kimi, bir parlament qrupu yaradım, bu işlə məşğul olaq. Biz bunu həll edəcəyik. O, bir-iki dəfə belə dedi. Dedim bilirsən nə var, onsuz da ATƏT-in Minsk qrupu var. Mən bilirəm ki, parlament qrupu heç bir şey edə bilməz. Mən bununla razı deyiləm. Yox, siz öz nümayəndənizi verin, filan edin. Hətta Buxarestdə bizim səfirə də demişdi. Səfir də guya bizim üçün böyük bir Amerika açır ki, belə bir məsələ var, bunlar həll edə bilərlər. Axı bilirəm, bu cəfən-

giyyatdır. Onlar heç bir məsələni həll edə bilməzlər. Hər halda, mən ona razılıq vermədim, getdi.

Yadıma Məşədi İbadın bir epizodu düşdü ki, onun başına məlum iş gələndə biri gəlir ki, Məşədi, filan qədər ver, gedim filan edim, o biri gəlir başqa bir şey deyir. İndi biz də bu günə qalmışıq. Başa düşürsünüz?

Mən sizə açıq deyirəm. Bu məsələləri açıq deyəndə bizim müxalifət o dəqiqə onu fırlatmağa başlayır. Bir də görürsən, boş bir şey haqqında dalbadal 7 dənə məqalə yazılır ki, filan olur, peşmənkan olur. Mən bunu sizə açıq deyirəm. İndi, bu dəqiqə bütün bu təşkilatlarda belə bir əhval-ruhiyyə var ki, olan oldu, gərək reallığı nəzərə alaq. Onların qarşısında, bax, bunları deyirsən, onda bildirirlər ki, bəli, düz deyirsiniz. Biz ərazi bütövlüyünü tanıyırıq. Deyirəm, onda sən bunu niyə deyirsən? Deyir, axı başqa yol yoxdur. Deyirəm, niyə yol yoxdur, bunun yolu bu prinsiplərdir. Əgər bu prinsipləri siz həyata keçirə bilmirsinizsə, onda, gəlin bu təşkilatları dağıdaq. Siz bilmirsiniz, mən onlarla nə qədər açıq, sərt danışıqlar aparıram.

İndi Avropa Şurası nazirlər komitəsinə sədrlik edən Lüksemburqun nümayəndəsi də bura gəlmişdi. Siz onu görmüsünüz. O, Xarici İşlər naziri, eyni zamanda Baş nazirin müavinidir, ağıllı bir qadındır. Onlarla burada söhbət edirdik. Bu məsələni o da yozurdu. Durub-durub dedi ki, bilirsiniz nə var, Sizin də bir torpağınız Ermənistanın içindədir. Siz onlara bir şey verin, onlar da Sizin torpağınızı versin. Gördüm heç bu xanımın xəbəri yoxdur ki, bu bizim torpağımızdır. Bunu bizə vermək lazım deyil. Naxçıvan Muxtar Respublikasını deyirəm. Dedim ki, siz yəqin bizim torpağımızın ərazi nöqteyi-nəzərdən ayrı düşməsini deyirsiniz. Dedi, hə, hə. Dedim ki, bilirsiniz, bu da bizə qarşı olan qəsddir. 1920-ci ildə bu sərhədləri quranda, o vaxtlar Azərbaycanın Moskvada kimi olubdur? İqtidar erməni-

lərin əlində idi. Azərbaycanın torpağı – Zəngəzuru, xüsusən onun Mehri hissəsini kəsib Ermənistana veriblər ki, Ermənistanın İranla sərhədi olsun. Bu tamamilə süni bir şeydir. Baxın, 1920-ci ildə ermənilər nə haqqında düşünüblər. O vaxt sovet hökuməti idi. Onda sərhəd nəyə lazım idi?

Mən sizə deyirəm, sovet hökuməti vaxtı mən işləmişəm. Vaxtilə DTK-da həmin o sərhədləri qoruyanlardan biri olmuşam. Sonra Azərbaycanın rəhbəri olmuşam. Heç sərhəd haqqında söhbət gedə bilməzdi. Dəmir yolu var idi, Bakı–Yerevan qatarı işləyirdi. Oradan Mehridən qatar gedirdi gəlirdi. Orada heç bir maneə haqqında söhbət ola bilməzdi. Amma görün, 1920-ci ildə düşünüblər ki, gərək Ermənistanın İrana çıxması üçün sərhəd verilsin və veriblər.

Sizə tarixi bir az izah etdim. Amma indi qadınla danışığıma qayıdıram.

Mən ona deyirəm ki, məsələ belə olubdur. Əgər ermənilər indi Mehri rayonunu bizə vermək istəyirlərsə və onun əvəzində Dağlıq Qarabağı almaq istəyirlərsə, qoy təkliflərini versinlər, biz baxaq. Deyin görüm, mən burada nə pis söz demişəm? Bu diplomatiyadır. Bilirsiniz, diplomatiya, bax, belə şeylərdən ibarətdir. Mən bu sözü atıram. Bilirəm ki, bu, real deyil, bilirəm ki, Ermənistan bunu etməz. Hətta bilirəm ki, bu məsələ yeni deyil, son bir ildə bu məsələ müzakirə olunur.

Serj Sarkisyan 2-3 ay bundan əvvəl deyib ki, Azərbaycanın lap yarısını da bizə versələr, biz Mehrini əlimizdən vermərik. Mən bunları bilirəm. Amma bunları bilərək, mən bunu açıq mətbuatın qarşısında Avropa Şurası Nazirlər Komitəsinin sədrinə, Lüksemburqun Xarici İşlər nazirinə deyirəm ki, siz Ermənistana gedirsiniz. Onlara deyin, qoy Mehrini bizə versinlər, Dağlıq Qarabağı onlara verək. Mən düşündüm ki, onlarda güclü bir reaksiya olacaqdır. Neçə dəfə soruşdum, olmadı.

Bunu sakit keçirdilər. Amma nə oldu? Bizim müxalifət qəzetlərində 5-6 məqalə getdi ki, Heydər Əliyev Dağlıq Qarabağı Ermənistana verməyə istəyir. Əziz dostlarım, siz də bilin, bütün Azərbaycan milləti də bilsin. Mən bu danışıqları apararkən bəzən insanları divara dirəmək üçün, bəzən diplomatik oyunlarla, gedişlərlə bir şeyə nail olmaq üçün belə söz deyə bilərəm. Amma demək, hələ bunu etmək deyildir.

Mən dedim ki, Mehrini versinlər, biz də Dağlıq Qarabağı onlara verək. Bu o demək deyil ki, onlar o dəqiqə Mehrini verdilər, mən də Dağlıq Qarabağı onlara verdim. Burada da dalbadal məqalələr gedir. Özü də partiya başçıları yazırlar ki, Heydər Əliyev Dağlıq Qarabağı Ermənistana verir. Belə şey olarmı? Olarmı? Olmaz!

Ancaq mən sizə bir şeyi də deyim. Bilirsiniz ki, vaxtilə torpaq dəyişikliyi haqqında söhbət olubdur. Saxarov buraya gələndə söhbət olubdur ki, Mehri Azərbaycana verilsin. Laçından da Ermənistana dəhliz verilsin, bu məsələ qurtarsın. Azərbaycan bununla razılaşmayıbdır. Bunu mənə Türkiyədə rəhmətlik Özal deyibdir, Süleyman Dəmirəl deyibdir. O vaxt Hikmət Çətin Türkiyənin Xarici İşlər naziri olubdur, o deyibdir. Bu məsələ o vaxt qalxıbdır, onlar da bunu deyiblər. Deyə bilmərəm ki, ermənilər son olaraq bununla razılaşa bilərdilər. Amma, hər halda, belə bir əhval-ruhiyyə var idi. Amma bu işə tam müxalif çıxan tərəf Azərbaycan olubdur.

Mehrinin Azərbaycan üçün nə qədər əhəmiyyəti var, bunu bilirsiniz. Mən sizinlə açıq danışacağam. Bir dəfə belə söhbət oldu. Sonra lap yüksək dairələrdən, ayrı-ayrı ölkələrdən dedilər ki, siz türk qurşağı yaratmaq istəyirsiniz? Dedim türk qurşağı nədir? Dedilər ki, Türkiyə, Naxçıvan gəlib birbaşa Azərbaycana birləşir, oradan da Orta Asiyaya gedir. Dedim türk qurşağı kimə qarşıdır? Dedilər ki, görmürsünüz kimə qarşıdır?

Amma mən də uşaq deyiləm. Bilirəm ki, bu həqiqətdir. Başa düşürsünüz?!

Mən bəzi məsələləri sizə açdım. Hesab edirəm, bəsdir. Amma qəlbimdə, beynimdə o qədər belə faktlar var. Gərək ki, sən dedin, mən onunla da yaxınam, dostam, bununla da dostam. Bəli, münasibətlərimiz çox yaxşıdır. Məsələn, mənim Klintonla çox gözəl münasibətim var idi. Onun mənə böyük rəğbəti var idi, mənim də ona böyük rəğbətim var idi. Amma o bu məsələni həll edə bilmədi. Çünki o da edə bilmirdi. İndi Buş gəlibdir. Onunla da münasibətimiz çox yaxşıdır. Atası ilə də mən keçmişdən tanışam. Putinlə münasibətlərimiz çox yaxşıdır.

Məsələn, Sankt-Peterburqda Nizaminin heykəlini qoyduq. Bu, kiçik məsələ deyildir. Düzdür, bu barədə qərar bir müddət öncə qəbul olunmuşdu. Amma Putin buraya gələndən sonra özü bir neçə dəfə dedi ki, Nizaminin heykəlinin Sankt-Peterburqda qoyulması haqqında özü orada işləyən zaman məsələ qalxmışdı, bunu həll etmək lazımdır. Həll elədik. İndi Sankt-Peterburq kimi böyük bir şəhərdə Nizaminin heykəli var. Bu, kiçik məsələ deyildir. Sadəcə, o bağa, bağçaya gələn hər bir adam, orada istirahət edən adam deyəcək, bu kimdir? Nizamidir? Kimdir Nizami? Öyrənməyə başlayacaqlar. Elə bunun özü bizim milləti tanıdacaqdır. Biz bunu çox böyük səmimiyyətlə həyata keçirdik.

Bəli, deyərdi ki, mən razıyam, gətirin qoyun. Amma Sankt-Peterburqa özü gəldi. Mən oraya getdim, görüşdük, söhbət etdik, heykəli birlikdə açdıq, ondan sonra gəlib söhbətimizi davam etdirdik. Mən təxminən 4 saat onunla bir yerdə oldum – ümumi söhbət, yemək. Yəni, çox səmimi münasibətlərimiz var.

Bilirsiniz, dövlət başçılarının bir-birinə münasibətləri dövlət mənafeyinə uyğun olan halda ola bilər. Mən belə düşünürəm. Yoxsa, kimsə mənim xoşuma gəlir, mənim ölkəmə nə cür baxır,

ya baxmır – yox, belə şey ola bilməz. Azərbaycanın prezidenti kimi, mənim üçün əsas Azərbaycanın dövlət mənafeyidir. Amma mən görürəm ki, Putin bu vəzifəyə gələndən Azərbaycanın nə olduğunu əvvəlki rəhbərlərdən fərqli olaraq çox yaxşı hiss edir və Azərbaycana sağlam münasibət göstərir. Hesab edir ki, Azərbaycan ilə Rusiya arasında münasibətləri inkişaf etdirmək lazımdır. Heç bir təzyiq, heç bir keçmiş diktə olmamaq şərti ilə. Bizə belə münasibət lazımdır. O hal olmur ki, mən bundan istifadə etməyin. Sankt-Peterburqda onunla görüşəndə bütün məsələlərdən savayı, yenə də bu məsələni müzakirə etdik. Amma yenə də eyni hal, Siz Köçəryanla görüşəcəksiniz. Baxın, görün nə edək. Biz də baxacağıq, görək nə edək.

Bir sözlə, siz adi adamlar deyilsiniz. Siz bizim mətbuatımızın aparıcı qüvvələrisiniz. Subyektiv təsirlərə düşməyin. Mən sizə deyirəm, məsləhətimi verirəm. Siz inanın, bilin, bu məsələnin həll olunması mənim həyatımın mənasıdır. Mən özüm haqqında bir söz demək istəyirəm. Bu, xalqdır, millətdir, dövlətdir. Bizim başımıza elə bir faciə gəlibdir ki, mən Yer kürəsinə, qlobusa, xəritəyə baxanda tapa bilmirəm, hansı ölkənin başına belə bir iş gəlibdir. Mən ikincisini tapa bilmirəm. İkincisini tapa bilmirəm ki, torpaqlarımızı işğal edən ölkə kimi, dünyanın nə qədər dövlətləri tərəfindən və onların öz diasporu tərəfindən bu cür möhkəm dəstəklənir. İkinci belə dövlət yoxdur.

Tutaq ki, Kəşmir, Hindistan. İndi bir qismi Hindistanı dəstəkləyir, bir qismi Pakistanı dəstəkləyir. Amma elə bir şey yoxdur. Hətta Hindistanın dünyanın bir çox yerlərində böyük-böyük adamları var. Onlar gəlib bu məsələni həll etməyə heç çalışmırlar. Vuruşurlar, vuruşurlar. Amma erməni diasporu və bu diasporun həmin o dövlətlərə olan təsiri! Əgər belə şeylər olmasaydı, biz məsələlərimizi həll edə bilərdik. Amma həll edəcəyik. Mən bu çətinlikləri deyəndə heç də düşünməyin ki,

ümidsizəm. Yox. Əgər mən ümidsiz olsam, bu gün vəzifədən çıxıb gedərəm. Ümidsiz deyiləm.

Rövşən Hacıyev*(«Azadlıq» qəzetinin Baş redaktoru)*: Cənab Prezident, qarşıdan referendum gəlir. Referendumla bağlı həm daxildə müxalifət qüvvələri, həm də beynəlxalq təşkilatlar kəskin reaksiya bildiriblər. Yaltaya səfəriniz zamanı Siz həmin reaksiyalara cavab vermisiniz, referendumun keçirilməsində diqqətli olacağınızı demisiniz. Sizə elə gəlmirmi ki, bu həm daxili, həm də xarici qüvvələrə bir qarşıdurma yarada bilər? Bu, sualımın birinci hissəsidir. Sualımın ikinci hissəsi belədir: belə fikirlər dolaşır ki, referendumdan sonra ölkədə növbədənkənar prezident seçkiləri keçiriləcəkdir. Siz necə fikirləşirsiniz, Azərbaycanda Putin variantı mümkündürmü və Siz kimi prezident görürsünüz?

Heydər Əliyev: Birincisi, mən anlaya bilmirəm ki, bu referendum nə üçün belə bir problemə çevrilibdir. Burada bir şey yoxdur axı. Düzü, mən referendum haqqında qərar qəbul edəndə, təsəvvür edə bilməzdim ki, buna müxalifət tərəfindən belə reaksiya veriləcəkdir. Amma reaksiya təkcə müxalifət tərəfindəndir, mən cəmiyyətdən mənfi reaksiya görmürəm. Cəmiyyət bunu tamamilə normal qəbul edibdir. Ancaq müxalifət çox fəaldır. Səbəbini anlaya bilmirəm. Burada nə var axı?

Yeddi il bundan öncə Konstitusiya qəbul olunubdur. O vaxt belə qərara gəldik ki, Konstitusiyamız ancaq referendumla qəbul edilsin. Bu düzdür, gələcək üçün də belə olmalıdır. Əgər Konstitusiyanı parlamentin ixtiyarına versək, ildə ona beş dəfə dəyişiklik edəcəklər. Bu olmaz. Amma görürsünüz, birinci dəfə referendumun keçirilməsi artıq problem yaradıbdır. Demək, biz düz etmişik. Konstitusiyanı həm referendumla qəbul etmişik, həm də qərar qəbul etmişik ki, Konstitusiyanı ancaq referendum vasitəsilə dəyişdirmək olar. Demək, bu, birinci məsələ.

İkincisi, referenduma çıxarılan məsələlər barədə. Bilirsiz ki, orada 23 məsələ var. Onların əksəriyyəti Avropa Şurasına daxil olduğumuz dövrdən sonra qoşulduğumuz konvensiyalarla əlaqədardır və biz onlarla uyğunlaşdırmalıyıq. Bir hissəsi məhkəmə-hüquq islahatları ilə əlaqədardır, onları uyğunlaşdırmalıyıq. Orada iki-üç maddə var. Prezident olmayanda, vəzifəsini icra edə bilməyəndə onun salahiyyəti parlamentin sədrinə aiddir, indi Baş nazirə verilməsi nəzərdə tutulur. Mənə belə gəlir ki, bu məsələyə görə də ikinci sual çıxır. İkinci maddə proporsional, majoritar seçki məsələsidir. Sonra nədir?

Dilarə Seyidzadə: Səsvermə məsələsidir.

Əli Həsənov: Yox, ona etiraz yoxdur.

Heydər Əliyev: Yaxşı, buna nə etiraz olacaq. Əvvəl üçdə iki idi, hamıya çətinlik yaradırdı. Mən o vaxt etdim. Çünki hesab edirdim ki, bu mənim üçün elə bir çətin şey deyildir. Amma indi baxıram ki, axı məndən sonra da seçki olacaqdır. Mən niyə belə bir çətin vəziyyət qoyub gedim. Gələcək seçkilərdə prezidentlərin vəziyyətini yüngülləşdirirəm. Burada pis bir iş görmürəm ki. Biri də budur. Bunlara bir-bir cavab verirəm.

Birincisi, soruşmaq istəyirəm, haradan çıxıb ki, Azərbaycanda Putin variantı ola bilər, yoxsa yox? Putin variantı o deməkdir ki, Yeltsin uzun müddət xəstə idi, vəzifəsini yerinə yetirə bilmirdi. Baş naziri təyin edirdi, beş aydan sonra çıxardırdı. Bütün nazirləri çıxardırdı. Başqasına tapşırırdı, təyin edirdi. Onlarla tanış olmağa başlayırdı, bir də görürdün ki, Yeltsin gedib bir həftə yatdı, səhər tezdən gəlib bir əmr verdi, Baş naziri çıxardı. Heç kəsin də xəbəri olmurdu. Bunu siz bilin. Təkrar etmək istəmirəm, 5-6 dəfə belə hallar oldu. Mən belə başa düşürəm ki, nəhayət, o, axtardığı adamı tapdı. Özü də hiss edirdi ki, bu vəzifəni öz səhhətinə görə artıq yerinə yetirə bilmir. Biz də bunu görürdük.

Təkcə bu deyildi. 1996-cı ildə keçirilən seçkilər zamanı, ikinci dəfə prezident seçiləndə o, xəstə idi. Yadımdadır, mənə telefon etdilər ki, Yeltsin Kislovodskda Qafqaz respublikalarının prezidentləri ilə görüş keçirmək istəyir. Dedim nə görüş? Ermənistan, Gürcüstan, Azərbaycan. Dedim mən oraya gəlmirəm. Dedilər niyə? Dedim ki, Ermənistan gələn yerə mən gəlmərəm. Mən oraya getməyə etiraz etdim. Buraya mənim yanıma adam göndərdilər. Yadımdadır, Baş nazirin birinci müavini var idi, sonra onu da çıxardı. Familiyası yadımdan çıxıbdır, keçmişdə mənimlə işləmiş adam idi. Onu mənim yanıma göndərdilər. Burada bir iki-üç saat mənə dedi ki, getmək lazımdır. Yeltsinin seçilməsinə biz səs vermirdik. Biz onların vətəndaşı deyilik. Məsələ belə idi ki, Şimali Qafqazdakı adamları biz təşviq edək ki, onlar Yeltsinə səs versinlər. O vaxt Zyuqanovun reytinqi çox yüksək idi. Gəlib Kislovodska yığışdıq. Şimali Qafqaz ölkələrinin prezidentləri orada idi. Ter-Petrosyan idi, Gürcüstanın prezidenti idi, mən idim, gəldik, oturub bir az söhbət elədik. Ondan sonra müşavirə keçirdik.

Mənə əvvəlcədən demişdilər ki, Şimali Qafqaz respublikaları Heydər Əliyevi özlərinə ağsaqqal hesab edirlər. Burada da müəyyən həqiqət var. Onların hamısının mənə hörməti var. Çoxları keçmişdən, sovet hakimiyyəti vaxtından işləyən adamlardır. O da olmasa, sadəcə, onların mənə hörməti çox böyükdür. Məsələn, indi Dağıstanda Məhəmmədəlini yenidən seçdilər. O çox istəyirdi ki, mən ayın 25-də onun andiçmə mərasiminə gedim. Ancaq imkanım yoxdur, Rasizadəyə göstəriş verdim, o gedəcəkdi. Dedilər ki, mən onlarla bir az danışmalıyam və onları başa salmalıyam. Bu yerlərdə, elə Dağıstanın özündə də kommunistlər çox güclü idilər. Bunları da elədik.

Mən nəyi deyirəm. Deyəsən, seçkilərin ikinci turu qarşısında idi, birinci turda keçə bilmədilər. Axırda Yeltsin seçildi. Sonra

o, andiçmə mərasimi keçirdi. Andiçmə mərasiminə getdik. Bizimlə yarım saat otura bilmədi. Qəribə bir vəziyyət idi, bir də görürdün çox xəstə olurdu, sonra sağalırdı. Bir də görürdün bir-iki ay yaxşı işləyirdi. Amma, hər halda, xəstə idi. Mən güman edirəm ki, bütün bu işləri görmək üçün istəyirdi ki, özünə bir varis tapsın. Onu da tapdı. Özü də Allaha şükür, çox yaxşısını tapdı və hakimiyyəti Putinə verib getdi. İndi Azərbaycanda Putinin variantı söhbəti nədir? Mən hələ nə xəstəyəm, nə özümü zəif hiss edirəm, nə də bu vəzifədən getmək fikrim var. Mən elan etmişəm ki, 2003-cü ildə keçiriləcək seçkilərdə iştirak edəcəyəm.

Düzdür, «Turan» agentliyi Şvimmerə təxribat xarakterli sual vermişdi. Şvimmer də cavab vermişdi ki, gərək burada Konstitusiyaya dəyişiklik olsun. Bizim Konstitusiya Komissiyasının sədri ona lazımi cavabı verdi, qurtardı getdi. «Turan» agentliyi o sualı ona verəndə gərək deyəydi ki, Azərbaycan Konstitusiyasının keçid müddəaları var və bu müddəalara görə iki dəfədən artıq təkrarən seçilməmək yalnız yeni Konstitusiya qəbul olunduqdan sonra seçilən Azərbaycan prezidentinə şamil edilir. Şvimmer bunu haradan bilir. «Turan» agentliyi sual verəndə gərək bunu izah edəydi. İzah eləmədi, bizim Konstitusiya Məhkəməsi izah etdi, qurtardı getdi. Daha bu məsələ yoxdur. Əgər kimsə kiməsə yenə sual verəcəksə, versin, cavabını verəcəyik. Mən 2003-cü ildə seçkilərdə iştirak edəcəyəm və inanıram ki, xalq mənim indiyə qədər çəkdiyim zəhməti qiymətləndirəcək və mənə səs verəcəkdir. Ona görə Putin variantını kim icad edib, nəyin əsasında, nədən ötrü icad edib, bunu başa düşə birmirəm. Mən bunu tamamilə yersiz hesab edirəm və məsləhət görürəm ki, belə məsələlərə başınızı qarışdırmayın.

Bir məsələni də izah edim. Biz 1995-ci ildə yazdıq ki, – biz Konstitusiya Komissiyasının iclaslarını keçirdik, burada dəfələrlə müzakirə aparmışdıq, elə təsadüfi götürüb yazmamışdıq –

əgər prezident istefa versə, yaxud səhhətinə görə vəzifəsini yerinə yetirməyə imkanı olmasa, onu üç aylığa parlamentin sədri əvəz edəcəkdir. Biz o vaxt, 1995-ci ildə belə düşünürdük. Amma indi vəziyyət dəyişilibdir, düşüncə də dəyişilibdir.

Məsələn, mən özüm sizə açıq deyirəm. İqtisadiyyat bizim respublikanın əsasıdır. Prezident yoxdur, kimsə onu üç ay əvəz etməlidir. Əgər bunu əvəz edən adam Baş nazir olsa, demək, o, iqtisadiyyat içindədir, iqtisadiyyat baxımından və başqa məsələlər baxımından prezidentin gördüyü bütün işlərin içindədir. Demək, o, üç ay respublikanı bu sahədə idarə edə bilər və respublika iqtisadiyyatına zərər dəyməz. Dəysə də, az dəyər. Amma parlamentin sədrinin başı parlamentə qarışır, qanunlar qəbul edir. Təbiidir, o, qanunları qəbul edərək iqtisadiyyatı bilir, iqtisadiyyatdan xəbərsiz deyildir. Amma o, icra funksiyasını həyata keçirmir. İcra funksiyaları bizdə prezidentdədir və prezidentdən sonra onun ən yüksək icra orqanı olan Nazirlər Kabinetindədir. Ona görə bu, tamamilə məntiqə uyğun bir məsələdir və bunu da təklif edirik. İndi bundan nəsə qurtdalayıb çıxarırsan ki, Putin variantı olacaq, kimsə təyin olunacaq və s…

Mən sizə açıq deyirəm. Bəzi yerlərdə deyirlər ki, bunu ona görə edirlər ki, İlham Əliyevi təyin etsinlər. Bəs indiyə qədər, iki ildir söhbət getmirdi ki, Murtuz Ələsgərovun yerinə İlham Əliyev təyin olunur. Bəs niyə təyin olunmadı?! Murtuz Ələsgərovun yerinə İlham Əliyevi təyin etmək elə bir problem deyil. Çünki bizim partiya parlamentdə çoxluq təşkil edir. Murtuz Ələsgərovun özü partiyanın sədr müavinidir. Əgər partiya məsləhət görsə ki, Murtuz Ələsgərov bu vəzifəsini İlham Əliyevə versin, hesab edirəm, Murtuz Ələsgərov da buna etiraz etməz. Amma biz bunu niyə etmədik. Çünki bu fikir yoxdur. Heç vaxt olmayıbdır. Amma indi bəzi adamlar bunu uydurur, çıxarır, yayır, insanları inandırır. Yaxşı, yazıq Murtuz Ələsgə-

rovu çıxardınız, indi deyirsiniz ki, Rasizadəni bu gün, sabah çıxaracaqlar. Belə şey ola bilməz. Ona görə xahiş edirəm, belə məsələlərdə diqqətli olun. Buyurun.

R a u f A r i f o ğ l u *(«Yeni Müsavat» qəzetinin Baş redaktoru)*: Heydər bəy, Dağlıq Qarabağla bağlı əhatəli, bəzi məqamlarda açıq danışdınız. Hətta gözləmədiyimiz halda etdiyiniz gedişlərin altında nələrin gizləndiyini bizim vasitəmizlə cəmiyyətə çatdırdınız. Yəni Siz Mehri ilə Dağlıq Qarabağın dəyişdirilməsi təklifini söyləyərkən bunu, sadəcə, gediş olaraq nəzərdə tutmusunuz. Biz belə başa düşdük. Siz beləmi söylədiniz?

H e y d ə r Ə l i y e v: Dedim də.

R a u f A r i f o ğ l u: Bəli, elə dediniz. Yəni Siz bunu birinci dəfədir deyirsiniz?

H e y d ə r Ə l i y e v: Yox, mən onu o xanıma demişdim.

R a u f A r i f o ğ l u: Siz ona təklif etmişdiniz ki…

H e y d ə r Ə l i y e v: Mən ona təklif etməmişdim. O mənə təklif etmişdi ki, Siz onu dəyişin. Mən də dedim ki, siz ora gedirsiniz, onlara deyin. Əgər onlar dəyişsələr, biz bunu edərik.

R a u f A r i f o ğ l u: Amma gerçəkdən belə bir dəyiş-düyüşə razı deyilsiniz?

H e y d ə r Ə l i y e v: Bu sənin nəyinə lazımdır?

R a u f A r i f o ğ l u: Sual vermək istəyirəm, ona görə.

H e y d ə r Ə l i y e v: Axı gəl sən bugünkü gündən danış. Bugünkü gündən danışaq ki, ermənilər bu təklifi etdilər, ya etmədilər. Mən sənə izah edərəm.

R a u f A r i f o ğ l u: Mən dəqiqləşdirmək istəyirəm. Mənim sualım yarımçıq qaldı.

H e y d ə r Ə l i y e v: Yaxşı, buyur, sualını tamamla.

R a u f A r i f o ğ l u: Siz burada Dağlıq Qarabağla bağlı səhnənin dramatikliyini kifayət qədər açıq göstərdiniz. Yalnız yekunda söylədiniz ki, siz ümidsiz deyilsiniz. Bütün bunlar

hakimiyyətdə olduğunuz doqquz illik siyasətinizin nəticəsində ortaya çıxan gerçəklikdir. Bunlarda işim yoxdur, bunlar doqquz il ərzində baş veribdir, hamımız izləmişik, Sizin dediyiniz kimi, biz bu barədə çoxlu-çoxlu məqalələr yazmışıq.

Amma mənim üçün maraqlı odur ki, Dağlıq Qarabağla bağlı Sizin hakimiyyətin hansısa bir planı varmı? Siz söyləyirsiniz ki, ümidsiz deyilsiniz. O planın müəyyən istiqamətləri haqqında da bizə açıqlama verməyiniz mümkündürmü?

Bu, insanlarımızı daha çox maraqlandırır. Xahiş edirəm, Dağlıq Qarabağ probleminin həlli istiqamətində atılan addımların, nəhayət, nə zaman, hansı müddət ərzində Azərbaycan üçün, onun xalqı üçün, qaçqınları üçün konkret nəticələr verə biləcəyi haqqında söyləyəsiniz. Təşəkkür edirəm.

H e y d ə r Ə l i y e v: Mən gərək sizin sualınıza çox geniş cavab verəm. Birincisi, istəyirsiniz biləsiniz, mən deyəndə ki, Mehrini təklif etsələr, biz baxarıq, bu gedişdir, ya nədir. Bilirsiniz, dövlətlərarası danışıqlarda müxtəlif təkliflər olar və onlara baxarlar. Hesab edirəm, bunun heç birinə gediş demək olmaz. Hər təklifə baxarlar. Ona görə istəyirsiniz məndən bu məsələnin ikinci hissəsini öyrənəsiniz ki, əgər onlar desələr, bəli, biz Mehrini veririk, siz nə edəcəksiniz? Mən belə başa düşürəm. Hər şeyin öz vaxtı var. Bu söz deyilibdir. Əgər bu sözə reaksiya olsa, bizim ona uyğun reaksiyamız olacaqdır. Ona görə bu məsələləri əvvəldən açmaq lazım deyil. Ümumiyyətlə, siyasi işdə, təkmil siyasi işdə, yəni təcrübəli siyasi işdə məhz bu yol ilə getmək lazımdır.

İkincisi, deyirsiniz ki, mənim sizə dediyim sözlər sizə məlum olmayan bəzi məsələləri açdı. Bu belədir, həqiqətdir. Mən bu sözləri məhz sizə, hörmətli jurnalistlərə deyirəm ki, bu sözləri düzgün başa düşə biləsiniz və lazım olan yerdə düzgün də izah edə biləsiniz. Amma mənim dediyim sözləri əyməyəsiniz, onları

başqa formaya salmayasınız. Mən sizə inanaraq bu sözləri deyirəm.

Üçüncüsü, deyirsiniz, bu cür söhbətdən sonra deyirəm ki, mən ümidsiz deyiləm. Bəli, bu cür sözlərin, bu cür faktların olması heç də əsas vermir ki, ümidsiz olaq. Çünki bizim imkanlarımız hələ çoxdur. Ona görə də ümidsiz deyilik.

Siz dediniz ki, mən doqquz ildir prezidentəm, guya bu məsələlərin hamısı elə bu vaxt baş veribdir. Siz burada səhv edirsiniz.

R a u f A r i f o ğ l u: Dəqiqləşdirmək istəyirəm. Siz özünüzün siyasətinizdə və şəxsən dövlət başçısı kimi, bu doqquz illik fəaliyyətinizdə hansısa yanlışlıqlar etdiyinizi, hansı məqamları əldən verdiyinizi görürsünüz? Yəni Sizin bir suçunuz varmı, yoxsa, bütün suçlar yalnız elə müxalifətdə, ATƏT-də, Amerikadadır. Mənim sözümün məntiqi bundan ibarətdir.

H e y d ə r Ə l i y e v: Deyim sizə. Amma bunu deməzdən əvvəl bir-iki kəlmə də demək istəyirəm. Dağlıq Qarabağ problemi 1988-ci ildə yaranıbdır. Bu, yeni problem deyil. Yəni bu, kəskin bir münaqişədir. Amma bu problem XX əsrin əvvəlindən davam edir. Mən bunu bir neçə dəfə demişəm. Keçmiş fəaliyyətimdə, yəni təhlükəsizlik orqanlarında işləyəndə də Dağlıq Qarabağdakı vəziyyət normal deyildi. Sovet dövründə də normal deyildi.

Bilirsiniz ki, mənim katib seçilməyimdən 2–3 ay əvvəl orada böyük bir faciə baş verdi. Bizim üç azərbaycanlını aparan həbsxana maşınını yandırdılar. Orada böyük qarışıqlıq oldu. O vaxt mən bir-iki həftə orada olmuşam, oranı öyrənmişəm, bilirəm. Mən Dövlət Təhlükəsizliyi Komitəsinin sədri idim, büroda məsələ müzakirə olunurdu. Dağlıq Qarabağda Azərbaycana qarşı edilən cinayətlərə baxmayaraq, o vaxtkı rəhbərlik müzakirəni elə keçirdi ki, elə bil heç nə yoxdur. Heç kim heç bir cəza almadı. Stenoqram var, götürüb baxmaq olar. Orada – gərək ki, 1967-ci

ildə idi – daşnakların, erməni millətçilərinin həm Dağlıq Qarabağda, həm də Ermənistanda apardıqları pozucu işlər haqqında yeganə mən sərt çıxış etdim. Bunu özümü tərifləmək üçün demirəm. İndi söz düşübdür, tarixi xatırlayıram. Ancaq bunlara baxmayaraq, biz Dağlıq Qarabağdakı vəziyyətə nəzarət edirdik, saxlayırdıq. Nəyin bahasına?

Birincisi, əlbəttə ki, sovet sisteminin özü buna imkan verirdi. İkincisi də, mən birinci katib olduğum dövrü deyirəm, Dağlıq Qarabağda onun inkişafına o vaxtlar çox kömək etdim. Eyni zamanda çalışdım ki, orada demoqrafiyanı dəyişim. Dağlıq Qarabağ məsələni qoyurdu ki, orada bir institut, ali məktəb yaransın. Bizdə hamı buna etiraz edirdi. Mən fikirləşdim, dedim yaradaq. Amma bu şərtlə ki, burda üç sektor – Azərbaycan, rus, bir də erməni sektoru olsun. Yaratdıq. Ətrafda olan azərbaycanlıları biz Bakıya yox, oraya göndərdik. Orada böyük bir ayaqqabı fabriki yaratdıq. Stepanakertin özündə işçi qüvvəsi yox idi. Ətrafda olan azərbaycanlıları oraya gətirdik, Stepanakertdə fabriki işlətməyə başladıq. Eləcə də başqa belə tədbirlərlə mən çalışdım ki, Dağlıq Qarabağı daha çox azərbaycanlılaşdırım. Orada ermənilərin sayını azaldım. Bunu o vaxt Dağlıq Qarabağda işləyən adamlar bilirlər. Hər halda, mənim iradəmə görə, başqa keyfiyyətlərimə görə, oranın rəhbərləri üçün mənim dediklərim qanun idi.

Ancaq təəssüflər olsun ki, mən Azərbaycandan gedəndən sonra get-gedə orada vəziyyət pisləşməyə başladı. Ermənistanın ora təsiri artdı və bizimkilər orada heç nə etmədilər, fürsət əldən verildi. Artıq 1987-ci ildə Dağlıq Qarabağ məsələsi kəskin duranda – mən bunu demişəm, bir də deyirəm, bu həqiqətdir – mənim Siyasi Bürodan, vəzifələrdən çıxmağım yalnız Dağlıq Qarabağ məsələsinin həll olunması üçün lazım idi.

Film çəkiblər. Bilmirəm, Qorboçovla mənim dialoqumu görmüsünüz, yoxsa yox. Vaqif Mustafayev çəkibdir, orada bir az görünür. Bu da həqiqətdir. Təsadüfi deyil ki, mən vəzifədən gedəndən 20 gün sonra Dağlıq Qarabağda böhran başladı. Mən bu işə qarışmağa çalışdım, məni təcrid etdilər. Siyasi Büronun dünənki üzvü, Kremldə oturan adam indi artıq bir adamla əlaqəyə girə bilmirdi, bir adamla danışa bilmirdi. Başa düşürsünüz?! Mən dövrlərin hamısını yaşamışam. Ondan sonra guya burada vəziyyəti düzəltmək istədilər və Vəzirovu buraya göndərdilər.

Bilmirəm, həmin o filmdə görmüsünüz, yoxsa yox. Mən onu gördüm. Orada Vəzirovun çıxışını görmüsünüz, yoxsa yox? Allah Nəcəf Nəcəfova min rəhmət eləsin. Mən orada gördüm ki, Vəzirovun yanında bir adam durubdur. O da deyir ki, bura bax, xuliqanlıq etmə, çəkil, imkan ver sözümü deyim. Bu da çəkilmir. Sonra o qışqırır ki, bax ha, mən deputatam. Bu yenə çəkilmir. Mən bu süjeti keçmişdə görməmişdim. İlk dəfə idi görürdüm. Sonra deyir ki, Azərbaycan xalqı, filan, amma bu çəkilmir. Mən də bunu tanımıram. Evdə yanımda adam var idi. Soruşdum, axı, bu kimdir. Nəcəf Nəcəfovu tanıyırdım, amma televizorda onu tanıya bilmədim. Dedilər ki, Nəcəf Nəcəfovdur. O, böyük bir qəhrəmanlıq elədi. Bax, o yarım dəqiqəlik süjet göstərdi ki, Azərbaycanda rəhbərlik nə cür idi, hansı vəziyyətdə idi. Yəni Dağlıq Qarabağ məsələsi o vaxtlar başlayıbdır.

Nəhayət, 1991-ci ilin fevral ayında mən Naxçıvandan deputat seçilib Bakıya gəldim, sessiyada çıxış edib dedim ki, Dağlıq Qarabağ artıq əldən gedibdir. Bunu bilmək lazımdır və ölçü götürmək lazımdır. Mənə qarşı nə etdilər? Bütün zal məni hoydu-hoyduya basdı və axşam iclasına da rəhmətlik Bayram Bayramovu hazırladılar, o da gəldi çıxış etdi. O Bayram Bayramov idi ki, mənimlə hər görüşünü özü üçün tarixi bir hadisə hesab edirdi. Məni danlamağa, mənə müx-

təlif sözlər deməyə başladı. Mən də orda oturmuşdum. Axırda da dedi ki, Dağlıq Qarabağ heç vaxt indiki kimi Azərbaycanın olmayıbdır. Bu sözlərə baxın, «indiki kimi Azərbaycanın olmayıbdır». Heydər Əliyev, əgər sən bunu bilmirsənsə, mən səni vertolyota qoyub aparıb Dağlıq Qarabağı göstərəcəyəm, onda görəcəksən ki, Dağlıq Qarabağ necə bizimdi. Amma o vaxt Dağlıq Qarabağda Azərbaycan hakimiyyəti qətiyyən yox idi. Nəhayət, müharibə başlandı, torpaqlar işğal olundu. Dağlıq Qarabağ hələ Azərbaycan Sovetlər İttifaqının tərkibində olanda, işğal edilibdir. Bir Şuşa qalmışdı, qalan hamısı işğal olunmuşdu. Yəni Dağlıq Qarabağ o vaxt əldən gedibdir. Başa düşürsünüz, yoxsa, yox?! Bunu bilmək lazımdır.

Əgər ondan sorakı dövrdə siyasət düzgün getsəydi, vəziyyəti düzgün qiymətləndirmək mümkün olsaydı, atəşi dayandırmaq və danışıqlar aparmaq mümkün olsaydı, ola bilər ki, başqa torpaqlarımız əldən getməzdi. Amma sonra onlar da getdi.

Arifoğlu, indi mən sizin o sualınıza cavab vermək istəyirəm ki, bu doqquz ildə mən özümdə də bir günah hiss edirəmmi, bu məsələ ki, həll olunmayıb, mən səhv buraxmışammı? Mən sizə də, bütün millətimə də deyirəm, bilin.

Mən heç bir səhv buraxmamışam, nə mümkündürsə etmişəm. Çünki – bunu deyərkən üzr istəyirəm – məndə olan həyat təcrübəsi, siyasi təcrübə, bu problemi bilməyim və dünya proseslərini bilməyim, keçmişdə dünyanın bir çox ölkələri ilə tanışlığım, bunların hamısı əlimdə olan böyük imkanlardır. Düşünmürəm ki, bütün bu imkanları olmayan adam bu barədə məndən çox iş görə bilərdi.

Gəlin, Lissabon sammitini götürək. Bilirsiniz, bizim milətimiz, – millətimizin ayrı-ayrı adamlarını deyirəm, – özünü qiymətləndirsəydi, o sammit haqqında bir kitab yazmaq, bir film çəkmək olardı. Niyə? Çünki biz Lissabon sammitindən

əvvəl öz nümayəndə heyətimizi Finlandiyaya göndərdik. Bizim məqsədimiz o idi ki, sammitin yekun sənədində, birincisi, Azərbaycanın ərazi bütövlüyünün tanınmasını yazdıraq. İkincisi, işğal olunmuş torpaqlarımızın azad edilməsini və başqa şeyləri yazdıraq. O layihələr durur. O vaxt orada Tofiq Zülfüqarov işləyirdi. Onu oraya göndərdim. Araz Əzimovu Vyanaya göndərdim. Çünki ATƏT-in mərkəzi Vyanada idi. Onlar orada işləyirdilər.

Nəhayət, yekun sənədinin layihəsi hazırlandı. Biz Lissabona gəldik. Layihəni gətirdilər. Yadımdadır, martın 23-ü idi. Yaxşı yazılar vardı, qəbul olunsaydı, bizim üçün çox yaxşı olardı. Mən demirəm ki, torpaqlarımız o saat azad ediləcəkdi. Amma bizim üçün sammit tərəfindən böyük hüquqi sənəd olacaqdır. Nə oldu, ermənilər buna konsensus vermədilər, dedilər ki, biz bunu qəbul etmirik. Orada hər şey konsensusladır.

O vaxt mən çox adamlarla görüşdüm. Orada Rusiya nümayəndə heyətinə Çernomırdin rəhbərlik edirdi, onunla görüşdüm. Amerikadan Qor gəlmişdi, onunla görüşdüm. Almaniyadan, başqa ölkələrdən dövlət başçıları gəlmişdilər, mən onların hamısı ilə görüşdüm. Onlara öz fikirlərimi bildirdim. Dedilər ki, ermənilər qəbul etməyib, bunu çıxarmaq lazımdır və yaxud da dəyişdirmək lazımdır, dedim oldu. Dedim, gəlin gürcülərin maddəsinə baxın. Gürcülərin Abxaziya məddəsində hər şey yazılıbdır ki, abxazlar Abxaziyada etnik təmizləmə aparıblar, zorakılıq ediblər, qanunsuzluqlar ediblər, filan ediblər. Bütün günahlar abxazların üzərindədir. Mən dedim ki, bunu yazmısınız, Gürcüstan bizimlə dost dövlətdir, mən buna çox şadam. Niyə bəs o var, bu yoxdur? Dedilər ki, bunun əleyhinə çıxan yoxdur.

Siz bir şeyi bilməlisiniz, bizim münaqişədə Azərbaycana mane olan bir çox böyük amil var. O da ondan ibarətdir ki,

bizim münaqişəmiz daxili münaqişə səviyyəsindən çıxaraq, iki dövlət arasında münaqişəyə çevrilibdir. Ermənilərə, yaxud da ermənipərəstlərə xeyirli olanda, deyirlər ki, bu, Dağlıq Qarabağla Azərbaycanın işidir. Amma sənədlərin qəbul olunmasına gələndə Ermənistan ATƏT-in üzvü kimi Dağlıq Qarabağı müdafiə edir və özünü müdafiə edir, çünki orada Dalğıq Qarabağ görünmür. Amma Gürcüstanla Abxaziya məsələsində bir-iki dövlət, – mən bilirəm, onların adlarını çəkmək istəmirəm, – istədi ki, maddəyə nə isə yazsınlar. Gürcülər möhkəm durdular və onlar heç bir şey edə bilmədilər. Çünki orada ATƏT-in üzvü olan Abxaziya dövləti yoxdur.

Bilirsiniz, nə edək? Mən dedim ki, bunun qəbul edə bilmərəm, dəyişdirmək lazımdır. Onlar da dedilər ki, dəyişdirmək olmaz. Ermənistan buna konsensus verməyəcək, biz qəbul etməyəcəyik.

İclasın sonuncu günü idi. 4-5 saatdan sonra iclas qurtarmalı idi. Mən nə etdim, siz bunu bilirsiniz. Dedim ki, mən bütün sənədi sual altında qoyuram. Həmin sənədin qəbul olunmasına lazımi konsensus vermirəm, qurtardıq. Ondan sonra Albert Qor da, Kol da, o biri də, bu biri də mənim yanıma gəlməyə başladılar. Hamısı xahiş etməyə başladı ki, siz öz vetonuzu götürün. Dedim ki, götürməyəcəyəm. Əgər götürməyəcəksənsə, onda, axı, sammit qurtarır. Demək sammit bir sənəd qəbul etməyəcək. Dedim ki, mənim üçün fərqi yoxdur. Əgər mənim işim düzəlmirsə, sammitin sənəd qəbul edib-etməməsinin mənim üçün fərqi yoxdur. Bir neçə saat mənim yanıma gəlirdilər. Kimlər gəldi… Əvvəl mən onların yanına gedirdim, indi mən burada oturmuşam, onlar mənim yanıma gəldilər. Kimlər gəldi, nələr dedilər… Mənim yadımdadır, Albert Qorla söhbət edirdim. Onunla xeyli danışdıq. Dedim ki, o, konsensus vermir. Dedi ki, konsensus verməmək onun hüqu-

qudur. Dedim ki, hə? Dedi ki, hə. Dedim ki, konsensus verməmək mənim də hüququmdur. Mən də öz hüququmdan istifadə edərək konsensus vermirəm. Məsələ donub qaldı. Dedim, onun hüququ varsa, başqalarının da hüququ var. O, 23-cü maddəyə konsensus vermirsə, mən də bütün sənədin qəbul olunmasına konsensus vermirəm. Hesab edirəm ki, o, qəbul edilə bilməz. Bundan sonra onlar yığışdılar, həmin o məlum Lissabon Zirvə görüşü sədrinin bəyanatını yazdılar. O maddədə nəki vardı onu bəyanata yazdılar. Yəni biz onu aldıq. Amma yekun sənədinin içərisində yox, ayrıca bəyanatda aldıq. Bəyanatı səsə qoyanda ermənilər səs vermədi, amma onun əhəmiyyəti yox idi. Beləliklə, həmin 1996-cı ildə ilk dəfə biz ATƏT-dən belə bir sənəd aldıq ki, Azərbaycanın ərazi bütövlüyü tanınır, Ermənistanın ərazi bütövlüyü tanınır, Dağlıq Qarabağa Azərbaycanın tərkibində özünüidarəetmə statusu verilir və Dağlıq Qarabağdakı ermənilərin təhlükəsizliyi təmin olunur. Bu, sənəddir. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qərarları vardır ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz çıxarılsın, əgər o sənədləri kənara qoysaq, bu, yeganə sənəddir ki, biz ATƏT-dən ala bilmişik. Ermənilər onu yerinə yetirmədilər. Burada da müxalifət sağdan və soldan bizi vurmağa başladı ki, guya biz gedib Lissabonda uduzduq. Nəyi uduzduq? Heç nəyi uduzmamışıq.

Beləliklə, hörmətli Arifoğlu, demək istəyirəm ki, o cür cəsarəti hər adam edə bilməzdi ki, ATƏT-in sənədinin qəbul olunmasını sual altına qoysun. 54 dövlətin nümayəndəsi təəccübləndi ki, mən bu qərarı qəbul etməmişəm. Əgər həmin bəyanat qəbul edilməsəydi axıra qədər gedəcəkdim. Çıxıb gedəcəkdim. Onsuz da görürdüm ki, bir şey çıxmır. Nə etməli idim? Qaradan artıq rəng ola bilməz ki.

Mən həmişə vuruşmuşam, həmişə çalışmışam. Heç kəsin qarşısında gözüm kölgəli deyil, əlimdən gələni etmişəm. Siz dediniz ki, mən ATƏT-i günahlandırıram, o birini günahlandırıram, günahkaram – demirəm. Sizə bir də deyirəm, mən onları günahlandırıram. Çünki əgər bu təşkilat özü elan etdiyi prinsiplərin həyata keçirilməsini təmin edə bilmirsə, onu günahlandırmağa mənim haqqım var.

Əgər Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası işğal olunmuş torpaqlardan Ermənistan silahlı qüvvələrinin çıxarılması haqqında qəbul etdiyi qətnamələrin həyata keçirilməsini təmin edə bilmirsə, bəli, mən onu günahlandırmışam. Nyu-Yorkda gedib Təhlükəsizlik Şurası üzvlərinin hamısını çağırıblar, iclas keçiriblər. Mən onların hamısının üzünə demişəm. Sözləri bu olubdur ki, «biz qərarı qəbul edirik, onu icra etmək mexanizmi yoxdur». Bunu vaxtilə Butros Qaliyə demişəm, Kofi Annana demişəm. Eyni cavabları almışam. ATƏT də deyir ki, bizim icra mexanizmimiz yoxdur. Ona görə də onları günahlandırmağa mənim haqqım var. Onda onlar gəlsinlər, bu prinsiplərdən imtina etsinlər. Bu, başqa məsələdir. Onlar bir tərəfdən bu prinsipləri müdafiə edirlər, bəzən lazım olanda bu pinsiplərdən istifadə edərək ayrı-ayrı dövlətlərə təzyiq göstərirlər. Amma burada bu məsələni həll etmirlər. Məsələ belədir.

Bunları deməklə, sizə bildirmək istəyirəm ki, mən prezident kimi, Azərbaycanın başçısı kimi bütün bu təşkilatlarla öz əməkdaşlığımı davam etdirirəm və davam etdirəcəyəm. Çünki başqa yolumuz yoxdur. Bir yol var – onların hamısının tövsiyələrindən imtina edib müharibə etmək. Bu da bütün bunların hamısının bizə dedikləri, yəni bizimlə danışıqlarında dedikləri sözdür ki, siz bunu etməməlisiniz. Hamısının dediyi budur. Onların heç biri nəinki bizi dəstəkləməyib, hətta hər

biri bizə deyib ki, siz bu yolla getməməlisiniz. Əgər bu yolla getsəniz, heç bir ölkə sizi dəstəkləməyəcəkdir. Amma bizim yolumuz var. Biz bunları nəzərə almayaraq müharibə edə bilərik. Mən bu variantı da istisna etmirəm. Ancaq – mən sizinlə açıq danışıram – müharibənin Azərbaycan üçün nə qədər ağır olacağını da dərk etmək lazımdır. Ağır o mənada ki, indi Azərbaycanın iqtisadiyyatı inkişaf edir, yaxşı perspektivləri var və çox mühüm layihələrimiz var. Bunların hamısı pozulmalıdır. Hər şey müharibəyə xidmət etməlidir. Bu var, bu da mümkündür. Bilirsiniz, yəqin gözləmirdiniz ki, mən sizinlə çox söhbət edəcəyəm.

Ə f l a t u n A m a ş o v *(«RUH» Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin sədri)*: Cənab Prezident, mənim sualım daha çox jurnalistika, jurnalistlərlə hüquq-mühafizə orqanlarının münasibətləri ilə bağlı olacaqdır. Biz jurnalist təşkilatları həmişə bu qurumlarla xoş münasibətlər yaratmağa çalışırıq. Daxili işlər naziri Ramil Usubovla mənim axırıncı görüşümdən sonra xüsusi monitorinq qrupu yaramtışıq. Həmin qrup şəhərdə keçirilən aksiyalar zamanı polis – jurnalist münasibətlərini nəzarətdə saxlayır. Bu da öz bəhrəsini verir. Son aksiyada heç bir qanun pozuntusu olmayıbdır. Bu da müsbət haldır. Bu sahədə müəyyən problemlər də qalmaqdadır. Bu da jurnalistlərlə bağlı cinayət işlərinin açılması ilə əlaqəlidir. Bu vaxta qədər 20 jurnalistə qarşı cinayət işi açılıbdır. Onlar ya tutulmuşlar, ya da ki, tutularaq tezliklə azadlığa buraxılmışlar. Cinayət işləri hələ də qalmaqdadır. Həmin cinayət işlərinin qalması jurnalistlərin azad hərəkət etməsinə mane olur. Məsələn, «Yeni Müsavat» qəzetinin baş redaktoru Rauf Arifoğlu haqqında cinayət işi açılıbdır, hələ qapanmadığına görə o, xarici ölkələrə gedərkən tez-tez çətinliklərlə rastlaşır.

H e y d ə r Ə l i y e v: Bilirsiniz nə var, Rauf Arifoğlu haqqında cinayət işinin bağlanmaması absurda bənzəyir. Yəni bunun cinayət işi var, ya yoxdur, fərq etməz o, öz işini görür. O biri tərəfdən də bu, onun xeyrinədir. Sabah bir hadisə olanda deyəcək ki, heç nədən mənə cinayət işi açıblar, mənə təzyiq edirlər. Ona görə əgər bizim prokurorlar, polis, başqaları dərindən düşünsələr, yəqin ki, o cinayət işini tezliklə bağlayarlar ki, o, daha bundan sui-istifadə etməsin. Güman edirəm ki, mənim bu sözümdən sonra onlar bunu başa düşəcəklər.

Ə f l a t u n A m a ş o v: Bu da xarici təşkilatlar tərəfindən Azərbaycan haqqında xoşagəlməz bəyanatların verilməsi ilə nəticələnir.

H e y d ə r Ə l i y e v: Kimin haqqında bəyanatdır?

Ə f l a t u n A m a ş o v: Bu cür hallar ölkədə baş verir, jurnalistlər döyülür – son hadisə zananı Səbail Rayon Polis İdarəsinin rəisi Nazim Nağıyev «Turan» İnformasiya Agentliyinin müxbirini döymüşdür. Türkiyənin yığma futbol komandası Seneqal milli komandasına qalib gələn günü Azadlıq meydanında jurnalisti polis idarəsinin rəisi döyübdür. Bu əhvalat hər yerə yayılıb. Beynəlxalq təşkilatlar da Azərbaycan haqqında xoşagəlməz xəbərlər verir. Bildirirlər ki, Azərbaycanda insan hüquqları pozulur. Bütün bunların qarşısını almaq üçün mən istərdim ki, jurnalistlərlə bağlı qanun pozuntusu olduqda, günahkarlar müəyyənləşdirilib cəzalandırılsın. Sizin Sərəncamınıza, ötən il dekabrın 27-də imzaladığınız Sərəncama əsasən prokurorluğa belə bir tapşırıq verilmişdi ki, əgər jurnalistlərlə bağlı qanun pozuntuları olsa, günahkarlar müəyyən edilsin və cəzalandırılsın.

Hələlik bu barədə bizdə heç bir məlumat yoxdur. Mən istərdim ki, bu məsələyə münasibətinizi bildirəsiniz.

H e y d ə r Ə l i y e v: Əli Həsənov, bu faktları qeyd edin. Göstəriş verin, nə lazımdırsa etsinlər.

Ə f l a t u n A m a ş o v: Çox sağ olun.

E l ç i n Ş ı x l ı *(«Zerkalo» qəzetinin Baş redaktoru)*: Cənab Prezident, söhbət əsnasında müxalifət haqqında xeyli söz deyildi. Mənim sualım belə olacaqdır: Siz 33 il bundan əvvəl Azərbaycana rəhbər seçilmisiniz. Sovet dövründə, müxalifətin olmadığı bir vaxtda Azərbaycanın rəhbəri olmusunuz. İndi 9 ildən artıqdır ki, müstəqil Azərbaycanın, amma müxalifətli bir ölkənin prezidentisiniz. Sizcə, hansı daha yaxşı idi? İndiki Türkmənistandakı kimi müxalifətsiz ölkəyə rəhbirlik etmək, yoxsa indiki müxalifətli Azərbaycana? Hər halda, müxalifətin rolu barədə Sizin fikrinizi bilmək istərdim.

H e y d ə r Ə l i y e v: Sağ ol. Ancaq mən sənin bu sualına çox dərindən cavab verərdim ki, müxalifətin olub-olmamasının fərqi yoxdur, müstəqil Azərbaycanın prezidenti olmaq, təbiidir ki, vaxtilə Sovetlər İttifaqının tərkibindəki Azərbaycan Respublikasının başçısı olmaqdan heç müqayisə edilməyəcək dərəcədə yüksək bir şeydir. Bilirsiniz ki, ondan sonra mən Moskvada da çox böyük vəzifələrdə də işləmişəm və həyatımın bu ağır 9 ilində müstəqil Azərbaycanın prezidenti olmağımı onların hamısından üstün və şərəfli hesab edirəm. Bu, birincisi. İkincisi, müxalifətli ölkə olmaq yaxşıdır, yoxsa müxalifətsiz? O vaxt da müxalifət vardı, amma o vaxt müxalifət belə azad deyildi.

Amma elə deyildi ki, mən birinci katib idim, respublikanın başçısı idim, nə istəyirdim onu edirdim və burada mənə maneçilik edənlər, yaxud da ki, işləri pozmaq istəyənlər yox idi. Var idi. Sadəcə, bunlar mütəşəkkil deyildilər. Partiyalar yox idi. Müxalifət adı yox idi. O vaxt müəyyən qruplar var idi. Amma təbiidir ki, bugünkü müxalifətlə onları yan-yana qoymaq, müqa-

yisə etmək olmaz. Mən hesab edirəm ki, nə qədər müxalifət olsa da, mənim üçün müstəqil Azərbaycana rəhbərlik etmək böyük şərəfdir. Əgər səmimi fikirlərimi bilmək istəyirsinizsə, mən müxalifətdən qorxan, çəkinən adam deyiləm. Mən bu şeyləri, bu dövrü yaşamışam. Bugünkü müxalifət də o adamlardır ki, mən 1990-cı illərdə buraya gələndə çoxunu tanıyırdım. Bir qismi ilə Naxçıvanda, yaxud da Bakıda şəxsi əlaqələrim də vardı. Onlar yeni adamlar deyillər. Düzdür, o vaxtları mən onlarla və onlar da mənimlə müxalifətdə deyildik. Mən bilirəm ki, onların bəzilərinin mənə böyük rəğbəti də, hörməti də vardı. Artıq hamıya məlumdur ki, rəhmətlik Elçibəyin yaşadığı evin divarında uzun illər iki portret asıbıl – biri Atatürkün portretidir, o biri də Heydər Əliyevin. Mən Naxçıvanda olanda Elçibəylə də bizim telefon əlaqələrimiz vardı. Onda hələ o, hakimiyyətdə deyildi. Yəni bunlar mənim üçün yeni adamlar deyillər. İkinci məsələ, Azərbaycanda həmin o dövrdə Xalq Cəbhəsi yaranıb, sonra partiyalara bölünüb və sair, yəni o tərkib ki, var, ondan başqa müxalifət yoxdur. Ondan başqa müxalifət kimdir? Həmin adamlardır. Onlar hakimiyyətə gəldilər. Bir ildən sonra hakimiyyətdən getməyə məcbur oldular. İndi də, 9 ildir ki, müxalifətdədirlər. Yəni mən də istəyirəm ki, müxalifətlə iqtidarın arası normal olsun. Elə müxalifət özü onu göstərir ki, müxalifətlə iqtidar dost ola bilməz. Çünki müxalifət iqtidara qarşı müxalifətdir. İqtidarla hakimiyyət uğrunda mübarizə aparır. Bu, müxalifətin prinsipidir. Ancaq bu mübarizəni nə cür aparmalıdır? Hansı yolla aparmalıdır? Bu, başqa məsələdir. Təəssüf ki, bizim Azərbaycanda indiki müxalifət, onun siyasi mübarizə formaları müxtəlifdir. Özü də o adamlar ki, 1989, 1990, 1991, 1992-ci illərdə meydanlarda idilər. Orada qışqırırdılar, burada qışqırırdılar, o əhval-ruhiyyədən hələ ayrılmayıblar.

Zaman keçib, dünya dəyişibdir. Dünya heç vaxt, heç zaman bir yerdə durmur. Hər il dünyada, hər bir cəmiyyətdə yenilik əmələ gəlir. Məsələn, insanlar bu gün bir paltar geyinir, sabah başqasını. İndi Avropanı götürsək, gələn il başqa moda dəb olur, moda, paltar dəyişir. Nə bilim, mebel modası dəyişir, o biri dəyişir, yəni insan cəmiyyəti inkişaf edir, inkişaf etdikcə əvvəlkinə nisbətən daha da yeni-yeni şeylər icad olunur. Siyasətdə də belədir. Bu proses gedir və getməlidir. Amma əgər indi bizim müxalifət 1989-cu ildəki formasını saxlayıbsa və ondan bu gün də istifadə edirsə, – o vaxt küçəyə, meydana, filana çıxırdı, başlayırdı, nə bilim, şüarlar deməyə, – sonra «istefa» deyirdi, həmin üsulu bu gün də istifadə edirsə, axı bu, köhnəlmiş üsuldur. Yəni hesab et ki, bunlar hələ «Mersedes»ə minməyiblər, «Qaz-24»dədirlər. Ümumiyyətlə, «Mersedes»də gəzirlər, mən bunu məcazi mənada deyirəm ki, öz fikrimi izah edim. Ona görə mən istərdim ki, müxalifət müasirləşsin. Müasirləşmək üçün də çox böyük imkanlar var. Çünki dünyada indi demokratiya daha geniş inkişaf edir, yəni dünyanın bir çox ölkələrini əhatə edir, əvvəlki kimi deyildir. İnkişaf etmiş ölkələrdə müxalifətin iş metodları, planları hamısı məlumdur. Əgər onlardan daha çox istifadə etsələr, daha da yaxşı olar.

Müxalifət gərək hakimiyyətə düşmən kimi baxmasın. Mən hardasa eşitdim ki, guya hakimiyyət müxalifətə düşmən kimi baxır. Bu, düzgün deyildir. Mən şəxsən müxalifətə düşmən kimi baxmıram. Ancaq mən görəndə ki, hər gün 24 səhifəlik qəzetdə, hər səhifəsində Heydər Əliyev haqqında müxtəlif yazılar gedir, mən bunlara nə qədər fikir verməsəm də, yenə də düşünürəm, axı, nəyə lazımdır? Özü də axı bunlar artıq keçmiş şeylərdir, keçibdir. İndi nə yazırsan, yaz, sənin 5-6 min, 10 min oxucun var, onların da 15 min tanışı var. Bunu oxudular, kim bilir ki, nə var, yazılanlara inanırlar. Biri var ki, Heydər Əliyev haqqın-

da sənin yazın, biri də var ki, Heydər Əliyev hər gün bu xalqın gözü qarşısındadır. Gözünün qabağındadır. Onda qəribə bir vəziyyət yaranır, mən iki gün televizorda görünməyəndə, dərhal yazırlar ki, Heydər Əliyevin səhhətində dəyişikliklər var, Heydər Əliyev televizorda görünmədi, elə oldu, belə oldu. Ay qardaşlar, axı, mən nə üçün gərək hər gün televiziyada görünüm? Mənim min dənə işim var. Məsələn, bilirsiniz ki, ayın 21-də axşam saat 11-12 idi, gəldim aeroporta, orada söhbət etdik. Gəldim evə, gecə saat 2-də yatmışam. Səhər durmuşam, dünən işə gəlməmişəm. Getdim Zuğulbaya, orada dənizin kənarında gəzdim, axşam qayıdıb evə gəldim, yatdım. Yaxşı ki, dünən deməyiblər Heydər Əliyev niyə televizorda görünmədi. Axı mənim çox işlərim var, hansılar ki, televiziya ilə əlaqədar deyildir. Məsələn, bu görüş barədə. Mən gedən günü, son dəqiqələrdə Əli Həsənov gəlib dedi ki, belə bir görüş keçirilməlidir. Dedim, ay qardaş, mənim min dənə işim var, proqramım var. Mən gələn kimi bunu etməliyəm, onu etməliyəm. Yox, deyirlər ki, bunlar jurnalistlərdir, Siz gərək bunlarla mütləq görüşəsiniz. Gördüm ki, bunların dediklərində də həqiqət var. Görüşə gəldim. Saat 2-də gəlmişəm. İndi saat neçədir?

Yerdən səslər: Beşin yarısıdır.

Heydər Əliyev: Ona görə də istərdim ki, müxalifət tarazlı siyasət – belə bir ifadə var, aparsın.

Yəni, tənqid də etsin, tənqidsiz ola bilməz. Səhvlərimizi də tutsun, desin, bunsuz ola bilməz. Məsələn, mən özəl televiziyaların – ANS-in, «Space»in, «LİDER»in verilişlərinə baxıram, onlardan bir sinqal alıram. Ondan sonra gecə saat 11-12-də öz işçimi – şöbə müdrini, filanı axtarıram, tapıram. Deyirəm ki, mən televiziyada bunu gördüm. Bu məsələ yoxlanmalıdır. Sən sabah bununla məşğul ol. Yəni sahaba saxlamıram ki, səhər işə gələndən sonra çox məşğul olduğuma görə

bunu unuda bilərəm. Mən gecə televiziyaya baxanda – televiziyaya həmişə baxıram – nə isə görürəmsə, gecə saat 1-də də olsa, Baş naziri, yaxud bizim bəzi şöbə müdirlərini yataqdan qaldırıram, fikrimi onlara çatdırıram.

Müxalifət bunları nəzərə alsın. Mən sizin verdiyiniz suala cavabımı yekunlaşdırıram. Müxalifətli dövlət daha yaxşıdır.

A r i f Ə l i y e v: Cənab Prezident, suallar hələ çoxdur. Vaxt barəsində Sizin işarənizi başa düşdük. Odur ki, bayaq söylədiyim kimi, biz bu görüşümüzün, bir ənənənin başlanğıcı olacağına ümid edirik. Birinci dəfə olduğuna görə Sizi daha yormayacağıq. Təşəkkür edirik ki, bəzi məqamlar barədə vəzifənizin, məsuliyyətinizin imkan verdiyi qədər sərbəst və açıq söhbət etdiniz. Sözsüz ki, mətbuat nümayəndələri bu görüşdən qayıdan kimi Sizi yenə də tənqid edəcək, Siz də yəqin ki, müəyyən məqamda mətbuata narazılığınızı bildirəcəksiniz. Amma anlaşıqlıq yaranır və anlaşıqlı tənqid etmək bir şeydir, anlamadan tənqid etmək tamam başqa mahiyyət daşıyır. Odur ki, bu görüşə görə təşəkkür edirik və icazənizlə müsahibəni burada bitmiş hesab edərdik.

Mən söhbətin əvvəlində Sizdən xahiş etdim ki, sonda, mətbuatdan kənar bir neçə problem haqqında Sizə müraciət edək. Onunla da Sizi çox yormayacağıq. Amma bir-iki söz demək istərdim. Siz sonuncu suala cavab verəndə dediniz ki, ən qiymətli şey müxalifətsiz yox, məhz müxalifətli müstəqil Azərbaycanın prezidenti olmaqdır.

Bizim jurnalistlərin də kiçik bir dövləti var. Bu, qəzetdir və ən qiymətlisi müstəqil qəzetin prezidenti olmaqdır. Bu bizim birinci görüşümüz deyil və Sizi inandırım ki, müstəqil mətbuatın, müstəqil redaktorların, müstəqil qəzetlərin, yəni «dövlətlər»in sayı getdikcə azalır. Bu çox ağır və ağrılı problemdir.

Sizin Fərmanınızda bir neçə bəndlər oldu ki, onlar yerinə yetirildi və müstəqil mətbuata müəyyən şərait yaratdı. Amma

orada qəzetlərə kredit verilməsi məsələsi də var idi. Mən həmin fərmanı çox yaxşı xatırlayıram. Onun məğzi sadəcə qəzetlərə pul paylamaq və müəyyən müddətə onların bu böhranının qarşısını almaq deyildi. Orada mətbuatın inkişafını təmin etmək üçün kreditlərin ayrılması nəzərdə tutulurdu. Elə paradoksal vəziyyət yaranıb ki, borcların dondurulmasına baxmayaraq qəzetlərin iqtisadi vəziyyəti get-gedə çətinləşir. Qəzetlər məcburən ayrı-ayrı maliyyə dairələrinin əlinə düşmək və yaxud haradansa kənardan vəsait axtarmaq məcburiyyətindədirlər. 6 ay ərzində bu problem hələ də öz yerində qalıb.

Yəni Fərmanın mənası onda idi ki, müstəqil mətbuatın qalması və inkişafı üçün şərait yaradılsın. Mətbutadan bina, mənzil şəklində girov tələb edirdilər. Əgər bunlar olsaydı, bəlkə də mətbuatın kreditlərə ehtiyacı olmazdı. Çox anlaşılmaz, böhranlı bir vəziyyət yaranıbdır. Ya o kreditin şərtlərində bir dəfəlik bildirilsin ki, mətbuat ümidinü üzsün – mən, həqiqətən, ürək ağrısı ilə deyirəm – kim nə bacarırsa, onu etsin, pul tapsın, kimə isə qulluq etsin, ya da qəzet fəaliyyətini dayandıraraq gedib başqa bir işlə məşğul olsun. Yaxud da ki, tələb olunan şərtlərə, – məsələn, 150 minlik girov qoymasan mən sənə 100 min verə bilməyəcəyəm kimi şərtlərə əməl etsin. Deməli, Fərmanın verdiyi bu son imkanı reallaşdırmaq mexanizmi yaradılmalıdır. 1998-ci ildə bu Bakı Mətbuat Klubunun yaradılmasına 50 min dollar xərcləndi. Bunun hamısını kütləvi informasiya vasitələrinin özləri verdilər. Bu gün onlar çətin vəziyyətdədirlər. Mən bunu xüsusi qeyd edirəm ki, hər şey mətbuatın müstəqil olmasından başlayır. O kimlərəsə qulluq edəcəksə, biz birbirimizə nə qədər giley etsək də, qarşıdurma güclənəcək və bu, nə xalqa, nə dövlətə, nə də cəmiyyətə lazım olan möhkəm mətbuata çevrilə bilməyəcəkdir. Bu gün bu problem var. Adam gəlib deyə bilmir ki, bu vəziyyət maliyyə ilə bağlıdır, vəsait

istəyirik. Bəlkə də bunu söyləmək mənim üçün bir qədər asandır ki, bu gün bu, qəzetlərin, ümumiyyətlə, bütövlükdə bütün mətbuatın ən ağrılı, ən böyük problemidir. Reklam bazarı olsaydı, çıxış yolu mətbuatın özündə olardı. 1998-ci ildən 2001-ci ilədək reklam bazarının gəliri 800-1000 faiz aşağı düşüb. Yəni bu qəzetlərin gəlir mənbəyi yoxdur.

H e y d ə r Ə l i y e v: Niyə aşağı düşübdür?

A r i f Ə l i y e v: Mən Sizə deyim. Reklamın iki əsas gəlir mənbəyi var. Xarici təşkilatlar və yerli istehsalçılar. Yerli istehsalçılar pul verməyə hazırdırlar ki, təki onun reklamı, adı qəzetdə getməsin. Əgər yerli istehsalçıların reklamı, ünvanı, telefonu qəzetdə verilirsə, onları bilavasitə yoxlayan təşkilatların nümayəndələrinin hər biri qoltuğuna bir papka vuraraq ora üz tutur. Əvvəlcə sanitar müfəttiş, arxasınca yanğınsöndürən gəlir.

H e y d ə r Ə l i y e v: Deməli, o təşkilatlar bilmirlər ki, belə bir firma var. Qəzetlər onu reklam edəndən sonra bu, məlum olur? Hə?

A r i f Ə l i y e v: Bunun pulu varsa, reklam verir. Reklam verir, deməli burada pul var. Ona görə də mətbuat yerli istehsalçılardan əlini üzüb. İri təşkilatlara gəldikdə isə, son vaxtlar müşavirələrdə bu məsələyə toxunuldu ki, onların Azərbaycanı tərk etməsi, yəni oların müəyyən hakimiyyət orqanları ilə problemlərinin yaranması reklama çox zərbə vurdu. Bunu qəzetlərin nümayəndələri daha ətraflı izah edə bilərlər. Bizim müşahidələrimiz göstərir ki, reklam bazarından əldə olunan gəlirlər 8–10 dəfə azalıbdır. Belə bir şəraitdə mətbuat, aydın məsələdir ki, haradansa vəsit tapmalıdır. Gözümüzün qabağında qəzetlər əldən gedir. Ayrı-ayrı dairələrin əlinə düşür. Kiminin seçki ilə bağlı maraqları var, kiminin iqtisadi maraq-

ları var, kiminin isə başqasını vurmaq marağı var. Onlar qəzetdən kimisə nüfuzdan salmaq məqsədi ilə istifadə edirlər.

Bu gün Siz söhbətinizin əvvəlində dediniz ki, burada əyləşənlər adi adamlar deyil, onların qəzetlərinin tarixi, heç olmasa, Azərbaycanın müstəqillik tarixi ilə bərabərdir. Müstəqilliyimiz çətinliklə başa gəldiyi kimi, onlar da qəzetlərini çətinliklə yaradıblar, bugünkü vəziyyətə gətirib çatdırıblar. Elə adam var ki, qayınanasının evini girov qoyubdur. Onun bu gün ikmanı yoxdur ki, nəyi isə girov qoysun, kredit alsın, qəzetini saxlasın. Hər qəzetin ictimai yükünü bu gün qeyd etdiniz. Hansı qəzetin cəmiyyət üçün lazım olduğu, dövlət üçün daha çox iş gördüyü, hansı qəzetin başqa məsələlərlə məşğul olduğu görünür. Bu problemin həlli üzərində bizli, sizli çalışaq. Təbiidir ki, problemin həlli yollarını Sizin tapmaq imkanlarınız bizdən qat-qat çoxdur. Bəlkə bunun həlli yolunu fikirləşib tapaq?

H e y d ə r Ə l i y e v: Əli Həsənov, sən bax o kredit məsələsini bir də müəyyən elə, reklam bərəsində gör nə etmək olar və başqa hansı imkanlar var? Kömək etmək lazımdır.

«Azadlıq» qəzetinin yaşı Azərbaycanın müstəqillik yaşından çoxdur. İlk yaranan qəzetdir. Elədirmi?

A r i f Ə l i y e v: Ondan əvvəl də qəzet vardı. «Yeni Müsavat» əvvəl yaranıbdır.

H e y d ə r Ə l i y e v: «Yeni Müsavat» ondan əvvəl yaranıb?

R a u f A r i f o ğ l u: Təxminən eyni vaxtda yaranıbdır. Amma o vaxt biz qeyri-rəsmi olaraq qəzet buraxırdıq.

H e y d ə r Ə l i y e v: Düzü, mən o vaxt «Müsavatı» tanımırdım. Amma «Azadlıq» qəzeti o vaxt çox populyar idi. Onda mən Moskvada yaşayırdım, hələ Azərbaycana gəlməmişdim. O vaxtlar «Azadlıq» qəzeti haqqında eşitmişdim və bəzən o qəzeti mənə göndərirdilər.

A r i f Ə l i y e v: «Azadlıq» qəzeti sabah dayanmaq vəziyyətindədir.

H e y d ə r Ə l i y e v: O qəzetin redaktoru Gündüz Tahirli deyil?

Ə l i H ə s ə n o v: Cənab Prezident, «Azadlıq» qəzetinin redaktoru Rövşən Hacıyevdir.

H e y d ə r Ə l i y e v: Rövşən Hacıyev? «Azadlıq» qəzetinin nəşrini dayanmağa qoymaq olmaz.

Ə l i H ə s ə n o v: «Azadlıq» qəzeti dayanmayıbdır. Qəzetin redaktoru dəyişdi. Bir az da mövqeyini dəyişibdir. Daha da siyasi partiya qəzeti olubdur. Əvvəlki mövqeyinə daha çox yaxınlaşıbdır. Hər halda, bu, «Azadlıqdır».

H e y d ə r Ə l i y e v: Bu, onun öz işidir. Əlbəttə ki, o vaxt partiya yox idi. «Azadlıq» qəzeti o vaxt, sovet dövründə müəyyən qədər Azərbaycanın ümumi əhval-ruhiyyəsini əks etdirən bir qəzet idi. O qəzeti Nəcəf Nəcəfov başlamışdı. Mən Nəcəf Nəcəfovu oradan tanıyırdım. Moskvada mən eşidəndə ki, Nəcəf Nəcəfov, yadıma düşdü ki, burada o, «Molodyoj Azərbaydjana» qəzetində işləmişdir.

Yaxşı, sən dediyin məsələləri mən Əli Həsənova tapşırıram, qoy məşğul olsun və mənə desin. Mən də baxacağam, nə mümkündürsə, edəcəyəm. Amma mənim fikrim belədir ki, birincisi, müstəqil qəzetləri dəstəkləmək lazımdır. Çünki müstəqil qəzet həm siyasidir, həm də müstəqildir.

İkincisi, müxalifət qəzetlərini dəstəkləmək lazımdır. Üçüncüsü də iqtidar qəzetlərini dəstəkləmək lazımdır.

Yaxşı, sağ olun. Güman edirəm yenə də görüşəcəyik. Bu formanı da bir gün dəniz kənarına gəzintiyə çıxanda geyinəcəyəm.

MİLLİ MƏTBUAT GÜNÜNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ

22 iyul 2002-ci il

Milli Mətbuat günü münasibətilə «Yeni Nəsil» Jurnalistlər Birliyi, «Ruh» Jurnalistlərin Hüquqlarını Müdafiə Komitəsi, Azərbaycan Jurnalistlər Konfederasiyası, Bakı Mətbuat Klubu və Azərbaycan Jurnalistlər Birliyi iyulun 22-də «Günay» restoranında mərasim keçirmişdir.

Salona toplaşanlar Azərbaycan prezidenti Heydər Əliyevi hərarətlə qarşıladılar.

Tədbirə kütləvi informasiya vasitələrinin təmsilçiləri, Milli Məclisin deputatları, siyasi partiyaların və ictimaiyyətin nümayəndələri dəvət olunmuşdular.

Mərasimi qısa giriş sözü ilə Azərbaycan Junralistlər Birliyinin sədri Hacı Hacıyev açdı.

Azərbaycan prezidenti Heydər Əliyev mərasimdə geniş nitq söylədi.

Hörmətli jurnalistlər!

Hörmətli xanımlar və cənablar!

Sizi Azərbaycan Jurnalistika günü – siz bu günü belə adlandırmısınız, yəqin daha da dəqiq olardı ki, Mətbuat günü deyək – münasibətilə təbrik edirəm. Azərbaycan mətbuatına, Azərbaycan jurnalistikasına müstəqil Azərbaycanın gələcək inkişafı naminə və müstəqilliyimizin möhkəmlənməsi naminə yeni-yeni uğurlar arzulayıram.

Mən sizə bu münasibətlə təbrik məktubu göndərmişəm, mətbuatda dərc olunubdur, bilirsiniz. Sonra məndən xahiş etdilər ki, bu gün Bakı Mətbuat Klubunun nümayəndələri, yaxud da bir qrup Baş redaktorla görüşüm, onlarla söhbət edim. Doğrudur, mən ayın 20-də gecə Yaltadan gəlmişdim. Dünən, bazar günü bir az istirahət etdim. Bu gün həftənin birinci günüdür, mənim çox böyük başqa planlarım vardır. Ancaq mənim planlarımı pozdular. Dedilər ki, bu gün mütləq jurnalistlərlə görüşməlisiniz, sualları var, siz onlara cavab verməlisiniz. Sonra da jurnalistlərin bayramı münasibətilə mərasim olacaq, orada olarsınız. Dedim, ola bilərmi ki, mən bu təkliflərin birini və ya digərini qəbul edim, dedilər ki, yox, o da lazımdır, bu da lazımdır. Nə etməli, mən razı oldum. Bir neçə başqa planlarımı kənara qoydum.

Bu arada Türkiyənin Diyanət İşləri Vəqfinin, yəni Dini İdarənin rəhbəri və nümayəndə heyətinin üzvləri ilə görüşdüm, söhbət etdim. Onu demək istəyirəm ki, mən bu gün çox gərgin qrafiklə, həmişəki kimi işləyirəm. Amma qrafikim pozulubdur. Bunun da səbəbi Jurnalistika günüdür. Mən bundan incimirəm, yaxud sizə minnət qoymaq istəmirəm. Mən, sadəcə, bugünkü gün haqqında danışıram. Ancaq günün mənası bu deyildir. Bu, sadəcə, hər bir insanın həyatında işinin qurulmasıdır. Günün mənası budur ki, bu gün Azərbaycanda azad, müstəqil Mətbuat günüdür, ümumiyyətlə, mətbuat günüdür.

Həsən bəy Zərdabi vaxtilə Azərbaycanda azad, demokratik mətbuatın əsasını qoyubdur. O nəinki bu mətbuatın əsasını qoydu, həm də çox çalışdı, fəaliyyət göstərdi və öz missiyasını sona qədər yerinə yetirdi. Məhz ondan sonra, XX əsrin əvvəlində Azərbaycanda bizim çox böyük jurnalistlər dəstəsi yarandı. Amma onlar da peşəkar jurnalistlər deyildilər, müxtəlif sahələrdə xidmət edirdilər. Ancaq mətbuata, jurnalistikaya

çox böyük qayğı göstərirdilər və Həsən bəy Zərdabi kimi, Azərbaycanda sərbəst, azad, müstəqil mətbuatın inkişaf etməsində böyük işlər görmüşdülər.

Belə hallarda biz mütləq Cəlil Məmmədquluzadəni, Üzeyir Hacıbəyovu və digər belə şəxsiyyətləri yada salmalıyıq. Cəlil Məmmədquluzadənin jurnalist kimi, publisist kimi, «Molla Nəsrəddin» jurnalı vasitəsilə və ondan daha geniş dairədə Azərbaycan xalqına göstərdiyi xidmətlər əvəzsizdir.

Mən Üzeyir Hacıbəyovun adını çəkdim. Çünki Üzeyir Hacıbəyov bizim həyatımıza, tariximizə böyük bəstəkar kimi daxil olmuşdur. Amma indi artıq hamıya məlumdur ki, o, musiqiçi kimi, bəstəkar kimi, böyük zirvələrə çatması ilə yanaşı, eyni zamanda publisistika, jurnalistika ilə də məşğul olub və bu sahədə böyük iz qoyubdur. Amma onun bu sahədəki fəaliyyəti təkcə jurnallarda, qəzetlərdəki yazılarından ibarət deyildir. Həm də əsərləri vasitəsilə bu sahədə Azərbaycan xalqına göstərdiyi xidmətlərdir. Onun əsərləri, elə «Arşın mal alan», «O olmasın, bu olsun» əsərlərinin mənası insanları milli oyanışa, sərbəstliyə, azadlığa dəvət edirdi. Mənim ən xoşuma gələn odur ki, Üzeyir Hacıbəyov «O olmasın, bu olsun» əsərində o dövrün jurnalistlərini də çox gözəl göstəribdir. Bir film var, onu televiziyada vaxtaşırı göstərirlər. Həmin film hər dəfə göstəriləndə mən ona böyük heyranlıqla baxıram. Məni heyran edən o deyil ki, məsələn, Məşədi İbad yaşlı olaraq gənc qız almaq istəyibdir, onu da aldadıblar. Bu, əsərin sujetinin bir tərəfidir. Üzeyir Hacıbəyovun da böyüklüyü ondadır ki, o, insanları cəlb etmək üçün belə gülməli süjet qurubdur. Amma süjetin o biri tərəfi o dövrün cəmiyyəti, həmin cəmiyyətdəki insanlar – həm zəngin insanlar, həm kasıblar, həm də o dövrün ziyalılarıdır. Məsələn, orada jurnalist surətlərini Üzeyir Hacıbəyov çox gözəl göstəribdir. O filmi yaradan rejissor da onların nə cür jur-

nalistlik etdiklərini yaxşı nümayiş etdiribdir. Üzeyir Hacıbəyov bunu nə üçün edibdir? Çünki o vaxtın mətbuatında bu «xəstəliklər» var idi. Üzeyir Hacıbəyov onları göstərərək istəyirdi ki, cəmiyyət daha da sağlam olsun.

Bir sözlə, mən indi tarix haqqında çox danışmaq istəmirəm. Sadəcə, bu fikirlər mənim beynimdə həmişə fırlanır, bu fürsətdən istifadə edərək bunları sizə çatdırıram. Bununla onu demək istəyirəm ki, Azərbaycanda jurnalistika ölkəmizin həm keçmiş irsindən, keçmişdə əldə olunmuş nailiyyətlərdən istifadə etməlidir, həm də bu günün həyatını doğru-düzgün əks etdirməlidir. Azərbaycanda bu yaranıbdır. İndi mən deyə bilərəm ki, qəzetlərin sayına və jurnalist peşəsi ilə məşğul olan insanların, xüsusən gənclərin sayına görə Azərbaycan heç də geridə qalmır. Bu, sevindirici haldır. Jurnalist peşəsi çox ağır zəhmət tələb edir. Bu, çətin peşədir. Özlərini buna həsr edən adamlar gərək birinci növbədə istedadları olduğunu dərk etsinlər. Bizim mədəniyyətimizin müxtəlif sahələrində olan istedadlı insanlar kimi, jurnalistlər də istedadlı olmalıdırlar.

Çünki bu da bizim mədəniyyətimizin bir hissəsidir. İkincisi də, bizim jurnalistlərimiz gərək gördüklərini, eşitdiklərini olduğu kimi yazsınlar, ağa ağ, qaraya qara desinlər.

Jurnalistikanın əsas vəzifələrindən biri cəmiyyətdə, onun bütün sahələrində olan mənfi halları aşkara çıxarmaq, göstərmək və millətimizi, xalqımızı, cəmiyyətimizi bundan xilas etmək olmalıdır. Bizim jurnalistika bunu edibdir. Amma mən arzu edərdim ki, bu məqsədi daha da uğurla həyata keçirsin.

Bu gün mən jurnalistlərin bir qrupu ilə iki saat yarım söhbət etdim, suallarına cavab verdim, çox açıq danışdım. Bəzi məsələlər barədə bəlkə də mən indiyə qədər belə açıq fikirlər deməmişdim. Amma bu gün mən bunu etdim. Bu da mətbuatda dərc olunacaqdır, siz biləcəksiniz. Mən burada bunu təkrar etmək

istəmirəm. Sadəcə, onu demək istəyirəm ki, mənim fikirlərim həmin o görüşdə mənə verilən suallardan istifadə edərək söylədiyim fikirlərdir, mənim düşüncələrimdir, bugünkü problemlərimizə – hamısına yox, bir hissəsinə – olan münasibətimdir.

Mən jurnalistlərin dostu elan olunmuşam. Keçən dəfə dedim, mən bunu qiymətləndirirəm. Azərbaycanda belə vəziyyət yaranıbdır ki, – indi Hacı Hacıyev dedi ki, Azərbaycan jurnalistləri SSRİ Jurnalistlər İttifaqından çıxıb bir təşkilat yaratdılar və 5 Maydan imtina etdilər. Təbii, bu düzdür. 5 May mətbuat günü idi. Karl Marks da həmin gün anadan olmuşdu. İndi yeni tarix başlanmışdır. Yeni tarix Azərbaycanın müstəqilliyi ilə əlaqədar olan tarixdir. Yeni jurnalistlər nəsli gəldi. Bu da çox gözəldir. Ancaq həm keçmişdən qalanlar, həm də yeni gələnlər – hamısı çalışmalıdır ki, bizim informasiya orqanlarını, mətbuatı, qəzetlərimizi cazibədar etsinlər. Sensasiyalı materiallar verməklə yox, həqiqəti açıq-aydın aşkara çıxarmaqla.

Mən iqtidarın nümayəndəsi kimi – mən prezidentəm – hər bir jurnalistə çox minnətdar olacağam ki, iqtidara, prezident kimi, mənə bəlli olmayan hansısa səhvi, yəni hardasa pis görülən işi, bizə zərər verən halları siz üzə çıxardasınız və biz də bundan istifadə edib o nöqsanların, səhvlərin aradan qaldırılması ilə məşğul olaq. Qısası, mən istəyirəm ki, siz iqtidara kömək edəsiniz. Mən istəyirəm ki, iqtidarda kimin olub-olmamasından asılı olmayaraq, müstəqil Azərbaycanın inkişafına kömək edəsiniz. Köməyiniz də birinci növbədə öz jurnalist qələminizlə nöqsanları, qüsurları, çatışmazlıqları obyektiv, ədalətli şəkildə aşkara çıxarmağınız və xeyirxah niyyətlərlə bu sahədə Azərbaycan iqtidarı ilə əməkdaşlıq etməyiniz olardı.

Mən sizinlə dostluğumuza sadiqəm. Çalışacağam ki, bunu pozmayım. Siz də çalışın ki, dostluğumuz pozulmasın.

Əmin ola bilərsiniz ki, jurnalistlərin dostu kimi, bu adı daşımaq üçün mənim tərəfimdən bundan sonra nə mümkündürsə, ediləcəkdir. Mən sizinlə bu dostluğumu davam etdirmək istəyirəm.

Sizin hamınıza cansağlığı arzu edirəm. Hər birinizə uğurlar arzulayıram. Hər bir mətbuat orqanına arzu edirəm ki, o daha da uğurla fəaliyyət göstərsin. Çox sağ olun.

* * *

Azərbaycan prezidenti mərasimdə iştirak edən jurnalistlərlə səmimi söhbət etdi, onların problemləri ilə maraqlandı, arzu və təkliflərini dinlədi, xatirə şəkli çəkdirdi.

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD HÜSNİ MÜBARƏKƏ

Hörmətli cənab Prezident!

Misir Ərəb Respublikasının milli bayramı – İnqilab günü münasibətilə Sizi, dost Misir xalqını səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Misir əlaqələrinin inkişafına böyük əhəmiyyət verirəm. Əminəm ki, ölkələrimizin potensial imkanlarından daha tam istifadə etməklə, bir çox sahələrdə qarşılıqlı faydalı əməkdaşlığa nail ola bilərik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *22 iyul 2002-ci il*

MALDİV RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB MƏMUN ƏBDÜL QƏYYUMA

Hörmətli cənab Prezident!

Maldiv Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında dostluq münasibətlərini birgə səylərlə inkişaf etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh və tərəqqi arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *22 iyul 2002-ci il*

MİSİR ƏRƏB RESPUBLİKASININ MİLLİ BAYRAMI – İNQİLAB GÜNÜ MÜNASİBƏTİLƏ BU ÖLKƏNİN BAKIDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

«Avropa» oteli

23 iyul 2002-ci il

Hörmətli xanım səfir!

Hörmətli xanımlar və cənablar!

Mən sizi Misirin milli bayramı – 23 iyul inqilabının 50-ci ildönümü münasibətilə ürəkdən təbrik edirəm. Sizə və qardaş Misir xalqına sülh, əmin-amanlıq və rifah arzulayıram.

1952-ci il 23 iyul Misir inqilabı XX əsrin ən böyük tarixi hadisələrindən biri olmuşdur. Uzun müddət müstəmləkə əsarətində yaşayan xalqlar İkinci dünya müharibəsindən sonra öz müstəqilliyi haqqında düşünməyə başladılar. Məhz İkinci dünya müharibəsindən sonra dünyada hələ mövcud olan böyük müstəmləkə imperiyaları dağılmağa başladı. Yer kürəsinin, demək olar ki, bir çox bölgələrində müstəmləkə sisteminə qarşı çıxışlar, mübarizə başlanmışdı. Bunların içərisində 1952-ci il Misir inqilabı ərəb və müsəlman dünyasında xüsusi yer tutur. Mən bu sözləri deyəndə 1952-ci il, 1951-ci il, hətta 1950-ci ildə Misirdə, onun ətrafında, Süveyş kanalı zonasında gedən mübarizə, münaqişələr və hadisələr gözümün qarşısına gəlir. O illərdə orada, nəhayət, inqilab başlayanda sanki dünyada böyük

bir bomba partladı. Mərhum Camal Əbdül Nasirin rəhbərliyi altında Misirin bir qrup zabiti o vaxtkı hakimiyyəti devirib ölkədə ədalətli hakimiyyət yaratmaq və insanlara azadlıq vermək uğrunda ölüm-dirim mübarizəsinə başlamışdılar. Amma bu hərəkata müqavimət göstərənlər – təkcə Misirin özündə, yaxud da ki, ümumiyyətlə ətrafdakı ərəb ölkələrindəki mühafizəkar hakimiyyətlər deyil, həm də bir çox xarici qüvvələr – Misirin coğrafi-siyasi əhəmiyyətinə və xüsusən Süveyş kanalına görə bu qəhrəman insanların mübarizəsinin qarşısını almaq istəyirdilər.

Sizin çoxlarınız bunları kitablardan, bəlkə filmlərdən bilirsiniz. Ancaq mən o vaxt bu hadisələri çox dərindən izləyən, o vaxtkı mətbuatı oxuyan və dünyada, o cümlədən həmin bölgədə vəziyyətlə maraqlanan insanlardan biri idim. Çünki bu mənim peşəmə çox aid idi.

Misirin azadlığı və müstəqilliyi uğrunda mübarizə aparanların o zaman Süveyş kanalını bağlaması və bu kanaldan istifadə edən böyük dövlətlərin güclü təzyiqlərinə baxmayaraq öz planlarını iradə ilə həyata keçirməsi dünyada bütün insanları heyran edirdi.

Mən bu barədə çox danışa bilərəm. Ancaq bunların hamısı Misir xalqının, onun mütərəqqi insanlarının, o vaxt Misir inqilabına başçılıq edən Camal Əbdül Nasirin qələbəsi ilə qurtardı və nəhayət, onlar qalib gəldilər. Süveyş kanalını nəzarətə aldılar və Camal Əbdül Nasir Misirin prezidenti seçildi.

Biz yaşadığımız ölkədə xalq, dövlət, hökumət – hamı Misirdə inqilab edənlərin tərəfində idi, onları dəstəkləyirdi. 1950-ci illərin axırı idi. Camal Əbdül Nasir Sovetlər İttifaqına gəldi. Bunu Sovetlər İttifaqının tarixində görünməmiş böyük bir hadisə kimi qarşıladılar. O səfər zamanı Camal Əbdül Nasir Azərbaycanı da ziyarət etdi. Bu, indiki kimi, gözümün qarşı-

sındadır. Bütün Bakı, Azərbaycan onu qarşılamağa çıxmışdı. Hətta onu da deyə bilərəm ki, bizim indiki Binə hava limanı o vaxt Camal Əbdül Nasiri gətirən təyyarə kimi böyük təyyarələri qəbul edə bilmirdi. «Nasos» qəsəbəsindəki hərbi aeroport bu baxımdan yaxşı vəziyyətdə idi, təyyarəni ora qəbul etdi. Həmin aeroportun bütün ərazisi insanlarla dolu idi. Mən də orada idim.

Xatirimdədir, oradan onun üçün ayrılmış iqamətgaha qədər – o, indiki dövlət iqamətgahı idi – yollarda, bütün küçələrdə yüz minlərlə adam Camal Əbdül Nasiri salamlayırdı. Yadımdadır, onu aparan avtomobilin irəliləməsi bəzən çox ləngiyirdi, çünki insanlar avtomobili saxlayıb onu salamlayır, onu görmək istəyirdilər.

Mən özümü çox xoşbəxt hesab edirəm ki, həmin vaxt Bakıda idim, Camal Əbdül Nasirin qarşılanmasında iştirak edirdim və onunla tanış oldum, görüşlərdə iştirak etdim. Bu, qəlbimdə indiyə qədər də yaşayır. Təbiidir ki, bu o vaxt bütün xalqın müstəmləkə sisteminə, əsarətə, istismara olan etirazı idi. Eyni zamanda xalqların müstəqillik əldə etmək üçün başladıqları hərəkata olan dəstəyi idi. Azarbaycanın insanları, xalqı o vaxt bu prosesi dəstəkləyirdi. Camal Əbdül Nasir bu prosesdə çox fərqləndiyinə görə, ona xüsusi məhəbbət və xüsusi hörmət vardı.

Onu görənlər yəqin bilirlər ki, çox hündürboy, enlikürək, gözəl kişi idi. Onun simasında həm ərəb cizgiləri, həm də çox yüksək mədəniyyət cizgiləri vardı. O, vəfat edəndə də Sovetlər İttifaqında da, Azərbaycanda da hamımız çox məyus olmuşduq.

Xatirimdədir, sonra, 1973-cü ildə mən Misirə gedəndə – orada səkkiz-doqquz gün qalmışdım, Sovetlər İttifaqının böyük bir nümayəndə heyətinə başçılıq edirdim – onun qəbrini

ziyarət etdim. Onun qəbri Qahirədə bir məsciddədir. Tarixi faktları düz deyirəmmi?

Ondan sonra Misir Ərəb Respublikasına Camal Əbdül Nasirin yaxın silahdaşlarından biri, böyük siyasi xadim Ənvər Sədat başçılıq etdi. O da çox böyük işlər gördü. Ancaq təəssüflər olsun ki, terror nəticəsində həlak oldu. Mən daha vaxtınızı almaq istəmirəm. Sadəcə, bu inqilabın başlanğıcını və onun qeyri-adiliyini sizə çatdırmaq üçün bunların üzərində çox dayandım.

Çox sevindirici haldır ki, həmin o nəsil, yəni o vaxtlar meydana çıxmış vətənpərvər insanların nəsli davam edir. Ənvər Sədat həlak olandan sonra onun yerinə bugünkü prezident, mənim çox hörmət etdiyim cənab Hüsni Mübarək seçildi. Hüsni Mübarək də Camal Əbdül Nasirlə, Ənvər Sədatla bir yerdə idi və o vaxt Misirin Müdafiə naziri idi.

Artıq mən dedim ki, 1973-cü ildə Misirdə olmuşam. O vaxt mərhum Ənvər Sədatla da görüşdüm. Qeyd etdim ki, Camal Əbdül Nasirin qəbrini ziyarət etdim. Sonra artıq müstəqil Azərbaycanın prezidenti olaraq, Misirdə, bir sıra beynəlxalq təşkilatlarda mən hörmətli dostum Hüsni Mübarəklə bir neçə dəfə görüşlər keçirmişəm, danışıqlar aparmışam. Bütün bu görüşlərimiz, danışıqlarımız Misirlə Azərbaycan arasında olan əlaqələr və onların möhkəmləndirilməsi barədə olubdur.

Mən prezident Hüsni Mübarəki Azərbaycana dəvət etmişəm. Bir neçə dəfə görüşlərimizdə – 1994-cü ildə mən Qahirədə olanda, ondan sonrakı görüşlərimizdə də o məni Misirə rəsmi səfərə dəvət etmişdir. Ancaq nə o mənim dəvətimi yerinə yetirib, nə də mən onun dəvətini yerinə yetirmişəm. Amma hesab edirəm ki, mən onun dəvətini yerinə yetirməliyəm və vaxt tapıb mütləq Misirə rəsmi səfər etməliyəm.

Görürsünüz, tarixə mən çox vaxt həsr etdim. Amma bu lazımdır. Çünki bugünkü gün, qeyd etdiyimiz gün, yəni 23 iyul

Misir inqilabı – mən çıxışımın əvvəlində dedim – XX əsr tarixində ən böyük, möhtəşəm hadisələrdən biridir. Biz həmişə bunu yadımızda saxlamalıyıq və qiymətləndirməliyik.

Misirlə Azərbaycan arasında çox yaxşı dostluq və qarşılıqlı surətdə faydalı əməkdaşlıq əlaqələri var. Biz Azərbaycanda bu əlaqələrə xüsusi əhəmiyyət veririk. Hesab edirik ki, əlaqələrimizi daim genişləndirməliyik. Bunun üçün imkanlarımız da var. Güman edirəm ki, gələcək illərdə biz bu əlaqələrimizi daha da genişləndirə biləcəyik.

Mən bu bayram münasibətilə sizi bir daha təbrik edirəm. Sizə bildirmək istəyirəm ki, mən ikinci dəfədir bu salonda sizin bayramınıza gəlmişəm. Sizdən əvvəlki səfir Azərbaycanda işləyəndə də mən buraya gəlmişəm.

Siz məni dəvət edəndə, bəlkə də inanmırdınız ki, gələcəyəm. Amma işim nə qədər də çox olsaydı, mən bugünkü bayrama gəlməyə bilməzdim. Mən artıq Misir inqilabı haqqında burada çox geniş nitq söylədim. Belə bir hadisəni gəlib burada, Misirin səfirliyində qeyd etməmək və bu barədə olanları yada salmamaq, bu hadisədən, bu gündən istifadə edib bizim münasibətlərimiz haqqında danışmamaq – təbiidir ki, mən bunu etməyə bilməzdim.

Bir də təbrik edirəm. Xahiş edirəm mənim təbriklərimi əziz dostum prezident Hüsni Mübarəkə çatdırasınız. Sizə və bütün xalqınıza bir daha sülh və əmin-amanlıq arzulayıram.

* * *

Mərasim başa çatdıqdan sonra Azərbaycan prezidenti Heydər Əliyev bayram tədbirində iştirak edən xarici ölkələrin Bakıdakı səfirləri, respublika ictimaiyyətinin nümayəndələri ilə görüşüb səmimi söhbət etdi.

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

Hörmətli cənab Prezident!

Ölkənizin şimal–şərq vilayətlərində baş vermiş güclü sel daşqını nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni ürəkdən kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *25 iyul 2002-ci il*

İRAN İSLAM RESPUBLİKASININ TƏHLÜKƏSİZLİK NAZİRİ ƏLİ YUNİSİ BAŞDA OLMAQLA, BU ÖLKƏNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

Prezident sarayı

25 iyul 2002-ci il

H e y d ə r Ə l i y e v: Qonaqlar, Sizi səmimi-qəlbdən salamlayıram və hesab edirəm ki, hörmətli nazirin səfəri İran–Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün çox əhəmiyyətli olacaqdır.

Mənim İrana rəsmi səfərim çox yaxşı keçdi. İran hökuməti və prezident Xatəmi, başqa vəzifəli şəxslər Azərbaycana, Azərbaycan prezidentinə çox böyük diqqət göstərdilər. Biz bir çox məsələləri müzakirə etdik və çoxlu vacib sənədlər imzaladıq.

Təbiidir ki, danışıqların, görüşlərin hamısı prezident cənab Xatəmi ilə aparılırdı. Ancaq mən həm parlamentdə oldum, onun sədri ilə görüşdüm, həm də ki, hər dəfə olduğu kimi, İranın ali rəhbəri Ayətullah Xamenei ilə də görüşdüm, çox ətraflı söhbət etdim.

Ayətullah Xamenei ilə mən 10 il bundan öncə tanış olmuşam. Onda Naxçıvan Muxtar Respublikasının başçısı idim. Mən İrana, Tehrana dəvət edilmişdim. Xüsusi olaraq Məşhədə getdim və orada Ayətullah Xamenei ilə ilk dəfə görüşüb

söhbət etdik. Ondan sonra, 1994-cü ildə Azərbaycan prezidenti kimi, mənim İrana rəsmi səfərim olmuşdu. Ağayi Rəfsəncani ilə bir çox görüşlər keçirdik, danışıqlar apardıq.

Mənim bu ilin aprelindəki İrana səfərimin ən böyük nəticələrindən biri odur ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra biz ilk dəfə olaraq İranla ölkəmiz arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə imzaladıq. İndiyə qədər bizim belə bir müqaviləmiz olmayıbdır. Səfərə hazırlaşarkən mən bildirdim ki, biz gərək mütləq müqavilə imzalayaq. Bir dəfə Tehrandan xəbər gəldi ki, buna o qədər ehtiyac yoxdur. Amma ikinci dəfə elə bir layihə gəldi ki, onu heç imzalamaq olmazdı. Sonrakı aylarda hər iki tərəfdən çox böyük cəhdlər göstərildi. Müştərək işimiz nəticəsində, hesab edirəm ki, ölkələrimiz arasındakı əlaqələri tənzimləyən çox dəyərli bir müqavilə hazırlandı və prezident Xatəmi və mən Tehranda onu imzaladıq. Mən bu barədə ona görə danışıram ki, bağladığımız müqavilə İranla Azərbaycan arasındakı əlaqələrin hüquqi-normativ əsasıdır.

Biz bir çox başqa sənədlər də imzaladıq. Amma bunların əsası mən dediyim müqavilədir. Bir sözlə, hesab edirəm ki, İrana səfərim çox uğurlu olubdur. İndi mən ağayi Xatəminin Azərbaycana səfərini gözləyirəm.

Biz – prezidentlər ölkələrimizin əlaqələrinin ümumi məsələlərini həll edirik. Bizim nazirlərimiz, başqa yüksək vəzifəli şəxslərimiz isə bu böyük proqramların həyata keçirilməsi üçün əməli fəaliyyət göstərir və göstərməlidirlər. Bu baxımdan – Azərbaycana sizin səfəriniz də, hesab edirəm, məhz İran–Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi Tehranda bizim imzaladığımız sənədlərin icrası üçün çox əhəmiyyətlidir.

Ə l i Y u n i s i: Səmimi qəbul üçün Sizə təşəkkür edirəm, icazənizlə cənab Xatəminin salamını Sizə çatdırım və bildirim

ki, İran prezidenti ən yaxın zamanda Azərbaycana səfər etməyə hazırdır.

Zati-aliləri, Sizin Tehrana səfəriniz həm əlaqələrimiz üçün çox əhəmiyyətli idi, həm də regiondakı məsələlərin həlli baxımından vaxtında edilmişdi. Sizin bu səfəriniz bədxahların şayiələrinə, uydurmalarına birdəfəlik son qoydu və bir daha göstərdi ki, siyasi iradəniz nəticəsində bu səfər həyata keçdi, bir sıra məsələlər öz həllini tapdı.

Bizə, yəni hörmətli cənab Abbasovla mənə aid olan məsələləri bir il bundan əvvəl müzakirə etməyə başlamışıq. İndiyə qədər Tehranda və Bakıda keçirdiyimiz görüşlər və danışıqlar nəticəsində yaxşı razılaşmalar əldə etmişik. Biz təhlükəsizlik xidmətləri orqanları arasında əməkdaşlığa, əməli işlərə başlamışıq. Hesab edirəm ki, bunlar öz müsbət nəticəsini verəcəkdir.

İstər Milli Təhlükəsizlik naziri, istər Daxili İşlər naziri, istərsə də Ədliyyə naziri və digər rəsmi şəxslərlə keçirdiyim görüşlər onu göstərir ki, hər iki tərəf müzakirə edilən məsələlərin həlli üçün çalışır.

Təhlükəsizlik sahəsində əməkdaşlığa başlamaq üçün cənab Namiq Abbasov öz nümayəndəsini Tehrana göndərir və bizim nazirlikdən də buraya nümayəndə göndəriləcəkdir. Düşünürəm ki, hər iki ölkənin təhlükəsizlik nazirləri dövlət başçılarının qəti iradəsini və qərarını həyata keçirmək üçün əllərindən gələni edəcəklər.

Dövlətimizin, o cümlədən ali dini rəhbərin, prezidentin qəti qərarı bundan ibarətdir ki, qonşu ölkələrlə, ilk növbədə müsəlman dövlətləri və xüsusilə Azərbaycanla münasibətlər geniş inkişaf etdirilməlidir. Cənab Prezident, mən hər dəfə öz prezidentimin dilindən eşitdiyimi bu gün Sizin dilinizdən eşitdim.

H e y d ə r Ə l i y e v: Mənim dediklərim və sizin dediklərinizin tamamilə eynidir və üst-üstə düşür. Cənabi Allah özü bizim xalqlarımızı daim dostluq, qardaşlıq şəraitində yaşamaq üçün yaradıbdır. Ona görə bizim bir kökümüz var, bir dinimiz var, adət-ənənələrimiz var, milli dəyərlərimiz var, hamısı da bir-biri ilə qarışıbdır. Məsələn, böyük bir şair var – Qətran Təbrizi, o, bütün Azərbaycanın şairidir. Amma o, İranın da şairidir. Seyid Məhəmməd Şəhriyar … Azərbaycanın şairidir, amma İranın da şairidir. Məsələn, götürək Sədi, Hafiz, Firdovsi… Biz bunları həmişə özümüz üçün doğma şairlər hesab etmişik. Mənim yadımdadır, hələ orta məktəbdə Firdovsinin «Şahnamə»sini oxuyurdum. 60 il bundan öncə oxumuşam. 1993-cü ildə İrana gedəndə Məşhədə getdim, Firdovsinin qəbrini, Nadir şahın da qəbrini ziyarət etdim. Orada İmam Rzanın qəbrini ziyarət etdim. İmam Rzanın qəbrini ziyarət etməyim məndə çox böyük təəssürat yaratdı. Onun məqbərəsinə, xatirəsinə həsr olunmuş əsərlərə baxanda və insanların oraya fasiləsiz axınını görəndə təsəvvür edirsən ki, İmam Rza bizim xalqlar üçün nə deməkdir.

Mən yenə də deyirəm, Allah bizi elə yaradıb ki, bir yerdəyik, bir torpaqdayıq, yəni bir ərazidəyik, qonşuyuq. Kökümüz bir, adətimiz bir, ənənəmiz birdir, hamısı eynidir. Belə olan halda biz bir-birimizə dost, qardaş olmaq əvəzinə, aramızda nifaq salmaq… Onsuz da dünyada, başqa məntəqələrdə bizə düşmən olanlar çoxdur. Buna görə biz gərək özümüz elə edək ki, aramızda dostluq, qardaşlıq münasibətləri olsun və xaricdən bizə olan təxribatlardan və sairədən özümüzü birlikdə qoruyaq. Azərbaycan dövlətinin, Azərbaycan prezidentinin İran ilə əlaqələrə aid siyasəti bundan ibarətdir. Biz bu siyasəti də həyata keçiririk. Prezident Xatəmi ilə, başqa şəxslərlə görüşlərimdə duydum ki, İranda da artıq Azərbay-

cana münasibətdə belə bir siyasət meydana çıxıbdır. Biz bunu qorumalı, inkişaf etdirməliyik. Onda İran da, Azərbaycan da güclü olacaqdır. Amma ən əsas odur ki, biz bir-birimizə qarşı heç vaxt mənfi iş görməyəcəyik.

SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB S.R.NATANA

Hörmətli cənab Prezident!

Sinqapur Respublikasının milli bayramı – Milli gün münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında təşəkkül tapan dostluq münasibətləri xalqlarımızın rifahı naminə daim inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh və tərəqqi arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *25 iyul 2002-ci il*

İSVEÇRƏ KONFEDERASIYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KASPAR VİLLİGERƏ

Hörmətli cənab Prezident!

İsveçrə Konfederasiyasının milli bayramı – Konfederasiyasının yaradılması günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ölkələrimiz arasında əlaqələrin inkişafına böyük əhəmiyyət verirəm.

Ümidvaram ki, qarşılıqlı səylərimizlə hərtərəfli əməkdaşlığa nail olacağıq.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsveçrə xalqına sülh və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *25 iyul 2002-ci il*

MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BORİS TRAYKOVSKİYƏ

Hörmətli cənab Prezident!

Makedoniya Respublikasının milli bayramı – Respublika günü münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında faydalı əməkdaşlığa nail olmaq yolunda göstərdiyimiz səylər öz bəhrəsini verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Makedoniya xalqına sülh və tərəqqi arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *25 iyul 2002-ci il*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB AVUL PAKİR CAYNULABDİN ƏBDÜL KALAMA

Hörmətli cənab Prezident!

Hindistan Respublikasının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Hindistan arasındakı dostluq və əməkdaşlıq münasibətlərinə böyük əhəmiyyət verirəm. Əminəm ki, ölkələrimiz arasındakı əlaqələr xalqlarımızın mənafeyi naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Hindistan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *26 iyul 2002-ci il*

AZƏRBAYCAN ALİ HƏRBİ MƏKTƏBİ MƏZUNLARININ İKİNCİ VƏ AZƏRBAYCAN ALİ HƏRBİ TƏYYARƏÇİLİK MƏKTƏBİ MƏZUNLARININ BİRİNCİ BURAXILIŞINA HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ

27 iyul 2002-ci il

Azərbaycan Respublikasının prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyev mərasimdə iştirak etmək üçün Ali Hərbi Məktəbə gəldi.

Azərbaycan Respublikasının prezidenti, Ali Baş Komandan Heydər Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Müdafiə naziri, general-polkovnik Səfər Əbiyev və fəxri qarovul dəstəsinin rəisi Ali Baş Komandana raport verdilər.

Dövlətimizin başçısı fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Mərasimin keçirildiyi stadiona toplaşan hərbçilər, valideynlər, ictimaiyyətin nümayəndələri, dövlət və hökumət rəhbərləri Azərbaycan prezidenti Heydər Əliyevi hərarətli alqışlarla qarşıladılar.

Ali Hərbi Məktəbin rəisi polkovnik Tofiq Qasımov Ali Baş Komandana raport verərək, şəxsi heyətin buraxılış mərasimi münasibətilə düzüldüyünü bildirdi.

Azərbaycan prezidenti, Ali Baş Komandan Heydər Əliyev məzunları salamladı.

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Müdafiə Nazirliyinin nümunəvi orkestrinin və kursantların ifasında Azərbaycanın dövlət himni əzəmətlə səsləndi.

Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Səfər Əbiyev mərasimdə çıxış etdi.

H e y d ə r Ə l i y e v: Əziz gənc zabitlər!

Əziz gənc kursantlar!

Hörmətli zabitlər, generallar!

Xanımlar və cənablar!

Müstəqil Azərbaycan Respublikasının həyatında baş verən bugünkü əlamətdar hadisə münasibətilə sizin hamınızı təbrik edirəm və Azərbaycan Ali Hərbi Məktəbini bitirib ixtisaslaşma kurslarına gedənləri ürəkdən təbrik edirəm. Əziz məzunlar, əziz gənc zabitlər, sizə gələcək xidmətlərinizdə uğurlar arzulayıram.

Bu gün ona görə əlamətdardır ki, müstəqil Azərbaycanın ordu quruculuğu prosesin gündən-günə yüksəlməsini bir daha nümayiş etdirir. Bu gün ona görə əlamətdardır ki, Azərbaycanın Silahlı Qüvvələri, Milli Ordusu yeni böyük zabit dəstəsi alır. Ali Hərbi Məktəbdə təhsil almış, müasir dövrün tələblərinə uyğun və Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi islahatlarla əlaqədar dəyişikliklərə uyğun təhsil almış gənclər bizim Silahlı Qüvvələrimizin müxtəlif hissələrinə xidmət etməyə gedirlər.

Bu gün ona görə əlamətdar gündür ki, Azərbaycan gənclərinin hərbi xidmətə, hərbi peşəyə nə qədər böyük maraq göstərdiklərini nümayiş etdirir. Gənclərimiz özlərini hərbi peşəyə həsr edərək, Azərbaycanın ordusunda xidmət edib dövlətin keşiyində durmağı sevimli peşə hesab edərək bu

məktəbə daxil olublar və onu bitiriblər. Qürur hissi ilə hərbi xidmətlərini davam etdirməyə hazır olduqlarını bildiriblər.

Bu gün bizim hamımızı çox sevindirir. Bizim xalqımızı sevindirir. Çünki bu gün bir daha nümayiş etdirir ki, Azərbaycanın nizami ordusu var, Azərbaycanın yüksək səviyyədə təşkil edilmiş Silahlı Qüvvələri var, Azərbaycan dövlətini, dövlətçiliyini və bütün mənafelərini, torpaqlarını qorumağa qadir ordusu var və bu ordu peşəkar hərbçilər, peşəkar zabitlər tərəfindən idarə olunur. Azərbaycan Silahlı Qüvvələrinin sıraları ilbəil yeni, gənc zabitlərlə artır və genişlənir.

Əziz övladlarımız, mən təsəvvür edirəm ki, siz bu gün hansı hissləri keçirirsiniz. Siz gəncsiniz, qarşınızda böyük yol var. Amma yolunuzu seçmisiniz və düzgün seçmisiniz. Yolunuz Azərbaycan Silahlı Qüvvələrində xidmət etmək, doğma ölkəmizi, xalqımızı, dövləti qorumaq yoludur, siz bu yolu seçmisiniz. Mən sizin bu seçiminizi çox yüksək qiymətləndirirəm. Amma siz bu yolun başlanğıcındasınız.

Dörd il Azərbaycan Ali Hərbi Məktəbində təhsil almısınız. Bu təhsil əvvəlkindən tamamilə fərqli bir sistem əsasında qurulubdur. Bu təhsil müasir texnikanın, texnologiyanın bütün imkanlarından istifadə olunmaqla sizə çox biliklər veribdir. Bu təhsil sizi inkişaf etdirib, özünüzün seçdiyiniz peşəyə daha da bağlayıbdır. Güman edirəm ki, bu dörd ildə öz peşənizi daha çox sevmisiniz. Ali Hərbi Məktəbdə oxumaq üçün çəkdiyiniz zəhmət və çox həyəcanlı günlər dörd il bundan öncə olubdur. İndi isə, dörd ildən sonra Ali Hərbi Məktəbi qurtarıb hərbi xidmətə başlayırsınız. Bu sizin həyatınızda böyük bir mərhələdir. Siz bu dövrü şərəflə keçmisiniz, Ali Hərbi Məktəbi qurtarmağa haqq, hüquq qazanmısınız. İndi biliklərinizi və bütün keyfiyyətlərinizi, bacarığınızı xidmətdə göstərməlisiniz. Ona görə bu gün sizin üçün çox həyəcanlı gündür. Biz bunları

görmüşük. Hər bir valideyn uşağı ilk dəfə məktəbə gedəndə nə qədər həyəcan hissləri keçirir. Orta məktəbi qurtaranda nə qədər həyəcanlı hisslər keçirir. Ali məktəblərə, universitetlərə daxil olmaq gənclər üçün, təbiidir ki, asan deyildir. Kimin biliyi varsa, ancaq o qəbul oluna bilir. Ancaq ali məktəbə daxil olana qədər özü də, onun valideynləri də nə qədər həyəcanlanırlar. Nəhayət, universiteti, ali məktəbi bitirib həyatda işə başlayır.

Mən özüm bir valideyn, ata kimi bu hissləri keçirmişəm. Ancaq mən bu gün bu hissləri sizinlə bərabər, sizin hər birinizə doğma bir insan kimi keçirirəm və həddindən artıq sevinirəm. Şadam ki, bu il Azərbaycanın Silahlı Qüvvələri yeni bir gənc zabit dəstəsi aldı. Deməli, ordumuz təzələnir. Ordumuza yeni nəsillər, zabit nəsilləri sistemli olaraq gəlir. Bunların hamısı bizim ordumuzu ilbəil gücləndirir, onun qüdrətini artırır. Bax, bunlara görə mən sizinlə birlikdə böyük sevinc hissi keçirirəm.

Ötən ili xatırlayıram. Bir il bundan öncə də biz burada idik, belə bir gözəl mərasim keçirdik. Amma bu il bir neçə gün öncə mənə deyəndə ki, buraxılış var, soruşdular ki, bu buraxılışa gəlmək istəyirəm, yoxsa yox? Birincisi, təəccübləndim. Vaxt nə tez keçdi. Elə bil dünən biz burada görüşmüşdük və bu gün yenidən görüşürük. İkincisi, suala cavab olaraq dedim ki, siz nahaq bu sualı mənə verirsiniz. Ola bilərmi ki, mən, birincisi, özümü bu gənclərin valideyni kimi hesab edərək, ikincisi isə, Silahlı Qüvvələrin Ali Baş Komandanı, Azərbaycan prezidenti kimi, yaratdığımız gənc, müstəqil Azərbaycanın Ali Hərbi Məktəbinin buraxılışına gəlməyim. Gəlmişəm, sizi görməyə gəlmişəm. Sizi, bu mənzərəni görərək həddindən artıq sevinirəm, həyəcanlanıram. Deməli, son ildə Azərbaycanda ordu quruculuğunu daha da yüksək səviyyədə təşkil etmək,

Azərbaycanın Silahlı Qüvvələrini müasir tələblərlə hazırlanmış, bilik almış zabitlərlə təmin etmək arzularımız, niyyətlərimiz, proqramlarımız artıq həyata keçirilir. Bu sistem artıq gedir və gedəcəkdir. İlbəil bundan da artıq davam edəcəkdir.

Bu il Ali Hərbi Məktəbi bitirənlərin sayı keçən ilkindən çoxdur. Bu tərəfdə duranlar, hansılar ki, son kursda oxuyacaqlar, onların da sayı keçən ilkindən çoxdur. Məlumdur ki, Ali Hərbi Məktəbə daxil olmaq üçün böyük müsabiqədən keçmək lazımdır. Bu müsabiqədən keçib, dörd il təhsil alaraq zabit səviyyəsinə çatmış gənclərimiz ilbəil artır və artacaqdır.

Bizim Ali Hərbi Məktəbimiz, Ali Təyyarəçilər Məktəbimiz, Ali Dənizçilik Məktəbimiz, Hərbi Akademiyamız, təkmilləşdirmə kursları, ordumuzu təmin etmək, lazım olan qüvvələri hazırlamaq üçün müxtəlif səviyyədə yaranmış kurslar – bunların hamısı indi artıq Azərbaycanda Silahlı Qüvvələrin böyük bir təhsil sisteminin tam yaranmasını nümayiş etdirir və bu, davam edəcəkdir. İlbəil yeni, gənc zabitlərin sayı artacaq, bizim ordumuz yeni zabitlər, müxtəlif sahədə ixtisaslaşmış mütəxəssislər alacaqlar. Bunların hamısı bizim ordumuzu müasir tələblərə uyğun inkişaf etdirəcəkdir.

Azərbaycanda ordu quruculuğunun işində, hərbi təhsil sisteminin yaranması işində, mövcud hərbi hissələrimizdə zabitlər və əsgərlərin gündəlik təlimlərinin təşkil edilməsi işində bu nailiyyətləri əldə etməyimizə Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında, Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələri ilə Azərbaycanın Silahlı Qüvvələri arasında artıq bir çox illər bundan öncə yaranmış əlaqələr, əməkdaşlıq, müştərək iş böyük kömək göstərmişdir. Bu iş indi də, gələcəkdə də davam edəcəkdir.

Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında dostluq, qardaşlıq, strateji əməkdaşlıq əlaqələri var. Bu əlaqələri biz yüksək qiymətləndiririk və onların təkmilləşməsi üçün daim səylərimizi göstəririk və göstərəcəyik. Bu əlaqələrin böyük bir hissəsini təşkil edən bizim ordu quruculuğu sahəsində, hərbi sahədə olan əməkdaşlığımızdır.

Bu mərasimi keçən il biz Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin başçısı, Baş Qərargah rəisi, ordu generalı, hörmətli Hüseyn Kıvrıqoğlu ilə bərabər Azərbaycana gəlmiş nümayəndə heyəti ilə birgə keçirdik. O günlərdə bizim bütün xalqımızı sevindirən «Türk Yıldızları» Azərbaycanda oldular. Onda bu məktəbin ilk buraxılışı idi. Bu məktəbi bir yerdə hazırlamışıq. Təbiidir, mən çox şad oldum ki, ilk buraxılışı da birlikdə keçirdik.

Bu gün yenə də mərasimimizdə Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin burada bizimlə bərabər fəaliyyət göstərən yüksək rütbəli şəxsləri və Türkiyədən Azərbaycana gəlmiş qonaqlar da iştirak edirlər. Mən qonaqlarımızı səmimi-qəlbdən salamlayıram və Türkiyə Cümhuriyyətinə, xalqına və Türkiyənin Silahlı Qüvvələrinə dostluq, qardaşlıq, strateji əməkdaşlıq əlaqələrinin daim inkişaf etdirilməsində və ordu quruculuğunda bərabər işləməyimizlə əlaqədar təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Əziz gənc zabitlər, mən artıq dedim ki, siz keçdiyiniz yolun birinci mərhələsini başa vurmusunuz. Qarşınızda yolun daha da ağır hissəsi durur. O da, qeyd etdiyim kimi, aldığınız biliklərinizi, öz imkanlarınızı sizə həvalə olunan vəzifənin yerinə yetirilməsinə sərf etməyinizdir. Güman edirəm ki, siz bu peşəni şüurlu seçdiyinizə və Ali Hərbi Məktəbi uğurla bi-

tirdiyinizə görə, gələcəkdə də yaxşı nümunələr göstərəcək, öz xidmətinizi daim davam etdirəcəksiniz.

Mən dəfələrlə demişəm, bu gün də sizə deyirəm ki, hərbi peşə insanlardan çox şey tələb edir. Həm fiziki hazırlıq, həm nizam-intizam, həm dövlətə, vətənə, ölkəyə, doğma torpağa əsl sədaqət, həm də böyük cəfakeşlik, zəhmətsevərlik, mərdlik, qəhrəmanlıq, mətinlik və sair. Əgər bunlar olmasa, gələcəkdə sizin üçün bu yol çətin olacaqdır. Mən demək istəmirəm ki, bunlar sizdə yoxdur, əgər bunlar olmasaydı, siz bu peşənin ardınca getməzdiniz. Ancaq siz gərək daim özünüzdə bu keyfiyyətləri nümayiş etdirəsiniz. Bu keyfiyyətlər sizin işinizdə gərək özünü göstərsin, get-gedə möhkəmlənsin və sizin adi adətinizə çevrilsin. Güman edirəm, siz bunu edəcəksiniz.

Bizim Silahlı Qüvvələrimizdə hər bir zabit, hər bir komandir mənəviyyatca saf olmalıdır. Mənəvi saflıq insanı daim yüksəldir və lazım olan bütün başqa keyfiyyətlərin onda cəmlənməsi üçün əsas yaradır. Şübhə etmirəm ki, siz bu tövsiyəni də unutmayacaqsınız.

Siz bilməlisiniz ki, Azərbaycanın Silahlı Qüvvələri Azərbaycanın torpaqlarını, dövlətçiliyini qorumalı və Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunmuş torpaqların azad edilməsi üçün üzərinə qoyulacaq vəzifələrin yerinə yetirilməsinə daim hazır olmalıdırlar. Ona görə də siz öz hərbi xidmətinizdə hər gün, hər vaxt bunu düşünməlisiniz, bunu bilməlisiniz, bunu yadınızdan çıxarmamalısınız.

Bizim ordumuz bu günün, gələcəyin ordusudur. Azərbaycan dövlət müstəqilliyinin onilliyini qeyd etdi. Bir neçə aydan sonra biz dövlət müstəqilliyimizin on birinci ildönümünü qeyd edəcəkdir. Aylar keçir, illər keçir, ancaq bu aylar, illər keçdikcə Azərbaycan inkişaf edir, yüksəlir, güclənir və o cüm-

lədən Azərbaycanın Silahlı Qüvvələri güclənərək daha da qüdrətli olubdur.

Ancaq Azərbaycanın müstəqil dövlətinin üzərinə düşən vəzifələr hər bir şəxsdən, hər bir təşkilatdan işləri daha da yaxşı aparmağı tələb edir. O cümlədən mən bu gün Azərbaycanın Silahlı Qüvvələrindən, Azərbaycan Ordusundan, Müdafiə Nazirliyindən öz vəzifələrini daha da keyfiyyətli, daha da yaxşı yerinə yetirməyi tələb edirəm. Bunu bu gün ona görə bəyan edirəm ki, bu bizim daimi tələbimizdir. Biz bu prinsipdən bir gün də geri çəkilməyəcəyik.

Bir də ona görə ki, təəssüflər olsun, bizim ayrı-ayrı hərbi hissələrdə hələ nöqsanlar da var. Bəzi hallarda çox narahatedici nöqsanlar var. Bəzi hissələrdə hərbi nizam-intizam lazımi səviyyədə deyil, komandirlər, zabitlər əsgərlərə, xüsusən gənc əsgərlərə – yəni orduya yeni səfərbər edilmiş əsgərlərə lazımi qayğı göstərmirlər. Belə faktlar var və mən bir neçə dəfə bu cür tənqidi fikirlərimi deməyimə baxmayaraq, qüsurların daha da sürətlə aradan qaldırılmasını tələb etməyimə baxmayaraq, təəssüflər olsun ki, hələ ki, belə hallar var və çoxdur.

Mən bu gün, bayram günü burada hansısa konkret faktlardan danışmaq istəmirəm. Amma, ümumiyyətlə, deyirəm ki, Azərbaycanın Silahlı Qüvvələrində, Azərbaycan Ordusunda hər bir zabit, hər bir komandir, hər bir yüksək vəzifəli şəxs bilməlidir ki, o, sədaqətlə xidmət etməlidir. O, xidmətini elə aparmalıdır ki, ordumuz gündən-günə güclənsin, zəifləməsin. Mən bu gün bu tələbi bir daha bəyan edirəm. Güman edirəm ki, mənim bu tənqidi sözlərimdən və bəyan etdiyim bu tələblərdən nəticə çıxarılacaqdır. Biz heç vaxt arxayınlaşmamalıyıq.

Mən bu gün çox tərifli sözlər dedim. Amma bu o demək deyil ki, biz hər şeyə nail olmuşuq. Yox. Hələ çox şeylər var ki, biz onları etməliyik. Bəzilərini indiyə qədər etməmişik, çünki imkan olmayıbdır. Amma bəzilərini də etmişik. Çünki ayrı-ayrı hissələrdə, ayrı-ayrı sahələrdə buraxılan səhvlər və bəzi vəzifəli şəxslərin, o cümlədən ordumuzun ayrı-ayrı hissələrində olan vəzifəli şəxslərin öz vəzifələrindən sui-istifadə etməsi və öz vəzifələrinin yerinə yetirilməsində məsuliyyətsizlik göstərməsi istədiyimiz nailiyyətlərin əldə olunmasına hələ imkan verməyibdir. Ona görə də biz, bir tərəfdən, Silahlı Qüvvələrimizi hələ daha da təkmilləşdirməliyik. Bu səviyyəni hələ son səviyyə hesab etmək olmaz. İkinci tərəfdən, mövcud olan nöqsanları, qüsurları aradan qaldırmalıyıq.

Güman edirəm ki, bizim gənc zabitlərimiz mənim bu sözlərimi daim yadda saxlayacaqlar. Çünki bu sözlər bu gün də aktualdır, gələcək illərdə də aktual olacaqdır və heç vaxt aktuallığını itirməyəcəkdir.

Bizim Ali Hərbi Məktəbimizin qısa bir zamanda belə yüksək səviyyəyə çatması, təbiidir ki, bu məktəbin professor-müəllim heyətinin çox böyük səylərini nümayiş etdirir. Bəzən kənardan, yəni bizim ordumuzu yaxşı görməyənlər, yaxud görmək istəməyənlər, ordumuzda olan vəziyyəti bilməyənlər, yaxud həqiqəti bilmək istəməyənlər – təəssüflər olsun ki, bu indi müəyyən qədər dəb şəklini alıbdır – ordumuz haqqında, onun ayrı-ayrı hissələri haqqında cürbəcür, həqiqətə uyğun olmayan fikirlər söyləyirlər, şayiələr yayırlar.

Mən dedim, təbiidir ki, səhvlər də var. nöqsanlar da var. Ancaq bizim gördüyümüz bu işlərin arxasında böyük əmək, böyük zəhmət və böyük hərbi xidmət durur. Bunu da edənlər bizim ordumuzun, Silahlı Qüvvələrimizin komandan hissəsi-

dir, ali vəzifəli şəxsləridir. Təhsil sahəsində bunu edənlər, məktəbə rəhbərlik edənlər, müəllimlər, professorlar, təhsil işini təşkil edənlərdir.

Mən bu gün bunu qeyd edərək, mənnuniyyət hissi keçirirəm ki, bizim Ali Hərbi Məktəbimizdə yüksək səviyyədə təhsil vermək imkanına malik olan kadrlarımız vardır. Ancaq bu kadrları artırmaq lazımdır. Onların biliklərinin təkmilləşməsi haqqında düşünmək lazımdır. Güman edirəm, bu da bizim qarşımızda duran vəzifələrdəndir.

Əziz gənc zabitlər! Mən sizin hamınızı bir daha təbrik edirəm. Sizə cansağlığı, gələcək xidmətinizdə uğurlar arzulayıram. Arzu edirəm ki, lazım olan vaxt siz yüksək qəhrəmanlıq nümunələri göstərəsiniz. Arzu edirəm ki, bizim ordumuzda qəhrəmanlardan da qəhrəman olanların sayı daha da çoxalsın.

Siz gələcək xidmətinizdə mütləq yüksək komandan heyətinin qayğısı və diqqəti altında olacaqsınız. Bunu bilməlisiniz.

Bu gün mən Səfər Əbiyev ilə bu barədə söhbət aparanda ona bildirmişəm. Ali Hərbi Məktəbi bitirmiş hər bir şəxs gərək xüsusi qeydiyyatda və nəzarətdə olsun. Birincisi, o necə xidmət edir, ikincisi, onun lazımi səviyyədə xidmət etməsi üçün hansı diqqət və qayğı göstərilir. Əgər daimi diqqət və qayğı olmasa, bəziləri üçün çox çətin olar. Mən bunu Müdafiə Nazirliyinin rəhbərliyindən tələb edirəm.

Bu tərəfdə duranlar 4-cü kursa keçənlərdir. Əziz övladlar, mən sizə arzu edirəm ki, qarşınızda olan bu bir ili daha da səmərəli keçirəsiniz və sizinlə üzbəüz duran qardaşlarınız kimi, gələn il siz də bu tərəfdə zabit paltarında durasınız. Mən də söz verirəm ki, gələn il də gəlib sizi burada salamlayacağam və təbrik edəcəyəm.

Azərbaycan dövlətinin, o cümlədən prezidentin, Ali Baş Komandanın çox işləri var. Ancaq bizim dövlətimiz üçün, mənim üçün, Azərbaycanın prezidenti, Ali Baş Komandan üçün ordu ilə, Silahlı Qüvvələrlə əlaqədar olan işlər hər şeydən vacib, hər şeydən əhəmiyyətlidir. Mən öz vəzifəmi bu prinsiplə həyata keçirirəm və bundan sonra da bu prinsiplə həyata keçirəcəyəm. Ona görə bilin, mənim Silahlı Qüvvələr haqqında qayğım, diqqətim adi xarakter daşımır. Mən bütün Silahlı Qüvvələrimizi özüm üçün ən doğmalardan hesab edirəm. Çünki birincisi, Silahlı Qüvvələrdə xidmət göstərənlər çətin peşə ilə məşğuldurlar. Eyni zamanda, xalq üçün, dövlət üçün, millət üçün çox vacib bir peşə ilə məşğuldurlar. Ona görə də əmin ola bilərsiniz ki, mənim diqqətim və qayğım daimi olacaq, həm ordunun, həm də bizim ali təhsil sisteminin maddi-texniki bazasının yaranması, başqa vasitələrlə təmin edilməsi və digər işlərlə – onlar çoxdur – şəxsən mən məşğulam və daim məşğul olacağam. Hesab edirəm ki, bu, Azərbaycanın gələcəkdə müstəqil dövlət kimi yaşamasının əsas təminatıdır.

Əziz övladlarımız!

Mən sizi bir daha, bir daha təbrik edirəm, sizə cansağlığı arzu edirəm, işinizdə uğurlar arzulayıram. Arzu edirəm ki, bir ildən, iki ildən, üç ildən sonra hərbi hissələrə gələndə sizin hər birinizi özüm gözümlə görüm, sizinlə görüşə bilim və müvəffəqiyyətləriniz haqqında məlumatlar, raportlar alım. Güman edirəm ki, bu da olacaqdır.

Bizim ordumuz güclüdür. Ordumuzun gücü günü-gündən artır. Ölkəmizin gözəl gələcəyi var. Azərbaycan xalqı, Azərbaycan dövləti işğal olunmuş torpaqları mütləq azad edəcəkdir. Onu biz azad edəcəyik, biz! Biz bunu sülh yolu ilə həll

etmək istəyirik, bu barədə çox səylər qoymuşuq və bundan sonra da qoyacağıq. Ancaq bizim bu səylər sonsuz olmayacaqdır. Biz bütün səylərimizi qoyub məsələni sülh yolu ilə həll etməyə çalışacağıq. Əgər bu, mümkün olmasa, bizim əziz zabitlərimiz, əziz Silahlı Qüvvələrimiz, siz torpaqlarımızın azad olunması üçün hər gün hazır olmalısınız!

Torpaqlarımız azad olacaq, ordumuz, inkişaf edəcək, respublikamızın iqtisadiyyatı yüksələcək və yaxın illərdə Azərbaycan böyük inkişaf yoluna qədəm qoyacaqdır. Buna əmin ola bilərsiniz. Mən sizi bir daha ürəkdən təbrik edirəm. Sağ olun.

UKRAYNA PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB LEONİD KUÇMAYA

Hörmətli Leonid Daniloviç!

Donetsk vilayətindəki Zasyadko adına şaxtada partlayış nəticəsində insan tələfatı olması barədə xəbər məni dərindən kədərləndirdi.

Sizə, həlak olanların qohumlarına və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *1 avqust 2002-ci il*

AZƏRBAYCAN KİNOSU GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ ÇIXIŞ

Respublika sarayı

2 avqust 2002-ci il

Azərbaycan kinosu günü münasibətilə Respublika sarayında təntənəli mərasim keçirilmişdir.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin salona gəlişi hərarətli, sürəkli alqışlarla qarşılandı.

Mərasimi respublikamızın prezidenti Heydər Əliyev açdı.

* * *

Əziz kinematoqrafçılar!

Hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycan kinosu günüdür. Bu münasibətlə biz hamımız buraya toplaşmışıq ki, bu tarixi hadisəni qeyd edək. Mən sizi, Azərbaycan kinematoqrafiyasında çalışan bütün insanları, bütün kinosevərləri ürəkdən təbrik edirəm. Özünü kino sənətinə həsr etmiş bütün insanlara yeni yaradıcılıq uğurları arzu edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Azərbaycan kinosu bundan sonra daha böyük inkişaf yolu ilə gedəcəkdir.

TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ
BAŞ QƏRARGAHININ RƏİSİ,
ORDU GENERALI CƏNAB HİLMİ ÖZKÖKƏ

Hörmətli Hilmi Özkök!

Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi vəzifəsinə təyin olunmağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, bu yüksək vəzifədə fəaliyyətiniz dövründə dost və qardaş ölkələrimiz arasında hərbi əməkdaşlıq sahəsində yeni-yeni nailiyyətlər əldə edəcəyik.

Sizə möhkəm cansağlığı xoşbəxtlik, işlərinizdə uğurlar arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 *avqust 2002-ci il*

TÜRKİYƏNİN «AKSOY HOLDİNQ» SƏHMDAR ŞİRKƏTİ İDARƏ HEYƏTİNİN SƏDRİ, İSTANBULDAKI «KONQAD» OTELİNİN SAHİBİ ƏRDAL AKSOY İLƏ GÖRÜŞ

Prezident sarayı

5 avqust 2002-ci il

Qonağı səmimiyyətlə salamlayan Azərbaycan prezidenti Heydər Əliyev İstanbulda onunla görüşünü xatırladı.

Səmimi qəbula görə prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən cənab Ərdal Aksoy əvvəllər də Bakıya gəldiyini, çox gözəl şəhərimizlə tanış olduğunu, lakin dövlətimizin başçısını narahat etməmək üçün onunla görüşmədiyini söylədi.

Prezident Heydər Əliyev dedi ki, son günlər Türkiyə parlamenti çox işlər gördü. 16 saat toplantı olubdur, Avropa Birliyi ilə əlaqədar olan qərarların hamısı qəbul edilibdir. Eyni zamanda, noyabrın 3-də erkən seçki keçirəcəksiniz. Bu, ölkəniz üçün xeyirli olsun. Elə olsun ki, bu seçkidən sonra qurulmuş hökumət daha güclü olsun. Bu qərarlarınız Türkiyə üçün həqiqətən çox lazımlı idi. Amma bunu neçə vaxtdır qəbul etmək mümkün olmurdu.

Parlamentdə qəbul edilmiş qərarların çox əhəmiyyətli olduğunu bildirən qonaq vurğuladı ki, əhalinin 80 faizi Avropa ilə işbirliyi qurmaq istəyir. Ümumiyyətlə, bu işlərin nə olduğunu

əhaliyə anlatmaq lazım idi. Keçən həftə bizim üçün tarixi bir həftə oldu.

Azərbaycan prezidenti bu münasibətlə qonağı təbrik edərək dedi ki, mən istərdim siz Azərbaycanla daha yaxın əlaqələr quracasınız, əgər burada bir iş görmək istəsəniz, görə bilərsiniz. Biz Bakı–Tbilisi–Ceyhan boru xəttinin maliyyələşdirmə məsələsini artıq həll etdik. Bu çox böyük məsələ idi. 2 milyard 900 milyon dolların bir hissəsini Türkiyə öz üzərinə götürür. Amma böyük bir hissəsini də Azərbaycan üzərinə götürür. Azərbaycan Dövlət Neft Şirkəti layihənin 25 faizini maliyyələşdirir. Bir həftə bundan öncə mən Fərman imzaladım. İndi biz hazırlaşırıq ki, bu təməl daşı qoymağın gününü müəyyən edək və Bakı–Ceyhanın inşası başlasın.

Ərdal Aksoy dövlətimizin başçısına müraciətlə vurğuladı ki, Siz olmasaydınız, bu layihə baş tutmazdı. İnanın, bu, Türkiyə üçün tarixi bir layihədir. Azərbaycan və Türkiyə qardaşdır, amma bu layihədə Sizin yeriniz tamamilə başqadır. Bu layihə Sizin sayənizdə gerçəkləşdi. İnşallah, bundan sonra qaz kəməri də çəkiləcəkdir.

Prezident Heydər Əliyev bildirdi ki, Azərbaycanda neft layihələri uğurla həyata keçirilir. Biz nefti çıxarıb burada saxlamayacağıq, onu satmaq üçün dünya bazarı lazımdır. Boru kəməri çəkmək üçün yollar çoxdur. Amma mən 1994-cü ildə qərar qəbul etmişəm ki, bu ancaq Bakı–Tbilisi–Ceyhan olacaq və bunun üzərində də 8 ildir çalışıram. Çoxları buna inanmırdı. Hətta bəziləri indi də inanmır ki, bəlkə bu, baş tutmayacaqdır. Maliyyə məsələlərində bizim problemlərimiz var idi. Amma yolunu tapdıq, onu da həll etdik. Bu, Türkiyə üçün, Gürcüstan üçün, təbiidir, Azərbaycan üçün tarixi bir hadisədir və əsrlər

boyu yaşayan bir şeydir. Bu bizim ölkələri bir-birinə daha da sıx bağlayır.

Ərdal Aksoy dövlətimizin başçısına müraciətlə dedi ki, cənab Prezident, bütün türk milləti Sizə minnətdardır. Bu həm siyasi, həm də iqtisadi baxımdan tarixi bir layihədir və inşallah, Sizin sayənizdə tam həyata keçiriləcəkdir.

BOLİVİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB QONSALO SANÇES DE LOSADAYA

Hörmətli cənab Prezident!

Boliviya Respublikasının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Boliviya arasında təşəkkül tapmaqda olan dostluq münasibətləri xalqlarımızın rifahı naminə faydalı əməkdaşlıq üçün geniş imkanlar açacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *6 avqust 2002-ci il*

CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TABO MBEKİYƏ

Hörmətli cənab Prezident!

Afrika İttifaqının təsis edilməsi və bu təşkilatın ilk sədri seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Afrika İttifaqının yaradılması zəngin insan potensialına və təbii sərvətlərə malik Afrika qitəsində sülhün, təhlükəsizliyin, iqtisadi tərəqqinin təmin olunmasına, dövlətlər arasında qarşılıqlı faydalı əməkdaşlığın inkişafına xidmət edəcəkdir.

Sizə işlərinizdə uğurlar, qitənin bütün xalqlarına firavanlıq və əmin-amanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *6 avqust 2002-ci il*

İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİNİN ASİYA, OKEANİYA VƏ MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ ÖLKƏLƏRİ ÜZRƏ MÜAVİNİ MÖHSÜN ƏMİNZADƏNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

Prezident sarayı

6 avqust 2002-ci il

Qonaqları səmimiyyətlə salamlayan Azərbaycan prezidenti Heydər Əliyev son vaxtlar ölkələrimiz arasında müxtəlif səviyyələrdə qarşılıqlı görüşlərin sayının artmasından, müzakirələrin daha mənalı keçməsindən məmnun qaldığını bildirərək dedi ki, İran ilə Azərbaycan arasında əlaqələr yaxşı olmalı və gündən-günə genişlənməlidir. Güman edirəm ki, əməkdaşlığımızı bundan sonra da bu cür davam etdirsək, həll olunmamış məsələləri də həll edə bilərik.

Səmimi qəbul üçün təşəkkür edən cənab Möhsün Əminzadə dövlətimizin başçısına İran prezidenti Xatəminin salamlarını çatdıraraq dedi ki, zati-alinizin ölkəmizə səfəri dövlətlərimiz arasında münasibətlərdə dönüş nöqtəsi idi. Cənab Xatəmi Sizinlə apardığı danışıqlardan və müzakirələrdən çox razıdır. Zati-aliniz mühüm bir ölkənin rəhbəri kimi, bütün bölgədə böyük nüfuza malikdir.

Azərbaycana ilk dəfə gəldiyini söyləyən qonaq İran və Azərbaycan rəhbərliyinin birgə səyləri, əzmi və iradəsi nəticəsində əməkdaşlığın daha da inkişaf edəcəyinə əmin olduğunu bildirdi.

Cənab Əminzadə dedi ki, Azərbaycan bizim üçün mühüm ölkədir. İran İslam Respublikası Azərbaycanla bütün sahələrdə əməkdaşlığı dərinləşdirməyə çalışır. Qarşılıqlı hörmət və bir-birinin daxili işlərinə qarışmamaq prinsipləri üzərində qurulan münasibətlər qonşular arasında etimadı təmin edir. Biz qonşularımız arasında Azərbaycanı mühüm ölkə kimi qiymətləndiririk. Biz Azərbaycanı sabit, tərəqqi edən bir ölkə kimi görmək istəyirik. Sizin təhlükəsizliyiniz bizim təhlükəsizliyimiz və bölgənin təhlükəsizliyi deməkdir. Biz regionda sülh və sabitlik olmasını istəyirik.

Prezident Heydər Əliyev qonağın fikirləri ilə razı olduğunu söyləyərək bildirdi ki, biz, yəni hər iki dövlət və onların başçıları eyni fikirdəyik. Bu fikirlərimizi də mən mayın 18-də Tehranda rəsmi səfərdə olarkən imzaladığımız rəsmi sənədlərdə əks etdirdik. Hesab edirəm, mənim səfərimlə bağlı çox mühüm hadisələrdən biri ondan ibarətdir ki, İran ilə Azərbaycan arasında əlaqələrimizin hüquqi bazasını yaradan dostluq, əməkdaşlıq və təhlükəsizlik haqqında müqavilə imzaladıq. Çox məmnunam ki, bu müqavilə İranla olan əlaqələrimizin bütün sahələrini əhatə etdi. Biz bir çox başqa sənədlər də imzaladıq. Ancaq bu müqavilə bizim gələcək əlaqələrimizin əsasını təşkil edir. Belə müqavilə imzalanandan sonra, təbiidir ki, biz gərək səylərimizi artıraq və bu müqavilədə əks etdirdiyimiz müddəaların hamısını həyata keçirməyə çalışaq. Biz müqavilədə əks olunmuş bütün müddəalara sadiqik və bundan sonra da sadiq olacağıq. Ancaq eyni zamanda, bu müddəaların həyata keçirilməsi çox əhəmiyyətlidir ki, həm siyasi, iqtisadi, həm də hu-

manitar, elmi, mədəni əlaqələrimiz daha da canlansın və genişlənsin.

Dövlətimizin başçısı vurğuladı ki, biz İranı vahid dövlət kimi tanıyırıq. İranın ərazi bütövlüyünü və suverenliyini tanıyırıq və ona hörmət edirik. Biz istəyirik ki, İranda daxili sabitlik, sülh, əmin-amanlıq olsun. Ölkənizin istənilən istiqamətdə inkişaf etdirilməsində sizə heç bir maneçilik olmasın. Bizim imzaladığımız müqavilədə göstərilən prinsiplərdən biri də ölkələrin birbirinin daxili işlərinə qarışmaması prinsipidir. Biz bütün ölkələrlə münasibətlərimizdə, əlaqələrimizdə, xüsusilə də İranla əlaqələrimizdə bunu xüsusi prinsip hesab edirik. Biz bu prinsipə riayət edirik, bundan sonra da riayət edəcəyik. Eləcə də istəyirik ki, bizim daxili işlərimizə heç kəs qarışmasın.

İndi artıq dünyada hamı anlamalıdır ki, ayrı-ayrı ölkələrin daxili işlərinə müdaxilə etmək, yaxud müdaxilə yolu ilə bu ölkələrin daxili quruluşunu dəyişdirmək, ya da hansısa başqa bir tədbir görmək – bunlar tamamilə perspektivsiz işlərdir. Əgər dünyanın hansısa bir ölkəsindən digər bir ölkəyə qarşı belə bir cəhdlər göstərilirsə, biz bunları tamamilə pisləyir və yolverilməz hesab edirik.

Biz istəyirik ki, İran inkişaf etsin. İran böyük dövlətdir və İranın böyük imkanları, iqtisadi potensialı, qədim, çox gözəl tarixi var. Biz istəyirik ki, İran xalqı rahat, rifah, sülh içində yaşasın. Eyni zamanda, bütün ölkələrdən özümüzə qarşı da bu cür münasibət gözləyirik.

Prezident Heydər Əliyev təəssüflə vurğuladı ki, bu baxımdan vəziyyətimizin tamamilə normal olduğunu deyə bilmərik. Çünki Ermənistan 1988-1989-cu illərdən Azərbaycana qarşı təcavüz edibdir, ölkəmizin Dağlıq Qarabağ ərazisinə iddia edibdir, müharibə gedib və müəyyən səbəblərdən Ermənistanın silahlı qüv-

vələri bizim torpaqlarımızı işğal edibdir. Ərazimizin təxminən 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu ərazilərdən, o cümlədən Ermənistanın öz ərazisindən zorla çıxarılmış və indi Azərbaycanda ağır vəziyyətdə yaşayan azərbaycanlıların sayı bir milyona çatır. Belə bir təcavüzkar dövlət, ölkə – Ermənistan heç bir əsası olmadan Dağlıq Qarabağa «respublika» statusu verib və indi orada artıq guya seçki keçirirlər. Seçki yolu ilə «dövlət başçısı» seçmək istəyirlər. Biz bunlara qəti etiraz etmişik və edirik. Bizim Xarici İşlər Nazirliyinin bəyanatı var. Biz bu barədə həm Birləşmiş Millətlər Təşkilatı ilə, Təhlükəsizlik Şurası, BMT-nin Baş katibi ilə, həm də Avropa Birliyi ilə və başqa beynəlxalq təşkilatlarla əlaqə saxlamışıq. Onlar Dağlıq Qarabağda seçkilər keçirilməsini qanunsuz hesab edirlər. BMT-nin Baş katibi Koffi Annan bunu bizim yazdığımız məktuba cavab olaraq bildiribdir və bu, mətbuatda dərc olunmuşdur.

Avropa Birliyi bu barədə məlumat veribdir ki, o belə «respublika» və orada keçiriləcək seçkiləri tanımır. Bir çox başqa dövlətlər və beynəlxalq təşkilatlar da bunu bildiriblər. Güman edirəm, bizim bölgəmizdəki bu qanunsuz hərəkətlərə dostlarımızın hamısı münasibətlərini bildirməlidirlər.

1994-cü ilin may ayından biz atəşi dayandırmışıq, danışıqlar aparırıq və məsələni sülh yolu ilə həll etmək istəyirik. ATƏT bu barədə çox böyük işlər görür. ATƏT-in Minsk qrupu var, onun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadır, onlar da çox işlər görürlər. Ancaq təəssüflər olsun ki, Ermənistan bütün beynəlxalq təşkilatların qərarlarına etinasızlıq göstərir, onları yerinə yetirmir. Bizim sülhsevər siyasətimiz, çox ədalətli təkliflərimiz, cəhdlərimiz, təəssüf ki, Ermənistan tərəfindən hələ ki, qəbul olunmur.

Bilirsiniz ki, son illərdə ATƏT-in Minsk qrupunun bir neçə təklifinə biz razılıq verəndən sonra, ermənilər bunlardan imtina etmişlər. Biz isə məsələni sülh yolu ilə həll etmək üçün bütün imkanlardan istifadə etməyə çalışırıq.

O cümlədən son illər Ermənistan prezidenti ilə Azərbaycan prezidenti arasında bilavasitə görüşlər və danışıqlar sistemi də yaranıbdır. Bu görüşlərdə biz bir çox məsələləri müzakirə etmişik. Bəzi kompromislər haqqında fikir mübadiləsi aparmışıq. Ancaq hələ ki, bir nəticə əldə olunmayıbdır.

Bu ayın 14-də mən Ermənistan–Azərbaycan sərhədində, Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda Ermənistan prezidenti Köçəryanla görüşəcəyəm. Yəni indi yenə bir cəhd göstəririk ki, nəticə əldə edək. Bunların hamısını siz bilirsiniz, mən Tehranda olanda prezident cənab Xatəmiyə bu barədə çox geniş məlumat vermişəm. Siz Ermənistanla sıx əməkdaşlıq edirsiniz. Cənab Xatəmi dedi ki, İran da münaqişənin həll olunması üçün öz səylərini göstərə bilər. Ermənistanla çox geniş iqtisadi əlaqələr saxladığına görə, İran ona təsir etməlidir. Çünki Ermənistan bütün beynəlxalq qanunları pozur və ədalətsiz mövqedə durur, təcavüzkardır. Biz öz sülhsevər siyasətimizi davam etdiririk. Eyni zamanda, torpaqlarımızın işğal altında qalmasına da artıq dözə bilmirik. Ona görə də bu məsələlər üzərində ciddi düşünürük.

Beləliklə, mən demək istəyirəm ki, dövlətlər, qonşu dövlətlər gərək bir-birinin işlərinə qarışmasın, bir-birinin torpağına göz dikməsin, təcavüzkarlıq etməsin. Təbiidir ki, bir dövlət güclü, digəri ondan zəif ola bilər. Bu o demək deyildir ki, güclü dövlət zəif dövləti əzməlidir. Təbiidir, Ermənistanı Azərbaycanla müqayisə edəndə, biz onlardan zəif deyildik. Amma o illərdə Sovet İttifaqının rəhbərliyinin Ermənistana dəstəyinə görə və erməni

diasporunun köməyinə görə, bəzi başqa səbəblərə görə onlar bizim torpaqlarımızı işğal edə bildilər. Ancaq indi müstəqil Azərbaycan ilə Ermənistan bir-biri ilə müharibə aparsa, deyə bilmərik ki, biz onlardan gücsüzük. Mən güclü-gücsüz məsələsini ümumiyyətlə deyirəm. Çünki dünyada dövlətlərin hamısı eyni gücə malik deyildir. İran kiçik dövlətlərə nisbətən güclü dövlətdir. Amma İrandan da güclü dövlətlər var. Elədirmi? Gərək heç bir güclü dövlət özündən kiçik, yaxud hərbi cəhətdən zəif dövlətə təcavüz etməsin. Təcavüzkarlıq, özlüyündə ən böyük cinayətdir.

Bir sözlə, gərək hamı sülh yolu ilə getsin. Biz bu yolla gedirik. İran ilə əlaqələrimiz indi elə qurulubdur ki, güman edirəm, İran da, biz də eyni yolla – sülh yolu ilə gedirik.

Möhsün Əminzadə dedi ki, zati-alinizin də yaxşı bildiyi kimi, ölkəmiz uzun əsrlər boyu yadellilərin müdaxiləsindən zərər görmüşdür, biz ölkəmizdə inqilab etməklə başqalarının daxili işlərimizə müdaxilə yolunu bağlamağa və müstəqil ölkə qurmağa çalışmışıq. İstəyirik ki, heç kəs bizim daxili işlərimizə qarışmasın. Özümüz də heç bir ölkənin daxili işlərinə qarışmaq istəmirik. Öz ərazi bütövlüyümüzə və suverenliyimizə hörmətlə yanaşdığımız kimi, başqalarının, xüsusilə qonşularımızın da suverenliyinə hörmət edirik.

Nümayəndə heyətinin başçısı bildirdi ki, İran Azərbaycanın ərazi bütövlüyünü müdafiə etmişdir və indi də edir. Biz bu mühüm prinsipə zidd istənilən hərəkəti pisləyirik, rədd edirik. Bu fikirdəyik ki, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycan xalqının maraqları və mənafeyi nəzərə alınmalıdır. Sizin müzakirələrə əsaslanan siyasətinizi yüksək qiymətləndiririk. Münaqişənin tezliklə aradan qaldırılmasını və regionda sülhün,

sabitliyin bərqərar edilməsini istəyirik və bu yolda səylərimizi əsirgəməyəcəyik.

Cənab Əminzadə dedi ki, son vaxtlar Minsk qrupu İranı məsləhətləşmələrə dəvət etmişdir. Bizim nümayəndəmiz Parisdə Minsk qrupunun təmsilçiləri ilə danışıqlar aparmış İranın mövqeyini açıqlamışdır. Biz səylərimizi davam etdirəcəyik və ümidvarıq ki, bu məsələ tezliklə həll olunacaqdır.

Prezident Heydər Əliyev dedi ki, mən iqtisadi məsələlərə toxunmadım, çünki bu gün siz Baş nazirlə görüşmüsünüz. Baş nazir bu görüş, müzakirə etdiyiniz məsələlər haqqında mənə məlumat verdi.

Bu gün Naxçıvanda sizin nazir Əli Sufi ilə Azərbaycanın Iqtisadi Inkişaf naziri Fərhad Əliyev görüşüblər, Naxçıvanla bağlı məsələləri xüsusi müzakirə ediblər. Mən dəfələrlə demişəm, siz gərək Naxçıvanla bağlı məsələlərə daha da yaxından münasibət göstərəsiniz.

XALQ RƏSSAMI TOKAY MƏMMƏDOVA

Hörmətli Tokay Məmmədov!

Sizi – heykəltəraşlıq sənətinin tanınmış nümayəndəsini 75 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz Azərbaycan təsviri sənətini zənginləşdirən qiymətli əsərlərinizlə milli mədəniyyətimizin inkişafında böyük xidmətləri olan görkəmli sənətkarlardansınız. Heykəltəraşlığın müxtəlif janrlarında yaratdığınız əsərlər zəngin bədii ənənələrə malik milli heykəltəraşlıq tarixində özünəməxsus yer tutur.

Siz Azərbaycanın dahi şəxsiyyətlərinin unudulmaz obrazlarını diqqətəlayiq gözəl abidələrə çevirərək mədəniyyət tariximizə həmişəlik həkk etmisiniz. Sənətin əbədi mövzularını bütün dərinliyi ilə əks etdirən əsərləriniz Azərbaycan heykəltəraşlığının gözəl və kamil nümunələridir. Öz bədii-estetik təsir gücü, plastik formaların rəngarəngliyi və milli koloriti ilə seçilən bu monumental abidələr insanlara xoş duyğular aşılayır.

Bakının küçə və meydanlarını bəzəyən abidələriniz paytaxtımızın görkəminin ayrılmaz hissəsinə çevrilərək onu daha da gözəlləşdirir, milli-mədəni irsə dərin ehtiram və məhəbbət duyğuları oyadır. Bu, doğma torpağa, xalqına bağlı olan sənətkar kimi, Sizin müstəqil Azərbaycanımıza, onun mədəniyyətinin çiçəklənməsi naminə verdiyiniz əvəzsiz töhfədir.

Ölkəmizdə gənc heykəltəraşlar nəslinin yetişdirilməsi işinə xidmət edən pedaqoji fəaliyyətiniz də təqdirəlayiqdir. Siz böyük sənət yolunda əldə etdiyiniz zəngin təcrübəni gənc iste-

dadlarla həvəslə bölüşürsünüz. Dünyanın bir çox ölkələrində təşkil edilmiş sərgilərdə nümayiş etdirilən əsərləriniz Azərbaycan mədəniyyətinə şöhrət gətirmişdir.

İnanıram ki, Azərbaycan heykəltəraşlığı xəzinəsinin qızıl fonduna daxil olan bir çox əsəriniz hələ xalqımızın neçə-neçə nəslinin zövqünü oxşayacaq, böyük sənət məktəbinin nümunələri kimi həmişə örnək olacaqdır.

Sizə cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram.

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *7 avqust 2002-ci il*

RUSİYA PREZİDENTİNİN İCRA APARATI RƏHBƏRİNİN MÜAVİNİ CAHAN POLLİYEVADAN, MƏDƏNİYYƏT NAZİRİ MİXAİL ŞVİDKOYDAN VƏ BAŞQA ŞƏXSLƏRDƏN İBARƏT RUSİYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

Prezident sarayı

9 avqust 2002-ci il

Azərbaycan prezidenti Heydər Əliyev qonaqları səmimiyyətlə salamlayaraq vurğuladı ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər bütün istiqamətlərdə, o cümlədən mədəniyyət sahəsində çox dinamik inkişaf edir. Lakin digər sahələrdən fərqli olaraq, Azərbaycan–Rusiya əlaqələri humanitar sahədə daha səmərəli inkişaf edir, belə ki, prezident Heydər Əliyevin dediyi kimi, «mədəniyyətin sərhədi yoxdur».

Rusiyanın mədəniyyət xadimlərinin nümayəndə heyəti ilə hər bir görüş Azərbaycanda böyük maraq doğurur, Rusiya artistləri vaxtaşırı ölkəmizdə qastrollarda olur və müxtəlif tədbirlər həyata keçirilir. Azərbaycan prezidenti Rusiya estradasının ulduzu Alla Puqaçovanın Bakıda konsertinin uğurla keçdiyini xatırladaraq bildirdi ki, ölkələrimizin mədəniyyət nazirliklərinin rəhbərliyi arasındakı sıx əlaqələrin də mədəni əməkdaşlığın inkişafı üçün böyük əhəmiyyəti var.

Cahan Polliyeva səmimi qəbula görə təşəkkürünü bildirərək dedi ki, Azərbaycanın və Rusiyanın mədəniyyət nazirlikləri ara-

sında yaranmış əməkdaşlıq əlaqələri həm nəticələrinə, həm də intensivliyinə görə müstəsnadır. O bildirdi ki, Bakıda Mədəniyyət Nazirliyində keçirilmiş görüşlərdə Rusiya kinematoqrafçılarının son əsərlərinin payızda Azərbaycan paytaxtında nümayiş etdirilməsi haqqında saziş əldə olunmuşdur.

Rusiya Federasiyasının Mədəniyyət naziri Mixail Şvidkoy Azərbaycan Mədəniyyət Nazirliyinin rəhbərliyi ilə keçirilmiş görüşlərin əsas cəhətlərindən danışaraq dedi ki, indiki Rusiya şəraitində müsbət azərbaycanlı obrazının hansı yollarla yaradılması barədə ətraflı söhbət getdi. Rusiyalılar Azərbaycan prezidenti Heydər Əliyevin simasında azərbaycanlılar haqqında müsbət təsəvvürə malikdirlər. Bununla belə, diaspor məişət səviyyəsində müəyyən problemlərlə qarşılaşır. Nazirin fikrincə, Rusiyanın ictimai həyatında mövcud olan bəzi mənfi halları bir sıra mədəni tədbirlər keçirməklə dəyişdirmək olar.

Mixail Şvıdkoy Azərbaycandakı rus diasporunun və rusdilli vətəndaşların vəziyyətinə toxunaraq bildirdi ki, onlar MDB-nin hər hansı bir ölkəsindəkindən daha yaxşı yaşayırlar.

Nazir 2003-cü ildə Rusiyada keçiriləcək Azərbaycan mədəniyyəti günlərindən danışaraq dedi ki, tədbiri aprel ayında Sankt-Peterburqda keçirmək və şəhərin 300 illiyinə həsr etmək barədə razılıq əldə olunmuşdur. Cənab Şvıdkoy xüsusi vurğuladı ki, Sankt-Peterburqdakı Azərbaycan diasporu çox mütəşəkkildir, bu ilin yayında orada Nizami Gəncəvinin abidəsinin açılışında iştirak edərkən Azərbaycan prezidenti də buna əmin olmuşdur.

Rusiya mütəxəssisləri kinoprokatın və kino sənayesinin inkişafına dair proqram hazırlamaqda azərbaycanlı həmkarlarına kömək etmişlər.

Mixail Şvıdkoy Azərbaycanın Mədəniyyət naziri ilə birgə bu proqramın əsas istiqamətləri haqqında məlumat vermək arzu-

sunda olduğunu bildirdi. Onun fikrincə, ölkələrimizin qarşılıqlı kino bazarının açılması Azərbaycanda və Rusiyada kinematoqrafiyanın inkişafına təkan verəcəkdir.

Rusiyanın Mədəniyyət naziri regional TÜRKSOY təşkilatinin sədri olan Azərbaycanın Rusiya ilə türk dünyası arasındakı vasitəçilik rolunun böyük əhəmiyyətini xüsusi vurğulayaraq bildirdi ki, həm də türkdilli ölkə olan Rusiya bu təşkilata daxil olmaq fikrindədir.

Nazir Azərbaycanın görkəmli musiqi xadimləri Fikrət Əmirovun, Niyazinin, Qara Qarayevin Moskvada yubiley tədbirlərinin, habelə rəssam Sakit Məmmədovun sərgisinin keçirilməsinin planlaşdırılması barədə məlumat verdi. O dedi ki, ilk növbədə prezident Heydər Əliyev tərəfindən yaradılmış etimad şəraitini və Azərbaycan rəhbərinin Rusiya prezidenti Vladimir Putinlə əlaqələri sayəsində iki ölkə arasında yaranmış yeni münasibətləri Rusiyada yüksək qiymətləndirirlər.

Prezident Heydər Əliyev bildirdi ki, mədəniyyət sahəsində bərqərar olmuş qarşılıqlı münasibətlərin qədrini bilmək, onları qorumaq və inkişaf etdirmək lazımdır. Dövlətimizin başçısı xatırlatdı ki, bu il sentyabr ayının əvvəllərində Azərbaycanda Müslüm Maqomayevin yubileyi qeyd olunacaqdır. Tədbirlər planı hazırlanmışdır, Rusiya artistlərinin böyük nümayəndə heyətinin gəlişi gözlənilir. Azərbaycan prezidenti müğənninin yaradıcılığından danışaraq prezident Vladimir Putinin belə bir sözünü də xatırlatdı ki, «onun kimə – Rusiyaya və yaxud Azərbaycana məxsus olduğunu demək çox çətindir».

Prezident Heydər Əliyev bəyan etdi ki, Azərbaycanla Rusiya arasında dövlətlərarası münasibətlərin, o cümlədən mədəniyyət sahəsində əlaqələrin gələcəkdə də inkişafına yönəlmiş hər bir addımı, hər bir təklifi dəstəkləyir.

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇAN DIK LIONQA

Hörmətli cənab Prezident!

Vyetnam Sosialist Respublikasının prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında təşəkkül tapmaqda olan dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Vyetnam xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

Hörmətlə,

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *9 avqust 2002-ci il*

NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ

10 avqust 2002-ci il

H e y d ə r Ə l i y e v: Mənim səfərimin proqramı məlumdur. Avqustun 14-də sərhəddə, Sədərəkdə Ermənistan prezidenti Köçəryan ilə mənim aramda görüş olacaqdır. Ancaq ona qədər Naxçıvanda bir neçə tədbirlər həyata keçirmək planlaşdırmışam. Birincisi, Naxçıvanın yeni hava limanının tikilməsidir. Sabah oraya mütəxəssislər, lazımi adamlar gələcəklər. Orada bu məsələni müzakirə edəcəyəm, layihəyə baxacağam və yəqin qərar qəbul edəcəyəm ki, yeni müasir, dünya standartlarına cavab verən, dünyanın hər bir ölkəsi ilə əlaqə saxlamaq imkanı olan hava limanı tikilsin.

İkincisi, sizə məlumdur ki, mən sərəncam vermişəm, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan şöbəsini yaratmışam. Bu çox mühüm məsələdir. Orada bir neçə institut yaranacaq və onlar Naxçıvanın qədim tarixini, etnoqrafiyasını, təbii sərvətlərini, tarixi abidələrini öyrənməlidirlər. Çünki Naxçıvan Azərbaycanın çox qədim bir hissəsidir. Amma təəssüflər olsun ki, indiyə qədər orada həm tarixi nöqteyi-nəzərdən, həm də Naxçıvanın sərvətlərinin müəyyən edilməsi nöqteyi-nəzərindən lazımi iş görülməyibdir. Ona görə Milli

Elmlər Akademiyasının bir qrup nümayəndəsi oraya gedir. Bu məsələləri onlarla müzakirə edəcəyəm.

Üçüncü məsələ də odur ki, hələ 1981-ci ildə, mən burada işləyərkən biz Naxçıvanda Vayxır çayı üzərində böyük bir bənd tikib su anbarı yaratmaq barədə layihə hazırlamışdıq və həmin il bəndin inşasına başlanmışdı. Mən 1982-ci ilin sonunda Moskvaya getdim. O vaxta qədər, ondan sonrakı bir-iki ildə də xeyli iş görülmüşdü. Ancaq təəssüflər olsun ki, o, yarımçıq qalıbdır. Bu da çox mühüm əhəmiyyət kəsb edir. Çünki Naxçıvanda su qıtlığı var. Dağlardan çaylar çox gəlir, amma aran hissədə torpaqlarımızın suvarılması lazımi qədər təmin olunmur. Bir də, ümumiyyətlə, 1981-ci ildə başlanmış işi o vəziyyətdə saxlamaq olmaz. Mən keçən dəfə orada olanda bu məsələni müzakirə etmişdim. İndi orada böyük tədbirlər görmək lazımdır. Orada həm yerində, bənddə olacağam, həm də mütəxəssislərlə müzakirə edəcəyəm. Güman edirəm ki, onun daha sürətlə tikintisinə başlanması haqqında qərar qəbul edəcəyəm. Əsas bu məsələlərlə məşğul olacağam. Ola bilər başqa məsələlər də ortaya çıxacaqdır.

S u a l: Cənab Prezident, Ermənistan prezidenti ilə görüşünüzün təşəbbüsçüsü kimdir–Siz, yoxsa Robert Köçəryan? Görüşdə ATƏT-in Minsk qrupunun təklif etdiyi hansısa ideyalar müzakirə olunacaq, yoxsa prezidentlər özləri bütün variantları müzakirə edəcəklər?

C a v a b: Bilirsiniz, təşəbbüsçüsü deyəndə, burada həm o tərəf təşəbbüsçüdür, həm də bu tərəf. Bizə bir neçə dəfə təklif olunmuşdu ki, görüşmək lazımdır. Biz son dəfə 9 ay bundan öncə görüşmüşük. Köçəryan da bəyan etmişdi ki, yaxın vaxtlarda görüşmək lazımdır. Mən də demişdim. Hətta mən demişdim ki, iyun ayında görüşmək lazımdır. Ancaq imkanım

olmadı. Sonra Minsk qrupundan mənə dedilər ki, Köçəryan bir neçə dəfə təşəbbüs göstəribdir, indi yəqin ki, Siz təşəbbüs göstərməlisiniz. Çünki həqiqətən də bu belədir. Mən də təşəbbüs göstərdim və avqustun 14-nə görüş təyin olundu. Burada elə bir qeyri-adi şey yoxdur. Amma nə müzakirə edəcəyimizə gəldikdə isə, görüşəndə çox şey müzakirə olunacaqdır.

S u a l: Cənab Prezident, Ağdam bölgəsində atəşkəsin pozulmasını danışıq prosesinə təzyiq kimi qiymətləndirmək olarmı?

C a v a b: Bilirsiniz, bu şeyləri şişirtmək lazım deyildir. Amma bunu şişirdirsiniz. Mən bilmirəm, sən haradansan?

J u r n a l i s t: «Saman yolu» televiziyasından.

H e y d ə r Ə l i y e v: Sən də bir az düz yola gəl. Bizim müxalifət adamlarının təsiri altına düşmə.

J u r n a l i s t: Atəşkəsin ermənilər tərəfindən pozulmasını deyirəm.

H e y d ə r Ə l i y e v: Qulaq as, axı sən niyə deyirsən ki, atəşkəs pozulubdur? Axı, kim dedi ki, atəşkəs pozulubdur.

J u r n a l i s t: Müdafiə Nazirliyinin məlumatında belə deyilir.

H e y d ə r Ə l i y e v: Müdafiə naziri deməyib ki, atəşkəs pozulubdur. Bilirsiniz, müxalifətdən bir nəfər bu damğanı vurur, ondan sonra hamınız götürüb bunu təkrar edirsiniz. Siz anlayın, başa düşün, hamınıza deyirəm, bütün Azərbaycan xalqına deyirəm: dünya praktikasında indiyə qədər olmayan şeydir ki, bir neçə il müharibə aparmış iki dövlət müharibə nəticəsində böyük itkilər verildiyi, Azərbaycan torpaqlarının bir qisminin işğal olunduğu halda 1994-cü ildə atəşkəs barədə qərara gəlmişdir.

Bəli, onda cəhd var idi ki, buraya Rusiyanın sülhyaratma güvvələri gəlsinlər, bizim aramızda dursunlar. Mən bunu qə-

bul etmədim. Ermənistanla o vaxt danışdıq ki, biz özümüz bunu təmin edəcəyik. Özümüz də təmin edirik. Bu, dünyada analoqu olmayan bir şeydir. Bu, təkcə bizim xidmətimiz deyil, Ermənistan tərəfinin də xidmətidir. Demək, bu onu göstərir ki, Ermənistan tərəfi də istəyir ki, atəşkəs olsun, biz də istəyirik. Bunu heç kəs pozmur. Amma sərhəddə, siz təsəvvür edin – sən get o sərhəddə, səngərlərin içində 3-4 gün ol, onda görərsən orada nə cürdür – erməni əsgərləri ilə Azərbaycan əsgərləri bir-birindən 100 metr məsafədə üz-üzə durublar. Biri səngərdən başını çaxardanda snayper vurur. Oradan da çıxaranda bizimkilər vurur. Bu, keçən illər çox olmuşdu. İldə təxminən 250–300 nəfəri bu tərəfdən də, o tərəfdən də vururdular. Haradan çox, haradan az, onu deyə bilmərəm.

Biz danışdıq, mən göstəriş verdim, Köçəryan da. Bizim müdafiə nazirləri sərhəddə görüşdülər, danışdılar ki, bunların qarşısı alınsın. Bunun qarşısını almaq bizim ümumi siyasətimizdir. Amma cavan bir əsgər orada durub, o birisi başını çıxaranda həvəslidir ki, atım, görüm vura biləcəyəm, yoxsa yox. Vurdu. Ağdam istiqamətində belə bir şey olubdur. Bizim bir zabiti, deyəsən, baş leytenantı vurublar. Sonra iki əsgər onun meyitini götürmək istəyəndə onlara da güllə atıblar, qıçlarından yaralanıblar. Bu, atəşkəsin pozulmasıdırmı? Amma o dəqiqə bizim bu özəl televiziyalar yayır, qatı müxalifət qəzetləri böyük başlıqla yazır ki, atəşkəs pozuldu. Bunlar hamısı yalan şeylərdir. Ona görə də siz ağlınızı başınıza yığın. Ümumiyyətlə, Ermənistan–Azərbaycan münasibətlərinə aid belə səhvlər buraxmayın. İndi bizim daxilimizdə nə edirsiniz, edin. Nə bilim, prezidenti təhqir edirsiniz, söyürsünüz, nalayiq sözlər deyirsiniz. Bununla öz mənəviyyatsızlıqlarını göstərirlər. Mən bunu sizə demirəm, həmin bu işləri edənlərə

deyirəm. Edin, demokratiyadır. Amma başa düşün ki, biz burada, necə deyərlər, ülgücün üstündə durmuşuq. Atəşkəsin pozulması nə bizə, nə də Ermənistana lazım deyildir. Amma, əlbəttə, cürbəcür fitnəkarlıq ola bilər – üç gün pozuldu, iki gün pozuldu. Onu aradan qaldırmaq üçün 10 gün lazımdır.

S u a l: Cənab Prezident, son vaxtlar İranın Minsk qrupu səviyyəsində məsləhətləşmələrə cəlb olunması Mehri variantı ilə bağlıdır?

C a v a b: Yox, onunla bağlı deyildir. Onun əsas təşəbbüskarı Ermənistandır. Ermənistan bir neçə dəfə deyib ki, İran da bizim bölgədədir, qoy bunu onlar da bilsinlər. Minsk qrupu da Parisdə İranın nümayəndəsi ilə görüşübdür, onu məlumatlandırıbdır.

S u a l: Cənab Prezident, Sizcə Ermənistandakı siyasi böhran onun mövqeyinə təsir edə bilərmi?

C a v a b: Mən Ermənistandakı siyasi böhranı bilmirəm və buna qarışmaq da istəmirəm.

S u a l: Cənab Prezident, Gürcüstanda vəziyyət gərginləşibdir. Bakı–Ceyhanın reallaşması ərəfəsində bu Sizin narahatlığınıza səbəb olurmu?

C a v a b: Yox, narahat deyiləm. Onlardan heç bir şey ola bilməz. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NAXÇIVANA SƏFƏRİ

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev avqustun 10-da Naxçıvana gəlmişdir.

Respublikamızın dövlət bayraqları, Azərbaycan prezidentinin portretləri ilə bəzədilmiş Naxçıvan hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Heydər Əliyevi təyyarənin pilləkəni yanında muxtar respublika Ali Məclisinin sədri Vasif Talıbov, digər rəsmi şəxslər, ictimaiyyətin nümayəndələri səmimiyyətlə qarşıladılar. Milli geyimli qızlar Azərbaycan prezidentinə gül-çiçək dəstəsi təqdim etdilər.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının prezidenti, Ali Baş Komandan Heydər Əliyevə raport verdi. Dövlətimizin başçısı fəxri qarovul dəstəsinin qarşısından keçdi, Azərbaycan əsgərlərini salamladı.

Prezident Heydər Əliyev muxtar respublikanin rəhbər işçiləri, Ali Məclisin deputatları ilə görüşdü. Respublikamızın rəhbərinə şərbət təqdim olundu.

Hava limanına Naxçıvanın minlərlə sakini toplaşmışdı. Azərbaycan prezidenti onlara yaxınlaşaraq, qədim diyarın nümayəndələrini səmimiyyətlə salamladı. Naxçıvanlılar dövlətimizin başçısını hərarətlə alqışladılar və qısa müddətdə ikinci dəfə muxtar respublikaya səfər etdiyinə görə minnətdarlıqlarını bildirdilər.

Azərbaycan prezidenti Heydər Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.

* * *

Azərbaycan prezidenti Heydər Əliyev həmin gün axşam Naxçıvan şəhərinə gəzintiyə çıxdı. Dövlətimizin başçısı əvvəlcə Heydər Əliyev adına uşaq və gənclər parkına gəldi. Muxtar respublika paytaxtının minlərlə sakini Azərbaycan prezidenti ilə görüşmək üçün buraya toplaşmışdı. Onlar prezidenti hərarətli alqışlarla, mehribanlıqla qarşıladılar. Prezident Heydər Əliyev şəhər sakinləri ilə səmimiyyətlə görüşüb söhbət etdi. Uşaqlar prezidentə, vətənə həsr olunmuş şeirlər söylədilər.

Prezident daha sonra Heydər Əliyev Muzeyinin qarşısına gəldi, buradakı parkı seyr etdi.

Muxtar respublikanın paytaxtında gəzinti «Əcəmi» seyrəngahında başa çatdı. Naxçıvanın yüzlərlə sakini burada Azərbaycan prezidentini böyük səmimiyyətlə salamladı, dövlətimizin başçısına dərin hörmət və ehtiramını bildirdi. Prezident Heydər Əliyev şəhər sakinləri ilə mehribanlıqla söhbət etdi.

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNDƏ KEÇİRİLƏN MÜŞAVİRƏDƏ NİTQ

11 avqust 2002-ci il

Naxçıvan Muxtar Respublikasının problemləri çoxdur. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan vaxtilə respublikamıza edilən qəsd nəticəsində – mən bunu dəfələrlə demişəm – Azərbaycanın əsas, böyük ərazisindən bir az ayrı düşübdür.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başlayandan da Naxçıvan blokada şəraitindədir. İndi də belədir. Dəmir yolu rabitəsi kəsilib, qaz xətləri o vaxt kəsildi, elektrik xətləri kəsildi. Burada o vaxtdan işləyən adamların hamısı bunu xatırlayır. Onda mən də burada idim. Ancaq biz bunlardan o qədər də sarsılmadıq. Doğrudur, respublikanın əhalisi çox ağır vəziyyətə düşdü. Amma biz vəziyyətdən çıxış yollarını tezliklə axtarıb tapdıq. Türkiyədən, İrandan elektrik xətləri çəkdirdik, başqa işləri gördük. Xüsusən Bakı ilə Naxçıvan arasında hava yolunu daha da genişləndirdik. Eyni zamanda, İran ərazisindən avtomobil nəqliyyatının Naxçıvana və Naxçıvandan Azərbaycanın müxtəlif yerlərinə, o cümlədən Bakıya hərəkətini təmin edə bildik.

Blokada şəraitinə baxmayaraq, son dövrdə, yəni təxminən 1994-1995-ci illərdən sonra Naxçıvanda sosial-iqtisadi inkişaf vardır. Muxtar Respublika, onun iqtisadiyyatı inkişaf edir,

quruculuq işləri gedir. Naxçıvan şəhəri abadlaşıb, onun siması çox dəyişibdir. Naxçıvanın əskidən, keçmişdən çox gözəl, özünəməxsus siması var. Onun memarlıq abidələri, ümumiyyətlə, şəhər quruluşu var. Əgər insanlar onları öyrənə bilsələr, görərlər ki, Naxçıvanda hələ qədim zamanlardan şəhərin planlaşdırılması, küçələrin, evlərin, məhəllələrin yerləşdirilməsi xaotik olmayıb, çox əsaslı olubdur. Əksinə, bu xaotiklik bizim dövrümüzdə, xüsusən 1988-1989-cu illərdən sonrakı dövrdə olubdur. Amma keçmişi götürsək – mən o vaxt Naxçıvanda yaşayan adamlardan biriyəm – Naxçıvanın küçələri çox ağılla qurulmuşdu. Məsələn, Puşkin küçəsini götürsəniz, o, Əlixan məhəlləsindən başlayıb Şahab məhəlləsi qurtarana qədər uzanan prospekt kimi böyük küçədir. Amma onu kəsən kücələr də vardı. Bir neçə kücə onu perpendikulyar olaraq kəsirdi. Amma Əlixan məhəlləsindən Şahab məhəlləsinə gedən təkcə Puşkin küçəsi deyildi. Onunla paralel küçələr də vardı.

Memarlıq nöqteyi-nəzərindən 1930-40-cı illəri xatırlayarkən mən həmişə düşünürəm ki, vaxtilə şəhərin salınmasında, – baxmayaraq ki, o dövrdə nə Dövlət Plan Komitəsi vardı, nə də dövlət vardı, – Naxçıvanda şəhərsalma qanunlarına nə qədər riayət olunubdur.

1970–80-ci illərdə biz Naxçıvanda çox böyük inşaat, quruculuq işləri apardıq. Yeni mikrorayonlar salındı, yaşayış binaları, sənaye müəssisələri tikildi. Bu işlərin də hamısı müəyyən şəhərsalma qanunlarına uyğun olaraq görüldü. Yəni bununla onu demək istəyirəm ki, Naxçıvanda keçmişdən, kökündən hər şey düzgün qurulubdur. Ancaq müstəqillik dövründə keçid illəri çox ağır olmuşdur. 1991-ci ilin sentyabrında biz burada birlikdə işə başladıq. Amma o illər çox ağır illər

idi. Ondan sonrakı dövrdə – 1993, 1994,1995-ci illərdə Azərbaycanda ictimai-siyasi sabitliyi təmin etmək, iqtisadiyyatın tənəzzülünün, bir çox mənfi halların qarşısını almaq lazım idi. Biz bunları etdik.

1995-1996-ci illərdən, ümumiyyətlə, Azərbaycanda inkişaf başladı. İndi inkişaf da çox yüksəkdir. Baxmayaraq ki, problemlərimiz var, amma biz çox yüksək göstəricilər əldə edirik. MDB dövlətləri ilə müqayisə etsək, onların bizim kimi problemləri yoxdur, bu ölkələrdən heç birinin ərazisinin bir qismi, təxminən 20 faizi işğal olunmayıbdır. Bu respublikaların heç birində 1 milyon qaçqın, çadırlarda yaşayan insanları yoxdur. Bəzilərində var, amma bunu heç müqayisə etmək mümkün deyildir. Bunlara baxmayaraq, Azərbaycanın iqtisadiyyatı hər il inkişaf edir. Bu ilin 7 ayı qurtarıbdır, 8-ci ayındayıq, büdcə yerinə yetirilir. Ümumi daxili məhsul 8–10 faiz, kənd təsərrüfatı istehsalı təxminən 8–10 faiz, sənaye istehsalı təxminən 5 faiz artıbdır. Mən təxmini deyirəm, bir az o yan, bu yan ola bilər, çünki bu, ilin axırında yekunlaşacaqdır. Özəlləşdirmə həyata keçirilir və biz onun nəticələrini görürük. Bunların hamısı Azərbaycanda böyük dəyişikliklər meydana gətiribdir. Naxçıvan da Azərbaycanın ayrılmaz hissəsi olaraq bu inkişaf yolu ilə gedir. Ancaq Naxçıvanın çətinliyi bir də ondan ibarətdir ki, Azərbaycanın başqa yerləri, xüsusən də paytaxtı ilə nəqliyyat-kommunikasiya əlaqələri, demək olar, çox ağır vəziyyətdədir. Mən indi dedim, biz müəyyən yollar tapmışıq. Ancaq insanların Naxçıvandan başqa yerlərə, xüsusən Bakıya, digər şəhərlərə getməsi, əsasən hava yolu vasitəsilə təmin olunur. Bilirsiniz ki, hava yolları ilə də gündə 5-6 təyyarə uçur. Elədirmi?

C a h a n g i r Ə s g ə r o v («*Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş direktoru*): Cənab Prezident, hər gün 4–6 təyyarə uçur.

H e y d ə r Ə l i y e v: Gündə 4–6 təyyarə uçur, insanlar bundan istifadə edirlər. Ancaq mən bunu deyəsən, keçən dəfə demişdim, bir də demək istəyirəm. Biz «Azərbaycan Hava Yolları» konserninə ildə 45 milyard manat subsidiya veririk. Bütün başqa reyslərdə uçuş qiyməti konsernin sərf etdiyi xərclərlə, başqa iqtisadi göstəricilərlə tənzimlənir. Amma burada da belə olsa, sizin təyyarə biletlərinin qiyməti iki dəfə artıq olacaq, elədirmi?

C a h a n g i r Ə s g ə r o v: 2-3 dəfə artıq olacaqdır.

H e y d ə r Ə l i y e v: 2-3 dəfə artıq olacaqdır. Mən də buna imkan vermirəm. Çünki hesab edirəm ki, Naxçıvanda yaşayan insanların təyyarədən istifadəyə ehtiyacı bütün başqa yerlərdə yaşayan insanlara nisbətən çoxdur. Bizdə dəmir yolu nəqliyyatı indi çox yaxşı işləyir, özü də təkçə Azərbaycan ərazisində yox. Dəmir yolu vasitəsilə Rusiyaya, Ukraynaya, Belarusa gedirlər. Rusiya dedikdə, təkcə Moskva deyil, Rusiyanın başqa şəhərlərinə də gedirlər. İnsanlar bundan çox istifadə edirlər.

Yaxud, avtomobil yolları açıqdır... Bakıdan avtomobilə minib Avropaya qədər gedə bilərsən. Amma Naxçıvanda bu imkanlar yoxdur. Ona görə də mən imkan verməmişəm ki, başqa uçuş reyslərindəki qiymətlər Naxçıvana da tətbiq olunsun. Biz Naxçıvana yardım və konsernin iqtisadi vəziyyətini təmin etmək məqsədi ilə büdcədən ildə 45 milyard manat subsidiya veririk.

Bütün bu çətinliklərə baxmayaraq, Naxçıvanda inkişaf Azərbaycanın başqa bölgələrindən heç də aşağı səviyyədə de-

yil, bəlkə də yuxarıdır. Bu da çox sevindiricidir. Yenə də deyirəm, şəhər çox abadlaşıb, gözəlləşibdir.

Dünən axşam saat 10 idi, çıxdım sizin parklara baxmağa, adam əlindən tərpənə bilmədim. Doğrudur, ola bilər insanların çoxu məni görən kimi toplaşmışdı. Amma, eyni zamanda, mən bilirəm ki, sizin parklarda insanlar axşamçağı, başqa istirahət vaxtları rahat dincəlirlər. Ancaq 1991-1992-ci illərdə, 1993-cü ildə mən də burada yaşayanda bunları düşünmək qətiyyən mümkün deyildi. İnsanlar küçəyə qətiyyən çıxa bilmirdilər. İndi bunları görmək sevindirici haldır.

Naxçıvan inkişaf etməlidir. Muxtar Respublikanın 400 min nəfərə qədər əhalisi var. Əhalinin artımı da yaxşıdır və artmalıdır. Güman edirəm ki, əsl naxçıvanlılar Naxçıvanı qoyub heç yerə getməməlidirlər. Mən indi də deyirəm, əgər o vaxt Azərbaycanda elə ağır vəziyyət olmasaydı və orada mənə böyük ehtiyac olmasaydı, mən Naxçıvandan getməyəcəkdim.

1991-ci ildə mən Naxçıvana o məqsədlə gəlmişdim ki, ömrümün sonuna qədər burada yaşayım. Bu həqiqətdir. Keçmişdə burada atamın bir evi vardı – haradakı mən doğulmuşam, məndən sonrakı qardaşlarım doğulub, biz yaşamışıq, böyümüşük – həmin evin yerində mən özümə ev də tikməyə başladım. Əgər mən buradan getməli olsaydım, niyə ev tikirdim? Elə oldu ki, evi tikib təzəcə köçmüşdüm ki, buradan ayrıldım.

Yəni, demək istəyirəm ki, Naxçıvanı sevənlər Naxçıvanı buraxıb heç yerə getməməlidirlər. Buranın iqlimi çox gözəldir.

Biz dünən gəlmişik, Bakıda da çox isti var, burada da. Hava çox istidir. Amma fərq nədədir? Burada hava qurudur, nəmlik yoxdur. Amma Bakıda bu son 10–15 gün ağır hava var. Ümumiyyətlə, təkçə indi deyil, Bakıda rütubət həmişə

var. Naxçıvanda yaşayan, böyüyən adamlar çox sağlam olurlar. Eyni zamanda keyfiyyətlərinə görə çox yüksək səviyyədə olurlar. Bəziləri də deyirlər ki, naxçivanlılar niyə belədirlər? Bu gözəl dağların ətəklərində yaşayan, bu sərt qayalarla bir yerdə yaşayan insan daha da möhkəmlənir, güclənir. Bu, təbii haldır. Kim istəyir belə olsun, naxçıvanlılar kimi olsun, qoy gəlib Naxçıvanda yaşasın. Bir sözlə – mən bunları təəssüratlarım altında deyirəm, sevinirəm ki, Naxçıvan çiçəklənir və bundan sonra da çiçəklənəcəkdir.

Mən çoxdan bu fikirdə idim ki, Naxçıvan hava limanını yenidən quraq, yəni yeni bir hava limanı tikək. Birincisi, gərək elə edək ki, təyyarələr buradan təkcə Bakıya, Gəncəyə yox, bir çox istiqamətlərə uçsun. İkincisi də, Naxçıvan öz coğrafi vəziyyətinə görə elə yer tutur ki, burada beynəlxalq standartlara uyğun hava limanının olması təkcə Naxçıvan üçün yox, bütün qonşu ölkələr üçün də çox əhəmiyyətli olacaqdır. Bunları nəzərə alaraq mən belə bir qərara gəldim.

«Azərbaycan Hava Yolları» Konserninin Baş direktoru Cahangir Əsgərova göstəriş verdim ki, o bu barədə lazımi mütəxəssislərlə hazırlıq görsün. Onlar hazırlıq görüblər, Bakıda mənə məruzə etdilər, Əsgərov mənə məruzə etdi. Bu gün biz bu işə başlayacağıq, siz də burada iştirak edəcəksiniz, sizsiz olmayacaqdır. Ona görə mən istədim ki, bu gün burada Cahangir Əsgərov məlumat versin. Mən bir də bu məlumatı dinləyim və siz də dinləyəsiniz. Baxaq görək, bəlkə məsləhətləriniz var, utanmayın, çəkinməyin, kimin fikri, məsləhəti olsa, desin. Ondan sonra mən bu hava limanının tikilməsi haqqında qərar qəbul edəcəyəm. İndi Əsgərova söz verirəm.

«Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş direktoru Cahangir Əsgərovun çıxışı

Möhtərəm cənab Prezident, icazənizlə, bizə göstərdiyiniz diqqət və qayğıya görə Azərbaycanın mülki aviasiya işçiləri adından Sizə səmimi-qəlbdən minnətdarlığımızı və təşəkkürümüzü bildirmək istəyirəm. Bugünkü müşavirə bu diqqət və qayğını bir daha sübut edir.

Möhtərəm cənab Prezident, Sizin göstərişinizə əsasən, son iki ayda «Azərbaycan Hava Yolları» Dövlət Konserni tərəfindən Naxçıvan hava limanının tikintisinə dair ilkin konseptual layihə hazırlanmış və Beynəlxalq Mülki Aviasiya təşkilatının tələbləri bu layihədə öz əksini tapmışdır. İcazənizlə, konseptual layihədə nəzərdə tutulan bir sıra işlər haqqında Sizə məlumat verim.

Birincisi, Naxçıvan hava limanında köhnə, istismarda olmayan, uzunluğu 1800 metr, eni 35 metr olan uçuş-enmə zolağında yenidənqurma işləri görülməlidir.

H e y d ə r Ə l i y e v: Necə yəni köhnə, istismarda olmayan?

C a h a n g i r Ə s g ə r o v: Cənab Prezident, köhnə, istismarda olmayan zolağı deyirəm. İndi orada iki zolaq var.

H e y d ə r Ə l i y e v: Biri istismardadır, o biri yox?

C a h a n g i r Ə s g ə r o v: Böyük zolaq istismardadır, kicik zolaq isə istismarda deyildir.

H e y d ə r Ə l i y e v: İstismarda olmayanı böyütmək istəyirsiniz?

C a h a n g i r Ə s g ə r o v: Bəli, istismarda olmayan, eni 35 metr olan uçuş-enmə zolağının yenidən qurulması nəzərdə tutulubdur. İkincisi, indi istismar edilən və 3300 metr uzun-

luğu, 45 metr eni olan uçuş-enmə zolağının tamamilə yenidən tikilməsi nəzərdə tutulur.

Heydər Əliyev: Onların yeni parametrləri nədən ibarət olacaqdır? Əgər eyni ölçüdə qalacaqsa, yəqin ki, bu olmaz.

Cahangir Əsgərov: Cənab Prezident, icazənizlə, mən bütün görüləcək işləri deyim, sonra bunlar barədə bir-bir açıqlama verim.

Heydər Əliyev: Yaxşı.

Cahangir Əsgərov: Saatda 300 sərnişinə xidmət etməyə imkan verən aerovağzal binasının tikintisi nəzərdə tutulur. Bundan əlavə, uçuşları idarəetmə məntəqəsinin, sahəsi 1000 kvadratmetr olan yük terminalının, 8 min tonluq yanacaq anbarının, yanğınsöndürmə binasının, istilik mərkəzinin, su anbarının, aerodrom avadanlığının təmiri üzrə emalatxana binasının tikintisi, vağzalyanı meydanda 250 avtomobil üçün dayanacağın inşası planlaşdırılır.

Heydər Əliyev: Mən layihənin maketini buradan yaxşı görürəm. Müşavirə iştirakçıları da görürlərmi?

Vasif Talıbov: (*Naxçıvan MR Ali Məclisinin sədri*): Cənab Prezident, baxıblar.

Heydər Əliyev: Mən maketin arxa tərəfini görürəm, siz isə əsas tərəfini görürsünüz. Buyurun.

Cahangir Əsgərov: Cənab Prezident, biz bu layihədə uçuşların təhlükəsizliyini təmin etmək məqsədi ilə dünyada qəbul edilmiş beynəlxalq standartlara uyğun işlərin aparılmasını nəzərdə tutmuşuq. İcazənizlə, hər bir obyekt barədə açıqlama vermək istəyirəm.

Bu, Naxçıvan hava limanının indiki vəziyyətini göstərən plandır. Köhnə, istismarda olmayan 1800 metr uzunluğunda uçuş-enmə zolağı...

H e y d ə r Ə l i y e v: Onu elə asmısan ki, məndən başqa heç kim görmür.

C a h a n g i r Ə s g ə r o v: Cənab Prezident, ayrı imkan yoxdur. Bu zolağı biz 900 metr uzadacağıq, enini də 10 metr artıracağıq. Yəni həmin zolağın uzunluğu 2700 metrə çatdırılacaqdır.

H e y d ə r Ə l i y e v: İndi onun uzunluğu nə qədərdir?

C a h a n g i r Ə s g ə r o v: 1800 metrdir, 900 metr artırılacaqdır. Uzunluğu 2700, eni də 45 metr olacaqdır. Bu, asfalt-beton zolaq olacaqdır. Əvvəlcə biz bu zolaqda işə başlayacağıq. Naxçıvan hava limanında uçuşları fasiləsiz təmin etmək məqsədi ilə ilk növbədə bu zolağın yenidənqurma işləri görülməlidir. Bunun üçün bizə 5-6 ay vaxt lazımdır. Həmin müddətə biz bu zolaqda işləri tam başa çatdıra bilərik.

Həmin zolağı istismara verdikdən sonra mövcud olan 3300 metr uzunluğundakı böyük zolağın asfalt örtüyünü götürəcəyik, yeni örtük salacağıq. Bu, tamamilə yenidən tikilmiş zolaq olacaqdır. Onun örtüyü monolit betondan olacaqdır. Uzunluğu əvvəlki kimi, 3300 metr qalacaq, bu kifayətdir. Eni də 45 metr olacaqdır. Bu zolağın tikintisi başa çatdırıldıqdan sonra dünyada mövcud olan ən ağır təyyarələri – «Boinq-747» və digər təyyarələri qəbul etməyə imkan yaranacaqdır.

H e y d ə r Ə l i y e v: Ağır yük təyyarələrini qəbul edə biləcəkmi?

C a h a n g i r Ə s g ə r o v: Ağırlığı 400 tondan çox olan təyyarələri qəbul edə biləcəkdir.

H e y d ə r Ə l i y e v: 400 ton?

C a h a n g i r Ə s g ə r o v: Bəli, 400 tondan çox. İstismarda ondan ağır təyyarələr yoxdur.

H e y d ə r Ə l i y e v: Zolağın örtüyü betondan olacaq?

C a h a n g i r Ə s g ə r o v: Cənab Prezident, zolağın örtüyü monolit betondan olacaqdır.

H e y d ə r Ə l i y e v: Müasir aeroportlarda monolit betondan istifadə olunurmu?

C a h a n g i r Ə s g ə r o v: Yox. Bu materialdan çoxdan istifadə olunmur.

H e y d ə r Ə l i y e v: Olunmur?

C a h a n g i r Ə s g ə r o v: Cənab Prezident, uçuş-enmə zolağında işlər İstanbulun Atatürk hava limanında çalışan mühəndislər, inşaatçılar tərəfindən görüləcəkdir. Azərbaycanda bu tipli, yəni monolit beton örtükli uçuş-enmə zolağı ilk dəfə məhz Naxçıvanda olacaqdır.

H e y d ə r Ə l i y e v: Bakıda yoxdur?

C a h a n g i r Ə s g ə r o v: Bakıda, Azərbaycanda yoxdur. MDB ölkələrində də yoxdur. MDB ölkələrində uçuş-enmə zolaqları monolit betondan deyil, beton pilətələrdən salınır.

H e y d ə r Ə l i y e v: Onda bundan sonra Bakıda da olmalıdır...

C a h a n g i r Ə s g ə r o v: Cənab Prezident, inşallah...

Ancaq öncə biz bunu Naxçıvanda edəcəyik. Nə üçün biz bu qərara gəldik? Biz bunu iqlimə görə etdik. Naxçıvanda gecə və gündüz temperaturda çox böyük fərq olur. Asfalt bu temperatur fərqinə dözmür. Asfalt yumşalır, təyyarə qalxıb-enəndən sonra asfalt üzərində dalğavari izlər qoyur. Ona görə də biz uçuş-enmə zolağını monolit betondan etmək istəyirik ki, birdəfəlik olsun, on illərlə bizim üçün problem yaranmasın. Belə olduqda, uçuş-enmə zolağını təmir etməyə ehtiyac qalmayacaqdır.

Beləliklə, cənab Prezident, hava limanında iki uçuş-enmə zolağı yenidən inşa olunacaqdır. Böyük uçuş-enmə zolağı

monolit betonla örtüləcəkdir. İkinci zolağın uzunluğu isə 2700 metr, eni 45 metr olacaqdır. Bu zolağın örtüyü asfalt-betondan olacaqdır.

Cənab Prezident, bundan əlavə, uzunu 468 metr, eni isə 204 metr, sahəsi təxminən 100 min kvadratmetr olan perron inşa ediləcəkdir. Bu perron hazır olandan sonra eyni vaxtda 20 təyyarə qəbul etmək mümkün olacaqdır. Burada 20 təyyarə dayana biləcəkdir.

H e y d ə r Ə l i y e v: Yəni orada təyyarələr dura biləcəklər...

C a h a n g i r Ə s g ə r o v: Böyük təyyarələrdən – «Boinq-747»-dən təxminən 12-ni, amma «Boinq-757», «TU-154» tipli təyyarələrdən isə 20-ni burada saxlamaq mümkündür.

Cənab Prezident, icazə verin, aerovağzal binasının tikintisi məsələsinə keçək. Diqqətinizə təqdim edilən maketdə göstərilən aerovağzal binasının ümumi sahəsi 8 min kvadratmetr olub, iki mərtəbədən ibarətdir. Burada binanın fasad hissəsi, vağzalyanı meydandan görünüşü və perron tərəfdən görünüşü verilmişdir.

Cənab Prezident, ümumi sahəsi 5 min kvadratmetr olan və iki salondan ibarət birinci mərtəbədə eyni vaxtda 300 sərnişinə xidmət göstəriləcəkdir. Dünyada İKAO təşkilatının tələblərinə cavab verən hansı standartlar mövcuddursa, biz bu layihəni onlara uyğun şəkildə hazırlamışıq. Burada giriş hissəsi, sonra gömrük və sərhəd zonası və bir də sərnişinlərin dincəlməsi üçün 2 min kvadratmetr sahəsi olan salon nəzərdə tutulmuşdur. Kafe və mağazalar, yardımçı otaqlar, bir də uçuş meydançasına, perrona keçmək üçün 3 yerdən çıxış olacaqdır. Binanın sağ tərəfində isə yük salonu nəzərdə tutulubdur. Onun təxminən 100 kvadratmetrədək sahəsi olacaq-

dır. Binanın sol tərəfində isə Naxçıvana gələn sərnişinlər üçün salon olacaqdır. Onun sahəsi 2700 kvadratmetrə bərabər olacaqdır. Perrondan eyni vaxtda buraya 3 qapıdan 300-dək sərnişin daxil ola bilər. Sərnişinlər sərhəd nəzarətindən keçdikdən sonra yüklərini almaq üçün böyük bir salona keçəcəklər.

H e y d ə r Ə l i y e v: Deməli, gəliş salonuna buraya gələnlər daxil olacaqdır.

C a h a n g i r Ə s g ə r o v: Bəli, onlar üçündür. Perrondan sərnişinlər buraya daxil olacaqlar. Bu biri tərəfdə isə vağzalyanı meydan yerləşəcəkdir.

H e y d ə r Ə l i y e v: Bəs çıxış?

C a h a n g i r Ə s g ə r o v: Naxçıvana gələn sərnişinlər buradan daxil olacaq, o biri tərəfdən isə çıxacaqlar.

Bakıdakı hava limanında nə varsa, hansı inşaat materiallarından, avadanlıqdan istifadə olunmuşdursa, burada da onlardan istifadə olunacaqdır.

Hava limanında iki baqaj konveyri düzəldiləcəkdir. Sərnişinlər baqajlarını aldıqdan sonra gömrük nəzarətindən keçərək çıxışa doğru gedə biləcəklər. Aerovağzal binasının layihəsi çox gözəl, yığcamdır.

Bir də biz nəzərdə tutmuşuq ki, bütün əməliyyatlar birinci mərtəbədə həyata keçirilsin. Nəzərə almışıq ki, sərnişinlərin yüklə ikinci mərtəbəyə çıxmasına ehtiyac qalmasın, onlara çətinlik törətməsin. Layihənin dəyəri də bununla bağlı olacaqdır. Biz layihənin iqtisadi baxımdan bu cür hazırlanmasını üstün tutduq.

Cənab Prezident, binanın ikinci mərtəbəsində isə hava limanı və avionaviqasiya işçiləri üçün inzibati otaqlar nəzərdə tutulubdur. İkinci mərtəbənin bu hissəsi aeronaviqasiya işçi-

ləri üçündür. Dispetçerlər buradan təyyarələrin havada hərəkətinə nəzarət edəcəklər. Onların iş yerləri müasir dünya standartlarına cavab verəcəkdir. İkinci mərtəbədəki sağ tərəf hava limanının işçiləri üçün ayrılmışdır. Təxminən 80 nəfərə yaxın işçi üçün inzibati otaqlar, iş yerləri olacaqdır. Onların burada normal işləməsi üçün hər cür şərait yaradılacaqdır.

Cənab Prezident, Naxçıvan hava limanını elektrik enerjisi ilə təmin etmək məqsədi ilə burada transformator stansiyası tikiləcək və dizel generatorları quraşdırılacaqdır. Transformator stansiyası 1000 kilovat gücündə nəzərdə tutulubdur. Bu, böyük yarımstansiya olacaqdır, burada bir stansiya tikiləcəkdir. Elektrik enerji buradan həm aerovağzala, həm də o biri obyektlərə veriləcəkdir. 4-5 yerdə də generator quraşdırılacaqdır. Bu generatorların gücü 250–300 kilovat olacaqdır.

Cənab Prezident, layihədə yük terminalının, yanacaq anbarının, yanğınsöndürmə binasının, istilik mərkəzinin və su anbarının tikintisi, mühəndis-kommunikasiya xətlərinin çəkilişi də nəzərdə tutulmuşdur. Adları çəkilən işlərin görülməsi işçi layihəsində təqdim olunacaqdır.

Cənab Prezident, layihənin həyata keçirilməsi ilə bağlı bir-iki məsələ, mən deyərdim, problem var. Birincisi, uçuş-enmə zolağının sonunda təpələrin yüksəkliyinin azaldılması problemidir.

H e y d ə r Ə l i y e v: Nəyin yüksəkliyinin?

C a h a n g i r Ə s g ə r o v: Yüksəkliklərin azaldılması, o təpələrin kəsilməsi... Cənab Prezident, bu, mövcud olan zonamızdır. Bu zonada 34 istiqamətdə təxminən 15–18 metr hündürlüyü olan iki təpə vardır. Bu təpələri biz gərək kəsdirək. Onların yüksəkliyini azaldaq. Topoqraflar bu məsələ ilə məşğuldurlar, onlar bizdən bir-iki gün vaxt istədilər. Orada

nə qədər torpaq işi görüləcəksə, onun həçmi barədə bizə məlumat verəcəklər. Mən də Sizə bu barədə məruzə edəcəyəm. Bizim hesablamalarımıza görə, 800 min, 1 milyon kubmetr torpaq götürülməlidir. Bu, böyük iş həcmidir.

H e y d ə r Ə l i y e v: Bu, hərbi təyyarənin o vaxt dəydiyi təpədir?

V a s i f T a l ı b o v: Bəli, həmin təpədir. Bir hissəsi o vaxt götürüldü.

C a h a n g i r Ə s g ə r o v: İndi topoqraflar nə desələr, biz onu edəcəyik.

V a s i f T a l ı b o v: Burada problem olmamalıdır, boş torpaqdır, partlayış aparılmadan götürüləcəkdir.

H e y d ə r Ə l i y e v: O mənada problem hesab edir ki, orada böyük iş həcmi var.

C a h a n g i r Ə s g ə r o v: Cənab Prezident, digər problem isə hava limanı yaxınlığındakı ərazidə hərbçilərin olmasıdır.

H e y d ə r Ə l i y e v: Kim?

C a h a n g i r Ə s g ə r o v: Hərbçilər. Əgər imkan olsa, hərbçiləri oradan başqa yerə köçürmək məsləhətdir. Çünki həmin ərazi bizə lazımdır. Hava limanı genişlənir. O ərazidən biz istifadə etməli olacağıq. Mən xahiş edirəm, əgər imkan varsa...

V a s i f T a l ı b o v: Cənab Prezident, Siz bilirsiniz, orada hava hücumundan müdafiə qüvvələri yerləşir.

H e y d ə r Ə l i y e v: O yer aeroporta yaxındır?

V a s i f T a l ı b o v: Bəli, yaxındır. Hərbçilər o hissədə yerləşmişlər. O zaman orada vertolyot meydançası var idi. Bu, həmin ərazidir. O ərazidən də istifadə etmək mümkündür. Yəni biz oranı saxlamışıq ki, gələcəkdə vertolyot eskadrilyası yaratmaq mümkün olarsa, bu məqsəd üçün istifadə oluna bilər.

H e y d ə r Ə l i y e v: Mən o hissəni tanıyıram, orada olmuşam, o, aeroporta yaxın deyildir.

V a s i f T a l ı b o v: Həmin ərazi onlara aiddir. O da problem ola bilməz.

H e y d ə r Ə l i y e v: Baxarsınız.

C a h a n g i r Ə s g ə r o v: Cənab Prezident, hava limanının və hərbçilərin hasarı birdir.

H e y d ə r Ə l i y e v: Yaxşı, bu izahat verilibdir.

C a h a n g i r Ə s g ə r o v: Cənab Prezident, tikintidə istifadə ediləcək bütün avadanlıq, inşaat materialları dünya standartlarına uyğun olacaqdır. Bakıda hava limanında hansı material istifadə edilibsə, eyni materiallardan burada da istifadə olunacaqdır. Döşəməsi, sütunlar və s. hamısı qranit, mərmər olacaqdır, ayrı material olmayacaqdır.

Möhtərəm Prezident, əlavə olaraq məlumat vermək istərdim ki, Sizin tövsiyənizə əsasən, layihənin həyata keçirilməsində Naxçıvan Muxtar Respublikasının yerli işçi qüvvəsindən və müvafiq təşkilatlarından istifadə olunması nəzərdə tutulmuşdur. İlkin hesablamalara görə, layihənin həyata keçirilməsi üçün lazım olan maliyyə vəsaiti təxminən 90–100 milyard manatdır. Bu, təxminən 18–20 milyon ABŞ dolları həcmindədir. Layihə tam dəqiqləşdirildikdən sonra qəti rəqəm də bəlli olacaqdır.

Möhtərəm cənab Prezident, Sizin tərəfinizdən layihə qəbul edilsə, daha ətraflı və dəqiq layihə hazırlanacaqdır. İnsaat işlərini başlamaq sentyabr ayına planlaşdırılıbdır. Torpaq işlərinə başlanacaqdır.

H e y d ə r Ə l i y e v: Axı sentyabr ayına bir şey qalmayıbdır.

C a h a n g i r Ə s g ə r o v: Bəli, 15 gün qalıbdır.

H e y d ə r Ə l i y e v: Siz o vaxta qədər hazır ola bilərsinizmi?

C a h a n g i r Ə s g ə r o v: Cənab Prezident, hazır olacağıq. O vaxta qədər bizə 10 ədəd «Belaz» markalı avtomaşın lazımdır. Biz altı ayda hər gün işləməliyik. İnşaat işlərinin başa çatması 2003-cü ilin sonuna nəzərdə tutulur. Bunu etmək üçün gərək biz işə sentyabr ayında başlayaq.

H e y d ə r Ə l i y e v: Yəni inşaat işlərinin qurtarması, hava limanının istifadəyə verilməsi.

C a h a n g i r Ə s g ə r o v: Bəli. Mən bu gün burada Sizə məruzə edirəm ki, bütün obyektlər həmin vaxtda istifadəyə veriləcək, iki zolaq istismarda olacaqdır. Bütün işlər paralel surətdə görüləcək, dekabrın 24-də başa çatdırılacaqdır.

Cənab Prezident, bir-iki məsələyə də toxunmaq istəyirəm. Layihənin həyata keçirilməsi nəticəsində Naxçıvan hava limanı müasir dünya standartlarına cavab verən obyekt olacaqdır. Bu liman müxtəlif tipli, o cümlədən ən ağır təyyarələri qəbul edə biləcəkdir. Naxçıvan hava limanından dünyanın müxtəlif istiqamətlərinə, o cümlədən Ankara, İstanbul, Qars, Trabzon, Tehran, Təbriz şəhərlərinə və MDB ölkələrinə beynəlxalq uçuşlar etməyə imkan yaranacaqdır. Mən bununla da çıxışımı yekunlaşdırıram.

H e y d ə r Ə l i y e v: Sualı olan var?

V a s i f T a l ı b o v: Cənab Prezident, binanın dam örtüyünün Naxçıvanın iqlim şəraitinə uyğun quraşdırılmasını xahiş edirəm. Yəni, iqlim şəraiti kəskin olduğuna görə, burada əvvəllər tikilmiş binaların dam örtüyü dözmür.

C a h a n g i r Ə s g ə r o v: Cənab Prezident, biz Vasif müəllimlə danışdıq. Burada iki dam olacaq. Heç bir problem

yoxdur. Bir metrə qədər qaldıraraq, pandusun üstündə milli naxışlar formasında bir şey düzəldəcəyik ki, görünməsin.

Heydər Əliyev: Bunu qaldırıb nə edəcəksiniz?

Cahangir Əsgərov: Bunu qaldıracağıq ki, dam yerdən görünməsin.

Vasif Talıbov: Görünməmək üçün qırmızı rəngli şiferlə örtülsə, buna gözəllik verər və binanın formasına heç bir xələl gətirməz. Bunu qaldırmağa, bəlkə də, bir o qədər ehtiyac yoxdur.

Heydər Əliyev: Hər halda, layihə hazır olanda mən baxacağam.

Cahangir Əsgərov: Cənab Prezident, bu məsələ nəzərdə tutulacaqdır.

Heydər Əliyev: Başqa sözünüz yoxdur? Burada iştirak edənlərin sualı varmı? Yoxdur. Əyləş.

Vasif Talıbov: Cənab Prezident, bərpa olunacaq yeni zolaqda işlərin iqlim şəraitinə uyğun aparılmasını nəzərə almaq lazımdır. Siz o vaxt burada işləyən zaman yeni zolağı tikdirəndə onu standartlara uyğun etdiniz. Naxçıvana enmə şəraiti nəzərə alındı ki, təyyarə zolağa enəndən sonra, ola bilsin, nəzərdə tutulandan bir az da çox irəliləyər. Ona görə həmin məsafə bir az uzun götürülmüşdür. İndi bu zolaq 100–200 metr uzun olsa, təhlükəsizlik baxımından yaxşı olardı.

Cahangir Əsgərov: Cənab Prezident, burada relyef məsələsi var. Problem olmasa, 2700 metrdən çox edəcəyik. Amma 2700 metr tam təhlükəsizlik şəraitini təmin edir.

Heydər Əliyev: Əgər relyef məsələsi varsa, onu düzəldin və zolağı uzadın. Başa düşdün?

Cahangir Əsgərov: Oldu.

H e y d ə r Ə l i y e v: Relyef məsələsinə baxarsınız, mənə göstərərsiniz. Zolağı mümkün qədər uzadarsınız. Onun zərəri yoxdur, amma xeyri həmişə ola bilər. Başqa sualı olan var? Yoxdur. Əyləş.

V a s i f T a l i b o v: Möhtərəm Prezident!

Siz Azərbaycana rəhbərliyinizin birinci dövründə Naxçivan Muxtar Respublikasının nəqliyyat sisteminin yaxşılaşdırılması sahəsində mühüm tədbirlər görmüsünüz. Belə ki, 1976-cı ildə Azərbaycan dəmir yolunun Naxçıvan şöbəsini yaratmısınız. Bu mühüm tədbirin həyata keçirilməsi nəticəsində minlərlə iş yeri açılmış, dəmir yolunun ətrafındakı kəndlər və qəsəbələr xeyli abadlaşdırılmışdır. Bundan əlavə, Füzuli rayonundan keçməklə Mehridən Naxçıvana avtomobil yolunun çəkilişinə başlanmışdı və bu iş tamamlanmaqda idi. Məlum hadisələrdən sonra həmin yolun tikintisi dayandırıldı.

Naxçıvan Muxtar Respublikasının Azərbaycanla olan bütün kommunikasiya xətləri mənfur qonşularımız tərəfindən kəsilsə də...

H e y d ə r Ə l i y e v: Vasif, dayan. Sən o dəmir yolundan dedin. O düzdür. Amma gərək bir şeyi heç kəs unutmasın. Çünki o vaxtlar, 1978-1979-cu illərdə olan şeydir. Bəlkə sən də bilmirsən. Bilirsiniz ki, Azərbaycanın dəmir yolu şöbələrə bölünübdür. Bakı şöbəsi vardı. Gəncə şöbəsi vardı. Bir də İmişlidə şöbə var idi. İmişlidəki şöbə dəmir yolunun Ermənistan sərhədinə qədər Naxçıvanı da əhatə edirdi, bir də Lənkəran tərəfi idarə edirdi.

Mən bunu əvvəllər bilmirdim. Bir dəfə bununla tanış olanda çox təəccübləndim. Dedim ki, əgər dəmir yolunda bu şöbələr yaranıbsa, qoy onlar dəmir yolunun müəyyən hissələrinə rəhbərlik etsinlər. Nə təhər olur, Bakı şöbəsi bütün Bakının

ətrafını, böyük radiusu, Gəncə şöbəsi Gürcüstana qədər böyük radiusu, İmişli şöbəsi isə Bakı ilə Gəncənin qoltuğunda qalan digər radiusu əhatə edir. Amma şöbə Naxçıvanda deyil – hansı ki, Azərbaycanın ən ucqar yeridir və demək olar, dəmir yolunun qurtardığı yerdir – nədənsə, İmişlidə idi. Mən onda əmr verdim. Bu, böyük bir şey idi. Çünki o, uzun illər, onillərlə yaranmış bir vəziyyət idi. Şöbə deyəndə, bunu düzgün başa düşün. Onun çox böyük ştatı var idi və dəmir yolunun o hissəsinə rəhbərlik edirdi. Məsələn, Naxçıvanın dəmir yolu İmişli şöbəsinə tabe idi. Başa düşürsünüz, gərək hər dəfə İmişli şöbəsinə gedəydilər. Amma mən bunu İmişlidən götürdüm, Naxçıvana köçürdüm. Bunu bilirsən, yoxsa yox?

V a s i f T a l ı b o v: Bəli, bilirəm.

H e y d ə r Ə l i y e v: Bəs niyə yadından çıxarırsan?

V a s i f T a l ı b o v: Vaxtınızı çox almamaq üçün.

H e y d ə r Ə l i y e v: Yox, sən 2-3 kəlmə ilə mənim vaxtımı çox ala bilməzdin. Sadəcə, bunu unudursunuz. O vaxt bu, çox böyük problemlər yaratdı. Çünki orada müxtəlif dəmir yolu təşkilatları var idi. Onların da hər birinin ştatları var idi. İnsanlar işləyirdilər, yaşayış binaları, inzibati binalar tikilmişdi. Yəni ora böyük dəmir yolu qovşağı idi. Mən onu Naxçıvana köçürdüm və artıq İmişlidən Naxçıvana gəlməli oldular. Başa düşürsən?

V a s i f T a l ı b o v: Bəli.

H e y d ə r Ə l i y e v: Bütün bu şöbəni Naxçıvana köçürməklə buranı möhkəmləndirdik. İndi siz düzgün başa düşün. Yəqin ki, başqaları da düzgün başa düşməlidir. Mən bunu ona görə etmirdim ki, təkcə Naxçıvana yaxşılıq edim. Ona görə ki, bu, reallığı əks etdirirdi. Amma vaxtilə, birincisi, subyektivliyə yol verilmişdi. İkincisi də, hələ 1976-1977-ci illərdə

bunu edəndə, 20–30 il ondan qabaq ağılsızlıq nəticəsində edilmiş işi aradan qaldırmaq istəyirdim. Subyektivlik nəticəsində görülən işi aradan qaldırmaq istəyirdim. Ona görə yox ki, mən Naxçıvana yaxşılıq etmək istəyirdim, Naxçıvanı daha da möhkəmləndirmək istəyirdim. Ona görə ki, bunu bizim dəmir yol sisteminin strukturu tələb edirdi. Mən də istəyirdim ki, dəmir yol sisteminin strukturu daha da düzgün olsun.

Təbiidir ki, bunu da edəndə Naxçıvanda yeni iş yerləri açıldı, yeni binalar tikmək, yeni təşkilatlar yaratmaq lazım oldu. Mən o vaxt bunu da etdim. Sonra yol kəsildi, filan oldu, bunlar hamısı pozuldu. Amma mən o gün dəmir yolunun rəisi ilə danışırdım. O mənə deyirdi ki, biz Naxçıvanda dəmir yolunda təxminən 100 milyon manatlıq iş görərkən. oraya 600 milyon manat pul verdik.

V a s i f T a l ı b o v: Düzdür.

H e y d ə r Ə l i y e v: Başa düşürsünüz, altı dəfə çox. Mən də bilirəm ki, Naxçıvanda dəmir yolunda böyük iş görülmür. Çünki buradan dəmir yolu hara gedir, bilmirəm. Şərura gedir?

V a s i f T a l ı b o v: Ordubad–Sədərək.

H e y d ə r Ə l i y e v: Ordubad–Sədərək. Oradan da Təbrizə gedirsiniz, yoxsa yox?

V a s i f T a l ı b o v: Bəli, gedirik.

H e y d ə r Ə l i y e v: Başqa bir şey yoxdur. Amma buna baxmayaraq , mən göstəriş vermişdim və iki gün bundan öncə dəmir yolunun rəisi ilə danışırdım. Bunu ondan soruşdum. O mənə belə dedi.

Çıxışına davam et, bunları yadınızdan çıxarmayın. Sən cavansan, o vaxtlar, 1976-cı ildə nə edirdin, əsgərlik edirdin, nə edirdin, bilmirəm.

V a s i f T a l ı b o v: Orta məktəbdə oxuyurdum.

H e y d ə r Ə l i y e v: Orta məktəbdə oxuyurdun. Əlbəttə, bu barədə sənə irad tutmaq olmaz ki, niyə yadında deyildir. Amma irad tutmaq olar ki, sən artıq Naxçıvanın başçısısan. Sən gərək bütün bu tarixi öyrənəsən. İnsanlar hər şeyi bilir ona görə yox ki, bunu görüblər. Ona görə ki, tarixi öyrənirlər. Yaxşı, davam et.

Mən bu sözü təkcə ona demirəm, hamınıza deyirəm. İnanıram ki, o, azdan-çoxdan bunu bilir. Amma başqalarının çoxu heç bir şey bilmir.

V a s i f T a l ı b o v: Naxçıvan Muxtar Respublikasının Azərbaycanla olan bütün kommunikasiya xətləri mənfur qonşularımız tərəfindən kəsilsə də, Sizin uzaqgörən siyasətiniz sayəsində 1974-cü ildə tikilib istifadəyə verilən Naxçıvan hava limanı bu gün də naxçıvanlılar üçün həyati əhəmiyyət kəsb edir və həyat yolu adlandırılır.

Hörmətli Prezident, 1974-cü ildə tikilən hava limanının uçuş-enmə zolağının uzunluğu 1800 metr olduğundan, ancaq kiçik təyyarələr, yəni «YAK-40» təyyarələri üçün nəzərdə tutulmuşdu. Bu o dövr üçün kifayətləndirici idi. Çünki həmin dövrdə Naxçıvandan Bakıya iki sərnişin qatarı işləyirdi və avtomobil yolu mövcud idi.

Məlum Dağlıq Qarabağ hadisəsindən sonra bütün kommunikasiya xətləri ermənilər tərəfindən dağıldığından, muxtar respublikada gərginlik yarandı və mövcud hava limanı tələbatı ödəmədi. Yenə də Sizin uzaqgörən müdrik siyasətiniz naxçıvanlıları bu gərginlikdən xilas etdi. Belə ki, 1992-ci ildə Naxçıvanda Ali Məclisin sədri işlədiyiniz dövrdə Sizin rəhbərliyiniz və göstərişiniz əsasında, Naxçıvan hava limanında uzunluğu 3300 metr olan ikinci uçuş-enmə zolağı

tikilib istifadəyə verildi. İri, yəni «TU-134» və «TU-154» tipli təyyarələrin enib-qalxmasına şərait yaradıldı.

Siz o vaxt bu mühüm obyektin tikintisinə ciddi diqqət yetirirdiniz. 1992-ci ilin fevralında Ali Məclisin Rəyasət heyətinin iclasında inşaat işlərinin gedişini xüsusi müzakirəyə çıxararaq, təxirəsalınmaz tədbirlərin görülməsini, lazım gələrsə, çoxnövbəli iş rejiminə keçirilməsini tələb etmişdiniz. Muxtar respublikanin əhalisi yaxşı xatırlayır ki, Siz Naxçıvan hava limanının tikintisinin başa çatması münasibətilə keçirilən tədbirdə şəxsən iştirak edərək, muxtar respublika üçün həyati əhəmiyyəti olan obyektə xeyir-dua verdiniz. Böyük təyyarələri qəbul edə bilən hava limanının qısa müddətdə istifadəyə verilməsinə nail olmaqla, ölkəmizin əsas ərazisi ilə hava nəqliyyatı imkanını genişləndirməklə Naxçıvanı qoruyub saxladınız. O ağır günlərdə xüsusilə mərkəzdən edilən təzyiqlərə baxmayaraq, həyati əhəmiyyətli Naxçıvanın qurtuluşu üçün gördüyünüz işləri qədirbilən Naxçıvan əhalisi heç bir zaman unutmamışdır və bu mühüm işə görə Sizə həmişə minnətdardır.

Zati-aliləri, Sizin tapşırığınız əsasında yenidən qurulmuş Naxçıvan hava limanından indi həftədə iki dəfə Gəncə şəhərinə, hər gün dörd dəfə Bakı şəhərinə sərnişin təyyarələri uçur və qismən də olsa, əhalinin tələbatını ödəyir. Hava limanının xidmətindən gündə orta hesabla 600–650 nəfər istifadə edir və həyati əhəmiyyətli müxtəlif zəruri yüklər daşınır.

Lakin Naxçıvan hava limanının gücü bugünkü tələblərə cavab vermir. Ancaq Naxçıvan əhalisi əmin idi ki, möhtərəm Heydər Əliyev qayğısını yenə də göstərəcəkdir. Biz bu gün bunun bir daha canlı şahidi olduq. Naxçıvan hava limanının tikintisinə göstəriş verməyiniz və bu gün Sizin iştirakınızla

layihənin müzakirə edilməsi muxtar respublikaya, Naxçıvan əhalisinə göstərilən diqqət və qayğının ifadəsidir.

Möhtərəm Prezident, icazə verin, bu diqqət və qayğıya görə Naxçıvan əhalisi adından və öz adımdan Sizə minnətdarlığımızı bildirim. Əmin edirəm ki, Sizinlə daim bir yerdə olan Naxçıvan əhalisi bundan sonra da Sizin ideyalarınızın həyata keçirilməsi və doğma respublikamızın inkişafı üçün bütün qüvvəsini səfərbər edəcəkdir.

YEKUN NİTQİ

Mən bu gün bizim görüşümüz başlayanda da dedim. Bir də demək istəyirəm ki, bu gün burada bu müşavirəni keçirməyimin məqsədi ondan ibarətdir ki, Naxçıvan hava limanını yenidən inşa edəcəyik. Orada olan bina, zolaqlar hamısı ləğv olunacaq, yeni bir şey yaranacaqdır. Təbiidir ki, bu, böyük hadisədir və bu, Naxçıvan üçün lazımdır. Ona görə də mən bunu nəzərə aldım. Mən konsernin Baş direktorunu dinləmişəm, hesab etdim ki, sizinlə bir yerdə ikinci dəfə də dinləyim və fikirlərinizi öyrənim.

Mən görürəm ki, siz bunu bəyənirsiniz. Elədirmi? Bəlkə istəmirsiniz?

Vasif Talıbov: Bəli, istəyirik.

Heydər Əliyev: Siz bunu bəyənirsiniz və Talıbovun dediyinə görə, təşəkkür edirsiniz. İndi siz bəyənsəniz də, bəyənməsəniz də mən bu qərarı qəbul etmişəm və bunu edəcəyəm.

Əsgərov deyir ki, sentyabrın 1-dən işə başlanmalıdır. Mən buna ayrı baxacağam. Yəqin ki, bu razılığı verəcəyik. Çünki bütün başqa məsələlərə Bakıda bir də baxacağam. Sən söz

verdin ki, 2003-cü ilin sonunda hava limanı tamam hazır vəziyyətdə təhvil veriləcəkdir.

C a h a n g i r Ə s g ə r o v: Bəli, tamam hazır vəziyyətdə istismara veriləcəkdir.

H e y d ə r Ə l i y e v: Biz də birlikdə bunun açılışında iştirak edərik və Naxçıvanın beynəlxalq hava limanı olar.

İndi Naxçıvana bizdə «TU-154» təyyarələri işləyir, sərnişinləri daşıyır. Ancaq mənim fikrim var ki, iki ədəd yeni «TU-154» təyyarəsi alaq. Mən bunu sənə bir dəfə demişəm.

C a h a n g i r Ə s g ə r o v: Bəli, cənab Prezident.

H e y d ə r Ə l i y e v: Çünki indi istifadə olunan təyyarələr köhnəliblər. Bir də, ümumiyyətlə, gərək təyyarələrin sayını artıraq. Çünki gələcəkdə uçuşlar çox olacaqdır. Onun da xərci çoxdur. Biri 15 milyondur?

C a h a n g i r Ə s g ə r o v: Bəli, cənab Prezident.

H e y d ə r Ə l i y e v: Təyyarənin biri 15 milyon dollardır. İndi bazar iqtisadiyyatıdır. Gərək bu pul qazanılsın ki, təyyarə ala bilsin. Amma bizim konsern qazandığı pulları aldığı kreditlərə, filana verir. Çünki Bakıda hava limanını tikmək üçün kredit götürmüşdük. «Boinq» təyyarələri almışıq, indi bir çox ölkələrə uçur. Bu da böyük bir hadisədir ki, sərnişinlərimiz artıq «Boinq» təyyarəsi ilə uçurlar. Bakıdakı hava limanı beynəlxalq hava limanıdır, onun binasını da görmüsünüz. Bəzən görürsən ki, dünyanın ən böyük şəhərlərində elə bir bina yoxdur. Bilirsiniz ki, 1981-ci ildə mən Azərbaycanda işləyəndə onun bütün layihəsini hazırlatmışdım və onun inşaatına başladım.

Moskvada mülki aviasiya naziri Buqayev var idi, biz bunu onların pulu, vəsaiti ilə tikirdik. Yadımdadır, bir neçə dəfə onu Bakıya gətirmişdim, həmin layihəyə, işin gedişinə bax-

mışdıq. Ancaq mən Azərbaycandan getdim. Qayıdıb gələndə gördüm, necə qoyub getmişəmsə, eləcə də qalıbdır. Burada da işləyəndə gedirdim, baxırdım, ürəyim yanırdı ki, niyə belədir? Ancaq bu işi başa çatdırmaq yenə mənə nəsib oldu. Mən onu etdim. İndi yenə də deyirəm, Azərbaycanın beynəlxalq hava limanı var.

Ümumiyyətlə, hava limanı hər bir ölkənin giriş qapısıdır. İndi ölkələr arasındakı əsas nəqliyyat növü təyyarələrdir. Ona görə hava limanının səviyyəsi, o ölkəyə gələn yeni adama, yaxud dəfələrlə gələn adama göstərilən xidmət, o adamların rahat gəlib keçməsi həmin ölkə haqqında fikir yaradır. Mən çox məmnunam ki, bizim hava limanımız belə yüksək səviyyədə neçə ildir istismar olunur, yaxşı səviyyədədir. Amma mən bunun əsasını 1981-ci ildə qoymuşdum.

İndi Naxçıvanda da beynəlxalq hava limanı yaradırıq. Yenə də deyirəm, təyyarələr köhnəlibdir. Amma siz onu vaxtında təmir edirsiniz.

C a h a n g i r Ə s g ə r o v: Bəli, cənab Prezident, təhlükəsizliyi təmin edirik.

H e y d ə r Ə l i y e v: Təhlükəsizliyi təmin edin. Bilirsiniz, bu xətdə Allah eləməmiş, bir şey olsa, ondan sonra... Başa düşürsən?

C a h a n g i r Ə s g ə r o v: Başa düşürəm.

H e y d ə r Ə l i y e v: Bu təkcə konsernə aid deyil, sizə də aiddir. Təkcə konserndən asılı deyil ki, hava limanında nə cür xidmət edirlər. Siz gərək orada xidmətin keyfiyyətini artırasınız. Xüsusən, indi orada iş gedəcəkdir. İş gedəndə çox adam cəlb ediləcəkdir. Yerli adamlar maksimum cəlb olunmalıdır.

C a h a n g i r Ə s g ə r o v: Cənab Prezident, bizim layihələrlə görülən işlərə maksimum cəlb olunurlar.

H e y d ə r Ə l i y e v: Ancaq lazım olan mütəxəssislər kənardan gələcəkdir. Qalan hamısı yerli adamlar cəlb olunmalıdır ki, onlar üçün yeni iş yerləri açılsın. Amma belə bir şəraitdə orada rejimi saxlamaq daha da çətin olacaqdır. Siz gərək bunu biləsiniz və lazımi tədbirlər görəsiniz.

Beləliklə, yenə deyirəm, bu mənim planımda var. İndi hələ bunu fikirləşirəm, nə cür edək. Çünki vəsait tapmaq lazımdır ki, Naxçıvana işləməsi üçün iki ədəd «TU-154» təyyarəsi alaq. Bununla da Naxçıvan əhalisinin nəqliyyat tələbatını daha da yüksək səviyyədə ödəyək.

Demək, bu gün mən sizin yanınızda bu qərarı qəbul edirəm. Mən Bakıda, sadəcə, layihənin bəzi hissələrinə baxacağam, onun maliyyələşdirmə məsələsi barədə təkliflərə baxacağam. Çünki bunlar sizin işiniz deyil, bizim işimizdir. Bir halda ki, Əsgərov deyir sentyabrın 1-dən başlamaq lazımdır, demək, başlamaq lazımdır. Siz öz işlərinizi görün, nə lazımdırsa, bu günlərdə baxıb həll edəcəyik. Yaxşı, sağ olun. Hesab edirəm, bu gün böyük bir iş gördük.

C a h a n g i r Ə s g ə r o v: Cənab Prezident, icazə verin hava limanının maketini Vasif müəllimə hədiyyə edim.

H e y d ə r Ə l i y e v: Bunu Vasif müəllimə hədiyyə ver, iş otağına qoysun və gündə ona baxsın. Sağ olun.

ŞAHBUZ RAYON SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

11 avqust 2002-ci il

Əziz şahbuzlular!

Mən sizi səmimi-qəlbdən salamlayıram. Sizin hamınıza cansağlığı, xoşbəxtlik arzu edirəm və bütün işlərinizdə uğurlar arzulayıram.

Şahbuz rayonu Naxçıvanın gözəl bir guşəsidir. Şahbuz rayonu və onun sakinləri Naxçıvanın həyatında həmişə çox böyük rol oynayıblar. Mən bunu həm keçmişdən, yəni 1970–1980-ci illərdə Azərbaycana rəhbərlik etdiyim zaman, həm də sizinlə bərabər 1990–1993-cü illərdə Naxçıvanda yaşadığım və muxtar respublikaya başçılıq etdiyim zaman bilirəm. Ona görə bunlar adi sözlər deyil, mənim şəxsi müşahidələrimdir, şəxsi fikirlərimdir.

Mən bilirəm ki, 1990–1993-cü illərdə mən burada olarkən və təbiidir, ondan sonra da şahbuzlular həmişə Naxçıvan hakimiyyətinin dayağı, arxası olublar. Mən burada işləyəndə həmişə çətin şəraitdə işləyirdik, blokadada idik. İndi də blokadadayıq, amma biz indi Naxçıvanın yaşaması üçün böyük imkanlar yaratmışıq. Amma o vaxt blokada şəraitində yaşayış çox çətin idi, çox ağır idi. Daxili vəziyyət də sabit deyildi. Mən ictimai-siyasi vəziyyəti deyirəm. Həm Azərbaycanda, həm də Naxçıvanda müxtəlif qüvvələr – indi xatirimə gələndə

məni ancaq gülmək tutur – hakimiyyət uğrunda mübarizə aparırdılar, hakimiyyəti ələ almaq istəyirdilər.

Bizə – sizə, mənə, Naxçıvanın yaşamasına imkan verməmək üçün cəhd edirdilər. Ancaq bunlardan bir şey çıxmadı. Xatirinizdədir, 1992-ci il oktyabrın 24-də Xalq Cəbhəsi üzvlərinin bir dəstəsi qəflətən gəlib Naxçıvanın Daxili İşlər Nazirliyini zəbt etdi. Təxminən 300 nəfər Naxçıvanın televiziyasını zəbt etdi və mənə ultimatum verdilər ki, onlar hakimiyyəti ələ alacaqlar. Mən isə, təbiidir ki, onların bu ultimatumuna heç fikir vermədim. Ona görə ki, bilirdim, Naxçıvanın əhalisi həmişə dayaq olduğu kimi, yenə də mənə dayaq olacaqdır. O vaxt televiziya bizim əlimizdən çıxmışdı, başqa vasitə yox idi. Xatirimdədir, bizim hakimiyyəti istəyən adamlar avtomobillərlə gedib Naxçıvanın müxtəlif bölgələrinə xəbərlər yaydılar ki, Naxçıvanın hakimiyyəti, Heydər Əliyev təhlükə altındadır. Təxminən bir-iki saatdan sonra Naxçıvan Ali Məclisinin qarşısında 20–25 min adam toplaşdı. O cümlədən Şahbuzdan.

İndi mən Naxçıvandan buraya avtomobillə gəldim, özü də yüksək sürətlə. Amma təsəvvür edirəm, o vaxt nəqliyyat yox idi, çətinliklər vardı, ancaq mən çox sevindim, eyni zamanda, təəccüb etdim. Bir də gördüm, mənim iş otağıma şahbuzlular – ağsaqqallar, çox hörmətli insanlar daxil oldular ki, Heydər Əliyev, narahat olmayın, biz buradayıq. İmkan vermərik ki, Sizə bir şey olsun. O vaxt mən bunu gördüm, o ağır dövrdə gördüm. Yəni sizi, şahbuzluları gördüm.

Mən o vaxt demişdim, bu fürsətdən istifadə edib indi də təşəkkürümü bildirmək istəyirəm. Hesab edirəm ki, indi, Azərbaycanın müstəqilliyi dövründə – Heydər Əliyev artıq 9 ildir Azərbaycanın prezidentidir, hələ bundan sonra da xeyli

vaxt prezidenti olacaqdır – heç bir şeydən qorxumuz yoxdur. İndi siz də, mən də, Azərbaycanın hakimiyyəti də çalışırıq ki, dövlətçiliyimizi möhkəmləndirək, müstəqilliyimizi möhkəmləndirək. İslahatlar həyata keçiririk, ölkəmizi inkişaf etdiririk, bu sahədə uğurlar əldə etmişik və bundan sonra da əldə edəcəyik.

Mənim xatirimdədir, biz Naxçıvanda Yeni Azərbaycan Partiyasını yaradırdıq. Onun Şahbuz şöbəsi yaranmışdı. Burada çox təşəbbüskarlar var idi. Məndən xahiş etdilər ki, təsis konfransına gəlim. Mən buraya gəldim. Həmin bu binada, onun salonunda Şahbuzda Yeni Azərbaycan Partiyasını yaradanlar toplaşmışdılar. Görürəm, Taməddin həkim başını tərpədir. Çünki o bu işlərdə əsas təşəbbüskarlardan, irəlidə gedənlərdən biri idi. Bəli, qəhrəman adamdır. Mən onu tanıyıram. Yenə Arış kəndində yaşayırsan?! Arış kəndində yaşayır, özünün təsərrüfatı var. O vaxt hələ şəxsi təsərrüfat yox idi. Özü həkimdir, təsərrüfatı var. O vaxt ondan soruşdum ki, nəyin var? Dedi ki, neçə pətək arım var, nə bilim, neçə heyvanım var. Dedim, a kişi, sən bunları necə saxlayırsan? Gərək ki, üç oğlun var, görürsən, hamısı yadımdadır. Dedi ki, mənim üç oğlum var, onlarla birlikdə – oğlanların oxuyub qurtarıblar – təsərrüfatı saxlayırıq. O çox çalışdı ki, təsərrüfatına gedim, mən də istədim, amma qismət olmadı. Yəqin ki, qismət olacaqdır.

Biz hələ o vaxtlar ilk dəfə Naxçıvanda torpaq islahatı aparmaq istəyirdik. Hələ Azərbaycanda hakimiyyət bununla məşğul olmurdu. Amma biz torpaq islahatı aparmaq istəyirdik. Mən də istəyirdim bir neçə kiçik dağ kəndlərində bu islahatları aparım. Nədən ötrü? Çünki kolxozlar, sovxozlar dağılırdı. Kolxoz sədrləri, nə bilim, briqadirlər, anbar müdirləri – indi sizin aranızda onlardan var – heyvanları kəsib yeyirdilər.

Sonra da, 24-cü cədvəl var, orada hər ay yazırdılar ki, filan qədər öldü. Görürdün ki, aybaay kolxozların mal-qarası dağılır.

Mən fikirləşdim, yaxşı olar ki, bunları özümüz dağıdaq, kəndlilərə verək. Kəndlilər özləri saxlasınlar. Torpağı da onlara verək. Mən istədim bunu kiçik dağ kəndlərindən edim. Biçənək, Kolanı kəndlərinə getdim. Çünki bilirsiniz, orada təsərrüfatlar xırda idi. Gəldim, camaatı toplayıb dedim ki, istəyirəm bu kolxozu dağıdam, torpaqları da, mal-qaranı da sizə verəm. Bir neçəsi çıxış etdi ki, yox, biz istəmirik. Ay balam, niyə istəmirsən, bunu sənə vermək istəyirəm. Deyir ki, mən burda qarovulçuyam, maaş alıram, bununla dolanıram. Kolxoz dağılanda mən necə dolanacağam? Deyirəm, ay kişi, sənə mal-qara verəcəyik, torpaq verəcəyik, get torpağında işlə. Yəni o vaxtkı sistem insanları, bax, belə, hökumətin himayəsində yaşamağa öyrətmişdi. Onlar işləmirdilər. Bəli, bir qarovul məvacibi onu təmin edirdi. Ancaq indi Naxçıvanın hər yerində torpaq islahatı gedib, torpaq kəndlilərdədir, mal-qara kəndlilərdədir. Kənd təsərrüfatının nə qədər inkişaf etdiyini siz yaxşı bilirsiniz.

Mənim yadımdadır, biz burada yaşayırdıq, ət tapmaq mümkün deyildi. Hələ mən burada işləməyəndə, 1990-cı ildə, təzə gəlmişdim, bacımın evində yaşayırdım. Sentyabr-oktyabr ayları idi. Bir də görürdün, deyirdilər ki, yemək bişirmək üçün ət tapa bilmirik. Sonra bir nəfər qonşu gəlib xəbər verirdi ki, Cəhridə heyvan kəsiblər. Qonşular tez yığışırdı ki, gedib Cəhridən ət alsınlar. Bəziləri gedib çatırdı, bəziləri də gedəndə ət qurtarırdı. Amma indi Naxçıvanda əti alan yoxdur. Elədir, yoxsa yox?

Yerdən səslər: Bəli, elədir.

H e y d ə r Ə l i y e v: Mal-qaranız çox, heyvanınız çox, ətiniz də, yağınız da, südünüz də var, taxıl da əkirsiniz. Elədirmi?

Y e r d ə n s ə s l ə r: Elədir.

H e y d ə r Ə l i y e v: İslahatların nəticəsi, bax, budur, müstəqillik budur, sərbəst iqtisadiyyat budur. Biz bu yol ilə gedirik və gedəcəyik. Mən çox məmnunam ki, Naxçıvan Muxtar Respublikasının həm rəhbərliyi, həm də bütün əhalisi bu islahatların aparılmasında çox cəsarətlə hərəkət edirlər və yaxşı nəticələr əldə ediblər. O cümlədən Şahbuz rayonu.

Mən buradan Kolanı, Biçənək kəndlərinə gedirəm. Kolanıda həmin qarovulçunu axtarıb tapacağam. Görüm, o indi necə yaşayır. O vaxt deyirdi ki, mən kolxozda qarovulçuyam, maaş alıram. Əgər ondan sonra vaxt çatsa, istəyirəm Batabata gedim, baxım. Necə məsləhət görürsünüz?

Y e r d ə n s ə s l ə r: Cənab Prezident, getsəniz yaxşı olar.

H e y d ə r Ə l i y e v: Deyirlər ki, indi Batabat da abadlaşıbdır.

Y e r d ə n s ə s l ə r: Vasif müəllim oranı da düzəldibdir.

H e y d ə r Ə l i y e v: Yaxşı, sağ olun. Çox şadam ki, sizinlə görüşdüm. Arxayın olun, Azərbaycan dövləti etibarlı əllərdədir, müstəqilliyimiz inkişaf edir, işğal olunmuş torpaqlarımızı azad edəcəyik və Azərbaycanın bütövlüyünü bərpa edəcəyik. Arxayın ola bilərsiniz. Sağ olun.

* * *

Şahbuzlular prezident Heydər Əliyevin çıxışını böyük maraq və diqqətlə dinlədilər, dəfələrlə gurultulu alqışlarla qarşıladılar. Balaca uşaq Heydər babaya həsr olunmuş şeir söylədi.

Sən xalqın ümidi,
Xoş günü, gələcəyisən.
Onun möhkəm dayağı,
Ömrümüzün fərəhi,
Ən gözəl diləyisən.
Yaşa, Heydər babamız!

* * *

Azərbaycan prezidenti Heydər Əliyev Şahbuz rayonunun Kolanı kəndinə gəldi. Dövlətimizin başçısını burada da böyük mehribanlıqla, hörmət və ehtiramla qarşıladılar.

Kolanı kənd sakinləri ilə görüş

H i d a y ə t I s m a y i l o v (*kənd ağsaqqalı, əməkdar müəllim*): Cənab Prezident, xoş gəlmisiniz! Azərbaycan xalqının böyük oğlu, əzizi, Kolanı camaatının ikiqat əzizi, xoş gəlmisiniz! Siz 35 ildir Azərbaycana rəhbərlik edirsiniz. Bu yaxınlarda Azərbaycan xalqı, sadə zəhmətkeşlərin hamısı bunu xüsusi bayram kimi qeyd etdi. Bizim buna haqqımız var, çünki Siz Azərbaycan xalqını çox çətin bəlalardan qurtarmısınız. Allah Sizə uzun ömür versin. Arzu edirəm ki, neçə belə illər yaşayasınız və bizi bu qara günlərdən qurtarasınız. Qara gün deyəndə, müharibəni nəzərdə tuturam. Gəlişinizin məqsədini televiziyadan bilirik. Bu günlərdə Köçəryan ilə görüşünüz olacaqdır. Bu görüşdə də Sizə uğurlar arzulayırıq. Biz Sizin daxili və xarici siyasətinizi ürəkdən dəstəkləyirik. Doğrudan da bu, sadə vətəndaşların qəlbindən gələn sözdür.

Son illər Sizin rəhbərliyiniz altında muxtar respublikanin başçıları bizim kənddə elə işlər görüblər ki, bunlar ağlasığmazdır. Keçən illərdə Sizin tapşırığınız ilə çayın üzərindən iki körpü salınıbdır. Biz Sizi, Sizin işlərinizi ürəkdən bəyənirik. Konstitusiyada olacaq dəyişiklikləri biz maddə-maddə müzakirə etmişik və bəyənmişik. Mən bu fürsətdən istifadə edib, bütün Azərbaycan xalqını referenduma çağırıram. Elə bilirəm ki, Azərbaycanın bir neçə başqa kəndi kimi, Kolanı kəndi də Sizin qəlbinizdə yaşayır. Çox sağ olun.

H e y d ə r Ə l i y e v: Səmimi sözlərə görə, mən sizə də, kənd camaatına da minnətdarlığımı bildirirəm.

Mən Şahbuzun rayon mərkəzində çıxışımda yadıma saldım ki, Naxçıvanda Ali Məclisin sədri olarkən Kolanı, bir də Biçənək kəndlərinə gəlmişdim. Çünki biz o vaxt istəyirdik ki, kənd təsərrüfatı islahatlarını öz təşəbbüsümüzlə keçirək, onda hələ qanun yox idi. Amma mən niyə Kolanı ilə Biçənək kəndlərini seçdim. Çünki bunlar kiçik dağ kəndləridir. O vaxt kolxozlar dağılırdı.

Mənim yadımdadır, burada neçə adamla danışdım. Kolxoz sədri idi, başqaları idi, mənə dedilər ki, kolxozu dağıtmaq olmaz. Xatirimdədir, birindən soruşdum, axı niyə olmaz? Dedi, mən kolxozda qarovulçu işləyirəm, oradan maaş alıram, kolxoz dağılanda maaşsız necə yaşayacağam? Mən ona dedim ki, kolxozu biz dağıtmırıq. Biz kəndliyə mal-qaranı, torpağı, hər şeyi verəcəyik. Kəndli özü əkəcək, biçəcək, malqara da saxlayacaq. İndi islahatlar aparılıb, o cümlədən Naxçıvan Muxtar Respublikasında çox uğurlu keçibdir. Sən mənə de görüm, burada nə təhər keçibdir?

H i d a y ə t İ s m a y ı l o v: Cənab Prezident, burada da uğurla keçibdir. Yəqin ki, Siz buranın vəziyyətini hamıdan yaxşı bilirsiniz. Dağ kəndidir.

H e y d ə r Ə l i y e v: Torpaq azdır.

H i d a y ə t İ s m a y ı l o v: Bəli, torpaq azdır. Bizimki maldarlıq, heyvandarlıqdır.

H e y d ə r Ə l i y e v: Mal-qara artıb, yoxsa yox?

H i d a y ə t İ s m a y i l o v: Artıbdır. Güzəranımız yaxşılaşıb və günü-gündən yaxşılaşır. Mən özüm riyaziyyatçıyam. Bir söz demək istəyirəm. Məsələn, təbiət elmləri sahəsində ixtiralar edən alimlər adi adamlardan, haradasa, 50–100 il qabağı görə bilirlər. Yəni onun bugünkü ixtirasını biz sadə adamlar yüz ildən sonra başa düşə bilirik. Mən Sizi riyaziyyatçıya bənzədirəm. Yəni bir neçə il bundan əvvəl «Əsrin müqaviləsi» adlanan o böyük müqavilə imzalananda biz heç nə qavramırdıq. Amma indi onun reallığı, ondan gələn gəlir göz qabağındadır, çadır şəhərciklərində ağır şəraitdə yaşayan bacı-qardaşlarımıza qəsəbələr salınır. Bütün bunlar Sizin böyüklüyünüzdür, iqtisadiyyatda əldə etdiyiniz irəliləyişdir.

H e y d ə r Ə l i y e v: Çox gözəl ki, bunları burada bilirsiniz və qiymətləndirirsiniz.

H i d a y ə t İ s m a y ı l o v: Cənab Prezident, bunları bilməmək olarmı?

H e y d ə r Ə l i y ev: Yaxşı, indi riyaziyyatçı ilə danışdıq. Deyin görüm, sizin mənə nə sözünüz var.

V a q i f Z ü l f ü q a r o v (*müəllim)*: Cənab Prezident, çox səmimiyyətlə deyirəm ki, uşaqdan böyüyə kimi, hamı Sizi sevir. Sizin şəxsiyyətinizə hörmət edən, Sizin şəxsiyyətinizlə fəxr edən bu kəndə xoş gəlmisiniz!

Mənim dediklərim həm şəxsidir, həm də təşəkkürdür və elə bilirəm hamı bununla razılaşacaqdır. Təxminən bir il bundan əvvəl, 2001-ci il sentyabrın 3-də Siz Azərbaycanın ali məktəblərinə yüksək balla qəbul olunmuş 25 tələbəyə təqaüd təyin etmisiniz. Naxçıvan Muxtar Respublikasından da bu kəndin yetirməsi həmin tələbələrin içərisindədir. Düzünü deyim ki, o vaxt elə sevinmişik, bunu bir Allah bilir. Bütün valideynlər, müəllimlər, tələbə yoldaşları nə qədər dualar edib, ona bir Allah şahiddir. Adətən, uca dağ kəndində yaşayan adamlar həm məsafəcə, həm də mənəviyyatca Ulu Tanrıya daha yaxın olurlar. Ona görə də inşallah, Ulu Tanrı bizim dualarımızı daha tez qəbul edəcək.

Hörmətli Prezident, bir az həyəcanlıyam. Çünki artıq mənim arzum həyata keçib və öz təşəkkürümü şəxsən Sizə deməyi böyük xöşbəxtlik bilirəm. Bu barədə Vasif müəllimə də demişəm. Sizə deyim ki, bu gün Sizin qarşınızda durub danışmaq şərəfini az-çox oğlum təmin edibdir. Mən valideyn, müəllim kimi, Sizə söz verirəm ki, yaxın gələcəkdə bu gənc millətlər, xalqlar, dövlətlər içində öz sözünü deyəcəkdir. Çünki bir müəllim kimi, ona başa salmışam.

Siz keçən il Strasburqa gedəndə Paris hava limanında azərbaycanlı tələbələrlə görüşdünüz. Orada bir ifadə işlətdiniz, ola bilər bir az dəqiqliyi ilə demirəm. Dediniz ki, Azərbaycan xalqının öz sənətini gözəl bilən, xarici dillərdə danışan, dünya siyasətindən baş çıxardan, bütün ixtisaslardan olan mütəxəssislərə böyük ehtiyacı daha çoxdur.

H e y d ə r Ə l i y e v: Doğrudur.

V a q i f Z ü l f ü q a r o v: Mən elə bilirəm ki, dərs dediyimiz şagirdlər, tərbiyə etdiyimiz övladlar Sizin bu sözünüzdən kompas kimi istifadə edəcəklər. Sizə məlumat üçün

deyim ki, ona təyin etdiyiniz təqaüdü bir ildir alır və axıra qədər də alacaqdır. Çünki onun başqa yolu yoxdur. Siz ona o cür etibar etmisiniz, xeyir-dua vermisiniz. Hörmətli Prezident, inanın ki, biz onun maddi tərəfini götürmürük, onun gələcək həyatına Sizin verdiyiniz xeyir-dua kimi başa düşürük. Onu heç bir şeylə əvəz etmək olmaz. İnşallah, Sizin etimadınızı doğruldacaqdır. Diqqətinizə görə çox sağ olun.

H e y d ə r Ə l i y e v: Çox sağ ol. Mən sənin bu sözlərindən çox məmnunam. Ona görə yox ki, mənə təşəkkür edirsən. Məsələn, Kolanı kəndi nəinki Naxçıvanın, Azərbaycanın ucqar kəndlərindən biri, kiçik kənddir. Bilirəm ki, burada insanların yaşayışı üçün başqa kəndlərə nisbətən torpaq çatmır. Bax, belə kənddə belə bir gənc böyüyübdür, gəlib imtahanını veribdir, fərqlənibdir və mənim xüsusi təqaüdümü almağa nail olubdur. Bu, ən böyük hadisədir. Yəni bunun mənası nədir? Bunun mənası xalqımızın nə qədər zəkalı, nə qədər ağıllı olmasıdır. Fərqi yoxdur, harada – Bakıda, Gəncədə, Şamaxıda, Naxçıvanda, yaxud da Kolanıda yaşayır. Məni sevindirən budur. Çox sevinirəm, bəlkə də o vaxtlar heç mənim yadımda qalmayıb ki, o, Kolanı kəndindəndir, sənin oğlundur. Amma indi sən bunları mənə danışanda hamısını xatırlayıram və bunun nə qədər qiymətli olduğunu bir daha dərk edirəm, düşünürəm.

Ümumiyyətlə, kəndlərdə insanlar çox yüksək mənəviyyatla böyüyürlər. Bu belədir. Təəssüflər olsun ki, indi şəhərlərdə şərait başqa cürdür. Amma kəndlərdə böyüyən gənclər – həm oğlanlar, həm də qızlar, adətən, ali məktəblərə gedəndə çox yüksək bilik göstərirlər və mənəviyyatca da çox yüksək olurlar. Bu, hər halda, reallıqdır. Mən də bunu deyirəm. İstərdim ki, Azərbaycanın hər yerində belə olsun. Ancaq indi hər yerdə belə deyil, fərqlidir. Bu fərqlənənlərdən biri də kənd yerləridir.

Yaxşı, kolanılıların nə dərdi var?

F a m i l ə M ə m m ə d o v a (*şəhid anası*): Cənab Prezident, Kolanıda xəstəxana var, mən orada işləyirəm, insanların qayğısına qalır, onların sağlamlığını qoruyuram. 1993-cü il dekabrın 10-da mənim oğlum Beyləqanda şəhid olubdur. Özü könüllü getmişdi. Vasif müəllimin köməyi sayəsində işlədiyim xəstəxanaya onun adı verilibdir. Vəziyyətimiz yaxşıdır. Əsas odur ki, müharibəni dayandırmısınız, atəşkəs əldə etmisiniz. Mənim böyük oğlum şəhid olubdur. Ondan başqa, iki oğlum da var. Sizin yolunuzda, Vətən yolunda qurban verməyə hazıram. Bu şərtlə ki, qara bulud üstümüzdən götürülsün, analar səksəkəli yatmasınlar. Qarabağ problemi həll olunsun. Bütün qadınlar adından Sizə cansağlığı, uzun ömür arzulayıram. Allah Sizi Azərbaycan xalqının üstündən əskik eləməsin.

H e y d ə r Ə l i y e v: Çox sağ ol, bacı. Çox sağ ol. Allah sənin oğluna rəhmət eləsin. Oğlanlarını da yetişdir. Amma mən çalışacağam ki, müharibə olmasın, sülh olsun. Bizim gənclərimiz yaşasınlar, böyüsünlər. Onlar Azərbaycanın gələcəyi üçün lazımdır. Mən onları qırğına vermək istəmirəm, müharibə etmək istəmirəm. Məsələni sülh yolu ilə mütləq həll edəcəyik. Narahat olmayın.

Sən xəstəxananın müdirisən?

F a m i l ə M ə m m ə d o v a: Müdiri yox, qadın-uşaq şöbəsində işləyirəm.

H e y d ə r Ə l i y e v: Doğum şöbəsi də oradadır?

F a m i l ə M ə m m ə d o v a: Bəli, oradadır. Bu xəstəxana altı kəndi əhatə edir.

H e y d ə r Ə l i y e v: Bizim nəslimiz, millət artmalıdır.

F a m i l ə M ə m m ə d o v a: Şükür Allaha, doğulan uşaqların 90 faizi oğlandır.

H e y d ə r Ə l i y e v: Oğlan da yaxşıdır. Qız da yaxşıdır. Fərqi yoxdur. Amma millət artmalıdır.

Yaxşı, sağ olun. Bizim müəllim burada dedi ki, siz referenduma çıxarılan bütün düzəlişlərin hamısını öyrənmisiniz və ayın 24-də seçki məntəqələrinə gedəcəksiniz və referendumun keçirilməsi üçün öz münasibətinizi bildirəcəksiniz. Prezidentin təqdim etdiyi layihəyə səs verəcəksiniz. Elədirmi?

K ə n d s a k i n l ə r i: Bəli, doğrudur.

H e y d ə r Ə l i y e v: Sağ olun.

Təqaüdçü **D a ğ b ə y i Z a m a n o v** prezident Heydər Əliyevə yaxınlaşaraq dedi:

Cənab Prezident, mən bütün aqsaqqallar adından deyirəm ki, xalqımızın böyük milli lideri, xilaskarı möhtərəm Heydər Əliyevin gördüyü nəhəng işləri həmişə qiymətləndiririk. Siz Naxçıvana, Kolanı kəndinə daim qayğı göstərirsiniz. Sizin bütün tapşırıqlarınızı Naxçıvanın rəhbərliyi tam yerinə yetirir. Biz onlardan razıyıq.

Biz, Sizin unutmadığınız Kolanı camaatı avqustun 24-də keçiriləcək ümumxalq səsverməsinə çıxarılacaq maddələri oxumuşuq, bilirik və yekdilliklə dəstəkləyəcəyik. Biz Sizin televiziyadakı çıxışlarınızı izləyirik. Bunlar bizim üçün böyük məktəbdir. Sizə uzun ömür, cansağlığı arzulayıram.

H e y d ə r Ə l i y e v: Çox sağ olun, təşəkkür edirəm.

Biçənək kənd sakinləri ilə görüş

Şahbuz rayonunun ucqar dağ kəndi olan Biçənəkdə dövlətimizin başçısını böyük mehribanlıqla qarşıladılar. Təqaüdçü Bəbir Məmmədov prezident Heydər Əliyevi səmimiyyətlə salamladı, ona həsr etdiyi şeirini söylədi:

Mən bir dua edim,
söyləyin amin,
Heydərə kömək ol,
Rabbilaləmin!
Məhəmməd Peyğəmbər
Heydərə zamin,
Heydərə kömək ol,
Rabbilaləmin!

Yetmiş doqquz il öncə
yaratdın onu,
Əyninə geydirdin siyasət
donu,
Dünyada Heydər tək
rəhbər hanı,
Heydərə kömək ol,
Rəbbülaləmin!

Vətənin laləsi, çiçəyi, gülü,

Düşünən beyni, danışan dili,

Quran, yaradandır,
zərgərdir əli,
Heydərə kömək ol,
Rabbilaləmin!

Heydər baba,
ildönümün mübarək,

Ey Xudaya, Xudavəndi
təbarək,
O gün olsun, yüz
illiyin keçirək,
Heydərə kömək ol,
Rabbilaləmin!

Bəbir də dərk edir
az-çox həyatı,
Xudam xəlq etdiyi bu
kainatı,
Həm yeri, həm göyü,
həm yeddi qatı,
Heydərə kömək ol, Rabbilaləmin!

*Kənd sakini **Alidə Haciyeva** dövlətimizin başçısına müraciətlə dedi:*

Hörmətli Prezidentimiz, Biçənək kəndinin qadınları, anaları adından Sizi ürəkdən salamlayır, xoş gəldiniz deyirəm. Siz bizim gözəl, füsunkar Batabatın ətəyində yerləşən bu balaca kəndə xoş gəlibsiniz. Hamımız bilirik ki, sərhədlərdə atəşin kəsilməsi, qanların tökülməməsi, anaların, bacıların qəlbinə qan yaxılmaması, balaların şad, xürrəm gəzməsi anaların ən böyük sevinci, fərəhidir. Səmamızın aydınlığı hörmətli prezidentimizin uğurlu siyasəti, gözəl işləri nəticəsində olmuşdur. Sağ olun, Sizə bütün analar adından bir daha təşəkkür edirəm. Allah canınızı sağ eləsin, Sizə uzun ömür arzulayıram. Bizi həmişə qəlbinizdə saxlayın, bizi sevindirin. Siz gələndə ruhumuz təzələnir.

H e y d ə r Ə l i y e v: Həmişə qəlbimdə olacaqsınız.

Əziz biçənəklilər, bacılar, qardaşlar, uşaqlar, gənclər!

Mən sizin hamınızı salamlayıram. Bu gün, həqiqətən, təbiətin füsunkar guşəsi olan Biçənək kəndində olmağımdan, bütün bu dağı-daşı, yenilməz qayaları görməyimdən həddindən artıq sevinirəm. Siz qəhrəman insanlarsınız ki, burada, bu dağların başında yaşayırsınız. Sizin ətrafınız qayalardır, daşlardır.

Bilirəm, burada təbii fəlakətlər olur. İndi biz avtomobillə gələndə Vasif Talıbov mənə danışırdı ki, sel gələndə oraları necə dağıtmışdı, nə qədər böyük daşlar gətirmişdi, körpünü dağıtmışdı. Təbii fəlakətdir. Belə şeylər siz yaşadığınız yerlərdə daha çox olur, nəinki şəhərlərdə, yaxud aran yerlərində olan kəndlərdə. Amma sizin xüsusiyyətiniz odur ki, dağ adamısınız. Dağ adamı həmişə öz sağlamlığı ilə fərqlənir. Həm fiziki sağlamlığı, həm də zehni sağlamlığı ilə, yüksək mənəviyyatı ilə fərqlənir. Dağ adamı zəhmətkeşliyi ilə fərqlənir. Bilirəm, bu dağların arasında, qayaların arasında yaşamaq və yaşamaq üçün şərait yaratmaq asan məsələ deyildir. Amma siz fədakar insanlarsınız, eyni zamanda, qəhrəman insanlarsınız ki, burada yaşayırsınız.

Buranın xüsusiyyəti odur ki, gözəl iqlimi var, gözəl havası, yamacları, çəmənləri, qayaları var. Bəzi qayalara baxanda elə bil dünyanı görürsən. Amma çətinlik də odur ki, burada yaşayış şəraiti başqa yerlərə nisbətən çətindir. Yəni o tərəfi də var, bu tərəfi də var. Ancaq sizin taleyiniz bura ilə bağlıdır. Ata-babalarınız burada yaşayıblar, özünüz də burada yaşayırsınız. Amma görün burada, dağın başında, bu qayaların içində nə qədər gözəl uşaqlarınız var. Baxıram, hər biri gedib gözəllik müsabiqəsindən keçsə, ən yüksək qiymət alacaqdır. Həm qızlar, həm də oğlanlar nə qədər gözəldirlər. Çünki təbiətlə yaşayırlar. Təbiətlə yaşayan insanlar, yenə də deyirəm,

həm güclü olur, həm ağıllı olur, həm də gözəl-göyçək olur. Bax, sizi görürəm, sevinirəm. Amma yuxarı baxıram, uşaqları görürəm. Allah, nə qədər sevinirəm. Bunlar bizim gələcəyimizdir, Azərbaycanın gələcəyidir. Nə gözəl gələcəyimiz var! Bunlar böyüyəcəklər, oxuyacaqlar, təhsil alacaqlar və müstəqil Azərbaycani irəliyə aparacaqlar.

Siz sərhədə yaxın yaşayırsınız. Arxayın ola bilərsiniz ki, sizin təhlükəsizliyiniz təmin olunubdur. Xatirimdədir, mən burada işləyəndə ermənilər iki adam öldürmüşdülər. Mən onda buraya, ölənlərin yasına gəlmişdim. O ailə ilə görüşdüm. Belə şeylər olmuşdu. Amma indi belə şeylər ola bilməz. Biz sərhədlərimizi etibarlı qoruyuruq. Bizim güclü ordumuz var, bundan arxayın ola bilərsiniz.

Arxayın ola bilərsiniz ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır, yaşayacaq və inkişaf edəcəkdir. Bizim böyük işlərimiz, böyük proqramlarımız var. Onları həyata keçiririk və keçirəcəyik. Mən doqquz ildir bu işlərlə məşğulam və bu gün də çalışıram, sabah da çalışacağam, hələ bundan sonra bir çox illər də çalışacağam. Buna əmin ola bilərsiniz.

Avqustun 24-də referendum olacaqdır. Bilirsiniz, məlumatınız var. Referenduma çıxarılan məsələləri sizə izah ediblər, düzəlişlərlə tanış olmusunuz, bilirsiniz. Bunlarla razısınız? Referendum günü seçki məntəqələrinə gələcəksiniz? Mən sizi dəvət edirəm.

Yerdən səslər: Cənab Prezident, hamısını yaxşı bilirik və tamamilə razıyıq.

Heydər Əliyev: Güman edirəm ki, mənim təqdim etdiyim düzəlişlərə səs verəcəksiniz.

Yerdən səslər: Hamımız yekdilliklə səs verəcəyik.

Heydər Əliyev: Çox sağ olun, təşəkkür edirəm.

Kənd sakini **Şiralı Bayramov** onlarla görüşə gəldiyinə görə prezident Heydər Əliyevə minnətdarlığını bildirərək dedi:

Cənab Prezident, nə qədər ki, Sizin kölgəniz bizim başımızın üstündədir, özümüzü xoşbəxt hesab edirik. Dediyiniz kimi, bura dağlıq yerdir. Görün Siz nə qədər alicənabsınız ki, belə bir yerə 60–70 kilometrlik yol çəkdirmisiniz. Sizin sayənizdə yerli rəhbərlik bu yolu çəkibdir. Biz xoşbəxt olmuşuq, bir saat ərzində Naxçıvana gedib-gəlirik. Batabat yolları da həmçinin. Bunların hamısı Sizin sayənizdə olmuşdur.

Hörmətli Prezident, Sizə təşəkkür edirik ki, Vasif Talıbov kimi kadr qoyub getmisiniz. Sizin davamçınız var. Allah Sizə dəyməsin.

Zakir Salmanov (*kənd sakini*): Cənab Prezident, referendumla bağlı məntəqələr yaradılıbdır. Bütün planlar hazırlanıb, işlər qaydasında gedir. İnşallah, avqustun 24-də bütün kənd camaatı yüksək əhval-ruhiyyə ilə referendumda iştirak edəcək, Konstitusiyamızda lazım olan dəyişikliklərin aparılmasının lehinə səs verəcəkdir. Camaatımız Sizin siyasətinizi həmişə dəstəkləyir. Torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün təmin olunması üçün apardığınız siyasətin bəhrəsini görəcəyik. Əgər lazım olarsa, Ali Baş Komandanın əmri ilə biz özümüz də Vətən yolunda canımızı, qanımızı verməyə hazırıq. Sağ olun. Sizə uzun ömür, işlərinizdə uğurlar arzulayıram.

* * *

Daha sonra dövlətimizin başçısı məşhur Batabat yaylağında oldu, qədim diyarın uca dağları qoynunda Azərbaycan təbiətinin nadir guşələrindən birinin füsunkar gözəlliyini heyranlıqla seyr etdi, dillər əzbəri olan Zor bulağının suyundan içdi.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ NAXÇIVAN BÖLMƏSİNİN YARADILMASINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

Naxçıvan MP-nin Ali Məclisinin iclas salonu

12 avqust 2002-ci il

Hörmətli dostlar!

Hörmətli xanımlar və cənablar!

Siz bilirsiniz ki, avqust ayının 7-də mən Azərbaycan Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılması haqqında sərəncam imzalamışam. Bu sərəncamda da bu bölmənin qarşısında duran vəzifələr haqqında qısa fikirlərimi bildirmişəm.

Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda, Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də, təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də düz olardı deyim ki, heç öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var. Ona görə ki, Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsi olaraq, Azərbaycan xalqının tarixində, ümumiyyətlə, Azərbaycan anlayışında çox böyük yer tutur.

Azərbaycan elə bir ölkədir ki, onun çox qədim tarixi var. Bizim tarixçilər XX əsrdə çox işlər görüblər. Ancaq mən cəsarətlə deyə bilərəm ki, hələ ki, Azərbaycanın, xalqın, ümumiyyətlə, bu torpağın, ölkənin tarixi lazımi səviyyədə öyrənilməyib, tədqiq olunmayıbdır. Bu sahədə çox böyük işlər görülməlidir. Bununla onu demək istəyirəm ki, Azərbaycan nadir bir ölkədir, nadir bir ərazidir, bəşər tarixində Azərbaycan bir ərazi kimi, bir ölkə kimi və Azərbaycan xalqı bir xalq kimi, böyük tarixi proseslərin iştirakçısı olubdur. Biz indi, müstəqil Azərbaycanda özümüz ölkəmizin, torpağımızın sahibi olduğumuz halda gərək bu qədim, çox zəngin tariximizi araşdırıb meydana çıxaraq və bu gün də, gələcəkdə də xalqımızın o dərin köklərini ümumi, bəlkə də bəzən çox gözəl ifadələrlə bəzənmiz sözlərlə yox, elmi sübutlarla, elmi əsaslarla həm öz xalqımıza çatdıraq, həm də dünyaya göstərək ki, Azərbaycan xalqının kökü haradandır, tarixi nədir və Azərbaycan bir ölkə kimi, bəşər tarixində hansı yeri tutur. Mən açıq deyə bilərəm ki, görkəmli yer tutur. Ancaq biz bunu indiyə qədər göstərə bilməmişik.

Azərbaycan haqqında fikirlərimi sizə çatdıraraq demək istəyirəm ki, bu baxımdan Naxçıvan xüsusi yer tutur. Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Əgər Azərbaycanın tarixi haqqında, ümumiyyətlə, bir çox işlər görülübsə, Naxçıvanın tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi – həm təbiətinin, həm adət-ənənələrinin, etnoqrafiyasının öyrənilməsi barədə çox az iş görülübdür. Bunları nəzərə alaraq, mən bu sərəncami vermişəm.

Bir məsələ də nəzərə alınmalıdır ki, Naxçıvan Azərbaycanın tərkibində Muxtar Respublikadır. Təəssüflər olsun ki, vaxtilə, Sovet İttifaqı yarananda, müttəfiq respublikalar yara-

nanda, onların arasında sərhədlər qoyulanda Azərbaycan torpaqlarının bir qismi Ermənistana verilibdir və bunun nəticəsində də Naxçıvan Muxtar Respublikası ərazicə Azərbaycanın əsas torpağından aralı düşübdür. Bunların hamısı Naxçıvanın çox ətraflı öyrənilməsini tələb edir.

Mən burada tarix haqqında çox danışıram. Tarix, mədəniyyət, tarixi abidələr, memarlıq abidələri... Məsələn, Naxçıvanın ərazisini götürsək, bu kiçik ərazidə həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri var.

Azərbaycanın bir çox bölgələrində bunlara rast gəlmək olmur. Amma burada var. Onlar yüz illərlə durub, yaşayıbdır. Baxmayaraq ki, onlara yüz illərlə heç qayğı da göstərilməyibdir, hətta müxtəlif proseslər zamanı, bəzən müharibələrlə, yaxud da ki, başqa hadisələrlə əlaqədar onların uçurdulması, dağıdılması halları olubdur. Amma buna baxmayaraq, bu tarixi-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm də mədəniyyətini, adət-ənənələrini göstərən abidələrdir. Mən indi desəm ki, Mömünə xatın türbəsi haqqında geniş təsvirli, müasir poliqrafiya səviyyəsində hazırlanmış albom, onun haqqında tarixi mənbələr və başqa şeylər toplusu varmı? Hesab edirəm ki, yoxdur, mən görməmişəm. Əgər olsaydı, mən görərdim. Ayrı-ayrı bukletlər var, broşürlər var. Ancaq elə bircə bu abidə böyük bir kitaba bərabərdir. Yəqin ki, kitab da bunun yanında heç bir şeydir. Amma o, kitabda əks etdirilməyibdir. Onun həm memarlıq xüsusiyyətləri, həm mühəndis işləri, inşaat işləri, tikinti materialları, abidənin yaranması tarixi və sair. Onun hər bir fraqmenti müasir poliqrafiya üsulundan istifadə edilərək albomda əks olunsa, onun özü elə Azərbaycan mədəniyyətinin nə qədər zəngin olduğunu göstə-

rəcəkdir. Amma Naxçıvanda olan təkcə Mömünə xatın abidəsi deyil, nə qədər bu cür abidələr var. Nə qədər təbii abidələr var.

Mən keçən il, bu il çox ciddi göstərişlərlə nail olmağa çalışıram ki, Gəmiqaya obyektində lazımi ekspedisiya işləri aparılsın. Keçən il mən bunu gec bildim. Sərəncam verdim. Bizim arxeoloqlar gəldilər-getdilər, orada bir az iş gördülər. Artıq mövsüm qurtardı, iş görmək mümkün deyildi.

Bu il əvvəldən xəbərdarlıq etmişəm. Bilmirəm, indi orada işlər gedir, ya getmir, aparılır, ya aparılmır. Amma bu elə bir abidədir ki, gedib iki-üç gün onun yanında oturmaqla, yaxud çadır qurub yatmaqla onu heç kim öyrənə bilməz. Hər il ekspedisiya mövsümündə orada aylarla tədqiqat aparmaq lazımdır. Aylarla... Çünki orada payızın ilk vaxtlarından soyuqlar düşür, şaxta, qap olur. Oraya getmək mümkün deyildir. Bunun üçün ancaq yay fəslindən istifadə etmək lazımdır.

Bu, bildiyiniz kimi, həm təbiətin böyük bir abidəsidir, eyni zamanda, insan yaradıcılığının abidəsidir. Bu abidə Azərbaycanındır. Azərbaycanın tarixini əks etdirən abidədir. Amma onu öyrənməkdə biz passivik. Çox passivik. Keçmişdə, sovet dövründə passiv olmusunuz, bunları bağışlayıram. Müstəqilliyimiz haqqında hamı böyük iftixar hissi ilə danışır. Lakin deməkdən savayı, kim nə edir? Müstəqillik haqqında şüar demək, yaxud onun haqqında yaxşı bir şeir oxumaq – bu hələ müstəqilliyi möhkəmləndirmək demək deyildir. Müstəqilliyi möhkəmləndirmək üçün xalqımızın, millətimizin qədim tarixini, keçdiyi yolu elmi surətdə tədqiq edib əsərlər, illüstrativ materiallar, kinotelelentlər yaratmaq, bunu həm öz xalqımıza, həm də bütün dünya xalqlarına göstərmək lazımdır. Ancaq Naxçıvan bölməsinin fəaliyyəti təkcə bunlarla məhdudlaşmayacaqdır.

Azərbaycanın təbii sərvətləri – həm yeraltı, həm də yerüstü sərvətləri çox zəngindir. Mən indi bu barədə xırdalıqlara varmaq istəmirəm. Bunların hamısı məni məcbur etdi ki, nəhayət, qərar qəbul etdim, sərəncam verdim. Mən 300 nəfər ştat ayırmağa hazıram. Bu barədə də artıq sərəncam vermişəm. Bu işi təşkil etmək lazımdır. Amma belə böyük bir işi təşkil etmək üçün onun səviyyəsinə qalxmaq lazımdır. Mən çox narahatam ki, ola bilər, ştat da verək, bölmə də yaradaq, başqa işləri də görək, amma bütün işlər köhnə qayda ilə getsin. Köhnə qayda ilə gedəndə də – necə ki, on illərlə həmin qayda ilə gedib, lazımi nəticə əldə etməmişik – sabah da nəticə olmayacaqdır. Mən bununla razılaşa bilmərəm.

Desək ki, Naxçıvanda bu barədə lazımi tədbirlər görülməyib, bu, düzgün olmaz. Çünki vaxtilə, Azərbaycanda ilk dəfə, 1945-ci ildə Elmlər Akademiyası təşkil ediləndə onun bir neçə bölgədə şöbələri, yaxud təşkilatları yaradılmışdı. Bildiyimə görə, ilk dəfə Akademiyanın Naxçıvan şöbəsinə bizim hörmətli, qocaman müəllimimiz Lətif Hüseynzadə başçılıq etmişdir. Elədirmi, Lətif müəllim? Bəli, o, başçılıq etmişdir. Görün həmin dövrdən nə qədər vaxt keçib, 55 il, ondan da çox vaxt keçibdir. Ondan sonra müxtəlif yerlərdə elmi mərkəzlər, orada-burada xüsusi konstruktor büroları yaradılıbdır. Hərə guya bir iş görmək istəyibdir. Amma bu işlər çox pərakəndə vəziyyətdə gedibdir. Belə bir şəraitdə, ola bilər ki, bunu indiki kimi, bir tərəfdən, anlamayıblar, ikinci tərəfdən də, imkan da olmayıbdır.

Xatirimdədir, mən Moskvada işləyəndə «Şərq qapısı» qəzetində Gəmiqaya haqqında məqalə çıxmışdı. Onu böyük bir problemə çevirdilər. ermənilər qalxdılar ki, burada – Azərbaycanda millətçilik var. Xatirimdədir, bir dəfə biz – Siyasi Büro-

nun üzvləri Moskvada Böyük Teatrda mövsümün açılışına getmişdik. Qorbaçov idi, Siyasi Büronun başqa üzvləri idi, mən idim, tənəffüs zamanı oturmuşduq, çay içirdik. Qorbaçov məndən soruşdu ki, Azərbaycanda millətçilik çoxdur, yoxsa azdır? Mən dedim ki, ümumiyyətlə, millətçilik müttəfiq respublikalarda var, Azərbaycan ən beynəlmiləl bir respublikadır və orada millətçilik başqa respublikalara nisbətən çox azdır.

Onda bizim yanımızda oturan Siyasi Büronun üzvlərindən biri qayıtdı ki, «yox, Heydər Əliyeviç, yəqin ki, Siz düz demirsiniz. Bax, görürsünüzmü, Naxçıvanda «Şərq qapısı» qəzetində məqalə dərc ediblər, millətçilik haqqında, filan haqqında...». Mən dedim ki, nə məqalədir? Düzü, mənim bundan heç xəbərim yox idi ki, nə məqalədir, nədir. Bunu şişirdərək elə bir vəziyyətə gətirib çıxarmışdılar ki, SSRİ-nin rəhbərliyi, Siyasi Büro səviyyəsində söhbət gedirdi. Mən dedim ki, bilmirəm. Sonra maraqlandım, həqiqətən, belə şey olmuşdur. Moskvadan buna çox ciddi reaksiya vermişdilər. Azərbaycan Kommunist Partiyasının rəhbərliyi – mən burada olanda eşitmişdim, bəlkə bu fikirlərim dəqiq olmasın – Naxçıvan Vilayət Partiya Komitəsinə göstəriş vermişdi ki, bu məsələ araşdırılsın. Həmin məsələ burada müzakirə olunmuşdu – Naxçıvanda keçmiş vaxtlardan işləyən işçilər var, yəqin ki, onlar bilirlər – kimlərisə cəzalandırmışdılar. Vasif, elədirmi yoxsa yox?

V a s i f T a l ı b o v: «Şərq qapısı» qəzetinin redaktorunu işdən çıxarmışdılar. Əvvəllər o qəzet «Sovet Naxçıvanı» adlanırdı. Redaktorun müavininə töhmət vermişdilər. Ondan sonra bu məsələ Mərkəzi Komitənin plenumunda da müzakirə olunmuşdu.

H e y d ə r Ə l i y e v: Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda?

V a s i f T a l ı b o v: Bəli.

H e y d ə r Ə l i y e v: Görürsünüzmü? Nə üçün? Çünki ermənilər deyirmişlər ki, bu abidə Azərbaycanın deyil, ermənilərindir. Amma həqiqətən də bu, Azərbaycanındır. Həmin abidənin Azərbaycana məxsus olması barədə bir söz deyəndə, görürsünüzmü, söhbət hansı səviyyəyə gedib çatmışdı və buna necə reaksiya verilmişdi. Mən onda dəhşətə gəldim, inanmırdım ki, belə şey var. Sonra, 1990-cı ildə mən buraya – Naxçıvana gəldim, burada yaşayarkən bununla maraqlandım. Bunları, Vasif Talıbovun dediklərini mənə çatdırdılar. Bu fakt nəyi göstərir? O tərəfin bu barədə çox təşəbbüskarlığını, gözüaçıqlığını, onlara mənsub olmayan şeyləri özlərinə çıxmaq, əllərinə keçirmək cəhdini, amma bizim tərəfin passivliyini və biri kiçik bir iş görəndə onun başından vurmasını. İndi mən fikirləşirəm, məgər o vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi bunu araşdırıb Moskvaya, Mərkəzi Komitəyə bildirə bilməzdimi ki, burada bir şey yoxdur? Amma yox, canlarını qurtarmaq üçün deyiblər ki, müzakirə edin, yəni özümüz boynumuza alaq ki, bəli, burada biz millətçiliyə yol vermişik və beləliklə də, özümüzü göstərək ki, biz millətçi deyilik.

Mən bunu ona görə xatırlayıram ki, o vaxt bir tərəfdən, şərait münasib olmayıbdır, bir tərəfdən də, yenə də deyirəm, bizim insanlarda çox passivlik olubdur. Amma mən istəyirəm ki, daha bu passivlik olmasın. İndi heç kəs, heç nədən qorxmasın. Belə şeylərdən ötrü heç kəsi cəzalandırmaq mümkün deyildir. Heç kəs müstəqil Azərbaycanın işinə qarışa bilməz. Mən də Azərbaycan prezidenti kimi, sizə və bütün əhalimizə, bütün alimlərimizə, ziyalılarımıza bildirmək istəyirəm ki, Azərbaycanın, onun xalqının tarixini, mədəniyyətini, keçmişini dürüst, əsaslı şəkildə sübut edən hər bir əsər bəyəniləcəkdir. Bu barədə heç kəsə nə millətçi damğası vurulacaq, nə də kimsə günahlandırılacaqdır. Bununla bir daha bildirmək istə-

yirəm ki, indi, müstəqil dövlət şəraitində bizim alimlərimizin böyük imkanları var. Amma alimlərimiz gərək keçmiş sovet sistemində çalışdıqları iş üslubundan uzaqlaşsınlar.

Gərək o passivlikdən əl çəksinlər, bəziləri gərək «yuxudan ayılsınlar». Çünki əgər bizim millətimizin keçmişini, tarixini, mədəniyyətini, onun mənliyini bizim alimlərimiz, ziyalılarımız tədqiq etməsələr, xalqımıza, dünyaya göstərməsələr, sübut etməsələr, bəs bunu kim edəcəkdir? Bax, bütün bu səbəblərdən mən Naxçıvan Muxtar Respublikasında Elmlər Akademiyasının bölməsinin yaradılması haqqında qərar qəbul etmişəm. Qərarı qəbul edəndən sonra özüm buraya gəlmişəm. İstəyirəm ki, bu qərarın həyata keçirilməsinin təşkilatı işində, onun başlanğıcında özüm iştirak edim və fikirlərimi bildirim. Çünki bəzən mən çox vacib sərəncamlar verirəm, ancaq təəssüflər olsun ki, icraçılar o sərəncamın ruhunun səviyyəsinə qalxa bilmirlər. Onun hərfi mənasını da düzgün anlaya bilmirlər. Görürsən ki, gözəl sərəncam, gözəl təşəbbüs bir müddətdən sonra batmağa məruz qalır. Bunun üçün də mən özüm, görürsünüz, buradayam, sizinlə birlikdəyəm və bu işin başlanğıcını sizinlə birlikdə müzakirə etmək istəyirəm*.

---

* Müşavirədə MR-in rəhbər işçiləri, Ali Məclisin deputatları, MEA-nın nümayəndə heyəti, tanınmış alimlər, ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

Akademik Mahmud Kərimov MEA-nın Naxçıvan bölməsinin yaradılması ilə əlaqədar hazırlanmış təkliflər barədə ətraflı məlumat verdi.

Prezidentin fəxri təqaüdçüsü əməkdar müəllim, filologiya elmləri namizədi Lətif Hüseynzadə, Naxçıvan Dövlət Universitetinin rektoru, MEA-nın müxbir üzvü İsa Həbibbəyli, coğrafiya elmləri doktoru, professor, Naxçıvan Şəhər Ağsaqqallar Şurasının sədri Səfərəli Babayev, Naxçıvan Dövlət Universitetinin prorektoru, professor İsmayıl Hacıyev, Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, professor Vəli Əliyev, MEA-nın müxbir üzvü Məşədixanım Nemətova müşavirədə çıxış edərək, Azərbaycan elminin inkişafına göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına dərin minnətdarlıqlarını bildirdilər.

YEKUN NİTQİ

Hesab edirəm ki, Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimovun məlumatı, məruzəsi avqustun 7-də mənim verdiyim sərəncamın həyata keçirilməsi üçün görülən işlərin əsası kimi qəbul oluna bilər. Buna görə də mən Milli Elmlər Akademiyasına, onun prezidentinə, mənim aparatımın humanitar söbəsinə və onun müdiri Abdullazadəyə tapşırıram ki, indi ilkin hazırlanmış layihə əsasında Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin həm strukturu, həm də yaranacaq institutların özünün struktur və vəzifələrinin hamısı müəyyən edilsin. Bunların hamısı Milli Elmlər Akademiyasının özü tərəfindən təşkil olunacaqdır.

Ancaq mən istərdim ki, onlar bunu müzakirə edib qəbul etməzdən öncə mən də buna baxım, tanış olum və öz fikirlərimi bildirim. Bunu tezliklə etmək lazımdır, gecikdirmək olmaz və işə başlamaq lazımdır.

Burada bildirildi ki, Naxçıvan Muxtar Respublikasında müxtəlif elmi mərkəzlər – həm Milli Akademiya ilə, həm başqa təşkilatlarla bağlı – fəaliyyət göstərir. Mahmud Kərimov dedi ki, orada təxminən 200-ə yaxın adam çalışır, belədirmi? Sən məruzəndə belə bir şey dedin.

M a h m u d K ə r i m o v: Bəli, 200-ə yaxın adam çalışır.

H e y d ə r Ə l i y e v: 200-ə yaxın adam… Bu rəqəmi mən indi burada eşidərkən belə düşündüm, siz hesab etməyin ki, 200-ə yaxın işçi var və 100 də mən əlavə edəcəyəm, cəmisi 300 olacaqdır. Yeni institutlar ki, yaranacaq, onların yaranmasında buradakı ayrı-ayrı elmi mərkəzlərdir, təşkilatlardır, onlardan istifadə olunmalıdır. Onların say tərkibi ixtisar olunmayacaqdır. Onlar da yeni yaranan institutlara qatıla-

caqdır. Ona görə də siz indi hesablayın, sonra mənə deyərsiniz. Belə halda, ümumiyyətlə, əgər doğrudan da 200 nəfərin hamısı yararlı olsa, yəni insanlar yox, o ştatlar, təşkilatlar yararlı olsalar, onlar da indi yeni yaranan institutların tərkibinə daxil olsalar, onda burada Milli Elmlər Akademiyasının bölməsinin təxminən 500-ə qədər ştatı olacaqdır. Deməli, 500-ə qədər adam burada elmi-tədqiqat işi ilə və bizim bu indi qoyduğumuz müxtəlif vəzifələrin həyata keçirilməsi ilə məşğul olacaqdır. Ona görə də mən istədim ki, siz məsələni düz başa düşəsiniz və bu istiqamətdə düz hərəkət edəsiniz. Bunların hamısı toplanıb mənə bildirilməlidir. Güman edirəm ki, bu elmi mərkəzlər, müxtəlif təşkilatlar da yaradılacaq müvafiq institutların tərkibinə daxil olacaqdır. Onlar ya indiyə qədərki strukturları ilə daxil olacaqdır, yaxud da ki, müəyyən dəyişikliklər ediləcəkdir. Buna da baxmaq lazımdır. Bunların hamısı asan məsələ deyildir. Çünki burada illərlə müəyyən bir mərkəz fəaliyyət göstərir. Onun özünün indiyə qədər istiqaməti var. İndi gərək o, institutda öz yerini tapsın. Yerini də mövcud strukturla tapmır, institutun strukturu yaranır.

O mərkəzin üzərinə düşən vəzifələr institutun tərkibində olan müəyyən bölmələrə bölünür və beləliklə, onun içində əriyir. Yəni artıq burada paralel başqa elmi mərkəzlər olmamalıdır. Bunlar hamısı birləşməlidir və Milli Elmlər Akademiyasının bölməsi kimi fəaliyyət göstərməlidir. Bu çox da asan məsələ deyildir. Ona görə mən bir daha təkrar edirəm. Akademiyanın prezidenti Mahmud Kərimova və aparatımın şöbə müdiri Fatma Abdullazadəyə tapşırıram ki, bununla çox ciddi məşğul olasınız və mənə tezliklə təkliflərinizi təqdim edəsiniz.

Akademiyanın prezidenti belə fikir söylədi ki, burada işləyən adamların maaşı Bakıda olan institutlardakıların

maaşından artıq olsun. Sən dedin, iki dəfə artıq, buna baxaram. Mən də düşünürəm ki, burada maaşlar artıq olmalıdır. İndi iki dəfə, ya nə qədər, ona baxaram. Hər halda, burada artıq olmalıdır. Bizim alimlərin hamısı Bakıda oturmağa öyrəniblər. Ona görə oradan qopub buraya gəlmək üçün, təbii ki, maddi stimul da olmalıdır. Biz bunu da təmin edəcəyik.

Ancaq bu institutların kadrlarının komplektləşdirilməsində birinci növbədə yerli kadrlardan istifadə etməlisiniz. Eyni zamanda, attestasiya da keçirməlisiniz. Baxın görün, yerli kadrlardan bəziləri ola bilər. Uzun illər hansısa bir xırda təşkilatda oturub maaşını alır, faydalı bir iş görməyibdir, yaxud o işi görməyə, sadəcə, onun elmi potensialı çatmır. Onda təbiidir ki, o dəyişdirilməlidir. Yəni siz bilin, bu institutlarda strukturlar, ştatlar müəyyən ediləndən sonra kadrlarla təmin olunanda gərək buraya çox ciddi münasibət göstərəsiniz. Dedim, yerli kadrlardan, təcrübəli kadrlardan istifadə edəsiniz. Eyni zamanda, gənc kadrlardan, müasir səviyyədə hazırlığı olan kadrlardan, xarici dil bilən kadrlardan istifadə etmək lazımdır.

Burada yaşlı kadrlarla gənc kadrların vəhdətinin təmin olunması çox vacibdir. Çünki buradakı təcrübəli yaşlı kadrlar çox şey bilirlər, çox şeyi də ediblər. Belələri Bakıda da var, gəlib burada işləyə bilərlər. Ancaq eyni zamanda, biz düşünməliyik ki, elmi-tədqiqat institutları gənc, müasir tələblərə cavab verən, xarici dillər bilən kadrlarla da təmin olunmalıdır. Siz bunu da nəzərə almalısınız.

Buradakı çıxışlarda – həm akademiyanın prezidentinin, həm də başqa natiqlərin çıxışlarında, hesab edirəm ki, bizim görəcəyimiz işi, yəni akademiyanın burada bölməsinin yaranması haqqında sərəncamdan irəli gələn vəzifələri düzgün şərh edirlər. Eyni zamanda, indiyə qədər görülmüş işlər haqqında

bu məlumatları verdilər. Mən qeyd etmək istəyirəm ki, indiyə qədər burada görülmüş işlər inkar olunmur. Biz onları qiymətləndiririk, indiyə qədər də qiymətləndirmişik. Buna görə də burada bəzi alimlər mükafatlanıblar, yüksək elmi dərəcələr alıblar. Mən bu gün bir də qeyd edirəm ki, biz bunu qiymətləndiririk. Doğrudan da bəzi sahələrdə çox işlər görülübdür.

Məsələn, mən Vəli Əliyevi tanıyıram. Ömrünün çoxunu elə burada keçiribdir. Orada arxeoloji axtarışlar aparır, burada torpaqları qazır. Yadımdadır, 1990-cı ildə Naxçıvana təzə gəlmişdim. Hələ heç bir işlə məşğul deyildim. Gəldi mənimlə görüşdü. Dedim, haraya gedirsən? Dedi ki, Kültəpədə qazıntı işləri aparırıq. Kültəpədə işlərinizi qurtardınızmı, yoxsa hələ davam edir?! Şərurda da qazıntı işləri aparırdınız. Bu işlər gedibdir, çox iş görüblər, nəticələr də əldə ediblər. Eyni zamanda, indi Vəli Əliyev deyir ki, Gəmiqaya haqqında keçən il və bu il biz ekspedisiya təşkil etdik, iş apardıq. Amma nə üçün tək keçən il və bu il?

Mən bu gün çıxışımda dedim, keçən il hələ ilin yarısı idi, mən bu məsələni qoydum. Onda sizi təcili səfərbər edib oraya göndərdik. Yadındadımı, bu sizin təşəbbüsünüzlə olmayıbdır. Bunu bilməlisiniz. Ondan sonra mən dedim ki, keçən il görə bilmədiyiniz işlərə gələn il, yəni bu il əvvəlcədən hazırlaşın. Bu barədə Naxçıvanın başçısı Vasif Talıbov da həm keçən il, həm də bu il çox işlər görmüşdür – oraya həmin o yolun çəkilməsi, müəyyən şəraitlərin yaradılması. Mən ona tapşırdım ki, arxeoloji ekspedisiyanın orada təminat məsələsi var. Onların hamısını Naxçıvan Muxtar Respublikasının rəhbəri Vasif Talıbov üzərinə götürdü. Bunların nəticəsində indi sən burada çox böyük sevinc hissi ilə deyirsən ki, artıq biz Gəmiqaya haqqında kitab verəcəyik. Çox gözəl, amma 3-4 il

bundan qabaq heç oradan xəbərin yox idi. Xəbərin var idi, amma gedib oraya əlini vurmamışdın. Başa düşürsən!

Nəhayət, getdin, indi bu gün deyirsən ki, orada təkcə Gəmiqaya yazıları deyil, orada arxeoloji qazıntılar da aparmaq lazımdır. 2-3 il gedəndən sonra orada daha da çox şey görəcəksən. Amma mən demək istəyirəm ki, orada sizin işiniz bununla qurtarmır. Bilin, planınıza salın, hər il – özü də dövrü maksimum götürün – orada iş aparmalısınız. Ümidvaram ki, orada yeni-yeni çox şeylər, Azərbaycanın qədim tarixini təsdiq edən sübutlar tapacaqsınız.

Çıxışlarda çox məsələlər haqqında danışdılar, dedilər ki, bir çox mövzular öyrənilməyibdir. Hamısı düzdür. Amma mən bu sərəncamı hazırlayarkən, bunun haqqında düşünərkən, nəhayət, sərəncamı imzalayarkən, burada sizinlə görüşəndə giriş sözümdə də dedim – düşünürdüm ki, bütün bu işlər görülməlidir. Ancaq hamısı bərabər səviyyədə görülə bilməz. Yəni bərabər etmək olmaz.

Biz indi vəsait ayırmalıyıq. Burada doğru dedilər, biz vəsait ayırmalıyıq ki, binalar hazırlansın, müəyyən cihazlar, kompüterlər alınsın. Bunların hamısını biz edəcəyik. İnstitutlar yaranacaqdır. Amma bunların hamısını bərabərləşdirmək olmaz. Siz, akademiyanın prezidenti, akademiya bunu bilməlidir, bunu bərabərləşdirmək olmaz. Burada var əsas istiqamətlər, hansı ki, birinci növbədə edilməlidir, bir də ikinci, üçüncü dərəcəli istiqamətlər var.

Ümumiyyətlə, bizim böyük məqsədimiz Naxçıvanın tarixini bütün, hərtərəfli öyrənmək, tədqiq etmək, onları həm elmi kitablarda dərc etmək, həm populyar kitablarda dərc etmək, həm də təbliğat materiallarında istifadə etməkdir. Amma burada bir nömrəli məsələlər vardır. Həbibbəyli deyir

ki, Məmməd Səid Ordubadinin əsərləri 35 ildir çap olunmur. Çap olunmalıdır. O bizim müasirimizdir.

Məmməd Səid Ordubadinin özünü mən də görmüşəm, «Dumanlı Təbriz», «Gizli Bakı», «Döyüşən şəhər» kitablarını da oxumuşam. Onun üç məşhur əsəri vardır. İndi də yadımdadır. Bir də «Qılınc və qələm» əsəri. Elədir, yoldaş Həbibbəyli? Sən ədəbiyyatçısan, mən isə ədəbiyyatçı deyiləm. Amma gördün, hamısını necə dəqiq dedim. Bunlar hamısı var, bizim xatirimizdədir. İmkan olanda bunları etmək lazımdır. Amma bu, müasir həyatdır. Müasir həyat onsuz da məlumdur.

Burada kimsə dedi, vaxtilə Naxçıvanda komsomol hərəkatının tarixi, nə bilim, kolxoz hərəkatının tarixi, Naxçıvanda kommunist partiyasının tarixi, həmkarlar ittifaqının tarixi, başqa tarix – işlərin çoxu buna gedibdir.

Amma indi Azərbaycanın qədim diyarı kimi, Naxçıvanın tarixini öyrənmək, Azərbaycan xalqının tarixini əks etdirmək üçün ondan materialların çıxarılmasını təmin etmək lazımdır. Təkcə yerin altında deyil, arxivlərdən, dünya kitabxanalarından çıxarmaq lazımdır. Fondlar var, əlyazmalar fondu.

Dünyanın bir çox məşhur kitabxanalarında gedib işləmək lazımdır. Mərhum Ziya Bünyadov Atabəylər haqqında kitabı nə cür yazdı? Mənə elə gəlir ki, deyəsən, İstanbulda işləmişdi, materialları oradan tapırdı. Bir dəfə gedib işləyib materialları toplamışdı və böyük bir kitab yazdı. İndi görün, əgər biz belə tədqiqatları bir dəfə yox, dəfələrlə aparsaq və paralel olaraq dünyanın məşhur kitabxana mərkəzlərində aparsaq, təkcə yerin altından deyil, onlardan da çox material toplayacağıq.

Məsələn, mən daha çox iştərdim ki, Naxçıvan xanlığının tarixi çox gözəl yazılsın. Naxçıvan xanlığının çox böyük tarixi var. Bu xanlıq nə vaxt yaranıbdır, fəaliyyəti nədən ibarət

olubdur? Axı Naxçıvanı idarə ediblər. İrəvan xanlığı var. Naxçıvan xanlığı ilə İrəvan xanlığı bir-birilə çox bağlı idi. İndi ermənilər deyirlər ki, yox, orada ermənilər olubdur. Amma həqiqətən İrəvan xanlığıdır. Naxçıvan xanlığını siz dərindən öyrənəndə, mütləq İrəvan xanlığına gedib çıxacaqsınız. İrəvan xanlığı haqqında Ermənistanda tapmadığınız materialları Rusiyanın arxivlərində, Sankt-Peterburqda, rus imperiyasının arxivlərində tapacaqsınız və görəcəksiniz ki, nələr var.

Mən bunu misal üçün deyirəm, sizə yeni mövzular vermək fikrində deyiləm. Yəni bununla sizi mənim istədiyim istiqamətə yönəltmək istəyirəm. İstəyirəm ki, siz gücünüzü səpələməyəsiniz, burada belə olsun, orada elə olsun, nə bilim, iki ştat buna verək, üç ştat ona verək. Yox. Əsas məsələlər, mövzular ətrafında cəmlənməlidir. Bəlkə də mövzu əvvəldən müəyyən olunmalıdır. Həmin mövzunun həyata keçirilməsi üçün bir kollektiv yaradılmalıdır. Onun üçün ayrıca vəsait verilməlidir. Bunlar da ola bilər.

Bir sözlə, istəyirəm ki, hamınız mənim bu təşəbbüsümü, sərəncamımı, bir də deyirəm, onun ruhunu dərindən dərk edəsiniz və onun ruhu əsasında işlərinizi quracasınız. Onda biz nəticələr əldə edəcəyik.

Maaşlar haqqında, kapital qoyuluşu haqqında, təchizat haqqında, yəni lazım olan materiallarla təchiz haqqında narahatlığınız olmasın. Çünki bir halda, biz bu işi təşkil edirik, demək, o sahələrə ki, əlavə vəsait ayırmaq lazımdır, əlavə işlər görmək lazımdır, bunları görəcəyik.

Bir sözlə, mən ümidvar olduğumu bildirmək istəyirəm ki, Azərbaycanın Milli Elmlər Akademiyası bu sərəncamla çox böyük və vacib işə başlayacaqdır. Bu, təkcə Naxçıvana aid olan iş deyildir. Bunun mənim üçün dərin mənası var, o mə-

nada ki, bizim Azərbaycan xalqının tarixinə, ölkəmizin tarixinə aid olan bir məsələdir. Mən bu məsələni bundan ötrü qaldırmışam. Ümidvaram ki, siz bu vəzifələri yerinə yetirəcəksiniz. Sizin hamınıza işlərinizdə uğurlar, cansağlığı və səadət arzulayıram. Sağ olun.

VAYXIR SU ANBARI İLƏ TANIŞLIQ

12 avqust 2002-ci il

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının böyük bir ərazisində suvarmanın təmin edilməsində mühüm rol oynayacaq Vayxır su anbarının tikintisi ilə bağlı məsələlərlə yerində tanış olmaq üçün buraya gəlmişdir.

Azərbaycan Baş nazirinin müavini Abid Şərifov, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov, Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əhməd Əhmədzadə muxtar respublikada bütün sahələrdə, xüsusən iqtisadi sahədə islahatların uğurla həyata keçirilməsi üçün son illər görülmüş işlər, o cümlədən Vayxır su anbarının inşası barədə dövlətimizin başçısına məlumat verdilər. Bildirildi ki, su anbarı xarici sərmayə hesabına tikiləcəkdir. Bəndin hündürlüyü 70 metrə çatdırıldıqdan sonra anbara yığılan su Üçtəpə, Nehrəm, Sirab dəryaçalarının doldurulmasında mühüm rol oynayacaqdır.

Sonra Vayxır su anbarında aparılacaq inşaat işləri, bu sututarın perspektivləri və imkanlarından maksimum səmərə ilə istifadə olunması məsələləri ətraflı təhlil olundu, mütəxəssislərin rəyləri öyrənildi.

Azərbaycan prezidenti Heydər Əliyev su anbarının tikintisində işlərin daha da sürətləndirilməsi üçün dəyərli tövsiyələrini verdi.

A b i d Ş ə r i f o v: Cənab Prezident, su anbarının həcmini Siz bilirsiniz. Nəzərdə tutulmuş layihədə 100 milyon kubmetrdir. Onun 10 milyonu göl, 90 milyonu suvarma üçündür. Beləliklə, 9900 hektar sahənin suvarılması yaxşılaşdırılacaq və əlavə olaraq təxminən 7 min hektar yeni sahələr suvarılacaqdır.

Ə h m ə d Ə h m ə d z a d ə: Cənab Prezident, bu vaxta qədər olan suvarma şərti suvarmadır, yəni nasosların hesabınadır. Ancaq tikiləndən sonra 9900 hektar sahənin suvarılması yaxşılaşacaq, 6900 hektar yeni suvarma sahəsi yaranacaqdır. Sağ və sol tərəfdən iki kanal da çəkiləcəkdir.

H e y d ə r Ə l i y e v: Demək, su kanallarla gedəcəkdir. Kanalların uzunluğu nə qədər olacaq?

A b i d Ş ə r i f o v: Təxminən 22–27,5 kilometr.

H e y d ə r Ə l i y e v: 27,5 kilometr tam çatacaqdır?

V a s i f T a l ı b o v: Cənab Prezident, Naxçıvanın bir hissəsinə çatacaqdır.

H e y d ə r Ə l i y e v: Hansı hissəsinə, yəqin ərazi hissəsinə çatacaqdır.

V a s i f T a l ı b o v: Bəli. Biz buradakı gölün boşalmasına yol vermirik, yəni su işləndikcə yenidən doldururuq.

H e y d ə r Ə l i y e v: Göllərdə daim su olur?

V a s i f T a l ı b o v: Bəli.

H e y d ə r Ə l i y e v: Demək, burada əsas iş bəndin torpaqla doldurulması və lazımi səviyyəyə qaldırılmasıdır. Bundan sonra betonlanması və su sızan yerlərin qarşısının alınması olacaqdır. Birinci növbədə iş bundan ibarətdir. Bəndi qaldırmaq, betonlamaq, sonra suyu doldurmaq. İndi burada kanal yoxdur?

V a s i f T a l ı b o v: Bəli, faktiki yoxdur.

H e y d ə r Ə l i y e v: Demək, suyu çaya buraxırsınız.

V a s i f T a l ı b o v: Köhnə kanallar vasitəsilə çaya buraxırıq.

A b i d Ş ə r i f o v: Hazırda müəyyən işlər görülür. Mütəxəssislər bəndin bütün qüsurlarını yoxlayırlar.

H e y d ə r Ə l i y e v: Siz deyirdiniz ki, haradasa deşik var.

V a s i f T a l ı b o v: Biz özümüz əlavə bir kanal açmışıq ki, əgər sel olarsa – bəzən güclü sel olur – bəndi dağıtmasın, zərər verməsin.

H e y d ə r Ə l i y e v: Yəni bəndin deşilməsində problem yoxdur.

V a s i f T a l ı b o v: Yox, heç bir şey yoxdur.

A b i d Ş ə r i f o v: Biz Sizə məruzə etdik. Sentyabrın 30-dək mütəxəssislər rəylərini deyəcək və qiymətlər müəyyən olunacaqdır.

H e y d ə r Ə l i y e v: Əgər bənd varsa, demək, bu daha da möhkəmlənibdir, strukturunu necə itirə bilər?

Ə h m ə d Ə h m ə d z a d ə: Cənab Prezident, bəndin hər iki küncündə birləşmə getməlidir. Bu ondan ötrüdür ki, möhkəm olsun, su tam dayansın. İndiyə qədər bu birləşmə aparılmayıbdır.

H e y d ə r Ə l i y e v: Bəndi yoxlayanda əsas onun beton hissəsinə baxmaq lazımdır. Siz deyirsiniz ki, bu bəndin səviyyəsi qalxacaqdır. Burada istifadə olunacaq, ya olunmayacaqdır?

Ə h m ə d Ə h m ə d z a d ə: Beton bəndin səviyyəsini yuxarı qaldıracaqdır.

H e y d ə r Ə l i y e v: Nə qədərdir?

Əhməd Əhmədzadə: 24 metr. Yuxarıda, bəndin üstündən 1,5 metrlik beton divar töküləcəkdir. Arxa hissəsində də maşınla gedib gəlmək üçün 10 metrlik yol olacaqdır.

Abid Şərifov: İndi mütəxəssislər işləyirlər. Sentyabrın axırında dəqiq rəqəmlər müəyyən olunacaqdır.

Heydər Əliyev: Sentyabrın axırında. Hələ sizin bir ay yarımınız var. Yəqin burada yeni iş yerləri də olacaqdır.

Abid Şərifov: Bəli. Cənab Prezident, Sizin göstərişinizlə Vayxır su anbarının yenidən işə başlaması ilə əlaqədar tapşırıqlar verilibdir. Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mütəxəssisləri və mühəndislər hazırda işləyirlər. Sizə məruzə etdiyimiz kimi, sentyabrın sonuna layihəçilər öz işlərini təqdim edəcəklər. Biz buraxılış obyektlərinin siyahısını Sizə verəcəyik. Bu obyektləri tikmək üçün ən son layihə və qiymət göstəriləcəkdir.

Sizin tapşırığınızla aşağıdakı işlərin görülməsini nəzərdə tuturuq. Birinci növbədə su anbarının tikintisinin qurtarması. Su anbarının həcmi 100 milyon kubmetrdir. Bu gün anbara yığılan su 22–25 milyon kubmetrdir. Bildiyiniz kimi, bu su anbarının tikintisi maliyyə çətinlikləri ilə əlaqədar 1995-ci ildən tam dayandırılmışdır. Elə bilirəm ki, biz iki ay ərzində Sizə tam məruzə edəcəyik. Layihədə sağ-sol kanallarının tikilməsi də nəzərdə tutulur. Bu kanalların ümumi uzunluğu 50 kilometrə yaxındır.

Heydər Əliyev: Bu kanallar hansı hissəni, hansı kəndləri tutur?

Vasif Talıbov: Cənab Prezident, Sirab, Nəcəfalı, Dizə kəndlərini və Culfa rayonunun ərazisini tutur. Bu, hazırda suvarılan 9,5 min hektar torpaqdır. 4 min 364 hektar isə yeni suvarılacaq sahələrdir. Sonra Culfanın 2 min 311 hektar

və Şahbuzun 406 hektar suvarma sahələrinin yenidən qurulması, 244 hektar isə yeni sahələrin suvarılmasıdır.

Abid Şərifov: Cənab Prezident, bu yeni kanallar hesabına nasos stansiyalarından istifadə olunmayacaqdır. Yəni suvarma üçün nasosların hamısı ləğv olunur.

Vasif Talıbov: Nasoslar ləğv olunmur, ehtiyatda qalır. Kanaldakı su öz axarı ilə gedir, bu əraziləri suvarır. Nasoslar isə ehtiyata keçir.

Heydər Əliyev: Bu, əsas kanaldır?

Vasif Talıbov: Bu çaydır.

Heydər Əliyev: Anbardan çıxan suyun bir hissəsi kanallarla, bir hissəsi də çayla gedəcəkdir.

Abid Şərifov: Çoxu kanallarla gedəcək, qalan hissəsi isə çaya buraxılacaqdır. Ehtiyac olanda suyu anbara yığacağıq, ehtiyac olmayanda isə çaya buraxılacaqdır.

Heydər Əliyev: Başa düşürəm, buraya toplayacağımız sudan kanallarla istifadə edəndə, eyni zamanda, artıq su qalacaqdır və bunu çaya buraxacaqsınız. Elədir?

Abid Şərifov: Bəli.

Heydər Əliyev: Bu, köhnə kanaldır. İndi yenisini tikəcəksiniz. Köhnə kanal gedib oraya qədər çatır?

Vasif Talıbov: Köhnə kanal var, ancaq bunlar nasoslarla qidalanırlar. Ona görə də səmərəli istifadə etmək olmur.

Heydər Əliyev: Demək, köhnə kanal var və gedib oraya qədər çatır. Su buradan niyə öz axarı ilə getmir?

Abid Şərifov: Həm relyefinə görə, həm də buraxma qabiliyyəti çox azdır.

Heydər Əliyev: Deməli, su buradan öz axarı ilə getmir. Amma kanalı siz buradan çəkəndə su öz axarı ilə gedəcəkdir. İkinci kanal hanı?

Abid Şərifov: Budur, uzunluğu 25 kilometr olacaqdır.

Heydər Əliyev: Haraya qədər gələcəkdir?

Vasif Talıbov: Əliabada, Qaraçuqa qədər.

Heydər Əliyev: Bu kanal suvarma üçün deyildir.

Əhməd Əhmədzadə: Həm suvarma üçündür, həm də Uzunoba gölünü doldurmaq mümkün olacaqdır.

Heydər Əliyev: Yaxşı, onda su bu kanaldan haraya gedəcəkdir? Çünki əgər aşağıya gələcəksə..

Əhməd Əhmədzadə: Yox. Çayla o biri kanalın arası ilə gələcək.

Heydər Əliyev: Buradan da öz axarı ilə gələcəkdir, yoxsa...

Əhməd Əhmədzadə: Bəli, hamısı öz axarı ilə gələcək.

Heydər Əliyev: Demək, su bura qalxacaqdır.

Əhməd Əhmədzadə: Bəli. Buradakı üç gölü – Uzunoba, Sirab və Nehrəm göllərini doldurmaq mümkün olur. Bununla 30 milyon kubmetr su yığmaq olur. Vayxırda su çox olanda bu üç gölü doldurmaq mümkün olacaqdır. Faktiki olaraq, bu sistemlə 130 milyon kubmetr su yığmaq olacaqdır.

Heydər Əliyev: Sizin bu çoxillik müşahidələriniz nəyi göstərir? Vayxırla bu göl həmişə dolacaqdır?

Əhməd Əhmədzadə: Cənab Prezident, 75 faiz təminatla 142 milyon kubmetr su var. Yəni 100 ilin 75 ilində 142 milyon kubmetr su olacaqdır.

Heydər Əliyev: Yəni istədiyimiz qədər.

Əhməd Əhmədzadə: Bəli. Amma arada quraqlıq illər də olur. Ancaq bu göllərin dolması hesabına düzələcəkdir. Ümumiyyətlə, bizə 16 min 800 hektar sahəni suvarmaq üçün 175 milyon kubmetr su lazım olur.

H e y d ə r Ə l i y e v: 175 milyon, demək, onda çatmır?

Ə h m ə d Ə h m ə d z a d ə: Biz 130 milyonu birdəfəlik yığırıq. Amma suyun axını davam edir. Yəni suyun dövr etməsi hesabına bu düzəlir və tam təminatlı suvarma sistemi olur.

H e y d ə r Ə l i y e v: Demək, əsas məsələ, bəndi, bu kanalları yaratmaqdır.

Ə h m ə d Ə h m ə d z a d ə: Burada iki məsələ də qalır. 15 kilometrlik elektrik xəttinin və 8 kilometrlik Şahbuz yolunun 3 kilometrinin çəkilməsi qalıbdır. Bunları da etmək lazımdır. Çünki 460 hektar sahəni su basması ehtimalı ola bilər. Ona görə də o sahədən yolu və elektrik xəttini çıxarmaq lazımdır.

V a s i f T a l ı b o v: Yol Şahbuza tərəf düz keçəcəkdir.

H e y d ə r Ə l i y e v: Ona görə yolu dəyişmək lazımdır.

V a s i f T a l ı b o v: Bəli, bir hissəsi, 5 kilometri çəkilibdir. Ortada bir hissə, 3 kilometr qalıbdır.

A b i d Ş ə r i f o v: Biz bu gün səhər yerli mütəxəssislərlə yerində xəttin və yolun yenidən qurulmasına baxmışıq.

H e y d ə r Ə l i y e v: Yaxşı, deməyə başqa sözünüz var?

A b i d Ş ə r i f o v: Xeyr.

H e y d ə r Ə l i y e v: Mənim üçün hər şey aydındır. Sabah müşavirədə geniş məlumat verərsiniz.

İşgüzar müzakirələrdən sonra Vayxır su anbarının tikinti meydançasında jurnalistlərə verdiyi müsahibə

H e y d ə r Ə l i y e v: Təmiz hava alırsınız. Görürsünüz, sizin üçün nə qədər yaxşı iş görürəm. Məndən nə istəyirsiniz?

S u a l: Cənab Prezident, Naxçıvanın enerji təchizatı ilə bağlı üç layihə var idi. Bu layihələr problemi həll edə bilərmi?

H e y d ə r Ə l i y e v: Əhmədzadə, hazırlaş, cavab ver.

Ə h m ə d Ə h m ə d z a d ə: Cənab Prezident, Ordubadla bağlı su elektrik stansiyası kanal vasitəsilə həyata keçirilir. Bu, İranla bağlı məsələdir. O vaxt Siz İranda olanda Məzrə su elektrik stansiyasının tikilməsi barədə söhbət etmişdik. Biz də Ordubad su elektrik stansiyasını tikmək istəyirdik. Danışıqlar bir müddət getdi. Amma onlar da tikmədilər, biz də tikmədik.

H e y d ə r Ə l i y e v: Araz çayının üzərində İranla bizim layihəmiz var. Sən Araz çayından danışırsan, yoxsa Dəstə çayından danışırsan?

J u r n a l i s t: Dəstə kəndinin yaxınlığından...

Ə h m ə d Ə h m ə d z a d ə: Dəstə kəndinin yaxınlığında su elektrik stansiyası olmalı idi.

H e y d ə r Ə l i y e v: Bu, İranla əlaqədardır. Biz İranla danışıqlarımızda bu məsələni çox tez-tez qoyuruq. Ancaq təəssüf ki, onlar gətirib bunu Xudafərinlə bağlayırlar. Yəni siz icazə verin, biz Xudafərində işi davam etdirək və qurtaraq. Biz isə buna razılıq vermirik. Çünki Xudafərində Araz çayının biz tərəfdəki sahili Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Ona görə, təbii, biz buna razı ola bilmərik. Doğrudur, onlar bizə cürbəcür izahatlar verirlər ki, biz hazırlayaq, başlayaq, bu iş çox vaxt aparacaq, o vaxta qədər məsələ həll oluna bilər. Dedim, bu ola bilməz. Hətta biz onlara bir-iki dəfə demişdik ki, siz ermənilərlə danışın, Araz çayının sahilində təxminən 5–7 kilometr zolağı – Xudafərin hissəsində – azad etsinlər, bizim ordumuz oraya daxil olsun, o hissəni mühafizəyə götürsün. Onda biz bu işi apara bilərik. Onlar bunu edə bilmədilər. Çünki güman edirəm, ermənilər onlara bu razılığı vermədilər.

S u a l: Cənab Prezident, Naxçıvana İrandan qaz alınıb verilməsi məsələsi nə yerdədir?

C a v a b: Bu olacaqdır. Bizim Iqtisadi Inkişaf naziri Fərhad Əliyev və İranın Kooperasiya naziri Sufi, yəni bizim müştərək komissiyanın sədrləri mən Naxçıvana gedəndən iki gün qabaq orada görüşmüşlər, bu barədə prinsipial razılıq var. Yəqin bunu həyata keçirmək mümkün olacaqdır.

S u a l: Cənab Prezident, Dağlıq Qarabağda yeni «seçkilər» keçirilib və Qukasyan qalib gəlibdir. Sizcə, bu amil danışıqlara təsir edəcəkmi?

C a v a b: Heç bir təsir etməyəcəkdir. Çünki hamı bilir ki, orada «seçkilər» keçiriləcək, kim qalib gələcək, özlərinin işidir. Bilirəm, keçirilibdir.

S u a l: 110 meqavat gücündə Naxçivan qaz-turbin stansiyası ilə bağlı bir layihə var idi. İnvestisiyaya görə qalmışdı. Bununla əlaqədar göstərişiniz olacaqmı?

C a v a b: Mən orada işləyən vaxt Türkiyədən dörd ədəd turbin alıb gətirdik. Onun birini işlətməyə də başladıq, bir az enerji verdi. İndi də hərdən işlədirlər.

V a s i f T a l ı b o v: Bəli, bayram günlərində işlədirik.

H e y d ə r Ə l i y e v: Onlar var. Əgər indi qaz alsaq, onları işə salmaq olar. Onların hərəsi neçə meqavatdır?

V a s i f T a l ı b o v: 15 meqavatdır.

H e y d ə r Ə l i y e v: Hərəsi 15 meqavat, 4 ədədi də daimi 60 meqavat elektrik enerjisi versə, bu, Naxçıvanın 50 faizdən çoxunu təmin edir. Elədirmi?

V a s i f T a l ı b o v: Elədir.

H e y d ə r Ə l i y e v: Amma onun üçün də qaz lazımdır.

S u a l: Cənab Prezident, Siz indi içəridə müzakirə keçirdiniz. Orada mətbuat üçün açıqlana bilən məqamlar varmı?

C a v a b: Yox. Sadəcə olaraq, orada yer yox idi ki, siz gələsiniz. Sizdən xəlvət bir şey yoxdur, hər şey aşkardır. Sabah müşavirədə burada danışdığımız məsələlərin hamısını geniş surətdə müzakirə edəcəyəm.

S u a l: Cənab Prezident, İrandan hansı yolla qaz alınması daha sərfəlidir?

C a v a b: Bilirsən, bir neçə variant var. Əvəzləmə də var, ödəmə də var. İndi biz bunların hansından istifadə edəcəyik, onu deyə bilmərəm. Çünki əvəzləmə bir-iki şərtlərlə bağlıdır. Ödəmə də, əlbəttə, bizim vəsaitimizdən asılı olacaqdır. Yaxud ola bilər, ekvivalent olaraq onlara neft məhsulu verək. Bu da ola bilər. Bunlar hamısı dəqiqləşdiriləcəkdir.

S u a l: İran yüksək qiymət qoyur, Ermənistanla eyni qiymət qoyur.

C a v a b: Bu, keçmiş şeydir.

S u a l: Ermənistanla eyni qiymətə razılaşırsınızmı?

H e y d ə r Ə l i y e v: Ermənistana qiymət nə qədərdir?

J u r n a l i s t: İran deyir ki, rəsmi 82 dollardır, amma qeyri-rəsmi 60 neçə dollardır.

H e y d ə r Ə l i y e v: İnanmıram. Qiyməti danışacağıq. İndi mən sizə bir qiymət deyə bilmərəm. Qiymət çox çətin məsələdir. Elə bizim bu tikintinin qiymətini də mən soruşuram, deyirlər. Deyirəm yox, gəlin sabaha qədər də fikirləşin.

S u a l: Cənab Prezident, bu, baş verərsə, Naxçıvanın sənaye həyatının inkişafını necə görürsünüz?

C a v a b: Oğlum, bu, sənayeyə aid deyil, kənd təsərrüfatına aiddir. Bunu orada dedilər, sabah da deyiləcəkdir. Mən əvvəlcədən bunları bildirmək istəmirəm.

J u r n a l i s t: İrandan qaz alınmasından sonranı deyirəm.

H e y d ə r Ə l i y e v: Yox, biz İrandan qaz alıb burada sənaye inkişaf etdirmək istəmirik. Çünki buna o qədər imkan yoxdur. Sadəcə, Naxçıvanı qazla təchiz etmək istəyirik.

S u a l: Cənab Prezident, referenduma çıxarılan məsələlər Azərbaycan üçün çox əhəmiyyətlidir. Amma bir məsələ var ki, Azərbaycanda bir az başqa cür fikirlər yaradır. Məsələn, alternativ hərbi xidmət məsələsi. Sizcə, bu, indiki reallıqda problemlər yaratmayacaq ki?

C a v a b: Bilirsiniz, o məsələ Avropa Şurasının tələbi ilə əlaqədardır. Bu məni də düşündürür. Sağ olun.

VAYXIR SU ANBARININ TİKİNTİSİNƏ HƏSR OLUNMUŞ MUŞAVİRƏDƏ NİTQ

Naxçıvan MP Ali Məclisinin iclas salonu

13 avqust 2002-ci il

Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

Mən bu dəfə Naxçıvana gələndə bəyan etdim ki, Naxçıvanda bir neçə böyük problemlərin həll edilməsi ilə məşğul olacağam. Görürsünüz ki, ayın 10-da buraya gələndən bunu edirəm. Bu problemlərdən biri Naxçıvan Muxtar Respublikası üçün çox böyük əhəmiyyəti olan Vayxır su anbarının tikilib başa çatdırılması və layihəyə uyğun olaraq istismara verilməsidir. Güman edirəm ki, bunu dəfələrlə burada müzakirə etmisiniz, keçmişdə də müzakirə edilibdir. Onun əhəmiyyəti sizə yaxşı məlumdur, izah etməyə ehtiyac yoxdur.

Hələ 1981-ci ildə onun layihəsi hazırlanmışdır. Ancaq belə bir su anbarının yaranması haqqında qərarı biz Azərbaycanda bundan bir neçə il öncə qəbul etmişdik. Yəni belə böyük tikintiləri biz özümüz həll edə, onları öz vəsaitimizlə inşa edə bilmirdik. Bunlar Azərbaycanın büdcəsinə daxil ola bilmirdilər. Bunların hamısını biz o vaxtlar ümumittifaq büdcəsindən və ümumittifaq iqtisadiyyatının müxtəlif sahələrindən istifadə edərək həyata keçirirdik. Ona görə Vayxır su anbarının tikilməsinin ideyası çoxdandır və bu işin görülməsi haqqında da

hələ xeyli zaman layihə işlərinə başlanmamışdan əvvəl biz lazımi qərarlar qəbul etmişdik. Nəhayət, 1981-ci ildə bu layihələşdirildi, 1982-1983-cü illərdə inşaat işlərinə başlandı. Ancaq indi 2002-ci ildir, 20 il keçib, bu, yarımçıq qalıbdır. Təbiidir ki, indi zamanı gəlib, yəqin bizim imkanlarımız buna şərait yaradır ki, bu böyük layihəni tamamilə həyata keçirək.

Naxçıvan Muxtar Respublikasının həyatında bu, indi də böyük rol oynayır. Amma inşaat işləri tam qurtarandan sonra böyük rolu olacaqdır, kənd təsərrüfatı istehsalını artıracaqdır. Ümumiyyətlə, Naxçıvanın su təminatı məsələsi biryolluq həll olunacaqdır. Ona görə də mən bu layihənin həyata keçirilməsini öz nəzarətimə götürdüm. Amma gördüm ki, bu məsələ mənim nəzarətimlə həll olunmur. Təşəbbüsü öz üzərimə götürdüm ki, bu barədə lazımi tədbirlər görüm.

Dünən mən su anbarında, bənddə oldum. Ondan əvvəl mən Baş nazirin müavini Şərifovu, sizin naziri, başqa mütəxəssislərimizi oraya göndərmişdim. Onlar o işlərlə məşğul olmuşdular. Dünən axşamçağı mən də orada oldum. İşlərlə yerində tanış oldum, orada kiçik bir müzakirə apardıq. İndi isə mən istəyirəm ki, bu məsələni burada müzakirə edim. Yəni o mənada ki, tapşırıqlarımın yerinə yetirilməsi haqqında mənə məlumat verilsin. Sizinlə birlikdə baxaq, görək bu gələcək proqramı nə cür tərtib edəcəyik və onu nə cür həyata keçirəcəyik.

Mən indi bu salona girərkən bir şey xatirimə gəldi. Bir anlığa düşündüm ki, bəlkə mən elə 1993-cü ildən buradan getməmişəm, buranın Ali Məclisinin sədriyəm. Çünki o vaxtlar biz bu salonda tez-tez toplaşırdıq, sessiyalar, iclaslar keçirirdik. Dünən birinci dəfə alimlərlə, bu gün də ikinci dəfə buraya daxil olanda elə bildim ki, həmin o dövrdür və mən də

həmin vəzifədəyəm. Amma həqiqətən belə deyildir. Mən, sadəcə, indi bu salondan istifadə edirəm. O vaxt xatirinizdədir, yoxsa yox? Yoldaş Vasif Talıbov, deyəsən bunlar yadlarından çıxarıblar.

V a s i f T a l ı b o v (*Naxçıvan MR Ali Məclisinin sədri*): Cənab Prezident, çoxunun xatirindədir.

H e y d ə r Ə l i y e v: Biz bu masanın arxasında nə qədər günlər, saatlar, dəqiqələr keçirmişik. Bizim nə qədər ağır günlərimiz, gecələrimiz olubdur. Ona görə bu bina, bu salon, hesab edirəm ki, böyük tarixə malikdir.

YEKUN NİTQİ

Mənim sizin müzakirənizə verdiyim, yəni sizi tanış etmək üçün bu gün irəli sürdüyüm məsələ, hesab edirəm ki, Abid Şərifovun, Əhmədzadənin və xüsusən Vasif Talıbovun çıxışlarında tamamilə aydın göstərildi.

Burada Şərifov da, Talıbov da bəzi tarixi anları yada saldılar. Həqiqətən, zaman keçdikcə biz gördüyümüz işlərin çoxunu unuduruq. Bəzən yeni nəsillər də düşünürlər ki, elə-belə də varmış, belə imiş. Amma həqiqət də ondan ibarətdir ki, Azərbaycanda və o cümlədən onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasında son 30 ildə çox işlər görülmüş, yaxşı nəticələr əldə olunmuş, Azərbaycan bütün sahələrdə inkişaf etmiş, Azərbaycanın iqtisadiyyatı, ölkəmizdə insanların yaşayış səviyyəsi yüksəlmiş, Azərbaycan tamamilə dəyişmişdir. Fərqi yoxdur, bu nailiyyətlər biz Sovet İttifaqının tərkibində olduğumuz zaman, yaxud da ondan sonrakı dövrdə, müstəqillik dövründə olubdur – bunlar hamısı Azərbaycanındır, hamısı bizimdir, bizim millətimizindir. Doğrudur, 1987-1988-

ci illərdən Azərbaycanda dağıdıcı proses başladı. Bu proses 1990-1991-ci illərdə, 1992-1993-cü illərdə ən dəhşətli miqyasa gəlib çıxdı.

Çox şey dağıdıldı. İndi 9 ildir onların bəzilərini biz bərpa edirik. Amma mən bütün bu tarix haqqında düşünərkən həmişə çox iftixar hissi keçirirəm ki, görün Azərbaycanın o illərdə yaradılan iqtisadi potensialı, intellektual potensialı nə qədər böyük olub ki, bunu tamamilə dağıda bilmədilər. Çox zərbələr vurdular, çox yaralar vurdular. Bir tərəfdən, Azərbaycanı dağıdan 1987-1988-ci illərdən başlayaraq daxildə gedən proseslər, ikinci tərəfdən, ən dəhşətli hadisə – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi idi. Bu münaqişədə yenə də Azərbaycanın daxili ictimai-siyasi vəziyyətinin sabit olmamasından və hakimiyyət uğrunda çəkişmənin daim davam etməsindən istifadə edən Ermənistan qəsbkarları Azərbaycanın torpaqlarını işğal edə bildilər. İşğal olunmuş o torpaqlarda Azərbaycanın dağıdılmış varidatı yüz illərlə, bir çox nəsillərin zəhməti nəticəsində yaranmış varidatdır. İndi onların hamısı dağıdılıbdır, oralar viran olubdur. Hətta bizim o gözəl, münbit Qarabağ torpaqları da, Arazboyu ən məhsuldar torpaqlarımız da indi çox ağır vəziyyətə düşübdür. Bu, Azərbaycanın bütün həyatı üçün, o cümlədən iqtisadiyyatı üçün böyük zərbədir. Bu işğalın nəticəsi də ikinci zərbədir. Ona görə ki, biz böyük itkilər vermişik və Azərbaycanın ərazisinin 20 faizinin işğal olunduğu bir vəziyyətdə oradan zorla çıxarılmış insanlar hələ çadırlarda yaşayırlar. Bunlar Azərbaycanın iqtisadiyyatı üçün əlavə çətinliklər yaradıbdır.

Bütün bunlara baxmayaraq, 1995–1996-cı illərdən Azərbaycanın iqtisadiyyatı ardıcıl surətdə inkişaf edir. Təsəvvür edin, o illərdə, 1987–1988-ci illərdən başlanan dağıdıcılıq işlə-

ri 1990–1991-ci illərdə Azərbaycan iqtisadiyyatını tamamilə böhran vəziyyətinə gətirib çıxarmışdı. İlbəil tənəzzül gedirdi. Sənaye, kənd təsərrüfatı istehsalı, iqtisadiyyatın ümumi göstəriciləri ildə təxminən 20 faiz azalırdı. Yəni artmaq əvəzinə aşağı düşürdü. Ancaq biz bunu 1994–1995-ci illərdə böyük çətinliklə dayandırdıq. 1996-cı ildən iqtisadiyyatımız inkişaf etməyə başladı. İndi hər il inkişaf davam edir. Ötən ili çox gözəl iqtisadi göstəricilərlə bitirdik. Bu il – artıq 8 ay başa çatacaqdır – çox yaxşı göstəricilərlə biz ili sona çatdırırıq. Onların hamısı bizim apardığımız düzgün iqtisadi siyasətin nəticəsidir. Ümumiyyətlə, bu, Azərbaycan dövlətinin ümumi daxili və xarici siyasətin, apardığımız, həyata keçirdiyimiz islahatların, struktur dəyişikliklərinin nəticəsidir. Bunları burada siz də həyata keçirirsiniz. Öz həyatınızda görürsünüz ki, nə qədər dəyişikliklər əmələ gəlibdir. İndi Azərbaycanda, onun bir hissəsi olan Naxçıvanda bolluq yaranıbdır. Çatışmayan bir şey yoxdur. Əgər biz XX əsri götürsək, yaxud da ki, sovet hakimiyyəti qurulan dövrdən indiyədək heç vaxt Azərbaycanda bütün xalq üçün – ayrı-ayrı qruplar üçün yox – bütün əhali üçün bu qədər bolluq olmayıbdır. Hər şeyin bolluğu var. Ərzaq məhsullarının, istehlak mallarının, bütün malların bolluğu var. Bu da bizim həyata keçirdiyimiz bazar iqtisadiyyatının nəticəsidir.

Beləliklə, mən o fikirdən başladım ki, Azərbaycan ötən dövrdə – burada 30 il haqqında danışılırdı – çox inkişaf etdi, böyük potensial yarandı. Onu dağıtsalar da, tam dağılmadı. Ötən 9 il ərzində biz bir çox şeyi bərpa etdik. Nəinki bərpa etdik, ümumiyyətlə, müstəqil bir dövlət kimi, öz müstəqil və dünya standartlarına uyğun olan iqtisadi siyasətimizi həyata

keçirdik və bu gün də keçiririk. Onların nəticəsində də biz belə nailiyyətlər əldə etmişik.

Bu gün müzakirə etdiyimiz məsələ Vayxır su anbarı ilə əlaqədardır. Amma burada xatırladılar, 1970-ci ildən sonra Azərbaycanda ölkəmizin torpaqlarının kənd təsərrüfatı istehsalı üçün su ilə təchiz olunması məqsədi ilə nə qədər çox işlər görülmüşdür, SSRİ büdcəsindən nə qədər çox vəsait alınmışdır. Alınan vəsait həmin o siz dediyiniz meliorasiya işlərinə ittifaq büdcəsindən gəlirdi. Bütün bu su anbarlarının, elektrik stansiyalarının tikilməsinə vəsaitin hamısı mərkəzi büdcədən gəlirdi. Amma mərkəzi büdcədən, mərkəzi hökumətdən də – bu bizim tariximizdir, çoxları bunu görməyib, görübsə də unudub, amma mən bu problemlərlə yaşamışam – bu cür böyük layihələri almaq, vəsaitləri almaq çox çətin məsələ idi.

1969-cu ildə mən Azərbaycana rəhbərliyə başlayanda – burada avqust plenumunu yada saldılar – həqiqətən 1969-cu il avqust ayının 5-də ilk plenumda Azərbaycanın iqtisadiyyatına geniş təhlil verildi. Həm Azərbaycana, yəni bizim xalqımıza, ölkəmizə, respublikamıza, həm də SSRİ-yə biz açıq-aydın göstərdik ki, Azərbaycanın iqtisadiyyatı ağır vəziyyətdədir və buna kömək etmək lazımdır. Ona görə də yadımdadır, 1970-ci ildə Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi, SSRİ Nazirlər Soveti Azərbaycan haqqında iki böyük qərar qəbul etdi. Bu qərarların biri Azərbaycanda kənd təsərrüfatı istehsalının, ikincisi, sənaye potensialının inkişafı barədə idi. Bu, o vaxtlarda da ağlagəlməz bir hadisə idi. Moskvada nazirlər, çox böyük-böyük adamlar, bir tərəfdən, bizi təbrik edirdilər, ikinci tərəfdən də deyirdilər ki, axı biz çox illərdir burada işləyirik, bir respublika üçün bu cür

qərarların qəbul olunmasını görməmişdik. Amma biz bunu etdik. Biz 5 il müddətində, 1970-ci ildən 1975-ci ilə qədər onları artıqlaması ilə yerinə yetirdik. Ona görə də mənim mənəvi haqqım oldu, getdim Moskvaya, həm Mərkəzi Komitənin qarşısında, həm Nazirlər Sovetinin qarşısında məlumat verdim ki, siz Azərbaycan haqqında qərarlar qəbul etdiniz. Siz də, çoxları da inanmırdı ki, Azərbaycan bunları yerinə yetirəcəkdir. Çünki keçmişdə Moskvada belə bir fikir yaranmışdı ki, Azərbaycanın rəhbərləri gəlir, söz verir, bəzən müəyyən kömək alır, amma heç bir şeyi yerinə yetirmirlər. Siz mənə də belə baxırdınız, haqqınız vardı. Amma indi mən sizə məlumat verirəm. Onlar məlumatı mənsiz də almışdılar. Amma mən oraya geniş məktub yazmışdım, hamısını göstərmişdim. Mənə dedilər ki, nə istəyirsən, dedim ki, gələcək illər üçün yeni qərarlar lazımdır. Çünki bilin, o sistem belə idi ki, artıq o qərarlar olanda hər bir ittifaq naziri onu yerinə yetirməli idi. Qərar olmasa, get ondan, bundan xahiş et. Amma qərar var, qərarı partiyanın Baş katibi, Nazirlər Sovetinin sədri imzalayıbdır. Əgər nazir, yaxud başqa ittifaq təşkilatı bunu yerinə yetirmirsə, onda dərhal gedirsən oraya, məlumat verirsən, onlar da bundan çox qorxurdular. Ona görə də həmin qərarların əhəmiyyəti bundan ibarət idi. Bir də bizim işlərimizi planlaşdırmaq lazım idi. Bu qərarlar bunun üçün də lazım idi.

Bəli, 1975-ci ildə Azərbaycanda kənd təsərrüfatı istehsalının daha da intensivləşdirilməsi tədbirləri haqqında Şərifovun dediyi qərar və 1976-cı ildə Azərbaycanda mütərəqqi sənaye sahələrinin inkişaf etdirilməsi haqqında qərar qəbul edildi. Sən deyirdin ki, maşınqayırma zavodları filan.., elek-

tronika, elektrotexnika – bunların hamısını yaratmaq haqqında 1976-cı ildə qərar aldıq. Bunlar sonralar da oldu.

Buna çox vaxt sərf etmək istəmirəm. Sadəcə, məsələ burada xatırlandı, mən istədim bu barədə geniş məlumat verim. Bunların da hesabına Azərbaycanda –burada Əhmədzadə sayırdı – kənd təsərrüfatı, su təsərrüfatı, meliorasiya sahəsində nə işlər görülübdür.

Azərbaycan həmişə kənd təsərrüfatı sahəsində su qıtlığından əziyyət çəkibdir. Azərbaycanın hər yeri, Naxçıvan xüsusilə çətinlik çəkibdir. Naxçıvanın gözəl torpağı, iqlimi, gözəl ab-havası və fədakar insanları var. Amma mənim xatirimdədir, 1940–50-ci illərdə Naxçıvanda su qıtlığı lazım olan işlərin görülməsinin qarşısını alırdı. Ona görə də burada bu tədbirləri gördük. Həmin burada sadalanan göllər, kanallar, nasos stansiyaları tikildi və sair. Biz nə qədər işlər görürük. Təsəvvür edin, indi əgər onlar olmasaydı, bu torpaqlardan nə cür istifadə oluna bilərdi? Yox, bu, mümkün deyildi! Onlardan biri də Vayxır su anbarıdır. Onun tarixi haqqında danışıldı. Niyə mən keçən dəfə gələndə də bununla maraqlandım, ondan əvvəl də maraqlanmışam, bu dəfə gələndə bunu proqramıma salmışam? Çünki bu iş başlanıb, bunun bir hissəsi görülüb, yarımçıq qalıbdır. Birincisi, mən 1981-1982-ci illərdə başladığım işi yarımçıq qoya bilmərəm. Hələ 1975-ci ildə həmin bu su anbarının tikilməsi SSRİ-nin qərarına düşübdür, Şərifovun burada elan etdiyi qərara salınıbdır. Sonra 1980-ci ilin əvvəllərində layihələşdirilib, tikintisinə başlanıbdır. İndi mən bunu buraxım, bundan sonra hələ 30 il də keçəcək, heç kəs bir şey edə bilməyəcək.

Ona görə yox ki, mən hansısa bir işi başa çatdırmaq istəyirəm, bu təbiidir, bu da lazımdır. Amma ona görə ki, burada

göstərildi, onun nə qədər böyük mənfəəti olacaqdır. Mən istəyirəm ki, bu mənfəəti Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatında çalışan insanlar görsünlər, alsınlar.

İkincisi, təkcə kənd təsərrüfatı üçün yox. Naxçıvanda su olmadığından insanlar məişətdə də çox əziyyət çəkiblər. Xatirimdədir, gənclik vaxtlarımda bizim həyətdə bir quyu vardı, ondan su çıxarırdıq. Orada da nə motor vardı, nə bir şey, kəndiri vedrəyə bağlayır, 6 metr dərinliyində olan quyudan su çıxarırdıq. Bu mənim yadımdadır. Bəzən quyuda su olmayanda kankanı dəvət edirdik, gəlib quyunun dibinə düşürdü. Biz də baxırdıq ki, o bu 6 metrlik quyunun dibinə necə düşür, onu təmizləyir, sonra çıxır. Mənim özüm o quyudan nə qədər su çıxarmışam. Anam da çıxarırdı, bizim başqa uşaqlar da çıxarırdı. Biz o sudan istifadə edirdik. Su yox idi. «Kran» sözünü Naxçıvanda, ümumiyyətlə, o vaxt heç kim bilmirdi. Sonralar su kəməri işə düşdü, onda Naxçıvanda belə bir söz yarandı ki, bu, kran suyudur, yoxsa yox. Abid Şərifov, o sən dediyin «qrant» sözü deyildir. Mən bunları görmüşəm... Amma ondan sonra da çox şey görmüşəm.

Nəhayət, 1990–1993-cü illərdə mən burada yaşayıb işləyəndə – bunu bir neçə dəfə demişəm – səhərlər əl-üzümüzü yumağa su tapmırdıq. Bacımın nəvələri gedib vedrə ilə hardansa su gətirirdilər, nəyin üstündəsə qoyub bir az qızdırırdılar, qış vaxtı mən əlimi yuyurdum. Mən bunları görmüşəm, bu şəraitdə yaşamışam. Şəxsən bunları görən, bu şəraitdə yaşayan adam indi ola bilərmi ki, lazımi tədbir görməsin ki, burada bundan sonra belə problemlər olmasın. Allaha şükür, indi Vayxırın o hissəsi elə Naxçıvanın su təchizatını yaxşılaşdırıbdır. Naxçıvanda indi su təchizatı barəsində çətinlik yoxdur.

V a s i f T a l ı b o v: Vayxırdan böyük xətlə Naxçıvan şəhərinə 800 millimetrlik diametrli borularla su kəməri çəkilmişdir. Kəmərdə su çox olduğundan bir hissəsi çaya axıdılır.

H e y d ə r Ə l i y e v: İndi artıq Naxçıvanda fəvvarələr var. Bunlar görünməyən şeylərdir. Bunlar varsa, deməli, su var. Əgər su olmasaydı, Naxçıvan bu qədər yaşıllaşardımı? Mən hər dəfə Naxçıvana gələndə baxıram. 9 il bundan öncə buradan getmişəm. O vaxt Ali Məclisin qarşısında ağaclar vardı, amma onların boyu bu qədər deyildi. İndi baxıram, qalxıblar, yoğun gövdələri var. Bu ağaclar Naxçıvana nə qədər gözəllik verir!

Bu, eyni zamanda, Naxçıvanın iqlimini daha da yaxşılaşdırır. Bunlara görə bu su anbarının tikintisini mütləq başa çatdırmaq lazımdır. Hesab edirəm ki, artıq bu məsələni mən müzakirə etdim. Abid Şərifova tapşırıram ki, Bakıya dönən kimi, bununla bağlı layihə işlərini aparsın, hazırlıq işləri görülsün. Qısa müddətdə mənə təkliflər, proqram verəsiniz. İki il müddətində 550 metr uzunluğunda və 75 metr hündürlüyündə bənd tikilməlidir. Bəndin tikilməsinə – bax, bu camaatın yanında deyirəm – xüsusi fikir verməlisiniz. Orada heç bir səhv olmamalıdır. Bənd o qədər etibarlı və mühəndis, texnologiya nöqteyi-nəzərindən o qədər keyfiyyətli olmalıdır ki, sənin burada dediyin həmin ifadə ki var, əgər bir şey olsa, o, Naxçıvan üçün böyük fəlakət olacaqdır, ona görə buna cavabdeh sizsiniz. Siz bunu ən yüksək dünya standartları səviyyəsində etməlisiniz. Qalan qurğular da – mən o barədə danışacağam – keyfiyyətli olmalıdır. Amma ən keyfiyyətlisi bənd olmalıdır.

Kanallar – o köhnə torpaq kanallar kənarda qalır – yenidən qazılır və beton işləri, dediyim kimi, yüksək keyfiyyətlə

aparılır ki, heç bir yerdən su sızmasın. Çünki nə su itkisinə, nə də – burada deyildi – torpaqların şoranlaşmasına yol vermək olmaz. Burada bənd, iki kanal, 5 meqavata yaxın elektrik stansiyası, bu da sizin üçün əlavə yaxşı bir şeydir. Qalan lazımi qurğular olacaqdır. Bunlar üçün nə qədər müasir texnika, başqa nə lazımdırsa, hamısını hazırlamalısınız. Bundan sonra mənə təqdim etməlisiniz və tezliklə işə başlamalısınız. İşə başlamalısınız ki, bu gün səhər mənə dediyiniz kimi, 2004-cü ilin sonunda raport verəsiniz ki, hər şey hazırdır, yoxlanılıbdır, mən də buraya gəlim, gedək onun açılışını qeyd edək və bununla da Naxçıvanın böyük problemini həll edək. 2004-cü ilin sentyabr–oktyabr aylarında...

Mən dünən də, bu gün də Naxçıvan haqqında öz fikirlərimi bir daha bildirmişəm. Amma bu, birinci dəfə deyildir. Çünki Naxçıvanın nə qədər böyük qayğıya ehtiyacı olduğunu bəlkə də Azərbaycanda mənim qədər bilən yoxdur. Birincisi, ona görə ki, burada siz qeyd etdiniz, mən 1969-cu ildən, Azərbaycana rəhbərlik edəndən respublikamızın hər bir bölgəsinin, o cümlədən Naxçıvanın da problemlərini həmişə öyrənmişəm, bilmişəm və lazımi tədbir görmüşəm. İkincisi də, Naxçıvan ağır vəziyyətə düşəndə, 1990-cı ildə mən gəlib burada 3 il yaşamışam. Ona görə bunu mən özüm həyatımda, özü də bu ağır dövründə hiss etmişəm. Bu mənim şəxsi hisslərimdir. Amma dövləti nöqteyi-nəzərdən, siyasi nöqteyi-nəzərdən, müstəqil bir dövlət kimi Azərbaycan, vahid Azərbaycan dövləti haqqında düşünərkən, Naxçıvanın burada xüsusi yeri var və xüsusi əhəmiyyət kəsb edir. Onun xüsusi qayğıya ehtiyacı var.

Keçən dəfə mən burada olanda bildirmişdim ki, Azərbaycanın nazirləri, başqa vəzifəli adamları mənim göstərişim ol-

madan, özləri ən azı iki aydan bir gəlib Naxçıvanda vəziyyətlə tanış olub, burada mövcud olan problemləri həll etməlidirlər. Ondan sonra bəzi nazirlər buraya gəlir və gələcəklər. Mən qorxuram, sonra siz deyəsiniz ki, göstəriş verin, çox gəlməsinlər, biz hər şeyi özümüz həll edirik. Yox. Siz edin. Siz çox işlər görürsünüz və deməliyəm ki, bu son illərdə Naxçıvanın rəhbərliyi və xüsusən Vasif Talıbovun rəhbərliyi nəticəsində çox işlər görülübdür. Naxçıvanın siması gündən-günə dəyişir. Amma bunlar hələ azdır. Mənim anlayışıma görə, böyük dövlətçilik nöqteyi-nəzərindən azdır. Böyük dövlətçilik, Azərbaycan dövlətçiliyi nöqteyi-nəzərindən bunlar hələ azdır. Ona görə, görüləsi işlər çoxdur və görüləcəkdir. Güman edirəm ki, siz bu qayğıdan, köməkdən, yardımdan səmərəli istifadə edəcəksiniz. Bundan heç vaxt sui-istifadə etməyəcəksiniz. Bunu mən xüsusi vurğulayıram. Heç vaxt sui-istifadə etməyəcəksiniz. Səmərəli istifadə edəcəksiniz ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin. Güman edirəm ki, biz bunlara nail olacağıq.

Mən sizə bu işlərdə uğurlar arzulayıram. Hər birinizə cansağlığı, səadət, mənim üçün çox əziz olan Naxçıvan Muxtar Respublikasının bütün əhalisinə, insanlarına öz dərin məhəbbətimi və sevgimi bildirirəm. Sağ olun.

RESPUBLİKANIN VƏ XARİCİ ÖLKƏLƏRİN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ ÜÇÜN KEÇİRDİYİ MƏTBUAT KONFRANSI

Naxçıvan MR Ali Məclisinin iclas salonu

13 avqust 2002-ci il

Q ə n i r ə P a ş a y e v a *(«ANS» telekanalı)*: Cənab Prezident, biz belə qərara gəlmişik ki, suallarımız üç hissədən ibarət olacaqdır. Birinci hissə ictimaiyyəti də maraqlandırır, yəni Qarabağla əlaqədardır. İkinci hissə xarici siyasət və referendum, üçüncü hissə isə daxili siyasət barədə olacaqdır.

H e y d ə r Ə l i y e v: Yaxşı, siz məni burada nə qədər saxlayacaqsınız?

Q ə n i r ə P a ş a y e v a: Bizə vaxt ayırdığınız üçün Sizə təşəkkür edirik. Sizin nə qədər vaxtınız varsa, o qədər.

Cənab Prezident, Siz sabah Ermənistan prezidenti Robert Köçəryan ilə görüşəcəksiniz. Prezident Heydər Əliyev bu danışıqlardan konkret nəticələr, irəliyə doğru addımlar gözləyirmi? Yoxsa bu, iki prezident arasındakı müzakirədir?

H e y d ə r Ə l i y e v: Bilirsiniz, bu barədə konkret bir şey deyə bilmərəm. Çünki bilməlisiniz ki, iki prezidentin görüşləri 1999-cu ildən başlayıbdır və bunlar xüsusi görüşlərdir. Bu, qeyri-adi bir haldır. Mənim keçmiş prezident Levon Ter-Petrosyan ilə də görüşlərim olubdur. Ancaq onda, adətən, biz beynəlxalq tədbirlərdə olduğumuz zaman, yaxud Moskvada

Müstəqil Dövlətlər Birliyinin toplantılarında olanda vaxt tapıb görüşürük. Köçəryan prezident seçiləndən sonra onunla da belə görüşlərimiz olmuşdur. Ancaq 1999-cu ildə biz Vaşinqtonda olanda Amerika Birləşmiş Ştatlarının Xarici Işlər naziri xanım Olbrayt mənimlə görüşdü, onunla da görüşdü. Cəhd göstərdi ki, bizim görüşümüzü təşkil etsin və belə də oldu. Üçümüz də oradakı bir otaqda görüşdük. Ancaq beş dəqiqədən sonra xanım Olbrayt çıxıb getdi. Dedi ki, mən sizi tək qoyuram, gedirəm. O vaxtdan bizim bilavasitə görüşlərimiz başlayıbdır.

Bəzən bu görüşlərin müəyyən ümidverici nəticələri də olubdur, bəzən əksinə. Deyim ki, bu görüşlərin əhəmiyyəti yoxdur, bunu deyə bilmərəm. Ancaq deyim ki, bu görüşlərdə biz konkret nəsə əldə edə bilirik, hələlik bu da yoxdur.

Düzdür, 1999-cu ildə bizim görüşlərimizin müəyyən perspektivləri göründü. Ancaq Ermənistanda parlamentdə terror hadisəsi olandan bir neçə ay sonra vəziyyət dəyişdi və əvvəlki görüşlərimizdəki bəzi-bəzi ümidlər azaldı. Ona görə də mən indi deyə bilmərəm ki, bu görüşdə nəsə əldə edəcəyik, yaxud nə qədərsə irəliyə gedəcəyik. Bunların heç birini deyə bilmərəm. Sadəcə, görüşüb vəziyyəti təhlil edəcəyik. Bunu da konkret deyə bilmərəm. Çünki bu, təkcə məndən asılı deyildir. Gedəcəyəm, görəcəyəm o nə fikirdədir, mən nə fikirdəyəm. Yaxud, bir balaca söhbət edəndən sonra, ola bilər, ikimiz də istəyək ki, danışıqlar daha çox hansı istiqamətdə getsin. Ona görə əvvəldən bir şey deyə bilmərəm.

Onu bildirmək istəyirəm ki, bunlar faydalıdır. Faydasız deyildir. Bəzən müxtəlif mənbələrdən deyirlər ki, bunun əhəmiyyəti nədir? Faydalıdır. Bir halda ki, biz atəşkəs rejimində yaşayırıq, bu rejimi qoruyub saxlamaq üçün iki ölkənin

prezidentlərinin bilavasitə görüşlərinin əhəmiyyəti var. Amma eyni zamanda, biz daha da açıq danışırıq.

Minsk qrupunun həmsədrləri çox iş görürlər. Onlar həm bizimlə söhbət edirlər, həm onlarla söhbət edirlər. Ancaq biz özümüz təkbətək daha da açıq danışırıq. Bir-birimizdən çəkinmədən sözlərimizi açıq şəkildə deyirik. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsi çox ağır bir vəziyyətdədir. Həmişə ağır vəziyyətdədir, yüngül vəziyyəti heç vaxt olmayıbdır. Ona görə əgər indi bundan da istifadə etməsək, nə edərik? Hər halda, Minsk qrupunun fəaliyyəti ilə, həmsədrlərin fəaliyyəti ilə yanaşı, prezidentlərin bilavasitə görüşlərinin də əhəmiyyəti var.

Aynur Nəsirova (*Lider telekanalı*): Cənab Prezident, Minsk qrupunun həmsədrləri danışıqlara prezidentlərdən də əvvəl qoşulublar. Amma heç bir nəticə olmayıbdır. Siz də bir neçə dəfə bunu onlara irad tutmusunuz. Azərbaycan tərəfi bu nəticəsizliyə görə hər hansı bir addım ata bilərmi, Minsk qrupundan imtina edə bilərmi?

Heydər Əliyev: Yox. Bir prezident kimi, şəxsən mən heç bir şeydən imtina etmərəm. Çünki böyük siyasətdə imtina etmək o qədər də yüksək səviyyə göstərmir. Hər bir çətin vəziyyətdən çıxış yolu tapmaq lazımdır. Bu birincisi. İkincisi, Minsk qrupu 10 ildən çoxdur ki, fəaliyyət göstərir. Onun müxtəlif dövrləri olubdur.

Əgər xatirinizdədirsə, mən bir neçə dəfə Minsk qrupunun həmsədrləri ilə görüşəndə onun tarixini xatırlatmışam. Mən 1993-cü ildə Azərbaycana gələndə bir aydan sonra Minsk qrupunun həmsədri yox idi. Bir sədr var idi – İtaliya. Onun da Xarici Işlər nazirinin müavini Raffaello bu işlə məşğul olurdu. Mən onunla dəfələrlə görüşmüşəm. O vaxtdan indiyə

qədər mən müxtəlif ölkələrdən Minsk qrupuna sədrlik, həmsədrlik edənlərin hamısı ilə dəfələrlə görüşmüşəm, danışmışam, danışıqlar aparmışam.

Təkcə bu deyildir. İndi Minsk qrupunun həmsədrləri öz yerində. Amma Minsk qrupu ATƏT-in tərkibindədir. Bilirsiniz ki, ATƏT-in də 6 aydan bir sədri dəyişilir. ATƏT-ə daxil olan ölkələrin Xarici İşlər Nazirliyi növbə ilə ATƏT-ə sədrlik edir. Onlarla da hər dəfə görüşmüşəm. Onlar əvvəlki illərdə, yəni 5-6 il bundan öncə bu işlərə o qədər də qarışmırdılar. İndi onlar da bu işlərə qarışırlar, səfərlər edirlər, Ermənistana gedirlər, Azərbaycana gəlirlər. Onlarla da danışıqlar aparırıq. Ona görə hər bir belə danışığın əhəmiyyəti var, zərəri yoxdur.

S ə b i n ə Ə l i y e v a (*Frans-Press agentliyi*): Cənab Prezident, sualı rus dilində verəcəyimə görə üzr istəyirəm. Çünki üçqat tərçümə zamanı bəzi qeyri-dəqiqliyə yol verilir.

H e y d ə r Ə l i y e v: Eyb etməz, bilirəm ki, sən həmişə rus dilində danışırsan. Sizin üçün olar, biz heç də bütün agentliklərin nümayəndələrini məcbur etmirik ki, ancaq Azərbaycan dilində danışsınlar. Bu tələblər bizim öz kadrlarımıza aiddir, siz isə azad jurnalistlərsiniz. Buyurun, sualınızı verin.

S ə b i n ə Ə l i y e v a: Cənab Prezident, Azərbaycan hansı vəziyyətdə hesab edə bilər ki, münaqişəni sülh yolu ilə həll etmək üçün artıq bütün imkanları tükənmişdir? Təxminən iki həftə əvvəl Siz bəyan etmişdiniz ki, Azərbaycan öz ərazisinin 20 faizinin işğal olunması vəziyyəti ilə daha barışa və buna dözə bilməz. Azərbaycanı hansı kənar obyektiv və subyektiv amillər belə bir qərara gəlməyə təhrik edə bilər ki, artıq imkanlar tükənmişdir?

H e y d ə r Ə l i y e v: Bəli, mən bunu demişəm və bir daha təkrar edirəm ki, Azərbaycan daha dözə bilməz. Ona görə də

biz münaqişənin həllini tapmalıyıq. O ki qaldı nə kimi obyektiv və subyektiv amillərin olduğuna, onları demək çətindir, çox çətindir.

Q ə n i r ə P a ş a y e v a: Cənab Prezident, Levon Ter-Petrosyan hakimiyyətdə olanda Qarabağ münaqişəsinin mərhələlərlə həlli variantı müzakirə edilirdi. Sonra informasiya sızdı ki, bu varianta Rusiya razılıq vermirdi. Təbii ki, o vaxt Rusiya–Azərbaycan münasibətləri o qədər də müsbət deyildi. Rusiya ilə Azərbaycan arasında münasibətlərin bugünkü durumunda Rusiya problemin mərhələlərlə həllinə razılıq verə bilərmi?

H e y d ə r Ə l i y e v: Əvvəlcə, gərək münaqişənin mərhələlərlə həllini müzakirə edək. Müzakirəyə heç kəs etiraz edə bilməz. Rusiya da etiraz edə bilməz. Amma onun həyata keçirilməsi məsələsi başqadır.

Bilirsiniz, ümumiyyətlə, müxalifətdə, jurnalist korpusunun böyük hissəsində bəzən əsası olmayan ifadələr işlədilir. Deyirlər ki, Rusiya razılıq vermir. Axı bunu kim deyir?! Mənə bunu deyəndə heç bu barədə söhbət aparmaq istəmirəm. Çünki mənə bir şey deyəndə gərək biləm ki, bunu kim deyir, nə əsasla deyir. Əsassız bəyanatlarla əlaqədar mən heç bir söhbət aparmaq istəmirəm.

Mərhələli həll 1997-ci ildə olan məsələdir. Xatirinizdədir ki, 1996-cı ilin dekabr ayında Lissabon sammitində biz böyük nailiyyət əldə etdik. O vaxtlar mən bu barədə danışmışam. Oradakı cəsarətli hərəkətim nəticəsində mən ATƏT-in üzvü olan ölkələrin dövlət başçılarını Azərbaycana diqqət yetirməyə məcbur etdim. Mənim ümumi sənədə konsensus verməməyim, demək olar ki, Lissabon sammitini nəticəsiz vəziyyətə gətirib çıxaracaqdı, ona görə onlar mənim təklifimi qəbul et-

dilər və Dağlıq Qarabağ barəsində çox yaxşı bəyanat verdilər. Bəyanatda bizə nə lazım idi? Azərbaycanın ərazi bütövlüyünün tanınması, Ermənistan–Azərbaycan münaqişəsinin həll olunması və Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli status verilməsi.

O vaxt Minsk qrupunun həmsədrləri Rusiya və Finlandiya idi. Finlandiyaya gedəndən sonra biz istədik ki, Amerika olsun. Amma Ermənistan və Rusiya Amerikaya etiraz etdilər. Belə olan halda – artıq mən bunun incəliyini danışmaq istəmirəm – nəhayət, danışıqlardan sonra, bir neçə aydan sonra qərar qəbul olundu ki, həmsədr üç ölkə olsun – Rusiya, Amerika və Fransa. Bu, Minsk qrupunun tarixində yeni bir mərhələ oldu. Hesab edirəm bu, çox yaxşı başlanğıc oldu, çünki biz üç böyük dövləti bura cəlb etdik. Ondan əvvəl Rusiya, Finlandiya, İsveç – bunlar bərabər ölçülü ölkələr deyildi. Amma Amerika, Fransa və Rusiya dünyanın böyük dövlətləridir. Bu da Azərbaycanın təşəbbüsü və fədakarlığı nəticəsində oldu.

1997-ci ildə onlar fəal işə başladılar. 1997-ci ilin iyun ayında bir paket təklifi verdilər. Bu bizim üçün məqbul deyildi, amma biz istəyirdik vəziyyətdən çıxaq. Biz onu qəbul etdik. Ermənistan qəbul etmədi. Bilirsiniz ki, iyul ayının sonunda, avqust ayının 1-də mənim Ağ evdə görüşüm oldu, oraya rəsmi ziyarətə dəvət olunmuşdum.

Xatirimdədir, orada biz prezident Klinton ilə bu məsələni müzakirə edirdik. Artıq onlar paket təklifi geri götürüb mərhələ təklifini vermişdilər. Prezident Klinton mənə dedi ki, indi danışığımızdan sonra mətbuat konfransı olacaqdır. Siz də çıxış edəcəksiniz, mən də çıxış edəcəyəm. Siz orada bəyan

edin ki, bu təklifi, yəni mərhələ təklifini qəbul edirsiniz. Mən bunu bəyan etdim.

Avqust ayından Ermənistanda proses başladı. Onlar əvvəl etiraz etdilər, sonra, nəhayət, Ter-Petrosyan özü belə fikrə gəldi ki, bunu qəbul etmək lazımdır. Bu barədə mənə məlumatları, əsasən, Fransanın prezidenti Jak Şirak verirdi.

Xatirimdədir, 1998-ci ilin yanvar ayında Ter-Petrosyan Ermənistanın hansısa tədbirinə görə Parisə getmiş, orada prezident Şirakla görüşmüşdü. Ondan sonra prezident Şirak mənə telefon etdi və dedi ki, Ter-Petrosyanla bizim çox yaxşı danışığımız oldu. O bu təklifi qəbul edibdir və artıq bəyanat da vermişdir, yanvar ayının əvvəlində bunu Təhlükəsizlik Şurasında müzakirə edəcəkdir və qəbul edəcəkdir. Mən Sizinlə bu barədə əlaqə saxlayacağam.

Amma o bunu qəbul etdirə bilmədi. Yəni nə oldu? Mən bundan əvvəl Ermənistanda gedən prosesləri bilmirəm. Ter-Petrosyanın Təhlükəsizlik Şurasındakı silahdaşlarından birikisi istefa verdi. Sonra Təhlükəsizlik Şurasında bu məsələni qoyanda, bildiyimə görə, onun ümid etdiyi adamların bəziləri onun əleyhinə çıxdı. O zaman da onun tərəfdarlarından iki-üç nəfər istefa verdi. Bildiyimə görə, o özü belə çıxılmaz vəziyyətdə istefa verdi.

Amma bunu, mərhələli həlli özü qəbul etmişdi, yaxud ona kimsə məsləhət görmüşdü. Bəziləri onun əleyhinə çıxdılar, o cümlədən indiki rəhbərlik. Bunları kimin göstərişləri ilə edirdilər, yaxud özləri edirdilər, mən bu barədə heç bir şey deyə bilmərəm. Güman edirəm ki, bu onların özlərinin işi idi.

İ l h a m ə Q a s ı m l ı *(«525-ci qəzet»):* Cənab Prezident, Köçəryanla sabahkı görüşünüzə ilk dəfə olaraq hər iki ölkənin müdafiə nazirləri də qatılacaqdır. Ümumiyyətlə, bunu da-

nışıqlarda yeni mərhələyə keçid kimi qiymətləndirmək olarmı? Yaxud bu, fərqli bir məsələdirsə, istərdik buna açıqlama verəsiniz.

H e y d ə r Ə l i y e v: Müdafiə nazirləri bizim danışıqlarımıza qatılmayacaqlar. Siz düz məlumat almamısınız. Mən də göstəriş vermişəm, Köçəryan da göstəriş verib ki, müdafiə nazirləri burada bizim təhlükəsizliyimizi təmin etməlidirlər. Ona görə də Səfər Əbiyev buraya gəlibdir. İki gündür buradakı işlərlə məşğul olur. Sabah o bizim görüşümüzdən bir-iki saat əvvəl Ermənistanın Müdafiə Naziri ilə sərhəddə görüşəcəkdir.

İndi orada təhlükəsizlik üçün çox iş görülübdür. Xüsusən, mənim mühafizə idarəm var, ona Vaqif Axundov başçılıq edir, onlar çox işlər görüblər. Ancaq bir halda ki, o tərəfdəki ordu, bu tərəfdəki ordu müdafiə nazirlərinə tabedir, ona görə onlar burada olacaqlar. Amma onlar bizim danışıqlarımıza qətiyyən qatılmayacaqlar.

Bu gün axşam buraya bizim Xarici İşlər Nazirliyindən Araz Əzimov gələcəkdir. Onların tərəfindən də Xarici Işlər naziri gələcək və Araz Əzimovun tərəfdaşı gələcəkdir. İndi yerində baxacağıq, görək danışıqlarda kim harada iştirak edəcəkdir.

T u r a l M ü s e y i b o v *(«Space» telekanalı):* Cənab Prezident, münaqişənin başlandığı gündən Türkiyə Azərbaycana siyasi dəstək verir. Türkiyə bu prosesdə bir az sıxışdırılır. Avropa Birliyi təkid edir ki, Türkiyə Ermənistanla sərhədlərini açsın. Ümumiyyətlə, bu proses baş tutarsa, Azərbaycana necə təsir edə bilər?

H e y d ə r Ə l i y e v: Bəli, Türkiyə bizim çox yaxın müttəfiqimizdir, Minsk qrupunun üzvüdür və biz Türkiyə ilə sıx

əməkdaşlıq edirik. O cümlədən Ermənistan–Azərbaycan münaqişəsinin həlli prosesində Türkiyəni doğrudan da Avropa Birliyinə daxil olmaq məsələsində sıxışdırırlar. Siz düz dediniz. Ondan tələb edirlər ki, Ermənistana yol açsın, Gümrü–Qars yolunu açsın, başqa bir çox şeylər tələb edirlər. Amma mən bildiyimə görə, Türkiyəni idarə edən insanlar bu barədə çox qəti fikirdədirlər. Son dəfə oradakı görüşlərimdə mənə deyirdilər ki, onlar heç bir güzəştə getməyəcəklər.

E m i n M a h m u d o v *(«Zerkalo» qəzeti*): Qukasyan bəyan edib ki, o, Azərbaycan prezidentindən daha konstruktivlik gözləmir və danışıqlardan heç nə gözləmir. Sizə elə gəlmirmi ki, bu, indiki danışıqlara erməni tərəfinin verdiyi qiymətdir və onların özləri bu danışıqlardan heç nə gözləmirlər?

H e y d ə r Ə l i y e v: Qukasyan həqiqətən belə bəyanatlar vermişdir və mən bu gün Qukasyanın həmin bəyanatları ilə tanış oldum. Lakin bu, Köcəryanın deyil, Qukasyanın bəyanatıdır. Düşünmürəm ki, bunu o, Köçəryanın göstərişi ilə vermiş olsun. O, artıq özünü seçilmiş, həm də demokratik yolla seçilmiş «prezident» hesab edir, buna görə də özünü göstərmək istəyir. Hətta mənə elə gəlir ki, bunu o bizim üçün yox, daha çox Ermənistanda təsir bağışlamaq üçün edir. Mən buna əhəmiyyət vermirəm.

İ l k i n B a ğ ı r o v (*Türkiyənin «STV» telekanalı*): Cənab Prezident, ümumiyyətlə, Dağlıq Qarabağ probleminin həllində qonşu dövlətlərin, xüsusilə Türkiyənin səylərini necə qiymətləndirirsiniz və bundan əlavə, Türkiyədən daha nələri gözləyirsiniz?

H e y d ə r Ə l i y e v: Mən Türkiyənin səylərini həmişə çox yüksək qiymətləndirmişəm və bu gün də qiymətləndiri-

rəm. Türkiyədən əlavə nələri gözləyirəm, artıq bu bizim daxili işimizdir.

Q ə n i r ə P a ş a y e v a: Cənab Prezident, Siz Parisdən qayıdarkən, «ermənilər son status kimi nəyə razılaşırlar?» – sualına cavabınızda dediniz ki, heç bir statusa, Köçəryan ya müstəqillik, ya da Ermənistana birləşdirilməsini istəyir. Ermənistanın nümayəndələri ilə görüşlər olur və təbii ki, müzakirələrin nəticələri Sizə çatdırılır. Bu mövqedən hansısa bir çəkilmələr varmı, yoxsa Ermənistan bu məsələni yenə qəti qoyur?

H e y d ə r Ə l i y e v: Xeyr, nə var, sabah görəcəyəm.

A y n u r N ə s i r o v a: Cənab Prezident, sabahkı danışıqlarda Mehri variantı müzakirə olunacaqmı?

H e y d ə r Ə l i y e v: Çox variantlar müzakirə olunacaq.

N a t i q M ə m m ə d o v *(«Yeni Azərbaycan» qəzeti)*: Cənab Prezident, Azərbaycanın daxili siyasəti ilə bağlı sual vermək istəyirəm. Bilirik ki, avqustun 24-də referendum keçiriləcəkdir və bununla əlaqədar ATƏT-in Bakı ofisi həm hökumət, həm müxalifət, həm də qeyri-hökumət təşkilatları nümayəndələrinin iştirakı ilə «dəyirmi masa» təşkil edir. Bunlar Azərbaycan televiziyasında yayımlanırdı. Bu müzakirələr Sizdə hansı təəssürat doğurur?

H e y d ə r Ə l i y e v: Bilirsiniz, o «dəyirmi masa»nın ikisinə baxdım. Çox yaxşı təəssürat bağışladı. Mən ATƏT-in bu təşəbbüsünü alqışlayıram. Referendum ərəfəsində belə «dəyirmi masa»nın keçirilməsi çox faydalıdır. Faydalıdır ona görə ki, bir tərəfdən, referenduma çıxarılan düzəlişlərin, dəyişikliklərin təbliğatıdır. İkinci tərəfdən, bizim müxalifətdə olan partiyaların aparıcıları dəfələrlə deyirlər ki, onlara öz fikirlərini bildirmək üçün televiziyada imkanlar verilmir. Bunlara

televiziyada 4-5 saat imkan verilir və orada bütün partiyaların nümayəndələri – bəzən onların başçıları danışırlar, bəzən təmsilçiləri – qeyri-hökumət təşkilatlarının nümayəndələri, iqtidarın nümayəndələri danışırlar, Yeni Azərbaycan Partiyasının nümayəndəsi danışır. Yəni çox canlı müzakirə gedir, hərə öz fikrini bildirir. Onlar öz fikrini bildirirlər, iqtidar nümayəndələri, hansı ki, referendumu irəli sürüblər, onlar da öz fikrini bildirir, xalq da görür. Bu çox yaxşı şeydir. Mən bunu çox yüksək qiymətləndirirəm və buna görə ATƏT-ə təşəkkür edirəm. Xalq da görür ki, məsələ nə yerdədir. Mən bundan çox razıyam. Düşünürəm ki, bu, referendumun uğurla keçməsinə kömək edəcəkdir.

S ə b i n ə Ə l i y e v a: Cənab Prezident, referendumla əlaqədar çox qəribə bir vəziyyət yaranır. Mən bilən, referenduma çıxarılan bir çox müddəalar bilavasitə Avropa Şurasının təşəbbüsü ilə, yəni qanunvericiliyimizi Avropa Şurasının standartlarına uyğunlaşdırmaq zərurəti ilə əlaqədar irəli sürülmüşdür. Eyni zamanda, Avropa Şurasının Qross, Şvimmer kimi nümayəndələri bu tədbiri «siyasi cəhətdən iddialı» tədbir adlandırır və bəyan edirlər ki, referenduma çıxarılan bəzi müddəalar kifayət qədər mübahisəlidir. Sizcə, bu cür qeyri-standart vəziyyət nə ilə bağlıdır?

H e y d ə r Ə l i y e v: Burada qeyri-standart bir şey yoxdur. Hərə öz fikrini söyləyir. Qrossun rəyi hələ heç də Avropa Şurasının rəyi deyildir, yalnız Avropa Şurasının bir deputatının rəyidir. Avropa Şurasında isə 500 deputat var.

Təəssüflər olsun, bizim mətbuat və təbiidir ki, bizim müxalifət bir dənə Qross, yaxud ona bənzər başqa familiyalı adam gəlib bir söz deyən kimi, elə bilirlər bu, Allahdan gələn bir sözdür, onun sözünü hey fırlayırlar, fırlayırlar. Qross elə bir

şəxs deyil ki, ona o qədər diqqət yetirilsin. Mən düzü, təəccüb edirəm ki, niyə belədir, bizim insanlar nə üçün bu cür hərəkət edirlər? Axı hər bir xalq, hər bir insan, hər bir millət, hər bir millətə mənsub olan insan gərək öz milli mənliyi haqqında düşünsün. Yoxsa, Qross gəldi belə dedi. Bəli, səhərdən axşama kimi televiziyalar belə, qəzetlər belə. Mənim üçün bunların heç birinin əhəmiyyəti yoxdur. Referendumla bağlı heç bir qeyri-standart vəziyyət yoxdur. Hər şey normaldır.

Q ə n i r ə P a ş a y e v a: Cənab Prezident, referenduma çıxarılacaq məsələlərdən biri deputatların majoritar qaydada seçilməsinə aiddir. Müxalifət əsasən belə dəlil gətirir ki, bu, Azərbaycanda partiyaların inkişafına mənfi təsir göstərəcəkdir. Siz necə fikirləşirsiniz?

H e y d ə r Ə l i y e v: Mən belə fikirdə deyiləm. Bu, partiyaların inkişafına heç bir mənfi təsir göstərməyəcəkdir. Əksinə, partiyaların inkişafına kömək edəcəkdir. Nə üçün? Əgər o partiyanın nümayəndələri, həqiqətən, hansısa bir dairədə seçicilərin etimadını qazana bilərlərsə, gedib oradan seçilmək və konkret bir dairənin nümayəndəsi olmaq daha hörmətlidir, nəinki siyahı ilə seçiləsən. Siyahı ilə seçiləndə o gedib öz namizədliyini müdafiə etməlidir. Belədir də. Burada partiyalar heç bir şey itirmir. Bilirsiniz ki, partiya siyahısı ilə 25 nəfər seçilirdi. Bu 25 nəfər nədir? Bizim 125 deputatın içərisində bunun 25 faizidir. Elədirmi? İndi nə oldu ki, bu 25 faizin partiya siyahısı ilə seçilməsi partiyaları inkişaf etdirir, amma bunların majoritar tərəfə keçirilməsi partiyaları inkişaf etdirməyəcək?! Bilirsiniz, bunlar sadəcə, bəhanədir. Bu olmasaydı, başqa bir şey olsaydı, yenə də müxalifət bunun əksinə gedəcəkdi.

Q ə n i r ə P a ş a y e v a: Cənab Prezident, bəzi beynəlxalq təşkilatlar bu referendumun keçirilməsini düzgün hesab eləmirlər. Siz belə bir göstəriş verəcəksinizmi ki, həmin o təşkilatlar referendumu izləməyə dəvət olunsunlar?

H e y d ə r Ə l i y e v: O beynəlxalq təşkilatlar kimlərdir?

Q ə n i r ə P a ş a y e v a: Avropa Şurasında bəzi ekspertlər var, Amerikada bəzi kiçik institutlar var.

H e y d ə r Ə l i y e v: Biz, yəni bizim aparat kimə lazımdırsa, dəvət göndərmişdir. O cümlədən Avropa Şurasına da dəvətlər göndərilibdir. Narahat olmayın. Müşahidəçilər dəvət olunublar və gələcəklər. Heç kəs bundan narahat olmasın.

Y a d i g a r M i k a y ı l o ğ l u *(«Şərq» qəzeti):* Cənab Prezident, Sizin Naxçıvan səfərinizin mühüm hissəsi Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılması ilə bağlı olduğu üçün sualım elm barədədir. Azərbaycanda elmi əsərlərin qiymətləndirilməsi ilə məşğul olan Ali Attestasiya Komissiyasının gələcək fəaliyyəti haqqında planlarınız nədən ibarətdir?

H e y d ə r Ə l i y e v: Fəaliyyət göstərəcəkdir. Ali Attestasiya Komissiyası çox mühüm təşkilatdır. O, fəaliyyət göstərir, sadəcə, indi sədri yoxdur. Bu yaxın günlərdə onun sədri təyin olunacaqdır və Ali Attestasiya Komissiyası öz işini aparacaqdır.

A y n u r N ə s i r o v a: Cənab Prezident, Xəzəryanı dövlətlər Xəzərdə hərbi təlimlərə başlayıblar. Azərbaycanın hərbi təlim keçirmək təşəbbüsü və imkanı nə qədərdir?

H e y d ə r Ə l i y e v: Biz Rusiyanın hərbi təliminə qatılmışıq. Biz Rusiyanın hərbi təlim keçirməsini dəstəklədik və orada iştirak etdik. Ona görə ayrıca hərbi təlim keçirməyə

ehtiyac duymuruq. Amma siz deyirsiniz başqa dövlətlər, yəni kim?

Aynur Nəsirova: Rusiya, Qazaxıstan.

Heydər Əliyev: Rusiya, Qazaxıstan, biz də onun içindəyik. Onlar ayrıca təlim keçirmirlər. Rusiya böyük bir təlim hazırladı, bizə müraciət etdi. Hətta prezident Putin mənə bu barədə müraciət etmişdi. Biz buna razılıq verdik və orada iştirak etdik. Ayrıca keçirməyə ehtiyac yoxdur.

Qənirə Paşayeva: Cənab Prezident, alternativ hərbi xidmət barədə dünən Sizə verdiyim suala cavab olaraq dediniz ki, bunu Avropa Şurası öhdəlik kimi qoyubdur və Sizi də düşündürür. Yəni bunun Azərbaycana zərəri varmı? Çünki Ermənistan da qəbul etmədi. Düşüncələrinizi bilmək istərdik.

Heydər Əliyev: Mən sabah burada işimi qurtarıb Bakıya qayıdandan sonra bu məsələyə bir də baxacağam. İndi heç bir şey deyə bilmərəm.

Cavid İsmayılov (*«Yeni Müsavat» qəzeti*): Cənab Prezident, qarşıdan Azərbaycanın mərhum prezidenti Əbülfəz Elçibəyin vəfatının ikinci ildönümü gəlir. Bilmək istərdik, Əbülfəz Elçibəyin vəfatının ikinci ildönümünün qeyd olunması və xatirəsinin əbədiləşdirilməsi ilə bağlı hər hansı göstəriş vermək fikriniz varmı?

Heydər Əliyev: Allah Əbülfəz Elçibəyə rəhmət etsin. Əbülfəz Elçibəy xəstə olan zaman, Türkiyədə müalicə dövründə mən müəyyən vasitələrlə öz qayğımı ona göstərdim. Vəfat etdi. Azərbaycanın ən mötəbər qəbiristanlığında – Fəxri xiyabanda dəfn olundu. Mən özüm matəm mərasiminə gedib onun tabutunun yanında durdum. Yəni, həm öz vətəndaşlıq borcumu verdim, həm də Azərbaycanın prezidenti kimi, borcumu verdim.

6-7 ay bundan öncə mən şəhər icra hakimiyyətinin başçısı Abutalıbova göstəriş verdim ki, Əbülfəz Elçibəyin qardaşı Almurad Əliyevlə görüşsün və ona bildirsin ki, mən Əbülfəz Elçibəyin qəbrinin dövlət tərəfindən götürülməsi haqqında qərar vermək istəyirəm. Ancaq mən istəyirəm ki, buna, birincisi, onların razılığı olsun, ikincisi də, layihəni onlar versinlər. Qəbir üstünün nə cür olmasını istəyirlərsə, onlar nə layihə versələr, onun da həyata keçirilməsi barədə mən göstəriş verəcəyəm.

Abutalıbov Almurad Əliyevlə görüşmüşdü. O demişdi ki, fikirləşib deyəcəyik. İkinci dəfə onunla görüşmüşdü. Eyni sözləri demişdi. Hələ onlardan bir cavab almamışıq.

Mənə deyirlər ki, Əbülfəzin qəbrinin üstündə 10–12 ölkənin bayrağı var. Özbəkistanın, Qazaxıstanın, nə bilim, Türkmənistanın, Qırğızıstanın, Tatarıstanın, Başqırdıstanın və sair ölkələrin, türkdilli dövlətlərin bayraqları oradadır. Hacıbala Abutalıbov mənə deyibdir ki, Özbəkistanın səfirliyi tərəfindən Xarici Işlər Nazirliyinə nota verilibdir ki, Özbəkistan bayrağını onların icazəsi olmadan işlətməkdən narazıdırlar və onu götürmək lazımdır. Başqalarından da belə nota gəlibdir. Onun həmin qohumlarına bunu da deyiblər. Ancaq onlar buna məhəl qoymayıblar.

Yenə də deyirəm, Allah Əbülfəz Elçibəyə rəhmət eləsin. Ancaq yer üzündə nə qədər böyük şəxsiyyətlər dünyasını dəyişiblər. Kimin haqqında belə tədbirlər görülür, mən başa düşmürəm. Ümumiyyətlə, qəbiristanlıqda bayraq ola bilməz. Qəbrin üstündə heç bir bayraq ola bilməz. İndi siz bunu normal hesab edirsinizmi? Yox. Belə qeyri-normal şeylər çoxdur.

İndi ikinci il keçər, vaxt ötər, əgər lazım olsa, onlar etiraz etməzlərsə, biz onun qəbrinin üstünü götürəcəyik, onun adını

əbədiləşdirəcəyik. Amma bilmirəm, ikinci ilini necə qeyd etmək, mərasim keçirmək lazımdır, nə lazımdır, mən bunu anlaya bilmirəm.

Bilirsiniz, bir müsəlman qayda-qanunları var, bir də ümumi dünyəvi qayda-qanunlar var. Hər şey bunların çərçivəsində olmalıdır. Amma kimsə istəyir ki, kimisə bütləşdirsin və bunun üçün xüsusi bir qanun-qayda yaratsın, güman edirəm ki, hüquqi, demokratik dövlətdə belə şeylərə yol vermək olmaz.

Məmməd Bağırov (*«Exo» qəzeti*): Cənab Prezident, ABŞ-da 11 sentyabr hadisələrindən sonra beynəlxalq terrorizmlə mübarizə məsələsi kəskin xarakter aldı və bu baxımdan NATO-nun rolu artdı. Əgər mümkünsə, deyə bilərsinizmi, Azərbaycanın bu təşkilata daxil olması məsələsi ilə bağlı mövqeyində hər hansı bir dəyişiklik baş vermişdirmi, yəni belə hesab etmək olarmı, bu məsələ bizim xarici siyasətimiz üçün öncül məsələdir?

Heydər Əliyev: Biz NATO ilə fəal əməkdaşlıq edirik. «Sülh naminə tərəfdaşlıq» proqramı var. Onun çərçivəsində biz əməkdaşlıq edirik. Artıq başqa sahələrdə də bizim əməkdaşlığımız çox genişlənir. Biz bu əməkdaşlıqdan məmnunuq. Ancaq bu populist fikirlər ki, var, «biz NATO-ya daxil olaq», «NATO-ya daxil olacağıq, ya olmayacağıq» – NATO-ya daxil olmaq bizdən asılı deyildir. NATO-ya daxil olmaq üçün gərək NATO standartları səviyyəsinə çatasan. Bu yaxın vaxtlarda Praqada NATO-nun zirvə görüşü olacaqdır. Mən də oraya gedəcəyəm. Orada, məsələn, artıq deyirlər ki, Baltikyanı ölkələr NATO-ya qəbul olunacaqlar. Rumıniyanın, Bolqarıstanın söhbəti gedir. Ancaq hələ onlara qarşı bir çox tələblər qoyulubdur. Görürsünüz, NATO belə asanlıqla heç

bir ölkəni qəbul etmir. Qonşumuz Gürcüstan NATO ilə bizdən də yaxın əməkdaşlıq edir. Amerika Birləşmiş Ştatları ilə xüsusi əməkdaşlıq edir. ABŞ hərbçiləri gəlib orada təlim keçirlər, onları öyrədirlər. Gürcüstan bu barədə NATO-ya bizdən də yaxındır. Amma bir məsələ var: bir-biri ilə münaqişədə olan ölkələr NATO-ya daxil ola bilərlərmi? Bu da var. İndi həmişə belədir, beynəlxalq təşkilatlar bizə bir şey etmək üçün deyirlər ki, gərək Ermənistanla bir yerdə edək, Ermənistana da edək. Məsələn, 907-ci düzəlişi götürəndən sonra Amerika Birləşmiş Ştatları ilə bizim hərbi sahədə əməkdaşlıq etməyimizə icazə verildi. Onların nümayəndələri Azərbaycana gəldilər, lazımi danışıqlar apardıq, lazımi razılıqlar əldə etdik. Amma bundan öncə onlar Ermənistanın Müdafiə nazirini Vaşinqtona çağırdılar, bizimlə əldə olunan, necə deyərlər, sazişdir, razılıqdır, nədir, bunu əvvəlcə onlarla, sonra bizimlə etdilər. Ona görə də Ermənistanın vəziyyəti çox şeydə bizə mane olur.

Ona görə bunları nəzərə alaraq, gərək siz də, siyasətçilər də NATO-ya daxil olmaq haqqında real fikirləşəsiniz. Yoxsa ki, hə, biz NATO-ya daxil olmaq istəyirik, kimsə deyir ki, NATO-nun qoşunları buraya gəlsin, kimsə deyir ki, Türkiyənin qoşunları buraya gəlsin. Çox şey istəmək olar.

Amma bu mümkündürmü? Mümkün deyildir.

Q ə n i r ə P a ş a y e v a: Cənab Prezident, 907-ci düzəliş tamamilə ləğv olunmamışdır. O, bir illiyə dondurulmuşdur. Deyirlər ki, bir ildən sonra bu məsələ yenidən Konqresin gündəliyinə çıxa bilər. Bir ilin bitməsinə az qalıbdır. Yəqin ki, bu barədə intensiv iş gedir. Bu məsələnin yenidən Konqresin gündəliyinə qayıtması nə dərəcədə realdır?

H e y d ə r Ə l i y e v: İnanmıram qayıtsın.

T u r a l M ü s e y i b o v: Cənab Prezident, səhv etmirəmsə, Sizin imzaladığınız əfv fərmanları ilə bu günə kimi 3 minə yaxın məhbus azadlığa çıxmışdır. Ötən dəfə Fuad Ələsgərov dedi ki, əfv komissiyasına məhbusların azad olunması barədə artıq Avropa Şurasından da siyahı daxil olub, əfv komissiyası bunun üzərində işləyir. Sizin tərəfinizdən yaxın vaxtlarda əfv fərmanının imzalanması gözlənilirmi?

H e y d ə r Ə l i y e v: Bilirsiniz, sizin özünüz dediniz ki, mən nə qədər əfv fərmanları imzalamışam. Deməli, vaxtaşırı bu fərmanları imzalayıram. Bizim əfv komissiyası daim işləyir. Əgər onlar işləyib, hazırlayıb müəyyən qədər təklif mənə təqdim edə bilsələr, təbiidir ki, mən fərman imzalayacağam.

M i k a y ı l Q u l i y e v *(«İki sahil» qəzeti*): Cənab Prezident, Nardaran hadisələrinə Sizin münasibətinizi bilmək istərdik. Eyni zamanda, bu hadisələrdən siyasi alət kimi istifadə edən qüvvələrə qarşı nə kimi tədbirlər görülür?

H e y d ə r Ə l i y e v: Nardaran hadisələri ilə əlaqədar Azərbaycanın Baş prokuroru və Daxili Işlər naziri geniş məlumat verdilər. Orada hər şey yazılıbdır, mənim əlavə münasibət bildirməyimə ehtiyac yoxdur. İkincisi, sən deyirsən ki, bəzi qüvvələr bundan istifadə etmək istəyirlər. Çox təəssüf. Bu, bir tərəfdən, məndə təəssüf doğurur, ikinci tərəfdən isə, bu adamlar haqqında mənim fikrim elə vəziyyətə gəlib çıxır ki, heç bilmirəm nə deyim. Yaxşı, sən siyasi mübarizə aparırsansa, apar. Hakimiyyət uğrunda mübarizə aparmaq istəyirsənsə, apar. Amma indi Nardaran hadisələri məlumdur, orada kimdir, nədir – bunların hamısı məlumdur. Ondan suiistifadə etmək, gedib orada çıxış etmək, onları tərifləməklə, dəstəkləməklə siz Azərbaycanda daxili ictimai vəziyyəti yenə

də pozmaq istəyirsinizmi?! Mən bu sözləri həmin o müxalifət qüvvələrinə deyirəm. Heç kəs bunu edə bilməz. Həmin o adamlar, özlərinə partiya düzəltmiş həmin adamlar 1992-1993-cü illərdə Azərbaycanı dağıdırdılar. Əgər hakimiyyət istəyirdilərsə, hakimiyyət əllərində idi. Niyə qaçdılar? Nə üçün qaçdılar? Əgər onların, sadəcə, insanlıq keyfiyyəti olsaydı, indi səslərini çıxarmağa haqları yoxdur. Azərbaycan xalqına rəhbərlik etdikləri vaxtlar, xalqın, Azərbaycan Respublikasının ən faciəli, ən ağır vaxtında hamısı qoyub qaçdı. Mərhum Əbülfəz Elçibəy qaçdı, gəlib Kələkidə oturdu. Altı ay mən onun dalınca adamlar göndərdim. Türkiyədən adamlar dəvət etdim. Çox hörmətli adamları, millət vəkillərini dəvət etdim. Dedim ki, gedin onu başa salın, Bakıya gəlsin, belə şey olmaz, prezidentdir. Yox. Yaxşı, qaçmısan, orada otur, gizlən. Oradan daha sən nə üçün siyasi fəaliyyətə başlayırsan?!

Yaxud da ki, o vaxt hakimiyyətdə olan başqaları. Adlarını da çəkmək istəmirəm. Qaçdılar, elə gizləndilər ki, özü də bir il yox, bir neçə il bunların heç biri görünmədi. Amma birinin adını çəkəcəyəm – Pənah Hüseynov. Azərbaycanda bir misal var: «harada aş, orada başdır». O vaxt Baş nazir idi, istefa verdi, ondan sonra qaçdı. Bu adam üç il gizləndi. Ondan sonra təsadüfi olaraq onu şəhərdə görmüşdülər, tutmuşdular, həbs etmişdilər, istintaq gedirdi və ona cəza vermək istəyirdilər. Mən bunun qarşısını aldım. Onu həbsxanadan yanıma çağırdım. Gəldi, oturdu, bütün günahlarını boynuna aldı. Mənim gördüyüm işlərin hamısını yüksək qiymətləndirdi ki, Siz haqlısınız, çox düz etmisiniz, biz bacarmadıq, belə, elə, filan. Mən də xahiş etdim ki, onun işini, nə bilim, dayan-

dırsınlar, ya xətm etsinlər. Onu buraxdıq, çıxıb getdi. Bir-iki aydan sonra yenə həmin adamdır.

Dəfələrlə demişəm, gərək adamın abır-həyası olsun. Bu, Azərbaycanda çox geniş yayılmış sözdür. Yox, sən gəlmisən, hakimiyyəti əlinə almısan – indi nə yolla almısan, Allah bilir, bu sənin öz işindir, bunu müzakirə etmirəm – bu hakimiyyət bir ilin içərisində Azərbaycanı dağıdıbdır. Ondan sonra təhlükə əmələ gələn kimi qaçıblar, dağılıblar, gizləniblər.

Bir-iki ildən sonra Azərbaycanda ictimai-siyasi vəziyyət sabitləşdi. Bəli, Surət Hüseynov dövlət çevrilişi etmək istədi, onun qarşısını aldıq. Nə bilim, Cavadov qardaşları dövlət çevrilişi etmək istədi, qarşısını aldıq. Bunların, onların qarşısını aldıq. Bu vaxt onlar gizləndilər. İndi məlum olur ki, onları oradan-buradan dəstəkləyənlər olubdur, xüsusən Cavadov qardaşlarını. Onları kim dəstəklədi? Onları Müsavat Partiyası dəstəklədi, onları Xalq Cəbhəsi, mərhum Əbülfəz Elçibəy dəstəklədi. Öz nümayəndəsini oraya göndərdi. Onları Moskvadan Mütəllibov dəstəkləmişdi. Adil Hacıyevi göndərmişdi – hamısını həbs etmişdik. Həbsdən buraxmışam. Hamısı dəstəklədilər.

Nəyə görə dəstəklədilər? Dəstəklədilər ki, Heydər Əliyevi «yıxsınlar». Yaxşı, Heydər Əliyevi öldürəydilər, dəfələrlə demişəm ki, mən burada şəhid olmağa hazıram, mən heç bir yerə qaçmayacağam. Ola bilərdi ki, hansısa təsadüfdən onlar güc gələrdilər. Bəli, mən işlədiyim otağa. Orada bir şey ola biləcəkdi... Mənim həyatım onunla qurtaracaqdı. Mən bunu gözümün qarşısına almışdım. Mənim nə bir yerə qaçmaq, nə bir yerdə gizlənmək fikrim vardı. Mən meydanda idim. Meydanda vuruşan adam gərək həmişə bilsin – ya udacaq, ya da uduzacaq. Əgər o vaxt, həmin mart hadisələrində han-

sısa bir təsadüfdən onlar fürsət tapsaydılar, bəli, məni vurub öldürəcəkdilər. Amma nə olacaqdı? Əbülfəz Elçibəy oradan enib gələcəkdi, ya Mütəllibov Moskvadan gələcəkdi, ya Müsavat Partiyası Tofiq Qasımovla, başqaları ilə gələcəkdi, gəlib Cavadov qardaşlarından hakimiyyət istəyəcəkdilər?! Hansılar ki, Azərbaycanda, onlar da yaxşı bilirdi ki, insanları soymuşdular, ölkəni dağıtmışdılar. Reket yolu ilə adam qalmamışdı ki, onlar soymasınlar. Onlardan gəlib hakimiyyət istəyəcəkdilər?! Yaxud da onlar həmin adamlara hakimiyyət verəcəkdilərmi? Onlarda ağıl vardımı, təsəvvür vardımı?!

Bəs bunun sabahı nə olacaqdı? Mənim üçün hər şey aydın idi. Mən Azərbaycanın dövlətçiliyini nəyin bahasına olursa-olsun, qoruyub saxlamalıydım. Öz qanımın, canımın bahasına. Ya o tərəflik olacaqdı, ya da bu tərəflik. Amma onlar...

İndi onların hər birisi gəlibdir ki, biz partiyayıq. Biz, nə bilim, burada bu sözü deyirik, o sözü deyirik. Mən məəttəl qalıram. Mənəvi hüquq, haqq var... O vaxt hakimiyyətdə olan, hakimiyyəti dağıdan, qaçıb gizlənən, sonra meydana çıxan bu adamların indi siyasi fəaliyyətlə məşğul olmağa haqları yoxdur! Onlar məşğul oldular, uduzdular, demək, getməlidirlər.

Mən səhər baxırdım. Televiziyada Lənkəran hadisələrini göstərirdilər. 1993-cü ilin elə bu günləri idi. Yaxşı, bu Lənkəran hadisələrini törədənlər kimlər idi? Həmin Xalq Cəbhəsinin hakimiyyəti idi, mərhum Əbülfəz Elçibəyin hakimiyyəti idi, İsa Qəmbərovun, Pənah Hüseynovun, Rəhim Qazıyevin hakimiyyəti idi. Ələkram Hümbətov kim idi? Xalq Cəbhəsinin üzvü idi. O vaxt Lənkəranda yerli hakimiyyəti yıxdılar, həmin Ələkram Hümbətovu orada başçı qoydular. Ondan sonra vəzifəsini artırdılar, gətirdilər Müdafiə Nazirliyində başçı qoydular, polkovnik rütbəsi verdilər. Onlar qoydular. Onların

vaxtında o, Azərbaycan ordusunun təxminən 3 min nəfərlik hərbi hissələrini əlinə keçirdi. Onlar etdilər. Yəni bu onların hakimiyyətindən «doğulmuş» bir adamdır. Bir o deyil, onun ətrafında olan adamlar. İndi deyirlər ki, bizim vaxtımızda hansı rayon gedib, Heydər Əliyevin vaxtında hansı rayon gedibdir... Siz artıq ordunu elə dağıtmışdınız ki, Heydər Əliyev yox, Makedoniyalı İsgəndər də gəlib otursaydı, bir şey etmək mümkün deyildi. Çünki niyə? Ordunu dağıtmışdılar, Surət Hüseynov hər şeyi əlinə keçirmişdi, oradan Ələkram Hümbətov ordunun bir hissəsini çəkmişdi Lənkərana.

Mən gəlmişəm, onlar qaçıblar, indi mən ölkənin daxilində vəziyyəti düzəltməliyəm, yaxud, 5–10 günə orduda vəziyyəti düzəltməliyəm? Orduda, necə deyərlər, heç kəs heç kəsi eşitmir. Tutaq ki, Rəhim Qazıyev artıq Müdafiə naziri deyildi, amma bütün ordu hissələrini gəzirdi, «öz işlərini görürdü». İsgəndər Həmidov, artıq Daxili Işlər naziri deyildi, amma öz komandası ilə, dəstəsi ilə bütün ordu hissələrini gəzirdi, «öz işlərini görürdü». Yəni hakimiyyət yox idi. Bu hakimiyyəti toplamaq, ələ almaq lazım idi.

Surət Hüseynov dedi ki, Müdafiə naziri lazım deyil, müdafiə işlərini mən aparacağam. Dedim apar, indi deyə bilərsiniz, niyə belə dedim. Mənim başqa əlacım yox idi. Nə edəcəkdim? O dedi ki, mən 10 günə Dağlıq Qarabağı alacağam. Dedim al görək. Necə alacaqdı, hər şey dağılmışdı. Başa düşürsüzmü? Ondan sonra da bu Lənkəran hadisələri çıxdı. İndi onu, yenə də deyirəm, televiziyada göstərirlər. Bu cür cinayət etmiş insanlar – bir var ki, cinayəti bilavasitə edib, bir də var ki, cinayətin mövcud olması üçün bunlar şərait yaradıblar, iş görüblər – indi gəlib burada da Nardaran hadisələrindən istifadə edirlər. Qoy 1993-cü ildən özlərinə nəticə

çıxarsınlar və bilsinlər ki, əgər onlar doğrudan da hansısa pis yola gedərlərsə, bir də qaçıb gizlənməli olacaqlar.

M ə m m ə d M ə m m ə d o v *(«Şərq qapısı» qəzetinin redaktoru)*: Cənab Prezident, mənim sualım siyasətdən bir qədər uzaq olacaqdır. Mən Naxçıvanda yaşayan jurnalistlər adından Sizə bir sual vermək istəyirəm. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatıyam. Sualımın məğzinə keçməzdən əvvəl bildirmək istərdim ki, son illər Naxçıvanda ictimai-iqtisadi, mədəni həyatla yanaşı, kütləvi informasiya orqanları da inkişaf edibdir. Mətbuatın bir çox çeşidli növləri yaranıbdır. Bu sahədə çoxsaylı jurnalistlər fəaliyyət göstərirlər. Sizin rəhbərliyiniz altında respublikamız inkişaf etdikcə, burada da jurnalistika sənəti də inkişaf edir, peşəkar jurnalistlər formalaşıblar.

Cənab Prezident, mənim sualım Naxçıvanda yaşayan çoxsaylı jurnalistləri maraqlandırır. Bu gün Naxçıvanın ictimai, mədəni həyatında baş verən müsbət dəyişiklikləri siz necə qiymətləndirirsiniz? Təbii ki, bu dəyişikliklərin hamısı Sizin uzaqgörən, yorulmaq bilmədən apardığınız siyasətin nəticəsində mümkün olmuşdur. Yəqin ki, Naxçıvanda beynəlxalq hava limanının tikilməsindən, Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılmasından və bu kimi digər tədbirlərdən sonra həyat daha da qaynar olacaqdır. Sualımın ikinci tərəfini də belə qoymaq istərdim: Naxçıvanda böyük miqyasda aparılan bu quruculuq işlərini Bakıda aparılan işlərlə müqayisə etmək olarmı? Diqqətinizə görə sağ olun.

H e y d ə r Ə l i y e v: Yaxşı. Sən çox uzun sual verdin, mən çox qısa cavab verəcəyəm. Mən dünən Elmlər Akademiyasının Naxçıvan bölməsinin məsələsini müzakirə edəndə Ali Məclisin salonu adamla dolu idi. Orada Naxçıvanda

görülən işlər, əldə edilən nailiyyətlər haqqında danışdım. Bu gün də Vayxır su anbarının məsələsi ilə əlaqədar bəzi şeyləri keçmişdən yada saldım, bəzi məsələlərdən də, bu gün görülən işlər haqqında da danışdım. Naxçıvanın siması dəyişibdir. Şəhərə baxın, mən bu şəhəri yaxşı tanıyıram. Mən 1993-cü ildə buradan getmişəm. Şəhərin siması dəyişibdir. Ümumiyyətlə, muxtar respublikanin siması dəyişibdir. Burada insanlar rahat yaşayırlar. Blokada şəraiti olmasına baxmayaraq, insanların yaşayışı yaxşıdır. Məsələn, bu il özlərini taxılla təmin edəcəklər. Özlərini şəkərlə təmin edirlər. Buraya şəkər gətirmək lazım deyildir. Şəkər çuğunduru əkilir. Türkiyənin Naxçıvanla qonşu vilayətlərinə göndərilir, orada şəkər zavodlarında emal olunur, şəkəri buraya gətirirlər. İndi əgər burada kiçik şəkər zavodu olsaydı, bu, Naxçıvan üçün ikiqat faydalı olardı. Çuğundurun emalında şəkər ki, ayrılır, onun qalan hissəsi bundan da qiymətlidir. Çünki ondan qiymətli gübrə kimi istifadə olunur. Buna baxmayaraq, əgər beləliklə, Naxçıvan özünü şəkərlə təmin edirsə, bu çox gözəl haldır. Naxçıvan özünü başqa şeylərlə də təmin edir. Naxçıvanda çoxlu tikinti işləri aparılır. Bura blokada vəziyyətindədir. Bunu nəzərə almaq lazımdır. Tikinti işləri görülür, məktəblər, binalar tikilir. İndi burada bəzi otellər də tikilibdir. Naxçıvanda çox işlər görülür. Bu məni sevindirir. Güman edirəm ki, aeroportu bir ilə tikib istifadəyə verəcəyik.

Akademiyanın bölməsi də, ümumiyyətlə, Naxçıvanın həyatına, o cümlədən ictimai-siyasi həyatına müsbət təsir göstərəcəkdir. Vayxır su anbarının da iki ilə tikilib qurtarması burada çox böyük imkanlar yaradacaqdır.

Q ə n i r ə P a ş a y e v a: Cənab Prezident, biz burada sakinlərlə söhbət zamanı öyrəndik ki, onlar meyvə-tərəvəz

məhsullarını aparıb Türkiyədə satırlar. Amma müəyyən norma tətbiq olunur, əhali bildirir ki, norma azdır, bu olmasa, biz məhsullarımızın satışından daha çox mənfəət əldə edə bilərik. Bununla bağlı Türkiyə ilə müəyyən işlər aparılırmı ki, normanın həcmi artırılsın?

H e y d ə r Ə l i y e v: Təəssüf ki, bilirsiniz, bizim qardaş Türkiyə belə normalar qoyur. Mən hesab edirəm ki, qoyulmamalıdır. Mən bu barədə Türkiyənin rəhbərləri ilə dəfələrlə danışmışam. İndi bu norma bir az artırılıbdır, yəqin sizə deyiblər. Amma norma qoyulmamalıdır. Mən Türkiyədə dövlət və hökumət başçıları ilə danışmışam ki, Türkiyənin bu şərq vilayətlərində meyvə-tərəvəz çox azdır və yaxud da yoxdur. Amma Naxçıvanda boldur, bu, birincisi. İkincisi, Naxçıvanın meyvə-tərəvəzi Azərbaycanın başqa bölgələrinin hamısından daha da keyfiyyətli və dadlıdır. Məsələn, burada vaxtilə, SSRİ dövründə 120 min ton üzüm istehsal olunurdu, 10–15 şərab zavodu vardı. Onlar o dövrdə qaldı. İndi bunların müəyyən üzüm bağları var, üzüm istehsal olunur. O zavodların da bəziləri qalıbdır. Amma şərab istehsal edirlər, özləri bu şərabı içməyəcəklər. Türkiyə bu şərabı öz ərazisinə buraxmır, İran buraxmır, hətta İranın ərazisindən keçən bizim avtomobillərlə spirtli içkilərin nəql olunmasına icazə verilmir. İndi Naxçıvan Muxtar Respublikasının vəziyyətinə baxın. Öz daxili bazarını təmin edir, amma çox şeyi xaricə çıxara bilmir. Burada çox cəviz var. Bilirsiniz də cəviz nədir? Siz buna Bakıda qoz deyirsiniz. Türkcə də adı cəvizdir, çox dadlı şeydir, Türkiyədə bunu sevirlər. İndi mənə deyirlər ki, Türkiyəyə aparırlar, satırlar, sonra da satacaqlar. Əlbəttə, İran öz ərazisinə buraxmır, çünki bunların hamısı İranda var. Türkiyədə, onun şərq hissəsində isə yoxdur, onları təmin et-

mək lazımdır, amma burada da norma qoyublar. İndi hər dövlətin öz qanunu var. Nə edək. Yenə də danışıqlar aparacağıq.

Qənirə Paşayeva: Cənab Prezident, Sizin bizə olan etimadınızdan çox sui-istifadə edirik. Amma jurnalist həmkarlarım arasında mübahisə yaranmasın deyə, son sualı «Azadlıq» qəzetinin müxbiri vermək istəyir.

Zülfiyyə Əhmədli *(«Azadlıq» qəzeti)* : Cənab Prezident, bir müddət əvvəl Bakıda villaların siyahısının hazırlanması ilə bağlı tapşırıq vermişdiniz. Hazırda bu məsələ nə yerdədir? Kimlərinsə villaları bu siyahıdan kənarda qala bilərmi?

Heydər Əliyev: Nə bildin ki, mən villaların siyahısının hazırlanmasını demişdim? Bu məlumatı haradan almısınız? Bilirsiniz, bu barədə mən istəyirəm sizinlə açıq danışam. Burada müəyyən qədər ziddiyyət yaranıbdır. Biz demokratik ölkədə yaşayırıq. Yəni Azərbaycan demokratik ölkədir. Bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Bazar iqtisadiyyatı da Azərbaycana böyük fayda gətiribdir. Mən bunu dəfələrlə demişəm. Bu gün yenə də orada, müşavirədə deyirdim. Məsələn, burada əldə olunan nailiyyətlər bazar iqtisadiyyatının nəticəsidir. O cümlədən də bütün Azərbaycanda. Bazar iqtisadiyyatını da aparan iş adamlarıdır, sahibkarlardır. İndi bunlar iş görürlər, pul qazanırlar, çoxlu avtomobillər alırlar, başqa nə bilim, özlərinə gözəl mənzillər düzəldirlər, bəziləri də gedib villalar tikirlər. Amma deyirlər ki, bu villaların bəziləri təkcə iş adamlarının deyil, hansısa məmurlarındır, lakin onların öz adlarına deyil, başqalarının adınadır. Düzünü deyim, bu, əlbəttə, mənim xoşuma gəlmir. Ancaq yadınıza salmaq istəyirəm ki, 1970-ci illərdə mən Azərbaycanda işləyəndə bağ evlərinin

tikilməsi ilə mübarizə aparırdım. Bir neçə adamları, nazirləri işdən çıxarmışdım, partiyadan xaric etmişdim. Onlar öz gəlirlərindən artıq olan xərc çəkirdilər. O vaxt tikilən bağ evləri indikilərin yanında tövlə kimi ola bilərdi. Amma o vaxt da biz bu hallarla mübarizə aparırdıq ki, bu, sovet mənəviyyatına ziddir. Onun da ağrısını mən sonra çəkdim. Mən işdən kənarlaşdırılandan sonra mənim haqqımda cürbəcür məqalələr yazdılar. Yazdılar ki, Heydər Əliyev burada özbaşınalıq edib, filan edib. Mən indi də heç nədən qorxmuram, çəkinmirəm. Ancaq bunu mən nə cür aid edim ki, bu biznesmen villasıdır, yaxud da hansısa bir məmura mənsub olan villadır. Çünki onun nə adı var, nə familiyası var, nə bunun sübutu var. Ona görə burada belə ziddiyyətli vəziyyət var. Sən deyirsən ki, villaların siyahısını çıxarmağı tapşırmışam. Mən belə göstəriş verməmişəm.

Q ə n i r ə P a ş a y e v a: Cənab Prezident, enerji təhlükəsizliyi baxımından...

H e y d ə r Ə l i y e v: Hə, o vaxt elə bir şey demişdim. Enerji xətləri keçən yerlərdəki tikililər barədə demişdim. Yaxşı, bir halda ki, siz maraqlanırsız, Bakıya gələndən sonra mən də maraqlanaram.

Amma bir sualı vermirsiniz. Nə üçün soruşmursunuz ki, mənim sahibkarlarla son görüşüm, yaxud müşavirə nə vaxt olacaqdır? Mən sizə məlumat vermək istəyirəm ki, artıq 15–20 gündür ki, sənədlər hazırdır. Biz o sənədləri hazırlamalı idik, onlar hazırdır. Amma ortaya bir neçə tədbir düşdü. Mən indi Bakıya qayıdan kimi, o sənədlərə baxacağam. Yəqin ki, onların bir çoxunu imzalayacağam. Çünki istəyirəm, əvvəlcə o sənədlər elan olunsun, referendumdan sonra həmin müşavirəni keçirəcəyəm. Sahibkarların fəaliyyətini artırmaq, onlara

yardım etmək – onlar məsələlər qoymuşdular, – bunların hamısı nəzərə alınır, bu niyyətlərimi də həyata keçirəcəyəm.

Q ə n i r ə P a ş a y e v a: Biz jurnalistlər adından təşəkkürümüzü bildiririk ki, Siz vaxt ayırdınız, bizimlə görüşdünüz, suallarımıza cavab verdiniz.

H e y d ə r Ə l i y e v: Sağ olun.

Q ə n i r ə P a ş a y e v a: Mümkündürsə, Sizinlə bir xatirə şəkli də çəkdirərdik.

Azərbaycan prezidenti Heydər Əliyev onu Naxçıvan Muxtar Respublikasına səfərdə müşayiət edən və mətbuat konfransında iştirak edən jurnalistlərlə xatirə şəkli çəkdirdi.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV İLƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KÖÇƏRYANIN TƏKBƏTƏK GÖRÜŞÜ

14 avqust 2002-ci il

Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda, Azərbaycan Respublikası ilə Ermənistan Respublikasının sərhədində Azərbaycan prezidenti Heydər Əliyev ilə Ermənistan prezidenti Robert Köçəryan arasında təkbətək görüş olmuşdur. Görüş 4 saatdan çox davam etmişdir.

Azərbaycan və Ermənistan prezidentləri görüşün faydalı olduğunu, bu səviyyədə danışıqların davam etdirilməsinin zəruriliyini vurğuladılar.

Prezidentlər təkbətək keçirilən hər bir görüşün Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün əhəmiyyətli olduğunu, münaqişənin həlli ilə bağlı bütün səyləri səfərbər etməyin vacibliyini bildirdilər. Atəşkəs rejiminə bundan sonra da əməl olunmasının zəruriliyini qeyd edən dövlət başçıları münaqişənin sülh yolu ilə nizama salınmasında ATƏT-in Minsk qrupu həmsədrlərinin səylərinin davam etdirilməsinin vacib olduğunu vurğuladılar. Prezidentlər MDB ölkələri dövlət başçılarının Kişinyovda keçiriləcək zirvə toplantısında yenidən görüşmək niyyətində olduqlarını bildirdilər. Təkbətək görüş başa çatdıqdan sonra prezi-

dent Heydər Əliyev və prezident Robert Köçəryan jurnalistlər qarşısında qısa bəyanatlarla çıxış etdilər.

Azərbaycan prezidenti Heydər Əliyevin bəyanatı

Hörmətli jurnalistlər, Ermənistan Respublikasının və Azərbaycan Respublikasının mətbuat nümayəndələri!

Bu gün iki prezidentin – Ermənistan prezidenti Robert Köçəryanın və Azərbaycan prezidenti Heydər Əliyevin görüşü oldu. Bilirsiniz ki, 1999-cu ildən başlayaraq, biz vaxtaşırı görüşürük. O vaxt biz bu görüşlər barədə razılığa gəldik, o mənada ki, ATƏT-in Minsk qrupu və onun həmsədrləri ilə yanaşı, biz, iki prezident Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsinin uğurla həll olunmasına şəxsi görüşlərimiz vasitəsilə kömək edə bilərik.

Bu gün biz görüşdük və ötən görüşləri xatırladıq. Bilirsiniz ki, bu kiçik otaqda 4 saat söhbət etdik və belə isti havada siz də bizi gözlədiniz. Lakin bütün bunlar münaqişənin nizama salınmasının qarşılıqlı surətdə məqbul yollarını axtarıb tapmaq üçün lazımdır. Hesab edirəm ki, bu görüş faydalı, gərəkli oldu.

Bəzən Azərbaycanda da, Ermənistanda da, dünyanın digər regionlarında da belə deyirlər ki, iki prezident görüşür, nəticə isə yoxdur, onda belə görüşləri davam etdirməyə ehtiyac varmı? Yeri gəlmişkən, bu gün biz həmin məsələni də müzakirə etdik, yəni fikir mübadiləsi apardıq. İkimiz də belə qənaətə gəldik ki, bəli, bu görüşləri davam etdirməyə ehtiyac var. Ermənistan prezidenti və mən münaqişəni necə nizama salmaq məsələsini bir çox mövqelərdən nəzərdən keçirdik. Biz ötən görüşlərimizin nəticələrini təhlil etdik və hər ikimiz belə

bir fikrə gəldik ki, danışıqlar, o cümlədən də prezidentlərin bilavasitə görüşləri üçün potensial hələ tükənməyibdir. Biz – mən Azərbaycan tərəfindən deyirəm, əslinə qalsa, burada aramızda fikir ayrılığı olmadı – atəşkəs rejimini qoruyub saxlamalı və möhkəmlətməli, danışıqları davam etdirməli, ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyətini stimullaşdırmalı, məsələnin həllinə kömək etmək üçün digər imkanlardan istifadə etməli və iki prezidentin – Ermənistan və Azərbaycan prezidentlərinin şəxsi görüşlərini davam etdirməliyik.

Hesab edirəm ki, bizim 4 saatlıq söhbətimiz çox faydalı, çox maraqlı oldu və zənnimcə, bizi bir daha inandırır ki, münaqişənin dincliklə nizama salınması üçün – şübhə yoxdur ki, buna nail olmaq lazımdır – Minsk qrupu həmsədrlərinin fəaliyyəti ilə yanaşı, biz prezidentlərin görüşlərinin bu formatını davam etdirə bilərik. Bəyan edirəm ki, münaqişənin dincliklə nizama salınması Azərbaycan üçün vacibdir, buna heç bir şübhə yoxdur, bu, Azərbaycana lazımdır. Mənə elə gəlir ki, Robert Sedrakoviç özü bu barədə danışacaqdır, mən onun əvəzinə danışmaq istəmirəm. Ancaq deyə bilərəm ki, biz bu baxımdan da yekdil fikirdə olduq. Mən məmnunam ki, bu gün biz görüşdük, danışdıq, bu qədər vaxt sərf etdik. Zənnimcə, biz bu görüşləri davam etdirməliyik. Ola bilər MDB ölkələri dövlət başçılarının Kişinyovda keçiriləcək toplantısında biz bir daha görüşə bilək. Mənim demək istədiyim bunlardır. İndi isə mikrofonu Robert Köçəryana verirəm. Robert Sedrakoviç, buyurun.

Ermənistan prezidenti Robert Köçəryanin bəyanatı

Heydər Əliyeviç, sağ olun.

Hörmətli jurnalistlər, əvvəla, çöl şəraitində danışıqlar aparılması üçün kifayət qədər yaxşı imkan yaradıldığına görə Azərbaycan tərəfinə təşəkkür etmək istərdim. Həmçinin qeyd etmək istərdim ki, biz bir qədər mürəkkəb vəziyyətdəyik. 4 saatlıq danışıqlardan sonra əhval-ruhiyyəmiz sanki yaxşıdır, deməli, ümumən biz görüşün gedişindən razıyıq. Bununla belə, konkret olaraq heç nə deyə bilmirik, ona görə də bu baxımdan sizi müəyyən dərəcədə məyus edirik. Ona görə deyə bilmirik ki, proses, ümumiyyətlə, mürəkkəbdir, proses yaxın keçmişdə zəifləmişdi və deməliyəm ki, çoxdandır biz, bax, belə görüşməmişdik. Hər halda, ümid var ki, bu görüş bir qədər gecikmiş olsa da, prosesə təkan verəcək və biz irəliləyə biləcəyik.

Təəssüflənirəm ki, konkretlik barədə təkrara varacağam. Biz, sadəcə olaraq, danışa bilmərik, indiki halda danışıqlar prosesinin texnologiyası, ümumiyyətlə, texnologiyalar belədir. Heydər Əliyeviç, təkrar edirəm ki, sülh Ermənistana da lazımdır. Biz problemin dincliklə nizama salınması niyyətimizdə, həqiqətən, səmimiyik. Mən bugünkü görüşümüzdən kiçik bir epizod danışacağam. Tam açıq şəkildə dedik ki, problemi biz həll etməsək, kim həll edəcəkdir. Heydər Əliyeviçin tərcümeyi-halını nəzərə alaraq, mənim məhz Dağlıq Qarabağla bağlı, bu problemin 10 illiyi, hətta 12 illiyi ilə bağlı tərcümeyi-halımı nəzərə alaraq hiss edirik ki, bu baxımdan bizim üzərimizə böyük məsuliyyət düşür. Üstəlik, vasitəçilər də daim deyirlər ki, bax, əgər prezidentlər razılığa gəlsələr,

onda beynəlxalq birlik əldə olunmuş razılaşmaların həyata keçirilməsi üçün lazımi ehtiyatların – həm siyasi, həm də maddi ehtiyatların tam paketini təqdim etməyə hazırdır. Mən bugünkü görüşümüzü müsbət qiymətləndirirəm, bundan sonra da işləyəcəyik. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV SƏDƏRƏK, ŞƏRUR VƏ BABƏK RAYONLARINDA

14 avqust 2002-ci il

Azərbaycan prezidenti Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda, Azərbaycan–Ermənistan sərhədində Ermənistan prezidenti Robert Köçəryan ilə təkbətək görüşdən sonra Sədərək rayonunun Heydərabad qəsəbəsinə gəldi. Qəsəbənin sakinləri prezidenti hərarətlə, sürəkli alqışlarla qarşıladılar.

Sədərək rayon sakinləri qarşısında çıxış

H e y d ə r Ə l i y e v: Əziz sədərəklilər!

Mən sizi səmimi-qəlbdən salamlayıram. Uzun müddət sizdən ayrıldıqdan sonra yenidən sizinlə görüşməyimdən çox böyük məmnunluq hissi duyuram.

Sədərək rayonunun Naxçıvan Muxtar Respublikasında, o cümlədən Azərbaycanda xüsusi yeri var. Böyük bir kənd olmuş və rayon statusu almış Sədərək həmişə bizim, Azərbaycanın ən kənar yerində, sərhəddə yerləşərək Azərbaycan torpaqlarını qorumuş, saxlamış və mərdlik nümunələri göstərmişdir. Mən indi qəsəbəni bu cür görəndə həddindən artıq sevinirəm. Çünki sizin yəqin ki, xatirinizdədir, vaxtilə, 1977-1978-ci illərdə mən Azərbaycanın başçısı olduğum zaman kənddən aralı bu qəsəbənin salınması haqqında qərar verdim.

Nə üçün kənddən aralı? Ona görə ki, o vaxtlar ermənilər yavaş-yavaş bu torpaqlara iddia edir, bu bizimdir, o bizimdir deyirdilər. Mənim yadımdadır, burada bir Həsənqulu bağı vardı, hə, düz deyirəm?

S a k i n l ə r: Bəli, cənab Prezident, düz deyirsiniz.

H e y d ə r Ə l i y e v: Guya ki, o bağ onlarındır. Sonra mən 1990-cı ildə buraya gələndə bu məsələlərlə məşğul olmuşam. O vaxt mən bunları hiss edirdim. Ona görə mən belə qərara gəldim ki, burada, Azərbaycana Naxçıvan tərəfdən giriş yerində müasir tipli evlər tikək ki, Ermənistanın ərazisindən buraya keçənlər – yadınızdadırsa, o vaxt gediş-gəliş çox idi, turistlər də gedib-gəlirdi, sovet vaxtı başqaları da gedib-gəlirdi – onlar görsünlər ki, Azərbaycan torpağında indi yaşayış necədir. Ona görə mən burada o vaxt bu qəsəbəni salmaq barədə göstəriş verdim. Layihələr hazırlandı, qəsəbə tikildi və sədərəklilərin bəziləri də buraya köçüb yaşamağa başladılar.

Təəssüflər olsun ki, o ağır illərdə, xatirimdədir, 1989–1990-cı illərdə ermənilər bu tərəflərə hücum etmişdilər, qəsəbəni atəşə tutmuşdular, evlərin bir çoxu dağılmışdı və insanlar köçüb kəndə getmişdilər.

Mən 1990-cı ildə Naxçıvana gələndə yaşayış məntəqələrinə ilk gedişim Sədərək rayonuna oldu. Yəqin ki, onu da xatırlayırsınız. Mən Naxçıvandan gələndən 3-4 gün sonra Sədərəyə gəldim. Nə üçün Sədərəyə? Çünki bu bizim həm ucqar yaşayış məntəqəmizdir, rayonumuzdur, həm də ki, insanlar burada ermənilərin hücumundan, onların atəşlərindən çox əziyyət çəkmişdilər.

Onda o qəsəbə dağılmışdı. Mən birbaşa kəndə gəldim. Siz orada məni çox hərarətlə, dostcasına, qardaşcasına qəbul

etdiniz. Xatirimdədir, qoyunlar kəsdiniz. Bəzi televiziya lentləri qalıbdır, mənim kəndə gəlməyimi və sizin klubdakı görüşümüzü Azərbaycan televiziyası hərdən göstərir. Onu görmüsünüzmü?

S ə s l ə r: Görmüşük...

H e y d ə r Ə l i y e v: Mən bir neçə gün idi ki, Naxçıvana gəlmişdim. İlk çıxışımı Sədərəkdə etdim. Məhz buna görə, sədərəklilərin qəhrəmanlıqlarına görə, Azərbaycan torpağının bu ucqar yerində, sərhədində möhkəm dayandıqlarına görə və göstərdiyi şücaətə görə mən buraya gəldim.

Ancaq bu qəsəbənin dağılması məni çox incidirdi. O vaxt nə edə bilərdim? Yadınızdadır, Naxçıvan blokada şəraitində idi. Mənim özüm də çox ağır vəziyyətdə yaşayırdım. Bizi onda nəinki ermənilər sıxırdılar, bir tərəfdən də Azərbaycanın rəhbərləri sıxırdılar. Bunlar hamısı xatirinizdədir.

Yəqin xatirinizdədir ki, 1992-ci il mayın 17-dən 18-nə keçən gecə buraya ermənilər hücum etdilər. Orada dağın üstündə postlara, Mil təpəsinə hücum etdilər. Bizim oradakı əsgərlərimizdən 8 nəfər həlak oldu. Yadınızdadırsa, orada 40 gün atışma getdi. O vaxt mən bütün dünyaya haray saldım. Biz körpü tikmişdik. Hələ körpü açılmamışdı. Ancaq o körpüdən Türkiyədən nə qədər müxbirlər tökülüb Naxçıvana, həmin döyüş yerinə gəldilər. Onda bizim nəyimiz vardı? Ordumuz yox idi, silah-sursatımızı oradan-buradan yığmışdıq. Amma o döyüşdə sədərəklilər, yəni naxçıvanlılar – təkcə sədərəklilər yox, onda mən buraya bütün Naxçıvanı tökmüşdüm, hamı bir yerdə döyüşürdü – onları susdurdular.

Yadımdadır, sonra mən Türkiyəyə getmişdim, orada mənə dedilər ki, Arazın o tərəfindən biz görürdük, siz atəş açırdınız, Armaş sizin atəşlərlə yandı, İğdırdan onun yandığını

gördük. Bəli, biz o vaxt onları susdurduq. Ondan sonra atəş dayandı. O vaxt bu atışmanın başqa səbəbləri də olmuşdu. İndi o, keçmişdə qalıbdır. Bunu Anar yaxşı bilir. Təkcə Anar yox, başqaları da yaxşı bilirlər. Burada bəzi adamlar təxribat etmişdilər, elə içimizdən də təxribat edənlər olmuşdu. Ancaq vəziyyət elə idi ki, bir on gün, deyəsən biz gedib oradan əsgərlərimizin meyitlərini gətirə bilmirdik. Elədirmi? Yadınızdadırmı?

S ə s l ə r: Biz meyitləri mayın 28-də götürdük, onda Siz körpünün açılışında iştirak edirdiniz.

H e y d ə r Ə l i y e v: Bəli, körpünün açılışı günü oldu. O vaxt mən Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətinin nümayəndələrini çağırdım. Bu təşkilatların nümayəndələrinin iştirakı ilə gedib oradan, həmin o Mil təpəsindən bizim şəhidləri götürdük.

Burada vuruşan əsgərlərin, adamların bəziləri yaralanmışdı. Mən onları Türkiyəyə göndərdim. Bunlar yadınızdadır... Onlar Ərzurum xəstəxanasında müalicə olundular. Biri – Sultan idi, qıçlarından yaralanmışdı – deyəsən qıçlarını kəsmişdilər.

S ə s l ə r: Xeyr, kəsmədilər.

H e y d ə r Ə l i y e v: Kəsmədilər. Mən Türkiyəyə getmişdim. Ərzurumda oldum, xəstəxanada yaralılarla da görüşdüm, onları da ziyarət etdim. Bunların hamısı o illərin xatirələridir. Amma bir bu deyil. Mən Azərbaycana uzun illər rəhbərlik etdiyim zaman Naxçıvan Muxtar Respublikasına və xüsusən Sədərəyə xüsusi qayğı göstərmişəm. İndi də bu qayğını göstərirəm. Görürsünüz, imkan var, biz Dünya Bankını cəlb etdik. Onların nümayəndələri buraya gəldilər və sizin qəsəbədəki bu evlərin hamısını bərpa ediblər. Vasif Talı-

bovun mənə dediyinə görə, bu evlərin əksəriyyətində artıq yaşayış var. Burada məktəb tikilibdir. Sədərək rayonunun bütün rəhbərliyi buraya köçübdür. Elədirmi?

Amma o vaxt belə deyildi. Qəsəbə dağıldığına görə hamı kəndə getmişdi. İndi camaat buraya köçüb, məktəb var. Hətta görürəm ki, burada Sədərək rayonunun prokurorluğu da var. İndi yenə də deyirəm, bu mənim Sədərəyə olan ikinci qayğımdır. Biri o vaxtlar bu qəsəbəni tikdirmişdim, dağıtdılar. İndi Allah elə etdi ki, mənə imkan verdi, tikdirdiyim bu qəsəbəni ikinci dəfə bərpa etdim və siz də yaşayırsınız.

S ə s l ə r: Çox sağ olun, var olun. Allah sizdən razı olsun.

H e y d ə r Ə l i y e v: Siz bilirsiniz ki, mən buraya Ermənistan prezidenti Köçəryan ilə görüşə gəlmişdim. Bu görüşlər vaxtaşırı baş verir. Bir dəfə də mən 1999-cu ildə burada onunla görüşmüşdüm, yəqin ki, yadınızdadır. İndi də görüşə gəlmişdim və bir neçə saat danışıqlar apardıq. Onlar istəyirlər ki, Ermənistan–Azərbaycan münaqişəsi sülh yolu ilə həll olunsun. Biz də istəyirik ki, işğal olunmuş torpaqlarımız azad edilsin, Azərbaycanın ərazi bütövlüyü təmin olunsun, yerindən-yurdundan didərgin düşmüş qaçqınlarımız öz yerinə-yurduna qayıtsın. Biz danışıqlarda bunları qoyuruq, bunları istəyirik.

Ancaq danışıqlar çətin, ağır gedir. Amma nə qədər çətin olsa da, nə qədər ağır olsa da, biz bu danışıqları aparırıq və aparacağıq. Çünki təkcə mən yox, bütün beynəlxalq təşkilatlar belə fikirdədirlər. Minsk qrupu və onun həmsədrləri, böyük dövlətlər, Rusiya, Amerika Birləşmiş Ştatları məsələni sülh yolu ilə həll etmək fikrindədirlər. Sülh yolu ilə... Müharibəni həmişə etmək olar. Ancaq düşünmək lazımdır: bunu etmək lazımdır, yoxsa lazım deyil, nə vaxt lazım deyil? Ancaq

indi bizim məqsədimiz və mənim keçirdiyim görüşlər, apardığım danışıqlar ona yönəldilibdir ki, məsələni sülh yolu ilə həll edə bilək. Bu sırada belə bir görüşün əhəmiyyəti vardır. Ona görə də biz görüşdük, danışdıq, indi də mən burada olarkən sizinlə görüşməmiş buradan gedə bilməzdim.

S ə s l ə r: Çox sağ olun, biz Sizdən çox razıyıq.

H e y d ə r Ə l i y e v: Vasif Talıbovdan soruşuram. Deyir ki, indi sədərəklilər torpaqda yaxşı işləyirlər. Yadımdadır, mən burada işləyən vaxtlarda burada bağlar var idi. Onlara o qədər də yaxşı baxmırdılar. Bəziləri ora-bura getmişdilər, vəziyyət ağır idi. Amma indi Naxçıvanda vəziyyət normaldır, hər şey yaxşıdır, torpaqları bölüb kəndlilərə vermişik, mal-qaranız, torpağınız artıb, suvarma məsələsi həll olunubdur.

S ə s l ə r: Tamamilə həll olunubdur.

H e y d ə r Ə l i y e v: Görürsünüz, suvarma məsələsi tamamilə həll edilibdir. Beləliklə, Vasif Talıbov, mənə deyin, bunların bu il nə qədər taxılı olacaq?

V a s i f T a l ı b o v: 1000 tondan yuxarı.

S ə s l ə r: Xeyr, 2500 ton...

H e y d ə r Ə l i y e v: 2500! Bəlkə biri də 3000 ton dedi. Taxılınız 2500 ton olacaqdır. Deyirlər mal-qaranız artıb, mən eşitmişəm. Ümumiyyətlə, indi torpaqda, kənddə daha yaxşı işləyirlər və torpağa daha da bağlanıblar. Düzdür, bəziləri başqa yerlərə də gediblər.

S ə s l ə r: Cənab Prezident, gedənlər də qayıdıblar.

H e y d ə r Ə l i y e v: Gedənlər də qayıdır. Görürsünüzmü, gedənlər də qayıdır. Bəziləri bizneslə, alverlə məşğuldur. Qoy o da olsun, o da lazımdır. Bəzən gedirəm haradasa biznesmen görürəm, soruşuram haradansan? Deyir, mən sədərəkliyəm. Çox şadam ki, sizin işləriniz yaxşı gedir və inana bilərsiniz ki,

bundan sonra da yaxşı gedəcəkdir. Bizim siyasətimiz, apardığımız islahatlar və iqtisadiyyatda gördüyümüz işlər təmin edir ki, bütün Azərbaycanda ilbəil inkişaf olsun. O cümlədən də Naxçıvan Muxtar Respublikasında bu inkişaf var və Naxçıvan Muxtar Respublikasının ən ucqar və strateji nöqteyi-nəzərindən ən əhəmiyyətli Sədərək rayonunda da var. Mən buna çox şadam. Buna görə də Sizi bir də salamlayıram. Sizin hamınıza cansağlığı diləyirəm, xoşbəxtlik arzulayıram.

* * *

*Sədərək rayonunun 101 yaşlı sakini **Rza Axundov** sədərəklilərə göstərdiyi diqqət və qayğıya görə prezident Heydər Əliyevə minnətdarlığını və təşəkkürünü bildirərək dedi:*

Cənab Prezident, Allah Sizi başımızın üstündən əskik etməsin. Nə qədər ki, Siz varsınız, bizə pis gün yoxdur.

H e y d ə r Ə l i y e v: Elədir...

R z a A x u n d o v: Bu həyatı ki, bizə vermisiniz – torpaq bizdə, suyumuz var, hər şeyimiz var, heç nədən korluğumuz yoxdur – bircə arzumuz budur ki, Siz sağ olasınız. Mən o gözəgörünməz Allahdan Sİzə cansağlığı arzu edirəm. Mənim 101 yaşım var. And olsun Allaha, Siz yaşadıqca, bu millət də yaşayacaqdır. Sənə qurban olum. Qurban olum sənin kimi igidə, şükür pərvərdigara. Səni təbrik edirəm.

H e y d ə r Ə l i y e v: Çox sağ olun.

R z a A x u n d o v: Bütün Sədərək camaatı adından Sizi səmimi-qəlbdən təbrik edirəm.

H e y d ə r Ə l i y e v: Çox sağ olun.

R z a A x u n d o v: Dünya durduqca yaşa, cənab Prezident.

H e y d ə r Ə l i y e v: Qızım, sən şeir oxumaq istəyirsən? Şeir yazırsan? Neçənci sinifdə oxuyursan?

Ş ə r q i y y ə M e h d i y e v a: 8-ci sinifdə oxuyuram.

H e y d ə r Ə l i y e v: Sədərək məktəbində oxuyursan?

Ş ə r q i y y ə M e h d i y e v a: Bəli.

H e y d ə r Ə l i y e v: Yaxşı şeir yazırsan?

Ş ə r q i y y ə M e h d i y e v a: Bəli.

Ölkənin mənası, qayəsi sənsən,
Xalqımın parlayan ziyası sənsən,
Keçmişsən, bu günsən, xoş gələcəksən,
Sən Heydər atamız, ulu babamız.

Düşməni susdurdun qətiyyətinlə,
Qalibsən əzminlə, cəsarətinlə,
Yurda olan sonsuz məhəbbətinlə,
Yaşatdın xalqını, ulu babamız.

Güldürdün üzünü doğma Vətənin,
Arxası, dayağı sənsən millətin,
Yayılıb dünyaya şanın, şöhrətin,
Sən Heydər atamız, ulu babamız.

Mənim əziz başçım, böyük rəhbərim,
Mənim komandanım, dahi əsgərim,
Sənsən qurtuluşum, sənsən məhvərim,
Ay Heydər atamız, ulu babamız.

H e y d ə r Ə l i y e v: Çox sağ ol, çox sağ ol... Sən nə yazırsan?

M ə h l u q ə M e h d i y e v a (*Sədərək orta məktəbinin 8-ci sinif şagirdi*): Mən Sizə şeir yazıram.

H e y d ə r Ə l i y e v: Sən də yazmısan? Gör burada nə qədər şair var?

M ə h l u q ə M e h d i y e v a: Biz Sizi çox istəyirik. Ona görə də bu şeirləri yazmışıq:

Elimin nur saçan çırağı oldun,
Azəri yurdunun dayağı oldun,
Haqqın, ədalətin bayrağı oldun,
Sənin varlığınla fəxr edirik biz.

Əbədi şəfəqsən, sönməyəcəksən,
Yolun haqq yoludur, dönməyəcəksən,
O uca zirvədən enməyəcəksən,
Sənin varlığınla fəxr edirik biz.

Azərbaycan adlı bir dünya qurdun,
Rəhbəri sən oldun bu ana yurdun,
Düşmənlər önündə dağ kimi durdun,
Sənin varlığınla fəxr edirik biz.

Nə yaxşı ki, sən varsan, Heydər baba,
Sənə bağlanıbdır bu el, bu oba,
Hər kəsin arxası vardır dünyada,
Sənin varlığına güvənirik biz,
Sənin varlığınla fəxr edirik biz.

H e y d ə r Ə l i y e v: Sağ ol, sağ ol... Sən də şeir yazmısan? Maşallah, burada nə qədər şair var!

Şəmsiyyə Yaqubova (*Sədərək orta məktəbinin 8-ci sinif şagirdi*):

Sən ana yurdumun xilaskarısan,
Cavanın, qocanın dostu, yarısan,
Bu ulu millətin dağ vüqarısan,
Görüm çox zirvələr aşasan, baba!

Azəri yurdunun igid övladı,
Sənինlə tanındı Vətənin adı,
Sənin o qamətin səddir, qaladır,
Şahdağla, Qafdağla qoşasan, baba!

Nadanlar yoluna çox quyu qazdı,
Sənin taleyini o Tanrım yazdı,
Soruşsam xalqımdan, deyəcək azdır,
Yüz il də, min il də yaşasan, baba!

Heydər Əliyev: Sağ ol.

Gülnur Həsənova (*Sədərək məktəbinin 5-ci sinif şagirdi*):

Şahdağ zirvəsində bir zirvə də var,
Allaha yaxındır, haqq elçisidir.
Ömrünü şam kimi əridən rəhbər,
Bu günün, sabahın bilicisidir.

Şahdağ zirvəsində bir zirvə də var,
O, dostluq, qardaşlıq nəğməkarıdır.
Dünyaya tanıdan ana yurdumu,
O, varlı ellərin səbəbkarıdır.

Şahdağ zirvəsində bir zirvə də var,
Şeyx Şamil timsallı dağlar oğludur.
Xətai qeyrətli ulu sərkərdə,
Nəbidir, Babəkdir, qoç Koroğludur.

Şahdağ zirvəsində bir zirvə də var,
Xalqımı ağ günə aparan odur.
Xilaskar göndərib yaradan bizə,
Qırğını, davanı yatıran odur.

Şahdağ zirvəsində bir zirvə də var,
Hünər zirvəsidir, nər zirvəsidir.
Bizim Odlar yurdu Azərbaycanın
Heydər zirvəsidir, ər zirvəsidir.

H e y d ə r Ə l i y e v: Sağ ol.

Budur Azərbaycan xalqının bugünkü yetirmələri. Təsəvvür edin, bu ucqar Sədərəkdə yaşayan bu gənc qızlar elmə, biliyə nə qədər maraqlıdırlar və nə qədər istedadlıdırlar. Mən bilirəm ki, Sədərəkdə də, Naxçıvan Muxtar Respublikasının başqa kəndlərində də, rayonlarında da, hər yerində belə istedadlı uşaqlar, gənclər çoxdur. Bunlar bizim gələcəyimizdir. Bunlar bizim varlığımızdır, sərvətimizdir.

Mən bir daha sizə təşəkkür edirəm, cansağlığı arzu edirəm, uğurlar arzulayıram. Sağ olun.

* * *

Sonra Azərbaycan prezidenti Heydər Əliyev Şərur rayonuna gəldi. Cəlilkəndin mərkəzi meydanına ətraf kəndlərdən də top-

laşmış minlərlə insan dövlətimizin başçısını musiqi səsləri altında, sonsuz sevinc hissi ilə qarşıladı. Qızlar respublikamızın rəhbərinə gül dəstəsi təqdim etdilər. Kəndin ağbirçək sakini dövlətimizin başçısının gəlişi münasibətilə üzərlik yandırdı.

Şərur rayon sakinləri ilə görüş

H e y d ə r Ə l i y e v: Əziz dostlar!

Bacılar və qardaşlar!

Mən buradan, bu yoldan keçərkən düşünürdüm ki, yolun üstündə olan kəndin adamlarının bəziləri ilə bəlkə də görüşüm. Amma indi baxıram ki, burada təkcə bu kəndin deyil, bir neçə kəndin sakinləri, Şərur rayonunun böyük bir hissəsindən olan adamlar iştirak edirlər. Sizə təşəkkür edirəm ki, bu yolüstü səfərim zamanı mənimlə görüşmək üçün buraya toplaşmısınız. Sizinlə görüşməyimdən həddindən artıq məmnun olduğumu bildirmək istəyirəm.

Mən sizinlə həm keçmişdə, 1970–80-ci illərdə Azərbaycana rəhbərlik etdiyim zaman, həm də sonra, 1990-cı ildən Moskvadan, Bakıdan üzülüşüb Naxçıvana gəldiyim zaman və sizinlə bərabər 3 ilə yaxın, 1990–1993-cü illərdə ağır blokada şəraitində Naxçıvanda yaşadığım zaman, Naxçıvanın Ali Məclisinin sədri olduğum zaman dəfələrlə görüşmüşəm. Ancaq hər bir görüş mənim üçün əzizdir və indiki görüş daha çox əzizdir. Çünki xeyli vaxtdır ki, mən sizi görməmişdim. Mən indi Bakıdayam, Azərbaycanın prezidentiyəm. 9 il bundan əvvəl siz məni buradan Bakıya göndərdiniz. Mən də sizin göstərişinizi yerinə yetirdim, getdim.

Bakıya getdim. Sonra məni orada müstəqil Azərbaycanın prezidenti seçdilər. 9 ildir ki, mən sizin etimadınızı sədaqətlə doğrultmağa çalışıram.

1990–1993-cü illərdə, 3 il sizinlə bərabər Naxçıvanın ağır blokada şəraitində, burada yaşamaq, işləmək mənim böyük siyasi tərcümeyi-halımda ən əziz səhifələrdir. İndi mən müstəqil Azərbaycanın prezidentiyəm və üzərimə qoyulan vəzifələri şərəflə yerinə yetirməyə çalışıram. Bu illərdə görülən işlər Azərbaycanda böyük dəyişikliklərə gətirib çıxarıbdır.

Birincisi, biz Azərbaycanda 1993-cü ildə baş vermiş böhranın – həm iqtisadi, həm siyasi, həm də dövlət böhranının qarşısını aldıq, vətəndaş müharibəsinin qarşısını aldıq, Azərbaycanı parçalanmaqdan, böyük bəlalardan xilas etdik.

Sonra, 1994-1995-ci illərdə Azərbaycanda yenidən dövlət çevrilişi cəhdləri oldu və bizi yıxmaq, dağıtmaq istədilər. Ancaq təkcə bizi yox, Azərbaycanı dağıtmaq istəyirdilər. Onların da qarşısını aldıq.

Nəhayət, 1995-ci ildən bu tərəfə Azərbaycanın bütün ərazisində, o cümlədən Naxçıvanda ictimai-siyasi vəziyyət sabitləşdi, iqtisadiyyat inkişaf edir, xalqın güzəranı gündən-günə yaxşılaşır. Bunu mən sizin timsalınızda görürəm və hamı da görür.

Burada toplaşan adamlar nə qədər gözəl, nə qədər cəsarətli insanlardır və hər birinizin üzündən görürəm ki, işiniz də, dərdiniz də, probleminiz də var. Mənim də var, sizin də. Ancaq həyat dəyişibdir, vəziyyət dəyişibdir. İndi siz müstəqil adamlarsınız, sərbəst işləyirsiniz, torpaqlarınızın, mal-qaranızın sahibisiniz, bütün varidatın sahibisiniz. Yadımdadır, əvvəlki illərdə, 1970-ci illərdə də mən Şərur rayonuna gəlirdim. İndi o

vaxtkından xeyli yaxşı işləyirsiniz və daha da yaxşı nəticələr əldə edirsiniz.

Şərur rayonu həm ərazisinə, həm iqtisadi potensialına, həm də əhalinin sayına görə Naxçıvan Muxtar Respublikasının ən böyük rayonudur, həmişə Naxçıvan Muxtar Respublikasında özünün bu qabaqcıl rolunu göstəribdir və bu gün də göstərir. Mən arzu edirəm ki, siz gələcəkdə öz işlərinizi daha da yaxşılaşdırasınız. Şərur rayonunun imkanları böyükdür. Burada yaxşı torpaqlar var, çox fədakar insanlar, sizlər varsınız. Arzu edirəm ki, buranı daha da abadlaşdırasınız, gözəlləşdirəsiniz və iqtisadiyyatınızı daha da inkişaf etdirəsiniz.

Gələn il, 2003-cü ildə Azərbaycanda prezident seçkiləri keçiriləcəkdir. O vaxt Heydər Əliyevin Azərbaycanda prezidentliyinin 10 ili tamam olacaqdır.

Mən sizdən soruşuram, mən nə etməliyəm, bəlkə mən fəaliyyətimi bitirim?

S ə s l ə r: Yox. Biz Sizinlə fəxr edirik.

H e y d ə r Ə l i y e v: Demək, onda yenidən prezident seçilmək üçün öz namizədliyimi irəliyə sürüm?

S ə s l ə r: Bəli. Biz Sizi yekdilliklə dəstəkləyirik.

H e y d ə r Ə l i y e v: Mən sizinlə hesablaşıram. Sizin fikrinizi, təklifinizi qəbul edirəm və yenidən prezident seçilmək üçün 2003-cü ildə mən yenə də öz namizədliyimi verəcəyəm. İnanıram ki, siz də məni seçəcəksiniz. Çox sağ olun, təşəkkür edirəm.

Bir məsələ də var. Bilirsiniz ki, avqustun 24-də nə olacaq?

S ə s l ə r: Bəli, bilirik. Referendum keçiriləcək.

H e y d ə r Ə l i y e v: Nə referendumudur?

S ə s l ə r: Konstitusiyaya edilən dəyişikliklərə görə.

H e y d ə r Ə l i y e v: Başa düşürəm, siz o dəyişikliklərlə tanışsınızmı, onlarla razısınızmı?

S ə s l ə r: Bəli, tanışıq və ürəkdən razıyıq.

H e y d ə r Ə l i y e v: Referendumda iştirak edəcəksiniz, səs verəcəksiniz?

S ə s l ə r: Bəli, iştirak edəcəyik və səs verəcəyik.

H e y d ə r Ə l i y e v: Təşəkkür edirəm. Görürəm burda danışmaq istəyənlər var. Mən bilirəm ki, imkan olsa, elə hər biriniz danışmaq istəyəcəksiniz.

S ə s l ə r: Heç kim danışmasın.

H e y d ə r Ə l i y e v: Mən bununla razıyam.

B i n n ə t M ə m m ə d o v (*Cəlilkənd sakini*): Hörmətli cənab Prezident, mən Sənինlə fəxr edirəm, görüşmək istəyirəm. Səni o qədər çox istəyirəm ki, Səndən ötrü mənə yumruq da vurublar. Mən 1970-ci ildən Səni müdafiə etmişəm və edəcəyəm. Müharibə də olsa, ön sırada birinci özüm gedəcəyəm.

H e y d ə r Ə l i y e v: Çox sağ ol. Yaxşı, sizin hər birinizin ürəyinizdə mənə qarşı olan məhəbbəti və sevgini hiss edirəm. Elə siz bunu burada öz simanızla, baxışlarınızla, gülüşlərinizlə, məni həyəcanla qarşılamağınızla nümayiş etdirirsiniz. Ona görə mən hesab edirəm ki, bu görüşü qurtaraq. Mən yol üstəyəm. Sizə cansağlığı, səadət arzu edirəm. Sağ olun, salamat qalın.

Məktəbli qız Gülnar prezident Heydər Əliyevə həsr etdiyi şeiri oxudu:

Canımsan, gözümsən,
İçimdəki sözümsən,
Yaşa mənim xan babam,
Ay mənim Heydər babam!

Əzəmətsən, qürursan,
Dəyanətlə durursan,
Biz milləti qorursan,
Yaşa mənim xan babam,
Ay mənim Heydər babam!

Gülnara bir babasan!
Sən ucadan ucasan,
Əyilməz bir qalasan,
Yaşa, yaşa xan babam,
Ay mənim Heydər babam!

* * *

Sonra Azərbaycan prezidenti Heydər Əliyev Qıvraq kəndinə gəldi. Dövlətimizin başçısının burada keçirdiyi görüşləri də xalqımızın öz prezidentinə sonsuz məhəbbətinin nümayişinə çevrildi.

Qıvraq kənd sakinləri ilə görüş

H e y d ə r Ə l i y e v: Əziz dostlar!

Əziz bacılar və qardaşlar, Qıvraq kəndinin sakinləri!

Siz qıvraqlısınız, mən də bu kəndi çox yaxşı tanıyıram, bilirsiniz. Deyirlər ki, burada Qarabağlardan da, Xokdan da adamlar var, elədir?

S ə s l ə r: Bəli, elədir.

H e y d ə r Ə l i y e v: Bu kəndlər həmişə bir-biri ilə çox bağlı olublar. Mənim xatirimdədir, müharibə illəri, 1944–1945-ci illər idi. Mən 1948-ci ilə qədər burada Naxçıvanda

işləyirdim. Onda bu üç kənd bir-biri ilə bağlı idi. Burada güclü kolxoz sədrləri var idi. Birinin adı Əli, o birinin adı Vəli idi. Qarabağlar kəndində Vəli idi, Xok kəndində də Əli idi. Qardaş idilər. Elədir, düz deyirəm?

S ə s l ə r: Bəli.

H e y d ə r Ə l i y e v: Amma o keçmiş çox yaxşı idi. Ondan sonrakı illərdə də mən sizinlə dəfələrlə görüşmüşəm. 1990–1993-cü illərdə Naxçıvana gələndə burada sizinlə dəfələrlə görüşmüşəm. Bir neçə dəfə kəndə gəldim, bəzən də o tərəfə gedəndə burada mütləq adamlar olurdu, görüşürdüm. Yadımdadır, buradan keçdik, Qoldəştlə Şaxtaxtı arasında bir körpü açdıq, İran ilə ticarətə başladıq. İndi o körpü işləyir. Hətta danışmışıq, onu bir az da genişləndirəcəklər, yeni körpü tikəcəklər. Yəni bir neçə anları yada salıram ki, biləsiniz, siz mənim qəlbimdəsiniz. Mən heç vaxt sizi unutmamışam və unutmayacağam.

Naxçıvan gözəl diyardır, ilbəil gözəlləşir. Məsələn, o illər, 1990–1993-cü illərdə mən burada olanda biz çox çətin yaşayırdıq, ağır şəraitdə idik, yadınızdadır. Çox problemlərimiz var idi. Yadımdadır, mən bir dəfə Şərura gedirdim. Qar yağmışdı, şaxta idi. Mənə demişdilər ki, Şərurda doğum evində bir uşaq donub ölmüşdür. Mən oraya gedirdim. Buradan keçəndə bir də gördüm ki, Yenikəndin yanında yolun qırağında böyük-böyük ağacları qırırlar. Mən onlara yaxınlaşanda hamı qaçdı. Mən yenə də getdim, özü də dizə qədər qar idi. Bir neçəsini tapdım, aralarında qadınlar da var idi. Mən gördüm, əyinlərində elə bir paltar da yox idi ki, soyuqdan özlərini qoruya bilsinlər. Mən onlara irad tutanda ki, bu ağacları niyə qırırsınız, bu ağaclar sizindir, mənə dedilər ki, ay Heydər Əliyev, axı biz donuruq.

Biz özümüz bu şaxtaya dözürük, amma uşaqlarımız dözə bilmir, donurlar. Ya gərək bizim uşaqlarımız donsun, ya da bu ağacları qıraq. Dedim ağacları qırın. Çünki burada başqa söz demək mümkün deyildi.

Amma mən indi oraya gedəndə Vasif Talıbov yanımda oturmuşdu, soruşurdum. İndi orada yeni-yeni ağaclar əkmisiniz və əkəcəksiniz. Yolboyu ağaclar çox gözəldir. Vasif Talıbovla danışırdıq ki, bunu daha da artırmaq lazımdır. Hətta bəlkə buraya su da çəkək ki, ağaclara su verilsin. Sədərəkdən buraya qədər başqa nəyi görürəm? Yolun o tərəfi də, bu tərəfi də əkilibdir. Əkilməyən yer yoxdur. Amma o illərdə belə şey yox idi. İndi niyə əkirlər? Çünki torpağı kəndliyə vermişik, torpaq onundur. Əgər o, torpağı boş qoyursa, özünə zərər vurur. Amma əkir, əkmək üçün su da lazımdır. Orada yerli rəhbərlik çox işlər görübdür, buralara su çıxarıbdır. İndi su ilə təmin olunur. Ona görə əkin də var, qırılan ağacların yerində yeniləri əkilibdir, qalxıbdır, həyat inkişaf edir.

Bu kəndlər böyük kəndlərdir. Naxçıvan Muxtar Respublikasında Qıvraq kəndinin ayrıca böyük tarixi, Xok kəndinin ayrıca böyük tarixi, Qarabağlar kəndinin ayrıca böyük tarixi vardır. Qarabağlar kəndində 800 il bundan öncə yaranmış türbə göstərir ki, bura necə böyük bir mədəniyyət mərkəzi olubdur. Bunlar Naxçıvan Muxtar Respublikasının, hətta deyə bilərəm ki, Azərbaycanın böyük kəndləridir. Vaxtilə burada çox istedadlı insanlar yaşayıb, bu kəndlərdən böyük şəxsiyyətlər, alimlər, böyük müəllimlər çıxıbdır.

Məsələn, Şahtaxtı kəndini götürsək, oradan nə qədər böyük siyasi xadimlər, dövlət xadimləri çıxıbdır. Yəni bu kəndlər həm insanların yaşayışı nöqteyi-nəzərindən həmişə yaxşı olub, buranın torpağı, təbiəti yaxşı olub, həm də bu kəndlər

Azərbaycan xalqına çox görkəmli insanlar veriblər. Ona görə bu kəndlər məşhurdur. Mən də həmişə bu kəndlərə böyük hörmətlə yanaşıram. Bu hörməti də sizə göstərmək üçün – bu gün Sədərəkdən gələndə dedilər ki, yolüstü gəlib görmək istəyirsiniz – buraya gəlməyə razılıq verdim. Mən çox şadam ki, sizinlə görüşürəm.

Mən Sədərəkdə, sərhəddə Ermənistanın prezidenti Köçəryanla görüşdüm. Biz onunla son üç ildə vaxtaşırı görüşürük, danışırıq. Çünki bu Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll etmək lazımdır. Biz o illər Naxçıvanı qoruyub saxladıq. Baxmayaraq ki, buraya hücumlar var idi. Yadınızdadır. Gəldilər Sədərək qəsəbəsini dağıtdılar, lakin qarşısını aldıq.

Ancaq təəssüflər olsun ki, Dağlıq Qarabağ münaqişəsində torpaqlarımızı saxlamaq mümkün olmayıbdır, ermənilər müəyyən səbəblərdən həm Dağlıq Qarabağı, həm də onun ətrafında yeddi rayonumuzu işğal ediblər. Oradan 1 milyondan artıq insan qaçqın düşübdür. İndi çoxları çadırlarda yaşayırlar, vəziyyətləri ağırdır. Mənim fəaliyyətimdə əsas yer tutan məsələ Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə son qoymaqdır. Bunu da hələ ki, sülh yolu ilə həll etmək istəyirik. Mən də, bizim özümüz də belə fikirdəyik ki, bu, sülh yolu ilə həll olunmalıdır. Beynəlxalq təşkilatlar da, bu işlə məşğul olan Minsk qrupunun həmsədrləri də belə fikirdədirlər ki, məsələ sülh ilə həll edilməlidir. Ona görə də mən belə görüşləri keçirirəm. Bu dəfə də görüşdük, danışdıq, bir çox məsələlərdə bir-birimizə aydınlıq gətirdik. İndi Naxçıvana qayıdıram.

Bilirsiniz ki, iki-üç gündür mən burada bir neçə proqramların həyata keçirilməsi ilə məşğulam. Televiziya ilə onla-

rı görmüsünüz, eşitmisiniz. Akademiyanın Naxçıvan bölməsini yaratdıq, Naxçıvanın aeroportunu yenidən tikəcəyəm. Bir il ərzində beynəlxalq aeroport olacaqdır. Vayxır su anbarının tikintisi dayanıbdır, oraya getdim. O da Babək rayonunu su ilə təmin etmək üçün çox vacibdir. Bu gün sizinlə də burada görüşdüm. Sizi görməyimdən çox sevinirəm, çox məmnunam, hamınıza cansağlığı arzu edirəm, səadət, xoşbəxtlik diləyirəm.

Sizə bir sualım var, ayın 24-də nə gözləyirsiniz?

S ə s l ə r: Cənab Prezident, referendumu gözləyirik.

H e y d ə r Ə l i y e v: Referendumun nə olduğunu bilirsiniz, Konstitusiyadakı dəyişiklikləri sizə izah ediblər, bilirsinizmi?

S ə s l ə r: Bəli, bilirik.

H e y d ə r Ə l i y e v: Mənim bunu izah etməyimə ehtiyac yoxdur ki?

S ə s l ə r: Xeyr.

H e y d ə r Ə l i y e v: Yoxdur. Çox gözəl. Demək, onda siz avqustun 24-də nə edəcəksiniz? Referendum məntəqələrinə gedəcəksiniz, ya yatacaqsınız?

S ə s l ə r: Gedib yekdilliklə səs verəcəyik.

H e y d ə r Ə l i y e v: Xanımlar da gələcək?

S ə s l ə r: Əlbəttə, böyük məmnuniyyətlə gələcəklər.

H e y d ə r Ə l i y e v: Çünki keçmişdə bəzi adamlar belə deyirdilər ki, adamın həyat yoldaşı seçki məntəqəsinə gedə bilməz, bu, yaxşı olmaz. İndi belə şey yoxdur ki, sizin qarşınızı almırlar ki?

S ə s l ə r: Xeyr, almırlar.

H e y d ə r Ə l i y e v: Almırlar. Sən mənə baxırsan, deyəsən səni bir az sıxışdırırlar. Demək, hamınız gələcəksiniz,

referenduma səs verəcəksiniz və bizim Konstitusiyada bir neçə vacib dəyişiklikləri sizin razılığınızla edəcəyik.

K ə n d s a k i n i: Heydər baba, Allahdan arzum budur ki, sidq ürəklə deyirəm, mənim qalan ömrümü Sizə versin. Mən Sizinlə fəxr edirəm.

H e y d ə r Ə l i y e v: Elə demə, sən cavan adamsan.

Sonra Qivraq kənd sakini **I s m a y ı l H ü s e y n q u l i - y e v** prezidentə həsr olunmuş şeir söylədi:

Ay ellər, yurduma bir oğul gəlib,
Gəlin, gəlişinə bir qurban kəsək.
Onun qüdrətilə Vətən yüksəlib,
Gəlin, bir ağızdan, xoş gəldin, deyək.

O oğul gəlib ki, Babək ürəkli,
O oğul gəlib ki, Vətən qeyrətli,
O oğul gəlib ki, əli çörəkli,
O verən çörəyin qədrini bilək.

Amalı bilinən Dədəm Qorquddur,
Bu Vətən, bu torpaq onun yurdudur.
Neçə zavod tikib, dəryaça salıb,
Gəlin, həqiqəti, düzü söyləyək.

Ey Şərur mahalı, niyə durmusan?!
Dar gündə Vətənə dayaq olmusan,
Heydər tək igidə hər vaxt ordusan,
Heydər amalını bayraq eyləyək.

Hörmətli Prezident, bütün aləm bilir ki, Siz türk dünyasının sönməz günəşisiniz. Qoy günəştək hərarətiniz xalqın üstündən əskik olmasın. Çox sağ olun.

H e y d ə r Ə l i y e v: Sağ olun, sağ olun.

Mənə başqa bir sözü olan varmı?

S ə s l ə r: Yoxdur.

H e y d ə r Ə l i y e v: Sizə cansağlığı arzu edirəm, sağ olun.

* * *

Prezidenti Heydər Əliyev daha sonra Yeni Kərki kəndinə gəldi. Sakinlər dövlətimizin başçısını hərarətli alqışlarla, «Heydər baba» nidaları ilə mehribanlıqla qarşıladılar.

Yeni Kərki kənd sakinləri ilə görüş

H e y d ə r Ə l i y e v: Əziz bacılar, qardaşlar!

Mən sizi səmimi-qəlbdən salamlayıram. Burda iki kənd var, ikisi də mənə yaxşı tanışdır. Birincisi, Böyükdüz kəndi vaxtilə yox idi. Şahtaxtı kəndindən köçüb gəlib burada məskən salmışdılar. Amma burada yaxşı işləyirdilər. Yadımdadır, yaxşı kolxozları var idi. Əli Məmmədov uzun illər kolxoz sədri olmuşdu. Sosialist Əməyi Qəhrəmanı, deputat idi.

K ə n d s a k i n i: Cənab Prezident, Siz o vaxt buraya atla gəlmişdiniz.

H e y d ə r Ə l i y e v: Düz deyirsən, atla gəlmişdim. Mən vaxtilə burada KQB-də işləyəndə bizim avtomobilimiz yox idi, çox yerlərə atla gedirdim. Mən zabit idim, yaxşı atlarımız var idi. Atla bu kənddən o kəndə gedirdik, işlərimizi görmək lazım idi. Ona görə mən çox yaxşı at sürürdüm, bunu mənim

dostum yadıma saldı. Amma iş onda deyil. Böyükdüz kəndi çox böyük kənd oldu, insanları da çox yaxşı yaşayırdılar.

İkincisi, Kərki kəndi Azərbaycanın ən gözəl guşələrindən biridir. Amma təəssüflər olsun ki, o vaxt bu xəritəni cızanda Azərbaycana düşmən olan insanlar elə etmişdilər ki, Azərbaycanın Kərki kəndi Ermənistanın içində qalmışdı. Buna baxmayaraq, Kərki həmişə yaşayırdı. Ancaq 1990-cı ildə ermənilər hücum etdilər. Yaxşı yadımdadır, onda mən hələ buraya gəlməmişdim. Sonra gəldim, mənə dedilər. Kərkililər orada möhkəm müqavimət göstərdilər. Ancaq təəssüflər olsun ki, onda ermənilərlə birlikdə sovet ordusunun hissələri sizi öz kəndinizdən çıxardılar. İndi gəlib burada yerləşmisiniz. Mən tarixi düz deyirəm?

S ə s l ə r: Bəli, tamamilə düz deyirsiniz.

H e y d ə r Ə l i y e v: İndi eşitdiyimə görə, burada yaxşı torpaqlarınız, yeriniz var. Amma hamınız burada yerləşməmisiniz. Mən bu yaxın vaxtlarda vəsait ayırdım ki, qaçqın vəziyyətində yaşayan bir neçə vətəndaşlarımıza evlər tikilsin. O cümlədən bilirdim ki, burada kərkililər var. İndi siz burada ev tikmisiniz, təsərrüfatınız var, əkin aparırsınız. Amma bəziləri...

V a s i f T a l ı b o v: Cənab Prezident, 9 ailə.

H e y d ə r Ə l i y e v: 9 ailə məskunlaşmamışdır.

V a s i f T a l ı b o v: Bəli, 9 ailənin evi yoxdur. 51 ailədir. Burada 9 ev tikiləcəkdir.

H e y d ə r Ə l i y e v: Burada tikiləcəkdir?

V a s i f T a l ı b o v: Bəli. Muxtar respublika üzrə 51 ailədir.

H e y d ə r Ə l i y e v: Şəxsi ev?

V a s i f T a l ı b o v: Bəli.

H e y d ə r Ə l i y e v: Tikdiyimiz o beşmərtəbəli ev...

V a s i f T a l ı b o v: O, Ermənistandan olan qaçqınlar üçündür.

H e y d ə r Ə l i y e v: O, kərkililər üçün deyil, kərkililər üçün 9 evdir. Qalanlarının hamısının evləri var?

V a s i f T a l ı b o v: Bəli, evləri var.

H e y d ə r Ə l i y e v: Evləri var, düzdür, yoxsa yox? Yox, yox, əgər burada bir məsələ varsa, deyin.

K ə n d s a k i n i: Cənab Prezident, biz eşitdik ki, oradan bizə də ev verirlər. Ona görə deyirəm.

H e y d ə r Ə l i y e v: Haradan?

V a s i f T a l ı b o v: Dördmərtəbəli 48 mənzilli binadan.

H e y d ə r Ə l i y e v: Yəni burada sizin eviniz yoxdur?

K ə n d s a k i n i: Evimiz var, amma...

H e y d ə r Ə l i y e v: Hə, ikinci ev istəyirsən? Onda hələ bir az tələsmə. Qoy evi olmayanlar alsınlar. Ondan sonra gələn dəfə bir sərəncam verəcəm ki, yeni bir ev tiksinlər, onda sizə də verərlər.

Mən çox məmnunam ki, siz burada yaxşı yaşayırsınız. Naxçıvan Muxtar Respublikasında işlər yaxşı gedir, əkin əkirsiniz, mal-qaranız var, torpaqlarınızın sahibisiniz, eviniz var – hər şey var. Bu qızlar, gəlinlər, balaca uşaqlar, bu yaşlı qadınlar ki, məni bu qədər hərarətlə, məhəbbətlə qarşılayırlar, bu o deməkdir ki, siz mənim siyasətimdən razısınız.

S əs l ər: Bəli, ürəkdən razıyıq.

H e y d ə r Ə l i y e v: Belə olmasa siz məni qarşılamazsınız. Mən bunu bilirəm. Ancaq mənim bu bacı ilə söhbətim var. O sən idin, Bakıda mənə dedin ki, iki günlüyə gedirsən, gəlmədin, bizi aldatdın?

Z ə r i f ə C a m a l b ə y o v a (*Əmək və müharibə veteranı*): İndi arxayın oldum ki, aldatmamısan. Mən o sözü dedim.

H e y d ə r Ə l i y e v: Yadınızdadır, 1993-cü ildə Azərbaycanda vəziyyət ağır idi, böhran var idi. Məni dəvət etdilər ki, Bakıya gedim. Doğrudur, mən Naxçıvandan ayrılmaq istəmirdim. Moskvadan Naxçıvana gələndə mənim fikrim bu idi ki, ömrümün sonuna qədər burada yaşayacağam. Çünki mən burada doğulmuşam və düşünürdüm ki, Allah nə qədər ömür verəcəksə, burada yaşayacağam. Gəldim, məni Naxçıvanın Ali Məclisinə sədr seçdilər, işləməyə başladım.

Ondan sonra, 1993-cü ildə Azərbaycanda vəziyyət ağır olanda mənə müraciət etdilər. Çox adamlar, bizim ziyalılar – alimlər, professorlar, şairlər, yazıçılar gəldilər ki, Heydər Əliyev, Azərbaycan dağılır, böhrandır. Xalq Cəbhəsindən hakimiyyətdə olan adamlar artıq qaçıb dağılmışdılar. Gəncədən də, yadınızdadır, Surət Hüseynov kimi bir adam, elə Xalq Cəbhəsinin yetişdirməsi hücum edirdi, hakimiyyəti devirib özü prezident olmaq istəyirdi. Belə bir vəziyyətdə məni Bakıya dəvət etdilər. Mən də getdim. Gedəndə Ali Məclisin qabağına çox adam yığışmışdı, xüsusən qadınlar. Gördüm ki, bunların göz yaşları var. Dedim, niyə belə gözü yaşlısınız? Bu bacı dedi ki, Sən bizi qoyub gedirsən. Mən dedim ki, yox, iki gündən sonra qayıdıb gələcəyəm. Mən həqiqətən də belə düşünürdüm. Düşünmürdüm ki, mən gedib orada qalacağam. Düşünürdüm ki, gedib vəziyyəti bir-iki gün araşdıracam, məsləhətlərimi verəcəyəm və qayıdıb gələcəyəm. Amma getdim, elə olmadı.

Sonra mən müharibə veteranları ilə görüş keçirirdim. Mənim bu bacım da Naxçıvandan oraya gəlmişdi. Sən Böyükdüzdənsən?

Z ə r i f ə C a m a l b ə y o v a: Mən əsl köklü Naxçıvanlıyam. Ancaq 1954-cü ildən Böyükdüzdə yaşayıram.

H e y d ə r Ə l i y e v: Yadındadır, orada durub dedin ki, yoldaş Əliyev, sən Naxçıvandan gedəndə bizə dedin ki, iki gündən sonra gələcəksən. Sən gəlmədin, bizi aldatdın. Niyə aldatdın? Mən buna bir söz deyə bilmədim. Dedim, aldatmadım. Doğrudan da mən iki gündən sonra gəlmək istəyirdim. Ancaq burada vəziyyət belə oldu ki, Azərbaycanı qoyub gələ bilmədim. Ancaq mənim qəlbim sizinlədir, Naxçıvanladır. Görürsən, indi gəlmişəm, demək, aldatmamışam.

Bu hərarətli görüşə görə çox sağ olun. Mən sizin hamınızı öpürəm, qucaqlayıram, bağrıma basıram. Sizin hər birinizə cansağlığı arzu edirəm, səadət arzu edirəm. Sağ olun, salamat qalın.

K ə n d s a k i n l ə r i: Xalqımızın xilaskarı Heydər Əliyevə eşq olsun!

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB AVUL PAKİR CAYNULABDİN ƏBDÜL KALAMA

Hörmətli cənab Prezident!

Hindistan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Xalqlarımızın bir-birinə bəslədiyi rəğbət və dostluq hisslərini yüksək qiymətləndirirəm. Əminəm ki, dövlətlərarası münasibətlərimizin inkişafı hərtərəfli əməkdaşlıq üçün geniş imkanlar açacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Hindistan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *14 avqust 2002-ci il*

HİNDİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ATAL BİHARİ VACPAİYƏ

Hörmətli cənab Baş nazir!

Hindistan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm. Ümidvaram ki, xalqlarımız arasındakı dostluq münasibətləri ikitərəfli əlaqələrimizin genişlənməsində həmişə mühüm rol oynayacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh və tərəqqi arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *14 avqust 2002-ci il*

KOREYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB KİM DE ÇJUNA

Hörmətli cənab Prezident!

Koreya Respublikasının milli bayramı – Koreyanın azad olunması günü münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ölkələrimiz arasında əməkdaşlığın gündən-günə genişlənməsindən məmnunluq duyuram. Ümidvaram ki, birgə səylərlə bütün sahələrdə qarşılıqlı surətdə faydalı əlaqələr yarada biləcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Koreya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *14 avqust 2002-ci il*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM MEQAVATİ SUKARNOPUTRİYƏ

Hörmətli xanım Prezident!

İndoneziya Respublikasının milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı münasibətlər xalqlarımızın rifahı naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İndoneziya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *14 avqust 2002-ci il*

ƏFQANISTANIN DÖVLƏT BAŞÇISI
ZATİ-ALİLƏRİ
CƏNAB HƏMİD KƏRZAİYƏ

Hörmətli Həmid Kərzai!

Əfqanıstanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq münasibətləri xalqlarımızın iradəsinə uyğun olaraq, bundan sonra da davam edəcək və fayda verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh və əmin-amanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *14 avqust 2002-ci il*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ

Hörmətli cənab Prezident!

Pakistan İslam Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında yaranmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə cansağlığı, işlərinizdə uğurlar, dost Pakistan xalqına sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *14 avqust 2002-ci il*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SEYİD MƏHƏMMƏD XATƏMİYƏ

Hörmətli cənab Prezident!

Gülüstan vilayətində baş vermiş təbii fəlakət – daşqın nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni dərindən kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizə şərik çıxıram, Sizə, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *14 avqust 2002-ci il*

NEPAL KRALI ƏLAHƏZRƏT
QYANENDRA BİR BİKRAM ŞAH DEVƏ

Əlahəzrət!

Ölkənizdə baş vermiş təbii fəlakət – daşqın nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni dərindən kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə, yaxınlarına və bütün Nepal xalqına dərin hüznlə başsağlığı verirəm.

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *14 avqust 2002-ci il*

NAXÇIVANDAN BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏ

15 avqust 2002-ci il

H e y d ə r Ə l i y e v: Səfər zamanı Siz orada mənim yanımda olmusunuz. Operativ olaraq materiallar vermisiniz. Mənə deyirdilər ki, çox şeylər qəzetlərdə dərc olunubdur, televiziyada verilibdir. Onda nə qalıb ki, hər şey məlumdur. Onu deyə bilərəm ki, Naxçıvana bu səfər, mənim qarşıda qoyduğum məqsəd və tərtib etdiyim proqram, hamısı artıqlaması ilə yerinə yetirilibdir.

Bilirsiniz ki, Naxçıvana səfərimin iki məqsədi vardı. Birincisi, Ermənistan prezidenti Köçəryanla ayın 14-də görüşmək, ikincisi də – mən bunu gedəndə də bəyan etmişdim, bu məlumdur – Naxçıvan üçün vacib olan bir neçə sosial-iqtisadi proqramların həyata keçirilməsi haqqında orada qərarlar qəbul etmək və onları elan etmək, bu qərarların həyata keçirilməsi vaxtını müəyyən etmək idi.

Bunlar birincisi, Naxçıvanda beynəlxalq hava limanının tikilməsi, ikincisi, Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılması, üçüncüsü də Vayxır su anbarının tikintisinin davam etdirilməsi, yəni həmin tikintiyə yenidən başlanması, tikinti işlərinin davam etdirilməsi və istismara verilməsi məsələləri idi. Bunların hamısını mən etmişəm, siz bunu bilirsiniz. Bunların hər biri barəsində, keçirdiyim tədbirlər

haqqında məlumatlar var. Mənə dedilər ki, dövlət televiziyası bunları veribdir. Mənimlə olmayanlar bunu görüblər, qəzetlərdə oxuyublar. Təkrar etməyə ehtiyac yoxdur. Ancaq mən bir də qeyd etmək istəyirəm, bu tədbirləri, hansıları ki, mən özüm öz təşəbbüsümlə irəli sürmüşəm və onların həyata keçirilməsi üçün Naxçıvana getmişəm və bu işləri görmüşəm – onlar Naxçıvan Muxtar Respublikası üçün, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi üçün, Azərbaycanın ərazisinin bütün sahələrini, hər hissəsini əhatə edib, onların inkişafını təmin etmək üçün, Azərbaycanın gələcəyi üçün çox əhəmiyyətli tədbirlərdir. Bunlar sadə tədbirlər deyil, təsadüfi bir şey deyildir. Mən bunu edirəm ki, orada bir qədər çox məhsul alsınlar, yaxud insanlar təyyarədən yaxşı istifadə etsinlər. Mən bunun daxili siyasi mənasını bilərək, bunların hamısını edirəm. Mən məmnunam ki, orada da bunları yaxşı müzakirə etdik. Hesab edirəm ki, yaxşı işlər başlanacaqdır.

Köçəryanla görüşümüz haqqında məlumat verilibdir. Mənə dedilər ki, televiziyada, qəzetlərdə verilibdir. Ona heç bir şey əlavə edə bilmərəm. Orada biz ikimiz də görüşdən sonra bəyanat verdik və onunla danışdıq ki, o da, mən də bundan artıq heç nə deməyəcəyik.

Bir də ki, yolüstü mən Şahbuz rayonunun mərkəzində, dağ kəndləri var – Kolanı, Biçənək – orada yaşayan insanlarla görüşdüm, söhbət etdim, keçmişdə gördüyümüz bəzi işləri xatırladıq, bu gün haqqında danışdıq. Dünən də Sədərəkdən qayıdarkən kəndlərin – yol əsasən Şərur rayonunun ərazisindən keçir, orada bir çox böyük kəndlər var – bəzilərində insanlar yola çıxmışdılar. Mən də çox məmnunam ki, orada onları gördüm. Onlarla da görüşdük, söhbət etdik.

Naxçıvana gəldiyim günün axşamı hava həddindən artıq isti idi, hazırlaşıb şəhərə, istirahət yerlərinə çıxana kimi hava qaranlıqlaşdı. Amma havanın qaranlıq vaxtında da bu görüş yaxşı idi. Orada çox yaxşı istirahət edirlər. Mənim müqayisə etmək imkanım var. Çünki mən Naxçıvandan 1993-cü ildə çıxmışam. O vaxt bunların heç birisi yox idi. İnsanlar axşamlar çıxıb haradasa gəzə bilərdilərmi, hansısa parka gedə bilərdilərmi? Heç bir şey yox idi. İnsanlar, sadəcə, çalışırdılar ki, özləri üçün yaşamaq imkanı yaratsınlar. Haradasa işləsinlər, gedib evlərində otursunlar. Amma indi Naxçıvanda yaşayış çox yaxşılaşıbdır. Bir neçə tikililər də var. Orada yeni bir otel də tikilibdir. Mənə dedilər ki, prezidentin katibliyinin rəisi Dilarə Seyidzadə də səfər günləri orada qalır. Yaxşı otel idimi?

D i l a r ə S e y i d z a d ə: Bəli, cənab Prezident, çox gözəl oteldir. Jurnalistlər də deyəsən başqa oteldə yer almışdılar.

J u r n a l i s t l ə r: Biz ticarət evindəki oteldə qalırdıq.

H e y d ə r Ə l i y e v: Naxçivan inkişaf edir. Bu da çox gözəldir. Mən çox şad oldum. Adamların əhval-ruhiyyələri yaxşıdır. Bilmirəm, mənimlə olan mətbuat nümayəndələrimiz əgər obyektiv olsalar, hər halda, hardasa bunu deməlidirlər. Deməsələr də düşünməlidirlər ki, o insanların əhval-ruhiyyəsinin qarşısında heç bir şey dura bilməz. Onların hamısı çox yüksək əhval-ruhiyyədədirlər. Mənim üçün çox əhəmiyyətli oldu ki, insanlarla bilavasitə təmasda oldum, görüşdüm, onların əhvalını duydum. Bununla da səfəri qurtardıq, gəldik. Mən çox məmnunam. Mətbuat nümayəndələrinə də orada böyük müsahibə verdim. Qənirə bir neçə dəfə gəldi. Çətin adın var, demək mümkün deyildir. Qənirə xanım çoxdan fürsət axtarırdı ki, məndən müsahibə alsın. Orada imkan oldu,

mən də fikirləşdim, bir halda ki, vaxt var, danışaq. Danışdıq. O müsahibəni də yayıblar, siz bunu bilirsiniz. Onu da danışmağa ehtiyac yoxdur.

Mətbuat nümayəndələri də 5 gün mənimlə birlikdə əziyyət çəkdilər. Mənə belə gəlir ki, oranı gedib görmək çəkilən əziyyətə dəyər. Sən orada var idin? Sən də var idin? Sən hansı qəzetdənsən?

J u r n a l i s t: «Azadlıq» qəzetindənəm.

H e y d ə r Ə l i y e v: «Azadlıq» qəzetindən... Sən necə, vardın?

J u r n a l i s t: Xeyr, mən yox idim.

H e y d ə r Ə l i y e v: Mənə bir sözünüz varmı?

S u a l: Cənab Prezident, Köçəryanla son görüşünüz əvvəlkilərdən mahiyyəti etibarilə əsasən nə ilə fərqlənir?

C a v a b: Bu söhbətləri kənara qoyun. Mən sizə dedim ki, Köçəryanla görüşüm haqqında dediyimiz sözlərdən başqa heç nə deməyəcəyəm. Bu barədə sual verməyin.

S u a l: Cənab Prezident, Siz Köçəryanla görüşərkən Ermənistanın Müdafiə naziri bizim kütləvi informasiya vasitələrinə müsahibə verib və bildirib ki, Dağlıq Qarabağı Azərbaycanın tərkibində təsəvvür etmir və ümumiyyətlə, heç Mehri problemi də ortalığa gələ bilməz. Bəs Siz bunu necə qiymətləndirirsiniz?

C a v a b: Bilirsənmi, o mənimlə danışmayıbdır. Mən prezidentlə danışmışam. Prezident də mənimlə danışıbdır. Orada hər adam öz sözünü deyə bilər.

S u a l: Cənab Prezident, Azərbaycanda taxıl məhsulu artıb. Yığım zamanı Bərdədə, Cəlilabadda kənd təsərrüfatı texnikasının çatışmaması ilə əlaqədar müəyyən problemlər yaranıbdır.

C a v a b: Mən bunu bilmirdim. Belə bir hal varsa, mən sabah göstəriş verərəm. Çünki bu il taxılımız keçən ilkindən də çox olmalıdır. Mənə dedilər ki, bu il topladığımız taxılla ölkəmizin tələbatını təmin edəcəyik. Əlbəttə, məhsul var, indi əsas odur ki, onu yığıb, toplayıb anbara gətirmək lazımdır. Məndə bu siqnal yoxdur. Bir halda ki, siz deyirsiniz, sabah mən məşğul olaram.

S u a l: Cənab Prezident, sabah sərhədçi günüdür. Bununla əlaqədar Zaqatala hadisələrində həlak olan sərhədçilərlə bağlı fərman verəcəksinizmi?

C a v a b: İş onda deyil ki, hansı gün, nə vaxt sərəncam verəcəyik. Zaqatalada fərqlənmiş, həlak olmuş sərhədçilərin xidmətini mən qeyd edəcəyəm. Sağ olun.

ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YOHANNES RAUYA

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş təbii fəlakətin doğurduğu insan tələfatı və dağıntılar barədə xəbər məni ürəkdən kədərləndirdi.

Sizə, həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir, fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzu edirəm.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *16 avqust 2002-ci il*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ KANSLERİ ZATİ-ALİLƏRİ CƏNAB GERHARD ŞRÖDERƏ

Hörmətli cənab kansler!

Ölkənizdə baş vermiş su daşqınları nəticəsində insan tələfatı və dağıntılar barədə xəbəri kədər hissi ilə qarşıladım.

Sizə, həlak olanların ailə üzvlərinə dərin hüznlə başsağlığı verir, fəlakətin vurduğu ziyanın tezliklə aradan qaldırılmasını arzu edirəm.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *16 avqust 2002-ci il*

ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VATSLAV HAVELƏ

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş təbii fəlakətin insan tələfatına və dağıntılara səbəb olması xəbərini kədər hissi ilə qarşıladım.

Sizə, həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir, fəlakətin vurduğu ziyanın tezliklə aradan qaldırılmasını arzu edirəm.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *16 avqust 2002-ci il*

AZƏRBAYCANIN XALQ ARTİSTİ MÜSLÜM MAQOMAYEVƏ

Əziz Müslüm!

Sizi – müasir mədəniyyətin görkəmli xadimini 60 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə xoşbəxtlik, cansağlığı və səadət arzulayıram.

Sizin yaradıcılığınız tariximizin bütöv bir dövrünün rəmzi olaraq, bütün dünyada milyonlarla insanın rəğbət və məhəbbətini qazanmış, bəşər mədəniyyətində hadisəyə çevrilə bilmişdir. Nadir səsiniz, məftunedici səhnə istedadınız, yüksək musiqi mədəniyyətiniz Sizə ifaçılıq sənətinin klassik opera və estrada sahələrində təkrarsız incilər yaratmaq imkanı vermişdir. Uzun illər keçsə də, həmin incilər bu gün də vokal ifaçılığının zərgər dəqiqliyi ilə cilalanmış gözəlliyi ilə ruhumuzu oxşamaqda davam edir.

İncə musiqi duyumunuz, müxtəlif xalqların və dövrlərin mədəni irsini yaradıcılığınızda əks etdirmək qabiliyyətiniz səhnəyə gəldiyiniz ilk günlərdən Sizi musiqi mədəniyyətinin pərəstiş olunan xadimlərindən birinə çevirmişdir. Siz yaradıcılığınızda klassik ənənələrə xas olan nurlu və humanist obrazları qoruyub saxlayaraq, zamanın tələblərinə də layiqincə cavab verməyi bacarmısınız. Sizin müasir musiqi mədəniyyəti problemlərini özünüzə məxsus baxımdan əks etdirən yaradıcılığınız məhz təkrarsız Maqomayev üslubunda öz təcəssümünü tapmışdır. Bu üslub Azərbaycan Opera və Balet Teatrının səhnəsində olduğu kimi, Sizin tərəfinizdən yaradılmış

Azərbaycan Dövlət Estrada-Simfonik Orkestrinin fəaliyyətində də özünü parlaq şəkildə büruzə vermişdir.

Sizin estrada, teatr və kinodakı çoxşaxəli fəaliyyətiniz çoxları üçün məhəbbət, ümid və xeyirxahlıq ideallarını tərənnüm edən bütöv bir mənəvi aləmin ardıcıl olaraq təşəkkül tapmasına xidmət etmişdir. Bu ideallar Sizin bəstələdiyiniz musiqi əsərlərində də öz təcəssümünü tapmışdır. Günəşli Azərbaycanın şərəfinə bəstələdiyiniz mahnı ölkəmizi dünyaya tanıdan bir rəmzə çevrilmişdir.

Sizin bütün yaradıcılıq fəaliyyətiniz yüksək incəsənətə əsl xidmətin ən parlaq təzahürüdür. Görkəmli müğənni Tamara Sinyavskaya ilə ailə duetiniz 25 ildən artıqdır ki, pərəstişkarlarınızı sevindirir. Bizim hamımız üçün Sizin sənətiniz hələ kamilləşməkdə olan dünyamızda yetkinliyin təcəssümü olaraq qalmaqdadır.

Azərbaycan xalqı mədəniyyətimizin ən parlaq nümayəndəsi kimi, Sizinlə haqlı olaraq fəxr edir. Ümidvaram ki, Sizin nadir istedadınız təşəkkülün banilərindən biri də babanız böyük Müslüm Maqomayevin olduğu Azərbaycan professional musiqisinin inkişafına kömək edəcəkdir.

Ən xoş arzularla,

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *17 avqust 2002-ci il*

XALQ ARTİSTİ İLHAMƏ QULİYEVAYA

Hörmətli İlhamə xanım!

Sizi – Azərbaycan estrada sənətinin tanınmış nümayəndəsini yubileyiniz münasibətilə təbrik edir, Sizə cansağlığı, xoşbəxtlik və uzun ömür arzulayıram.

Siz Azərbaycan musiqisinin inkişafında böyük xidmətləri olan bir ailənin nümayəndəsi kimi, xalq ifaçılıq məktəbinin zəngin ənənələrini davam etdirməklə yanaşı, Azərbaycan estrada sənətinə yeni nəfəs gətirmisiniz. Bənzərsiz səsiniz, orijinal ifaçılıq qabiliyyətiniz və yüksək peşəkarlığınız səhnəyə gəldiyiniz ilk günlərdən Sizə pərəstişkarlarınız arasında böyük rəğbət və məhəbbət qazandırmışdır. Azərbaycan estradasının korifeyləri ilə birgə çıxış etdiyiniz konsert proqramları Sizi Azərbaycan bəstəkarlarının əsərlərinin mahir ifaçısı kimi tanıtmışdır.

Milli estradamızda böyük ustalıqla səciyyələnən fəaliyyətiniz sənətə bağlılığınızın bariz nümunəsidir. Əminəm ki, Siz repertuarınızı yeni mahnılarla daim zənginləşdirəcək və bundan sonra da Azərbaycan musiqisinin inkişaf etdirilməsində əlinizdən gələni əsirgəməyəcəksiniz.

Sizə yaradıcılığınızda yeni-yeni uğurlar arzu edirəm.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *17 avqust 2002-ci il*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

Hörmətli cənab Prezident!

Tarsus şəhəri yaxınlığında avtomobil qəzası nəticəsində insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *19 avqust 2002-ci il*

TÜRKİYƏNİN DÖVLƏT NAZİRİ RƏŞAD DOĞRUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

Prezident sarayı

19 avqust 2002-ci il

Azərbaycan prezidenti Heydər Əliyev hörmətli qonaqları salamlayaraq, onların ölkəmizə gəlməsindən məmnun qaldığını bildirdi və dedi ki, siz burada çox faydalı işlər görmüsünüz, bir neçə nazirlə görüşmüsünüz, bizim kənd təsərrüfatına yardımlar etmisiniz. Buna görə çox sağ olun, təşəkkür edirəm.

Dövlət naziri Rəşad Doğru səmimi qəbula görə minnətdarlığını bildirdi, nümayəndə heyətinin üzvlərini prezident Heydər Əliyevə təqdim etdi. O, Bakıda türk iş adamı tərəfindən tikilmiş ticarət mərkəzinin açılışı, ayrı-ayrı nazirlərlə keçirdikləri görüşlər barədə danışdı. Xaçmaz və Quba rayonlarına səfərini xatırlatda, Türkiyə İqtisadi İnkişaf Agentliyi (TİKA) vasitəsilə Azərbaycana 15 ədəd kənd təsərrüfatı maşını verildiyini vurğuladı.

Azərbaycanın Baş nazirinin müavini Abid Şərifovla görüşdə uzunmüddətli iqtisadi işbirliyinə dair müzakirələr aparıldığını bildirən Rəşad Doğru dedi: Cənab Prezident, mən dövlət naziri kimi çalışdığım 6 ay ərzində Azərbaycana hər dəfə gələndə daha gözəl işlər görülməsinin şahidi olur və bundan böyük sevinc duyuram. Azərbaycanda gedən çox gözəl inkişaf 70 milyonluq türk xalqını məmnun edir.

O, Naxçıvana ziyarətini, oradakı görüşlərini də xatırlatdı, prezident Heydər Əliyevin təşəbbüsü ilə beynəlxalq hava limanının tikiləcəyindən məmnun qaldığını söyləyərək vurğuladı ki, biz hər zaman Azərbaycanın, qardaşlarımızın yanındayıq. Sizin «Biz bir millət, iki dövlətik» müdrik sözünüz bizim üçün örnəkdir. Biz bu istiqamətdə çalışırıq və bütün sahələrdə Sizinlə bərabər olacağıq.

Prezident Heydər Əliyev xoş sözlərə görə qonağa təşəkkür etdi, nümayəndə heyətinin səfərinin səmərəli olduğunu bildirərək dedi:

Bu işlər həm məni, həm sizi, həm də görüşdüyünüz insanları sevindirir. Türkiyə–Azərbaycan dostluq, qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə yardım edir. Biz hər görüşdə bunun üçün bir addım atırıq. Sizin bu işlə məşğul olmağınız məni sevindirir.

Siz bu vəzifəyə gələndən Azərbaycana qayğı, diqqət göstərməyinizi görürəm. Bilin ki, bu qayğıya, diqqətə Azərbaycanda yüksək qiymət veririk və sizin bu cür dost münasibətinizi şəxsən mən yüksək qiymətləndirirəm. Dövlət naziri kimi, Rəşad Doğrunun ilk dəfə birbaşa Türkiyədən Naxçıvana getdiyini, orada çox işlər gördüyünü də bilirəm və bunu yüksək dəyərləndirirəm.

Dövlətimizin başçısı Naxçıvan Muxtar Respublikasına səfərindən bəhs etdi, Naxçıvandan Türkiyəyə meyvə aparılması üçün müəyyən edilmiş kvotanın az olması barədə orada jurnalistin verdiyi sualı yada salaraq dedi:

Gərək bizim aramızda kvota olmasın. Körpünü tikmişik ki, xalqımız o tərəf-bu tərəfə rahat gedib gəlsin. Mən Naxçıvanda işləyəndə, o körpünün tikilməsində nə qədər zəhmət çəkdiyimi bilirlər. Türkiyənin 9-cu prezidenti Süleyman Dəmirəl Baş nazir idi. O çox zəhmət çəkdi. 1992-ci il mayın 28-də, yəni bizim istiqlaliyyət günündə o körpünü təntənə ilə

açdıq. Biz ona «Həsrət», «Ümid» körpüsü deyirik. Ondan Naxçıvan əhalisi çox istifadə edir. Çünki bilirsiniz ki, Naxçıvan blokadadadır.

Azərbaycan prezidenti Naxçıvanın bol, ləzzətli meyvələrinin Bakıya gətirilməsinin çətin olduğunu və bunun Türkiyəyə aparılması üçün daha yaxşı şərait yaradılmasının zəruriliyini söyləyərək bildirdi ki, Naxçıvana yardım etmək lazımdır. Çünki Naxçıvan qapalıdır. Mən sizin yardımınızı qiymətləndirirəm. Oradan elektrik enerjisi verirsiniz, başqa yardımlar edirsiniz. Amma bu məsələyə də baxın.

Prezident Heydər Əliyev cənab Rəşad Doğrunun türkdilli dövlətlər üzrə dövlət naziri vəzifəsində işgüzar adam olduğunu vurğuladı və dedi ki, mən təkcə Azərbaycan üçün yox, bütün türkdilli dövlətlər üçün bunun əhəmiyyətini bilirəm. Çünki türkdilli dövlətləri Türkiyənin ətrafında daha da yaxınlaşdırmaq lazımdır. Bu da şəxsiyyətdən çox asılıdır.

Rəşad Doğru Naxçıvandan gediş-gəlişin asanlaşması üçün çox işlər gördüyünü, bəzi problemlərin aradan qaldırıldığını bildirdi, adambaşına məhsulların aparılmasının 200 kiloqramdan 400 kiloqrama çatdırılacağını söylədi.

Türkiyənin dövlət naziri Rəşad Doğru prezident Heydər Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

AMERİKA BİRLƏŞMİŞ STATLARININ ÖLKƏMİZDƏKİ SƏFİRİ ROSS UİLSON İLƏ GÖRÜŞ

Prezident sarayı

20 avqust 2002-ci il

Azərbaycan prezidenti Heydər Əliyev səfiri salamlayaraq hal-əhval tutdu, istirahətini necə keçirdiyi ilə maraqlandı.

Ailəsi ilə birlikdə ABŞ-da yaxşı istirahət etdiyini bildirən cənab Uilson dedi ki, bu müddətdə hamımız Azərbaycan üçün çox darıxırdıq və çox şadıq ki, yenidən buraya qayıtmışıq. Vaşinqtonda maraqlı görüşlərim də oldu. Həmişə olduğu kimi, bu dəfə də Azərbaycana çox böyük maraq vardı. Xüsusilə də Bakı–Tbilisi–Ceyhan layihəsi və ümumiyyətlə, enerji məsələləri haqqında söhbət edərkən görüşdüyüm bütün adamlar razı qalırdılar. Terrorizmə qarşı mübarizə məsələlərində Azərbaycanın mövqeyi və Sizin şəxsi dəstəyiniz Amerika Birləşmiş Ştatlarında böyük rəğbət hissi ilə qarşılanır. Görüşdüyüm rəsmi şəxslərin hamısı Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı prezident Köçəryanla keçirdiyiniz görüşlərlə çox maraqlanırlar. Səfir vurğuladı ki, Azərbaycanda keçiriləcək referendum da ABŞ-da böyük maraq doğurur. Söhbət etdiyim bütün rəsmi şəxslər soruşurdular ki, bu, demokratiyanın, siyasi plüralizmin və sabitliyin inkişafına necə kömək edəcəkdir? Mən isə bilirəm ki, demokratiya, siyasi plüralizm və sabitlik Sizin əsas məqsədlərinizdir.

Diplomat xatırlatdı ki, o, istirahətə getməzdən əvvəl Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında münasibətlərin gələcək inkişafına dair proqram da tərtib edilmişdir. Həmin proqram çərçivəsində sentyabrda ABŞ-ın Energetika naziri Spenser Abrahamın Azərbaycana gəlməsi gözlənilir. O, Bakı–Tbilisi–Ceyhan boru kəmərinin təməlinin qoyulması mərasimində iştirak edəcəkdir.

Səfir ölkəsinin Energetika nazirinin məktubunu prezident Heydər Əliyevə təqdim etdi.

Cənab Uilson bildirdi ki, ilin sonunda Amerika Birləşmiş Ştatlarından Azərbaycana yüksək rütbəli şəxslərin gəlməsi gözlənilir. Zənnimcə, tərtib etdiyimiz proqram görüşlərlə, səfərlərlə zəngin olacaqdır.

Prezident Heydər Əliyev səfirə təşəkkür edərək dedi ki, Amerika Birləşmiş Ştatlarında olarkən istirahətlə yanaşı, eyni zamanda görüşlər də keçirməyiniz sevindirici haldır. Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında əlaqələrin genişlənməsi, inkişaf etməsi haqqında sizinlə əvvəllər də xeyli danışmışdıq, indi bu barədə lazımi tədbirlərin həyata keçirilməsinə biz də çox maraq göstəririk, sizdə də böyük təkliflər var. Mən bunları çox müsbət qarşılayıram.

Bakı–Tbilisi–Ceyhan ixrac neft kəmərinin tikintisinə başlanması ilə əlaqədar təntənəli mərasimi biz sentyabrın 18-nə təyin etmişik. Mən çox məmnunam ki, Amerika Birləşmiş Ştatlarının Energetika naziri də Azərbaycana gələcəkdir. Bu tədbiri biz Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti, yəni «bp» və onun ətrafında olan şirkətlərlə, habelə Türkiyə və Gürcüstanla birlikdə keçirəcəyik. Bilirsiniz ki, Azərbaycan da bu layihənin maliyyələşdirilməsi üçün öz payını veribdir. Biz bu məsələyə

çox ciddi yanaşırıq və güman edirəm ki, inşaat işləri başlanan kimi, kəmərin tikintisi sürətlə həyata keçiriləcəkdir.

Dövlətimizin başçısı vurğuladı ki, beynəlxalq terrorizmlə mübarizə sahəsində Azərbaycanın ABŞ-la birgə fəaliyyəti bundan sonra da davam edəcəkdir. Bunu biz çox vacib bir vəzifə kimi qəbul etmişik. Təkcə ona görə yox ki, biz Amerika Birləşmiş Ştatlarının bu çağırışına qoşulmuşuq. Ona görə ki, bu həqiqətən indi dünyada, xüsusən bizim bölgədə çox vacib bir işdir. Mən çox məmnunam ki, bizim bu əməkdaşlığımızı Amerika Birləşmiş Ştatlarında qiymətləndirirlər və xidmətlərimizi qeyd edirlər. Əmin ola bilərsiniz ki, bu barədə bizim heç vaxt, heç bir tərəddüdümüz olmayacaqdır.

Siz dediniz ki, avqustun 24-də Azərbaycanda keçiriləcək referenduma Amerika Birləşmiş Ştatlarında çox böyük maraq var. Mən düşünürdüm ki, bu, Amerika Birləşmiş Ştatları üçün o qədər böyük bir şey deyil ki, belə maraq olsun. Amma indi görürəm ki, Azərbaycanda hər şeyə Amerika Birləşmiş Ştatları böyük maraq göstərir. Mən çox məmnunam ki, bu maraq var. Əgər maraq olmasaydı, daha da pis olardı. Yaxşı ki, maraq var, əgər bu varsa, deməli, münasibət də var.

Referenduma çox böyük hazırlıq görülüb, bizim televiziya, radio, özəl televiziya kanalları, bütün mətbuat orqanları vasitəsilə təbliğat aparılıbdır. Hakimiyyətdə olan insanlar, Milli Məclisin deputatları bu müddətdə çox yerlərdə olublar. Televiziya ilə də mütəmadi olaraq verilişlər təşkil edilir ki, insanlar bu dəyişikliklərin mənasını bilsinlər və şüurlu olaraq referendumda iştirak etsinlər. Dünən mən həm mərkəzi, həm də yerli icra hakimiyyəti orqanlarının başçıları ilə görüşmüşəm. Onlara aid olan vəzifələrin yerinə yetirilməsi haqqında çox ciddi tapşırıqlar vermişəm, eyni zamanda, xəbərdarlıq etmişəm ki, refe-

rendum prosesinə onlar heç bir müdaxilə etməməlidirlər. Qalan günlərdə də iş aparılacaqdır. Güman edirəm ki, referendum lazımi səviyyədə keçəcək və bu, demokratiyanın inkişafına kömək edəcəkdir. Çünki referenduma hazırlıq mətbuatda çox qızğın mübahisələr dövrü oldu. İqtidar nümayəndələri, orqanları referendumun əhəmiyyətini və onun zəruriliyini insanlara anlatmağa çalışırlar. Eyni zamanda o dəyişikliklərin hər birini seçicinin anlaması üçün əllərindən gələn köməyi ediblər.

Eyni zamanda müxalifət qüvvələri, partiyaları, hətta qeyri-hökumət təşkilatları – onların bir çoxu müxalifətin mövqeyindədir, hesab edirdim ki, onlar gərək bitərəf olsunlar – hamısı birlikdə referendumun əleyhinə təbliğat aparıblar. Ümumiyyətlə, Azərbaycan iqtidarının əleyhinə təbliğat aparıblar. Qəzetlərində, bütün informasiya orqanlarında açıq-aydın təbliğat aparıblar.

Hesab edirəm ki, ATƏT çox yaxşı iş görübdür. Onlar burada bir neçə «dəyirmi masa» keçiriblər və bu gün də keçiriblər və yaxud keçirəcəkdilər. «Dəyirmi masa»larda 4-5 saat həm müxalifət, həm də iqtidar tərəfindən insanlar öz fikirlərini bildiriblər. Bunların hamısını dövlət televiziyası axşamlar veribdir. Mən, demək olar ki, onların əksəriyyətini 4 saat, lazım olsa, 5 saat televizorda dinləmişəm. ATƏT-in bu təşəbbüsünü yüksək qiymətləndirirəm. Çünki bunun özü referendumu uğurla keçirməyimizə kömək edir. Biz istəmirik ki, referendumda iştirak edənlər kor-koranə gəlib ya lehinə, ya da əleyhinə səs versinlər. Bütün təbliğatımızla bildirmək istəyirik ki, bu dəyişikliklərin mənası nədir. Televiziya vasitəsilə tam verilən «dəyirmi masa» verilişlərində isə bu daha aşkar görünür. Çünki orada müxalifət və iqtidar nümayəndələri iştirak edir, bəzən çox qızgın mübahisələr aparırlar. Bu da bütün ictimaiyyətin gözü qarşısındadır.

Hesab edirəm ki, bunun özü də Azərbaycanda həm mətbuat azadlığını nümayiş etdirir, həm də aşkarlığın, şəffaflığın olduğunu göstərir.

Prezident Heydər Əliyev vurğuladı ki, müxalifət referendumu boykot etmək, iqtidar isə bunu keçirmək istəyir. Hər halda, avqustun 24-də hər şey məlum olacaqdır. Ancaq mən bir şeyi başa düşdüm ki, bizim müxalifət üçün nə edirsənsə et, onlar referendumun əleyhinə çıxacaqlar. Bəzən düşünürəm ki, bəlkə biz müxalifəti tərifləsək, dəstəkləsək də, onlar yenə də bunun əleyhinə çıxacaqlar. Niyə? Çünki bunu iqtidar edir, bunu Heydər Əliyev edir. Ancaq güman edirəm ki, belə tədbirlər hamını tərbiyələndirir, hamını təkmilləşdirir.

QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏSGƏR AKAYEVƏ

Hörmətli Əsgər Akayeviç!

Qırgızıstanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Keçid dövrünün çətin şəraitində Qırgızıstan Sizin rəhbərliyinizlə öz müstəqilliyini və suverenliyini möhkəmləndirərək, siyasi və iqtisadi dəyişikliklərin həyata keçirilməsində, hüquqi, demokratik dövlət quruculuğunda mühüm uğurlar qazanmışdır.

Əminəm ki, Azərbaycan ilə Qırğızıstan arasındakı ənənəvi dostluq və əməkdaşlıq telləri xalqlarımızın rifahı, sülh və tərəqqi naminə bundan sonra da möhkəmlənəcəkdir.

Möhtərəm Əsgər Akayeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, uğurlar, Qırğızıstan xalqına isə sülh və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *20 avqust 2002-ci il*

MALAYZİYANIN DÖVLƏT BAŞÇISI ƏLAHƏZRƏT TUANKU SAYED SİRACUDDİN SAYED PUTRA CAMALULLAİLƏ

Əlahəzrət!

Malayziyanın milli bayramı – Milli gün münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, xalqlarımızın iradəsinə əsaslanan ikitərəfli dostluq münasibətlərimiz daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *20 avqust 2002-ci il*

MALAYZİYANIN BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB MAHATHİR MƏHƏMMƏDƏ

Hörmətli cənab Baş nazir!

Malayziyanın milli bayramı – Milli gün münasibətilə Sizi və dost Malayziya xalqını səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq münasibətləri qarşılıqlı faydalı əməkdaşlığımız üçün imkanları daha da artıracaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh və tərəqqi arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *20 avqust 2002-ci il*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR VORONİNƏ

Hörmətli Vladimir Nikolayeviç!

Moldovanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Moldova xalqını ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Moldova arasındakı ənənəvi dostluq münasibətlərinin inkişafı və genişləndirilməsi, regional və beynəlxalq təşkilatlarda əməkdaşlığımız bundan sonra da xalqlarımızın, dövlətlərimizin mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, uğurlar, Moldova xalqına isə sülh, həmrəylik və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Baki şəhəri, *20 avqust 2002-ci il*

PAYTAXT SAKİNLƏRİ QARŞISINDA NİTQ

Bakı, Nizami rayonu

21 avqust 2002-ci il

Əziz bacılar, qardaşlar!

Hörmətli xanımlar və cənablar!

Mən sizi, Nizami rayonunun sakinlərini, Bakının bütün sakinlərini səmimi-qəlbdən salamlayıram. Sizin hər birinizə cansağlığı, səadət və işlərinizdə uğurlar arzulayıram.

Bu gün işin sonunda mən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovla telefonla danışırdım. O mənə dedi ki, biz vaxtaşırı parklarda – Milli Parkda, başqa parklarda açıq havada böyük konsertlər təşkil edirik, bunlar da bizim vətəndaşlarımızın yaxşı istirahətinə kömək edir. Mən dedim ki, bu çox yaxşı şeydir. Hərdən bunu televiziya ilə görürəm. , mənə dedi ki, bu gün Nizami rayonundakı parkda belə bir konsert olacaqdır, bunu «Space» özəl televiziya kanalı təşkil edibdir. Maraqlandım və dedim ki, əgər imkan tapsam, gələrəm. Amma sonra həvəsim daha da artdı və gəldim. Bu əhval-ruhiyyəni, bu mənzərəni, sizi, Azərbaycanın bu gözəl insanlarını görəndə, təbiidir ki, daha da sevindim. Mən çox məmnunam ki, siz belə yaxşı istirahət edirsiniz.

Bizim incəsənət ustaları sizə istirahət etmək üçün xidmət edirlər. Mən də bu gün sizinlə bərabər bu istirahəti keçirirəm.

Xatırlayıram, dörd il bundan öncə – 1998-ci ildə mən burada sizinlə görüşmüşdüm. Onda bu park yenicə yaranmışdı. Məni buraya dəvət etdilər. O vaxt da burada indiki kimi həddindən artıq insan toplaşmışdı, konsert vardı. Mən də o vaxt Nizami rayonunun sakinləri ilə birlikdə bu konsertdə oldum. Hətta çıxış edərək bəzi fikirlərimi də bildirdim. O vaxtdan dörd il keçibdir. Dörd il o qədər də böyük bir zaman deyildir. Amma bu illərdə Azərbaycan ardıcıl surətdə inkişaf edib, insanlarımızın rifahı yaxşılaşıb, həyat daha da gözəlləşibdir. Bu park da artıq dörd il bundan öncəki park deyildir. Görürəm, ağaclar böyüyüb, çiçəklər, güllər var. Bunların hamısı insanlar, Azərbaycanın vətəndaşları üçündür.

Son illər Bakıda belə parkların yaranması çox əhəmiyyətli haldır. Çünki biz indi görürük ki, Bakıda dənizkənarı bulvardan – Milli Parkdan əlavə, mikrorayonlarda onlarca park yaranıb və onlar vətəndaşların istirahətinə şərait yaradır. Mən o vaxt da bu təşəbbüsü dəstəkləmişdim. Çünki yəqin siz unutmamısınız, mən hələ 1970-ci illərdə Azərbaycanın, xüsusən Bakının yaşıllaşdırılması proqramını irəli sürmüşdüm. O proqramı ardıcıl surətdə həyata keçirirdim. O illərdə, təxminən 25–30 il bundan öncə bizim basdırdığımız kiçik ağaclar indi böyüyüb, şəhərin müxtəlif küçələrini, prospektlərini, parklarını bəzəyir. Bu çox gözəl, xeyirxah işdir. Bu təkcə gözəllik üçün deyildir. Bakının belə yaşıllaşdırılması respublika paytaxtının iqliminin daha da yaxşılaşmasına, havasının təmizlənməsinə çox kömək edir. Bəlkə də hər insan bunu bir dəqiqədə hiss etmir. Ancaq bu həqiqətdir və aparılan müşahidələr bunu göstərir.

Son ildə Bakıda görülən işlər – müxtəlif, yaddan çıxmış guşələrdə, bağçalarda, parklarda yeni-yeni əyləncə və istirahət yerlərinin yaranması, fəvvarələrin yaranması, küçələrin,

prospektlərin təmizliyinə diqqət yetirilməsi və başqa abadlıq işləri sizi də, məni də sevindirir. Mən bunları daim izləyirəm. Hər bir belə müsbət addıma çox yüksək qiymət verirəm. Amma eyni zamanda bu hələ o demək deyildir ki, Bakıda biz hər yeri təmizləmişik.

Mən bir dəfə Azərbaycan televiziyasının sədri Xudiyevə dedim ki, siz şəhərin müxtəlif yerlərini gəzin, baxın. Çoxlu çatışmazlıqlar, nöqsanlar, antisanitariya halları taparsınız. O mənim bu məsləhətimə qulaq asdı. İndi Azərbaycan televiziyasının «Xəbərlər» proqramında hərdən baxıram ki, gedib bir yerdə çox antisanitariya vəziyyətində olan guşəni tapırlar, çəkirlər, orada olan insanlarla danışırlar, onların səsini yazırlar. İnsanlar öz narazılığını, etirazını bildirirlər. Televiziyanın bu işi çox yaxşı haldır – tapır, göstərir. Ondan sonra isə bizim icra orqanları, rayon və şəhər icra hakimiyyəti orqanları mütləq gedib o yerləri sahmana salmalıdırlar.

Bakı böyük şəhərdir. Təəssüflər ki, burada 10–15 il içərisində pərakəndəlik olub, şəhərsalma prinsipləri çox yerdə pozulubdur. Bunlar da belə hallara gətirib çıxarıbdır. Amma bunların hamısını deyərkən, güman edirəm, razı olarsınız ki, bu gün bizim hamımız bir səslə deyək: son aylarda, son ildə Bakıda çox gözəl işlər görülür, biz bunu dəstəkləyirik və ümidvarıq ki, bu işlər davam edəcəkdir.

Bu günlər 1993-cü ildə olan bəzi hadisələri, Azərbaycanın parçalanması, dağılması ilə əlaqədar olan bəzi hadisələri televiziya göstərir və bir də hamının yadına salır ki, Azərbaycan nə vəziyyətdə idi. Təəssüflər olsun ki, 1991,1992,1993-cü illərdə Azərbaycanda hərc-mərclik, hakimiyyətsizlik və insanlara çox mənfi münasibət baş alıb gedirdi. O vaxtdan 9 il keçibdir. Amma indi görürsünüz, təkcə Bakıda deyil, Azərbaycanın hər

yerində əmin-amanlıq, rahatlıq var. İnsanlar rahat istirahət edə bilirlər. İnsanların yaşaması üçün şərait yaranıbdır. Bunlar bizim əldə etdiyimiz nailiyyətlərdir. Ancaq biz heç də demirik ki, hər şey edilibdir. Yox. Bundan sonra hələ çox işlər görülməlidir. Azərbaycanda işsizlik problemi var, bu, həll olunmalıdır. Digər problemlər var, həll olunmalıdır. Bu axşam istirahət saatlarında sizin vaxtınızı alıb sizə narahatçılıq gətirmək istəmirəm. Ancaq sizə bildirmək istəyirəm ki, bizim ölkəmizdəki nöqsanları, çatışmazlıqları hakimiyyət orqanları, xüsusən prezident görür, onların aradan qaldırılması üçün lazımi tədbirlər görülür.

Bizim hamımızın bir böyük dərdi var – Azərbaycanın işğal olunmuş torpaqlarını azad etmək, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımızı öz elinə, obasına qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək və bölgədə sülh yaratmaq. Siz bilirsiniz ki, ötən illər biz ardıcıl olaraq bu işlə məşğul olmuşuq.

Bu günlərdə, avqustun 14-də mən Ermənistan–Azərbaycan sərhədində – Naxçıvan Muxtar Respublikasında, Sədərəkdə Ermənistan prezidenti Köçəryanla yenidən görüşdüm. Biz əvvəllər də görüşmüşdük. Biz dörd saat danışıq apardıq, məsələləri müzakirə etdik. Onun da, mənim də fikrim budur ki, məsələ sülh yolu ilə həll olunmalıdır. Ancaq nə cür həll olunmalıdır – bunda çətinliklər var. Amma buna baxmayaraq, mən bəyan etdim və bu gün sizə də bildirmək istəyirəm ki, bu danışıqlar və Minsk qrupunun həmsədrləri tərəfindən aparılan işlər davam etdirilməlidir, biz məsələnin sülh yolu ilə həll olunmasına çalışmalıyıq. İnanıram ki, buna biz nail olacağıq. İşğal olunmuş torpaqlarımız azad ediləçəkdir.

Əziz dostlar, mən bu axşam vaxtı sizə bir sual vermək istəyirəm. Avqustun 24-də, şənbə günü Azərbaycanda nə baş verəcək?

Yerdən səslər: Referendum!

Heydər Əliyev: Yox, bir də təkrar edin, mən yaxşı eşitmədim.

Yerdən səslər: Referendum!

Heydər Əliyev: Referendum, yaxşı bilirsiniz. Bu referendum nə üçündür?

Yerdən səslər: Azərbaycan Konstitusiyasında bəzi dəyişikliklər etmək üçün.

Heydər Əliyev: Bu dəyişikliklər nəyə lazımdır?

Yerdən səslər: Lazımdır.

Heydər Əliyev: Sizə bildirmək istəyirəm ki, müstəqil dövlət kimi, Azərbaycan 1995-ci ildə öz Konstitusiyasını ümumxalq səsverməsi, referendum vasitəsilə qəbul etdi. Mənim xatirimdədir ki, biz bu Konstitusiyanın layihəsini necə ağır və çətin şəraitdə hazırlayırdıq. Bu Konstitusiyanın əleyhinə çıxanlar da, bəyənməyənlər də var idi. Ancaq biz Konstitusiya layihəsini ümumxalq səsverməsinə çıxardıq və xalq bizim təqdim etdiyimiz layihəyə «hə» dedi, onun lehinə səs verdi və Konstitusiya xalq tərəfindən qəbul olundu.

Biz 7 ildir ki, bu Konstitusiyanın müddəalarından istifadə edərək, bu Konstitusiyaya riayət edərək, bu Konstitusiyanın göstərdiyi yolla gedərək Azərbaycanı inkişaf etdiririk. Bu Konstitusiya əsasında yüzlərlə qanun qəbul olunubdur. Onlar müstəqil Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu prosesinin həyata keçirilməsi üçün öz xidmətlərini göstəriblər. Ölkəmizin iqtisadiyyatında aparılan islahatlar, struktur dəyişiklikləri, bir çox digər tədbirlər – bunlar ha-

mısı Azərbaycanın Əsas Qanunu, Konstitusiyası əsasında həyata keçirilir.

Ancaq illər keçir, dünyada və respublikamızda dəyişikliklər əmələ gəlir, bunlar da Konstitusiyanın bəzi maddələrində vaxtaşırı dəyişiklik etmək zərurətini meydana çıxarır. Amma Azərbaycanın Konstitusiyası referendum vasitəsilə qəbul olunduğuna görə, biz xalqın ixtiyarı olmadan Konstitusiyanın heç bir müddəasını, maddəsini dəyişə bilmərik. Ona görə də mən Azərbaycan prezidentinə Konstitusiya ilə verilmiş səlahiyyətlərdən istifadə edərək, iyunun 22-də Konstitusiyada bəzi dəyişikliklər olunmasına dair referendum aktı layihəsinin müzakirəyə verilməsi haqqında fərman imzaladım. İki aya yaxındır ki, hər yerdə müzakirələr gedir. Radio, televiziya, qəzetlər və digər kütləvi informasiya vasitələri bu dəyişiklikləri izah ediblər və edirlər. Mən əminəm ki, bu dəyişikliklərin tam əksəriyyətini Azərbaycanın səsvermə hüququna malik olan vətəndaşları artıq bilirlər. Avqustun 24-də referendum keçiriləcək və həmin dəyişikliklərə səs veriləcəkdir.

Ümidvaram ki, Azərbaycan vətəndaşlarının tam əksəriyyəti mənim təqdim etdiyim bu dəyişikliklərə səs verəcək və referendum uğurla keçəcəkdir.

Bilirsiniz ki, bu referendumun keçirilməsinə və nəzərdə tutulan bəzi dəyişikliklərin aparılmasının əleyhinə çıxanlar da var. Onlar kimlərdir? Müxalifət partiyaları, müxalifət təşkilatları. Başqa bu dəyişikliklərin əleyhinə çıxanlar yoxdur. Müxalifət partiyaları Konstitusiyaya dəyişikliklərin nə üçün əleyhinə çıxırlar? Orada əleyhinə çıxılası bir şey yoxdur. O dəyişikliklər birinci növbədə, Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının daha da yaxşı təmin edilməsinə həsr olunmuşdur. Bu bizim Konstitusiyanın əsas məqsədidir. Konsti-

tusiyanın üçdə bir hissəsi Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının təmin edilməsinə həsr olunubdur. İndi bu hüquq və azadlıqları daha da etibarlı təmin etmək üçün həmin dəyişikliklər təklif edilir.

Bir neçə başqa dəyişikliklər də var. Əgər prezident fəaliyyətini həyata keçirə bilməsə, səlahiyyətlərini kimə – Milli Məclisin sədrinə və ya Baş nazirə verməlidir? Vətəndaş üçün bunun nə fərqi var?! Heç bir fərqi yoxdur. Amma bunun əleyhinə çıxanlar, sadəcə, hər şeyin əleyhinə çıxırlar. Əgər mən əksinə düzəlişlər versəydim, onlar yenə də əleyhinə çıxacaqdılar. Çünki təəssüflər olsun ki, Azərbaycanda formalaşmış müxalifət çox gücsüz bir müxalifətdir. Həm də müxalifət-iqtidar münasibətlərinə aid olan yüksək mədəniyyət səviyyəsinə qalxa bilməyiblər.

Otuz müxalifət partiyası avqustun 20-də Bakıda «20 Yanvar» metrosundan «Qələbə» kinoteatrının qarşısına qədər yürüş-mitinq keçiriblər. Nə üçün? Bu referendumun əleyhinə çıxırlar. Həmin otuz partiya cəmisi iki minə qədər adam toplaya bilibdir. Əgər siz bu qədər çalışıb öz kütləvi aksiyanıza iki mindən artıq adam toplaya bilmirsinizsə, bu millətə, bu xalqa mane olmayın! Qoy insanlar rahat yaşasınlar! Qoyun, biz bütün bu proqramları yerinə yetirək! Mən belə deyəndə, siz düşünməyin ki, biz onların, bəzi müxalifət qüvvələrinin belə hərəkətlərinə görə işimizi görə bilmirik. Biz işimizi görürük və görəcəyik. Bizə indiyə qədər heç kəs mane ola bilməyib və bundan sonra da mane ola bilməyəcəkdir.

Ancaq baxıram, bu gün burada – bu parkda neçə min adam var. Vallah, mənə dedilər ki, parkda 25–30 min adam var. Sizdən soruşuram, burada nə qədər adam var?

Yerdən səslər: 30 minədək.

H e y d ə r Ə l i y e v: Bu tədbiri «Space» telekanalı təşkil edibdir. Onlar deyirlər ki, 30 min adam var. Amma 30 müxalifət partiyası yürüş-mitinqə iki min adam çıxartdı. Ancaq təkcə «Spase» telekanalının dəvəti ilə bu gün bu parka 30 min adam toplaşıbdır. Çünki niyə? Ona görə ki, bu adamların hamısı bir amalla – Azərbaycanın dövlətçiliyini möhkəmləndirmək, Azərbaycanın müstəqilliyini möhkəmləndirmək, Azərbaycanın qarşısında duran problemləri həll etmək, Azərbaycanı inkişaf etdirmək amalları ilə yaşayırlar.

Əziz dostlar!

Mən Azərbaycan vətəndaşlarından həddindən artıq razıyam. Çünki bu 9 ildə həyata keçirdiyim tədbirlərin hamısında mən Azərbaycan vətəndaşlarının dəstəyini almışam və bu dəstəyə görə də 9 ildir ki, Azərbaycanın prezidenti vəzifəsini həyata keçirirəm. Ümidvaram ki, bu dəstəyi mən sizdən bundan sonra da alacağam.

Beləliklə, mən heç şübhə etmirəm ki, ayın 24-də hamınız tezdən seçki məntəqələrinə gedəcək və referenduma çıxarılan dəyişikliklərə səs verəcəksiniz.

Yaşasın qəhrəman Azərbaycan xalqı!

Yaşasın müstəqil Azərbaycan, Azərbaycan, Azərbaycan!

UKRAYNA PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB LEONİD KUÇMAYA

Hörmətli Leonid Daniloviç!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizi və Ukrayna xalqını ürəkdən təbrik edirəm.

Şadam ki, indi suveren Ukrayna demokratik dəyişikliklərin həyata keçirilməsində, Dünya Birliyinə inteqrasiyada böyük uğurlar qazanmışdır.

Ukrayna ilə tarixi dostluq və qarşılıqlı surətdə faydalı əməkdaşlıq ənənələri Azərbaycan üçün böyük əhəmiyyətə malikdir. Əminəm ki, dövlətlərimizin strateji tərəfdaşlığı, regional və beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək bundan sonra da xalqlarımızın rifahına, regionda sabitlik və təhlükəsizliyə xidmət edəcəkdir.

Hörmətli Leonid Daniloviç, Sizə möhkəm cansağlığı, səadət, uğurlar, Ukrayna xalqına isə sülh, həmrəylik və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *21 avqust 2002-ci il*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ

Hörmətli Nursultan Abişoviç!

Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında diplomatik münasibətlər yaradılmasının 10 illiyi ilə əlaqədar Sizi ürəkdən təbrik edirəm.

Xalqlarımız və ölkələrimiz arasındakı ənənəvi dostluq və mehriban qonşuluq münasibətləri ötən dövr ərzində hərtərəfli inkişaf etmiş, dərinləşmiş, strateji tərəfdaşlıq xarakteri almışdır.

Əminəm ki, Azərbaycan ilə Qazaxıstan arasındakı hərtərəfli əməkdaşlıq, regional və beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək, transmilli layihələrin həyata keçirilməsi sahəsində birgə səylər bundan sonra da xalqlarımızın rifahına, regionda sülh, sabitlik və təhlükəsizlik işinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, səadət, uğurlar, qardaş Qazaxıstan xalqına isə firavanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *21 avqust 2002-ci il*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB VLADİMİR PUTİNƏ

Hörmətli Vladimir Vladimiroviç!

Mi-26 vertolyotunun qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı olması xəbəri məni dərindən kədərləndirdi.

Sizə, həlak olanların qohumlarına və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *21 avqust 2002-ci il*

TÜRKİYƏNİN MƏRMƏRƏ QRUPU STRATEJİ VƏ SOSİAL ARAŞDIRMALAR VƏQFİNİN SƏDRİ AKKAN SUVƏRİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

Prezident sarayı

23 avqust 2002-ci il

H e y d ə r Ə l i y e v: Mən sizə təşəkkür edirəm ki, vaxtınızı sərf edib Azərbaycana gəlmisiniz və referendumun gedişini müşahidə edəcəksiniz. Sizin Azərbaycanla, xüsusilə mənimlə çox yaxın dostluq əlaqələriniz yəqin ki, sizi bu dəfə Azərbaycana gətirən əsas səbəblərdən biridir. Mən buna görə sizə təşəkkür edirəm, çox sağ olun. Ancaq eyni zamanda, siz mənim çox yaxın dostlarımsınız. Şəxsən çox məmnunam ki, mənə yenə də dostlarımla görüşmək nəsib oldu.

Mən Türkiyədə olanda bəzən görüşürük. Azərbaycana gəlirsiniz, çox sağ olun, görüşürük. Bunların hamısı lazımdır. Çünki dostlar görüşməlidir, danışmalıdır. Görüşmək, danışmaq olmasa, bəzən dostluq əlaqələri də soyuyur. Düzdür, bizim əlaqələrimiz soyumaz, çünki dostluğumuz böyükdür, dərindir. Doğrudur, bəzi böyük tədbirlərinizdə iştirak etməyə məni dəvət edirsiniz, lakin vaxt olmur, gələ bilmirəm. Amma gərək bir dəfə xüsusi olaraq sizin vəqflə bağlı Türkiyəyə, İstanbula gələm. Axı mən sizin vəqfin fəxri başqanlarından biriyəm. Ona görə gəlməliyəm, bu mənim borcumdur. Amma

siz də görürsünüz ki, bizim işlərimiz olduqca çoxdur, ona görə də imkan edə bilmirəm. Bir müddət əvvəl mən İstanbulda, Qara Dəniz İş Birliyinin toplantısında oldum, sizinlə görüşdüm. Amma vəqfi ziyarət etməyə imkanım olmadı. Çünki Ankaraya getdim. Orada bir çox işlər vardı, oradan da Qarsa getdim, yəqin ki, eşitdiniz. Qarsdakı Qafqaz Universiteti mənə fəxri doktor adı veribdir.

Düzdür, Türkiyədə bir çox universitetlər mənə fəxri doktor adı veriblər, hələ almamışam. Ancaq Qarsa getdim, çünki Qars mənim üçün çox əhəmiyyətli bir yerdir. Mən Naxçıvanda yaşayanda Türkiyəyə İğdırdan, Qarsdan keçib gəlirdim. Qarsın Azərbaycanla əlaqələrdə də xüsusi yeri var. Bilirsiniz ki, məşhur Qars müqaviləsi var, 1921-ci ilin oktyabr ayında Qarsda Rusiya, Azərbaycan, Türkiyə, Gürcüstan, bir də Ermənistan tərəfindən imzalanıbdır. Bu müqavilə Azərbaycan, Ermənistan, Türkiyə sərhədlərinin müəyyən edilməsi haqqındadır. O vaxt ermənilər iddia edirdilər ki, Türkiyənin şərqində olan torpaqlar guya onlara məxsusdur. Bizim bəzi başqa torpaqlara da iddia irəli sürürdülər. Bu baxımdan Qars müqaviləsi çox əhəmiyyətli bir sənəddir. Bunu çoxları unutmuşdu, tarixdə qalmışdı. Amma mən Naxçıvanda işləyəndə bu bölgənin problemləri ilə məşğul oldum, Naxçıvanı qorumaq lazım idi. Mən bilirdim ki, Qars anlaşması var. 1992-ci ilin fevral ayında Ankaraya gəldim. Orada Qars anlaşması haqqında mətbuata geniş məlumat verdim. Beləliklə, bu anlaşma yenidən gündəliyə çıxdı.

Xatirimdədir ki, Moskvada buna çox mənfi reaksiya verdilər. Naxçıvanda bir dəfə televiziyaya baxırdım. Moskvadan Qars müqaviləsinə aid bir veriliş verdilər. Axırda isə bildirdilər ki, bu müqavilənin heç bir hüquqi qüvvəsi yoxdur,

hətta Qars müqaviləsinin mətnini elə studiyadaca yandırdılar. Amma onu yandırmaq mümkün deyil, bu müqavilə o vaxt həmin dövlətlər tərəfindən imzalanıb, hər dövlət tərəfindən ratifikasiya olunub və ümumdünya, beynəlxalq təşkilatlarda qeydə alınıbdır, onu pozmaq mümkün deyildir.

A k k a n S u v ə r: Möhtərəm Cümhur başqanımız, yenidən Sizin hüzurunuzda olduğumuz və fəxri sədrimiz kimi, Sizə vəqfimizin ötən ilki fəaliyyəti barədə hesabat təqdim etdiyimiz üçün böyük sevinc duyuruq. Sözlərimə başlamazdan əvvəl, Türkiyə Respublikasının 9-cu prezidenti Süleyman Dəmirəlin salamını və ehtiramını Sizə çatdırmaqdan bəxtiyarlıq duyduğumu bildirmək istəyirəm. Buraya qədəm qoyduğumuz ilk andan gördük ki, sanki köhnə Bakı yox olmuş, yeni Bakı yaranmışdır. Tərtəmiz küçələri və işıqları ilə şəhər tanınmayacaq dərəcədə dəyişmiş, son dərəcə gözəlləşmişdir. Doğrusu, Bakını tanıya bilmədik. Sizin hüzurunuzda Bakının bələdiyyə rəisini ürəkdən təbrik edirik.

Dəyərli Cümhur başqanımız, Siz böyük bir iş gördünüz və Azərbaycan televiziyasının Türkiyəyə yayımını təşkil etdiniz. Bu bizim Azərbaycanla olan əlaqələrimizin qüvvətlənməsinə, artmasına böyük təkan verir. Türkiyədə, demək olar, hamı hər axşam Azərbaycan televiziyasına baxır. Bu barədə dosttanışdan çox eşitmişəm. Sizə deyim ki, bu çox gözəl bir iş oldu. Nəticədə həm Sizi televiziyada görmək, həm də on il bundan əvvəlki hadisələrin ildönümlərini seyr etmək türk ziyalılarına çox ləzzət verir.

Buraya gəlişimizin bir səbəbi də keçiriləcək referendumla bağlıdır. Dünyada çox az ölkə var ki, Konstitusiyada dəyişiklik aparmaq üçün öz xalqının ayağına gedir. Məsələn, bizim ölkəmizdə belə şeyləri məclisdə həll edirlər.

Parlament üzvləri əl qaldırmaqla Konstitusiyada istənilən dəyişikliyi edə bilərlər. Ancaq Siz bunun ən gözəlini həyata keçirirsiniz. Bizdən fərqli olaraq, bunu xalqın müzakirəsinə verirsiniz. Bu münasibətlə biz zati-alinizin şəxsində bütün azərbaycanlı qardaşlarımızı təbrik edirik. Bu, demokratiya üçün çox böyük xeyirxahlıq, insan haqlarına böyük hörmət nümunəsidir.

Sizin Türkiyəyə səfərizin çox uğurla keçdiyini xatırlayıram. Siz Türkiyədə çox az dövlət başçısına göstərilən bir səmimiyyət, hörmət və qardaşlıq duyğuları ilə qarşılandınız. Bu, türk millətinin həm zati-alinizə olan məhəbbətinin, həm də qardaş Azərbaycana bəslədiyi duyğuların parlaq təzahürü idi. Başqa bir hadisə də Türkiyədə çox böyük əks-səda doğurdu. Türkiyə futbol komandası dünya birinciliyində üçüncü yer qazandıqda, Türkiyə prezidenti və Baş naziri də daxil olmaqla – bunu tam səmimiyyətimlə söyləyirəm – heç kimdən səs-səmir çıxmazdan əvvəl Siz türk millətinə təbrik göndərdiniz. O, Türkiyə televiziyaları tərəfindən dəfələrlə göstərilirdi. Xüsusilə, «qardaşım Əhməd Necdət Sezər» kəlmələri ilə başlayan və «bu zəfər yalnız Türkiyənin deyil, bütün türk dünyasınındır» sözləri ilə davam edən təbrikiniz Türkiyədə çox böyük reaksiya doğurdu.

Vəqfin fəaliyyətindən söhbət açaraq bildirmək istəyirəm ki, ötən il biz BMT-nin keçirdiyi toplantılarda Türkiyəni qeyri-hökumət təşkilatı kimi təmsil etmişik. Keçən il Özbəkistanda keçirilən prezident seçkilərində mən BMT tərəfindən müşahidəçi kimi iştirak etdim. 2001-ci ildə 10 nəfərlik bir heyətlə Sofiyada səfərdə olduq. Bolqarıstanın prezidenti, Baş naziri, parlamentin sədri, Xarici Işlər naziri, habelə keçmiş prezident Jelyu Jelev tərəfindən qəbul edildik. Bütün bu gö-

rüşlərdə zati-alinizin bizim vəqfin fəxri sədri olduğunu vurğuladıq.

Bundan əlavə, 2001-ci ildə 4-cü Avrasiya İqtisadi Zirvəsini və Dünya İdarəçi Qadınlar Forumunu uğurla keçirdik. Bu mühüm tədbirlərə göndərdiyiniz təbrik məktublarınıza görə Sizə minnətdarlığımızı bildirirəm.

Mərmərə qrupu vəqfi keçən il Türkiyənin ən nüfuzlu 125 qurumu ilə birlikdə «Avropa Birliyinə – bəli!» kampaniyasını təşkil etmişdir. Bu kampaniya çox böyük uğurla başa çatmış və bildiyiniz kimi, Türkiyə Böyük Millət Məclisi Avropa Birliyinə üzv olmaq üçün lazım olan bütün qanunları təsdiq etmişdir. Vəqfimiz Türkiyədəki mühüm bir tədbirdə də təşəbbüskar kimi çıxış etmişdir. Ölkənin ən nüfuzlu qurumları ilə birlikdə Türkiyə Etika Dərnəyini yaratmışıq. Bu dərnək hazırda və gələcəkdə ölkəmizdə mühüm məsələlər barədə doğru və dürüst qərarlar qəbul olunmasına nəzarət edəcək bir mexanizm rolunu oynayacaqdır.

Müntəzəm olaraq aylıq toplantılarımızı da keçirmişik. Bu toplantılarda Süleyman Dəmirəl, Tansu Çillər, Məsud Yılmaz, Rusiya və Çin səfirləri, hərbçilər, Milli Təhlükəsizlik Şurasının üzvləri, Konstitusiya Məhkəməsinin sədri, tanınmış qurumların rəhbərləri iştirak etmişlər.

Bu il sentyarbrın 26–28-də İstanbulda keçirəcəyimiz 5-ci Avrasiya İqtisadi Zirvəsinə zati-alinizin təbrik məktubu göndərəcəyinə, yüksək səviyyəli Azərbaycan nümayəndə heyətinin bu tədbirdə iştirak edəcəyinə ümid edirik. Bundan başqa, oktyabrın 17-dən 19-dək keçiriləcək «Türkiyə və qonşu ölkələrin qadın parlament üzvlərinin Sülh və əməkdaşlıq konfransı»na yüksək səviyyəli nümayəndə heyətinin iştirakını da ürəkdən arzulayırıq.

Böyük Atatürkün latın əlifbasını qəbul etmək barədə 9 avqust 1928-ci il tarixli qərarının və zati-alinizin Azərbaycanda latın əlifbasına keçmək haqqında 9 avqust 2001-ci il tarixli fərmanının xoş təsadüf nəticəsində eyni günə düşməsi münasibətilə idarə heyətimizin Azərbaycandan gələn deputatlarla iyunun 15-də İstanbulda keçirdiyi birgə iclasın qərarına əsasən, Siz Azərbaycana və türk dünyasına bu günədək bacarıqla rəhbərlik etdiyinizə görə yekdilliklə 2002-ci ilin «Baş müəllim Atatürk» mükafatına layiq görülmüsünüz.

Sizi təbrik edirik. Latın əlifbası yolunda atdığınız bu böyük addım münasibətilə Sizə və şəxsinizdə azərbaycanlı qardaşlarımıza bir daha təbriklərimizi yetirir, mükafatı qəbul etməyinizi xahiş edirik.

Bu, İstanbuldakı məşhur «Yıldız Porselen»də əllə hazırlanmışdır. Kənarları qızıl işləməlidir. Burada «Baş müəllim Atatürk ödülü» sözləri yazılmışdır.

H e y d ə r Ə l i y e v: Vəqfin işləri haqqında verdiyiniz məlumat məni çox sevindirdi. Türkiyədə vəqflər çoxdur, hər kəs vəqf yarada bilər, ona görə də bəzən başa düşmək olmur ki, bu necə böyük, dəyərli vəqfdir, yoxsa adi bir vəqfdir.

Sizinlə İstanbulda tanış olanda məni öz vəqfinizə dəvət etdiniz. Böyük bir mərasim keçdi, nitq söylədik, ziyafət də verdiniz. Orada çox adam var idi, mən onda hiss etdim ki, sizin vəqfiniz həqiqətən çox dəyərli işlər görmüşdür, Türkiyədə böyük hörmətə malik olan vəqfdir. O vaxt Siz məni fəxri sədr seçdiniz və bundan çox məmnun oldum. Son dövrlərdə, xüsusən də keçən il gördüyünüz işlər haqqında verdiyiniz məlumat fəxri sədri olduğum bu vəqfin fəaliyyətinə məndə böyük ehtiram yaratdı. Çünki doğrudan da siz böyük işlər görürsünüz. Bütün bunlar məni çox sevindirir. Mən arzu edi-

rəm ki, vəqfiniz bundan sonra daha da genişlənsin, yalnız Türkiyədə deyil, bütün dünyada fəaliyyətini genişləndirsin. Türkiyə Cümhuriyyətinə, xalqına fayda versin və Türkiyə ilə Azərbaycanın dostluq və qardaşlıq əlaqələrinin inkişafına yeni-yeni töhfələr versin.

Mənim sizin vəqfin fəxri sədri seçilməyim, ilk növbədə, Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq əlaqələrinin inkişaf etməsi və genişlənməsi üçün yeni bir vasitədir.

Mən 9 ildir Azərbaycanın prezidentiyəm, bu müddətdə Türkiyə ilə əlaqələrimiz çox inkişaf edibdir. Bu həm Azərbaycan xalqının iradəsidir, həm də prezident kimi, mənim iradəmdir. Mən bu xətti bundan sonra da aparacağam. Biz bundan sonra da əlaqələrimizin daha da canlı olması üçün yeni-yeni imkanlar axtarıb tapmalıyıq. Çünki dünyada çox böyük dəyişikliklər əmələ gəlir, hər ay, hər il dəyişir. Biz bütün bu dəyişikliklərlə ayaqlaşmalıyıq.

Siz mənə «Baş müəllim Atatürk» mükafatını verdiniz. Bu, böyük bir mükafatdır. Siz bilirsiniz ki, mən Atatürk adına beynəlxalq sülh mükafatı laureatıyam. Onu mənə Ankarada təqdim etdilər. İndi isə siz məni baş müəllim adlandırırsınız. Mən bunu məmnuniyyətlə qəbul edirəm, çünki Atatürkün ideyalarını yaymaq, təbliğ etmək və xalqımıza çatdırmaq, həm də bu ideyalardan faydalanmaq, istifadə etmək sahəsində çox işlər görmüşəm. Bu, bir siyasi xadim, lider və prezident kimi mənim fəaliyyətimdə çox mühüm yer tutur. Təsadüfi deyil ki, mən Azərbaycanda Atatürk Mərkəzi yaratdım. Siz bunu bilirsiniz, orada böyük işlər görüləcəkdir.

Türkiyə Cümhuriyyətinin yaradıcısı Atatürk elə bir şəxsiyyətdir ki, onun haqqında nə qədər danışsan, yenə də azdır. Atatürkün həyatını, fəaliyyətini daim öyrənmək lazımdır.

Bizdəki Atatürk Mərkəzi bu işləri də görəcəkdir. Atatürkün indiyə qədər Azərbaycanla əlaqədar dediyi sözləri, gördüyü işləri, naməlum qalan cəhətləri aşkara çıxaracaqdır.

Belə çıxır ki, mən də bu sahədə öyrətmənlik, müəllimlik etməliyəm. Baş müəllim kimi, gərək başqa müəllimlərə də öyrədəm ki, Atatürkün ideyalarını necə həyata keçirmək lazımdır. Mənə təqdim etdiyiniz bu hədiyyə də çox qiymətlidir. O mənada yox ki, bunun müəyyən maddi dəyəri var, o mənada ki, siz Azərbaycanın cümhur başqanı kimi, məni Atatürklə bir yerdə təsvir edibsiniz və gözəl ornament içində göstəribsiniz.

Mən sizə təşəkkür edirəm. Düzdür, mənim Atatürklə yanyana şəklim olmayıbdır. Çünki məm Atatürkün yanında olmamışam, özüm də öz şəklimi Atatürkün şəklinin yanına qoya bilmərəm. Amma siz bunu etmisiniz. Çox təşəkkür edirəm.

Bir sözlə, mən Mərmərə qrupu vəqfinin fəaliyyətindən çox razıyam. Gördüyünüz işləri çox yüksək qiymətləndirirəm. Güman edirəm ki, bundan sonra daha böyük işlər görəcəksiniz. Mən vəqfinizin fəxri sədri olmağımdan iftixar duyuram.

AZƏRBAYCAN RESPUBLİKASININ 1995-ci İLDƏ QƏBUL EDİLMİŞ KONSTİTUSİYASININ TƏKLİF OLUNAN DƏYİŞİKLİKLƏRLƏ ƏLAQƏDAR YERLİ VƏ XARİCİ JURNALİSTLƏRİN SUALLARINA VERDİYİ CAVAB

Bakı şəhərinin Səbail rayonundakı
17 nömrəli referendum məntəqəsi

24 avqust 2002-ci il

S u a l: Cənab Prezident, lütfən deyin, Sizcə, oğlunuz İlham Əliyev qarşıdakı prezident seçkilərində namizədliyini irəli sürəcəkmi?

H e y d ə r Ə l i y e v: Siz bu sualı nə üçün verirsiniz? Siz hansı kütləvi informasiya vasitəsini təmsil edirsiniz?

J u r n a l i s t: Mən İngiltərədənəm və «Röyter» agentliyini təmsil edirəm. Çoxları deyir ki, növbəti prezident oğlunuz olacaqdır.

H e y d ə r Ə l i y e v: Bunu o barədə danışanlardan soruşun.

S u a l: Siz prezident seçkilərində iştirak edəcəksinizmi?

C a v a b: Bəli, mən qarşıdakı seçkilərdə iştirak edəcəyəm və bunu açıqlamışam. 2003-cü ildə prezident seçkilərində iştirak edəcəyəm və ümidvaram ki, məni üçüncü dəfə də seçəcəklər. Əgər oğluma suallarınız varsa, bunu ona ana dilinizdə verə bilərsiniz.

S u a l: Siz Konstitusiyaya bu dəyişiklikləri necə qiymətləndirirsiniz?

C a v a b: Bu mənim təşəbbüsümdür, bu məsələləri referenduma mən çıxarmışam. Bu o deməkdir ki, mən onları zəruri hesab edirəm. Çünki demokratik dövlətimizin ilk Konstitusiyasını qəbul etdiyimiz vaxtdan 7 il keçmişdir. Bu müddət ərzində dünyada və ölkəmizdə çox şey dəyişibdir. Konstitusiyamız referendumda qəbul olunduğuna görə – bu da yaxşı haldır, ona parlament vasitəsilə, hər kəsin istədiyi kimi dəyişikliklər etmək olmaz – dəyişikliklər ancaq ümumxalq səsverməsi, referendum yolu ilə edilə bilər. Ona görə də mən təklif olunan dəyişiklikləri referenduma, ümumxalq səsverməsinə çıxartdım. Hesab edirəm ki, xalq səs verəcəkdir.

S u a l: Cənab Prezident, Siz özünüz necə səs verdiniz, bütün bəndlərə «hə» dediniz, yoxsa…

C a v a b: Əlbəttə, «hə» dedim.

S u a l: Alternativ xidmətlə bağlı bəndə də? Naxçıvanda deyirdiniz ki, bu barədə düşünəcəyəm.

C a v a b: Gərək onu mənim yadıma salaydınız. İndi mən yox deməydim, onsuz da bir şey çıxmayacaqdı. Amma yadımdadır, sən Naxçıvanda dedin, düşünmək lazımdır. Hələ vaxt var, bu barədə düşünərik.

S u a l: Yəqin ki, qanunvericiliklə tənzimlənəcəkdir.

C a v a b: Baxarıq. Amma yadıma sal, mənim yadımdan çıxır. Daha başqa sualı olan var?

S u a l: Cənab Prezident, referendumun gedişi ilə bağlı yəqin Sizə tez-tez məlumat verirlər. Vəziyyət Sizi qane edirmi?

C a v a b: Mənə elə gəlir ki, çox yaxşıdır. Mən buraya gəlməzdən əvvəl telefon etdim, öyrəndim, indi rəqəmlər haqqında heç bir şey demək istəmirəm. Ancaq fəallıq çox yüksəkdir. Mən evdən buraya gələnə qədər bir neçə məntəqənin

yanından keçmişəm. Məntəqələrdə çoxlu adamlar var, məni bir-iki yerdə hətta saxlamaq istədilər. Camaat çox fəaldır.

S u a l: Cənab Prezident, Nardaranda əhali referendumda iştirak edir. Amma onların Sizdən xahişi qalır. Onlar Sizinlə görüşmək barədə xahiş ediblər. Amma referenduma gedirlər. Buna münasibətiniz necədir?

C a v a b: Referenduma gedirlərsə, çox gözəl. İndi onlar referenduma getsələr, başqa məsələlərdə öz səhvlərini başa düşsələr… Hər halda, hökumətin onlara münasibəti həmişə yaxşı olubdur və yaxşı da olacaqdır.

S u a l: Cənab Prezident, ümumiyyətlə, yenə də nə vaxtsa Konstitusiyaya dəyişikliklər və əlavələr olunacaqmı?

C a v a b: Ay qardaş, elə sual verirsən ki… Yeddi ildə birinci dəfədir ki, Konstitusiyada dəyişiklik edirik, onu da görürsən ki, nə qalmaqalla… Yəni, xalq arasında qalmaqal yoxdur. Ancaq müxalifətdir, heç anlamıram nə üçün belə şeylərə etiraz edir? Dəyişikliklər üçün yəqin ki, ehtiyac lazımdır. Mən sizə dəfələrlə demişəm. Bu dəyişikliklər elə deyil ki, oturdun, fikirləşdin ki, bunları edək. Bunlar son illərdə yaranmış vəziyyətlə əlaqədar gündəliyə gəlibdir. Ona görə də bu dəyişikliklər edilir.

Əgər gələcəkdə də hansısa bir dəyişikliyə ehtiyac olarsa, təbii ki, ediləcəkdir. Ancaq yenə də referendum vasitəsilə.

S u a l: Cənab Prezident, Avropa Şurasının nümayəndəsi Andreas Qross buradadır, referendumu izləmək üçün Azərbaycana gəlibdir. O, Azərbaycan haqqında sərt fikirlər bildirir. Rəsmi Bakının buna münasibəti necə olacaqdır?

C a v a b: Nə bilim, mənim bundan heç xəbərim yoxdur.

S u a l: Cənab Prezident, bir çox müxalifət partiyaları referendumda müşahidəçi kimi iştirak etməkdən də imtina etdilər…

H e y d ə r Ə l i y e v: İmtina etdilər? Bəs onlar bir o qədər müşahidəçi vəsiqəsi aldılar.

J u r n a l i s t: Bəziləri iştirak edirlər, amma bəziləri Mərkəzi Seçki Komissiyasının onlara şərait yaratmadığını bəhanə gətirərək, referendumu müşahidə etməkdən boyun qaçırdılar. Siz özünüz necə, Mərkəzi Seçki Komissiyasının fəaliyyətindən razısınızmi?

C a v a b: Necə yəni onlara şərait yaradılmayıb? Onlara 22 min vəsiqə verilibdir. Özü də biz burada qanunu pozduq, onların xahişinə görə pozduq. Çünki hər bir müşahidəçi vəsiqəni gəlib referendum dairəsində almalıdır. Mərkəzi Seçki Komissiyası da xəbər vermişdi ki, müşahidəçilər öz vəsiqələrini gəlib referendum dairələrindən ala bilərlər. Ancaq onlar müşahidəçi vəsiqəsini bir həftə gedib almadılar. Ondan sonra, referenduma 3 gün qalmış hay-küy saldılar. Dedilər ki, məsələn, hansısa partiya 4800 nəfərin siyahısını veribdir. Elə bu siyahı ilə müşahidəçi vəsiqələrini bizə verin. Mərkəzi Seçki Komissiyası tələb etdi ki, heç olmasa bu adamların ünvanını verin, görək ki, kimlərə müşahidəçi vəsiqəsi təqdim edirik. Yoxsa, filankəs filankəsov, qurtardı getdi? Onlar da bunu etmədilər. Mənə dedilər, mən də məsləhət gördüm ki, məsələni kəskinləşdirməsinlər. Mərkəzi Seçki Komissiyası 22 min vəsiqə veribdir. Bəzi partiyalar 4-5 min vəsiqə alıblar.

Bəs onda bu vəsiqələri nə üçün, nədən ötrü almışdılar? Nə üçün onlar Mərkəzi Seçki Komissiyasından narazı qalırlar? Yəqin düşünürdülər ki, onlara müşahidəçi vəsiqəsi verilməyəcəkdir, hay-küy salacaqlar. Amma onların bütün bəhanələri götürüldü. Bəhanə götürüləndən sonra, indi nə deyim… Sağ olun.

ALMANİYA FEDERATİV RESPUBLİKASININ BAKIDAKI SƏFİRİ KLAUS QREVLİX İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

27 avqust 2002-ci il

H e y d ə r Ə l i y e v: Cənab səfir, xoş gördük sizi. Bakıda özünüzü necə hiss edirsiniz?

K l a u s Q r e v l i x: Cənab Prezident, səmimi qəbul üçün təşəkkür edirəm. Firavan gələcəyi olan belə gözəl ölkədə özümü ancaq yaxşı hiss edə bilərəm. Cənab Prezident, Siz həmişə qeyd etmisiniz ki, Almaniyanın sənayesi Azərbaycan iqtisadiyyatına böyük sərmayə qoymayıbdır. Amma bildirmək istəyirəm ki, bu vəziyyət dəyişmək ərəfəsindədir. Bu yaxınlarda Azərbaycanda «Mannesman» şirkətinin törəmə şirkəti yaradıldı. O, neft boru kəmərlərinin qorunması ilə məşğul olacaqdır. Onlar neft kəmərlərinin həm daxili, həm xarici qoruyucu sistemlərini yaradırlar.

Bu yaxınlarda «Valterbau» şirkəti də bir zavod yaratdı, əsasən dəmir yolu üçün beton şpallar istehsal edir. Mən əminəm ki, bu zavod nəinki Azərbaycanın tələbatını ödəyəcək, həm də region üçün məhsul istehsal edəcəkdir. Gələcəkdə bir sıra başqa şirkətlərin də burada fəaliyyət göstərməsi gözlənilir.

Cənab Prezident, bilirik ki, Siz sənayenin inkişafına xüsusi diqqət yetirirsiniz. Əmin olmaq istərdim ki, sənayeyə sərmayə qoyuluşu getdikcə artacaqdır. Bu da gələcəkdə ölkənizdə sabit-

liyin daha da möhkəmlənməsinə zəmin yaradacaqdır. İnşaallah, Sizin rəhbərliyiniz altında Azərbaycanın sənayesi və iqtisadiyyatının başqa sahələri bundan sonra da inkişaf edəcəkdir.

H e y d ə r Ə l i y e v: Çox məmnunam ki, siz mənim bu barədə fikirlərimi nəzərə almısınız və Almaniyanın böyük sənaye şirkətlərinin Azərbaycanda fəaliyyətinin təmin olunması üçün səylər göstərmisiniz. «Mannesman» şirkətini mən tanıyıram. Bu, çoxdankı, dünyada məşhur olan böyük şirkətdir. Onun Azərbaycana gəlməsini alqışlayıram. Mən belə başa düşdüm ki, həmin şirkət boruları korroziyadan mühafizə etmək işlərini görəcəkdir.

Burada şpal istehsal edən zavod açmağınız da çox sevindirici haldır. Birincisi, Azərbaycanın şpala tələbatı var. Təkcə Azərbaycanın yox, bütün bölgənin buna ehtiyacı var. Ona görə də o zavod burada çox işlər görə bilər. Mən arzu edirəm ki, bu işlər davam etsin, Azərbaycana yeni şirkətlər gəlsin.

K l a u s Q r e v l i x: Cənab Prezident, mən bu yaxınlarda Amerika Birləşmiş Ştatlarında, Kolorado ştatında idim, orada bir konfrans keçirilirdi. Bu konfransda Bill Klinton və Madlen Olbrayt da iştirak edirdilər. Makedoniya prezidenti Traykovski də gəlmişdi. Dünyanın hər yerindən çoxlu qonaqlar vardı. Konfransın mövzusu «Terrorizmə qarşı mübarizə və demokratiyanın inkişafı» idi. Mənə elə gəlir ki, demokratiyanın inkişafı ilə terrorizmə qarşı mübarizə arasında xüsusi əlaqə var. Konfransda islamın müasirliyi məsələsinə də toxunulmuşdu. Orada mən Azərbaycanın mövqeyini müdafiə edirdim. Mən öz çıxışımda dedim ki, Azərbaycan müasir islam ölkəsinin modelidir. Dəfələrlə qeyd etdim ki, Azərbaycanda ali təhsilli gənclər çoxdur. Mən həmçinin Azərbaycanın dahi musiqiçiləri, mədəniyyət sahəsində çalışan şəxsləri

haqqında da məlumat verdim. Eyni zamanda, ölkənizin tolerantlığı haqqında da danışdım. Çıxışımda bildirdim ki, Azərbaycanda şeyxülislam yepiskopla, yaxud da yəhudilərin dini icmasının rəhbəri ilə birlikdə tədbirlərdə iştirak edir, bir masa arxasında əyləşir. Azərbaycanda dinlər arasında heç vaxt heç bir məhdudiyyət qoyulmur.

Eləcə də Azərbaycanın mövcud potensialı haqqında məlumat verdim.

Orada mən Dağlıq Qarabağ münaqişəsinə də toxundum. Dedim ki, Azərbaycanın diplomatiyası ölkə prezidentinin rəhbərliyi altında bir növ «hücuma keçibdir». Mən dedim ki, Azərbaycan bu problemi mərhələ-mərhələ yox, birdəfəlik həll etmək istəyir. Lakin son vaxtlar dəmir yolunun bərpası barədə fikirlər var, yaxud da belə bir fikir meydana çıxıbdır ki, əvvəlcə dörd rayon işğaldan azad olunsun və sonra Dağlıq Qarabağın statusu haqqında danışıqlar aparılsın. Mənə elə gəlir ki, münaqişənin aradan qaldırılması üçün Azərbaycan təşəbbüs göstərir və müsbət addımlar atır.

Bakı–Tbilisi–Ceyhan neft boru kəməri də çox böyük əhəmiyyətə malikdir. Çünki bu kəmərlə bağlı bir sıra ölkələr regionda sabitliyin yaranmasında maraqlıdırlar. Orada mən Azərbaycan haqqında çox məlumat verdim. Azərbaycanda baş verən müsbət dəyişiklikləri, buradakı gözəl ab-havanı təsvir edə bildim.

Konfransın sonunda Amerika Birləşmiş Ştatlarının sabiq dövlət katibi Madlen Olbrayt mənə yaxınlaşaraq xahiş etdi ki, onun məktubunu şəxsən Sizə çatdırım. İcazə verin, həmin məktubu Sizə təqdim edim. Bəlkə də bu Sizə qəribə görünər ki, bunu nə üçün məhz Almaniyanın Azərbaycandakı səfiri təqdim edir. Ola bilər, bu da qloballaşmanın bir hissəsidir.

H e y d ə r Ə l i y e v: Bu da çox yaxşı haldır. Cənab səfir, təşəkkür edirəm. Koloradoda beynəlxalq konfransda iştirakınız və Azərbaycan haqqında geniş məlumat verməyiniz barədə dediklərini məni çox sevindirir. Mən belə başa düşürəm ki, siz Almaniyanın Azərbaycandakı səfiri olaraq, eyni zamanda, Azərbaycanı çox sevən və ölkəmizdə gedən işləri yüksək qiymətləndirən adam kimi bu işləri görmüsünüz. Bizim buna çox ehtiyacımız var. Çünki Azərbaycan haqqında geniş məlumatlar, izahatlar verməyə böyük ehtiyac var. Təəssüflər olsun ki, hələ heç də hər yerdə Azərbaycan haqqında həqiqətləri olduğu kimi bilmirlər. Ona görə də sizin bu təşəbbüsünüzü və oradakı geniş fəaliyyətinizi mən yüksək qiymətləndirir və sizə təşəkkür edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz bundan sonra da bu istiqamətdə fəaliyyətinizi davam etdirəcəksiniz.

Xanim Olbraytdan gətirdiyiniz məktuba görə də təşəkkür edirəm. O çox yaxşı və dəyərli insandır. Mən onu çoxdan tanıyıram. Əvvəllər Amerika Birləşmiş Ştatlarının Birləşmiş Millətlər Təşkilatı yanında daimi nümayəndəsi idi. O vaxt mən onu Azərbaycana dəvət etmişdim, gəldi, burada görüşdük və Azərbaycanla tanış oldu. Sonra prezident Klinton onu özünün Xarici Işlər naziri vəzifəsinə təyin etdi. Həmin vəzifədə olduğu dövrdə mən onunla çox tez-tez görüşürdüm. Yaxşı əməkdaşlıq edirdik. Bizim bölgənin problemlərini o, yaxşı bilirdi. Xüsusən Ermənistan–Azərbaycan münaqişəsinin həll olunması ilə əlaqədar çox fəaliyyət göstərirdi. O vaxt mən ona deyirdim və o da mənə deyirdi ki, biz şəxsi dostuq. Təəssüf ki, vəzifədən ayrılandan sonra onunla heç bir əlaqəm olmayıbdır. Ona görə də bu məktub mənim üçün çox əhəmiyyətlidir. Mən mütləq ona cavab yazacağam və Amerika Birləşmiş Ştatlarında olanda mütləq onunla görüşəcəyəm.

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇAN DİK LİONQA

Hörmətli cənab Prezident!

Vyetnam Sosialist Respublikasının milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm. Əminəm ki, ölkələrimiz arasında əməkdaşlığı genişləndirmək istəyimizdən irəli gələn qarşılıqlı fəaliyyətimiz xalqlarımız üçün faydalı olacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Vyetnam xalqına sülh və rifah arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *27 avqust 2002-ci il*

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANİYƏ

Əlahəzrət!

Qətər Dövlətinin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Qətər arasında möhkəmlənən dostluq əlaqələri hərtərəfli və faydalı əməkdaşlıq üçün geniş imkanlar açacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Qətər xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *27 avqust 2002-ci il*

LİVİYA İNQİLABININ RƏHBƏRİ, LİVİYA ƏRƏB SOSİALİST XALQ CƏMAHİRİYYƏSİNİN BAŞÇISI ZATİ-ALİLƏRİ CƏNAB MÜƏMMƏR QƏDDAFİYƏ

Hörmətli cənab başçi!

Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsinin milli bayramı – İnqilab günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Liviya arasında yaranan dostluq münasibətləri xalqlarımızın mənafeyi naminə daim möhkəmlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Liviya xalqına sülh və tərəqqi arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *27 avqust 2002-ci il*

SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RUDOLF ŞUSTERƏ

Hörmətli cənab Prezident!

Slovakiya Respublikasının milli bayramı – Konstitusiya günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı əlaqələr daim genişlənərək xalqlarımızın rifahına öz töhfəsini verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Slovakiya xalqına sülh və tərəqqi arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *27 avqust 2002-ci il*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA

Hörmətli İslam Əbdüqəniyeviç!

Özbəkistanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Özbəkistan xalqını ürəkdən təbrik edirəm.

Azərbaycan və Özbəkistanı tarixi dostluq və qarşılıqlı surətdə faydalı əməkdaşlıq ənənələri bağlayır. İnanıram ki, bu ənənələrin daha da möhkəmləndirilməsi və genişləndirilməsi bundan sonra da xalqlarımızın, dövlətlərimizin mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, uğurlar, qardaş Özbəkistan xalqına isə sülh və əmin-amanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *27 avqust 2002-ci il*

TÜRKİYƏNİN DƏNİZÇİLİK MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ RAMAZAN MİRZƏOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

28 avqust 2002-ci il

H e y d ə r Ə l i y e v: Hörmətli nazir, Sizi və Sizi müşayiət edən şəxsləri səmimiyyətlə salamlayıram. Türkiyənin hər bir nümayəndəsinin Azərbaycana gəlməsi bizim üçün çox əhəmiyyətlidir Hökumət üzvlərinin gəlməsi isə, təbiidir ki, ölkələrimiz, dövlətlərimiz, hökumətlərimiz arasında əlaqələri daha da inkişaf etdirir.

Türkiyə böyük gəmiçilik ölkəsidir. Çünki Türkiyənin, demək olar, hər tərəfi dənizdir, okeandır. Azərbaycan Xəzər dənizində gəmiçiliklə həmişə məşğul olubdur. Ancaq Xəzər qapalı dənizdir. Sonralar Xəzər dənizindən Volqa–Don kanalı ilə Qara dənizə, başqa dənizlərə çıxış olubdur. Bizim gəmilərin də bir qismi elə Qara dənizdə, yaxud da başqa dənizlərdə daha çox üzür, nəinki Xəzərdə. Çünki burada onların daşıması üçün o qədər də yük yoxdur.

Azərbaycan gəmiləri Türkiyənin limanlarından istifadə edir. Ona görə də bu sahədə də əməkdaşlığımızı inkişaf etdirmək lazımdır.

R a m a z a n M i r z ə o ğ l u: Cənab Prezident, səmimi qəbula görə minnətdarlıq edirəm. Bu günlərdə keçirilmiş referendumun Azərbaycan xalqı üçün uğurlu olmasını, faydalı nəticələr verməsini arzulayaraq dedi ki, Bakıda olarkən dənizçilik sahəsində əməkdaşlıq məsələləri barədə Baş nazirin müavini Abid Şərifovla, Nəqliyyat naziri Ziya Məmmədovla, Xəzər Dəniz Gəmiçiliyinin rəisi Aydın Bəşirovla çox faydalı müzakirələr apardıq. Sizin gəmilərin bizim limanlardan istifadə etməsi, təmir işlərinin İstanbuldakı Tuzla tərsanəsində həyata keçirilməsi haqqında yekdil qərara gəldik. Bakı çox əhəmiyyətli limandır. Sizin arzu edəcəyiniz təqdirdə, onun genişlənməsi işlərinə kömək edə bilərik. Bizim fikrimizcə, bu həm Azərbaycana, həm də Türkiyəyə çox xeyir verə bilər.

Biz Türkiyə olaraq, Sizin belə bir fikrinizə çox böyük əhəmiyyət veririk ki, Xəzər dənizi qapalı hövzə olsa da, onun Volqa–Don kanalı vasitəsilə bütün dünyaya çıxışı vardır. 1994-cü ilə qədər bu yoldan fəal şəkildə istifadə edilmiş, daha sonra bir qədər zəifləmişdir. Qarşıdakı illərdə Türkiyə Xəzər dənizi vasitəsilə ildə 2 milyon ton buğda, pambıq, metal daşıyacaqdır. Həmin yolu bağlamaq beynəlxalq hüquq normalarına ziddir. Bu barədə biz Rusiya ilə müzakirələr aparacağıq. Rusiyanın bütün gəmiləri bizim Qara dənizdəki və Mərmərə dənizindəki boğazlardan keçir, Türkiyə limanlarından istifadə edir. Volqa–Don kanalı da eyni şəkildə bütün dövlətlərin gəmilərinə, ilk növbədə də Xəzər hövzəsi ölkələrinin gəmilərinə açıq olmalıdır. Bu su yolunu bağlamaq haqsızlıqdır. Bunu qəbul etmək mümkün deyildir. Ona görə də Türkiyə bu sahədə lazımi tədbirləri görəcəkdir.

Dövlət naziri daha sonra vurğuladı ki, Türkiyə Azərbaycanın işğal olunmuş rayonlarının dərhal boşaldılmasını, qaç-

qınların öz yurd-yuvalarına qayıtmasını tələb edir. Biz Azərbaycanın ərazi bütövlüyünün qorunmasına böyük əhəmiyyət veririk və bunun sülh yolu ilə həyata keçirilməsini arzulayırıq.

Bütün bunlarla yanaşı, Türkiyə ilə Azərbaycan arasında mədəni və iqtisadi əlaqələrin möhkəmləndirilməsi və inkişaf etdirilməsi zəruridir və bu sahədə Sizin apardığınız siyasət bizi son dərəcə məmnun edir.

Heydər Əliyev: Bildirim ki, Volqa–Don kanalı ilə Xəzər dənizindən Qara dənizə çıxış bizim üçün çox əhəmiyyətlidir. 1994-cü ilə qədər bu sahədə heç bir problem olmayıbdır. Sonra Rusiya bu rejimi çox sərtləşdirdi. Rusiya indi bir sıra şərtlər irəli sürür.

Aydın Bəşirov: Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinin rəisi olaraq məlumat verərək bildirim ki, biz üç ay əvvəldən Rusiya hökuməti sədrinin adına teleqram göndəririk. Bundan sonra onlar gəmilərin adları göstərilməklə xüsusi cədvəl üzrə buraxılmasına icazə verirlər ki, bu da ildə 10 gəmidən artıq olmur. Xəzərdə İranın cəmi 4, Türkmənistanın 3 yük gəmisi var. Lakin onlar Qara dənizə çıxa bilmirlər.

Qazaxların hələlik yük tankerləri yoxdur, almaq fikrindədirlər. Rusiya Həştərxan limanından 6 yük gəmisini Dağıstanın balansına keçiribdir. Hazırda Mahaçqaladan İrana yük daşıyırlar. İndi onlar Ukraynadan alınmış 100 min ton metalı İrana daşımaqla məşğuldurlar. Bu yüklər yalnız Rusiyanın gəmiləri ilə daşınır. Bizim gəmilərə yük vermirlər.

Ramazan Mirzəoğlu: Türkiyənin boğazlarından, on milyon insanın yaşadığı İstanbuldan Rusiyanın 150 min tonluq tankerləri keçir. Bizim buna heç bir etirazımız yoxdur. Amma eyni şəkildə Türkiyə gəmiləri də Xəzər dənizinə gəlmə-

lidir. Bu məsələdə ədalətli olmaq lazımdır. Bu, birtərəfli ola bilməz. Biz bunu tələb edəciyik, onlarla danışıq aparacağıq. Bunu Xəzər hövzəsi ölkələri – Azərbaycan, Qazaxıstan, Türkmənistan da etməlidir.

H e y d ə r Ə l i y e v: O biri ölkələrin gəmiləri yoxdur, Xəzərdəki gəmilərin 90 faizi Azərbaycanındır. Yükləri Azərbaycan gəmiləri daşıyıbdır. Yəni gəmiçilik, əsasən Azərbaycanda olubdur. Hətta Həştərxanda da o qədər olmayıbdır.

İndi vəziyyət dəyişibdir. Qonşu ölkələr də gəmilər alırlar. Ancaq gərək nə qədər gəmi alsınlar ki, onların donanması Azərbaycanınkı qədər olsun. Biz onların gəmilərinin də yük daşımasına etiraz etmirik. Hamı Volqa–Don kanalından istifadə etməlidir. Buna məhdudiyyət qoymaq olmaz.

Referendumla bağlı təbriklərinizə görə sizə çox təşəkkür edirəm. Bu çox əhəmiyyətli bir tədbir idi. Çünki biz Konstitusiyamızda dəyişiklikləri ancaq referendum vasitəsilə həyata keçiririk. Bunu Milli Məclisdə edə bilmərik. Referendumu keçirdik, xalq da bizi dəstəklədi. Referenduma çıxarılan məsələləri həll etdik. Mən də bundan çox məmnunam. Xalq bir daha Azərbaycanın iqtidarına öz münasibətini, öz etibarını göstərmiş oldu.

Dağlıq Qarabağ məsələsinə gəlincə, Türkiyə həmişə bu işdə bizimlə bərabərdir. Biz də çalışırıq ki, münaqişəni sülh yolu ilə həll edək. İşğal olunmuş torpaqlar azad edilsin. Bir milyondan artıq insanımız qaçqın-köçkün vəziyyətindədir, onlar öz yerlərinə qayıtsınlar. Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun. Biz bu işlə ciddi şəkildə məşğuluq. Bilirsiniz ki, mən avqustun 14-də Ermənistan–Azərbaycan sərhədində, Naxçıvan bölgəsində Ermənistan prezidenti Köçəryanla görüşdüm. Biz 4 saat söhbət etdik, danışıqlar apardıq. Danışıqları da-

vam etdirmək lazımdır. Münaqişəni sülh yolu ilə həll etmək o qədər də asan deyil, amma mümkündür. Biz bu danışıqları aparırıq və bundan sonra da aparacağıq. Mən də məmnunam, xalqımız da məmnundur ki, Türkiyə bu məsələlərdə Azərbaycanın mövqeyini müdafiə edir, bizimlə birlikdədir, Azərbaycanı dəstəkləyir. Buna görə də biz həmişə Türkiyəyə minnətdar olduğumuzu bildiririk.

YAPONİYANIN BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB DZÜNİTİRO KOİDZUMİYƏ

Hörmətli cənab Baş nazir!

Azərbaycan Respublikası ilə Yaponiya arasında diplomatik əlaqələr yaradılmasının 10 illiyi münasibətilə Sizi və dost Yaponiya xalqını səmimi-qəlbdən təbrik edirəm.

Yaponiya ilə dostluq və əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi ötən dövrdə Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən biri olmuşdur.

1998-ci ilin fevralında Yaponiyaya rəsmi səfərim zamanı keçirdiyim görüşləri, apardığım danışıqları məmnuniyyətlə xatırlayır və razılıq hissi ilə vurğulayıram ki, bu illərdə ölkələrimiz arasında əlaqələr genişlənmişdir və biz bir çox mühüm sahələrdə faydalı əməkdaşlığa nail olmuşuq.

Əminəm ki, dövlətlərarası münasibətlərimiz birgə səylərimiz sayəsində xalqlarımızın mənafeyi naminə bundan sonra da inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *29 avqust 2002-ci il*

UKRAYNA BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ OLEQ DUBİNA BAŞDA OLMAQLA BU ÖLKƏNIN NÜMAYƏNDƏ HEYƏTI İLƏ GÖRÜŞ

Prezident sarayı

29 avqust 2002-ci il

Azərbaycan prezidenti Heydər Əliyev nümayəndə heyətinin üzvlərini Ukraynanın dövlət bayramı – Müstəqillik günü münasibətilə təbrik etdi və dost ölkənin xalqına əbədi müstəqillik, habelə sülh, firavanlıq və uğurlar arzuladı.

Səmimi təbrik üçün minnətdırlıq edən Oleq Dubina müstəqillik günü münasibətilə göndərdiyi təbrik məktubuna görə Azərbaycan prezidentinə, Ukrayna prezidenti Leonid Kuçmanın təşəkkürünü yetirdi. Nümayəndə heyətinin başçısı hökumətlərarası iqtisadi komissiyanın fəaliyyətindən danışaraq dedi ki, fevralda Kiyevdə keçirilmiş iclasda Bakı görüşünə konkret nəticələrlə gəlmək üçün var qüvvə ilə səy göstərmək qərara alınmışdır. Belə nəticə əldə edilmişdir – əmtəə dövriyyəsi 1,7 dəfə artmışdır. İndiki iclasda bir sıra məsələlər müzakirə edildi və «heç bir məsələ barəsində heç bir tərəfdən anlaşılmazlıq olmadı».

O, ümidvar olduğunu söylədi ki, iki prezidentin – Heydər Əliyevin və Leonid Kuçmanın rəhbərliyi ilə komissiya Azərbaycanın və Ukraynanın iqtisadi firavanlığının yüksəlməsinə bundan sonra da kömək edəcəkdir.

Komissiyanın Azərbaycan tərəfindən həmsədri, Baş nazirin birinci müavini Abbas Abbasov bildirdi ki, Bakıda keçirilən iclasın gündəliyinə iqtisadi əməkdaşlıg məsələlərinin geniş spektrini əhatə edən 7 məsələ daxil idi. İkitərəfli əməkdaşlığın genişləndirilməsi və möhkəmləndirilməsi sahəsində prezidentlərin qarşıya qoyduqları bütün vəzifələri hökumətlər, o cümlədən də hökumətlərarası komissiya uğurla həyata keçirir. Komissiyanın işinin yekunlarına əsasən, fövqəladə hallar zamanı qarşılıqlı yardım göstərilməsi haqqında, hökumətlər arasında əlaqə, kiçik və orta biznesin dəstəklənməsi, istehsal kooperasiyası haqqında Azərbaycan və Ukrayna hökumətləri arasında sazişlər imzalandı.

Abbas Abbasov ölkələrimizin hökumətləri arasında işgüzar əlaqələri dəstəklədiyinə görə prezident Heydər Əliyevə komissiyanın Azərbaycan tərəfi adından təşəkkürünü bildirdi. Prezident Heydər Əliyev vurğuladı ki, Ukrayna ilə Azərbaycan arasındakı münasibətlər dostluq, qardaşlıq münasibətləridir və strateji tərəfdaşlıq xarakteri daşıyır. Bu, gəlişi gözəl sözlər, ümumi ifadələr deyildir, bütün bunlar realdır. Bir çox məsələlərdə ölkələrimizin mövqeləri uyğun gəlir, beynəlxalq təşkilatlarda, MDB, GUÖAM çərçivəsində fəal əməkdaşlıq həyata keçirilir. Ukraynanın ictimai-siyasi həyatında, iqtisadiyyatında baş verən prosesləri Azərbaycanda çox diqqətlə izləyirlər. Çünki demokratiya yolu ilə irəliləməkdə, iqtisadi, sosial islahatların aparılmasında Ukraynanın qazandığı uğurlar mövcud tərəfdaşlıq münasibətləri baxımından ölkəmiz üçün də çox vacibdir.

Ölkələrimizin prezidentləri beynəlxalq məclislərdə müxtəlif məsələlər barəsində daim fikir mübadiləsi aparırlar. Azərbaycan ilə Ukrayna arasında indiki münasibətlərin qaynaqları

Ukrayna və Azərbaycan xalqlarının dostluğu ilə bağlıdır və bu dostluq müstəqillik illərində yeni keyfiyyət kəsb etmişdir. Ölkələrimiz öz müstəqilliyini çox fəal surətdə qoruyur və möhkəmləndirir.

Prezident Heydər Əliyev bildirdi ki, bu sahədə istər Azərbaycanda, istərsə də Ukraynada bir sıra çətinliklər də var. Dövlətimizin başçısı vurğuladı ki, bu baxımdan hökumətlərarası komissiyanın fəaliyyəti iki prezidentin həyata keçirdikləri böyük siyasi, iqtisadi işlərə sanballı köməkdir.

Ukrayna Baş nazirinin birinci müavini Oleq Dubina «Üç dənizin əfsanəsi» beynəlxalq konfransında Azərbaycan prezidenti Heydər Əliyevin parlaq çıxışından danışaraq, bu anlayışı genişləndirib Baltik dənizi ilə tamamlamağı təklif etdi.

Azərbaycan prezidenti Heydər Əliyev bu təşəbbüsü dəstəkləyərək dedi ki, o, həmin məsələni prezident Leonid Kuçma ilə hərtərəfli müzakirə etmişdir və hər iki tərəf onun gündəliyə çıxarılmasına yaxındır.

Oleq Dubina bildirdi ki, hökumətlərarası komissiyanın hazırkı iclasında Ukrayna tərəfinin irəli sürdüyü Odessa–Brodı boru kəməri layihəsinə baxmaq üçün GUÖAM çərçivəsində qrup yaradılması haqqında qərar qəbul olunmuşdur. Azərbaycan buna dəstək verərsə, Ukrayna hökuməti bu variantı nəzərdən keçirməyə hazırdır. Ukrayna Baltik dənizinə çıxmaq üçün Brodı–Qdansk boru kəmərinin inşası haqqında Polşa tərəfi ilə yaxın gələcəkdə saziş imzalamaq niyyətindədir. Bu layihənin həyata keçirilməsində Avropa Birliyi də maraqlıdır və ona görə də boru kəmərinin strateji cəhətdən vacibliyinə tezliklə zəmanət verəcəkdir. Ukraynanın səyləri, ilk növbədə, Avropa Birliyinə inteqrasiyanın genişləndirilməsi barədə prezident Leonid Kuçmanın hökumətə verdiyi göstərişlərlə

bağlıdır. Oleq Dubina «Avropaya birlikdə daxil olmaq üçün» bu nəhəng layihəni GUÖAM çərçivəsində birgə fəaliyyətlə əlaqələndirməyi təklif etdi.

Azərbaycan prezidenti bu layihənin vacibliyini söyləyərək bildirdi ki, hələ Yalta zirvə toplantısında Ukrayna prezidenti Leonid Kuçma Baltikyanı ölkələrin nümayəndələri ilə görüş-müşdür. Bu görüşdən əsas məqsəd Qara dəniz və Baltik dənizi iqtisadi əməkdaşlığının birləşdirilməsinə yardım etmək idi. Prezident Heydər Əliyev Ukraynanın və şəxsən Leonid Kuçmanın bu layihənin həyata keçirilməsinə yönəldilmiş səylərini dəstəklədiyini bildirdi.

Oleq Dubina Ukrayna nümayəndə heyəti adından Ukrayna rəssamı Qriqori Lısenkonun əsərini Azərbaycan dövlətinin başçısına hədiyyə etdi.

ÖLKƏMİZDƏ 2002/2003-cü TƏDRİS İLİNDƏ ALİ MƏKTƏBLƏRƏ ƏN YÜKSƏK BALLA DAXİL OLMUŞ TƏLƏBƏLƏRLƏ GÖRÜŞDƏ NİTQ

Prezident sarayı

30 avqust 2002-ci il

Azərbaycanda test üsulu ilə ali məktəblərə qəbul artıq on ildir ki, aparılır və hər il biz bunun müsbət nəticəsini görürük. Müsbət nəticəsi olduğu üçün də biz bu üsulu dəstəkləyirik və onun Azərbaycanda davam etməsi üçün lazımi imkanlar yaratmışıq və yaradacağıq. Biz ali məktəblərə qəbul ilə əlaqədar keçmişdə də çox üsullardan istifadə etmişdik ki, qəbul ədalətli olsun, ancaq biliyi olanlar ali məktəblərə qəbul edilsinlər. Ancaq təəssüflər olsun ki, o vaxtkı tədbirlər istənilən nəticəni verməmişdir. Test üsulu onlara nisbətən xeyli mütərəqqi üsuldur. Əgər hər bir abituriyentin bilik səviyyəsini tam təyin edə bilməsə də, müqayisədə bütün başqa üsullara nisbətən daha müvəffəqiyyətlə təyin etməkdə öz nəticəsini verir. Ancaq bu o demək deyildir ki, bu üsulun qüsurları yoxdur. Ona görə də mən hesab edirəm ki, gələcəkdə də bu üsuldan istifadə edərək, onun həyata keçirilməsində olan qüsurları aradan qaldırmaq lazımdır. Bu üsulu getdikcə təkmilləşdirmək lazımdır. Güman edirəm ki, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası bu barədə lazımi işlər görəcəkdir. Yəni

bu komissiya da, heç kəs də belə düşünməməlidir ki, indi bu sahədə hər şey ideal vəziyyətdədir.

Bəli, bütün başqa üsullara görə burada biz daha da doğru-düzgün nəticələr alırıq. Ancaq yenə də deyirəm, qüsurlar da, çatışmazlıqlar da var. Həm üsulun özü təkmilləşdirilməlidir, həm də onun həyata keçirilmə təcrübəsi təkmilləşdirilməlidir. Yəni onun həyata keçirilməsində buraxılan səhvlər və nöqsanlar aradan qaldırılmalıdır. Hər halda, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası öz işini tamamilə yekunlaşdıranda hər şeyi çox «çəhrayı» rənglərlə göstərməməlidir. Həm nailiyyətləri, həm də nöqsanları göstərməlidir. Nöqsanları aşkar etməlidir, axtarmalıdır və onları aradan qaldırmaq üçün lazımi tədbirlər görməlidir.

Burada Məleykə xanımın verdiyi məlumat, hesab edirəm ki, ilkin məlumatdır. Düşünürəm ki, siz indi bu ilkin məlumatla ictimaiyyəti tanış edəndən sonra gərək daha da dərindən təhlil aparasınız. Bir-iki məsələ var. Siz dediniz ki, bu il ali məktəblərə daxil olmaq istəyənlərin sayı keçən illə müqayisədə 50 faiz azalıbdır. Elədirmi?

M ə l e y k ə A b b a s z a d ə: Keçən il 87 min gənc sənəd vermişdi. Bu il onların sayı 30 min azalıbdır.

H e y d ə r Ə l i y e v: 30 min azalıbdır. Yəqin bunun obyektiv səbəbləri var. Bunların hamısını araşdırmaq lazımdır. Yəni, bu rəqəmləri verəndə, onları izah etmək lazımdır. Çünki ötən il ali məktəblərə sənəd verənlərin sayı 87 min idisə, bu il həmin rəqəm 30 min azalıbsa, biz bu barədə düşünməliyik: bu reallıqdırmı və ya reallıq deyilmi? Yaxud hansısa bir meyl əmələ gəlibdir? Mən indi bunun dərinliyinə getmək istəmirəm, hesab edirəm ki, siz bunu anlayırsınız. Bunların hamısının cavabı verilməlidir ki, nə üçün belə vəziyyət yaranıbdır.

Sonra siz dediniz ki, keçən ilə nisbətən yüksək göstəricilərin sayı da azalıbdır. Elədirmi?

Məleykə Abbaszadə: Elədir.

Heydər Əliyev: Bu, əvvəl dediyimə nisbətən bizi daha da narahat edən məsələdir. Əvvəl dediyimin bəlkə də obyektiv səbəbləri ola bilər. Amma nə üçün keçən ilə nisbətən yüksək nəticə göstərənlərin sayı azalmış olsun? Yaxud da ki, mən belə başa düşdüm ki, imtahan verənlərin içərisində də o yüksək nəticələrlə orta məktəbi qurtarmış adamların sayı azalıbdır. Sizin nəticələrə, imtahanların nəticələrinə görə azalıbdır. Elədirmi?

Məleykə Abbaszadə: Elədir.

Heydər Əliyev: Hər halda, bu, narahatedici haldır. Nə üçün? Bu elə bizim orta məktəblərin işinin göstəricisidir. Bu, orta məktəblər, Təhsil Nazirliyi üçün siqnal olmalıdır. Bütün bu təhlillər, geniş araşdırmalar ona görə lazımdır ki, biz həqiqəti bilək, mənzərəni düzgün təsəvvür edək, yaxud da ki, görək. Bu bir də ona görə lazımdır ki, bu vəziyyətdən irəli gələn məsələləri həll edək. Bunların əksəriyyəti, bu məsələlərin həll edilməsi Təhsil Nazirliyinin üzərinə düşür. Ona görə də siz öz təhlillərinizin nəticəsində Təhsil Nazirliyinə çox geniş, ədalətli, doğru, düzgün material verməlisiniz. Onlar da bunun əsasında öz işlərində lazımi dəyişikliklər etməlidir, zəruri tədbirlər görməlidirlər.

Ona görə də mən hesab edirəm ki, siz müfəssəl təhlildən sonra bizə də, yəni mənə də geniş məlumat göndərəcəksiniz. O məlumata mən də baxım – görürəm indi sən mənə nə isə vermək istəyirsən, amma hesab edirəm ki, təhlil gərək ondan da dərin olsun. Mən bunun əsasında Təhsil Nazirliyinə, başqa nazirliklərə göstəriş verməliyəm. Düşünürəm ki, heç

mənim göstərişim olmadan da, bu ilin nəticələri ilə əlaqədar olaraq Təhsil Nazirliyi lazımi tədbirlər görməlidir. Ancaq eyni zamanda hesab edirəm ki, mən də bu barədə göstərişlər verməliyəm. Bəlkə bəzi məsələləri Təhsil Nazirliyi özü həll edə bilməyəcək, başqa təşkilatlar bu məsələlərin həllinə qoşulmalıdır. Bilirsinizmi, orta məktəb həyatımızın əsas sahələrindən biridir. Bu, xalqımızın gələcəyi ilə bağlı məsələdir. Orta məktəblərdə nə qədər uşaq oxuyur?

Misir Mərdanov (*Təhsil naziri*): 1 milyon 700 min uşaq oxuyur.

Heydər Əliyev: 1 milyon 700 min uşaq oxuyur. Bu il onların nə qədəri məktəbi qurtarıbdır?

Misir Mərdanov: Azərbaycan bölməsini 51 min uşaq qurtarıbdır.

Heydər Əliyev: 51 min uşaq məktəbi bitiribdir. Bu 51 min uşağın biliyi hansı səviyyədədir, başa düşürsünüzmü? İndi biz iddia etmirik ki, orta məktəbi bitirənlərin hamısı ali məktəblərə daxil olmalıdır. Yox! Bu barədə heç o planın süni surətdə yerinə yetirilməsinə də ehtiyac yoxdur, Bunu bilin. Amma bilməliyik ki, bizim məktəblər uşaqlarımıza orta məktəb səviyyəsində nə qədər keyfiyyətli təhsil verir. Əgər uşaq orta məktəb səviyyəsində yaxşı təhsil alırsa və orta məktəbi yaxşı biliklə, orta məktəb həcmində savadla bitirirsə, onun sonra öz həyatını harada davam etdirməsi o qədər də əsas deyildir. Ali məktəbə getmək istəyən və orada yarışda özünə uğur qazana bilən ali məktəbdə oxuyacaqdır. Amma heç getmək istəməyən, getməsin. Azərbaycanın müxtəlif sahələrində gedib işləyəcəkdir. Keçmişdəki kimi hökm deyildir ki, gənclərin hamısı ali təhsilli olsun. Burada süni surətdə heç bir şey etmək lazım deyildir.

Ancaq yenə də deyirəm, biz orta məktəblərimizin səviyyəsini bilməliyik və onu ilbəil yüksəltməliyik. Amma sizin verdiyiniz məlumatlardan mən belə başa düşdüm ki, bu il göstəricilər ötən ilə nisbətən aşağı düşübdür. Deməli, Təhsil nazirimiz bundan ciddi nəticə çıxarmalıdır. Nazirlik çox ciddi nəticələr çıxarmalıdır. Ümumi nəticə yox, ümumi sözlərlə yox. Baxmalıdır, hansı məktəbdə təhsilin səviyyəsi aşağı düşübdür, hansında yox. Məsələn, burada ən yüksək nəticələr əldə etmiş uşaqların hansı məktəblərdə oxumasını mən eşidəndə, görürəm ki, bunların elə bir qismi müəyyən bir qrup məktəblərdə oxuyubdur. Amma eyni zamanda, əgər Oğuz rayonundakı orta məktəbdən gəlib belə yüksək qiymətlə ali məktəbə daxil olubsa, yaxud da ki, Biləsuvardakı çadır şəhərciyindəki məktəbdə oxuyan uşaq belə yüksək göstərici ilə ali məktəbə daxil olubsa, demək, o məktəbdə təhsil yüksək səviyyədədir. Amma indi baxın görün, nə qədər məktəblər olacaq ki, oradan bir nəfər də ali məktəbə daxil olmayıbdır. Güman edirəm ki, ərizə verənlərin içərisində bütün məktəblər təmsil olunubdur. Elədirmi? Amma baxmaq lazımdır ki, hansı məktəblərdən nə qədər gənc ali məktəblərə daxil olubdur.

Xatirimdədir, 2-3 il bundan qabaq mənə deyirdilər ki, Sumqayıt məktəbləri – xüsusilə orada 2-3 məktəbin adını çəkirdilər, məzunlarının çoxu uğurla ali məktəblərə daxil olur. Deməli, məktəbdə, ümumiyyətlə, iş yaxşı qurulubdur. Bu təkcə Sumqayıtda deyil, vaxtilə Bakıda da belə məktəblər vardı. Təəssüflər olsun ki, Bakıda belə məktəblərin sayı azalıbdır.

İndi, bu dəqiqə məni daha çox narahat edən nə qədər gəncin ali məktəblərə qəbul olunub-olunmaması deyildir. Məni narahat edən indi bizim universitetlərdə təhsil səviyyəsinin nə dərəcədə olması da deyil, baxmayaraq ki, orada da çoxlu qüsurlar var. Məni narahat edən ümumi təhsil, yəni bizim

gənclərin ilkin təhsili, orta məktəblərdəki vəziyyət, orta məktəbin verdiyi təhsil və bu məktəbləri qurtaran uşaqların bilik səviyyəsidir. Məni narahat edən budur. Bu, ümumiyyətlə, bizim xalqın bilik səviyyəsini göstərir. Çünki çox yüksək nəticələr əldə edən ayrı-ayrı insanlar, yaxud da ki, tələbələr, elmi işlə məşğul olanlar hələ xalqın, millətin ümumi bilik səviyyəsini göstərə bilməz. Onun göstəricisi ola bilməz. Bu göstərici orta məktəblərdədir.

Sən o məlumatı mənə vermək istədin, eybi yoxdur, verərsən, baxaram, deməyəsən ki, mən onu qəbul etmədim. Ancaq əvvəlcədən deyirəm ki, mənim bu sözlərimlə əlaqədar siz əlavə işlər görməlisiniz.

Bizim məqsədimiz müstəqil Azərbaycanın gələcəyi üçün daha bilikli, zəkalı gənclər hazırlamaqdır. Siz indi ali məktəblərə daxil olan bütün gənclərin nümayəndələrisiniz. Siz Azərbaycanın gələcəyini təmin edən insanlar olacaqsınız. Ona görə də ali məktəbdə təhsilə münasibətiniz və təhsilinizin nəticələri sizə ölkəmizin həyatında lazım olan yeri tutmağa imkan verəcəkdir və siz özünüz də öz həyatınızı istədiyiniz kimi qura biləcəksiniz. Eyni zamanda xalqımıza da, ölkəmizə də fayda verəcəksiniz. Sizin qarşınızda duran vəzifə bundan ibarətdir. Ona görə mən sizə və ali məktəbə daxil olmuş bütün bu ilki tələbələrə, təkcə daxil olanlara yox, ali məktəbdə oxuyanlara da arzu edirəm ki, daha da yaxşı çalışın, daha çox bilik alın, daha çox fədakarlıq göstərin. Bax, buradakı uşaqların bu qədər yüksək bal toplamasının, təbiidir ki, səbəbi, birincisi, o məktəblərdə tədrisin yaxşı qurulmasıdır. Amma əsas uşaqların özləridir. Birincisi, onların hər birinin fərdi istedadı, ikincisi, dərsə və təhsil almağa münasibətidir. İndi bunların dərs keçdikləri siniflərdə, ola bilər, kimlərsə orta məktəbi aşağı

qiymətlərlə bitiriblər. Yaxud da ki, heç bitirə bilməyiblər. Amma bunların sinfində yəqin ki, təhsil yüksək səviyyədəymiş ki, bu qədər yüksək bal toplaya biliblər.

Ona görə də yaxşı oxumaq birinci növbədə hər bir fərdin özündən asılıdır. Mən bu baxımdan bizim bütün tələbələrə – bu il ali məktəblərə daxil olanlara, ali məktəblərdə təhsil alanlara müraciət edirəm: vaxtınızı boş keçirməyin. Bilin, ali məktəb illərində, universitet illərində keçirdiyiniz dövr – biz bu dövrləri yaşamışıq, ona görə də mən bunu mücərrəd şəkildə demirəm, həyat görmüş adam kimi deyirəm, o illəri siz sonra xatırlayacaqsınız – həyatınızın ən parlaq illəri olacaqdır. Əlbəttə ki, əgər siz o illərdən səmərəli istifadə etsəniz. Ona görə də mən sizi tələbəlik illərindən səmərəli istifadə etməyə, çalışıb maksimum bilik almağa çağırıram. İndi hər bir gəncin bilik alması üçün çox geniş imkanlar var. Vaxtilə təhsil almaq üçün mənbə ayrı-ayrı kitablar idi. İndi texnika, texnologiya bilik almaq üçün nə qədər yeni imkanlar yaradıbdır. Müasir dünyada bilik almaq üçün o qədər geniş imkanlar yaranıbdır ki, buradan hər kəs özü üçün nə istəyirsə götürə bilər. Amma buna maraq, istək olmalıdır. Mən arzu edirəm ki, sizdə belə maraq, belə istək olsun.

Bir də deyirəm, indi Azərbaycanın ali məktəblərində təhsil alan gənclər, siz ölkəmizin gələcəyisiniz. Özü də yaxın gələcəyi yox, uzaq gələcəyisiniz. Azərbaycan gələcəkdə sizin kimi gənclərdən formalaşmış insanların çiyinlərində yaşayacaqdır, inkişaf edəcəkdir. Mən də arzu edirəm ki, Azərbaycanın müstəqilliyi, Azərbaycanda həyata keçirilən iqtisadi siyasət davam etsin, Azərbaycan müstəqil dövlət kimi daim uğurla yaşaya bilsin. Xalqımızın rifah halı, həyatı gündən-günə yaxşılaşsın. Bunun üçün də çalışmaq lazımdır, fədakarlıq göstər-

mək lazımdır və sizin kimi gənclər özlərini gələcəyə hazırlamalıdırlar.

Mən sizə və bütün gənclərə, bütün tələbələrə Azərbaycanın gələcəyi ilə əlaqədar böyük ümidlərlə baxıram. Ona görə sizə cansağlığı və yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

MÜASİR DÖVRÜN GÖRKƏMLİ SƏNƏTKARI QALİNA PAVLOVNA VİŞNEVSKAYAYA

Hörmətli Qalina Pavlovna!

Qalina Vişnevskaya Opera mahnı Mərkəzinin açılışı münasibətilə Sizi təbrik edirəm. Yaratdığınız bu nadir mədəni-təhsil kompleksinin işində Sizə böyük uğurlar arzu edirəm.

Opera sənətinin zəngin ənənələrinin qorunub saxlanması və yayılmasında göstərdiyiniz çoxşaxəli fəaliyyət həmişə pərəstişkarlarınız və Sizi sevənlər tərəfindən böyük maraqla qarşılanmışdır. Opera sənətinin canlı əfsanəsi kimi, Siz nəinki dünya mədəniyyətinin qızıl fonduna daxil olan əsərlər yaratmısınız, eləcə də rus mənəviyyatının dirçəldilməsi, rus mədəniyyətinin daha böyük nailiyyətlər qazanması üçün bir çox konkret layihələr həyata keçirmisiniz. Əmin olduğumu bildirirəm ki, Sizin bu layihəniz də böyüməkdə olan nəslin böyük sənətlə yaxından təmasına imkan verəcək, Rusiyanın musiqi mədəniyyətinin şöhrətinə layiq istedadlar yetirib üzə çıxaracaqdır.

Ən xoş arzularımla,

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *31 avqust 2002-ci il*

BAKININ SURAXANI RAYONUNDAKI 275 NÖMRƏLİ MƏKTƏBDƏ BİLİK GÜNÜNƏ VƏ YENİ DƏRS İLİNİN BAŞLANMASINA HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ

2 sentyabr 2002-ci il

Bilik günü və yeni dərs ilinin başlanması münasibətilə Bakının Yeni Günəşli yaşayış sahəsindəki bayramsayağı bəzədilmiş məktəbin həyətinə yüzlərlə şagird, müəllim, valideyn toplaşmışdı. Onlar əllərində Azərbaycan prezidentinin portretlərini, respublikamızın dövlət bayraqlarını tutmuşdular.

Mərasimə toplaşanlar prezident Heydər Əliyevi hərarətli alqışlarla qarşıladılar.

Şagirdlər dövlətimizin başçısına gül-çiçək dəstələri təqdim etdilər.

Prezident Heydər Əliyev məktəblə tanış oldu. Məktəbin direktoru Telman Qardaşov dövlətimizin başçısına bu tədris ocağı haqqında məlumat verərək dedi ki, 275 nömrəli məktəb Yeni Günəşlidə tikilən ilk təhsil ocağıdır. Bu il məktəbdə 2450 şagird elmlərin əsaslarına yiyələnəcək, onların təlim-tərbiyəsi ilə 200 müəllim məşğul olacaqdır. Məktəbdə kimya, biologiya, fizika, riyaziyyat təmayül fənləridir və onların tədrisi sayəsində zəngin təcrübə toplanmışdır. İkinci sinifdən başlayaraq məktəbdə ingilis dili tədris olunur. Məktəbdə müasir kompüterlərlə təchiz olunmuş informatika kabinetləri vardır. İnformatika fənnini yüksək ixtisaslı müəllimlər tədris edirlər.

Azərbaycan prezidenti müəllimə Aygün Əzizovanın informatikadan dərs keçdiyi kabinetdə oldu. Müəllimə dövlətimizin başçısına bildirdi ki, burada kompüterlər vasitəsilə ayrı-ayrı fənlərlə əlaqə yaradılır. Hər kompüterdə müxtəlif fənlər sayt şəklində qoyulmuşdur. Kompüterdə müvafiq testlər də var. Onlar hələlik daha çox rus və ingilis dillərindədir. Azərbaycanın öz resursları azdır. Hər fənn müəllimi kompüter vasitəsilə tədrisin genişləndirilməsinə əlindən gələn köməyi edir.

Prezident Heydər Əliyev sonra məktəbin tarix kabinetində oldu. Dövlətimizin başçısına məlumat verildi ki, məktəbin tarix müəllimi Kifayət Məmmədova X sinif üçün «Azərbaycan tarixi» dərsliyinin müəlliflərindən biridir. O, müəllimlər arasında keçirilən müsabiqələrin qalibi olmuşdur, Azərbaycanın qədim tarixini şagirdlərə yüksək peşəkarlıqla öyrədir.

Azərbaycan prezidenti Heydər Əliyev XI siniflər üçün «Azərbaycan tarixi» dərsliyini vərəqlədi.

Heydər Əliyev: Bu dərsliyi bu il almısınız?

Kifayət Məmmədova: Bəli.

Heydər Əliyev: Burada Azərbaycan tarixinin hansı dövrü əhatə olunubdur?

Kifayət Məmmədova: 1917-ci ildən 2000-ci ilə qədər olan dövrü.

Heydər Əliyev: Bəs 2000-ci ildən sonrakı dövr?

Kifayət Məmmədova: O dövr dərsliyin növbəti nəşrində əlavə ediləcəkdir.

Heydər Əliyev: Tarix fənni hansı siniflərdən başlayaraq tədris olunur?

Misir Mərdanov (*Təhsil naziri*): Məktəblərimizdə Azərbaycan tarixi V sinifdən başlayaraq tədris olunur. VI

sinifdən isə ümumi tarix fənni tədris olunmağa başlayır. Bütün kitablar həm Azərbaycan dilində, həm də rus dilində var.

H e y d ə r Ə l i y e v: Bəs 2002-ci ilin dərsliyi nə üçün yoxdur?

F a t m a A b d u l l a z a d ə (*Prezidentin İcra Aparatının şöbə müdiri*): İlin sonuna qədər buraxılacaqdır.

Məktəblə tanışlıq zamanı Azərbaycan prezidentinə məlumat verildi ki, bu il burada 9 birinci sinifdə 195 şagird təhsil alacaqdır. Birinci siniflər də daxil olmaqla, bütün ibtidai sinif şagirdləri Azərbaycan prezidenti Heydər Əliyevin hədiyyəsi olan yeni dərsliklərlə təmin edilmişlər. İndiyədək ibtidai sinif şagirdləri sinifdənxaric oxu üzrə dərs vəsaitinin olmamasından çətinliklərlə üzləşirdilər. Yeni dərs ilindən bu problem öz həllini tapmışdır. Belə ki, «Ana sözü» adlı vəsait hazırlanmış və şagirdlərin ixtiyarına verilmişdir.

Azərbaycan prezidenti məktəbin qabaqcıl müəllimi Bahar Əliyevanın dərs dediyi 1 «a» sinfində də oldu. Dövlətimizin başçısına bildirildi ki, bu sinfin şagirdləri təlim-tərbiyədə həmişə nümunə olurlar.

Sinfin şagirdləri dövlətimizin başçısını sevinclə, «Heydər baba, məktəbimizə xoş gəlmisiniz!» sözləri ilə qarşıladılar.

H e y d ə r Ə l i y e v: Sağ olun, əyləşin. Siz birinci sinfə gəlmisiniz?

U ş a q l a r: Bəli.

H e y d ə r Ə l i y e v: Oxumaq istəyirsinizmi?

U ş a q l a r: Bəli.

H e y d ə r Ə l i y e v: Yaxşı oxuyacaqsınızmı?

U ş a q l a r: Bəli.

H e y d ə r Ə l i y e v: Bunların nə gözəl səsləri var. Neçə yaşınız var?

U ş a q l a r: Altı, yeddi...

H e y d ə r Ə l i y e v: Altı, yeddi. Kimin altı yaşı var, əlini qaldırsın.Kimin yeddi yaşı var? Bəs sənin neçə yaşın var? Adın nədir?

U ş a q: Mənim beş yaşım var. Adım Turaldır.

H e y d ə r Ə l i y e v: Yaxşı oxuyacaqsanmı?

T u r a l:Bəli.

H e y d ə r Ə l i y e v: Bu hərfləri bilirsənmi?

T u r a l: Bəli.

H e y d ə r Ə l i y e v: Uşaqlar, yaxşı oxumağa söz verirsinizmi?

U ş a q l a r: Bəli.

H e y d ə r Ə l i y e v: Nadinclik etməyəcəksiniz ki?

U ş a q l a r: Xeyr, yox.

H e y d ə r Ə l i y e v: Müəllimin sözünə qulaq asacaqsınızmı?

U ş a q l a r: Bəli.

H e y d ə r Ə l i y e v: Yaxşı, çox sağ olun. Mən sizin hamınıza uğurlar arzulayıram.

U ş a q l a r: Çox sağ olun, Heydər baba.

Sonra Azərbaycan prezidenti məktəbin 1 «b» sinifində oldu. Dövlətimizin başçısına bildirildi ki, valideynlərin çoxu uşaqlarının Brilyant Əmirovanın dərs dediyi bu sinfə qəbul edilməsini istəyirlər.

Prezident Heydər Əliyev məktəbin Azərbaycan dili və ədəbiyyatı, biologiya kabinetlərində şagirdlərlə görüşdü, onları yeni dərs ilinin başlanması münasibətilə təbrik etdi, sonra isə rus bölməsinin Svetlana Zeynalovanın dərs dediyi 1-ci sinfində də oldu. Prezident Heydər Əliyev ön cərgədə oturan uşaqların birindən soruşdu: Adın nədir?

– Kazım Abdullayev.

H e y d ə r Ə l i y e v: Niyə səni rus bölməsinə qoyublar?

K a z ı m A b d u l l a y e v: Ona görə ki, hər iki dili yaxşı öyrənim.

Prezident Heydər Əliyev həmin sinifdəki Dianadan soruşdu: Sənin atanın adı nədir?

D i a n a: Oleqdir.

H e y d ə r Ə l i y e v: Bəs ananın adı nədir?

D i a n a: Lianadır.

H e y d ə r Ə l i y e v: Atan nə işləyir?

D i a n a: Atam fəhlədir.

H e y d ə r Ə l i y e v: Anan harada işləyir?

D i a n a: Anam kafedə işləyir.

H e y d ə r Ə l i y e v: Azərbaycan dilini bilirsənmi?

D i a n a: Bəli.

* * *

Dövlətimizin başçısına bildirildi ki, burada azərbaycanlılarla yanaşı, rus, yəhudi və başqa millətlərdən olan uşaqlar təhsil alırlar.

Sonra yeni dərs ilinin başlanmasına həsr olunmuş təntənəli mərasim oldu. Mərasimi məktəbin direktoru Telman Qardaşov açdı.

Azərbaycan prezidenti Heydər Əliyev mərasimdə nitq söylədi.

Əziz uşaqlar!

Əziz məktəblilər!

Hörmətli müəllimlər!

Sizi və Azərbaycanın bu gün dərsə başlayan bütün uşaqlarını, bütün müəllimlərini ölkəmizdə yeni dərs ilinin başlan-

ması münasibətilə ürəkdən təbrik edirəm, Azərbaycanın təhsilinə yeni-yeni uğurlar arzulayıram.

Burada məktəb nümayəndələrindən iki nəfər də çıxış etməli idi. Ancaq mən onlardan üzr istəyirəm ki, xahiş etdim, mənə söz verilsin. Çünki hava istidir. Sizin hamınız da günün altında durmusunuz. Sizin günün altında dayanmağınıza mənim ürəyim dözmür.

Baxmayaraq ki, hava, günəş və su uşaqları sağlam, möhkəm edir, amma bu gün siz məktəbə gəlmisiniz. Siniflərdə olmalısınız, gün altında bu qədər durmamalısınız. Mən nə edim, burada mənim günahım yoxdur. Bunu sizin məktəbin direktoru, başqa təşkilatçı adamlar ediblər. Hər halda, nə qədər isti olsa da, günəş hər birimizi nə qədər artıq yandırsa da, buna həmişə dözmüşük və dözəcəyik. Çünki Azərbaycanın bu günü və gələcəyi üçün çalışmaq, əziyyət çəkmək və birinci növbədə təhsil almaq lazımdır.

Əziz uşaqlar, sizin hamınız xoşbəxt insanlarsınız. Çünki həyatınızın ən gözəl dövrünü, orta məktəb dövrünü yaşayırsınız. Kimsə bu gün XI sinifdə oxuyur, bu il məktəbi bitirəcəkdir və kimsə də məktəbə ilk addımlarını atıbdır, birinci sinifdə oturubdur. Mən indi sizin məktəbin siniflərini gəzərkən, onlara baxarkən həm bu gün məktəbə ilk dəfə gələn uşaqlarla, həm də yuxarı siniflərdə oxuyan uşaqlarla görüşdüm. Nəhayət, XI sinifdə təhsil alıb bu il məktəbi bitirməyə hazırlaşanlarla da... Sizin hamınız xoşbəxtsiniz. Ona görə ki, Azərbaycanın müstəqillik dövründə yaşayırsınız. Müstəqil Azərbaycanda təhsil alırsınız. Öz xalqınıza, öz vətəninizə, öz millətinizə xidmət etmək məqsədi ilə təhsil alırsınız və özünüzü həyata hazırlayırsınız. Bütün bu işlərdə, əziz balalarımız, sizə uğurlar arzulayıram. Canınız sağlam olsun, yaxşı

oxuyun, məktəb illərinizi səmərəli keçirin, yaxşı təhsil alın və gələcəkdə Azərbaycanın etibarlı, dəyərli vətəndaşları olun.

Bu, birinci növbədə, sizin özünüzdən asılıdır. Sizin hamınız uşaqlıq dövründən düşünməlisiniz ki, Azərbaycanın dəyərli vətəndaşı olacaqsınız. Azərbaycana, öz vətəninizə xidmət edəcəksiniz. Öz həyatınızı xoşbəxt, firavan, rahat Azərbaycan şəraitində quracaqsınız.

Bu, eyni zamanda, sizə dərs verən, sizi tərbiyələndirən müəllimlərdən asılıdır. Ona görə mən bu gün həm sizin məktəbin müəllimlərinə, həm də Azərbaycanın bütün müəllimlərinə tövsiyə edirəm ki, onlar öz vəzifələrini daim şərəflə yerinə yetirsinlər.

Bizim həyatımızda müəllimlik ən hörmətli peşədir. Müəllim cəmiyyətimizdə görkəmli yer tutur. Müəllimə hamı hörmət edir və hörmət etməlidir. Çünki sizi də və keçmişdə bizi də həyata hazırlayan, böyüdən və bu günlərə çıxaran müəllimlər olubdur. Mən öz müəllimlərimə daim minnətdar olmuşam, bu gün də minnətdaram və ümid edirəm ki, siz də müəllimlərinizi sevəcəksiniz, müəllimlərinizə hörmət edəcəksiniz. Müəllimlərinizdən maksimum bilik almağa çalışacaqsınız. Ancaq müəllimlər də sizə böyük qayğı ilə yanaşacaqlar. Sizə yaxşı təhsil verəcəklər, dərs saatlarını səmərəli kecirəcəklər. Beləliklə, məktəb öz nəticəsini verəcəkdir.

Mən buraya gələrkən Azərbaycan məktəbinin bir neçə problemi ilə maraqlandım.

Baxmayaraq ki, mən bununla daim maraqlanıram. Ancaq dəqiq məlumatlar almaq istədim. Mən burada demək istəyirəm – bəlkə də bu, uşaqlara o qədər də aid deyildir – biz Azərbaycanda məktəblərin inkişafı üçün ciddi tədbirlər görməliyik. Mən bu gün bəyan edirəm ki, bu yaxın zamanlarda

Azərbaycan məktəb tikintisi, məktəblərin müasir avadanlıqla təmin olunması, təmir edilməsi ilə əlaqədar ciddi tədbirlər haqqında öz təkliflərimi irəli sürəcəyəm. Düşünürəm ki, biz bu sahəyə daha da çox qayğı göstərməliyik. Baxmayaraq ki, Azərbaycan büdcəsinin təxminən 22 faizi, deməli, beşdə bir hissəsindən çoxu – bir trilyon manatdan artıq vəsait təhsilə ayrılır. Bu, yenə də çatmır. Demək, biz düşünməliyik. Eyni zamanda, təhsilə ayrılan vəsaitdən də, təəssüflər olsun ki, bəzi yerlərdə səmərəli istifadə olunmur.

Müəllimlərin maaşlarının artırılması ilə biz ardıcıl surətdə məşğul olmuşuq. 1996-cı ildən indiyə qədər Azərbaycanda müəllimlərin maaşı 2,8 dəfə artıbdır. 1996-cı ildə 40 faiz, 1997-ci ildə 30 faiz, 2000-ci ildə 25 faiz artıbdır. Ancaq mən hesab edirəm ki, bu da yetərli deyildir.

Biz indi gələn ilin dövlət büdcəsini hazırlayırıq. Mən təklif edəcəyəm ki, bu büdcədə müəllimlərin və ümumiyyətlə, məktəb işçilərinin maaşlarının artırılması haqqında ciddi tədbirlər görülsün. Mən ümidvaram ki, buna da nail olacağıq.

Əziz balalar!

Mənim sizə deyiləsi sözüm çoxdur. Çünki bilirsiniz ki, mən uşaqları sevirəm. Uşaqları hər kəs sevir, uşağı sevməyən adam, bilmirəm, hansı xüsusiyyətlərə malikdir. Uşağı hamı sevir. Amma hər kəs hesab edir ki, o, uşağı hamıdan çox sevir, o cümlədən də mən. Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycanın prezidenti kimi, mən bu gün haqqında yox, Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi də Azərbaycanın gənclərindən, uşaqlarından asılıdır.

Son illərdə aparılan işlər onu göstərir ki, Azərbaycanda gözəl gənc nəsil yetişir. Azərbaycanın ağıllı, zəkalı, istedadlı

uşaqları var və onlar məktəblərdə oxuyurlar. Onların hamısı Azərbaycanın gələcəyini mütləq bizdən də yaxşı təmin edəcəklər, ölkəmizi bizdən də yaxşı irəliyə aparacaqlar.

Əziz balalar, əziz gənclər, mən Azərbaycanın gələcəyi haqqında düşünərkən sizə ümid edirəm, sizə arxalanıram və Azərbaycanın parlaq gələcəyini sizdən gözləyirəm.

Əziz balalar, mən bir daha sizə cansağlığı, xoşbəxt həyat, hamınıza məktəbdə əla qiymətlərlə oxumaq arzu edirəm. Hamınıza, hər birinizə xoşbəxt gələcək arzulayıram. Sağ olun.

FRANSA BEYNƏLXALQ ƏLAQƏLƏR İNSTİTUTUNUN DİREKTORU TYERİ DÖ MONBRİAL İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

4 sentyabr 2002-ci il

H e y d ə r Ə l i y e v: Bakıya xoş gəlmisiniz. Sizi səmimi-qəlbdən salamlayıram. Mən sizinlə 1995-ci ildə Parisdə görüşdüyümü xatırlayıram. O vaxt sizi Azərbaycana dəvət etmişdim. Nəhayət, yeddi ildən sonra mənim bu dəvətimi həyata keçirirsiniz. Mən 1995-ci ildən sonra sizin ölkədə bir neçə dəfə olmuşam. Amma siz vaxt tapıb Azərbaycana gələ bilməmisiniz. Mən sizi tənqid etmirəm. Bilirəm ki, öz planlarınız var. Hər halda, hesab edirəm ki, keçmişi yada salmaq pis olmur.

T y e r i d ö M o n b r i a l: Cənab Prezident, səmimi qəbula görə minnətdarlığımı bildirirəm və Sizinlə görüşdən böyük şərəf duyduğumu söyləyirəm.

Mən bilirdim ki, Sizin çox güclü, əfsanəvi yaddaşınız var. Bunu hamı bilir. Bundan əlavə, qeyd edim ki, Sizin həm də çox incə yumor hissiniz var və onu bu gün bir daha nümayiş etdirirsiniz. Sizinlə birinci dəfə 1995-ci ildə görüşmüşük. O zaman Siz mənim bir təklifimi qəbul etdiniz. Mən bu şərəfə nail oldum. O zaman mənim təklifimlə Siz şam yeməyi zamanı fikir mübadiləsinə razı oldunuz. Bunu yaxşı xatırlayıram.

Həmin görüşdən çox təsirləndim, Sizin şəxsiyyətiniz məni həddindən çox mütəəssir etdi.

İkinci dəfə isə 1997-ci ilin fevral ayı idi. Siz mənim institutumda mühazirə oxumağa razılıq verdiniz və Azərbaycanın xarici siyasəti və beynəlxalq vəziyyəti haqqında mühazirə oxudunuz. Bu da bütün dinləyicilərin çox böyük marağına səbəb oldu. Ümid edirəm ki, Siz yenə də tezliklə Fransaya, Parisə gələcəksiniz.

H e y d ə r Ə l i y e v: Həmin görüş 1997-ci ilin fevralında yox, yanvar ayında idi.

T y e r i d ö M o n b r i a l: Cənab Prezident, Sizin doğrudan da əfsanəvi yaddaşınız bir daha təsdiqini tapır.

Mən üç gündür Azərbaycandayam. Amma elə bir təsir içərisindəyəm ki, sanki çoxdandır buradayam. 1993-cü ildən bəri Azərbaycanda gördüyünüz işlərin hamısını çox böyük heyranlıqla təsdiq etməliyəm. Sizin qarşınızda duran vəzifənin nəhəngliyini və mürəkkəbliyini çox gözəl dərk edirəm. Əlbəttə, cətinliklərin bir hissəsi də qarşılaşdığınız qaçqınlar problemindən əmələ gəlir. Amma məsuliyyətlə deməliyəm, burada olduğum müddətdə bir daha əmin oldum ki, Azərbaycanda bütün bu məsələləri həll etmək üçün çox yüksək peşəkarlığa malik insanlar var. Onlar qarşılarında duran vəzifələri həyata keçirmək üçün çalışırlar.

Cənab Prezident, məni qəbul etdiyinizə görə Sizə bir daha ürəkdən təşəkkürümü bildirirəm. Hətta düşünürəm, bəlkə burada bir qədər də qalım. Sizə söz verirəm ki, Azərbaycana bir də qayıdacağam.

H e y d ə r Ə l i y e v: İnşaallah. Sizin Azərbaycana gəlməyinizdən çox məmnunam. Mənə məlumat veriblər ki, siz burada bir neçə yerdə olmus, görüşlər keçirmisiniz. Səfir Eleonora xa-

nım da sizi daim müşayiət edir. Mən başa düşdüm ki, sizi o qədər sevir ki, müşayiət etməyi şəxsən öz üzərinə götürübdür.

T y e r i d ö M o n b r i a l: Cənab Prezident, Sizə deyim ki, əgər dünyanın bütün böyük ölkələrinə xanım Hüseynova kimi səfirlər təyin etsəniz, Azərbaycanın təbliğat məsələsi çox yüksək səviyyədə olacaqdır.

H e y d ə r Ə l i y e v: İş bundadır ki, ikinci beləsi yoxdur. Çox təşəkkür edirəm ki, bizim səfirimiz haqqında belə xoş sözlər deyirsiniz. Həqiqətən, bizim səfirimiz orada Azərbaycanı layiqincə təmsil edir.

Məni sevindirən odur ki, siz gəlib Azərbaycanı öz gözlərinizlə gördünüz. Doğrudur, bu qısa müddətdə hər şeyi görmək mümkün deyil. Ancaq gördükləriniz, habelə keçirdiyiniz görüşlər, güman edirəm, sizdə Azərbaycan haqqında düzgün təəssürat yaradıbdır. Bizim xarici siyasətimizdə əsas məqsədlərdən biri hər yerdə təkcə ölkənin rəhbərliyində yox, həm də müxtəlif təbəqələrində Azərbaycan haqqında doğru, düzgün, obyektiv, ədalətli təəssürat yaratmaqdır.

Fransa ilə Azərbaycanın əlaqələri çox yüksək dostluq münasibətləri xarakteri daşıyır. Sizə bildirmək istəyirəm ki, 1993-cü ildə Azərbaycana prezident seçiləndən iki ay sonra mənim xarici ölkəyə ilk səfərim Fransaya olubdur. Mən bunu prezidentlik bioqrafiyamda xüsusi qeyd edirəm. O vaxt sizin ölkənin prezidenti mərhum Mitteran idi. Cənab Mitteran ilə keçmişdə, mən Moskvada işlədiyim zaman bir neçə görüşümüz olmuşdu və yaxın tanışlığımız var idi. O mənim prezident seçilməyimə dərhal münasibət göstərmişdi və məni dəvət etmişdi. Mən 1993-cü ilin oktyabr ayında prezident seçildim, dekabr ayında artıq Fransada rəsmi səfərdə idim.

O vaxt prezident Mitteranla orada, Yelisey sarayında Azərbaycanla Fransa arasında ilk sənədləri imzaladıq. Ondan sonra da bu dostluq əlaqələri davam edibdir və inkişaf edibdir. Prezident Şirak ilə də bizim dərhal çox yaxşı əlaqələrimiz yarandı. Mən onunla dostluq əlaqələrimi xüsusi qiymətləndirirəm, buna çox əhəmiyyət verirəm. Təkcə bu deyil, ümumiyyətlə, Fransa ilə Azərbaycan arasında ümumi maraqlar çoxdur. Buna görə də biz əməkdaşlıq edirik. Fransanın iri neft şirkətləri Azərbaycanda bizim müqavilələrdə böyük pay alıblar, burada işləyirlər, investisiya qoyurlar və beləliklə, bizim iqtisadi əlaqələrimiz də çox inkişaf edibdir.

Prezident Şirak Ermənistan–Azərbaycan münaqişəsinin həll olunmasında xüsusi səylər göstərir. Parisdə onun iştirakı ilə biz iki prezidentin – Ermənistan və Azərbaycan prezidentlərinin görüşü keçirildi. Doğrudur, biz hələ də münaqişənin aradan qaldırılmasına nail ola bilməmişik. Amma çalışırıq. Mən bu barədə Fransanın fəaliyyətini xüsusi qeyd edirəm.

Siz bizim elm adamları ilə, yaradıcı adamlarla tanış oldunuz. Bugünkü Azərbaycanın Avropa səviyyəsinə nə qədər yaxın olduğunu, güman edirəm, gördünüz. Bu da qeyri-adi bir haldır ki, Avropaya aid olan bir ölkə kimi, Azərbaycan bu qədər inkişaf edib, Avropaya yaxınlaşıbdır. Mən Avropa dəyərlərinin Azərbaycanda bərqərar olmasını deyirəm. Biz Fransa ilə münasibətlərimizə xüsusi əhəmiyyət veririk. Bu münasibətləri bundan sonra da inkişaf etdirəcəyik.

Sizin institutunuz bu barədə bizə çox yardım edə bilər. Siz mənim orada olan görüşümü dediniz. Mən Azərbaycan haqqında çox şeyləri bəyan edəndə bəziləri bunu təəccüblə qarşılayırdılar. Çünki bunu bilmirdilər. Biz bu işi davam etdirməliyik. Güman edirəm ki, siz buradakı təəssüratlarınız haq-

qında öz institutunuzda, elmi mərkəzinizdə geniş məlumat verəcəksiniz. Sizin verdiyiniz məlumatlar mənim orada dediklərimdən daha çox təsir bağışlaya bilər. Ümidvaram ki, siz bunu edəcəksiniz.

T y e r i d ö M o n b r i a l: Əlbəttə, mən bunu mütləq edəcəyəm. Yalnız öz əməkdaşlarım, institutum qarşısında yox, başqa yerlərdə də.

Burada çoxlarına demişəm ki, bundan sonra mənim ürəyimdə Azərbaycanın xüsusi yeri olacaqdır, özü də mən deyirəm, başımda yox, məhz ürəyimdə olacaqdır.

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İMAMƏLİ RƏHMONOVA

Hörmətli Emoməli Şaripoviç!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizi və Tacikistan xalqını ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında yaranmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeləri naminə, regionda təhlükəsizliyin və sabitliyin təmin olunması naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, uğurlar, qardaş Tacikistan xalqına isə sülh və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *5 sentyabr 2002-ci il*

KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI MÜDAFİƏ KOMİTƏSİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB KİM ÇEN İRƏ

Hörmətli cənab sədr!

Ölkənizin milli bayramı – Koreya Xalq Demokratik Respublikasının yaranması günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında yaranan dostluq əlaqələri xalqlarımızın mənafeyi naminə daim genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh və tərəqqi arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLIYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *5 sentyabr 2002-ci il*

QEYDLƏR

1. Dədə Qorqud – burada «Kitabi-Dədə Qorqud» nəzərdə tutulur.

2. «Manas» – qədim qırğız qəhrəmanlıq eposu. Eposun manasçılar tərəfindən söylənilmiş 18-dən çox variantı qeydə alınmışdır. Nə vaxt yarandığı dəqiq müəyyənləşdirilməmişdir. – 5.

3. Nizami Gəncəvi, İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 5,106,187.

4. Füzuli, M ə h ə m m ə d S ü l e y m a n o ğ l u (1494–1556) – Azərbaycanın dahi şairi və mütəfəkkiri. Azərbaycan, fars və ərəb dillərində qəzəl, poema, qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan «Leyli və Məcnun» poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Kərbəlada dəfn edilmişdir. – 5.

5. Xoca Əhməd Yəsəvi (1105–1166) – böyük türk şairi. Cığatay dilində sufi şeirinin görkəmli nümayəndəsidir. – 5.

6. Mahmud Kaşğari, M a h m u d i b n ə l H ü s e y n i b n M ə h ə m m ə d ə l – K a ş ğ a r i (təqr.1029–1101) – XI əsr türk alimi, filoloq və folklorçu. Məşhur «Divanü-lüğa-it-türk» (1072–74) əsərinin müəllifi. Əsərdə türk dillərinin fonetika və morfologiyası, dialekt

xüsusiyyətləri haqqında qiymətli məlumat verilmişdir. 8000-ə yaxın leksik vahidi əhatə edən «Divan»da 26 türk dilindən nümunə verilsə də, əsas lüğət materialı 2 ədəbi dildən toplanmışdır. Birincisi, müəllifin ana dili olan Şərq türkcəsi (xaqaniyyə türkcəsi), ikincisi, oğuz türkcəsi; bunu Azərbaycan ədəbi dilinin yazıyaqədərki inkişaf mərhələsi hesab etmək mümkündür. «Divan»ın sonuna əlavə edilmiş xəritə Mahmud Kaşğari dövründə türkdilli xalqların yaşadığı ərazilərin təsvirini verən ilk xəritədir. – 5.

7. Yusif Balasaqunlu, Y u s i f B a l a s a q u n i (təqr.1018– 1086) türk şairi, alim və mütəfəkkir. Türkdilli xalqların qədim abidələrindən olan «Kitadqu bilik» «Xoşbəxtliyə aparan elm», 1069; üyğur dilində) poemasının müəllifidir. Həm bədii, həm də etik-didaktik və siyasi əsər olan bu poema 4 alleqorik surətin ideal hökmdar, dövlətin idarə olunması, qoşunun təşkili, insanın həyat və cəmiyyətdəki rolu və s. üzərində qurulmuşdur. «Kitadqu bilik»in 900 illiyi 1970-ci ildə qeyd olunmuşdur. – 5.

8. Mirzə Uluqbəy, U l u q b ə y M ə h ə m m ə d T a r a ğ a y (1394–1449) – özbək astronomu, riyaziyyatçı, Əmir Teymurun nəvəsi. 1409-cu ildə Səmərqənd hakimi elan edilmiş, atası Şahruxun ölümündən (1447) sonra Teymurçilər sülaləsinin başçısı olmuşdur. Hələ gəncliyindən elmlə maraqlanmış, ensiklopedik biliyə malik olmuşdur. Onun yaratdığı Uluqbəy rəsədxanasında tərtib edilən ulduz kataloqu dünyada ən yaxşı kataloq olmuş, Oksfordda (1665) nəşr edilmişdir. – 5.

9. Yunis İmrə – türk dünyasının dahi sənətkarlarından biri, Oğuz ellərinin ilk böyük şairidir. Türk ədəbiyyatında ilk mütəsəvviflərdən biridir. Sufizm fəlsəfəsini sadə xalq dilində, əsasən heca vəznində yazdığı qoşmalarda, gəraylılarda, ilahilərdə, eləcə də əruz vəznində yaratdıtı qəzəl və məsnəvilərdə ifadə etmiş, özündən sonra yaranan Türkiyə, Azərbaycan və türkmən ədəbiyyatlarına güclü təsir göstərmişdir. Böyük xalq şairi və filosofu olan Yunis İmrənin həyatı əfsanələrlə doludur. O nə zaman yaşamış, harada yaşamış və nə zaman ölmüş – hələ də dəqiq məlum deyildir. Hətta məzarı belə 9 yerdə göstərilir.

Son araşdırmalara görə, Yunis İmrə 1321-ci ildə yetmiş yaşında vəfat etmişdir. – 5.

10. Əlişir Nəvai, N i z a m ə d d i n M i r Ə l i ş i r (1441–1501) – özbək şairi, mütəfəkkir, dövlət xadimi. Özbək dilində «Xəmsə» yaradaraq Nizami ədəbi məktəbinin ən görkəmli davamçılarından biri kimi, Yaxın Şərqdə şöhrət qazanmışdır. – 5.

11. Məhtumqulu, M ə x t u m q u l u təxəllüsü Fəraqi (?–?) – XVIII əsr türkmən şairi. Ədəbi irsindən dövrümüzədək 10 mindən çox misra gəlib çatmışdır. Yaradıcılığında vətənpərvərlik, türkmən qəbilələrini birliyə çağırış motivləri güclüdür. – 5.

12. Abay Kunanbayev (1845–1904) – görkəmli qazax şairi, maarifçi, qazax realist yazılı ədəbiyyatının banisi. – 5.

13. YUNESKO – BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 6.

14. İtaliya, İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Radan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301 min km², əhalisi 57,5 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 7–10,282.

15. Avropa Şurasının Parlament Assambleyası (AŞPA) – 2004-cü ildə təşkil olunmuşdur. AŞPA-da 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 8.

16. İlham Əliyev, İ l h a m H e y d ə r o ğ l u (d.1961) – görkəmli ictimai-siyasi və dövlət xadimi, diplomat, siyasi elmlər doktoru, professor. 2003-cü ildən Azərbaycan Respublikasının prezidenti. Xalqımızın ümummilli lideri Heydər Əliyevin oğlu. 1994-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 1997-ci ildən birinci vitse-prezidenti. Azərbaycan Respublikasının neft strategiyasının həyata keçirilməsində mühüm xidmətləri vardır.

2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. Siyasi və dövlət xadimi kimi, İlham Əliyev beynəlxalq aləmdə böyük hörmət və nüfuz qazanmış, bir neçə ölkənin yüksək mükafatlarına layiq görülmüşdür.

Azərbaycan idmançılarının beynəlxalq yarışlarda uğurlar əldə etməsində də AMOK-un prezidenti kimi, İlham Əliyevin böyük xidmətləri var. Onun şəxsi təşəbbüsü ilə Bakıda, Naxçıvanda, Gəncədə, Şəkidə və respublikanın digər rayonlarında dünya standartlarına cavab verən böyük olimpiya kompleksləri tikilib istifadəyə verilmiş, güclü maddi-texniki baza yaradılmışdır.

İlham Əliyevin doğma Azərbaycanımızın inkişafında müstəsna xidmətləri var. Onun dövründə ölkə iqtisadiyyatı, qeyri neft sektoru sürətlə inkişaf etmiş, eyni zamanda ölkəyə qoyulan xarici investisiyalar xeyli artmışdır.

İlham Əliyev tərəfindən irəli sürülmüş «Regionların sosial-iqtisadi inkişafı haqqında dövlət proqramı»na əsasən respublikanın şəhər və rayonlarında onlarla sənaye müəssisəsi açılmış, yüz minlərlə iş yerləri yaradılmış və böyük abadlıq işləri görülür.

Ölkədə demokratik islahatlar aparılmasında, hüquqi dövlət quruculuğunda, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmlənməsində uğurlu xidmətlər göstərən İlham Əliyev Yeni Azərbaycan Partiyasının I qurultayında partiya sədrinin müavini, II qurultayında sədrin birinci müavini seçilmişdir. 2005-ci ilin martından isə Yeni Azərbaycan Partiyasının sədridir. 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin (1–2-ci çağırış) deputatı, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı olmuşdur. Azərbaycan haqqında, xüsusilə Ermənistanın ölkəmizə hərbi təcavüzü və onun nəticələri, erməni terrorizmi barədə həqiqətlərin ən mötəbər beynəlxalq təşkilatlar vasitəsilə dünya ictimaiyyətinə çatdırılmasında müstəsna xidmətləri var. «Heydər Əliyev» və Fransanın «Fəxri legionun böyük xaç komandoru» ordenləri ilə təltif olunmuş, bir çox ölkənin və beynəlxalq təşkilatların fəxri ad və mükafatlarına layiq görülmüşdür. Bir neçə xarici akademiyaların və universitetlərin fəxri üzvüdür. – 8,112.

17. Roma – İtaliyanın paytaxtı. Ölkənin siyasi, mədəni və iqtisadi mərkəzi. Dünyanın ən qədim şəhərlərindəndir. Onu «əbədi şəhər» də adlandırırlar. Ərazisində Vatikan dövləti yerləşir. Romanın adı şəhərin əfsanəvi banilərindən biri Romulun adından götürülmüşdür. E.ə. VI əsrin sonundan Roma quldarlıq respublikasının, e.ə. I əsrdən Roma impe-

riyasının, 1871-ci ildən Birləşmiş İtaliya krallığının, 1946-cı ildən isə İtaliya Respublikasının paytaxtıdır. – 8,9.

18. Dağlıq Qarabağ Muxtar Vilayəti – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min km²-dir. Mərkəzi Xankəndidir.

1988–92-ci illərdə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 9,10,13,16,17,18,19,44,62,79,80,100,101, 102,104,105,113,114,115,116,117,118,120,121,179,180,182,197,264,270,281, 283,284,287,300,307,308,310,330,349,361.

19. ATƏT-in Minsk qrupu – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 9,10,13,44,58,59,81,101,102,180,181,183,191,192,281,282,284,286, 307,308,316,373.

20. Avpora Şurasının Nazirlər Komitəsi – bu təşkilatın rəhbər və direktiv orqanıdır. Komitəni bütün üzv ölkələrin xarici işlər nazirləri və daimi diplomatik nümayəndələri təşkil edir. Onlar–Nazirlər Komitəsi hüquq bərabərliyində Avropa cəmiyyətinin problemlərinin milli dəyərlərə əsaslanaraq həll edilməsinə çalışır. Parlament Assambleyası ilə birlikdə Nazirlər Komitəsi üzv ölkələrin götürdükləri öhdəliklərə nəzarət edir və fundamental dəyərlərin keşiyində durur. İldə bir dəfə keçirilən sessiyada nazirlər siyasi dialoq aparır, Avropa əməkdaşlığı məsələlərini həll edirlər. – 11–21,104.

21. Lüksemburq, Böyük Lüksemburq Hersoqluğu – Qərbi Avropada dövlət. Sahəsi 2,6 min km², əhalisi 415 min nəfərdir. İnzibati cəhətdən 3 mahala bölünür. Lüksemburq konstitusiyalı monarxiyadır. Dövlət başçısı böyük hersoqdur. Qanunverici orqanı Deputatlar palatasıdır. Paytaxtı Lüksemburqdur. –11–21,104.

22. Lidi Polfer (d.1952) – Lüksemburq siyasi xadimi, 1982–99-cu illərdə Lüksemburq şəhərinin meri. Sonra isə Xarici İşlər nazirinin müavini, 1999–2000-ci illərdə Xarici İşlər naziri və AŞPA-nın üzvü olmuşdur. – 11–21.

23. Avropa Şurası (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 12,15,17,18,19,21, 52,92,103,109,266,289,291,292,296,391.

24. Avropa Birliyi (AB) – 1951–57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi – AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropa Atom Enerjisi Birliyi – (AAEB). AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun vahid valyuta qəbul etməsi – AVRO) bir neçə mərhələ keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986-cı ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra – AİB, AKPB və AAEB – Avropa Birliyi, 1993-cü ildə isə Avropa Şurası yarandı. – 12,18,52,172,286,410.

25. Sovetlər İttifaqı, Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) – 1922–1991-ci illərdə keçmiş Rusiya imperiyasının böyük hissəsində mövcud olmuş dövlət. SSRİ-nin yaradılmasına dair Müqaviləyə (dek.1922) əsasən onun tərkibinə Belorusiya (BSSR), Rusiya (RSFSR), Cənubi Qafqaz respublikaları (ZSFSR; 1936-cı ildən müttəfiq respublikalar – Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR) və Ukrayna SSR, 1925-ci ildə –

Özbəkistan SSR, Türkmənistan SSR, 1929-cu ildə Tacikistan SSR, 1936-cı ildə Qazaxıstan SSR, Qırğızıstan SSR, 1940-cı ildə Moldaviya SSR, Latviya SSR, Litva SSR, Estoniya SSR daxil olmuşdular.

1991-ci ilin dekabrında Belorusiya, Rusiya və Ukrayna SSRİ-nin mövcudluğunun dayandırıldığını elan edərək Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradılması haqqında Saziş imzaladılar (8 dekabr, Minsk). 1991-ci il dekabrın 21-də Latviya, Litva və Estoniya istisna olmaqla keçmiş SSRİ-nin digər müttəfiq respublikalarının başçıları Alma-Atada Bəyannamə imzalayaraq MDB-nin yaradılması haqqında məqsəd və prinsiplərə qoşulduqlarını bəyan etdilər. – 14,20,65,69,118,125,144,269,272,274.

26. Rusiya, R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min km², əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 14,17,18,26,40,58,63, 70,71,73,100,101,107,119,180,186–188,192,200,254,283,284,291,292,316, 380,382,385,403,404.

27. Amerika Birləşmiş Ştatları (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon km², əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 15,17,18,39,51,58,59,62,86,100, 101,115,119,180,280,284,295,316,361–365,394.

28. Fransa, F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min km², əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 15,17,18,59,101, 180,284,430–434.

29. Almaniya, A l m a n i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km², əhalisi 81,9 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – bundestaq və bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 15,73,76,351,352,393–396.

30. ATƏT – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 17,18,32,50,52,58,101,102,115,119,120,121,122,282,283, 288,364.

31. Birləşmiş Millətlər Təşkilatı (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 17,18,50,52,58,101,102,180,384.

32. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası (BMTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Bri-

taniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 18,122,180.

33. Naxçıvan Muxtar Respublikası (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min km², əhalisi 372,9 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi var. – 19,103,148,181,190–337,346–350,359,373,405.

34. Naxçıvan – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Ərazisi 0,013 min km², əhalisi 67 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtı olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtı oldu. – 19,74,90,105,126,190,195–196,197–222,232,240–255,291,301,302,303,382,390.

35. Mehri, M e g r i, M ı q r ı r a y o n u – Azərbaycanın tarixi ərazisi olan Zəngəzurun cənub və cənub-şərq hissəsini təşkil edən rayon. Əhalisi orta əsrlərədək yalnız azərbaycanlılardan, XVI əsrin əvvəllərindən başlayaraq azərbaycanlılardan və ermənilərdən ibarət idi. 1595–1918-ci illərdə rayonda azərbaycanlılar təqribən 60% təşkil etmişlər. 1918-ci ildə daşnak Andranikin quldur dəstələri Zəngəzurun digər rayonları kimi Mehrinin də turk-müsəlman əhalisinə qarşı soyqırımları həyata keçirmiş, kəndləri yandırıb dağıtmışlar. 1920-ci ildə Ermənis-

tanda sovet hakimiyyəti elan edildikdən sonra daşnak ermənilərin zəbt etdikləri Azərbaycan torpaqları kimi Mehri də «qeyd-şərtsiz» Ermənistana verilmişdir. – 19,104,105,113,194,214.

36. Türkiyə Cümhuriyyəti – Qərbi Asiyada və Avropanın cənub-şərq kənarında dövlət. Sahəsi 780,6 min km², əhalisi 78 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 20, 105,147,161,162,171,172–174,286,287,295,302–303,314,315,357,358–360, 362,402–406.

37. Özbəkistan, Özbəkistan Respublikası – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km², əhalisi 23 206 min nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı – prezident, qanunverici orqanı – Məclisdir. Paytaxtı Daşkənd səhəridir. – 20,38,45,60,91,93,293,384,401.

38. Venesiya Komissiyası – 1990-cı ildə Avropa Şurasında konstitusiya qaydalarına uyğun – hüquqi demokratiya uğrunda rəsmi Avropa Komissiyası – konsultativ orqan yaradıldı. 2002-ci ildən Avropa Şurasına daxil olmayan ölkələr də bu komissiyada iştirak edə bilərlər.

Hər bir iştirakçı ölkə komissiyaya 4 il müddətinə bir ekspert təyin edir. Ekspertlər dövlət nümayəndəsi kimi yox, müstəqil mütəxəssis kimi işləməlidir. Qaydaya görə tam halda ildə dörd sessiya keçirilir. Sessiyalar Venesiyada olur. 2010-cu ildə komissiyada AŞ-nın 47 üzv ölkəsi var idi. Komissiyanın sədri Canni Bukikkiodur (İtaliya). –

Komissiyanın əsas işi – iştirakçı ölkələrin konstitusiya hüquqlarına aid qanunlarının və qanun layihələrinin analizi, həmçinin standart seçkilər və azlıqların hüquqlarının müdafiəsidir. – 21.

39. Tbilisi Dövlət Universiteti. İ.Cavaxişvili adına Tbilisi Dövlət Universiteti – Tbilisidə ali təhsil müəssisəsi. Fizika, riyaziyyat, kimya, biologiya, geologiya, coğrafiya, psixologiya, tarix, filologiya və s. ixtisaslar üzrə mütəxəssislər hazırlayır. Əsası 1919-cu ildə qoyulmuşdur. 1990-cı ildən universitet sərbəst fəaliyyət göstərən elmi-tədqiqat mərkəzidir. – 22.

40. Yaponiya – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 372 min km², əhalisi 126 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 24–28,407.

41. İpək Yolu, B ö y ü k İ p ə k Y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 24,25,26.

42. Haşimoto Ryutaro (1937–2006) – yapon siyasi xadimi. 1996–98-ci illərdə Yaponiyanın Baş naziri olmuşdur. – 25,26.

43. Hindistan, H i n d i s t a n R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Millətlər Birliyinin tərkibindədir. Ərazisi 3,3 milyon km², əhalisi 953 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dehli şəhəridir. – 26,107,156,338,339.

44. «Yamaha» – yapon şirkəti. Əsası 1887-ci ildə qoyulmuşdur. Əsasən, məişət texnikası, akustik elektronika, idman inventarı, musiqi alətləri, motosikllər istehsalı ilə məşğul olur. 1900-cu ildə ilk fortepiano buraxmışdır. 1989-cu ildə «Yamaha» şirkəti dünyada ilk dəfə kompakt-disklərin yazılması üçün ötürücü istehsal etmişdir. – 26.

45. Bakı–Tbilisi–Ceyhan – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 27,42,173,361,362.

46. Əfqanıstan, Ə f q a n ı s t a n İ s l a m D ö v l ə t i – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 652,2 min km², əhalisi 22,7 milyon nəfərdir. İnzibati ərazisi 29 vilayətə və 2 tabe mərkəzi mahala bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 27,342.

47. Pakistan, P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 796 min km², əhalisi 133,5 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. – 27,107,343.

48. Beynəlxalq Valyuta Fondu – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə, məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 29–33,75,76.

49. Con Oldinq–Smi (d.1943) – ingilis iqtisadçısı. 1992–2003-cü illərdə Beynəlxalq Valyuta Fondunda 2-ci Avropa şöbəsinin direktoru olmuşdur. – 29–33.

50. Artur Rasizadə, A r t u r T a h i r o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 29,110,113.

51. Vahid Axundov (d.1942) – iqtisadçı, elmlər doktoru, professor. 1993–2005-ci illərdə Azərbaycan Respublikası İqtisadi siyasət üzrə Dövlət müşaviri olmuşdur. – 29.

52. Müstəqil Dövlətlər Birliyi (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 29,32,56,75,94,97, 187,199,206,212,307.

53. Milli Bank, Azərbaycan Dövlət Milli Bankı – Azərbaycan Respublikasının mərkəzi bankıdır. Onun əsas vəzifəsi qiymətlərin sabitliyinin təmin edilməsi, xarici dönərli valyutalara nisbətən milli valyutanın kursunun möhkəmləndirilməsi, həmçinin ölkə bank sisteminin sabitliyinin qorunmasıdır. AMB valyuta tənzimlənməsi və nəzarətini həyata keçirir, xarici dövlətlərlə hesablaşma qaydalarını müəyyən edir, xarici valyuta ehtiyatlarını idarə edir. AMB həmçinin Azərbaycan Respublikasının ödəmə-hesabat balansının tərtibinə rəhbərlik edir. – 29.

54. Azərbaycan Beynəlxalq Bankı (ABB) – 1992-ci ildə Xarici İqtisadi Bankın əsasında yaradılmışdır. ABB beynəlxalq və daxili bazarda mövcud olan bütün bank xidmətlərini yerinə yetirir. – 30,32.

55. ATƏT-in Budapeşt sammiti – 1994-cü il dekabrın 3–7-də Macarıstanın paytaxtı Budapeştdə keçirilmişdir. Görüşdə ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçıları, o cümlədən Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti iştirak etmişdir. Heydər Əliyev Budapeşt sammitində regionlarda və bütünlükdə qitədə sülh konsepsiyasının həyata keçirilməsi üçün çox əhəmiyyətli fəaliyyət göstərdi. Budapeşt zirvə görüşündə ilk dəfə olaraq Dağlıq Qarabağ problemi xüsusi məsələ kimi müzakirə olundu və «Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi» haqqında qətnamə qəbul olundu. – 32.

56. Türkmənistan, T ü r k m ə n i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub–qərbində dövlət. Sahəsi 488,1 min km², əhalisi 4574 min nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabaddır. – 34,125,293.

57. Saparmurad Niyazov, S a p a r m u r a d A t a o ğ l u (1940–2007) – Türkmənistanın siyasi və dövlət xadimi. 1985-ci ilin dekabrından 1990-cı ilə qədər Türkmənistan KP MK-nın birinci katibi, 1990-cı ildən 2007-ci ilədək Türkmənistan Respublikasının prezidenti olmuşdur. – 34.

58. Kolumbiya, K o l u m b i y a R e s p u b l i k a s ı – Cənubi Amerikanın cənub–qərbində dövlət. Sahəsi 1139 min km², əhalisi 35,7 milyon nəfərdir. İnzibati ərazisi 32 departamentə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Konqresdir. Paytaxtı Boqotadır. – 35.

59. Uribe Alvaro (d.1952) – Kolumbiya siyasətçisi. 2002–2010-cu illərdə Kolumbiya prezidenti. – 35.

60. Belçika, B e l ç i k a K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km², əhalisi 10,2 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüsseldir. – 36,37.

61. Gi Verhofstadt (d.1953) – Belçika siyasi xadimi. 1999–2008-ci illərdə Belçika Baş naziri. – 36.

62. II Albert (d.1934) – 1993-cü ildən Belçika kralı. Saksen-Koburq sülaləsindəndir. III Leopoldın oğludur. – 37.

63. GUÖAM – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə Özbəkistan bu qurumu tərk etdi. – 38–86,91,92, 93,94,409,410,411.

64. Ukrayna, U k r a y n a R e s p u b l i k a s ı – Cənub–Şərqi Avropada dövlət. Ərazisi 603,7 min km², əhalisi 45,6 milyon nəfərdir. Ukraynanın tərkibinə 24 vilayət və Krım Respublikası daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı – Ali Radadır. Paytaxtı Kiyev şəhəridir. – 38–86,91,93,100,169,200,378,404,408–411.

65. Yalta – Ukraynada kurort-şəhər, Qara dəniz sahilində liman. – 38–86,91,100,102,108.

66. Qusar (1938-ci ilədək Hil rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1542 km², əhalisi 83,0 min nəfərdir. – 39.

67. ABŞ Dövlət Departamenti – ABŞ-da 1789-cu ildən Xarici İşlər Nazirliyi funksiyasını həyata keçirən əsas xarici siyasət idarəsi. Dövlət katibi başçılıq edir, prezidentin və Konqresin hazırladığı xarici siyasi xətti həyata keçirir. – 39,62.

68. Gürcüstan, G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km², əhalisi 5493 min nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 41–43,45,54,55,93,100,110,119,120, 215,295,362,382.

69. Şevardnadze, E d u a r d A m v r o s i y e v i ç (d.1928) – Gürcüstanın və SSRİ-nin siyasi və dövlət xadimi. 1972–85-ci illərdə Gürcüstan KP MK-nın Birinci katibi, 1985–90-cı illərdə SSRİ Xarici İşlər naziri,

1994–2003-cü illərdə Gürcüstanın prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 41–43,45,54,55,60,61.

70. Bakı– Tbilisi – Ərzurum – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 42.

71. Leonid Daniloviç Kuçma (d.1938) – Ukraynanın siyasi və dövlət xadimi. 1994–2005-ci illərdə Ukrayna Respublikasının prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 43–44,45,54,55,57,60,61,68,76,93,169,378,408,411.

72. Moldova, M o l d o v a R e s p u b l i k a s ı – Cənub–Şərqi Avropada dövlət. Sahəsi 33,7 min km^2, əhalisi 4,36 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 45,54,57, 91,93,100,369.

73. Vladimir Voronin (d.1941) – Moldova siyasi və dövlət xadimi. 2001 və 2005-ci illərdə Moldova prezidenti olmuşdur. – 45,54,91,93,369.

74. Helsinki aktı – 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının müşavirəsi oldu. Onlar Avropada təhlükəsizlik və əməkdaşlıq haqqında zirvə aktını imzaladılar. Azərbaycan Respublikası bu aktı 1992-ci ildə imzalamışdır. – 50,101.

75. TRASEKA, T r a n s x ə z ə r n ə q l i y y a t d ə h l i z i – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 52,53,93.

76. NATO (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsa-

sında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 52,294,295.

77. Uilyam Teylor (d.1947) – amerikan siyasətçisi. 1992–2002-ci illərdə ABŞ Departamentinin keçmiş SSRİ, Şərqi Avropa ölkələrinə dövlət kömək əlaqələndiricisi, 2006–2009-cu illərdə ABŞ-ın Ukraynada Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 62,86.

78. Riçard Armitac – R.Reyqanın prezidentliyi dövründə (1980–1988) Müdafiə nazirinin beynəlxalq təhlükəsizlik üzrə müşaviri olmuşdur. Corc Buşun (ata) prezidentliyi dövründə (1988–1992) xüsusi tapşırıqlar üzrə səfir işləyərkən yeni müstəqil dövlətlərə yardım göstərmək proqramının müəlliflərindən biri olmuşdur. Həmin vaxtdan 907-ci düzəlişin əleyhinə çıxır. Amerika–Azərbaycan Ticarət Palatası Direktorlar Şurasının üzvüdür. «Armitac Assoşieyts El Si» şirkətinin sahiblərindən biridir. – 62.

79. Viktor Çernomırdin, V i k t o r S t e p a n o v i ç (1938–2009) – Rusiya Federasiyasının dövlət xadimi. 1992–98-ci illər Rusiya Federasiyasının Baş naziri, 1999-2009-cu illərdə Rusiya Federasiyasının Ukrayna Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 63,119.

80. Ukrayna Ali RADA-sı – Ukraynanın ali qanunverici hakimiyyət (Sovet–Şura, Xalq Deputatları RADA-sı) orqanı. – 67.

81. Üzeyir bəy Hacıbəyov, Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 72,136,137.

82. Qurban bayramı – müsəlman dünyasında ən əziz bayramlardan biri. Sosial-mənəvi həyatımızın tərkib hissəsinə çevrilmişdir. Qurban

bayramı müsəlman hicri-qəməri təqvimi ilə 12-ci ayda – zülhiccə ayının 10-cu günü başlanır və bir ay müddətində davam edir. Müsəlmanlar bu bayramı İslamın əsas şərtlərindən biri – Həcc mərasimlərinin yerinə yetirilməsi və böyük Allahın bəndələrinin günahının bağışlanması günü kimi qeyd edirlər. – 79.

83. Polad Bülbüloğlu (d.1945) – bəstəkar, müğənni, dövlət xadimi. Azərbaycan Respublikasının Xalq artisti. 1988–2005-ci illər Azərbaycan Respublikasının Mədəniyyət naziri olmuşdur. Hazırda Azərbaycan Respublikasının Rusiya Federasiyasında Fövqəladə və Səlahiyyətli səfiridir. I çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 79,80.

84. Bülbül, M u r t u z a M ə ş ə d i R z a o ğ l u M ə m m ə d o v (1897–1961) – SSRİ Xalq artisti və SSRİ Dövlət mükafatı laureatı, Azərbaycan klassik vokal məktəbinin banisi, musiqi folkloru tədqiqatçısı. Bülbülün yaradıcılığı müasir Azərbaycan musiqili teatrı tarixində mühüm bir mərhələ təşkil edir. Bülbül Azərbaycan xalq mahnılarını, təsnifləri böyük sənətkarlıqla ifa etmişdir.– 79.

85. Şuşa – Azərbaycan Respublikasında şəhər. Elmi ədəbiyyatda Şuşanın əsasının 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.

1992-ci ildə erməni işğalçıları Şuşanı zəbt etdilər. Hazırda Şuşa yadellilərin tapdağı altındadır. – 79,118.

86. Goranboy (1991-ci ilə qədər Qasım İsmayılov) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1231 km², əhalisi 88,7 min nəfərdir. – 85.

87. Dövlət Neft Fondu – 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti Azərbaycanın neft strategiyasından əldə edilən gəlirlərin idarə edilməsidir. – 85.

88. «Xalq qəzeti» – Azərbaycan Respublikasında gündəlik, siyasi, ictimai qəzet. 1919-cu ildən «Kommunist» adı ilə nəşr edilmişdir. 1991-ci ildən isə «Xalq» qəzeti» adlanır. Qəzetin təsisçisi Azərbaycan Respublikası prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyətidir. – 89.

89. «Turan» – informasiya agentliyi. 1990-cı ildə yaradılmışdır. Agentlik tərəfindən KİV-lər, digər hüquqi və fiziki şəxslər üçün informasiyaların toplanması və yayılması həyata keçirilir. – 89,111,124.

90. Mehman Əliyev, M e h m a n Y a d u l l a o ğ l u (d.1957) – jurnalist. 1993-cü ildən «Turan» İnformasiya agentliyinin direktorudur. – 89–133.

91. «Exo» – Azərbaycanda buraxılan gündəlik ictimai-siyasi qəzet. 2001-ci ildən Bakıda nəşr edilir. Gündəlik tirajı 6 min nüsxədir. – 89.

92. Rauf Talışinski (d.1956) – jurnalist, fəlsəfə doktoru. 1990-cı ildən 2001-ci ilə qədər «Ayna» – «Zerkalo» qəzetinin Baş redaktoru, 2001-ci ilin axırlarından «Exo» qəzetinin Baş redaktoru və təsisçisidir. – 89–133.

93. «Zerkalo» – ictimai-siyasi qəzet. 1990-cı ildən nəşrə başlayıb. 1999-cu ildən «Zerkalo» gündəlik çıxır. – 89,287.

94. Elçin Şıxlı, E l ç i n İ s m a y ı l o ğ l u (d.1957) – filoloq. 1990–98-ci ilə qədər «Ayna» – «Zerkalo» qəzetində Baş redaktor müavini, 2001-ci ildən təsisçi və Baş redaktorudur. 1989-cu ildən Azərbaycan Yazıçılar İttifaqının üzvü, 2006-cı ildən Azərbaycan Jurnalistlər Birliyinin sədridir. – 89–133.

95. Arif Əliyev, A r i f A s l a n o ğ l u (d.1960) – jurnalist. 1992–93-cü illərdə Azərbaycan Respublikası prezidentinin Mətbuat katibi, 1995-ci ildən «Yeni nəsil» Azərbaycan Jurnalistlər İttifaqının sədridir. – 89–133.

96. Əflatun Amaşov, Ə f l a t u n Ə h m ə d o ğ l u (d.1957) – jurnalist. 1985–94-cü illərdə AzərTAc Dövlət Teleqraf Agentliyində müxtəlif vəzifələrdə çalışmışdır. 1995-ci ildə «Yeni Nəsil» Jurnalistlər Birliyinin yaradıcılarından biri olub. 1995–98-ci illərdə təşkilatın sədr müavini olmuşdur. 1998-ci ildə «Ruh» Azərbaycan jurnalistləri komitəsinin sədri seçilib. 2003-cü ildən Azərbaycan Mətbuat Şurasının sədridir. – 89–133.

97. Əli Həsənov, Ə l i M ə h ə m m ə d ə l i o ğ l u (d.1960) – tarix elmləri doktoru, professor. Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü. (1999), 1993–95-ci illərdə partiyanın ideoloji şöbəsinin müdiri işləmişdir. 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti İcra Aparatının ictimai-siyasi şöbəsinə rəhbərlik edir. Müasir siyasi problemlərə aid kitabların və məqalələrin müəllifidir. – 89–133.

98. DYP – Dövlət Yol Polisi.

99. Lənkəran – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 661 km², əhalisi 146,9 min nəfərdir. – 96,214, 299, 300.

100. Ramil Usubov, R a m i l İ d r i s o ğ l u (d.1948) – general-polkovnik. 1994-cü ildən Azərbaycan Respublikasının Daxili İşlər naziridir. – 96,123.

101. AzərTAc , A z ə r b a y c a n D ö v l ə t T e l e q r a f A g e n t l i y i – Azərbaycanda dövlət informasiya orqanı. 1919-cu ildə yaradılmışdır. 1921-ci ildən Azərbaycan Teleqraf Agentliyi (AzərTA), 1972-ci ildən Azərinform adlanırdı. 1992-ci ildən AzərTAc kimi fəaliyyət göstərir. AzərTac müasir Azərbaycan həqiqətlərini, ölkədə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunu, iqtisadiyyatın inkişafını,sosial-mədəni sahədə qazanılmış uğurları, respublikanın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsini əks etdirən informasiya və fotoinformasiyaları

yayır, dünyada cərəyan edən ən mühüm hadisələr barədə operativ məlumat verir. – 99,100.

102. P u t i n V l a d i m i r V l a d i m i r o v i ç (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası prezidenti administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 100,101,102,106,107,108,109,111, 118,380.

103. Corc Buş (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008-ci illər). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. – 100, 101,102,106.

104. Zəngəzur mahalı, Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil olunmuşdur. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdi. – 104.

105. Saxarov Andrey Dmitriyeviç (1921–1989) – Rusiya nəzəriyyəçi – fiziki, SSRİ-də hidrogen bombasıını yaradanlardan biri (1953); ictimai xadim. – 105.

106. Hikmət Çetin (d.1937) – Türkiyənin siyasi və dövlət xadimi. Ayrı-ayrı illərdə Türkiyə Respublikasının Xarici İşlər naziri, Baş nazirin müavini vəzifələrində çalışmışdır. 1997–99-cu illərdə Türkiyə Böyük Millət Məclisinin sədri olmuşdur. – 105.

107. Klinton Bill, U i l y a m C e f e r s o n B l a y d (d.1946) – ABŞ-ın görkəmli siyasi və dövlət xadimi. ABŞ-ın 42-ci prezidenti (1992–2000). Klinton xarici siyasətində SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış dövlətlərlə, o cümlədən Azərbaycan Respublikası ilə münasibətlərin yaxşılaşdırılmasına mühüm əhəmiyyət vermişdir. – 106,284,394.

108. Sankt-Peterburq (1914-cü ilədək Sankt-Peterburq, 1924-cü ilədək Petroqrad, 1991-ci ilədək Leninqrad) –1918-ci ilə kimi Rusiyanın paytaxtı idi. Rusiya Federasiyasının ən böyük sənaye, mədəniyyət və elm mərkəzidir. Əsası 1703-cü ildə I Pyotr tərəfindən qoyulmuşdur. – 106,107,187,254.

109. Kəşmir problemi – Asiyada tarixi vilayət. Qədimdə və orta əsrlərdə Hindistan ərazisində yaranmış müxtəlif dövlət birləşmələrinin tərkibində olmuşdur. 1846-cı ildə ingilislər Kəşmiri işğal edib 7,5 milyon rupi ödənclə Sammi knyazlığına vermişlər. 1947-ci ilin avqustunda yaradılan müstəqil Hindistan dövləti Kəşmiri öz ərazisinə qatmağa çalışır. Hal-hazırda Kəşmirin şimal–qərbi Pakistanın, qalan hissəsi isə Hindistanın (1949) nəzarəti altındadır. 1956-cı ildə Kəşmir «Hindistan İttifaqının tərkib hissəsi» elan edildi. Hindistanla Pakistan arasında bir neçə dəfə hərbi münaqişə baş versə də, bu problem hələ də öz həllini tapmamışdır. – 107.

110. Yeltsin Boris Nikolayeviç (1931–2007) – Rusiyanın siyasi və dövlət xadimi. 1991–2000-ci illərdə Rusiya Federasiyasının ilk prezidenti olmuşdur. – 109,110.

111. Zyuqanov Gennadi Andreyeviç (d.1944) – bütün fəaliyyəti Kommunist Partiyası ilə bağlı olan Rusiya siyasi xadimi. 1991-ci ildə RSFSR KP MK-nın katibi, 1992–2004-cü illərdə Rusiya Federasiyası Kommunist Partiyasının sədri, 1993-cü ildən Dövlət Dumasında bu partiyanın lideri. – 110.

112. Dağıstan, Dağıstan Respublikası – Rusiya Federasiyasında respublika. Sahəsi 50,3 min km^2, əhalisi 2094,6 min nəfərdir. Paytaxtı Mahaçqala şəhəridir. Dağıstan ərazisi bizim eradan əvvəl 1-ci minilliyin axırlarına qədər Qafqaz Albaniyası tərkibində olmuşdur. 1813-cü ildə Gülüstan müqaviləsinə əsasən çar Rusiyasına birləşdirilmişdir. – 110,404.

113. Məhəmmədəli Məhəmmədov (d.1930) – Rusiya dövlət və siyasi xadimi. 1983–2006-cı illərdə Dağıstan Respublikasının müxtəlif məsul

vəzifələrində çalışmış və 2006–2010-cu illərdə Dağıstan Dövlət Şurasının sədri olmuşdur. – 110.

114. Murtuz Ələsgərov, M u r t u z N ə c ə f o ğ l u (d.1928) – Azərbaycanın dövlət xadimi, hüquq elmləri doktoru, professor. Respublikanın Əməkdar hüquqşünası. Yeni Azərbaycan Partiyasının sədr müavini və partiyanın Siyasi Şurasının üzvüdür. 1996–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin sədri olmuşdur. Hazırda Milli Məclisin üzvüdür. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 112.

115. Vaqif Mustafayev, V a q i f B e h d u d o ğ l u (d.1953) – kinorejissor. Azərbaycan Respublikasının Xalq artisti. Bir çox filmlərin, o cümlədən prezident Heydər Əliyev haqqında filmin rejissorudur. Avropa–Asiya Tele-«Space» radio Akademiyasının vitse-prezidenti, «Space» müstəqil tele-radio şirkətinin prezidentidir. Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır. – 117.

116. Kofi Annan (d.1938) – 1997–2006-cı illərdə Birləşmiş Millətlər Təşkilatının Baş katibi olmuşdur. Nobel mükafatı laureatı. – 122,180.

117. Nəcəf Nəcəfov, N ə c ə f A d i l o ğ l u (1955–1999) Azərbaycan Xalq Cəbhəsinin yaradıcılarından biri. 1986–99-cu illərdə «Molodyoj Azerbaydjana» qəzetinin redaktoru olmuşdur. «Azadlıq» qəzetinin ilk redaktoru Azərbaycan Ali Sovetinin, Milli Şura və Milli Məclisin üzvü olmuşdur. Azərbaycan SSR-in suverenliyi haqqında Konstitusiya aktının qəbulunda (1989) fəal iştirak etmişdir. 1992-ci ilin oktyabr–noyabr aylarında prezidentin mətbuat xidmətinin rəhbəri, sonra isə prezidentin müşaviri (1992–93) olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir (ölümündən sonra). – 117.

118. ATƏT-in Lissabon sammiti – 1996-cı il dekabrın 2–4-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində ATƏT-in 54 üzvünün dövlət və hökumət başçılarının iştirakı ilə növbəti Zirvə toplantısı keçirildi. Lissabon Zirvə toplantısında müzakirə olunan məsələlər arasında Azərbaycan Respublikası nümayəndə heyətinin təkidi ilə Ermənistan–Azərbaycan münaqişəsi geniş diskussiyaya səbəb oldu. Azərbaycan Respublikası nümayəndə heyətinin

başçısı Heydər Əliyevin qəti, prinsipial mövqeyi və gərgin səyi nəticəsində yekun sənədə əlavə kimi qəbul edilən ATƏT sədrinin bəyanatında ilk dəfə olaraq ən yüksək səviyyədə münaqişənin həllinin əsası kimi, Azərbaycan Respublikasının ərazi bütövlüyü 53 dövlət tərəfindən qətiyyətlə dəstəkləndi və Dağlıq Qarabağın statusunun yalnız Azərbaycan Respublikasının tərkibində müəyyən olunması öz əksini tapdı. – 118,283.

119. Araz Əzimov, A r a z B ö y ü k a ğ a o ğ l u (d.1962) – diplomat, Fövqəladə və Səlahiyyətli səfir. 1994-cü ildən Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavinidir. – 119,286.

120. Elçibəy, Ə l i y e v Ə b ü l f ə z Q ə d i r q u l u o ğ l u (1938–2000) – Şərqşünas alim, Azərbaycan Milli Azadlıq Hərəkatının lideri, 1989-cu ildə yaradılan AXC-nin, sonralar AXCP-nin sədri. 1992-ci ilin iyunundan 93-cü ilin iyununa qədər Azərbaycan Respublikasının prezidenti olmuşdur. – 126,292,293,297,298.

121. «Space» – Azərbaycanda müstəqil teleşirkət. 1997-ci ildə yaradılmışdır. Dünyanın bir sıra – MSM, Fashion TV, SNN, NTV telekanalları, İHLAS agentliyi ilə əməkdaşlıq edir. – 128,370.

122. Hacı Hacıyev, H a c ı Ə l i h e y d ə r o ğ l u (1924–2008) – Azərbaycan Respublikasının Əməkdar jurnalisti. 1974–89-cu illərdə Azərbaycan Jurnalistlər İttifaqı İdarə Heyətinin katibi, 1989 Azərbaycan Jurnalistlər Birliyinin sədri olmuşdur. Yaradıcılığı Azərbaycan Demokratik Respublikası tarixinin tədqiqinə həsr edilmişdir. – 134,138.

123. Həsən bəy Zərdabi, M ə l i k o v H ə s ə n b ə y S ə l i m b ə y o ğ l u (1842–1907) – Azərbaycan maarifçi-demokrat, təbiətşünas alim, publisist və pedaqoq. H.Zərdabi Azərbaycan professional teatrının yaradıcılarındandır. O, Nəcəf bəy Vəzirov və Əsgər ağa Gorani ilə birlikdə 1873-cü ildə M.F. Axundovun «Hacı Qara» pyesini tamaşaya qoymuşdur.

Azərbaycan demokratik mətbuatının banisi olan Zərdabi «Əkinçi» qəzetini nəşr etdirmişdir (1875–77). «Əkinçi» qəzetini nəşr etməsi ilə Zərdabi Azərbaycan xalqının maariflənməsinə çox böyük xidmət göstərmişdir. – 135,136.

124. Cəlil Məmmədquluzadə, M i r z ə C ə l i l H ü s e y n q u l u o ğ l u (ədəbi təxəllüsü Molla Nəsrəddin; 1866–1932) – dahi Azərbaycan yazıçısı, jurnalist, ictimai xadim. Mirzə Cəlilin ictimai-ədəbi fəaliyyəti XIX əsrin 80-ci illərinin axırından XX əsrin 30-cu illərinə qədərki böyük tarixi dövrü əhatə edir. 40 illik yaradıcılığı boyu müxtəlif janrlarda yazdığı əsərləri ilə Mirzə Cəlil Azərbaycan realist ədəbiyyatının yüksək pilləyə qalxmasında müstəsna rol oynamışdır. 1906-cı il aprelin 7-də çıxan «Molla Nəsrəddin» jurnalının nəşrinə başlamaqla Mirzə Cəlil Azərbaycanda, eləcə də Yaxın Şərqdə satirik jurnalistikanın əsasını qoymuşdur. Bu zamandan Mirzə Cəlil Molla Nəsrəddin adı ilə məşhur oldu. – 136.

125. «Molla Nəsrəddin» – həftəlik, illüstrasiyalı ilk Azərbaycan jurnalı. Birinci nömrəsi 1906-cı il aprelin 7-də Tiflisdə çapdan çıxmışdır. 1906–18-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922–31-ci illərdə Bakıda nəşr olunmuşdur. Redaktoru və naşiri Cəlil Məmmədquluzadə idi. 25 il ərzində 748 nömrəsi çıxmışdır. Mütərəqqi ideyaların carçısı olan «Molla Nəsrəddin» xalq və demokratiya cəbhəsində duraraq azadlıq düşmənlərini – çar mütləqiyyətini, müstəmləkəçilik siyasətini, geriliyi, mövhumatı, millətçiliyi amansız satira atəşinə tuturdu. Bütün təqib və təzyiqlərə baxmayaraq «Molla Nəsrəddin»in haqq səsi Qafqazın hüdudlarını aşıb Rusiyada, bütün Yaxın və Orta Şərqdə eşidilmişdi. «Molla Nəsrəddin» Azərbaycan xalqının mütərəqqi qüvvələrini, demokratik ziyalıları öz ətrafında toplamışdı. «Molla Nəsrəddin»in yalnız Azərbaycanın deyil, eləcə də Yaxın Şərq ölkələrinin ictimai və ədəbi-bədii fikir tarixində müstəsna rolu olmuşdur. – 136.

126. Karl Marks (1818–1883) – mütəfəkkir və ictimai xadim, marksizmin banisi, tarixin marksizm nöqteyi-nəzərindən izahının, izafi dəyər təliminin banisi beynəlxalq proletariatın rəhbəri, Marksın ideyaları XIX–XX əsrlərdə sosial təfəkkürün cəmləşməsinə və cəmiyyətin tarixinə xeyli təsir göstərmişdir. Əsas əsərləri «Kapital» (1867), «İqtisadi fəlsəfi əlyazmalar» (1844), «Lui Boportin on səkkiz brümeri» (1852), «Alman ideologiyası» (1845–46), «Fransada vətəndaş müharibəsi» (1871), «Qota proqramının tənqidi». – 138.

127. Misir Ərəb Respublikası – Afrikanın şimal–şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1001,4 min km², əhalisi 61 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 140,142–146.

128. Hüsni Mübarək, S e y i d M ə h ə m m ə d (d.1928) – Misir Ərəb Respublikasının siyasi və dövlət xadimi. 1975–81-ci illərdə Misir Ərəb Respublikasının vitse-prezidenti, 1981–2011-ci illərdə prezidenti olmuşdur. – 140, 145,146.

129. İkinci dünya müharibəsi (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibə elan etdi. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 142.

130. Süveyş kanalı – Şimal–Şərqi Misirdə Azadlıq dənizini Qırmızı dənizlə birləşdirən şlyuzsuz dəniz kanalı. Uzunluğu 161 km, eni 118 metrə yaxın, dərinliyi 16,2 metrdir. – 142,143.

131. Maldiv, M a l d i v R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət, Maldiv adalarında. Sahəsi 298 min km², əhalisi 266 min nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Şurasıdır. Paytaxtı Maledir. – 141.

132. Məmun Əbdül Qəyyum (d.1937) – 1978– 2008-ci illərdə Maldiv adalarının prezidenti. – 141.

133. Camal Əbdül Nasir (1918–1974) – Misir dövlət, siyasi və hərbi xadimi. 1949-cu ildə «Azad zabitlər» təşkilatına başçılıq etmiş və 1952-ci ildə ölkədə dövlət çevrilişi etmişdi. 1953-cü ildə Baş nazirin müavini, 1954–56-cı illərdə Baş nazir, 1956-cı ildən prezidenti olmuşdur. 1963-cü ildən Ərəb Sosialist İttifaqının sədri idi. Camal Əbdül Nasir Süveyş kanalını milliləşdirmiş və Misirə qarşı İngiltərə – Fransa– İsrail təcavüzünə (1956) qarşı Misir xalqının mübarizəsinə başçılıq etmişdi. Misirin İsraillə müharibədə məğlubiyyətindən, Sinay yarımadasının İsrail tərəfindən işğal edilməsindən sonra prezidentlikdən istefaya getmək istəsə də bu, qəbul olunmamışdı. – 143, 144,145.

134. Ənvər Sədat (1918–1981) – Misir dövlət və siyasi xadimi, 1970–81-ci illərdə Misir prezidenti, «Azad zabitlər» təşkilatının rəhbərlərindən biri, Camal Əbdül Nasir zamanında vitse prezident. 1979–cu ildə İsrail ilə Kemp-Devid sülh sazişi imzalamış (1979); 1981-ci ildə hərbi parad zamanı qətlə yetirilmişdir. Nobel sülh mükafatı laureatı. – 145.

135. Əhməd Necdət Sezər (d.1941) – 2000–2007-ci illərdə Türkiyə prezidenti. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmış, 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 147,357,384.

136. İran, İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km^2, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 148–153, 177–183,194,263,264,265,344,404.

137. Xatəmi, S e y i d M ə h ə m m ə d X a t ə m i (d.1943) – İranın siyasi, ictimai və dövlət xadimi. 1989–92-ci illərdə İranın Mədəniyyət və İslam Oriyentasiyası naziri, 1997–2005-ci illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 148,151,177,181,344.

138. Xamenei, H ü s e y n X a m e n e i S e y i d Ə l i (d.1939) – İranın dini və dövlət xadimi. 1981–89-cu illərdə İranın prezidenti, 1989-cu ildən isə İran İslam Respublikasının dini rəhbəridir. –148.

139. Haşimi Rəfsancani, Ə l i ə k b ə r H a ş i m i R ə f s a n c a n i (d.1934) – 1989–98-ci illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 149.

140. Namiq Abbasov, N a m i q R ə ş i d o ğ l u (d.1940) – general-polkovnik. 1995–2004-cü illərdə Azərbaycan Milli Təhlükəsizlik naziri olmuşdur. 2004-cü ildən Azərbaycanın Özbəkistan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir. – 150.

141. Qətran Təbrizi, Ə b u M ə n s u r (1012–1088) – böyük Azərbaycan şairi. Təbrizi aşiqanə seirləri, gözəl təbiət təsvirləri ilə Azərbaycan poeziyasına yenilik gətirmişdir. Yaradıcılığında hökmdarlara həsr edilmiş qəsidələr mühüm yer tutur. – 151.

142. Şəhriyar, M ə h ə m m ə d h ü s e y n H a c ı M i r a ğ a o ğ l u (1906–1988) – görkəmli Azərbaycan şairi, XX əsr Cənubi Azərbaycan və İran poeziyasının ən böyük nümayəndələrindən biri. Azərbaycan və fars dillərində yazmışdır. Şairin «Heydərbabaya salam» poeması təkcə onun yaradıcılığında deyil, eləcə də bütün müasir Cənubi Azərbaycan poeziyasında yeni mərhələdir. Burada Cənubi Azərbaycan təbiətinin gözəllikləri, xalqın adət və ənənələri, ana yurduna tükənməz oğul məhəbbəti əlvan poetik boyalarla, canlı xalq dilində tərənnüm edilir. Poemada doğma yurdu Azərbaycanın ikiyə bölünməsini böyük ürək ağrısı ilə nəql edir. Poemanın ən böyük məziyyəti onun xəlqiliyindədir. Poema Cənubi Azərbaycanda anadilli poeziyaya geniş yol açmışdır. Şəhriyarın yaradıcılığı bütün türk dünyasında böyük şöhrət qazanmışdır. – 151.

143. Hafiz, Ş ə m s ə d d i n M ə h ə m m ə d Ş i r a z i (təqr.1325–1389, yaxud 1390) – böyük fars şairi. Müstəsna yaddaşı olan Hafiz Qurani - Kərimi əzbər bilirdi; «Hafiz» ləqəbi də bununla əlaqədardır. Yaradıcılığı orta əsrlər farsdilli lirik poeziyanın ən yüksək zirvəsidir. – 151.

144. Firdovsi, F i r d o v s i Ə b ü l q a s i m (təqr. 934–1020, yaxud 1030) – böyük fars və tacik şairi. Farsdilli ədəbiyyatın monumental eposu, dünya ədəbiyyatının möhtəşəm abidələrindən olan «Şahnamə»nin müəllifidir. – 151.

145. Nadir şah (1688–1747) – İran şahı (1736–47), Əfşar tayfasındandır. 1726-cı ildə şah II Təhmasibin (1722–32) sərkərdəsi olmuş, Səfəvi dövlətinin bir çox torpaqlarını zəbt etmiş, türk və əfqanlara qarşı müharibələr aparmışdır. Nadir şah sui-qəsd nəticəsində öldürülmüşdür. – 151.

146. İmam Rza – şiəlik məzhəbinə etiqad edənlərin səkkizinci imamı. – 151.

147. Sinqapur, S i n q a p u r R e s p u b l i k a s ı – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 639 km², əhalisi 3,05 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Sinqapurdur. – 153.

148. S.R.Natan (d.1924) – Sinqapur siyasi xadimi. 1999–2011-ci illərdə Sinqapur prezidenti olmuşdur. – 153.

149. İsveçrə, İ s v e ç r ə K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km², əhalisi 7,1 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 154.

150. Kaspar Villiger (d.1941) – İsveçrə Baş naziri. 1995–2002-ci illərdə İsveçrənin prezidenti olmuşdur. – 154.

151. Makedoniya, M a k e d o n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 25,7 min km², əhalisi 1,97 milyon nəfərdir. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Məclisdir.Paytaxtı Skopyedir. – 155,394.

152. Boris Traykovski (1956–2004) – 1999–2004-cü illərdə Makedoniya Respublikasının prezidenti olmuşdur. – 155,394.

153. Əbdül Kalam (d.1931) – 2002–2007-ci illərdə Hindistan Respublikasının prezidenti. Əbdül Kalam Hindistanda raket və yerətrafı peyk proqramının yaradıcılarındandır. 1980-ci ildə onun başçılığı ilə birinci hind SLV–3 yerətrafı süni peyki kosmosa göndərilmişdir. – 156,338.

154. Səfər Əbiyev, S ə f ə r A x u n d b a l a o ğ l u (d.1950) – general-polkovnik. 1995-ci ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. – 157–168,286.

155. Donetsk vilayəti – Cənub–Şərqi Ukraynada, Rusiya ilə sərhəddə inzibati ərazi. sahəsi 26,5 min km², əhalisi 5346,7 min nəfərdir. – 169.

156. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 173.

157. Boliviya, B o l i v i y a R e s p u b l i k a s ı – Cənubi Amerikada dövlət. Sahəsi 1098,6 min km², əhalisi 7,6 milyon nəfərdir. İnzibati ərazisi 9 departamentə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı Milli Konqresdir. Paytaxtı Sukre rəsmi, La-Pas isə faktikidir. – 175.

158. Qonsalo Sançes de Losada (d.1930) – Boliviya siyasi xadimi, biznesmen və keçmiş prezidenti (1993–2006). – 175.

159. Cənubi Afrika Respublikası (CAR) – Cənubi Afrikada dövlət. Sahəsi 1,2 milyon km², əhalisi 41,7 milyon nəfərdir. 9 əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir (Senat və Milli Məclis). – 176.

160. Tabo Mbeki (d.1942) – Afrika Milli Konqresinin görkəmli nümayəndəsi. 1997–2007-ci illərdə Afrika Milli Konqresinin sədri, 1999–2008-ci illərdə Cənubi Afrika Respublikasının prezidenti olmuşdur. – 176.

161. Möhsün Əminzadə (d.1957) – İran islahatçı diplomati və siyasətçisi. Möhsün Əminzadə İran İslam Cəbhəsi Partiyasının yaradıcılarından biridir. Prezident Xatəmi zamanı, 1997–2005-ci illərdə İran Xarici İşlər nazirinin müavini olmuşdur. – 177–183.

162. Sədərək rayonu – Naxçıvan MR-də inzibati rayon. Sərhəd bölgəsinin sosial-iqtisadi inkişafını daha da sürətləndirmək və gücləndirmək, həmçinin ərazinin geostrateji mövqeyi nəzərə alınaraq 1990-cı il avqustun 28-də Azərbaycan SSR Ali Sovetinin fərmanı əsasında yaradılmışdır. Sahəsi 0,15 min km², əhalisi 12,9 min nəfərdir. – 181,190,216, 312–323,330,347.

163. Tokay Məmmədov, T o k a y H ə b i b o ğ l u (d.1927) – Azərbaycan Respublikasının Xalq rəssamı və Əməkdar incəsənət xadimi. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı, SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü, Azərbaycan Rəssamlar İttifaqı İdarə heyətinin sədri (1970–72) olmuşdur. Monimental heykəltəraşlıq T.Məmmədovun yaradıcılığında mühüm yer tutur. – 184–185.

164. Mixail Şvidkoy (d.1948) – Rusiya Federasiyasının dövlət xadimi. 2000-ci ildən Rusiya Mədəniyyət naziri və kinematoqrafiya mədəniyyəti üzrə Federal agentliyin, eyni zamanda Moskva Myuzikl Teatrının bədii rəhbəridir. Rusiya Dövlət mükafatı laureatıdır. – 186–188.

165. Puqaçova Alla Borisovna (d.1949) – repertuarında 300-ə yaxın mahnısı olan görkəmli Rusiya estrada müğənnisi, bəstəkar. SSRİ xalq artisti. Teatr studiyası «Mahnı Teatri»nın yaradıcısı və bədii rəhbəri. Beynəlxalq estrada mahnı festivalının Qran-pri mükafatçısı. Rusiya Dövlət mükafatı laureatıdır. – 186.

166. Fikrət Əmirov, F i k r ə t C ə m i l o ğ l u (1922–1984) – görkəmli Azərbaycan bəstəkarı. Simfonik muğam janrının yaradıcısı. Fikrət Əmirov instrumental konsert janrında yaradan ilk Azərbaycan

bəstəkarlarındandır. Əsərləri, xüsusilə simfonik muğamları Niyazi, Rojdestvenski (Rusiya), L.Stokovski (ABŞ), Ş.Münş (Fransa), Ç.Abendrot (Almaniya) kimi məşhur dirijorların repertuarında səslənmişdir. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı idi. – 188.

167. Niyazi, T a ğ ı z a d ə – H a c ı b ə y o v N i y a z i Z ü l f ü q a r o ğ l u (1912–1984) – görkəmli Azərbaycan dirijoru, bəstəkar. Azərbaycan milli dirijorluq məktəbinin formalaşması, inkişafı Niyazinin adı ilə bağlıdır. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, iki dəfə SSRİ Dövlət mükafatı laureatıdır. – 188.

168. Qara Qarayev, Q a r a Ə b ü l f ə s o ğ l u (1918–1982) – dahi Azərbaycan bəstəkarı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Q.Qarayevin musiqi dili sahəsinə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatıdır. – 188.

169. Müslüm Maqomayev, M ü s l ü m M ə h ə m m ə d o ğ l u (1942–2008) – görkəmli Azərbaycan müğənnisi. Azərbaycan Respublikası və SSRİ Xalq artisti. Bəstəkar Müslüm Maqomayevin nəvəsi. Keçmiş SSRİ məkanında və bir çox xarici ölkələrdə müvəffəqiyyətlə çıxış etmişdir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 188,354–355.

170. Sakit Məmmədov (d.1958) – Azərbaycan Respublikasının Əməkdar rəssamı. İNESKO Rəssamlar İttifaqının üzvü, Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvü. – 188.

171. Vyetnam, V y e t n a m S o s i a l i s t R e s p u b l i k a s ı (VSR) – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 322 min km^2, əhalisi 76,1 milyon nəfərdir. İnzibati ərazisi 50 əyalətə bölünür. Dövlət başçısı prezident, dövlətin və qanunvericiliyin ali orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Xanoydır. – 189,397.

172. Çan Dik Lionq (d.1937) – 1997–2006-cı illərdə Vyetnamın prezidenti olmuşdur. – 189,397.

173. Azərbaycan Milli Elmlər Akademiyası – Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət elmi təşkilatı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiiyası adlanır. Azərbaycan Milli EA-nın aşağıdakı bölmələri var: fizika; texnika və riyaziyyat elmləri; kimya elmləri; yer elmləri; biologiya elmləri; aqrar elmləri; humanitar və ictimai elmlər. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarla elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 190,240–255,291, 301,346.

174. Ağdam – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1094 km^2, əhalisi 101,6 min nəfər. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 192.

175. Atəşkəs rejimi – 1994-cü il mayın 12-də Bişkekdə Ermənistan–Azərbaycan arasında atəşin müvəqqəti dayandırılması (atəşkəs) haqqında müqavilə imzalandı. Müqaviləyə görə, müharibə aparan tərəflər sülh müqaviləsi bağlanana qədər atəşin dayandırılması haqqında razılığa gəldilər. – 192,193.

176. Vasif Talıbov, V a s i f Y u s i f o ğ l u (d.1960) – Azərbaycanın dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir. – 195–196,197–222, 237,240–255, 256–266,267–278,315,316,317,334,335.

177. Cahangir Əsgərov, C a h a n g i r C ə l a l o ğ l u (d.1950) – təyyarəçi. 1991–93-cü illərdə Aviasiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, 1996-cı ildən «Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş direktorudur. – 197–222.

178. Gəncə – Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 km², əhalisinin sayına görə Bakıdan sonra ikinci şəhərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 202,214,215,232,336.

179. Füzuli (1959-cu ilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1386 km², əhalisi 80,2 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 214.

180. İmişli (1938-ci ilədək Qaradonlu rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Cənub–qərbdə İranla həmsərhəddir. Sahəsi 1821 km², əhalisi 106,6 min nəfərdir. – 214.

181. Təbriz – İranda şəhər. Cənubi Azərbaycanın ən böyük şəhəri, iqtisadi və mədəniyyət mərkəzi, Şərqi Azərbaycan ostanının inzibati mərkəzi. Əhalisi 1,1 milyon nəfərdir.

Təbriz Azərbaycanın ən qədim şəhərlərindəndir. Rəvvadilər dövlətinin (852), Eldəgəzlər dövlətinin (1174), Ağqoyunlular dövlətinin (1468), Səfəvilər dövlətinin (1501) paytaxtı olmuşdur. XV–XVII əsrlərdə Təbriz Yaxın Şərqin mühüm sənətkarlıq və ticarət mərkəzlərindən idi. Təbrizi «Şərqin paytaxtı» da adlandırırdılar.

1826–28-ci illər Rusiya–İran müharibəsi nəticəsində Türkmənçay müqaviləsinə (1828) görə Təbriz İranın hakimiyyəti altında qaldı. – 212,216.

182. Ordubad rayonu – Naxçıvan MR-də inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. 1963-cü ildə ləğv edilərək ərazisi Cülfa rayonu ilə birləşdirilmişdi. 1965-ci ildə müstəqil rayon olmuşdur. Sahəsi 0,97 min km², əhalisi 41347 nəfərdir. – 216,263.

183. Şahbuz rayonu – Naxçıvan MR-də inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. 1963-cü ildə ləğv edilərək ərazisi əvvəl Naxçıvana (1978), sonra Babək rayonuna verilmişdi. 1965-ci ildən yenidən müstəqil rayondur. Sahəsi 0,82 min km², əhalisi 21500 nəfərdir. – 223-239,262,347.

184. Yeni Azərbaycan Partiyası (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 225,289.

185. Kolanı – Şahbuz rayonunda kənd, Naxçıvan–çayın (Arazın qolu) sahilindədir. Əhalisi 1607 nəfərdir. – 226,228–234,247.

186. Batabat – Şahbuz rayonu ərazisində şirin sulu göl. Naxçıvançayın hövzəsindədir. Sahəsi 16 hektar, 1951–55-ci illərdə təbii gölün əsasında eyni adlı su anbarı yaradılıb istifadəyə verilmişdir. – 227,236

187. Şamaxı – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 3848 km^2, əhalisi 83,1 min nəfərdir. – 232.

188. Mahmud Kərimov, M a h m u d K ə r i m o ğ l u (d.1948) – fizik, fizika–riyaziyyat elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki və prezidenti. İlk dəfə olaraq yüksək molekullu sistemlərdə güclü elektrik və maqnit sahəsinin təsiri ilə baş verən elementar elektrik və moleklyar prosesləri, elektrik və fotoelektrik keçiricilərinin maqnit spin effektlərini tədqiq etmişdir. Bir sıra ixtisaslaşdırılmış elmi şuraların üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 240–255.

189. İsa Həbibbəyli, İ s a Ə k b ə r o ğ l u (d.1949) – ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor, Azərbaycan MEA-nın həqiqi üzvü. Naxçıvan Dövlət Universitetinin rektorudur. Naxçıvan MR Ali Məclisinin (1-2 çağırış) deputatı olmuşdur. Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. – 240–255.

190. Gəmiqaya təsvirləri – Azərbaycanın Ordubad şəhərində Gəmiqaya dağlarında e.ə. 3–1-ci minilliklərə aid qayaüstü rəsmlər. 1968-ci ildə aşkar olunmuşdur. Axtarış nəticəsində insan və heyvan rəsmləri, rəqs səhnələri, yay və oxla keçi ovlanması səhnəsi, müxtəlif işarələr və s. aşkar edilmişdir. Gəmiqaya rəsmləri Azərbaycanın qədim təsviri sənətinin Naxçıvan mədəniyyətinə aiddir. – 243,244,251,252.

191. «Şərq qapısı» – ictimai-siyasi qəzet. Naxçıvan MR Ali Məclisinin və Nazirlər Kabinetinin orqanı. İlk nömrəsi 1921-ci il «Cavanlar həyatı» adı ilə çıxmışdır. 1922-ci ildən 1980-ci ilədək «Şərq qapısı» adı ilə çap olunmuşdur. 1980-ci ildən 1989-cu ilədək «Sovet Naxçıvanı» adı ilə çıxmışdır. 1989-cu ilin sonunda «Şərq qapısı» adı özünə qaytarılmışdır. Qəzet ölkəmizin həyatını əks etdirən materiallarla yanaşı, dünyada baş verən ictimai-siyasi hadisə və proseslərə dair yazılar da dərc edir. Hazırda qəzet həftədə 2 dəfə, 8 səhifə həcmində çıxır. – 244,245.

192. Böyük Teatr – Rusiya Federasıyasında Dövlət Akademik Böyük Teatrı. Əsası 1776-cı ildə Moskvada qoyulmuşdur. Burada xarici və rus operaları və baletləri tamaşaya qoyulur. XX əsrin əvvəllərindən teatrda çalışan vokalistlər və balet ustaları dünya şöhrəti qazanmışlar. – 245.

193. Qorbaçov, M i x a i l S e r g e y e v i ç (d.1931) – 1985–91-ci illərdə Sov.İKP MK-nın Baş katibi, 1990–91-ci illərdə SSRİ-nin ilk və son prezidenti. Qorbaçov «yenidənqurma» adı ilə «aşkarlıq və demokratiya» siyasi xəttini, «humanist, demokratik sosializm» şüarını meydana atdı. Sovet totalitar rejimi ilə uyuşmayan «yenidənqurma» ölkəni dərin siyasi və iqtisadi böhrana saldı. Qorbaçovun milli münaqişələrə səbəb olan siyasəti, xüsusən Azərbaycana qarşı qərəzli, düşmənçilik mövqeyi ilə səciyyələnirdi. Ermənilərin Azərbaycana olan torpaq iddialarını dəstəkləyən Qorbaçov 1990-cı ilin yanvarında Bakıda baş verən qanlı Yanvar faciəsinin təşkilatçısı və günahkarıdır. – 245.

194. Fatma Abdullazadə, F a t m a H ü s e y n q ı z ı (d.1948) – fizika–riyaziyyat elmləri doktoru, professor. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı humanitar siyasət şöbəsinin müdiridir. 1995–2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 249,421–429.

195. Vəli Əliyev, V ə l i H ü s e y n o ğ l u (d.1936) – tarixçi–arxeoloq. Tarix elmləri doktoru, professor. Azərbaycan MEA-nın müxbir üzvü. 1997-ci ildən N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin ümumi tarix kafedrasının müdiridir. Naxçıvan MR-in maddi mədəniyyət abidələrinin əsas tədqiqatçılarındandır. – 251.

196. Məmməd Səid Ordubadi, M ə m m ə d S ə i d H a c a ğ a o ğ l u O r d u b a d i (1872–1950) – Azərbaycan yazıçısı, şair, dramaturq, publisist, ictimai xadim. M.S.Ordubadi Azərbaycan ədəbiyyatında daha çox 30–40-cı illərdə yazdığı tarixi romanları ilə məşhurdur. O, Azərbaycan ədəbiyyatında tarixi roman janrının əsasını qoymuşdur. – 253.

197. Ziya Bünyadov, Z i y a M u s a o ğ l u (1921–1997) – görkəmli Azərbaycan alimi, şərqşünas–tarixçi, ictimai xadim. Böyük Vətən müharibəsi (1941–45) iştirakçısı, Sovet İttifaqı Qəhrəmanı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1989–1997-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, 1995-ci ildən Milli Məclisin deputatı olmuşdur. 1997-ci ildə Azərbaycanın dövlətçiliyinə və müstəqilliyinə düşmən olan qüvvələr tərəfindən xaincəsinə qətlə yetirilmişdir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 253.

198. Atabəylər dövləti – Azərbaycanda Eldənizlər sülaləsinin idarə etdiyi qüdrətli feodal dövlət [1136–1225]. Azərbaycan Atabəyləri Dövlətinin əsasını Şəmsəddin Eldəniz qoymuşdur. Azərbaycan Atabəyləri Dövlətinin yaranma tarixi Sultan Məsudun (1135–52) Arranı (Bərdəni) bir iqta kimi Şəmsəddinə verməsi ilə bağlıdır. Paytaxtı müxtəlif vaxtlarda Naxçıvan, Həmədan, Təbriz olmuşdur. – 253.

199. Naxçıvan xanlığı – Azərbaycanda XVIII əsrin ortalarında Nadir şah Əfşar əyanlarının sui-qəsdi nəticəsində öldürüldükdən sonra Kəngərli tayfasının başçısı Heydərqulu xan İran naibi Ağa Həsəni Naxçıvandan qovmuş və özünü xan elan etmişdi. Xanlıq Zəngəzur dağlarından Araz çayı dərəsinədək ərazini əhatə edirdi. Əlincə, Xok, Dərələyəz, Ordubad, Əylis, Dəstə, Bəllav mahallarına bölünürdü. Naxçıvan xanlığının inzibati, həm də başlıca ticarət mərkəzi Naxçıvan şəhəri idi.Türkmənçay müqaviləsinə (1828) əsasən Naxçıvan xanlığı İrəvan xanlığı ilə birlikdə Rusiyaya birləşdirildi. – 253.

200. İrəvan xanlığı – XVIII əsrin ortalarında Cənubi Qafqazda, keçmiş Çuxursəd bəylərbəyliyi ərazisində yaranmış müstəqil Azərbaycan feodal dövləti; Ağrıdağ düzənliyinin Göyçə gölü hövzəsini və Araz çayından cənub–qərbə doğru uzanan ərazini əhatə edirdi. Azərbaycanın cənub–qərbində yerləşən bu xanlıq paytaxtı İrəvan şəhəri olmaqla inzibati cəhətdən 15 mahala bölünürdü, İrəvan xanlığı 1747–97-ci illərdə müstəqil dövlət olmuş, 1797–1828-ci illərdə İranın hakimiyyəti altında olmuşdur. Türkmənçay müqaviləsinə (1828) görə Rusiyanın tərkibinə keçmişdi. Bu zaman İrəvan xanlığı ərazisində 420-dən çox kənd dağıdılmış, 10 minlərlə azərbaycanlı əhali məhv edilmişdi. – 254.

201. Abid Şərifov, A b i d Q o c a o ğ l u (d.1940) – inşaatçı. 1995-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavinidir. – 256–266,267–278,358.

202. Culfa – Naxçıvan MR-də inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Şimal–Şərqdə Ermənistan, cənubda İranla həmsərhəddir. Sahəsi 1,0 min km^2, əhalisi 37 min nəfərdir. – 259.

203. Qənirə Paşayeva, Q ə n i r ə Ə l ə s g ə r q ı z ı (d.1975) – pediatr, jurnalist və hüquqşünas. 3 və 4-cü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. 2005-ci ildən Heydər Əliyev Fondunun İctimaiyyətlə Əlaqələr departamentinin rəhbəridir. Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin və Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür. – 279–306,348.

204. Olbrayt Madlen (d.1937) – ABŞ-ın tanınmış diplomatı və dövlət xadimi. 1989-cu ildən ABŞ-ın Milli Siyasət Mərkəzinin prezidentidir. 1993-cü ildə ABŞ-ın BMT-də daimi nümayəndəsi təyin edilmişdir. 1997–2000-ci illərdə ABŞ-ın Dövlət katibi olmuşdur. – 280,394.

205. Frans–Press – Fransa informasiya agentliyi. Muxtar kommersiya müəssisəsidir. Havae Fransa məlumat agentliyinin (1835) varisi kimi, 1944-cü ildə yaradılmışdır. Parisdə fəaliyyət göstərir. 155 ölkəyə fransız, ingilis, ispan, portuqal, alman və ərəb dillərində informasiya yayır. Bir çox ölkəni beynəlxalq informasiya ilə təchiz edən dünya agentliklərindəndir. – 282.

206. Jak Şirak (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974–76 və 1986–88-ci illərdə Fransanın Baş naziri, 1977–95-ci illərdə Paris şəhərinin meri, 1995–2007-ci illərdə Fransa Respublikasının prezidenti. «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 285,433.

207. Vaqif Axundov, V a q i f Ə l i b a l a o ğ l u (d.1950) – general-leytenant. 1993-cü ildən Azərbaycan Respublikası Ali Dövlət Hakimiyyəti və İdarəetmə Orqanları Baş Mühafizə İdarəsinin rəisidir. – 286.

208. Andreas Qross (d.1952) – siyasi elmlər üzrə mütəxəssis. İsveçrə Sosial–Demokrat Partiyasının üzvü. 1991-ci ildən İsveçrə Nümayəndələr Palatasının üzvüdür. Son 8 ildə Avropa Şurası Parlament Assambleyasının üzvlərindən biridir. – 289,290-,391.

209. Qazaxıstan, Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avroasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2724,9 min km², əhalisi 16 679 min nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. – 292,293,379.

210. Hacıbala Abutalıbov, H a c ı b a l a İ b r a h i m o ğ l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika–riyaziyyat elmləri doktorudur. – 293,370.

211. Qırğızıstan, Q ı r ğ ı z ı s t a n R e s p u b l i k a s ı – Şimal–Şərqi Orta Asiyada dövlət. Sahəsi 198,5 min km², əhalisi 4526 min nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkekdir. – 293,366.

212. «907-ci maddə» – ABŞ Konqresinin 1992-ci il oktyabrın 24-də erməni lobbisinin təzyiqi ilə qəbul etdiyi «Rusiyanın və yeni müstəqillik qazanmış dövlətlərin azadlığını müdafiə aktı»na 907-ci düzəliş nəzərdə tutulur. Düzəliş ABŞ hökumətinin Azərbaycan hökumətinə yardımını qadağan edir. Buna baxmayaraq, istər Bill Klinton, istərsə də ondan sonra ABŞ prezidenti seçilən Corc Buş administrasiyası bu düzəlişin reallığı nəzərə almadığını təsdiq edərək onun ləğv edilməsi təklifini müdafiə etmişlər. C.Buş hökuməti 2002-ci ildə bu düzəlişin fəaliyyətdən düşdüyünü qərara almışdır. – 295.

213. Konqres, A m e r i k a B i r l ə ş m i ş Ş t a t l a r ı K o n q r e s i – ali qanunverici hakimiyyət orqanı. İki palatadan – Senatdan və Nümayəndələr palatasından ibarətdir.

Senatın 100 nəfər üzvü var. Ölkənin hər ştatından Senata iki senator seçilir. Nümayəndələr palatasının 435 üzvü var. Bu palatanın üzvləri hər seçki dairəsində yaşayan əhalinin sayına görə seçilir. Qanun layihələri hər iki palatada müzakirə olunur. Konqres tərəfindən qəbul olunan qanunları ABŞ prezidenti təsdiq edir. – 295.

214. Fuad Ələsgərov, F u a d M u r t u z o ğ l u (d.1959) – hüquqşünas. 1994-cü ildən Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiridir. – 296.

215. Nardaran – Azərbaycan Respublikasında şəhər tipli qəsəbə. Abşeron rayonundadır. Nardaranda orta əsrlərdən qalmış memarlıq abidələrindən ən qədimi yerli feodal qəsridir. Qəsrdən bir az aralıdakı «Xan bağının» XIV–XV əsrlərdə tikilməsi və Şirvanşahların yay iqamətgahlarından biri olması ehtimal edilir. Nardaranda bir neçə qədim məscid də qalmışdır. Nardaranda memarlıq formalarının dəqiqliyi ilə fərqlənən Xan hamamı (1388, memar Kəştasif Mussa oğlu), karvansara (IV əsr), Ramazan məscidi (1681) və s. abidələr də mühafizə olunmuşdur. – 296.

216. Pənah Hüseynov, P ə n a h Ç o d a r o ğ l u (d.1957) – Azərbaycan Respublikası Milli Məclisinin (2005–2010) üzvü. Milli Məclisin Təhlükəsizlik və Müdafiə məsələləri komitəsinin üzvü olmuşdur. 1993-cü ildə Azərbaycan Respublikasının Baş naziri vəzifəsində çalışmışdır. – 297,299.

217. Azərbaycan Xalq Cəbhəsi (AXC) – ictimai-siyasi təşkilat. 1989-cu ildə təsis konfransı keçirilmiş, Proqram və Nizamnaməsi qəbul olunmuşdur. 1999-cu il iyulun 25-də keçirilmiş qurultayının qərarı ilə Azərbaycan Xalq Cəbhəsi Partiyası adlandırılmışdır. – 298,299,336.

218. Ayaz Mütəllibov, A y a z N i y a z o ğ l u (d.1938) – 1989–90-cı illərdə Azərbaycan SSR Nazirlər Sovetinin sədri, 1990–92-ci illərdə Azərbaycan KP MK-nın Birinci katibi, Azərbaycan Respublikasının prezidenti olmuşdur. Ayaz Mütəllibov işində ciddi səhvlərə yol vermiş, nəticədə Er-

mənistan silahlı qüvvələri Dağlıq Qarabağdan azərbaycanlı əhalini çıxarmış və ərazini işğal etməyə nail olmuşlar. – 298,299.

219. Surət Hüseynov, S u r ə t D a v u d o ğ l u (d.1959) – 1993–1994-cü illərdə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. 1994-cü ilin oktyabrında Azərbaycanın müstəqilliyinə, suverenliyinə qarşı yönəlmiş çevriliş cəhdinə rəhbərlik etmişdir. – 298,300,336.

220. Rəhim Qazıyev, R ə h i m H ə s ə n o ğ l u (d.1943) – texnika elmləri namizədi. 1992–93-cü illərdə Azərbaycan Respublikasının Müdafiə naziri olmuşdur. Ordu quruculuğunda kobud səhvlərə yol vermiş, nəticədə Azərbaycan torpaqlarının bir hissəsi, o cümlədən Şuşa şəhəri ermənilər tərəfindən işğal olunmuşdur. – 299,300.

221. İsa Qəmbərov, İ s a Y u n i s o ğ l u (d.1957) –1990–95-ci illərdə Milli Məclisin deputatı, 1992–93-cü illərdə parlamentin sədri olmuşdur. 1992-ci ildən Müsavat Partiyasının başqanıdır. – 299.

222. Ələkram Hümbətov, Ə l ə k r a m Ə l ə k b ə r o ğ l u – 1993-cü ildə Azərbaycan Respublikasını parçalamaq məqsədilə qanunsuz hərbi qruplaşmaya rəhbərlik etmiş, qondarma «Talış-Muğan Respublikası»nı yaratmaq cəhdi göstərmişdir. – 299.

223. Makedoniyalı İsgəndər, Böyük Aleksandr, İsgəndər Zülqərneyn (e.ə. 356–323) – qədim dünyanın ən böyük sərkərdələrindən biri, 336-cı ildən Makedoniyanın çarı. Çar II Filippin oğlu; Aristotelin yanında tərbiyə almışdır. O, Orta Asiyanı və Hindistanı fəth edərək ucu-bucağı görünməyən bir dövlət yaratdı. Makedoniyalı İsgəndərin Azərbaycanda olması haqqında rəvayətlər var. – 300.

224. Anar, R z a y e v A n a r R ə s u l o ğ l u (d.1938) – görkəmli yazıçı, publisist, dramaturq, ictimai xadim, Azərbaycanın Xalq yazıçısı. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Azərbaycan və SSRİ Ali sovetlərinin deputatı olmuşdur. 1995–2005-ci illərdə Milli Məclisin deputatı və Mədəniyyət məsələləri komissiyasının sədri idi. 1987-ci ildən Azərbaycan Respublikası Yazıçılar Birliyinin sədridir. Əsərləri dünyanın bir çox

ölkələrində nəşr olunmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni və «Heydər Əliyev» mükafatı ilə təltif edilmişdir. – 315.

225. Beynəlxalq Qızıl Xaç Cəmiyyəti – Qızıl Xaç Liqasını, Beynəlxalq qızıl Xaç Cəmiyyətini və Qızıl Xaç Liqasının ictimai təşkilatlarını birləşdirən beynəlxalq ictimai təşkilat.

1863-cü ildə əsası qoyulan bu təşkilatın işi İsveçrə vətəndaşlarının hərbi münaqişələrdə zərər çəkənlərə yardım etməkdir. – 315.

226. Dünya Bankı – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 315.

227. KQB – burada SSRİ Dövlət Təhlükəsizlik Komitəsi nəzərdə tutulur.

228. Atal Bihari Vacpai (d.1924) –siyasətçi. 1996–2004-cü illərdə Hindistanın Baş naziri olmuşdur. – 339.

229. Koreya, K o r e y a R e s p u b l i k a s ı – Şərqi Asiyada dövlət. Sahəsi 98,5 min km², əhalisi 45,2 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə və 6 mərkəzi tabe şəhərə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı – birpalatalı Milli Məclisdir. Paytaxtı Seuldur. – 340.

230. Kim De Çjun (d.1926) – 1997–2003-cü illərdə Koreyanın prezidenti. Milli Konqres Yeni Siyasətdə partiyasının lideri. Demokratiya və insan hüquqlarının müdafiəçisi. Həmçinin Şimali Koreya ilə sülh və barışığa görə Nobel mükafatı laureatı. – 340.

231. İndoneziya, İ n d o n e z i y a R e s p u b l i k a s ı – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 1904,5 min km², əhalisi 198,2 milyon nəfərdir. İnzibati ərazisi 24 əyalətə, əyalət statusu olan 2 xüsusi inzibati əraziyə, 1 metropoliten mahalına (paytaxt) bölünür. Dövlət başçısı prezi-

dent, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 341.

232. Meqavati Sukarnoputri (d.1947) – 2001–2004-cü illərdə İndoneziyanın prezidenti olmuşdur. Prezident Sukarnonun qızıdır. – 341.

233. Həmid Kərzai (d.1957) – 2004-cü ildən Əfqanıstan İslam Dövlətinin prezidenti. 2001–2002-ci illərdə Əfqanıstanın Baş naziri olmuşdur. Kərzayi Əfqanıstanı 200 il idarə etmiş tanınmış Populzay qəbiləsindən olan puştu klanının nümayəndəsidir. – 342.

234. Zaqatala – Azərbaycan Respublikasında inzibati rayon 1930-cu ildə təşkil edilmişdir. Şimal–şərqdə Dağıstan, cənub–qərbdə Gürcüstan ilə həmsərhəddir. Sahəsi 1348 km², əhalisi 109,3 min nəfərdir. – 232.

235. Pərviz Müşərrəf (d.1943) – 2001–2008-ci illərdə Pakistan Respublikasının prezidenti, ordu generalı. 1988–90 və 1993–96-cı illərdə Pakistanın Baş naziri, 1998-ci ildə Baş qərargah rəisi olmuşdur. – 343.

236. Nepal, N e p a l K r a l l ı ğ ı – Cənubi Asiyada dövlət. Sahəsi 140,8 min km², əhalisi 15 milyondan çoxdur. İnzibati cəhətdən 14 zonaya bölünür. Nepal konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqan Milli Pançayatdır. Paytaxtı Katmandudur. – 345.

237. Qyanendra Bir Bikram Şah Dev (d.1947) – Nepal kralı. 2006-cı ildə ölkədə olan bir sıra etiraz tətillərinə görə Nepal kralı ölkənin bir çox vəzifələrindən məhrum edilmişdir. – 345.

238. Cəlilabad (1967-ci ilədək Astraxanbazar rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Qərbdə İranla həmsərhəddir. Sahəsi 1441 km², əhalisi 175,9 min nəfərdir. – 349.

239. Bərdə – Azərbaycan Respublikasında şəhər. Bərdə Azərbaycanın ən qədim şəhərlərindəndir. Ərəb tarixçisi Bəlazuri (XI əsr) Bərdənin Sasani hökmdarı I Qubadın (488–531), İran tarixçisi Həmdullah Qəzvini (XIV əsr) isə Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–23) salındığını göstərmişdir. – 349.

240. Rau Yohannes (1931–2006) – Almaniya dövlət xadimi. Almaniya Sosial Demokrat Partiyasının liderlərindən biri. 1999–2004-cü illərdə Almaniyanın federal prezidenti olmuşdur. – 351.

241. Gerhard Şröder (d.1944) – Almaniyanın dövlət və siyasi xadimi. 1980-ci ildən Almaniya Bundestaqının üzvü, 1990–98-ci illərdə Aşağı Saksoniya vilayətinin nazir–prezidenti, 2000–06-cı illərdə Almaniyanın federal kansleri olmuşdur. – 352.

242. Çexiya, Ç e x i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km², əhalisi 10,3 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar palatası) parlamentdir. Paytaxtı Praqadır. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. – 353.

243. Vatslav Havel (d.1936) – Çexiyanın görkəmli siyasi və dövlət xadimi, dramaturq. Kommunist rejimi zamanı ölkədə hüquq müdafiəçilərinin liderlərindən biri olmuşdur. Dəfələrlə həbs edilmişdir. 1989-cu ildən «Vətəndaş forumu» hərəkatının başçısı idi. 1989–92-ci illərdə Çexoslovakiyanın, 1993-cü ildən 2003-cü ilə qədər Çexiyanın prezidenti olmuşdur. – 353.

244. Azərbaycan Dövlət Opera və Balet Teatrı – respublikanın ən böyük musiqi teatrı. Azərbaycan XKS-nin 1920-ci il 1 iyul tarixli qərarı ilə Birləşmiş Dövlət Teatrı tərkibində opera truppası kimi yaradılmışdı. 1924-cü ildə opera truppası bu teatrdan ayrılaraq müstəqil opera və balet teatrına çevrilmişdir. 1928-ci ildə teatra M.F.Axundovun adı verilmişdir. 1959-cu ildən Akademik Opera və Balet Teatrı adlanır. – 354.

245. İlhamə Quliyeva, İ l h a m ə M ə z a h i r q ı z ı (d.1943) – estrada müğənnisi. Azərbaycan Respublikasının Xalq artisti. 40 ildən çoxdur müğənni kimi sənətdədir. Repertuarına Azərbaycan bəstəkarlarının ən yaxşı əsərləri daxildir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 356.

246. Ümid körpüsü, H ə s r ə t k ö r p ü s ü – Araz çayı üzərində körpü (uz. 286 metr). Türkiyə ilə Azərbaycan arasında sərhəddə (Türkiyənin Dilucu və Azərbaycanın Sədərək bölgələri) iki qardaş dövlət və ölkəni birləşdirir. 90-cı illərin əvvəllərində Naxçıvan MR-nin keçirdiyi iqtisadi çətinliklərin, xüsusilə nəqliyyat blokadasının ləğvində körpünün müstəsna rolu olmuşdur. – 360.

247. Ross Uilson (d.1955) – 2000–2003-cü illərdə Azərbaycanda Amerika Birləşmiş Ştatlarının Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. Hazırda Ross Uilson Türkiyədə ABŞ-ın səfiri vəzifəsində çalışır. – 361–365.

248. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) –1994-cü ilin axırlarında yaradılmışdır. «Xəzərin Azərbaycan sektorunda neft yataqlarının müştərək işlənilməsi və istifadəyə verilməsi» haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə dünyanın bir neçə böyük neft şirkətləri arasında imzalanmış müqavilənin payçıları adından onun şərtlərini həyata keçirmək məqsədilə yaradılmış əməliyyat şirkətidir. Buraya 7 ölkəni (B.Britaniya, Yaponiya, Norveç, Rusiya, Türkiyə və Səudiyyə Ərəbistanı) təmsil edən 11 iri neft şirkəti daxildir. – 362.

249. Əsgər Akayev (d.1944) – Qırğızıstanın dövlət xadimi. 1989–90-cı illərdə Qırğızıstan EA-nın prezidenti, 1990–2005-ci illərdə Qırğızıstan Respublikasının prezidenti olmuşdur. – 366.

250. Malayziya – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 329,7 min km^2, əhalisi 20,4 milyon nəfərdir. Malayziya federasiyadır. Tərkibinə 13 ştat və federal ərazi – Kuala-Lumpur və Lavyan daxildir. Millətlər Birliyinin üzvüdür. Malayziya konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultanlığın ştat başçıları tərəfindən 5 il müddətinə seçilən kraldır. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Kuala-Lumpurdur. – 368.

251. Mahathir Məhəmməd (d.1925) – Malayziya siyasi xadimi. 1981–2003-cü illərdə Malayziyanın Baş naziri olmuşdur. Mahathir Məhəmməd Malayziya iqtisadiyyatını və infrastrukturunu inkişaf etdirmiş, ölkə inkişaf etmiş ölkələr siyahısına daxil olmuşdur. – 368.

252. Nursultan Nazarbayev, Nursultan Abiş oğlu (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1990-cı ildə həm də Ali Sovetin sədri, 1991-ci ildə Qazaxıstan SSR-nin prezidenti və 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 379.

253. «Mərmərə» qrupu Strateji və Sosial Araşdırmalar Vəqfi – 1985-ci ildə İstanbulda yaradılmışdır. Hazırda 200-dən çox üzvü olan bu qrupa tanınmış sənət və iş adamları, nazirlər və millət vəkilləri daxildirlər. Qrup xarici ölkələrin prezidentləri, görkəmli dövlət xadimləri, nüfuzlu siyasətçiləri ilə mütəmadi olaraq görüşlər keçirir. – 381–288.

254. Akkan Suvər (d.1942) – Türkiyə jurnalisti. Fəlsəfə elmləri doktoru. «Mərmərə» qrupunun sədridir. – 381–388.

255. Qafqaz Universiteti – Türkiyədə elmi-tədqiqat universiteti. Universitetin mərkəzi Qars şəhərindədir. 1992-ci ildə yaradılmışdır. Universitetin 7 fakültəsi, 7 peşə məktəbi, 1 dövlət konservatoriyası, 6 araşdırma mərkəzi olmaqla, 26 elmi müəssisəsi, 468 professor və müəllim heyəti və 12 min tələbəsi var. – 382.

256. Qars müqaviləsi (1921) – Azərbaycan, Ermənistan və Gürcüstan Sovet Sosialist Respublikaları ilə, Türkiyə, RSFSR-in iştirakı ilə oktyabrın 13-də Qarsda bağlanmışdır. Qars müqaviləsinin 5-ci maddəsi və III əlavəsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqlədi, onun sərhədlərini qəti surətdə müəyyənləşdirdi. Qeyd olunan maddədə dürüst və konkret göstərilirdi: «Türkiyə hökuməti, Sovet Ermənistanı və Azərbaycan hökumətləri razıdırlar ki, indiki müqavilənin III əlavəsində göstərilən sənədlərdə Naxçıvan vilayəti Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil edir». Qars müqaviləsi beynəlxalq müqavilə kimi, Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi statusunu təsbit etmişdir. Təsadüfi deyildir ki, Naxçıvan MR-nin təhlükəsizliyi hədələnəndə Qars müqaviləsi mühüm tarixi sənəd olmaqla, onun taleyinin qarantı kimi, gündəliyə gəlir. – 382.

257. Tansu Çillər (d.1946) – Türkiyənin siyasi və dövlət xadimi. 1991-ci ildən TVMM-nin üzvü, 1993-cü ildən isə «Doğru yol» Partiyasının sədri, 1993–95-ci illərdə Türkiyə Cümhuriyyətinin Baş naziri olmuşdur. – 385.

258. Məsud Yılmaz (d.1947) – Türkiyənin siyasi və dövlət xadimi. 1997-ci ildə Türkiyə Cümhuriyyətinin Baş naziri olmuşdur. Ana Vətən Partiyasının başqanı olmuşdur. – 385.

259. Mustafa Kamal Atatürk, Q a z i M u s t a f a K a m a l (1881–1938) –Türkiyə dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923–38). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «kamalçılar hərəkatına» – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 386,387,388.

260. «Röyter» – İngiltərənin xarici informasiya agentliyi. 1851-ci ildə Londonda yaradılmışdır. «Pöyter» B.Britaniyanın rəsmi teleqraf agentliyidir. – 389.

261. Kolorado – ABŞ-ın qərbində ştat, qayalı dağların yamacındadır. Sahəsi 270 min km^2, əhalisi 4056 min nəfərdir. İnzibati mərkəzi Denver şəhəridir. – 394.

262. Qətər, Q ə t ə r d ö v l ə t i – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 11 min km^2, əhalisi 59 min nəfərdir. Dövlət başçısı əmirdir. Paytaxtı Dəha. – 398.

263. Həməd Bin Xəlifə əl-Tani (d.1952) – 1995-ci ildən Qətər əmiri, 1997-ci ildə regionda – ilk dəfə Qətərdə qadınlara seçkilərdə iştirak etmək hüququ verdi. – 398.

264. Liviya, L i v i y a Ə r ə b X a l q S o s i a l i s t C ə m a h i r i y y ə s i – Şimali Afrikada dövlət. Sahəsi 1759,5 min km², əhalisi 5,4 milyon nəfərdir. Liviyanın rəhbər orqanı–inqilabi rəhbərdir. Qanunverici orqanı Umumi Xalq Konqresidir. Dövlətin funksiyasını Ali Xalq Komitəsi yerinə yetirir. Paytaxtı Tripolidir. – 399.

265. Müəmmər Əl–Qəddafi (d.1942) – Liviyanın dövlət və siyasi xadimi. 1970–2011-ci illərdə Liviyanın prezidenti olmuşdur. –399.

266. Slovakiya, S l o v a k i y a R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 49 min km², əhalisi 3,4 milyon nəfərdir. İnzibati cəhətdən 3 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Milli Şuradır. Paytaxtı Bratislavadır. 1992-ci ilin noyabrına qədər Çexoslovakiyanın tərkibində olmuşdur. – 400.

267. Rudolf Şuster (d.1934) – 1990–92-ci illərdə Slovakiyanın Kanadada səfiri, 1994–99-cu illərdə Kosiçi şəhərinin meri, 1999–2004-cü illərdə Slovakiya Respublikasının prezidenti olmuşdur. – 400.

268. İslam Kərimov, İ s l a m Ə b d u q ə n i o ğ l u (d.1938) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı illərdə Özbəkistan KP MK-nın Birinci katibi olmuşdur. 1990-cı ildən Özbəkistan Respublikasının prezidentidir. – 401.

269. Volqa – Don gəmiçilik kanalı – Volqa və Don çaylarını birləşdirən gəmiçilik kanalı. 1948–52-ci illərdə çəkilmişdir. Uzunluğu 101 km-dir. Kanalda 50-dən çox hidrotexniki qurğu, o cümlədən 13 şlyüz var. – 402,403,404,405.

270. Ziya Məmmədov, Z i y a A r z u m a n o ğ l u (d.1952) – dəmiryolçu mühəndis. 1996–2005-ci illərdə Azərbaycan Dövlət Dəmir Yolunun rəisi, 2005-ci ildən isə Azərbaycan Respublikasının Nəqliyyat naziridir. – 403.

271. Aydın Bəşirov, A y d ı n (d.1947) – 1994-cü ildən Azərbaycan Respublikası Xəzər dəniz Gəmiçiliyi İdarəsinin rəisidir. – 403.

272. Dzünitiro Koidzumı (d.1942) – 2001–2006-cı illərdə Yaponiyanın Baş naziri olmuşdur. – 407.

273. Məleykə Abbaszadə, M ə l e y k ə M e h d i q ı z ı (d.1953) – riyaziyyatçı, texniki elmlər üzrə fəlsəfə doktoru. 2000-ci ildən Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədridir. – 412–419.

274. Qalina Pavlovna Vişnevskaya (d.1926) – görkəmli rus müğənnisi, SSRİ Xalq artisti. M.Rostropoviçin arvadı. 1952–74-cü illərdə Böyük Teatrın aparıcı solistlərindən biri olmuşdur. –420.

275. Misir Mərdanov, M i s i r C u m a y ı l o ğ l u (d.1946) – fizika-riyaziyyat elmləri doktoru, professor. Tədqiqatları, əsasən, riyaziyyatın müasir sahələrindən biri olan optimal idarəetmə nəzəriyyəsinin aktual problemlərinə həsr edilmişdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyi ali təhsil və elm idarəsinin rəisi, Təhsil nazirinin müavini, BDU-nun tədris işləri üzrə prorektoru, BDU-nun rektoru kimi müxtəlif vəzifələrdə çalışmışdır. 1998-ci ildən Azərbaycan Respublikasının Təhsil naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 421–429.

276. Eleonora Hüseynova, E l e o n o r a M ə c i d q ı z ı (d.1947) – 1994–2008-ci illərdə Azərbaycanın Fransa Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. 2008-ci ildən YUNESKO-da Azərbaycanın təmsilçisidir. – 431,432.

277. Fransua Mitteran (1916–1996) – 1981–95-ci illərdə Fransanın prezidenti. 1971–81-ci illərdə Fransa Sosialist Partiyasının Birinci katibi, 1965–68-ci illərdə Demokratik və Sosialist Sol Qüvvələri Federasiyasının lideri olmuşdur. – 432,433.

278. Yelisey sarayı – Parisdə Fransa prezidentlərinin iqamətgahı. – 433.

279. Tacikistan, T a c i k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub–şərqində dövlət. Sahəsi 143,1 min km², əhalisi 5705 min nəfərdir. İnzibati ərazisi Bədaxşən Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə. – 435.

280. İmaməli Rəhmonov, İ m a m ə l i Ş ə r i f o ğ l u (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin sədri olmuşdur. 1992-ci ilin noyabrından Tacikistan Respublikasının prezidentidir. – 435.

281. Koreya Xalq Demokratik Respublikası – Şərqi Asiyada, Koreya yarımadasında dövlət. 1948-ci ildə yaradılmışdır. Sahəsi 121,2 min km², əhalisi 23,9 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Ali Xalq Məclisidir. Paytaxtı Pxenyandır. – 436.

282. Kim Çen İr (1941 və ya 1942–2012) – 2003–2011-ci illərdə Koreya Xalq Demokratik Respublikasının başçısı, Koreya Əmək Partiyasının Baş katibi, Koreya Xalq Ordusunun Baş komandanı, KXDR-in Dövlət Müdafiə Komitəsinin sədri olmuşdur, «Dahi rəhbər» Kim İr Senin oğlu. – 436.

Şəxsi adlar göstəricisi

Abay – 5
Abbasov Abbas – 409
Abbasov Natiq – 150
Abbaszadə Məleykə – 412–419
Abdullayev Kazım – 425
Abdullazadə Fatma – 249,421–429
Abraham Spenser – 362
Abutalıbov Hacıbala – 293,370
Axundov Rza – 318
Axundov Vahid – 29
Axundov Vaqif – 286
Akayev Əsgər – 366
Aksoy Ərdal – 172–174
Albert II – 37
Amaşov Əflatun – 89–133
Anar – 315
Annan Kofi – 122,180
Arifoğlu Rauf – 89–133
Armitac Riçard – 62
Atatürk Mustafa Kamal – 386,387,388
Bağırov İlkin – 279–306
Balasaqunlu Yusif – 5
Bauçer Riçard – 39
Bayramov Bayram – 117
Bayramov Şirali – 239
Bəşirov Aydın – 403
Boniver Marqarita – 7–10
Buqayev – 220
Buş Corc – 100,101,102,106
Bülbül – 79
Bünyadov Ziya – 253
Camal Əbdül Nasir – 143,144,145

Camalbəyova Zərifə – 336,337
Çan Dik Lionq – 189,397
Çernomırdin Viktor – 63,119
Çətin Hikmət – 105
Çillər Tansu – 385
De Losada Qonsalo – 175
Dev Qyanendra – 345
Dəmirəl Süleyman – 105,383,385
Doğru Rəşad – 358–360
Dö Monbrial Tyeri – 430–434
Dubina Oleq – 408–411
Elçibəy Əbülfəz – 126,292,293,297,298
Əbdül Kalam – 156,339
Əbiyev Səfər – 157–168,286
Əfəndiyev Oqtay – 64–83
Əhmədli Zülfiyyə – 279–306
Əhmədzadə Əhməd – 256–266
Əl-Tani Həməd – 398
Ələsgərov Fuad – 296
Ələsgərov Murtuz – 112
Əliyev Almurad – 293
Əliyev Arif – 89–133
Əliyev Fərhad – 183,264
Əliyev İlham – 8,112
Əliyev Mehman – 89–133
Əliyev Tələt – 41,64–83
Əliyev Vəli – 251
Əliyeva Səbinə – 279–306
Əminzadə Möhsün – 177–183
Əmirov Fikrət – 188
Ənvər Sədat – 145
Əçgərov Cahangir – 197–222
Əzimov Araz – 119,286
Firdovsi – 151
Füzuli Məhəmməd – 5
Hacıbəyov Üzeyir – 72,136,137
Hacıyev Adil – 298

Hacıyev Hacı – 134,138
Hacıyev Rövşən – 89–133
Hacıyeva Gülnur – 321
Hacıyeva Aidə – 236
Hafiz – 151
Haşimoto – 25,26
Havel Vatslav – 353
Həbibbəyli İsa – 240–255
Həsənov Əli – 89–133
Həsənov Həsən – 89–133
Hümbətov Ələkram – 299
Hüseynov Pənah – 297,299
Hüseynov Surət – 298,300,336
Hüseynova Eleonora – 431,432
Hüseynzadə Lətif – 244
Xamenei – 148
Xatəmi – 148,151,177,181,344
İmam Rza – 151
İmaməli Rəhmonov – 435
İsmayılov Cavid – 279–306
İsmayılov Hidayət – 228–229,230
Karl Marks – 138
Kaşğarı Mahmud – 5
Kərimov İslam – 401
Kərimov Mahmud – 240–255
Kərzai Həmid – 342
Kim Çen İr – 436
Kim De Çjun – 340
Kıvrıqoğlu Hüseyn – 162
Klinton Bill – 106,284,394
Koudzumi Dzünitiro – 407
Köçəryan Robert – 107,181,191,192,228,279,280, 285,286,287,288,308–311,316, 346,347,349,361,373
Küçma Leonid – 43–44,45,54,55,57,60,61,68,76, 93,169,378,408,411
Qali Butros – 122

Qarayev Qara – 188
Qardaşov Telman – 421–429
Qasımlı İlhamə – 279–306
Qasımov Tofiq – 299
Qazıyev Rəhim – 299,300
Qəddafi Müəmmər – 399
Qəmbərov İsa – 299
Qətran Təbrizi – 151
Qəyyum Məmun – 141
Qor Albert – 119
Qorbaçov Mixail – 245
Qrevlix Klaus – 393–396
Qross Andraes – 289,290,391
Quliyev Mikayıl – 279–306
Quliyeva İlhamə – 356
Qukasyan – 264,287
Lisenko Qriqori – 411
Losada Qonsalo – 175
Mahmudov Emin – 279–306
Makedoniyalı İsgəndər – 300
Maqomayev Müslüm – 188,354–355
Mehdiyeva Məhluqə – 320
Mehdiyeva Şərqiyyə – 319
Mbeki Tabo – 176
Məcidov Rəşad – 89–133
Məhəmməd Mahathir – 368
Məhəmmədov Məhəmmədəli – 110
Məhtumqulu – 5
Məmmədquluzadə Cəlil – 136
Məmmədov Bəbir – 234–236
Məmmədov Binnət – 326
Məmmədov Məmməd – 279–306
Məmmədov Natiq – 279–306
Məmmədov Sakit – 188
Məmmədov Tokay – 184–185
Məmmədov Ziya – 403
Məmmədova Familə – 233,234

Məmmədova Kifayət – 421–429
Mərdanov Misir – 421–429
Mikayıloğlu Yadigar – 279–306
Mirzəoğlu Ramazan – 402–406
Mitteran Fransua – 432,433
Mustafayev Vaqif – 117
Mübarək Hüsni – 140,145,146
Müseyibov Tural – 279–306
Müşərrəf Pərviz – 343
Mütəllibov Ayaz – 298,299
Nadir şah – 151
Nağıyev Nazim – 124
Natan S.R. – 153
Nazarbayev Nursultan – 379
Nəcəfov Nəcəf – 117
Nəsirova Aynur – 279–306
Nəvai – 5
Nizami – 5,106,187
Niyazi – 188
Niyazov Saparmurad – 34
Olbrayt Madlen – 280,394
Oldinq-Smi Con – 29–33
Ordubadi Məmməd Səid – 253
Özal Turqut – 105
Özkök Hilmi – 171
Paşayeva Qənirə – 279–306,348
Polad Bülbüloğlu – 79,80
Polfer Lidi – 11–21
Polliyeva Cahan – 186–188
Puqaçova Alla – 186
Putin Vladimir – 100,101,102,106,107,108,109, 111, 188,380
Raffaello Mario – 9,10,281
Rasizadə Artur – 29,110,113
Rau Yohannes – 351
Rəfsancani Haşimi – 149
Rəhmonov İmaməli – 435

Ryutaro Haşimoto – 25,26
Saxarov Dmitri – 105
Salmanov Zakir – 239
Seyken Suqiura – 24–28
Seyidzadə Dilarə – 100,348
Sezər Əhməd Necdət – 147,357,384
Sədi – 151
Sufi Əli – 183,264
Sukarnoputri Meqavati – 341
Suvər Akkan – 381–388
Şaxəlilov Şamansur – 45
Şevardnadze Eduard – 41–43,45,54,55,60,61
Şəhriyar Məhəmməd – 151
Şərifov Abid – 256–266,267–278,358
Şirak Jak – 285,433
Şıxlı Elçin – 89–133
Şröder Gerhard – 352
Şister Rudolf – 400
Şvidkov Mixail – 186–188
Şvimmer Valter – 289
Tahirli Gündüz – 89–133
Talıbov Vasif – 195–196,197–222,237,240–255, 256–266,267–278,315,316,317, 334,335
Talışinski Rauf – 89–133
Ter-Petrosyan Levon – 110,279,283,285
Teylor Uilyam – 62,86
Traykovski Boris – 155,394
Uilson Teylor – 361–365
Uluqbəy Mirzə – 5
Uribe Alvaro – 35
Usubov Ramil – 96,123
Verhofstadt Gi – 36
Villiger Kaspar – 154
Vişnevskaya Qalina – 420
Voronin Vladimir – 45,54,91,93,369
Yaqubova Şəmsiyyə – 321

Vaspai Atal – 339
Yəsəvi – 5
Yeltsin Boris – 109,110
Yılmaz Məsud – 385
Yunis İmrə – 5
Zamanov Dağbəyi – 234
Zeynalova Svetlana – 424
Zərbdabi Həsən bəy – 135,136
Zülfüqarov Tofiq – 119
Zülfüqarov Vaqif – 230–232
Zyuqanov Gennadi – 110

Coğrafi adlar göstəricisi

Abxaziya – 119,120
Ağcakənd – 85
Ağdam – 192
Almaniya – 15,73,76,351,352,393–396
Amerika (*qitə*) – 15
Amerika Birləşmiş Ştatları – 15,17,18,39,51,58,59,62,86,100, 101,115,117,119,180,280,284, 295,316,361–365,394
Ankara – 212,282
Araz sayı – 263
Arış (*Nax.MR-də kənd*) – 225
Avropa – 12,14,15,20,21,22,59,62,71,72,73, 200,433
Asiya – 22,27,62
Bakı – 6,23,34,35,36,37,71,75,76,77,88, 96,116,126,141,144,146,147,150, 153,154,155,156,169,172,175, 176,185,186,189,197,199,201, 202, 206,214,215,219,20,222,232, 276,288,289,302,336,338,339, 340,341,342,343,344,345,351, 352,353,355,356,357,358,366, 367,368,369,370,371,372,378, 379,380,383,397,398,399,400, 408,409,416,421,435,436
Baltik dənizi – 93,410,411
Başqırdıstan – 293
Batabat – 227,236
Belarus – 76,200
Belçika – 36,37
Bərdə – 349
Biçənək – 226,227,234–239,347

Biləsuvar – 416
Boliviya – 175
Bolqarıstan – 294,384
Böyüküz (*Nax.MR-də kənd*) – 336,337
Brodi – 57,93,410
Buxarest – 102
Cəhri – 226
Cəlilabad – 349
Cəlilkənd –322
Cənub-Qərbi Asiya – 27
Cənubi Afrika Respublikası – 176
Cənubi Qafqaz – 50,58
Culfa – 259
Çexiya – 353
Çin – 26,27,385
Dağıstan – 110,404
Dağlıq Qarabağ – 9,10,13,16,17,18,19,44,62,79,80, 100,101,102,104,105,113,114,115, 116,117,118,120,121,179,180,182, 197,264,270,281,283,284,287,300, 307,308,310,330,349,361
Dəstə (*Nax.MR-də kənd*) – 263
Dəstə çayı – 263
Dnepropetrovsk – 77
Donetsk (*Ukraynada vilayət*) – 169
Dizə – 259
Əfqanıstan – 27,342
Əliabad – 261
Ərzurum – 315
Finlandiya – 119,284
Fransa – 15,17,18,59,101,180,284,430–434
Füzuli – 214
Gəncə – 202,214,215,232,336
Goranboy – 85
Gülüstan (İranda vilayət) – 344
Gürcüstan – 41-43,54,55,93,100,119,120,215, 295, 362,382

Həştərxan – 404,405
Hindistan – 26,107,156,338,339
Xacmaz – 358
Xəzər dənizi – 25,40,59,93,291,402,403,404,405
Xok (*Nax.MR-də kənd*) – 327
İğdır – 82
İmişli – 214
İndoneziya – 341
İran – 148–153,177–183,194,263,264, 265,344,404
İrkutsk – 78
İsveçrə – 154
İtaliya – 7–10,282
İstanbul – 206,212,253
Kəlbəcər – 74
Kələki – 297
Kərki – 334
Kəşmir – 107
Kislovodsk – 110
Kiyev – 48,65,80,408
Kolanı (*Nax.MR-də kənd*) – 226,227,228–234,347
Kolorado (*ABŞ-da ştat*) – 394
Kolumbiya – 35
Koreya XDR – 436
Koreya Respublikası – 340
Krım – 65,83
Qafqaz – 22,23,26,27,92,110
Qahirə – 145
Qara dəniz – 59,93,402,403,404,411
Qarabağlar (*Nax.MR-də kənd*) – 327
Qaraçuq (*Nax.MR-də kənd*) – 261
Qars – 212,282
Qazaxıstan – 292,293,379
Qırğızıstan – 293,366
Qətər – 398
Qdansk – 58
Qıvraq – 327

Quba – 158
Qusar – 39
Laçın – 105
Lənkəran – 96,214,299,300
Lissabon – 118,119
Liviya – 399
Lüksemburq Hersoqluğu – 11–21,104
Macarıstan – 32
Mahaçqala – 404
Makedoniya – 155,394
Malayziya – 368
Maldiv – 141
Maştağa – 74
Mehri – 19,104,105,113,194,214
Mərkəzi Asiya – 26,27
Məşhəd – 148
Misir – 140,142–146
Moldova – 45,54,91,93,100,369
Moskva – 70,76,101,125,132,191,200,244, 245, 246,273,279,336,382,432
Naxçıvan – 19,74,90,105,126,190,195–196, 197–222,232,240–255,291,301, 302,303,359,360,382,390
Naxçıvan MR – 19,103,148,181,190–337,346–350,359,373,405
Nardaran – 296
Nepal – 345
Nəcəfalı – 259
Nyu-York – 122
Odessa – 58,93,410
Oğuz – 416
Ordubad – 216,263
Orta Asiya – 105
Özbəkistan – 20,38,45,60,91,93,293,384,401
Pakistan – 27,107,343
Paris – 231,288
Portuqaliya – 102

Praqa – 294
Roma – 8,9
Rumıniya – 102,294
Rusiya – 14,17,18,26,40,58,63,70,71,73, 100,101,107,119,180,186–188, 192,200,254,283,284,291,292,316, 380,382,385,403,404
Sankt-Peterburq – 106,107,187,254
Sədərək – 181,190,216,312–325,330,347
Sinqapur – 155
Sirab (Nax.MR-də kənd) – 259
Slovakiya – 400
Sofiya – 384
Stepanakert – 116
Strasburq – 91,231
Sumqayıt – 416
Şahbuz – 223–239,262,347
Şahtaxtı – 329
Şamaxı – 232
Şərur – 251,32–327
Şimali Qafqaz – 110
Şuşa – 79,118
Tacikistan – 435
Tarsus – 357
Tatarıstan – 293
Tehran – 148,150,181,212
Təbriz – 212,216
Trabzon –212
Tümen – 78
Türkiyə – 20,105,147,161,162,171,172–174,286,287,295,302,303,314, 315,357,358–360,362,402–406
Türkmənistan – 34,125,293
Türkmənbaşı (*Türkmənistanda liman*) – 34
Ukrayna – 38–86,91,93,100,169,200,378, 404, 408–411
Ulyanovsk – 78

Vaşinqton – 76,280
Vayxır çayı – 191
Vyana – 119
Vyetnam – 189,397
Yalta – 38–86,91,100,102,108
Yaponiya – 24–28,407
Yeni Kərki – 333–337
Zaqatala – 350
Zaporejye – 74
Zəngəzur – 104
Zuğulba – 128

KİTABIN İÇİNDƏKİLƏR

TÜRKDİLLİ ÖLKƏLƏRİN MƏDƏNİYYƏT NAZİRLƏRİNİN DAİMİ ŞURASINA

16 iyul 2002-ci il 5

İTALİYA XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MARQARİTA BONİVERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

16 iyul 2002-ci il *7*

AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN SƏDRİ, LÜKSEMBURQUN BAŞ NAZİRİNİN MÜAVİNİ VƏ XARİCİ İŞLƏR NAZİRİ LİDİ POLFER BAŞDA OLMAQLA AVROPA ŞURASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

16 iyul 2002-ci il *11*

«QAFQAZDA SÜLH NAMİNƏ ƏMƏKDAŞLIQ» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSA

17 iyul 2002-ci il *22*

YAPONİYANIN XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİ SUQİURA SEYKENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

17 iyul 2002-ci il *24*

BEYNƏLXALQ VALYUTA FONDUNUN (BVF) İKİNCİ AVROPA DEPARTAMENTİNİN DİREKTORU CON ODLİNQ-SMİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

17 iyul 2002-ci il *29*

TÜRKMƏNİSTAN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAPARMURAD NİYAZOVA

18 iyul 2002-ci il *34*

KOLUMBİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ALVARO URİBEYƏ

19 iyul 2002-ci il *35*

BELÇİKA KRALLIĞININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ CƏNAB Gİ VERHOFSTADTA

19 iyul 2002-ci il *36*

BELÇİKANIN KRALI ƏLAHƏZRƏT II ALBERTƏ

19 iyul 2002-ci il *37*

GUÖAM TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT
BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN
UKRAYNANIN YALTA ŞƏHƏRİNƏ İŞGÜZAR SƏFƏRƏ YOLA
DÜŞMƏZDƏN ƏVVƏL BAKININ BİNƏ HAVA LİMANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏ
RİNƏ VERDİYİ MÜSAHİBƏ

19 iyul 2002-ci il *38*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN YALTAYA
İŞGÜZAR SƏFƏRİ

19 iyul 2002-ci il *42*

GUÖAM-ın ÜZVÜ OLAN ÖLKƏLƏRİN
DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNÜN
AÇILIŞ MƏRASİMİ

20 iyul 2002-ci il *45*

GUÖAM-ın ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ
ZİRVƏ GÖRÜŞÜNÜN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

20 iyul 2002-ci il *47*

YALTA ZİRVƏ GÖRÜŞÜNÜN YEKUN SƏNƏDLƏRİNİN
İMZALANMASI MƏRASİMİNDƏN SONRA GUÖAM-ın ÜZVÜ OLAN
ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ MƏTBUAT
KONFRANSI

20 iyul 2002-ci il *56*

ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVROPA VƏ ASİYA ÖLKƏLƏRİ ÜZRƏ ƏLAQƏLƏNDİRİCİSİ UİLYAM TEYLOR İLƏ GÖRÜŞ

20 iyul 2002-ci il *62*

UKRAYNADA YAŞAYAN SOYDAŞLARIMIZLA GÖRÜŞ

20 iyul 2002-ci il *64*

UKRAYNANIN YALTA ŞƏHƏRİNƏ İŞGÜZAR SƏFƏRDƏN BAKIYA QAYIDARKƏN BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ

20 iyul 2002-ci il *84*

AZƏRBAYCAN RESPUBLİKASININ MƏTBUAT İŞÇİLƏRİNƏ

20 iyul 2002-ci il *87*

MİLLİ MƏTBUAT GÜNÜ MÜNASİBƏTİLƏ BAKI MƏTBUAT KLUBUNUN TƏSİSÇİLƏRİ İLƏ GÖRÜŞ

22 iyul 2002-ci il *89*

MİLLİ MƏTBUAT GÜNÜNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ

22 iyul 2002-ci il *134*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD HÜSNİ MÜBARƏKƏ

22 iyul 2002-ci il *140*

MALDİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMUN ƏBDÜL QƏYYUMA

22 iyul 2002-ci il *141*

MİSİR ƏRƏB RESPUBLİKASININ MİLLİ BAYRAMI – İNQİLAB GÜNÜ MÜNASİBƏTİLƏ BU ÖLKƏNİN BAKIDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

23 iyul 2002-ci il *142*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

25 iyul 2002-ci il..... *147*

İRAN İSLAM RESPUBLİKASININ TƏHLÜKƏSİZLİK NAZİRİ
ƏLİ YUNİSİ BAŞDA OLMAQLA, BU ÖLKƏNİN NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

25 iyul 2002-ci il..... *148*

SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB S.R.NATANA

25 iyul 2002-ci il..... *153*

İSVEÇRƏ KONFEDERASIYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB KASPAR VİLLİGERƏ

25 iyul 2002-ci il..... *154*

MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB BORİS TRAYKOVSKİYƏ

25 iyul 2002-ci il..... *155*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB AVUL PAKİR CAYNULABDİN ƏBDÜL KALAMA

26 iyul 2002-ci il..... *156*

AZƏRBAYCAN ALİ HƏRBİ MƏKTƏBİ MƏZUNLARININ İKİNCİ
VƏ AZƏRBAYCAN ALİ HƏRBİ TƏYYARƏÇİLİK MƏKTƏBİ
MƏZUNLARININ BİRİNCİ BURAXILIŞINA HƏSR OLUNMUŞ
MƏRASİMDƏ NİTQ

27 iyul 2002-ci il *157*

UKRAYNA PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB LEONİD KUÇMAYA

1 avqust 2002-ci il..... *169*

AZƏRBAYCAN KİNOSU GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ ÇIXIŞ

2 avqust 2002-ci il..... 170

TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAHININ RƏİSİ, ORDU GENERALI CƏNAB HİLMİ ÖZKÖKƏ

5 avqust 2002-ci il..... 171

TÜRKİYƏNİN «AKSOY HOLDİNQ» SƏHMDAR ŞİRKƏTİ İDARƏ HEYƏTİNİN SƏDRİ, İSTANBULDAKI «KONQAD» OTELİNİN SAHİBİ ƏRDAL AKSOY İLƏ GÖRÜŞ

5 avqust 2002-ci il..... 172

BOLİVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QONSALO SANÇES DE LOSADAYA

6 avqust 2002-ci il 175

CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TABO MBEKİYƏ

6 avqust 2002-ci il..... 176

İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİNİN ASİYA, OKEANİYA VƏ MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ ÖLKƏLƏRİ ÜZRƏ MÜAVİNİ MÖHSÜN ƏMİNZADƏNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

6 avqust 2002-ci il..... 177

XALQ RƏSSAMI TOKAY MƏMMƏDOVA

7 avqust 2002-ci il..... 184

RUSİYA PREZİDENTİNİN İCRA APARATI RƏHBƏRİNİN MÜAVİNİ CAHAN POLLİYEVADAN, MƏDƏNİYYƏT NAZİRİ MİXAİL ŞVİDKOYDAN VƏ BAŞQA ŞƏXSLƏRDƏN İBARƏT RUSİYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

9 avqust 2002-ci il..... 186

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇAN DIK LIONQA

9 avqust 2002-ci il *189*

NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ

10 avqust 2002-ci il..... *190*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NAXÇIVANA SƏFƏRİ

10 avqust 2002-ci il..... *195*

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNDƏ KEÇİRİLƏN MÜŞAVİRƏDƏ NİTQ

11 avqust 2002-ci il..... *197*

ŞAHBUZ RAYON SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

11 avqust 2002-ci il..... *223*

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ NAXÇIVAN BÖLMƏSİNİN YARADILMASINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

12 avqust 2002-ci il..... *240*

YEKUN NİTQİ

12 avqust 2002-ci il..... *248*

VAYXIR SU ANBARI İLƏ TANIŞLIQ

12 avqust 2002-ci il..... *256*

VAYXIR SU ANBARININ TİKİNTİSİNƏ HƏSR OLUNMUŞ MUŞAVİRƏDƏ NİTQ

13 avqust 2002-ci il..... *267*

YEKUN NİTQİ

13 avqust 2002-ci il..... 269

RESPUBLİKANIN VƏ XARİCİ ÖLKƏLƏRİN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ ÜÇÜN KEÇİRDİYİ MƏTBUAT KONFRANSI

13 avqust 2002-ci il..... *279*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV İLƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KÖÇƏRYANIN TƏKBƏTƏK GÖRÜŞÜ

14 avqust 2002-ci il..... *307*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV SƏDƏRƏK, ŞƏRUR VƏ BABƏK RAYONLARINDA

14 avqust 2002-ci il..... *312*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB AVUL PAKİR CAYNULABDİN ƏBDÜL KALAMA

14 avqust 2002-ci il..... *338*

HİNDİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ATAL BİHARİ VACPAİYƏ

14 avqust 2002-ci il..... 339

KOREYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KİM DE ÇJUNA

14 avqust 2002-ci il 340

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM MEQAVATİ SUKARNOPUTRİYƏ

14 avqust 2002-ci il..... *341*

ƏFQANISTANIN DÖVLƏT BAŞÇISI ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ

14 avqust 2002-ci il..... *342*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ

14 avqust 2002-ci il..... *343*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB SEYİD MƏHƏMMƏD XATƏMİYƏ

14 avqust 2002-ci il..... *344*

NEPAL KRALI ƏLAHƏZRƏT QYANENDRA
BİR BİKRAM ŞAH DEVƏ

14 avqust 2002-ci il..... *345*

NAXÇIVANDAN BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA
JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏ

15 avqust 2002-ci il..... *346*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB YOHANNES RAUYA

16 avqust 2002-ci il..... *351*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ KANSLERİ
ZATİ-ALİLƏRİ CƏNAB GERHARD ŞRÖDERƏ

16 avqust 2002-ci il..... *352*

ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB VATSLAV HAVELƏ

16 avqust 2002-ci il..... *353*

AZƏRBAYCANIN XALQ ARTİSTİ MÜSLÜM MAQOMAYEVƏ

17 avqust 2002-ci il..... *354*

XALQ ARTİSTİ İLHAMƏ QULİYEVAYA

19 avqust 2002-ci il..... *356*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

19 avqust 2002-ci il *357*

TÜRKİYƏNİN DÖVLƏT NAZİRİ RƏŞAD DOĞRUNUN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

19 avqust 2002-ci il *358*

AMERİKA BİRLƏŞMİŞ STATLARININ ÖLKƏMİZDƏKİ SƏFİRİ
ROSS UİLSON İLƏ GÖRÜŞ

20 avqust 2002-ci il *361*

QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ƏSGƏR AKAYEVƏ

20 avqust 2002-ci il *366*

MALAYZİYANIN DÖVLƏT BAŞÇISI ƏLAHƏZRƏT TUANKU
SAYED SİRACUDDİN SAYED PUTRA CAMALULLAİLƏ

20 avqust 2002-ci il *367*

MALAYZİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ
CƏNAB MAHATHİR MƏHƏMMƏDƏ

20 avqust 2002-ci il *368*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR VORONİNƏ

20 avqust 2002-ci il *369*

PAYTAXT SAKİNLƏRİ QARŞISINDA NİTQ

21 avqust 2002-ci il *370*

UKRAYNA PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB LEONİD KUÇMAYA

21 avqust 2002-ci il *378*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ

21 avqust 2002-ci il..... *379*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

21 avqust 2002-ci il..... *380*

TÜRKİYƏNİN MƏRMƏRƏ QRUPU STRATEJİ VƏ SOSİAL
ARAŞDIRMALAR VƏQFİNİN SƏDRİ AKKAN SUVƏRİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

23 avqust 2002-ci il..... *381*

AZƏRBAYCAN RESPUBLİKASININ 1995-ci İLDƏ QƏBUL EDİLMİŞ
KONSTİTUSİYASININ TƏKLİF OLUNAN DƏYİŞİKLİKLƏRLƏ
ƏLAQƏDAR YERLİ VƏ XARİCİ JURNALİSTLƏRİN
SUALLARINA VERDİYİ CAVAB

24 avqust 2002-ci il..... *389*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ BAKIDAKI
SƏFİRİ KLAUS QREVLİX İLƏ GÖRÜŞDƏ SÖHBƏT

27 avqust 2002-ci il..... *393*

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ÇAN DİK LİONQA

27 avqust 2002-ci il..... *397*

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN
XƏLİFƏ ƏL-TANİYƏ

27 avqust 2002-ci il..... *398*

LİVİYA İNQİLABININ RƏHBƏRİ, LİVİYA ƏRƏB SOSİALİST
XALQ CƏMAHİRİYYƏSİNİN BAŞÇISI ZATİ-ALİLƏRİ
CƏNAB MÜƏMMƏR QƏDDAFİYƏ

27 avqust 2002-ci il..... *399*

SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB RUDOLF ŞUSTERƏ

27 avqust 2002-ci il *400*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA

27 avqust 2002-ci il *401*

TÜRKİYƏNİN DƏNİZÇİLİK MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ
RAMAZAN MİRZƏOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

28 avqust 2002-ci il *402*

YAPONİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ
CƏNAB DZÜNİTİRO KOİDZUMİYƏ

29 avqust 2002-ci il *407*

UKRAYNA BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ OLEQ DUBİNA
BAŞDA OLMAQLA BU ÖLKƏNİN NÜMAYƏNDƏ HEYƏTI İLƏ
GÖRÜŞ

29 avqust 2002-ci il *408*

ÖLKƏMİZDƏ 2002/2003-cü TƏDRİS İLİNDƏ ALİ MƏKTƏBLƏRƏ
ƏN YÜKSƏK BALLA DAXİL OLMUŞ TƏLƏBƏLƏRLƏ GÖRÜŞDƏ
NİTQ

30 avqust 2002-ci il *412*

MÜASİR DÖVRÜN GÖRKƏMLİ SƏNƏTKARI
QALİNA PAVLOVNA VİŞNEVSKAYAYA

31 avqust 2002-ci il *420*

BAKININ SURAXANI RAYONUNDAKI 275 NÖMRƏLİ MƏKTƏBDƏ
BİLİK GÜNÜNƏ VƏ YENİ DƏRS İLİNİN BAŞLANMASINA HƏSR
OLUNMUŞ MƏRASİMDƏ NİTQ

2 sentyabr 2002-ci il *421*

FRANSA BEYNƏLXALQ ƏLAQƏLƏR İNSTİTUTUNUN
DİREKTORU TYERİ DÖ MONBRİAL İLƏ GÖRÜŞDƏ SÖHBƏT

4 sentyabr 2002-ci il *430*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB İMAMƏLİ RƏHMONOVA

5 sentyabr2002-ci il *435*

KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI MÜDAFİƏ
KOMİTƏSİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB KİM ÇEN İRƏ

5 sentyabr2002-ci il *436*

QEYDLƏR *437*

Şəxsi adlar göstəricisi *487*

Coğrafi adlar göstəricisi *494*

Kitabı çapa hazırlayan ***Tofiq Babayev***

Rəssamı ***Fuad Fərəcov***
Texniki redaktoru ***Zoya Nəcəfova***
Yığım üzrə operator ***İlhamə Kərimova***
Kompüter tərtibatı ***Məhəbbət Orucov***

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 60x90 1/16. Ofset kağızı 1. Şərti çap vərəqi 32,0. Uçot vərəqi 32,5. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61. dalan 2, ев 3.
«Qismət» Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.